

AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI FONDU

# ÜZEYİR HACIBƏYOV ENSİKLOPEDİYASI

"ŞƏRQ-QƏRB"
BAKI
2007

AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI FONDU

# ÜZEYİR HACIBƏYOV ENSİKLOPEDİYASI


REDAKSİYA HEYƏTİ:

**ABASOVA ELMİRA**
**ABDULLAZADƏ FATMA**
**ADIGÖZƏLOV VASİF**
**ANAR**
**ASLANOV MİRABBAS**
**BAĞIROV AZƏR**
**ELÇİN**
**ƏLƏSGƏROV SÜLEYMAN**
**ƏLİYEVA MEHRİBAN**
**ƏLİYEV NAHAD**
**XƏLİLOV İMRAN**
**XƏLİLOV RAMAZAN**
**İBRAHİMOV NAZİM (sədr)**
**QULİYEV TOFİQ**
**RZAYEV AZƏR**
**SEYİDOVA ZİBA**
**VAHABZADƏ BƏXTİYAR**

MÜƏLLİFLƏR:

**ABASOVA ELMİRA**
**ABDULLAYEV NAMİQ**
**ABDULLAZADƏ FATMA**
**AĞABABAYEVA SEVDA**
**AĞAYEV ƏJDƏR**
**ANAR**
**ASLAN KƏNAN**
**ASLANOV MİRABBAS**
**BABAYEV ELXAN**
**BAĞIROV AZƏR**
**BAYRAMOV ADİLXAN**
**ÇƏMƏNLİ MUSTAFA**
**DADAŞOVA TƏRANƏ**
**DADAŞZADƏ ZÜMRÜD**
**ELÇİN**
**ƏFƏNDİYEVA İMRUZ**
**ƏHMƏDOV HÜSEYN**
**ƏLİYEV NAHAD**
**ƏLİYEV İLQAR**
**ƏLİYEVA FƏRƏH**
**ƏLİYEVA MEHRİBAN**
**FAZİL ŞAHİN**
**FAZİLİ ABDULLA**
**FƏRƏCOV SƏRDAR**
**HACIYEV TOFİQ**
**HƏMİDOV İMAMVERDİ**
**HÜSEYNOV RAFAEL**
**HÜSEYNOVA LALƏ**
**HÜSEYNZADƏ AYDIN**
**XƏLİLOV İMRAN**
**XƏLİLOV RAMAZAN**
**İBRAHİMOV NAZİM**
**İBRAHİMOV SƏFƏR**
**İSAZADƏ ƏHMƏD**
**İSMAYILOVA GÜLNARƏ**
**QAFAROVA ZEMFİRA**
**QARABAĞLI SƏADƏT**
**QARAYEV YAŞAR**
**QARAYEVA BİLQEYİS**
**QASIMOVA SOLMAZ**
**QASIMZADƏ İNTİQAM**
**QƏHRƏMANOV CAHANGİR**
**QULİYEV VASİF**
**QULİYEV VİLAYƏT**
**MİRƏHMƏDOV ƏZİZ**
**NƏBİYEV BƏKİR**
**NƏCƏFOV MÜRSƏL**
**NURUOĞLU MƏMMƏD**
**PAŞAYEV ATAXAN**
**RZAYEV AZƏR**
**SADIQ HAFİZ**
**SALMANOV ŞAMİL**
**SEYİDOVA ZİBA**
**SEYİDZADƏ DİLARƏ**
**SƏFƏROVA ZEMFİRA**
**SƏFİYEV ARİF**
**TEYMUROV MAARİF**
**YAQUBLU NƏSİMAN**
**ZÖHRABOV RAMİZ**

**ISBN 978-9952-34-075-4**

**700.92'2-dc22**
1. Bəstəkarlar – Tərcümeyi-hal. 2. Musiqiçilər – Tərcümeyi-hal. 3. Yazıçılar – Tərcümeyi-hal. 4. Aktyorlar – Tərcümeyi-hal.

**Üzeyir Hacıbəyov ensiklopediyası**
Bakı, "Şərq-Qərb", 2007, 264 səh. + 16 səh. (illüstrasiya).

© "Şərq-Qərb", 2007

## QƏBUL EDİLMİŞ ƏSAS İXTİSARLAR

ad. – adına
Azərb. – Azərbaycan
azərb. – azərbaycanlı
ADR – Azərbaycan Demokratik Respublikası
ADK – Azərbaycan Dövlət Konservatoriyası
ADT – Azərbaycan Milli Dram Teatrı
ADU – Azərbaycan Dövlət Universiteti
AOBT – Azərbaycan Dövlət Opera və Balet Teatrı
akad. – akademik
qəs. – qəsəbə(si)
qub. – quberniya(sı)
e.d. – elmlər doktoru
e.n. – elmlər namizədi
EA – Elmlər Akademiyası
əməkdar art. – əməkdar artist(i)
əməkdar inc. xad. – əməkdar incəsənət xadimi
in-t – institut
k. – kənd(i)
m. üzvü – müxbir üzvü
ork. – orkestr
prof. – professor
rej. – rejissor
resp. – respublika
simf. – simfonik
unt. – universitet
fp. – fortepiano
xalq art. – xalq artisti
xalq rəs. – xalq rəssamı
ş. – şəhər(i)
ştq – şəhər tipli qəsəbə(si)

*Ensiklopediyada məqalələr əlifba sırası ilə düzülmüşdür. Ümumi qəbul olunmuş ixtisarlardan əlavə, bu nəşr üçün işlənilmiş ixtisarlar da tətbiq edilmişdir.*

*Məqalənin adını təşkil edən söz, mətndə yalnız baş hərflə göstərilir.*

## OXUCUYA

*Üzeyir Hacıbəyov ensiklopediyası üzərində işə əməli olaraq 1985 ildə – bəstəkarın anadan olmasının 100 illik yubileyindən sonra başlansa da, bu ideya məndə hələ 1975 ildə, o dövrdə respublikamıza rəhbərlik edən Heydər Əliyevin təşəbbüsü və fəal iştirakı ilə Bakıda Üzeyir Hacıbəyovun xatirə ev-muzeyinin açıldığı vaxtlarda yaranmışdı. Bu məqsədlə təşkil olunmuş işgüzar qrup fasilələrlə də olsa, ensiklopediyanın yaradılması üzrə iş aparırdı.*

*Üzeyir bəyin 90, 100 və 110 illik yubileylərinin keçirilməsinin bilavasitə təşkilatçısı möhtərəm Prezidentimiz Heydər Əliyev dahi bəstəkarın 110 illik yubileyindəki parlaq çıxışında onun yaradıcılığını, xalqımız qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək demişdir: "Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur".*

*1993 ildən başlayaraq yaradıcı qrup Azərbaycan mədəniyyəti üçün müstəsna əhəmiyyətli bu işi inam və qətiyyətlə davam etdirdi. Bu gün şərəfli olduğu qədər də çətin və gərgin əməyin bəhrəsi olan ensiklopediya Ü.Hacıbəyov dühasının, musiqi və teatr sənətimizin, ədəbiyyatımızın – bir sözlə milli mədəniyyətimizin çoxsaylı pərəstişkarlarının mühakiməsinə təqdim edilir. Üzeyir Hacıbəyov ensiklopediyası Azərbaycanda ilk şəxsiyyət ensiklopediyasıdır. Məlumdur ki, xarici ölkələrdə şəxsiyyət ensiklopediyalarının nəşri geniş yayılmışdır. A.Danteyə, V.Şekspirə, İ.V.Geteyə, İ.F.Şillerə, L.Van Bethovenə, Ç.Dikkensə, T.Şevçenkoya və b. həsr edilmiş ensiklopediyalar buraxılmışdır. Şəxsiyyət ensiklopediyalarının nəşri çox mürəkkəb və çətin bir işdir. Təkcə onu xatırlatmaq kifayətdir ki, həyat və yaradıcılığının öyrənilməsinə çoxsaylı monoqrafiyalar həsr olunmuş, qısa ömrünün az qala hər anı, əsərləri bütün incəliklərinə, təfərrüatına qədər açılmış M.Y.Lermontov haqqında ensiklopediyanın nəşrə hazırlanmasına 20 ilə yaxın vaxt sərf edilmişdir. Bizdə də ensiklopediyanın nəşrinə hazırlıq birdən-birə, həm də təkcə yuxarıda bəhs etdiyimiz illərdə başlanmamışdır. Uzun illər boyu sənətşünas-musiqişünas alimlər, ədəbiyyatşünaslar, fəlsəfəşünaslar bu dahi bəstəkar, musiqişünas, publisist, dramaturq, mütəfəkkir və ictimai-siyasi xadimin həyat və yaradıcılığını hərtərəfli tədqiq edib öyrənmişlər. Bu işdə müxtəlif nəsillərə mənsub alimlərin – Qubad Qasımov, Qulam Məmmədli, Mirzə İbrahimov, V.S.Vinoqradov, Xurşud Ağayeva, Firudin Köçərli, Mirabbas Aslanov, Cahid Quliyev, V.Koryev, Elmira Abasova, Zemfira Səfərova və b.-larının böyük xidmətləri olmuşdur.*

*Yarım əsrə yaxın bundan əvvəl aramızdan getmiş Üzeyir Hacıbəyov müasirlərindən uzaqlaşdıqca, adı Azərbaycan xalqının mədəni inkişafının qızıl əsri olan XX əsrin tarixi, mədəniyyəti, incəsənəti, ədəbiyyatı, publisistikası, maarifi ilə qırılmaz tellərlə bağlı olan bu dahi şəxsiyyət haqqında çoxşaxəli bilgiləri ümumiləşdirib, təsnif etmək, ensiklopedik sistemə salaraq küll halında – soraq kitabı şəklində gələcək nəsillərə çatdırmaq tarixi bir zərurət kimi qarşıya çıxmışdır. Azərbaycan mədəniyyətinin misilsiz vüsət, dünya şöhrəti qazanmasında çox mühüm rol oynamış bu dahi şəxsiyyətin İnsan və Sənətkar taleyinin bilavasitə bağlı olduğu uğurlu-uğursuz, keşməkeşli, ictimai-siyasi sarsıntılar və şəxsi faciələrlə dolu tariximizin mənzərəsini təcəssüm etdirən Üzeyir Hacıbəyov ensiklopediyasında bəstəkarın həyat və yaradıcılığının bütün dövrləri və mərhələləri əhatə olunmuşdur. Oxucular burada Ü.Hacıbəyovun ailəsi, qohumları, uşaqlıq illəri, dostları, həmkarları, silahdaşları, musiqi, teatr və ədəbi mühiti, tələbələri, sələfləri, onunla yaradıcılıq ünsiy-*

*yətində olmuş alim və yazıçılar, incəsənət və mədəniyyət xadimləri, əsərlərinin teatr və kino təcəssümündə, ifasında xidməti olan rejissorlar, dirijorlar, aktyorlar, müğənnilər, musiqiçilər, rəssamlar, bəstəkarın elmi yaradıcılıq dünyası, coşqun ictimai-siyasi fəaliyyəti, hər bir əsəri haqqında məlumat verən məqalələrlə tanış olacaqlar.*

*Üzeyir Hacıbəyov ensiklopediyasındakı materialların böyük əksəriyyəti onun yaradıcılıq yoluna həsr olunmuşdur. Azərbaycanın görkəmli yazıçısı Anarın ensiklopediyaya yazdığı ön sözdə Ü.Hacıbəyovun çoxşaxəli, geniş miqyaslı yaradıcılığı bütün vüsəti ilə açıqlanır, əsərləri, yaratdığı obrazlar ətraflı təhlil edilir, bəstəkarın ömür və sənət yolu işıqlandırılır.*

*Ü.Hacıbəyovun ömür salnaməsindən bəhs edən məqalələrdə oxucular onun həyat və fəaliyyətinin bütün əsas hadisələri – Qori seminariyasında oxuması, Moskvada və Peterburqda musiqi təhsili alması, bəstəkarlıq, pedaqoji, elmi təşkilatçılıq və ictimai fəaliyyəti və s. haqqında məlumat alacaqlar. Ensiklopediyada Ü.Hacıbəyovun publisist və jurnalist fəaliyyəti ayrıca yer tutur. Burada onun müxtəlif dövri mətbuat orqanlarında – qəzet, jurnal və toplularda dərc olunan aktual ədəbi-tənqidi, musiqi, elmi, ictimai-siyasi, pedaqoji-tərbiyəvi və s. mövzularda publisistik yazı, felyeton və məqalələri haqqında məlumat verilir.*

*"Üzeyir Hacıbəyov ensiklopediyası"nda bəstəkarın xarici ölkə xadimləri ilə yaradıcılıq əlaqələrinin, dövrünün görkəmli elm, ədəbiyyat və incəsənət xadimləri – A.K.Qlazunov, R.M.Qliyer, M.M.İppolitov-İvanov, S.S.Prokofyev, D.D.Şostakoviç, T.N.Xrennikov, Rəşad Nuri Güntəkin, Səid Nəfisi, D.İ.Arakişvili, V.İ.Dolidze, Z.P.Paliaşvili və b. ilə dostluğunun, yaradıcılıq ünsiyyətinin əks olunmasına xüsusi diqqət yetirilmişdir.*

*Ensiklopediyada bütün məqalələrdəki məlumatlar və faktlar, istisnasız olaraq, bilavasitə Ü.Hacıbəyovla, onun həyat və yaradıcılığı ilə bağlı şəkildə verilir, ümumi xarakterli məlumatlar, bir qayda olaraq, sərf-nəzər edilir. Ensiklopediya Ü.Hacıbəyovun həyat və yaradıcılığı ilə bilavasitə bağlı zəngin illüstrasiya materialları ilə təchiz edilmişdir.*

*Qrupumuz ensiklopediyanın sözlüyünü tərtib edərkən və strukturunu hazırlayarkən geniş oxucu marağını nəzərə almağa çalışmış, bu məqsədlə ən müxtəlif sahə mütəxəssislərini – musiqişünas, teatrşünas, ədəbiyyatşünas, yazıçı və jurnalistləri, başlıcası isə Ü.Hacıbəyovu daim anan, sevən, öyrənən adamları işə cəlb etmişdir. "Üzeyir Hacıbəyov ensiklopediyası"nın nəşrə hazırlanmasında əsas işçi qrupu – Nahad Əliyev, Mirabbas Aslanov, Azər Bağırov, Ziba Seyidova, İmran Xəlilov ilə yanaşı, müxtəlif mərhələlərdə – sözlüyün tərtibində və çoxsaylı müzakirələrində, məqalələrin yazılmasında, redaktəsində və onlara rəy verilməsində görkəmli bəstəkarlarımız, xalq artistləri Tofiq Quliyev, Azər Rzayev, Vasif Adıgözəlov, yazıçı, publisist və tənqidçilərimiz Anar, Elçin, Üzeyir bəyin xatirə ev muzeyinin direktoru Ramazan Xəlilov, böyük bəstəkarın həyat və yaradıcılığının nüfuzlu tədqiqatçıları Elmira Abasova, Zemfira Səfərova və b. yaxından iştirak etmişlər.*

*Şübhəsiz ki, alimlərimiz, musiqişünaslarımız zəmanəmizin böyük bəstəkarı Ü.Hacıbəyovun yaradıcılığını hələ uzun illər boyu araşdıracaq, öyrənəcək, haqqında müxtəlif fikirlər söyləyəcək, həmişəyaşar sənətinin yeni-yeni çalarlarını, məziyyətlərini açacaq, nəşr edəcəklər. Ona görə də yaradıcı kollektiv ensiklopediyanı çapa hazırlayarkən qarşısına Ü.Hacıbəyov haqqında tam, bitkin biliklər toplusu ərsəyə gətirmək, son söz demək məqsədi qoymamış, ələlxüsus, burada verilmiş məqalələrin səhvlərdən xali olması, dolğunluğu iddiasında deyil.*

***NAZİM İBRAHİMOV***

## DAHİ BƏSTƏKARIMIZ

Üzeyir dünyası... Bu dünyanı, əlbəttə, Üzeyir Hacıbəyov özü yaradıb – zəngin tərcümeyi-halıyla, müxtəlif və mürəkkəb dövrlərdən keçən ömür yoluyla, parlaq şəxsiyyətiylə, çoxcəhətli fəaliyyəti ilə və şübhəsiz, ilk növbədə ölümsüz yaradıcılığı ilə. Bu son dərəcə geniş, əlvan, böyük miqyaslı dünyanı – hadisələri, tarixləri, faktları, Üzeyir bəyin ömrünə, musiqi, ədəbi, publisist əsərlərinə aid hər məlumatı, böyük sənətkarla bağlı adları – sistemləşdirmək, təsnif edib bir soraq kitabında toplamaq – qarşınızdakı ensiklopediyanın əsas məqsədidir. Bu ensiklopediya Azərbaycanda yaranan ilk ensiklopediyadır ki, ümumi, ya sahə xarakteri daşımır, tək bir fərdə həsr olunur. Bu da təbiidir, çünki məhz Üzeyir Hacıbəyov kimi dahi bir şəxsiyyət şəxsi ensiklopediyaya layiq ola bilər. Belə bir ensiklopediyanın vacibliyinin və əhəmiyyətinin səbəbi də Üzeyir Hacıbəyovun bəstəkar, alim, yazıçı, publisist, ictimai və siyasi xadim kimi çoxyönlü fəaliyyəti, Şərqin ilk operası – "Leyli və Məcnun"un, dünya şöhrətli "Arşın mal alan"ın və "Məşədi İbad"ın, bütün bir xalqın qeyrət, qəhrəmanlıq və cəngavərlik himni kimi səslənən "Koroğlu" operasının, "Sənsiz" və "Sevgili canan" müəllifinin klassik yaradıcılığıdır. Bu kitab dediyim kimi, sahə ensiklopediyası olmasa da, ictimai həyatımızın və sənətimizin böyük sahələrini əhatə edir, çünki istər XX əsr musiqimizin, istər XX əsr teatrımızın tarixi, əsrin birinci yarısında siyasi və ictimai həyatımızın mürəkkəb və ziddiyyətli yolu Üzeyir Hacıbəyovun adıyla sıx surətdə bağlıdır. Üzeyir bəydən danışmaq onun təmasda olduğu, yaşca ondan böyük müasirləri Xurşidbanu Natəvanı, Mir Möhsün Nəvvabı, Cabbar Qaryağdı oğlunu, Həsən bəy Zərdabini yada salmaqdır. Üzeyir bəyin ictimai və siyasi fəaliyyətindən danışarkən müxtəlif mərhələlərdə onunla bir arada yaşayıb-yaradan böyük şəxsiyyətləri xatırlamamaq qeyri-mümkündür – Cəlil Məmmədquluzadəni və Sabiri, Əlibəy Hüseynzadəni və Əhməd bəy Ağaoğlunu, Nəriman Nərimanovu və Məmməd Əmin Rəsulzadəni, Əbdürrəhim bəy Haqverdiyevi və Yusif Vəzir Çəmənzəminlini, Hüseyn Cavidi və Əhməd Cavadı, Məmməd Səid Ordubadini və Əzim Əzimzadəni, Hüseyn Ərəblinskini və Cəfər Cabbarlını, Səməd Vurğunu, Mirzə İbrahimovu, İsmayıl Hidayətzadəni...

Üzeyir Hacıbəyovun səhnə əsərləri neçə-neçə müqtədir teatr ustadının yetişdiyi məktəbdir. Hüseynqulu Sarabskinin Məcnunu və Bülbülün Koroğlusu, Rəşid Behbudovun Əsgəri və Mirzəağa Əliyevin Məşədi İbadı, Rübabə Muradovanın Leylisi və Fidan Qasımovanın Gülçöhrəsi, Zeynəb Xanlarovanın Əslisi və Ağababa Bünyadzadənin Həsən xanı, Möhsün Sənaninin Qoçu Əsgəri, Ağasadıq Gəraybəylinin Rüstəm bəyi... Əhməd Ağdamskinin, Hüseynağa Hacıbababəyovun, Həqiqət Rzayevanın, Mustafa Mərdanovun, İsmayıl Osmanlının, İsmayıl Əfəndiyevin, Lütfəli Abdullayevin, Münəvvər Kələntərlinin, Firəngiz Əhmədovanın, Lütfiyar İmanovun, Xuraman Qasımovanın, neçə-neçə başqa artistin, xanəndənin,

dirijorun, rejissorun Üzeyir bəyin əsərlərində parlayan istedadı... Üzeyir bəyin dostu, məsləkdaşı, bacanağı Müslüm Maqomayev... Üzeyir yolunun layiqli davamçıları – Qara Qarayev və Fikrət Əmirov, Niyazi və Asəf Zeynallı, Əfrasiyab Bədəlbəyli və Səid Rüstəmov, Sultan Hacıbəyov və Cahangir Cahangirov, Cövdət Hacıyev və Tofiq Quliyev... Üzeyir bəyin böyük qardaşı bəstəkar Zülfüqar Hacıbəyov, yaradıcılığının ilk dövründə Üzeyir bəyin ən yaxın yardımçısı olmuş, sonralar qürbətdə qalan kiçik qardaşı Ceyhun bəy ki, Üzeyir bəy bu qardaş ayrılığının xiffətini və nisgilini ömrü boyu çəkib... Üzeyir bəyin vəfalı həyat yoldaşı Məleykə xanım... Ü.Hacıbəyov yaradıcılığının, irsinin araşdırıcıları... Türkiyənin, İranın, Rusiyanın, Qafqazın, Türküstanın Üzeyir bəylə bu, ya digər şəkildə yaradıcılıq təmaslarında, müxtəlif münasibətlərdə olmuş, sənət, elm, siyasət adamları, musiqi, teatr və kino xadimləri Rəşad Nuri Güntəkin və Səid Nəfisi, Qlazunov, Qlier və Şostakoviç, Stalin və M.C.Bağırov... Bütün bu adlar, Üzeyir bəylə bağlı hər hansı fakt, məlumat, tarix – qarşınızdakı ensiklopediyada toplanıb. Bütün bunlardır – Üzeyir dünyası. Amma şübhə yoxdur ki, bu dünyanın mərkəzi, təməli, bu dünyanı işıqlandıran günəş Üzeyir bəyin özüdür.

1885-ci il sentyabrın 18-də (köhnə təqvimlə 5-də) Ağcabədidə dünyaya gəlmiş Üzeyir bəyin uşaqlığı qədim Qarabağımızın tacı olan Şuşada keçib. Üzeyir dühasının qaynaqları da qarlı zirvələrin, dibi görünməz uçurumların, dərin dərələrin dövrələdiyi, sərin səhər nəsimlərini oxşayıb tumarladığı, bulaqları bal dadan Şuşadır – gözəl Şuşamız, yaralı Şuşamız. Tarix boyu bəlalı başına gələn bütün keşməkeşlər içində Şuşa həmişə öz yüksək mənəvi dəyərlərini qoruyub saxlayıb, şeir və musiqi məclislərindən heç vaxt yadırğamayıb.

Bülbül səsli xanəndələri, ustad çalğıçıları məşhur olan Şuşanı Qafqazın konservatoriyası adlandırıblar. "Qafqazın konservatoriyası" balaca Üzeyir üçün də ilk musiqi məktəbi olub. Təbiət Üzeyir bəydən heç nə əsirgəməyib – misilsiz istedad, nadir musiqi qabiliyyəti, ritm hissi, saysız-sonsuz melodiyalar yaratmaq bacarığı, iti zəka, güclü yumor hissi, möhkəm iradə, erkən yaşlarından aşkar olmuş məqsədyönlülük. Bütün bu fitri Allah vergiləri gecə-gündüz bilməyən əməksevərliklə, daima kamilləşmək ehtirasıyla, həyat şövqü və yaradıcılıq həvəsiylə cilalanıb Üzeyir Hacıbəyov dühasını yetişdirmişdir.

Bəzən təəccüblənirlər: bitkin musiqi təhsili görməmiş Üzeyir Hacıbəyov iyirmi iki yaşında "Leyli və Məcnun" kimi operanı, muğam operasını necə yaradıb? Ağzımızda muğam operası deyiriksə, daha nəyə təəccüblənirik? Muğamın konservatoriyası Şuşadır. Hər buz bulağın başında, hər dilbər təbiət guşəsində yığışan musiqi məclisləri bu konservatoriyanın sinifləridir. Hər xanəndə, hər tarzən, kamançaçı bu konservatoriyanın professoru olmasa da, müəllimidir. Amma professorları da var; bütün Qafqazda, bütün Şərqdə ad çıxarmış muğam ustaları – müğənnilər, sazəndələr. Hər ifa mükəmməl muğam dərsidir. Bax həmin bu muğam konservatoriyasında Üzeyir Hacıbəyov on dörd yaşına qədər təhsil alıb. Qabiliyyətli, zəkalı şagird üçün bu az müddət deyil.

1899-cu ildə Qori müəllimlər seminariyasına daxil olarkən Üzeyir Hacıbəyov bura yalnız qulaqlarında sırğa olmuş xalq havaları, ritmləriylə gəlməmişdi, o,

Qoriyə həm də böyük niyyətlərlə dopdolu bir ürək gətirmişdi. Gənc Üzeyirin ən böyük arzusu, amalı xalqına xidmət etmək, xalqın maariflənməsi, mədəni inkişafı yolunda konkret işlər görmək idi – dərsliklər yazmaq, lüğətlər tərtib etmək, başqa dillərdən bədii əsərləri azəri türkcəsinə çevirmək. Erkən yaşlarından qarşısında duran məsələləri yaxşı dərk edən Üzeyir bəy həyatda boynuna düşən əsas tarixi vəzifəsini də çox tez duymuşdu. Bu vəzifə milli opera yaratmaq vəzifəsi idi. Hələ 1897-1898-ci illərdə on üç yaşlı uşaq ikən Şuşada gördüyü bir musiqili səhnəcik Üzeyir bəyin xəyalından heç vaxt çıxmırdı. Görkəmli dramaturq Əbdürrəhim bəy Haqverdiyevin təşəbbüsüylə və məşhur xanəndə Cabbar Qaryağdı oğlunun ifasında göstərilən bu səhnəcik "Məcnun Leylinin məzarı üstündə" adlanırdı. Həmin səhnə balaca Üzeyiri o qədər həyəcanlandırmışdı ki, "operaya bənzər bir şey" yaratmaq fikrinə düşmüşdü.

Qəribədir ki, bu uşaq həvəsi, bu kövrək arzu on ildən – cəmi-cümlətani onca ildən sonra həqiqətə çevrildi, həyata keçdi. Yalnız Üzeyir ömrünün faktı deyil – milli mədəniyyət tariximizin əhəmiyyətli hadisəsi oldu. Dünya musiqisində yeni musiqi – səhnə janrı – muğam operası yarandı. Üzeyir bəy "operaya bənzər bir şey" yaratmadı, yeni bir janr – muğam operası yaratdı. 1908-ci il yanvarın 12-də Bakıda, Hacı Zeynalabdin Tağıyev teatrının binasında ilk Azərbaycan operasının – "Leyli və Məcnun"un ilk tamaşası göstərildi. Dahi Məhəmməd Füzulinin poeması əsasında yaranmış ilk Azərbaycan operası bütün Şərqin də ilk operasıdır. Qoca Şərqin opera tarixi bu gündən başlanır. Bu şərəfli salnamədə ilk ad – 22 yaşlı bəstəkar Üzeyir Hacıbəyovun adıdır.

Hələ tanınmadığı gənclik illərində də, ilk parlaq uğurlar dövründə də, sonrakı illərin geniş şöhrətli çağlarında da Üzeyir bəyə xas olan təbii təvazökarlıq onun araşdırıcılarını hərdən çaş-baş salır. Hacıbəyovun "Leyli və Məcnun"da bəstəkarın özü tərəfindən yazılmış musiqinin az olması haqqında sözlərini bəzən hərfi mənada başa düşürlər. Bəzən hətta bu operanı bir növ xalq melodiyalarının yığını, toplusu hesab edirlər. Bir neçə il bundan qabaq "Leyli və Məcnun"un partiturası ilk dəfə nəşr olundu. Bura muğam hissələri deyil, yalnız Üzeyir Hacıbəyovun yazdığı musiqi parçaları daxil edilmişdi. Bir daha aydın oldu ki, bəstəkarın öz musiqisindən ibarət olan bu qalın partituranın həcmi bütün başqa ənənəvi opera partituralarının həcmindən az deyil.

Vaxtilə Azərbaycan musiqisinin inkişaf yollarına həsr etdiyi məqalələrindən birini Ü.Hacıbəyov "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər" adlandırmışdı. O zaman "Koroğlu" operası təzəcə meydana gəlmişdi və bəstəkar haqlı olaraq qeyd edirdi ki, o həm ilk, həm də hələ ki, son Azərbaycan operasının müəllifidir. Ona görə də Hacıbəyovun yaradıcılıq yolu o dövrə qədərki Azərbaycan musiqisinin yüksəliş yolunu əks etdirirdi.

Amma bu gün biz "Leyli və Məcnun"a arxada qalmış mərhələ kimi, musiqimizin ibtidai pilləsi kimi, yeri yalnız muzey olan asari-ətiqə kimi yanaşa bilmərik. Bu gün "Leyli və Məcnun" bəlkə öz dövründə olduğundan daha artıq müasir, təzə, təravətli səslənir və bütün bu ötən illər ərzində səhnəmizin bəzəyi olaraq qalır.

Moskva və Peterburqda musiqi təhsili alıb professional bəstəkar kimi yetişən Üzeyir Hacıbəyov və onun çağdaşları, məsləkdaşları, ardıcılları tərəfindən müəyyənləşdirilmiş, davam etdirilmiş yol – musiqimizin magistral yoludur. Amma hər halda "Leyli və Məcnun"dan – "Koroğlu"ya tezisinin özü də hansı mənadasa müəyyən dövrün məhsuludur. Ümumdünya musiqi formalarının Azərbaycanda təzə-təzə təsdiq olduğu bu dövrün dahiyanə proqram əsəri, şübhəsiz "Koroğlu" operasıdır. Üzeyir bəy "Koroğlu"nu yalnız royal arxasında və not vərəqləri qarşısında, çətin axtarışlar nəticəsində yaratmadı. Bu opera həm də kəskin ictimai-estetik mübahisələrdə yürüdülən insafsız nihilist müddəalara sənətin yenilməz qüdrətiylə verilən cavab idi.

İyirminci illərin musiqi mübahisələrinin, opera haqqında diskussiyaların mərkəzində duran nə idi? Yalnız tardan, kamançadan, muğamatdan yapışıb qalmaq olmaz, musiqimiz dünya sənətinin vasitələrini mənimsəməlidir – not sisteminə yiyələnməli, xor, simfonik, kamera, vokal janrlarını, Avropa tipli opera və balet formalarını yaratmalı, inkişaf etdirməlidir. Bu aydın həqiqətdir, bunu hamı qəbul və təsdiq edir, amma bu yolla irəliləmək üçün muğamatı qurban vermək, tarı susdurmaq lazımdırmı, vacibdirmi, mütləqdirmi? "Oxu tar, oxu tar, səni kim unudar?", yaxud "Oxuma tar, səni istəmir proletar!". Kimə qulaq verəsən? İndi səksən il bundan qabaqkı mübahisələrin qəribə məntiqinə və bir çox hallarda məntiqsizliyinə rişxənd edib ağız büzmək, istehzayla gülmək çətin iş deyil. Çətini o günlərin, o illərin, o vaxtın içində yaşaya-yaşaya bu mübahisələrdə qəti mövqe tutmaq idi. Çətini iyirminci illərdə Üzeyir bəy, Müslüm Maqomayev olub Üzeyirliyində, Müslümlüyündə qalmaq idi. Bu gün bizimçün Tarix olanlar, o vaxt onlarçün Tale idi.

Çətini – qabağı, irəlini, gələcəyi görmək idi. Zaman özü təsdiq etdi ki, bugünkü beynəlxalq musiqi disputlarında, fikir mübadilələrində həm "Koroğlu"-nun, həm də "Leyli və Məcnun"un öz yeri var. Bugünkü dinləyici üçün "Leyli və Məcnun" da, digər muğam operalarımız da ənənəvi Avropa opera formalarıyla yanaşı, paralel mövcud olan tamamilə müstəqil və orijinal, təkrarsız sənət hadisəsidir. Muğam operaları adi operalardan "ibtidailik-kamillik", "sadəlik-qəlizlik", "üstünlük-aşağılıq" meyarlarına görə deyil, janr xüsusiyyətləriylə, bədii vasitələriylə, ifadə formalarıyla, üslubiyyatıyla ayrılır. Muğam operaları məhz Azərbaycan incəsənətində Azərbaycan dühasının yaratdığı, heç yerdə bənzəri, təkrarı olmayan müstəqil və orijinal bir janrdır.

Sənətin müxtəlif janrlarında şah əsərlər yaratmaq hünərdirsə, janrın özünü yaratmaq beş qat hünərdir. Üzeyir Hacıbəyov nəinki müxtəlif janrların ən yüksək mərtəbələrinə qalxmışdır, o həm də musiqiyə tamamilə yeni janrlar gətirmişdir. Muğam operası da bu qəbildəndir, ənənəvi operettalardan əsaslı şəkildə fərqlənən, azəri musiqisində yaranmış və təşəkkül tapmış orijinal musiqili komediyalar – "Arşın mal alan", "Ər və arvad", "O olmasın, bu olsun" da, xalq çalğı alətləri orkestri üçün yazılmış fantaziyalar da...

"Sevgili canan" və "Sənsiz" də ümumi romans anlayışlarından bir sıra spesifik xüsusiyyətləri ilə ayrılan, tamamilə yeni bir janrın örnəkləridir – musiqili qəzəl

janrının. Əgər ədəbi qəzəl minillik şerimizin ən populyar janrlarındandırsa və bu janrda minlərlə şair qələmlərini sınamışdırsa, musiqili qəzəllərin ilk örnəyini Üzeyir bəy yaratmışdır. Böyük bəstəkar üçün musiqidə yeni janr yaratmaq – məhz yeni milli forma – xalqın əsrlər boyu sevib əzizlədiyi, yaşatdığı sənət ənənələrinə uyğun doğma olan janr yaratmaq idi. XX əsrin əvvəllərində Üzeyir bəy "Arşın mal alan" musiqili komediyasını yaratmışdı. Bu əsərin musiqisi günəşlə, işıqla doludur. Bu musiqi sanki gənclik həvəsindən, həyatın cavanlıq sevinclərindən, məhəbbətdən yoğrulub. "Arşın mal alan"ı həyata, gələcəyə inanan 28 yaşlı gənc yazıb. Bu musiqidə müəllifin də, onun xalqının da gənclik ruhu var. Bu musiqinin hər sədası oyanışa, taleyin xoş iqbalına qəti əmin olan bir xalqın qəlbindən qopub gəlir. O dövrkü Azərbaycan sənətinin bəlkə də heç bir əsərində gələcəyə inam, XX əsrə olan ümidlər "Arşın mal alan"dakı qədər parlaq ifadə olunmayıb.

XX əsrin sonunda başı min bir bəla çəkmiş Azərbaycan xalqı öz azadlığı, ləyaqəti, müstəqilliyi uğrunda mübarizəyə qalxarkən bu hərəkatın çağırış sədası yenə də Üzeyir bəyin musiqisi oldu – "Koroğlu" operasının uvertürası.

* * *

Üzeyir Hacıbəyov XX əsr Azərbaycan musiqisinin ilk böyük yaradıcısı olmaqla bir sırada, həm də bu musiqinin araşdırıcısı, tədqiqatçısı, onun əsaslarını və prinsiplərini dərindən-dərinə bilən və şərh edən, ümumiləşdirən, sistemləşdirən görkəmli alim idi. Musiqi məsələlərinə aid neçə-neçə elmi məqaləsiylə bərabər, azəri musiqisinin nəzəri cəhətləri üzərində uzun illərdən bəri çalışmalarının ən sanballı bəhrəsi "Azərbaycan xalq musiqisinin əsasları" adlı fundamental tədqiqatı oldu.

"Koroğlu"dan başqa, bütün musiqili səhnə əsərlərinin libretto müəllifi olan Üzeyir Hacıbəyov mədəniyyət tariximizə həm də son dərəcə istedadlı bir dramaturq kimi daxil olmuşdur. "Arşın mal alan", xüsusilə də "O olmasın, bu olsun" – ədəbi süjetləri, personajların parlaq xarakterləri, dialoqlarının xalqın dilində zərbi-məsəllərə çevrilmiş itiliyi, yumoru, duzu ilə Azərbaycan komediyanəvisliyinin klassik əsərləri sırasında – Mirzə Fətəli və Mirzə Cəlil məzhəkələrinin cərgəsindədir. Yeri gəlmişkən onu da qeyd etməliyik ki, "Molla Nəsrəddin" jurnalında az, ya çox nəşr olunmasından asılı olmayaraq Üzeyir bəy bir yazıçı, dramaturq, publisist kimi "Molla Nəsrəddin" ədəbi məktəbinin yetişdirməsidir, onun saysız-hesabsız siyasi felyetonlarında Mirzə Cəlil ruhu duyulur. "Üzeyirin felyetonlarından bir özgə iyi gəlir" deyən opponentinə Üzeyir bəy eynilə Mirzə Cəlil kəskinliyilə: "Əfəndim, xahiş edirəm, bundan sonra mənim yazılarımı iyləməyəsiniz" cavabını verir. Dövrün elə bir mühüm ictimai, siyasi problemi yoxdur ki, alovlu Üzeyir publisistikasında öz əksini tapmasın.

Üzeyir Hacıbəyov ensiklopediyasının indiki zamanda çıxmasının xüsusi mənası var. Bu çoxdan yetişmiş məsələ nə yaxşı ki, məhz – Azərbaycanın müstəqilliyini əldə etdiyi illərdə həyata keçirilir. Çünki bu ensiklopediya, tutalım, on-on beş il

bundan qabaq çıxsaydı, yenə də Üzeyir bəylə bağlı bütün həqiqətləri demək imkanı olmayacaqdı. Üzeyir Hacıbəyov ömürlüyünün, siyasi və ictimai həyatının son dərəcə mühüm bir dövrü haqqında – ilk müstəqil Azərbaycan Respublikası dövründə 1918-1920-ci illərdəki fəaliyyəti haqqında yarımçıq şəkildə, üstüörtülü danışmaq lazım gələcəkdi. Üzeyir bəyin Müsavat partiyasının üzvü və ideoloqlarından biri olması faktını da, Azərbaycan Demokratik Respublikasının rəsmi orqanı "Azərbaycan" qəzetini qardaşı Ceyhun bəylə bərabər, Ceyhun bəy Parisə, sülh konfransına getdikdən sonra isə təkbaşına redaktə etməsini də, bu qəzetdə istər Çar Rusiyasının, istər Sovet Rusiyasının imperialist, müstəmləkəçi siyasətini kəskin tənqid edən yazılarını da on-on beş il bundan qabaq açıb-ağartmaq olardımı? Bu illərdə Üzeyir bəyin Əhməd Cavadın sözlərinə yazdığı "Çırpınırdı Qara dəniz" mahnısının Türkiyədə bu gün də dillər əzbəri olduğunu o vaxt demək olardımı? Nəhayət, Üzeyir bəyin Azərbaycan Demokratik Respublikasının milli marşının və bu gün Azərbaycanın Dövlət Himni olan Azərbaycan marşının da müəllifi olduğu unutdurulmağa çalışılırdı. Amma Üzeyir həyatının, Üzeyir şəxsiyyətinin, fəaliyyətinin ayrılmaz parçası olan bu dövrü danmaqla böyük sənətkar haqqında tam təsəvvür yarada biləcək bir ensiklopediya nəşr etmək də qeyri-mümkün idi. Məhz həmin prinsipdən çıxış edərək bu ensiklopediyada başqa bir ifrata da varmaq düz olmazdı – yəni Üzeyir bəyin sovet dövründəki fəaliyyətini, Azərbaycan Musiqi quruculuğu yolunda böyük xidmətlərini və bu xidmətlərin yalnız xalq tərəfindən deyil, dövlət, hökumət, partiya tərəfindən də qiymətləndirilməsini danmaq olmaz. Müstəsna hal kimi Üzeyir bəyi – keçmişdə Müsavat partiyasının üzvü olmuş bir adamı – namizədlik mərhələsini adlayaraq birbaşa Kommunist Partiyasının üzvlüyünə qəbul etmişdilər. Stalinin "Koroğlu" operasını çox bəyənməsi, Üzeyir bəy yaradıcılığı haqqında rəğbətli sözləri böyük bəstəkarı keçmişinin və xaricdə olan qardaşının yaratdığı təhlükələrdən qoruyurdu. Axı, hələ 20-ci illərdə FK orqanlarında Azərbaycan ziyalılarının kökünü kəsməyi qarşılarına məqsəd qoymuş üzü bolşevik, içi daşnak müstəntiqlər Üzeyir Hacıbəyovun tutulub güllələnməsi haqqında sənədlər hazırlamışdılar və o vaxt böyük milli faciə ola biləcək bu cinayətin qarşısını Nəriman Nərimanov almışdı. Sonrakı illər Mircəfər Bağırovun da Üzeyir bəyə münasibətində rəsmi təqdirlər hətta onu repressiyalardan doğunan cəhdləri – ara-sıra təhdidlərlə, mənəvi təzyiqlərlə əvəz olunurdu. Ömrü boyu çox çətin bir həyat sürüb Üzeyir bəy. Əsrin əvvəllərində maddi ehtiyaclar, nadan cızma-qaraçıların onun hər əsərinə hücumları, rişxəndləri, təhqirləri – hətta qəzetlərdə Üzeyir bəyin karikaturalarını çəkirdilər. Sovet dövründə qədim musiqi irsimizi danan nihilist ruhlu bolşevik komissarlar və onların havadarlarıyla təmkinli, amma prinsipial disputlar, ən yaxın dostlarını – Hüseyn Cavidləri, Əhməd Cavadları, Abbas Mirzə Şərifzadələri, Pənah Qasımovları itirdiyi repressiya illəri və bu illərdə Üzeyir bəyin öz başı üstündə də asılmış Damokl qılıncı. "Böyük atamız, rəhbərimiz Stalini" vəsf edən kantata yazmaq məcburiyyəti. Daxili sarsıntılar, daimi nigarançılıq, ən yaxın adamlarından belə gizlədiyi iztirablar, əzab-əziyyətlər. Və bütün bunlara qalib gəlmiş Üzeyir ruhu, Üzeyir iradəsi, bütöv bir millətin yenilməzliyini, varlığını, şərəfini ifadə edən ölməz əsərlər.

Üzeyir Hacıbəyov dühasının böyüklüyü və mürəkkəbliyi haqqında ən dəqiq sözləri bəstəkarın gənclik məsləkdaşı, Üzeyirin ölüm xəbərini mühacirətdə, vətəndən dəmir pərdələrlə ayrılmış uzaqlarda eşidən Məmməd Əmin Rəsulzadə demişdir:

"Başda bir həvəskar olaraq işə başlayan Hacıbəyli, sonra kəndi-kəndini (özü-özünü – *A.*) yetişdirmiş, musiqi təhsilini tamamlamış, nəticədə sözün Avropayi mənasıyla otoritesini (nüfuzunu – *A.*) hər kəsə tanıtmış bir kompozitor olmuşdur. Yazıq ki, bolşevik rejimi Azərbaycanın bu müstəsna zəkasını da kəndi diktatorluğu altına almış və onu bayağı mənfəətləri üçün sömürə bulduqca (istismar etdikcə – *A.*) sömürmüş və verdiyi bir takım rəsmi və siyasi vəfa və ünvanlarla onu "mənimsəmişdir".

Fəqət beyhuda, dəmir pərdənin arxasında kəndisinə süni marşlar yazdırılsa da, Moskvada omuzu (çiyni – *A.*) diktatorun əliylə oxşadılsa da, tubutu başında Azərbaycan mənəviyyəti ilə ilgələri (əlaqələri – *A.*) olmayan komissarlar növbədə dursalar da, Hacıbəyli Üzeyiri Azərbaycandan, Azərbaycan kulturundan və Azəri Türk tarixindən kimsə ayıramaz! O, milli Azərbaycan varlığının məsnədləri (dayaqları – *A.*) arasında qalacaq ayrılmaz bir dəyərdir!"

Şübhə yoxdur ki, Üzeyir Hacıbəyov ensiklopediyası yalnız üzeyirşünaslar və ümumən musiqişünaslar tərəfindən deyil, geniş oxucu kütləsi tərəfindən də maraq və rəğbətlə qarşılanacaqdır. Zəngin Üzeyir dünyasıyla sistemli şəkildə tanış olan oxucular bu ensiklopediyanın təşəbbüskarı Nazim İbrahimova, qiymətli soraq kitabının yaradıcılarına, müəlliflərinə, icraçılarına, redaktorlarına, onun yüksək elmi-bədii, poliqrafik səviyyədə meydana çıxması yolunda zəhmət çəkənlərin hamısına minnətdarlıq hissi duyacaqlar.

***ANAR***

# A

**ABBASOV** Abdulla Əsgər oğlu (d.1930) – ədəbiyyatşünas. Filologiya e.d. (1976), prof. (1980). H.-un ədəbi-bədii və publisist irsini tədqiq edir. "Ü.Hacıbəyovun sənətkarlığı" (1976) və "Əbədiyyətə qovuşan sənətkar" (1985) monoqrafiyalarında, məqalələrində H.-un dramaturji əsərlərinin, publisistikasının ideya-məzmun, sənətkarlıq xüsusiyyətləri açıqlanır.

**ABASOVA** Elmira Əbdülhəmid qızı (d.1932) – musiqişünas, pedaqoq. Azərb. əməkdar inc. xad. (1967). Sənətşünaslıq namizədi (1962), prof. (1980). 1955 ildən ADK-nda dərs deyir (1977-92 illərdə rektor). Azərb. Bəstəkarlar İttifaqının katibi (1973-85) olmuşdur. Araşdırmalarının əksər hissəsi H.-un yaradıcılığının tədqiqinə həsr edilmişdir. H.-un əsərlərinin musiqi-dramaturji və üslub xüsusiyyətləri, onun simf. metodu barədə tədqiqat aparmışdır. "Üzeyir Hacıbəyovun opera və musiqili komediyaları" (1961), "Ü.Hacıbəyovun "Koroğlu" operası" (1965), "Ü.Hacıbəyov" (1975), "Ü.Hacıbəyov. Həyat və yaradıcılıq yolu" (1985) monoqrafiya və məqalələrin müəllifi, "Ü.Hacıbəyov" (1978) biblioqrafiyasının məsul redaktorudur.

**ABBASOV** Əsgər Məmmədismayıl oğlu (1916-1970) – teatr rəssamı. Azərb. əməkdar inc. xad. (1964).

1945-49 illərdə və 1956 ildən Azərb. Musiqili Komediya Teatrında baş rəssam işləmişdir. H.-un "Arşın mal alan" (1959) və "O olmasın, bu olsun" (1964) tamaşalarının quruluşçu rəssamı idi.

**ABBASOV** Əşrəf Cəlal oğlu (1920-1992) – bəstəkar, musiqişünas, pedaqoq. Sənətşünaslıq namizədi. (1952), prof. (1968). Azərb. xalq art. (1990). Balaca Əşrəfin bəstələdiyi melodiyalarla tanış olan H. onu Bakıya dəvət edir. 1936 ildə H.-un köməkliyi və himayədarlığı ilə o, Bakı musiqi məktəbinin bəstəkarlıq sinfinə qəbul olunur. 1939 ildən ADK-da təhsil alarkən H.-un rəhbərliyi ilə Azərbaycan xalq musiqisini nəzəri cəhətdən öyrənir. 1952 ildə "Ü.Hacıbəyov və onun "Koroğlu" operası" mövzusunda dissertasiya müdafiə edir. O, "Qaraca qız" baletinin, üç musiqili komediyanın, simf., kamera, instrumental əsərlərin, mahnı və romansların müəllifidir.

**ABBASOV** Hacağa Mütəllib oğlu (1888-1975) – aktyor. Azərb. xalq art. (1932). 1906-09 illərdə Petrovski-Portda (indiki Mahaçqala) azərb.-lardan aktyor truppası yaratmış, Teymurxanşurada (indiki Buynaksk) teatr açmışdır. H. "Şeyx Sənan", "Rüstəm və Söhrab" operalarının librettosu üzərində işləyərkən o zaman Teymurxanşurada yaşayan Məşədi Azərə və dərbəndli Mirzə Səməndərə şeirlər yazdırıb göndərməyi A.-dan xahiş etmişdi. A. xatirələrində bəstəkarın xahişini yerinə yetirdiyini göstərmişdir.

**ABBASOV** Mirzəli Hacabbas oğlu (1874-1943) – aktyor, rej., dramaturq. Gürcüstan əməkdar art. (1928). Tiflis Azərb. teatrının təşkilatçılarından olmuş, onun səhnəsində H.-un "Arşın mal alan" və "O olmasın, bu olsun" musiqili komediyalarını tamaşaya qoymuşdur.

**ABBAS SƏHHƏT** (Abbasqulu Ələbbas oğlu Mehdizadənin təxəllüsü; 1874-1918) – şair, həkim və müəllim. Azərb. ədəbiyyatında romantizmin görkəmli nümayəndələrindəndir. M.Mahmudbəyovla birgə "Yeni məktəb" (1909) və "Türk ədəbiyyatına ilk qədəm" (1914) dərsliklərini yazmışdır. H. "Yeni məktəb" dərsliyi haqqında məqaləsində ("Tərəqqi" qəzeti, 11 sentyabr 1909, №206) mü-



**Ə.Abbasov**



**E.Abasova**



**Abbas Səhhət**



Abdulla Şaiq

əlliflərin zəhmətini yüksək qiymətləndirmişdir.

**ABDULLA ŞAİQ** (Abdulla Mustafa oğlu Talıbzadənin təxəllüsü; 1881-1959) – yazıçı, müəllim, ictimai xadim. Azərb. əməkdar inc. xad. (1940). 20 əsr Azərb. azadlıqpərvər romantik şeirinin, maarifçi-realist nəsrinin, uşaq ədəbiyyatının görkəmli nümayəndələrindəndir. Nizami Gəncəvi, Ə.Firdovsi, V.Şekspir, A.S.Puşkin, M.Y.Lermontov, L.N.Tolstoy, İ.A.Krılov və b.-nın əsərlərini tərcümə etmiş, dərsliklər yazmış, 30 ildən çox müəllimlik etmişdir. H.-la 40 ilə yaxın tanış və dost olmuşdur. F.Köçərli hələ 1911 ildə A.Ş.-ə məktubunda “Bahar xanım” (sonralar “Gözəl bahar”) pyesindən gözəl operetta çıxa biləcəyini yazır və bu barədə H. ilə məsləhətləşməyi tövsiyə edirdi. A.Ş. 1921 ildə H. ilə birlikdə “Gənclik marşı” yazmışdı. 1948 ilin yayında xəstəxanada müalicə olunan H.-a baş çəkmiş A.Ş. evə qayıtdıqda Üzeyir bəyin M.C.Bağırovdan çox şikayətləndiyini, onun məruz qaldığı mənəvi işgəncələrə çətin dözə biləcəyini söyləmişdir. A.Ş. Üzeyir bəyin həyat yoldaşı Məleykə xanımın Azərb. dili müəllimi olmuşdur.



L.Abdullayev

**ABDULLAYEV** Ağaməmməd Səməd oğlu (1909-1976) – dilçi alim, pedaqoq. Pedaqoji e.d. (1958), prof. (1960). Azərb. dilinin tədrisi tarixi və metodikasına dair dərslik və monoqrafiyaların müəllifidir. “Azərbaycan dilinin tədrisi tarixindən” (1966) monoqrafiyasında H.-un pedaqoji və publisistik fəaliyyətini, onun “Türki-rusi və rusi-türki lüğəti”ni (1907) ətraflı təhlil etmişdir.



M.Abdullayev

**ABDULLAYEV** Əlibaba Abdulla oğlu (1915-1980) – rəqqas, baletmeyster. Azərb. xalq art. (1959). Azərb. Dövlət Rəqs Ansamblının təşkilatçılarındandır. H.-un “Vətən və cəbhə” kantatası əsasında xoreoqrafik proqram hazırlamış, Azərb. Musiqili Komediya Teatrında tamaşaya qoyulan “Arşın mal alan”a rəqslərin quruluşunu vermişdir.



R.Abdullayev

**ABDULLAYEV** Qasım İbrahim oğlu (1873-1927) – xanəndə. Xalq arasında “Zabul Qasım” adı ilə məşhurlaşmışdı. H.-un 1913 ildə Şuşada tamaşaya qoyulmuş “Leyli və Məcnun” operasında Məcnunun atası rolunda çıxış etmişdir.

**ABDULLAYEV** Lütfəli Əmir oğlu (1914-1973) – aktyor. Azərb. xalq art. (1960). 1938 ildən ömrünün axırınadək Azərb. Musiqili Komediya teatrında işləmişdir. H.-un “O olmasın, bu olsun” musiqili komediyasında yaratdığı Məşədi İbad obrazı onun ən yaxşı rollarındandır. “Arşın mal alan” (1945) filmində oynadığı Vəli roluna görə Stalin mükafatına layiq görülmüşdür (1946).

**ABDULLAYEV** Mikayıl Hüseyn oğlu (1921-2002) – rəssam. Azərb. əməkdar inc. xad. (1955) və xalq rəs. (1960). SSRİ xalq rəs. (1963). Azərb. Gözəl Sənətlər Akademiyasının prezidenti (1992 ildən) olub. Azərb. Dövlət (1974) və C.Nehru ad. Beynəlxalq (1969) mükafatlar laureatı. H.-un yağlı boya ilə portretini yaratmış (1944), onun AOBT-nda tamaşaya qoyulmuş “Leyli və Məcnun” (1965, 1994), “Koroğlu” (1967) operalarına bədii tərtibat vermişdir.

**ABDULLAYEV** Rauf Cahanbəxş oğlu (d. 1937) – dirijor. Azərb. xalq art. (1992). Azərb. Dövlət mükafatı laureatı (1988). Prof. (1982). ADK-nı (1959) və Leninqrad konservatoriyasını (1965) bitirmişdir. AOBT-nın dirijoru (1965-68) və baş dirijoru (1968-88), H. ad. Azərb. Dövlət Simfonik Ork.-nin bədii rəhbəri və baş dirijoru (1984-92; 1997-dən halhazıra kimi), eyni zamanda Ankara Opera və Balet Teatrının baş dirijoru (1990-95) olmuşdur. AOBT-da “Koroğlu” operasına dirijorluq etmişdir. Onun ifasında H.-un əsərləri müntəzəm səslənir.



**M.Abdullayev**
“Ü.Hacıbəyovun portreti”. 1944.

**ABDULLAZADƏ** (Əliyev) Rzaqulu Abdulla oğlu (təxəllüsü Seyfi; 1894-1937) – rejissor, aktyor, teatr xadimi. 1910 ildən səhnədə çalışmış, 1919 ildə Türkmənistanda Azərb. teatr truppasında rej. və bədii rəhbər olmuş, həmin truppada H.-un "O olmasın, bu olsun" və "Arşın mal alan" musiqili komediyalarının quruluşunu vermiş, baş rollarda çıxış etmişdir. H.-un komediyalarının fars dilinə ilk tərcüməçisidir.

**ABEZQAUZ** İzabella Vladimirovna (1923-1988) – musiqişünas. Sənətşünaslıq namizədi (1955). 1954-88 illərdə ADK-nda dərs demişdir. "Ü.Hacıbəyovun "Koroğlu" operası. Bəstəkarın bədii kəşfləri haqqında" (M., 1987) adlı tədqiqat əsərində bəstəkarın musiqi sintaksisi, forma, məqam, harmoniya və ritm sahəsindəki bədii axtarışları təhlil edilir.

**"AÇIQ SÖZ"** – gündəlik ictimai-siyasi və ədəbi qəzet. 1915-1918 illərdə Bakıda nəşr olunurdu. "İqbal" qəzetinin davamı olub, Müsavat partiyasının rəsmi orqanı idi. Əsasən, milli-demokratik ideyaları təbliğ edirdi. Naşirləri və redaktorları Məmməd Əmin və Məmməd Əli Rəsulzadələr, Orucov qardaşları idi. H. bu qəzetdə fəal iştirak edirdi.

**ADIGÖZƏLOV** Rauf Zülfüqar oğlu (1940-2002) – skripkaçı, müğənni. Əməkdar inc. xad. (1992), prof. (1995). Moskva konservatoriyasını bitirmişdir (1965). 1970 ildən müğənni kimi də çıxış etmişdi. Repertuarında H.-un "Sənsiz", "Sevgili canan" romans-qəzəlləri, "Arşın mal alan" musiqili komediyasından Əsgərin ariyaları mühüm yer tuturdu.

**ADIGÖZƏLOV** Vasif Zülfüqar oğlu (1935-2006) – bəstəkar. Azərb. xalq art. (1989), prof. (1990). Z.Adıgözəlovun oğludur. Azərb. Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi idi (1990-2006). A. "Ölülər", "Natəvan" operaları, 3 simfoniya, 4 simf. poema, 5 musiqili komediya, 4 oratoriya, fp. üçün 24 prelüd, variasiyalar, simf. orkestr və xalq çalğı alətləri üçün konsertlər, 100-dən artıq mahnı, romans teatr və kino musiqisinin müəllifidir.



**Ə.Ağayev** "O olmasın, bu olsun" filmində.

**ADIGÖZƏLOV** Yalçın Vasif oğlu (d. 1959) – dirijor. dos. (1999). V.Adıgözəlovun oğludur. ADK-nı (1982) və Leninqrad konservatoriyasını (1989) bitirmişdir. 1992-1997 illərdə Azərb. Dövlət Simf. Ork.-nin bədii rəhbəri və baş dirijoru olub. H.-un bir sıra əsərlərinə dirijorluq etmişdir.

**ADIGÖZƏLOV** Zülfi (Zülfüqar) Səməd oğlu (1898-1963) – xanəndə. Azərb. əməkdar art. (1943) - 1927 ildə Bakıya köçərək "Müdafiə evi"ndə (indiki filarmoniya) işləmək üçün Ü.Hacıbəyov, M.Maqomayev, Q.Pirimov və b. qarşısında imtahan vermiş, eyni zamanda radio verilişləri komitəsinə işə qəbul olunmuşdu. Pəsxan xanəndə olan A. klassik muğamları, xalq mahnılarını böyük ustalıqla oxuyurdu. H. onun ifasına yüksək qiymət verirdi.

**ADIGÖZƏLZADƏ** Murad Zöhrab oğlu (1973) – pianoçu, Azərb. əməkdar art. (2006), dos. (2000), ADK-nı bitirib, Münhen Ali Musiqi məktəbində (1996-1998), Moskva Dövlət Konservatoriyasının aspiranturasında (1998-2000), oxumuşdur. Moskva Dövlət Filarmoniyasının solisti (2003 ildən), 2005 ildə H.-un "Sənsiz" və "Sevgili canan" romanslarının piano üçün işləməsini kompakt diskə yazdırmışdır. M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktorudur (2006 ildən).

**ADİL GƏRAY** (Adil Gəray Heybətqulu oğlu Məmmədbəyli; 1919-1973) – tarzən, pedaqoq. Azərb. əməkdar art. (1959). Azərb. Dövlət Musiqi Texnikumunu bitirmiş (1940), ADK-nın Azərbaycan xalq musiqisi şöbəsində (H.-un sinfində) oxumuşdur (1940-48, fasilələrlə). 1938 ildən H.-un təşkil etdiyi Azərb. xalq çalğı alətləri ork.-ində konsertmeyster işləmişdir. A.G. tar ilə fp. üçün "Bağçakürd" (1957) pyesini H.-a ithaf etmişdir.



**Z.Adıgözəlov**



**V.Adıgözəlov**



**R.Adıgözəlov**



**Y.Adıgözəlov**



**M.Adıgözəlzadə**



Ə.Ağaoğlu

**AĞAOĞLU** (Ağayev) Əhməd bəy Mirzə Həsən bəy oğlu (1869-1939) – publisist, mütəfəkkir, yazıçı, pedaqoq, alim və ictimai xadim. Parisdə hüquq məktəbini və Sorbonna un-tini bitirmişdir. 1905-09 illərdə Azərb.-da milli istiqlal uğrunda mübarizə hərəkatının ən fəal xadimlərindən olan A. əsasən publisistika sahəsində fəaliyyət göstərmişdir. Həmin illərdə redaktoru olduğu "İrşad", "Tərəqqi" qəzetlərində H.-la sıx yaradıcılıq əməkdaşlığı etmişdir. Mühafizəkar mətbuat orqanlarında H.-ın Azərb. musiqisini nota salmaq sahəsində işi müqavimətlə qarşılandıqda, onun "Şeyx Sənan" operası müsəlmanlar üçün təhqiramiz əsər kimi qələmə verildikdə, C.Məmmədquluzadə, M.Hacınski və b. ilə birlikdə A. da "Kaspi", "Baku", "Tərəqqi" qəzetlərində H.-a qahmar çıxmışdı. A. 1909 ildə gənc dostu H.-a yazırdı: "Belə şeylərə cavab verməməyinizi rica və tövsiyə edirəm". Qaragüruhçular "həqiqətlərin hənuz yüzdə birini deməmiş olan Əhmədbəyin" (Ə.Hüseynzadə) əleyhinə hücuma keçəndə onu müdafiəyə qalxan Azərb. yazıçıları arasında olan H. onlara kəskin cavablar verib yazırdı ki, bu cənablar millətpərəstlik pərdəsi altında aşkar şəxsi qərəz və xüsusi mənfəət güdürlər.

1909 ildə Türkiyəyə köçüb getmiş A. orada məsul dövlət vəzifələrində işləmiş, İstanbul və Ankara un-tlərində mühazirə oxumuş, "Hakimiyyəti-milliyə" qəzetinin baş redaktoru olmuşdur.



F.Ağazadə

**AĞAYEVA** Xurşid Həsən bəy qızı (1906-1953) – pianoçu, ilk azərb. musiqişünas qadın. Azərb. əməkdar inc. xad. (1943). H.Ağayevin qızıdır. Azərb. musiqişünaslığının təşəkkülü, musiqi təhsili və mədəniyyətinin inkişafında əhəmiyyətli xidməti var. H. haqqında ilk monoqrafiyanın (1955) müəllifidir.

**AĞAYEV** Əliağa İsmayıl oğlu (1913-1983) – aktyor. Azərb. xalq art. (1954). 1936-61 illərdə Azərb. Gənc Tamaşaçılar Teatrının, 1961 ildən ömrünün sonunadək ADT-nın aktyoru olmuşdur. H.-un eyniadlı musiqili komediyası əsasında çəkilmiş "O olmasın, bu olsun" (1956) filmində məharətlə yaratdığı Məşədi İbad obrazı ona geniş şöhrət qazandırmışdır.



H.Ağayev

**AĞAYEV** Həsən bəy Məşədi Hüseyn oğlu (1875-1920) – həkim, jurnalist, ictimai xadim. H.Z.Tağıyevin vəsaiti ilə Moskva un-tinin tibb fakültəsində oxumuşdur (1901). Həkimlik və jurnalistliklə məşğul olmuş, "İrşad", "Tərəqqi" və H.-un redaktorluğu ilə buraxılan "Həqiqət" qəzetləri ilə əməkdaşlıq etmişdir. Bakının mədəni və ictimai həyatının fəal iştirakçısı idi. 1907 ildə müəllimlərin ikinci qurultayında Ə.Hüseynzadə bu ali məclisin sədri, A. onun müavini, H. isə katib seçilmişdi. 1918 il dekabrın 7-də ADR parlamentinin sədri Ə.M.Topçubaşovun müavini vəzifəsinə seçilmişdir. Parlamentin bütün iclaslarından reportajlar yazan, sonra isə "Azərbaycan" qəzetinə redaktor təyin edilən H. onunla tez-tez görüşürdü. Onlar bir-birinə dərin hörmət və ehtiram bəsləyirdilər.

**AĞAZADƏ** Fərhad Rəhim oğlu (təxəllüsü Şərqli: 1880-1931) – pedaqoq, dilçi, jurnalist. Qori seminariyasını bitirmiş (1900), Bakı, Şuşa, Gəncə və Xaçmazda müəllimlik etmişdir. Uzun müddət H.-la yaxın dostluq və yaradıcılıq əlaqələri olmuşdur. "Nicat" cəmiyyətinin mədəni-maarif tədbirlərində "Həyat", "İrşad" qəzetlərində birlikdə əməkdaşlıq edir, məktəb üçün proqram və dərsliklər yaradılmasında sıx əlaqədə işləyirdilər. A.-nin bir neçə müəllimlə yazdığı "İkinci il" (1907) dərsliyinə H. "Tərəqqi" qəzetində rəy vermişdir. 1909-18 illərdə A. "Səadət" məktəbində dərs demiş, onunla birgə işləyən H.-a iri həcmli musiqi əsəri yaratmaq barədə H.Zərdabinin tövsiyəsini dəfələrlə xatırlatmışdır. 1918-20 illərdə H.-la birgə "Azərbaycan" qəzetində əməkdaşlıq etmişlər. A-nin həyat yoldaşı Gövhər xanımın xatirələrində ("Azərb. qadını", 1969, №2) H. və A. arasındakı ailəvi yaxınlıqdan danışılır.

**AĞCABƏDİ** – Azərb. Resp.-nda şəhər (1959-62 illərdə şəhər tipli qəsəbə). Ağcabədi r-nun mərkəzi. H. burada doğulmuşdur. H.-un o vaxtlar kənd sayılan A.-də doğulması təsadüf nəticəsində olmuşdu. H.-un atası Əbdülhüseyn bəy 19 əsrin 2-ci yarısında X.Natəvanın A.-dəki təsərrüfatına başçılıq edirdi. H.-un anası Şirin xanım bəzən ərinə baş çəkmək üçün oraya gedərdi. 1885 ildə də Şirin xanım hamilə ikən uşaqları Saday, Abuhəyat və Zülfüqarla bərabər, Əbdülhüseyn bəyi yoluxmağa getmiş, lakin Şuşaya qayıtması ləngidiyindən H. burada dünyaya gəlmişdir.



**Ə.Ağdamski** Leyli rolunda.

**AĞDAM DRAM TEATRI,** Ə.Haqverdiyev ad. Ağdam Dövlət Dram Teatrı - 1923 ildən (müxtəlif adlarla) fəaliyyət göstərir. 1969 ildə teatra Ə.Haqverdiyevin adı verilmişdir. Teatrda müxtəlif illərdə H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları tamaşaya qoyulmuşdur. Bu tamaşalarda Ə.Ağdamski, Q.Muradov və b. artistlər iştirak etmişlər.

**AĞDAMSKİ** (Bədəlbəyli) Əhməd Bəşir oğlu (1884-1954) – opera artisti (lirik tenor). Azərb. əməkdar inc. xad. (1943). B.Bədəlbəyovun qardaşıdır. Səhnə fəaliyyətinə "Nicat" xeyriyyə cəmiyyətinin teatr truppasında başlamış, o dövrdə Azərb.-da qadın artistlərin olmamasına görə opera və musiqili komediyalarda, əsasən, qadın rollarında çıxış etmişdir. H.-un əsərlərində Leyli, Əsli, Gülnaz, Gülçöhrə, Minnət xanım, Təhminə ("Leyli və Məcnun", "Əsli və Kərəm", "O olmasın, bu olsun", "Arşın mal alan", "Ər və arvad", "Rüstəm və Söhrab) və b. rolların ifaçısı olmuşdur. Sonralar kişi rollarında çıxış etmiş, pedaqoji fəaliyyət göstərmişdir.

**AĞDAŞ DRAM TEATRI,** N.Vəzirov ad. Ağdaş Dövlət Dram Teatrı - 1938 ildə "Kolxoz-sovxoz teatrı" adı ilə yaradılmışdı. 1943 ildə Dövlət Dram Teatrına çevrilmiş və teatra N.Vəzirovun adı verilmişdi. Repertuarında H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları mühüm yer tuturdu. Teatr 1949 ildə bağlanmışdır.

**AXUNDOVA** Elmira Ağa qızı (1911-1998) – müğənni (lirik-koloratur soprano). Azərb. əməkdar art. (1958). 1934-59 illərdə AOBT-nda, 1938 ildən həm də Azərb. Musiqili Komediya Teatrında çıxış etmişdir. "Arşın mal alan" musiqili komediyasında Gülçöhrə və Asya, "Koroğlu" operasında Nigar partiyalarını oxumuşdur.

**AXUNDOV** Əbdülxalıq Hacı Abdulla oğlu (1863-1944) – həkim, publisist. "Zənbur" jurnalının təsisçisi və naşiri idi. "Zənbur"la H.-un redaktorluq etdiyi "Tərəqqi" qəzeti arasında münaqişə gedirdi. H.-un "Zənburçu"lara ciddi bir təklif" açıq məktubu da bununla əlaqədar yazılmışdı.

**AXUNDOV** İsmayıl Hüseyn oğlu (1907-1969) – rəssam. Azərb. əməkdar inc. xad. (1940), Azərb. xalq rəs. (1960). Əsasən qrafika, dekorativ-tətbiqi sənət və teatr rəssamlığı sahəsində çalışmışdır. H.-un portretini və dostluq şarjını çəkmiş, "Koroğlu" operasının geyim eskizlərinin yaradılmasında iştirak etmişdir.

**AXUNDOV** Məmmədsadıq Molla Ruhulla oğlu (?-?) – teatr tənqidçisi, jurnalist. H.-la yaxınlığı "Leyli və Məcnun" operasının ilk tamaşasına dair dərc etdirdiyi rəylə ("İrşad", 15 yanvar 1908, №7) başlanmışdır. Bundan sonra bəstəkarın "Şeyx Sənan", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu" əsərləri, hətta onların təkrar tamaşaları haqqında müntəzəm olaraq yazılarla çıxış etdiyindən, müasirləri onu "H.-un xeyirxahı" adlandırırdılar. Bununla belə, A. "Ər və arvad" musiqili komediyasına verilən səhnə quruluşunu kəskin tənqid etmişdi. H.-un sağlığında onun haqqında dərc olunmuş tərcümeyi-hal səciyyəli ilk yazı, habelə, "Şeyx Sənan" operasının musiqi parçalarından "Ər və arvad" musiqili komediyasında istifadə edildiyinə dair ilk "məlumat da A.-a məxsusdur. A. həqiqətən çox sevdiyi, "Allah vergisi" saydığı yaradıcılığına valeh olduğu bəstəkarı rus oxucularına "müsəlman aləmində operanın pioneri" kimi təqdim etmiş, H.Şərifovun "Mehri-mah" operasını "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas..." əsərlərindən "qəsb və tərtib" edilən oğurluq adlandırmışdır. ("Açıq söz", 27 aprel 1916, №170).

**AXUNDOV** Mirzə Fətəli Mirzə Məhəmmədtağı oğlu (1812 - 1878) – yazıçı, materialist filosof, ictimai xadim. Realist Azərb. ədəbiyyatının banisi. Bədii yaradı-



**Ə.Axundov**



**İ.Axundov**



**Ə.Ağdamski**



**M.F.Axundov**



Ş.Axundova



Q.Almaszadə



S.S.Axundov

cılığa şeirlə başlamışdır ("Səbuhi" təxəllüsü ilə yazırdı). Lakin pyesləri, nəsri və fəlsəfi əsərləri ilə daha çox tanınmışdır. A. "Hekayəti-Molla İbrahimxəlil kimyagər" (1850), "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukuni-məşhur" (1850), "Sərgüzəşti-vəziri-xani Lənkəran" (1850), "Hekayəti-xırs quldurbasan" (1851), "Sərgüzəşti-mərdxəsis" ("Hacı Qara") (1852), "Mürafiə vəkillərinin hekayəti" (1855) komediyaları ilə Azərb.-da realist dramaturgiyasının bünövrəsini qoymuşdur. O, həmçinin "Aldanmış kəvakib" povestinin, "Kəmalüddövlə məktubları" adlı məşhur traktatın və bir çox fəlsəfi əsərlərin müəllifidir. A. ədəbi məktəbinin davamçılarından olan H. "Opera və dramın tərbiyəvi əhəmiyyəti haqqında" adlı məqaləsində böyük sələfi haqqında yazmışdır, "Axundovun... dramları mənim inkişafımda böyük rol oynamışdır" ("Kaspi" qəzeti, 1917, №260).

**AXUNDOV** Nazim Fərrux oğlu (1924 - 1994) – ədəbiyyatşünas. Filologiya e.d. (1966). Azərb. mətbuat tarixinə dair tədqiqatlar aparmışdır. "Ü.Hacıbəyov yaradıcılığının rus mədəniyyəti ilə əlaqəsi" (1970), "Ü.Hacıbəyovun həyat və fəaliyyəti haqqında yazılar" (1970), "Üzeyir Hacıbəyov və rus mədəniyyəti" (1971), "Ü.Hacıbəyov xaricdə" (1986) və s. əsərlərin müəllifidir. Onun "Azərbaycan" qəzetinin biblioqrafiyası (1918-1920-ci illər)" və "Azərbaycan dövrü mətbuatı" əsərlərində H.-un yaradıcılığından da bəhs edilir.

**AXUNDOV** Süleyman Rzaqulu bəy oğlu (təxəllüsü Süleyman Sani; 1875-1939) – yazıçı, dramaturq, pedaqoq. "İrşad", "Həqiqət" və "Tərəqqi" qəzetləri ilə əməkdaşlıq etmişdir. H.-la çox yaxın münasibətdə olmuş, "Leyli və Məcnun" operasının ilk tamaşasından sonra əsər üzərində təkmilləşdirilmə işlərin aparılmasında yaxından iştirak etmişdir.

**AXUNDOV** Şirin Məşədi Hüseyn oğlu (1878-1927) – tarzən. Sadıq Əsəd oğlunun tar məktəbinə mənsub sənətkar olmuşdur. H.-un "Leyli və Məcnun" operasının ilk tamaşasında iştirak etmişdir. İlk tamaşadan sonra "İrşad" qəzetində dərc edilən bir yazıda deyilirdi: ...Tarzən Qurbanın təhti-idarəsində çalanlar cümləsindən tarzən Şirin xüsusunda Hacıbəyov cənablarından məktub gəlmişdir: "Tarzənimillimiz olan məşhur Şirinə artıq təşəkkür edirəm ki, teatr günü nümayişkaranə bir surətdə çıxıb gedən sazəndələrə qoşulmayıb, kəmali-nəcabət ilə öz vədəsini əmələ gətirdi və gözəl çalğısı ilə bizim orkestrimizə kömək yetirdi" (15 yanvar, 1908, №7).

**AXUNDOVA** Şəfiqə Qulam qızı (d. 1924) – bəstəkar. Azərb. xalq art. (1998). ADK-nda "Azərbaycan xalq musiqisinin əsasları" fənnini H.-un sinfində öyrənmişdir. Bir çox mahnı və romansın, digər musiqi əsərlərinin, "Gəlin qayası" (1972, tamaşası 1974) operasının müəllifidir. A. bu operada H.-un muğam operaları ənənəsini davam etdirmişdir.

**ALMASZADƏ** Ənvər Hacağa oğlu (d. 1918) – teatr rəssamı, qrafik. Azərb. əməkdar rəs. (1964). Q. Almaszadənin qardaşıdır. 1937 ildən rəssam kimi fəaliyyət göstərdiyi AOBT-nda H.-un "Arşın mal alan" musiqili komediyasına və "Leyli və Məcnun" operasına tərtibat vermiş, geyim eskizləri hazırlamışdır.

**ALMASZADƏ** Qəmər Hacağa qızı (1915-2006) – balet artisti, baletmeyster və pedaqoq, ilk azərb. balerina. Azərb. xalq. art. (1943), SSRİ xalq art. (1959). Stalin mükafatı laureatı (1952). 1936-53 illərdə AOBT-nın solisti, 1953-89 illərdə isə baş baletmeysteri olmuşdur. H.-un "Koroğlu" operasında yaratdığı solo rəqs A.-nin kamil balerina kimi yetişdiyini göstərən sənət uğurlarındandır. H. Moskvada keçirilən Azərb. incəsənəti ongünlüyü (1938) zamanı Böyük Teatrda göstərilmiş "Koroğlu" operasındakı rəqsinə görə onu "gün üzlü balerina" adlandırmışdı.

**"ANANIN OĞLUNA NƏSİHƏTİ"** – H.-un Aşıq Mirzənin (Bayramov) sözlərinə bəstələdiyi mahnı (1942). Vətənpərvərlik ruhunda yazılmış bu mahnı janr etibarilə daha çox monoloqu xatırladır. Melodiyanın quruluşu, əsasən, deklamasiya şəklindədir. Mahnı ədəbi mətnə müvafiq olaraq qəzəbli etiraz və çağırış pafosu ilə səciyyələnir. H.-un müharibə illərində yazdığı digər mahnı və marşları ilə bərabər, bu mahnısı da cəbhə xəttində tez-tez səslənirdi. İlk dəfə 1942 ildə dərc olunub. 1975 ildə bəstəkarın "Seçilmiş ariya və mahnıları" məcmuəsinə, 1985 ildə "Odlu illərin mahnıları" məcmuəsinə daxil edilib.

**ANAPLI** (Məmmədov) Əbülhəsən (1894-1921) – aktyor. 1910-11 illərdə “Səfa” və “Nicat” cəmiyyətləri teatr truppalarında, 1916 ildən Z. və Ü.Hacıbəyov qardaşlarının teatr birliyində, 1920 ildən Azərb. Birləşmiş Dövlət Teatrında fəaliyyət göstərmişdir. Komik aktyor olmuş, H.-un əsərlərində Vəli, Hambal, Divanə (“Arşın mal alan”, “O olmasın, bu olsun”, “Şah Abbas və Xurşidbanu”) və b. rolları oynamışdır. Qarabağda qastrolda olarkən erməni daşnakları tərəfindən xaincəsinə öldürülmüşdür.

**ANAR** (Anar Rəsul oğlu Rzayev; d. 1938) – yazıçı dramaturq, ssenarist, rej., ictimai xadim. Azərb. əməkdar inc. xad. (1976), Azərb. Dövlət mükafatı laureatı (1980), Xalq yazıçısı (1998), İstiqlal ordeni (1998), Milli Məclisin Mədəniyyət komissiyasının sədri (1995-2005), Azərb. Yazıçılar Birliyinin sədri (1991 ildən; 1987 ildən birinci katibi olmuşdur). Rəsul Rzanın oğludur. 1981-82 illərdə “Azərbaycanfilm” kinostudiyasında o zamankı SSRİ Mərkəzi Televiziyasının sifarişi ilə özünün ssenarisi əsasında “Üzeyir Hacıbəyov. Uzun ömrün akkordları” (Azərb. variantında “Üzeyir ömrü”) adlı ikiseriyalı bədii rəngli televiziya filmi çəkmişdir. H. haqqında məqalələr (“Onsuz bir günümüz də yoxdur”, “Heykəl olmuş insan”, “Gözəlliyə qovuşmaq”, “Leyli və Məcnun”la yeni görüş”), bəstəkarın “Sənsiz” və “Sevgili canan” qəzəl-romanslarının ayrıca miniatür nəşrinə, “Üzeyir Hacıbəyov” ensiklopediyasına ön söz də yazmışdır.

**ANATOLLU** (Səfərov) Əhməd Muxtar oğlu (1894-1963) – aktyor, məzhəkə ustası. Azərb. əməkdar art. (1940). Səhnə fəaliyyətinə 1911 ildə “Səfa” cəmiyyətinin teatr truppasında başlamışdır. 1920 ildən AOBT, ADT və Musiqili Komediya Teatrında işləmişdir. H.-un “Arşın mal alan”, “O olmasın, bu olsun” musiqili komediyalarında Vəli və Hambal, “Koroğlu” operasında Təlxək rollarında oynamışdır.

**ANKARA DÖVLƏT OPERA VƏ BALET TEATRI** — 1949 ildə Ankara konservatoriyasının opera studiyası əsasında yaranmışdır. Teatrda H.-un “Arşın mal alan” və “O olmasın, bu olsun” musiqili komediyaları böyük uğurla tamaşaya qoyulmuşdur. “Arşın mal alan”ın ilk tamaşası 1985 il yanvarın 30-da olmuşdur. Tamaşanın dirijoru Nazim Rzayev, rej. Vaqif İbrahimoğlu (Həsənov), konsertmeysteri Əhəd Ələsgəroğlu (Əsgərov), mətnin türk dilinə tərcüməçisi Alev Yamaç, səhnə tərtibatı və geyim eskizlərinin müəllifləri Solmaz Haqverdiyeva, Savaş Camgöz və Mina Gökbuget, xoreoqrafı Tufan Kaytmaz idi. Əsgər rolunu Cümhur Böler, Gülçöhrəni Keriman Davran, Soltan bəyi Cavid Şahar, Cahan xalanı Nuran Çapanoğlu və Fövziye Bartu ifa etmişlər. “Məşədi İbad” (“O olmasın, bu olsun”) musiqili komediyasının ilk tamaşası isə 1989 il aprelin 10-da olmuşdur: dirijoru Taleh Qəniyev, rej. Vaqif İbrahimoğlu (Həsənov), konsertmeysteri Əhəd Ələsgəroğlu (Əsgərov), mətnin türk dilinə tərcüməçisi Nevid Kodallı, səhnə tərtibatçısı Nazim Bəykişiyev, xoreoqrafı Tufan Kaytmaz idi. Məşədi İbad rolunu Yalçın Davran və Şinasi Özel, Rüstəm bəyi Ayhan Ahiskal və Tahir Solakoğlu, Gülnazı Sema Özer oynamışlar.

Hər iki əsərin səhnəyə qoyulması Türkiyənin mədəni həyatında böyük bir hadisə kimi qarşılanmışdı.

**ARAKİŞVİLİ** (Arakçiyev) Dmitri İqnatyeviç (1873-1953) – gürcü bəstəkarı, musiqişünas-etnoqraf, ictimai xadim. Gürc. xalq art. (1929), Gürc. EA akad. (1950), Stalin mükafatı laureatı (1950). A. gürcü milli musiqi məktəbinin banilərindəndir. H. onunla Tiflisdə tanış olmuş, sonralar onların münasibətləri dostluğa çevrilmişdir. Onlar tez-tez görüşər, məktublaşardılar. H.-un ev muzeyində A.-nın məktubları saxlanılır.

**“ARAZBARI”** – geniş yayılmış Azərb. zərbi-muğamlarından biri. H. “Leyli və Məcnun” operasının 5-ci pərdəsinin son şəklindəki musiqi müqəddiməsində - antraktda “A.”-dan istifadə etmişdir. “A.”-nın gələcək səhnə hadisələrinin emosional atmosferini yaradan musiqisi çox zərif, həzin səslənərək, dünyadan nakam köçmüş qəhrəmanların insan yaddaşında əbədi yaşayacaq kədərli obrazlarını canlandırır. H. muğam ifa edən milli vokal-instrumental musiqi ansamblının ifaçılıq prinsiplərinə xas imitasiyalı inkişaf üslubundan istifadə edərək “A.”-nı çox incə bədii zövq, ölçü hissi və yaradıcılıq kəşfləri ilə işləmişdir. “A.” Azərb. simf. musiqisinin ilk qaynaqlarından olub, F.Əmirov və Niyazinin yaradıcılığında simf. muğamın meydana gəlməsinə zəmin yaratmışdır. Bədii vüsətinə görə müstəqil əsər təsiri bağışlayan bu antrakt simf. ork.-in ifasında səslənir.



**Ə.Anaplı**
“Arşın mal alan”da Vəli rolunda.



**Anar**




**“Arşın mal alan”** musiqili komediyasının afişası. 1913.




**“Arşın mal alan”** musiqili komediyasının rus dilində tamaşasının afişası. 1916.

**“ARŞIN MAL ALAN”** – H.-un üçüncü və sonuncu musiqili komediyası. 1913 ildə yazılmış və həmin il Sankt-Peterburqda, konservatoriyaya qəbul imtahanı ərəfəsində tamamlanmışdır. Azərb. cəmiyyətinin o dövrdəki ailə-məişət münasibətlərinin tənqidi, insanın mənəvi azadlığı, Azərb. qadınlarının öz hüquqları uğrunda mübarizə mövzusuna həsr olunmuşdur. Librettosunu da H. özü yazmışdır. Müəllif müsbət qəhrəmanları ön plana çəkir, köhnə feodal-tacir aləminin nümayəndələrini isə sanki “pərdə” arxasında gizlədir; bu nümayəndələr intuitiv olaraq gənclərin şəxsi azadlıq və əsl ailə səadətinə can atmalarına haqq qazandırır. “A. m. a”-ın iştirakçıları cəmiyyətin müxtəlif təbəqələrini və müəyyən xarakter tiplərini təmsil edirlər. Silki xurafatdan uzaq, romantik, coşqun ruhlu baş qəhrəmanlar - Əsgər və Gülçöhrə üçün həyatda başlıca şey - böyük və səmimi məhəbbətdir. Sakit və təmkinli Süleyman və Asya xoşbəxtliklərini mənsub olduqları zadəgan - tacir əhatəsində axtarırlar. Köhnə dünyanın təmsilçiləri Cahan xala ilə Soltan bəy öz aləmlərini müdafiə etsələr də, bu aləmə, qismən, etibarsız çıxırlar. Ağıllı, gözüaçıq, mehriban qulluqçu və nökər - Telli ilə Vəli əsərin demokratik yönünü təcəssüm etdirirlər. “A. m. a.”-ın başlıca bədii ifadə mənbəyi olan musiqinin dramaturji funksiyası geniş və mürəkkəbdir. Obrazlı məzmunun dərinliyi və musiqinin inkişafının əhatəliliyi “A. m. a”-ı komik operaya yaxınlaşdırır. Əsgərin II pərdədəki mahnısının mövzusu əsasında olan məhəbbət leytmotivi musiqinin obrazlı intonasiya vəhdətinə zəmin yaradır. Baş qəhrəmanların obrazlarını və fərdiyyətini dolğun açmaq üçün H. başlıca olaraq ariyadan istifadə etmişdir. Bu səbəbdən muğam melodiyalarının üslub xüsusiyyətləri ilə bağlı geniş və rəngarəng intonasiya inkişafı üçün zə-




**“Arşın mal alan”** musiqili komediyasının Təbrizdəki tamaşasının afişası. 1917.

min yaranmışdır. Əsgərin I pərdədəki ariyası (Füzulinin qəzəli əsasında) onun ümumiləşdirilmiş surətini yaradaraq kədər, həsrət, xəyalpərvərliklə yanaşı, həyəcan və coşqunluğu ifadə edir. Əsgərin II pərdədəki mahnısı və Gülçöhrə ilə duetində sevinc, nikbinlik, sağlam həyat duyumu kimi cəhətlər ifadə olunmuşdur. II pərdədə Gülçöhrənin ilk ariyası çarəsizlik, ümidsizlik ruhundadır. Həmin pərdədəki o biri ariyanın musiqisi coşqun ehtiraslı, sərbəst emosiyalıdır. Gülçöhrənin partiyası iki genişhəcmli vokal nömrələrlə - III pərdədəki ariya və IV pərdədəki ariozo ("Nalə") ilə tamamlanır. Sonuncu ariozoda qəhrəmanın ilkin əhvali-ruhiyyəsinə qayıtmaqla o dövrün Azərb. qadınının kədərli taleyi təmsil olunur. Digər qəhrəmanların obrazları məişət janrı üslubundakı musiqi vasitəsilə açılır. Obrazları qabarıq verilmiş Vəli ilə Tellinin dueti intonasiya ifadəliliyinə görə məişət xarakterli musiqi səhnəciyidir. Əsərin uvertürasında ümumiləşdirilmiş şəkildə sevinc, şənlik atmosferi verilmişdir. Uvertüranın əsas mövzusu "Boynunda var sarılıq" xalq mahnısı, orta hissəsi isə məhəbbət leytmotivi əsasında qurulmuşdur. "A.m.a."-ın musiqisində folklorla böyük və dərin bağlılıq vardır. Lakin burada H. xalq mahnıları mövzusunun eynilə istifadəsindən demək olar ki, imtina etmişdir. O, şifahi xalq yaradıcılığında artıq işlənmiş və saflaşmış melodiyanı bir daha cilalayır, folklor melodiyasının əsas mövzu rüşeymini özünəməxsus tərzdə yaradıcılıqla inkişaf etdirir. "A. m. a."-da H. Azərb. musiqisinin şifahi ənənəli mahnı, aşıq, muğam yaradıcılığı kökü ilə Avropa klassik operasına xas kantilenalığı üzvi surətdə birləşdirərək yeni milli melodika tipi yaratmışdır. Əsərdəki digər yenilik H.-un milli harmoniya üslubunu yaratmasıdır. Bu üslub Azərb. lad-məqam sisteminin Avropa major-minor sistemi ilə vəhdətindən yaranmışdır. Milli musiqidəki çoxsəslilik elementlərinə əsaslanaraq, H. polifoniya yazı üslubundan da istifadə etmişdir. Bu əsərdə H. yaradıcılığının yetkin dövrü üslubu üçün tipik olan müstəqil melodiya xətlərinin üzvi birləşməsindən əmələ gələn ikisəsli instrumental faktura yaratmış, xalq mahnı formaları ilə (kuplet, period), peşəkar bəstəkarlıq yaradıcılığı musiqi formalarını uyğunlaşdırmaq yolu ilə getmişdir. Bu əsərdə bəstəkarın çoxsistemli musiqi təfəkkürü təşəkkül tapmışdır.

"A. m. a."-ın müstəsna zəngin səhnə həyatı var. İlk tamaşası 1913 il oktyab-






**"Arşın mal alan"** tamaşasından səhnələr.



**“Arşın mal alan”** tamaşasından səhnələr.

rın 25-də Bakıda, H.Z.Tağıyevin teatrında olmuşdur. Rollarda H.Sarabski (Əsgər), Ə.Ağdamski (Gülçöhrə), Ə.Hüseynzadə (Soltan bəy), M.H.Terequlov (Süleyman), H.Hüseynov (Vəli) və b. çıxış etmişlər. Tamaşanın rej. H. Ərəblinski idi. Əsərin librettosu rus, gürcü, erməni, Ukrayna, belorus, ingilis, fars, türk, çin, polyak, bolqar və s. dillərə tərcümə edilmişdir. "A. m. a." Nyu-York, Paris, London, Berlin, Ankara, Tehran, Qahirə, Varşava, Sofiya, Pekin və s. ş.-lərdə tamaşaya qoyulmuşdur. 1938 ildə Moskvada Azərb. incəsənəti dekadası zamanı göstərilmişdir. İfaçılar, Bülbül (Əsgər), S.Mustafayeva (Gülçöhrə), H.Rzayeva (Telli), Ə.Anatollu (Vəli), Ə.Hüseynzadə (Soltan bəy) və b. Tamaşanın rej. İ.Hidayətzadə olmuşdur. 1952 ildə "A. m. a." Moskvada K.S.Stanislavski və V.İ.Nemiroviç-Dançenko ad. Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur.

"A.m.a" 4 dəfə ekranlaşdırılmış, dəfələrlə qrammofon valına yazılmışdır (Azərb., rus və fars dillərində).

**"ARŞIN MAL ALAN"** – H.-un eyniadlı musiqili komediyası əsasında çəkilmiş bədii filmlər. İlk dəfə 1916 ildə Piron qardaşlarının "Filma" səhmdar cəmiyyətinin rej. B.Svetlov tərəfindən çəkilmişdir. Rolları Ə.Hüseynzadə (Soltan bəy), H.Sarabski (Əsgər), Ə. Ağdamski (Gülçöhrə), Y.Nərimanov (Cahan xala), M.Əliyev (Süleyman bəy) və b. ifa etmişdilər. Film səssiz olduğundan onu xalq çalğı alətləri müşayiət edir, C.Qaryağdı oğlu və s. xanəndələr musiqili komediyadan ariyalar ifa edirdilər. Film tamaşaçılar tərəfindən maraqla qarşılandı. 1917 ildə Peterburqdan gəlmiş Q.Belyakov "A. m. a"-ı yenidən ekranlaşdırdı. Lakin o, əsəri ekranlaşdırarkən müəlliflə məsləhətləşməmiş, ondan icazə belə almamışdı. Film 1917 il aprelin 20-də ekrana buraxılmış və cəmi 2 gün nümayiş etdirilmişdi. Həvəskar aktyorların iştirakı ilə çəkilmiş bu film çox zəif alınmış və H.-un təkidi ilə ekrandan çıxarılmışdı. 1937 ildə "A. m. a" ABŞ rej. R.Mamulyan tərəfindən ekranlaşdırılmış, lakin filmdə H.-un adı göstərilməmişdir.






**"Arşın mal alan"** filmindən kadrlar. 1945.



**"Arşın mal alan"** filmindən kadr. 1965.

1945 ildə Bakı kinostudiyasında (indiki "Azərbaycanfilm") çəkilmiş ağ-qara, musiqili film dünyada geniş şöhrət qazandı. Ssenari müəllifi Sabit Rəhman, quruluşçu rej.-lar R.Təhmasib və N.Leşşenko, operatorlar Ə.Atakişiyev və M.Dadaşov, musiqi redaktoru Niyazi idi. Baş rollarda R.Behbudov (Əsgər), L.Cavanşirova (Gülçöhrə), Ə.Hüseynzadə (Soltan bəy), M.Kələntərli (Cahan xala), L.Abdullayev (Vəli), İ.Əfəndiyev (Süleyman bəy), F.Mehrəliyeva (Telli) və b. çəkilmişdir. "A. m. a." filminə görə H., R.Təhmasib, N.Leşşenko, R.Behbudov, L.Cavanşirova (Bədirbəyli), Ə.Hüseynzadə, M.Kələntərli və L.Abdullayev 1946 ildə Stalin mükafatına layiq görülmüşlər.

1965 ildə "A. m. a." musiqili komediyası Bakıda yenidən ekranlaşdırılmışdır. Bu rəngli musiqili filmin rej. T.Tağızadə, ssenari müəllifləri M.Dadaşov və T.Tağızadə, musiqi redaktoru F.Əmirov idi. Əsas rolları H.Məmmədov (Əsgər), L.Şıxlinskaya (Gülçöhrə), H.Yagizarov (Süleyman bəy), A.Qurbanov (Soltan bəy), N.Məlikova (Cahan xala), X.Hacıyeva (Asya), S.İbrahimova (Telli) və b. oynamışlar.

**"ARŞIN MAL ALAN" HAQQINDA QEYDLƏRİM"** – H.-un məqaləsi. "Kommunist" qəzetinin 1938 il 11 aprel tarixli sayında dərc olunmuşdur. Məqalədə musiqili komediyanın məzmunu təhlil edilir, əsərin ilk tamaşası zamanı qarşıya çıxan çətinliklərdən, tezliklə şöhrət qazanmasından bəhs olunur. Moskvada keçirilmiş Azərb. incəsənəti dekadasının repertuarına daxil edilən tamaşanın yeni quruluşunu (1938) bəyənən müəllif müğənnilərdən H.Hacıbababəyov, S.Mustafayeva, S.Quliyeva, A.Terequlova, E.Axundova, H.Rzayeva, Ə.Anatollu, Ə.Hüseynzadənin ifasına, rej. İ.Hidayətzadə və rəssam Ə.Sultanovun işinə yüksək qiymət vermişdir.

**ANTRAKT** – H.-un əksər musiqili səhnə əsərlərində müəyyən pərdələrdən əvvəl ifa olunan orkestr müqəddiməsi. A.-da gələcək səhnə hadisələrinin məzmunu ümumiləşdirilərək obrazlı-emosional şəkildə açılır. "Leyli və Məcnun" operasının son şəklinin A.-ı H. yaradıcılığında ən parlaq A. nümunələrindəndir. H. burada "Arazbarı" zərbi-muğamından istifadə etmişdir. H.-un "Ər və arvad" musiqili komediyasının II pərdəsinin A.-ı da əhəmiyyətlidir. Bu A.-a H. ilk dəfə polifoniya formasından - üçsəsli fugettadan istifadə etmişdir. "Əsli və Kərəm" operasının bütün pərdələri A. ilə başlanır. "Koroğlu" operasının A.-ları dramaturji cəhətdən xüsusilə əhəmiyyətlidir. II pərdənin A.-ı özünəməxsusluğu ilə diqqəti cəlb edir. Feodalların təntənəli, təmtəraqlı məişəti çox yığcam şeypur sədalı mövzu ilə ifadə olunmuşdur. Bu mövzunun ardınca səslənən ikinci mövzu düşüncəli, ciddi və mərdanə xarakterlidir. O, III pərdənin "Əhdnamə" xorunun transformasiya olunmuş mövzusunun əsasında qurulmuşdur. Həmin mövzunun II pərdənin A.-ında səslənməsi firavan, bayramsayağı saray həyatının mübarizəyə qalxmış xalq kütlələrinin iradəsinə tabe olması və dağılması ilə bağlıdır. III pərdənin A.-ı simfonik musiqinin yüksək nümunəsidir. "Çənlibel" xoru ilə birlikdə bu A. xalq kütlələrinin qəhrəmani azadsevər xarakterini təcəssüm etdirən monumental vokal-simfonik lövhə yaradır. Kompozisiya quruluşuna görə sonata formasında olan bu A.-da muğam forması ilə üzvi bağlılıq vardır. A.-ın orijinal məqam-tonallıq planı da onun muğam forması ilə əlaqəsindən irəli gəlir: burada sonata formasının hər bölməsindən sonra ilkin məqam-tonallığa - fa diyez minora qayıdış baş verir. Bu cür qayıdış muğamda ilkin şöbə olan mayə-tonikaya qayıdışın eynidir. H.-un A.-ları (xüsusilə "Koroğlu" operasının) Azərb. bəstəkarlarının yaradıcılığında simf. musiqinin təşəkkülü və inkişafında mühüm rol oynamışdır.

**ASLANOV** Mirabbas Seyidağa oğlu (d. 1923) – filoloq, jurnalist. Pedaqoji elmlər namizədi (1962). Uzun müddət H.-un həyatının və jurnalistlik fəaliyyətinin tədqiqi ilə məşğul olmuşdur. Bu haqda bir sıra məqalələr, 2 monoqrafiya ["Ü.Hacıbəyov (gənclik illəri)", 1977 və "Üzeyir Hacıbəyov - jurnalist", 1985] "Üzeyir Hacıbəyov gündəlik yazmış olsaydı" elmi-kütləvi kitabını (1994) yazmışdır. H.-un müxtəlif dövrlərdə yazdığı felyetonları toplayaraq "Ordan-burdan" başlığı ilə çap etdirmiş (1981), bircildlik "Seçilmiş əsərləri"nin (1985) tərtibçisi olmuşdur. "Üzeyir Hacıbəyov" biblioqrafiyasının (1976, 1985) müəlliflərindəndir.



M.Aslanov

**ASLANOVA** Sona Şahnəzər qızı (d. 1924) – müğənni (lirik soprano). Azərb. əməkdar art. (1956). Kamera-vokal musiqisinin fəal təbliğçilərindən, bir sıra ariya və romansların ilk ifaçılarındandır. Onun ifasında H.-un "Sənsiz" romans-qəzəli, eləcə də klassik operalardan ariyalar emosionallığı və sənətkarlığı; güclü musiqi duyumu ilə fərqlənir. "Doğma xalqımıza" musiqili sənədli filminin (1954) "Koroğlu" operasına aid hissəsində Nigar rolunda çəkilmişdir.

**AŞQABAD DÖVLƏT AZƏRBAYCAN MUSİQİLİ TEATRI** – 1921 ildə "Ərəblinski teatrı truppası" və "Beş nömrəli müsəlman truppası"nın əsasında yaradılmış, 1932 ilədək həvəskarlar dərnəyi, 1932-40 illərdə Dövlət teatrı kimi "Azərbaycan Millətlər Teatrı", "Türk Dram Teatrı", "Aşqabad Dövlət Azərbaycan Musiqili Teatrı" adları ilə fəaliyyət göstərmişdir. Repertuarında H.-un "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyaları, "Əsli və Kərəm" və "Koroğlu" operaları əsas yer tutmuşdur.

**AŞIQ MUSİQİSİ** – şifahi ənənəli Azərb. musiqi mədəniyyətinin ən qədim sahələrindən biri, aşıq sənətinin mühüm tərkib hissəsi. Aşıq sənətində musiqi, poeziya, təhkiyə, rəqs, pantomima, teatr sənəti elementləri üzv şəkildə birləşmişdir. Aşıq yaradıcılığının ən mürəkkəb janrı olan dastanda aşıq sənətinin çoxcəhətliliyi daha aydın təzahür edir. A. m.-nın ən geniş yayılmış növlərindən biri sazın müşayiətilə solo oxumaqdır. Sazda çalmaq tarixi inkişaf prosesində tədricən müstəqil bədii əhəmiyyət kəsb etmişdir. H. öz yaradıcılığında aşıq sənətinin tipik xüsusiyyətlərini yüksək bədii sənətkarlıqla təcəssüm etdirmişdir. A. m. vasitəsilə H. Azərb. xalqının öz tarixi inkişaf prosesində əldə etdiyi mənəvi dayaqları açıb göstərmiş, ilk növbədə, xalq kütləsinin qəhrəmanlıq meyllərini aşıq sənəti süzgəcindən keçirərək ifadə etmişdir. Aşıq sənəti H. üçün həyatın əbədi hərəkətinin, harmoniya və gözəlliyin, insanla təbiətin vəhdətinin, xalqın xarakterindəki nikbinliyin sarsılmazlığını təsdiq edən daha dərin fəlsəfi ümumiləşdirmələr üçün zəmin olmuşdur. H. yaradıcılığının ilk dövründə - "Əsli və Kərəm" operasında (1912) aşıq sənətinə müraciət etmişdi. Əsas qəhrəman - Kərəmi səciyyələndirmək üçün H. ənənəvi "Kərəmi" aşıq havasından istifadə etmişdi. 30-cu illərin əvvəlində H. skripka, violonçel və fp. üçün "Aşıqsayağı" pyesini yazmışdır. Bu pyesdə A. m.-nin məqam-intonasiya, melodiya, vəzn-ritm, kompozisiya kimi səciyyəvi xüsusiyyətlərini H. artıq təşəkkül tapmış bəstəkarlıq təfəkkürü süzgəcindən keçirərək, onlara yeni məna vermişdir. H. eyniadlı dastan əsasında yazdığı "Koroğlu" operasında (1932-36; tamaşası 1937) A. m.-ndən daha geniş və hərtərəfli istifadə etmişdir. H. özü yazırdı ki, Koroğlu aşıq olduğu üçün operada da A. m. üslubu üstünlük təşkil edir. Novator bəstəkar A. m.-nin obraz-intonasiya sistemini klassik opera üslubu səviyyəsində inkişaf etdirmişdir. A. m.-ndə geniş inkişaf tapmış şur məqamı "Koroğlu"da bədii ümumiləşdirmə səviyyəsinə qalxmışdır. Operanın lap əvvəlində - uvertüranın müqəddiməsində səslənən üsyan etmiş xalqın çağırış-şeypur sədalı leytmotivi şurun tipik kadensiya ifadələri əsasında qurulmuşdur. Ümumiyyətlə, xalqın qəhrəmanlıq keyfiyyətlərinin açılmasında obrazlı ifadə vasitəsi kimi şur məqamı çox böyük əhəmiyyət kəsb edir. Koroğlu partiyasının əksər hissəsi A. m. üslubunda yazılmışdır: qəhrəmanı ilk dəfə xarakterizə edən "Səni gördüm..." ariozosu və s. 3-cü pərdədə "Mərd igidlər nərə çəksin davada" mahnısı epik A. m. üslubundadır. 4-cü pərdədə - Həsən xanın sarayında aşıq qiyafəsində meydana çıxan Koroğlu üç müxtəlif səpkili aşıq mahnısı ilə xarakterizə olunur (1-ci pərdədəki "Səni gördüm" ariozosunun daha geniş inkişaflı variantı, Gözəlləmə, Şikəstə). H. operada A. m.-dən sitat şəkildə istifadə etməmişdir, lakin aşıq melodiyalarının

janr kompozisiya, məqam, intonasiya, obraz-məzmun xüsusiyyətləri çox dərin və üzvi şəkildə verilmişdir. Operada Koroğlunun partiyasının yuxarı tembrli registrdə - zildə yazılması da aşıq vokal sənətinin xüsusiyyətlərindən irəli gəlir. A. m.-nin obraz-intonasiya sistemi müharibə illərində yazılmış "Yaxşı yol", "Şəfqət bacısı" mahnılarında, "Vətən və cəbhə" kantatasının ayrı-ayrı hissələrində, "Ey Vətən" xorunda da özünü göstərir.

A. m. xüsusiyyətləri H.-un əsərlərində yalnız müəyyən janr xarakteristikası daşımır. Bu musiqini dərindən duyan H. hələ yaradıcılığının ilkin çağında dastanlara xas kompozisiyadan, süjetin tədricən, təfərrüatla açılması xüsusiyyətlərindən istifadə etmişdir. İlk operaları üçün səciyyəvi olan təhkiyyəçilik bir çox cəhətdən dastanların inkişaf prinsipindən irəli gəlir. Koroğlu obrazının açılışının dramaturji xüsusiyyətləri çox səciyyəvidir - qəhrəman həmişə xalqın əhatəsindədir, xalq səhnələri operada qəhrəmanı səciyyələndirən solo musiqi nömrələrindən ya əvvəl, ya da sonra verilmişdir. Koroğlunun və xalq səhnələrinin musiqi materialında vahid mövzu elementləri özünü göstərir. A. m. bəstəkarın harmoniya dilinin təşəkkülündə də əhəmiyyətli rol oynamışdır; kvarta-kvinta nisbətli orijinal akkordların kökü saz ifaçılığı ilə bağlıdır.

**"AŞIQSAYAĞI"** – H.-un skripka, violonçel və fp. üçün pyesi. 1931 ildə yazmışdır. "A." Azərb. musiqisində kamera-instrumental musiqinin ilk nümunələrindəndir. "A." həyatı harmonik vəhdətdə, nikbin ruhda görən H.-un, bir növ, fəlsəfi kredosunun musiqi vasitəsilə ifadəsidir. "A."-da H.-un sevimli bəstəkarı V.A.Motsartın təsiri duyulur. Bu təsir klassik sadəlik və təbiilikdə, yığcam musiqi formasında, əsərin fakturasının zərifliyində özünü göstərir. "A."-da aşıq və muğam (xüsusilə zərbi-muğam) sənətlərinə məxsus musiqi üslubu üzvi surətdə birləşmişdir. H. ilk dəfə Azərb. professional musiqisinin iki müxtəlif sahəsini əsl yaradıcı dərinlik və novatora xas sərbəstliklə işləmişdir. Avropa və milli musiqi üslublarının üzvi əlaqəsi "A."-nın musiqi formasında başlıca cəhətdir ("A."-nı H.-un yaradıcılığında sonata formasına xas musiqi mövzularının işlənmə prinsipinə, işlənmə metodlarının tətbiqinə hazırlıq mərhələsi hesab etmək olar). Pyesdə çoxtərkibli musiqi formaları da özünü göstərir (rondovarilik, variasiyalılıq və s.). "A."-nın musiqisindəki polifoniya (imitasiyalı və təzadlı) fakturasının incəliklə işlənməsinin kökü milli vokal-instrumental ansambl musiqisi ilə bağlıdır. "A." pyesi "Koroğlu" operasının bir sıra orijinal səhnələrinin yaranmasına zəmin olmuş, yol açmışdır. Bəstəkarlardan Q. Qarayev, F.Əmirov, A.Əlizadə və b. "A."-dan təsirlənərək əsərlərində aşıq yaradıcılığının obraz-intonasiya kökünü işləmişlər. Q.Qarayev 60-cı illərdə "A."-nı kamera ork. üçün transkripsiya etmişdir.

**"AŞIQ SƏNƏTİ"** – H.-un məqaləsi. "Bakinski raboçi" qəzetinin 1928 il 7 may tarixli 109 sayında dərc olunmuşdur. Azərb. aşıqlarının I qurultayının çağırılması münasibətilə yazılmış məqalədə aşıq sənətinin ictimai və elmi əhəmiyyətindən, bu sənətin yayılmasında mühitin təsirindən, aşıqların repertuarından, musiqi üslubu və formalarından müxtəsər danışılır. Müəllif aşıq sənətinin xalqın öz yaradıcılığı olduğunu qeyd etmiş və aşıqları birləşdirmək, ictimaiyyətin diqqətini aşıq musiqisinə cəlb etmək və s. məsələləri qurultayın qarşısında qoymuşdur.

**ATAKİŞİYEV** Əlisəttar Ələsgər oğlu (1906-1990) – kino operatoru, rej. və rəssam. Azərb. əməkdar inc. xad. (1960). H.-un eyniadlı musiqili komediyaları əsasında çəkilmiş "Arşın mal alan" (1945, M. Dadaşovla birgə), "O olmasın, bu olsun" (1956) filmlərinin quruluşçu operatoru olmuşdur.



**H.Atakişiyev**

**ATAKİŞİYEV** Hüseynağa Ağahüseyn oğlu (1949-2006) – rejissor, aktyor, Azərb. əməkdar inc. xad. (1983). "Üzeyir ömrü" bədii televiziya filmində H.-un obrazını yaratmış, 1995 ildə İstanbulda H.-un Arşın mal alan" musiqili komediyasını tamaşaya qoymuşdur. "O, olmasın, bu olsun" tamaşasını İrəvan Azərb. t.-da səhnəyə qoymuşdur.

**ATAKİŞİYEV** Rafiq (Rauf) İsrafil oğlu (1926-1994) – müğənni (lirik-dramatik tenor), pianoçu. Azərb. xalq. art. (1967). AOBT səhnəsində H.-un "Arşın mal alan" musiqili komediyasında Əsgərin partiyasını ifa etmişdir. 1965 ildə çəkilmiş "Arşın mal alan" filmində də Əsgərin mahnıları A.-in ifasında səslənmişdir.

**ATAMALIBƏYOV** Məhəmmədhəsən Qəzənfər oğlu (1890-1943) – aktyor, pedaqoq. Şamaxı, Cəlilabad, Göyçay və Bakıda xalq maarifi və türk teatrlarının in-

kişafı sahəsində fəaliyyət göstərmişdir. Şamaxıda yerli ziyalıların iştirakı ilə H.-un "O olmasın, bu olsun" və "Arşın mal alan" tamaşalarını səhnəyə qoymuşdur. 1921 ildən ADT-nın aktyoru olmuş, H.-un "Arşın mal alan" və "O olmasın, bu olsun" musiqili komediyalarında Əsgər, Süleyman və İntelligent Həsən rollarında çıxış etmişdir.

**"АЗЕРБАЙДЖАН"** – ictimai-siyasi və ədəbi qəzet. ADR-in 1918-20 illərdə rus dilində nəşr olunan rəsmi orqanı. İlk nömrəsi 1918 il oktyabrın 7-də Bakıda çapdan çıxmışdır. Redaktorları C.Hacıbəyli və Ş.Rüstəmbəyli idi (1919 ilin yanvarından bağlanan günədək Ş.Rüstəmbəyli qəzetə təkbaşına redaktorluq etmişdir). "A."-da H.-un "İran haqqında məktublar"ı (1, 4, 6 noyabr, 1918) dərc olunmuşdur. H. ADR-in azərbaycanca nəşr olunan "Azərbaycan" qəzetinə rəhbərlik etdiyi zaman "A." redaksiyası ilə müntəzəm əlaqə saxlayırdı. Qəzet 1920 il aprelin 27-nədək nəşr olunmuşdur.

**"AZƏRBAYCAN"** – ictimai-siyasi və ədəbi qəzet. ADR-in 1918-20 illərdə Azərb. dilində nəşr olunan rəsmi orqanı. İlk 4 sayı 1918 il sentyabr ayında Gəncədə, qalan sayları Bakıda buraxılmışdır. "A." 8 sayına qədər "redaksiya heyəti" imzası ilə, 8-19 sayları C.Hacıbəyli və Ş. Rüstəmbəylinin müştərək redaktorluğu ilə çıxmışdır. 1918 il oktyabrın 7-dən "A" həm də rus dilində ayrıca nəşr olunmağa başlamışdı. Ş.Rüstəmbəyli qəzetin rusca çıxan nəşrinə baş redaktor təyin edildiyindən, 51 sayından 88 sayınadək (16.01.1919) təkcə C.Hacıbəylinin redaktorluğu ilə nəşr olunmuş, 1919 il yanvarından bağlanan günədək (1920 il 27 aprel) H.-un rəhbərliyi ilə buraxılmışdır.

"A." qəzeti Müsavat Partiyasının orqanı deyildi. H. bu barədə yazmışdı: "Danışırlar ki, "Azərbaycan" qəzeti guya, Müsavat partiyasına mənsub firqəvi bir qəzet imiş. Bu fəqərə barəsində bunu bəyan etməyi lazım bilirəm ki, qəzetimiz partiya qəzeti deyildir" ("A", 10 mart 1919, №133). H. qəzetin ideya istiqamətini Vətənin istiqlalı yolunda çalışmaq kimi səciyyələndirirdi. Redaktoru və fəal ziyalılar bu müqəddəs məsləkə - xalqın azadlığı, milli mənlik, milli qeyrət və qurtuluş uğrunda mübarizə işinə sədaqətlə xidmət edirdilər.

H. "A."-da parlamentin işindən bəhs edən "Təəssürat" ümumi başlıqlı reportajlar, onlarca baş məqalə ("Mühüm məsələ", "Bir yaş", "Partiyalarımıza", "Daxili işlərimiz", "Yenə başlanır", "Müvəffəqiyyətlərimiz", "İstiqlal müdafiəsi üçün", "Bolşevizm nədir?" və s.), siyasi icmalar ("Ermənistan və Azərbaycan münasibəti", "İçimizdəki Denikinlər", "İstiqlal və istiqbal ümidi" və s.), həmçinin məşhur "Filankəs" və "...çı" imzaları ilə felyetonlarını dərc etdirmişdir.

**"AZƏRBAYCAN"** – aylıq ədəbi-bədii və ictimai-siyasi jurnal. Azərb. Yazıçılar Birliyinin orqanıdır. 1923 ildən Bakıda nəşr olunur. Müxtəlif vaxtlarda "Maarif və mədəniyyət" (1923-27), "İnqilab və mədəniyyət" (1928-1936; 1946-1952), "Revolyusiya və kultura" (1936-1941), "Vətən uğrunda" (1941-1946) adı ilə nəşr edilmişdir. H.-un bir sıra məqalələri, o cümlədən, "Musiqidə xəlqilik" (1939, №5), "P.Çaykovski və Azərbaycan musiqisi" (1940, №5-6) və s. bu jurnalda dərc olunmuşdur.

**"AZƏRBAYCAN"** – H.-un 1919 ildə bəstələdiyi marş. Sözləri Əhməd Cavadındır. Uzun illər Azərb. xalqına və musiqi ictimaiyyətinə naməlum qalmış bu marşın not yazısı ilk dəfə 1966 ildə, türk musiqişünası Etem Üngörün Ankarada nəşr etdirdiyi "Türk marşları" kitabında çap olunmuşdur. Re minor tonallığında, səsaltı mətnlə birsəsli çap olunan bu marşı Etem Üngörün hansı vasitə ilə əldə etməsi hələ məlum deyil. Müəllifin kitabda verdiyi məlumata görə "Azərbaycan istiqlalı qeyb etməzdən öncəki illərdə (28 aprel 1920 il nəzərdə tutulur - red.) bu marş hər səhər hərbi okullarda (məktəblərdə - hissələrdə - red.) dərs başlanmazdan əvvəl oxunardı". "A." marşı haqda müasir Azərb. oxucularına ilk məlumat S.Fərəcovun "Ədəbiyyat və incəsənət" qəzetinin 1989 il 14 iyul tarixli sayında dərc olunmuş "Ü.Hacıbəyovun iki marşı" məqaləsində verilmişdir. Marş tezliklə bəstəkar A.Əzimov tərəfindən böyük xor və simf. ork. üçün oranjeman edilərək lentə yazıldı və 1989 ilin payızında ilk dəfə xalq qarşısında səsləndirildi. "A." marşının vaxtilə ADR-in (1918-1920) rəsmi dövlət himni olması ehtimalı da vardır. Lakin kifayət qədər rəsmi sənədlərin aşkar olmaması bu ehtimalı hələlik tam təsdiq etmir. 1992 ildə "A." marşı Azərb. Resp.-nın dövlət himni kimi qəbul edilmişdir.

**"AZƏRBAYCAN"** – H.-un 1919 ildə bəstələdiyi xoreoqrafik əsər. Quruluşca məhz səhnə üçün nəzərdə tutulduğundan bu əsəri professional milli baletimizin ilk nümunəsi kimi qəbul etmək olar. "Azərbaycan" qəzetinin 1919 il 27 fevral tarixli 124 sayında yazılıb:

"...Ü.Hacıbəyov tərəfindən digər bir balet rəqsi yazılmışdır ki, bunun da adı "Azərbaycan"dır. Keçən günlərdə yazmış olduğu "Dağıstan" baleti "ləzginka" sayağında olduğu halda, bu yeni "Azərbaycan" baleti də "tərəkəmə" səbukundədir. Hər iki oyun səhnə üçün hazırlanmaqdadır..."

**"AZƏRBAYCAN ARXİVİ"** – məcmuə. Azərb. Resp. Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin orqanı. 1959 ildən çıxır. Məcmuənin 1959 il 1-ci, 1963 il 2-ci, 1969 il 1-ci, 1985 il 2-3-cü və digər saylarında H.-un həyat və fəaliyyətinin ilk dövrlərini, Azərb. musiqi sənətinin inkişafındakı, o cümlədən musiqi təhsilinin təşkilindəki əvəzsiz xidmətini əks etdirən çoxlu sənəd və məlumat dərc olunmuşdur.

**AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQI** – Azərb. bəstəkarları və musiqişünaslarının ictimai yaradıcılıq təşkilatı. 1934 ildə yaradılmışdır. İdarə heyəti və katibliyi var. İttifaqın məqsədi xalqın mənəvi zənginləşməsinə xidmət göstərmək, musiqi mədəniyyətini inkişaf etdirmək, musiqi irsini toplayıb tədqiq etmək, Azərb. bəstəkarlarının əsərlərini resp.-da və onun hüdudlarından kənarda təbliğ etmək, musiqişünaslığın inkişafına yardım göstərməkdir. H. ittifaqın yaranmasında müstəsna rol oynamışdır.

Musiqişünas L.Hüseynovanın İttifaqın tarixi ilə bağlı arxiv araşdırmalarından Hacıbəyovun İttifaqa sədr seçilməsinin dəqiq tarixi və onun bu sahədəki geniş fəaliyyəti ilk dəfə üzə çıxarılmışdır (bax: "Qobustan" sənət toplusu, №3, 2005, səh.4-12). Hacıbəyov 1937-ci il fevralın 15-dən ömrünün sonunadək Bəstəkarlar İttifaqının əvəzsiz sədri olmuşdur. Hazırda İttifaqın 165 üzvü (92 bəstəkar, 73 musiqişünas) var.

1999-cu ildən B. İ-nın təsis etdiyi ilk ixtisaslaşmış "Musiqi dünyası" jurnalı nəşr olunur. İnternetdə "Azərb. Bəstəkarları və musiqişünasları" on-line kataloqu vardır: composers.musiqi-dunya.az.

**AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI (ADR)** – Şimali Azərb.-da 1918-20 illərdə yaradılmış müstəqil dövlət.

1917 il fevral inqilabından sonra Zaqafqaziyada hərc-mərclik baş alıb gedirdi. Mart ayında yaradılan xüsusi komitə, onu əvəz edən komissarlıq da vəziyyəti sabitləşdirə bilmədi. "Böyük Ermənistan" xülyasından məst olan daşnaklar Azərb.-da milli qırğın və talanları davam etdirirdilər. Bu şəraitdə 1918 il aprel ayının 22-də Gürcüstan, Azərb. və Ermənistan nümayəndələrini təmsil edən Seym yaradıldı. Seym hökuməti və anarxiyaya son qoya bilmədi. Həmin il mayın 26-da Gürcüstan Seymdən çıxıb, öz istiqlalını elan etdi. Ertəsi gün Seymin müsəlman fraksiyasına daxil olan firqələrin nümayəndələri və bitərəflərin iştirakı ilə Məmməd Əmin Rəsulzadənin başçılığı ilə Milli şura yaradıldı. Şura mayın 28-də Tiflis ş.-nin "Ormant" mehmanxanasında Azərb. tarixində mühüm rol oynamış 6 maddədən ibarət İstiqlal Bəyannaməsini qəbul edərək, İslam Şərqində ilk demokratik resp.-nın yaranmasını və varlığını bütün dünyaya elan etdi və bitərəf Fətəlixan Xoyskinin başçılığı ilə resp.-nın ilk müvəqqəti hökumət kabinetini təşkil etdi. İyunun 7-də hökumət kabineti Azərb.-ın müvəqqəti paytaxtı Gəncə ş.-nə köçürüldü. May ayının axırlarında Gəncədə Nuru paşa İslam ordusu qərargahını yaratdı. Az müddətdən sonra Azərb.-ın könüllü döyüşçüləri bu ordunun yarısını təşkil edirdi.

1918 il aprelin 23-də "fəaliyyətə" başlayan, tərkibinin böyük əksəriyyəti erməni daşnak-ekstremist ünsürlərdən ibarət Bakı Soveti iyunun 27-də sıralarına daşnak döyüşçü dəstələrinin də cəlb edildiyi 18 minlik ordu ilə Gəncəyə hücuma keçdi. Hücum iyulun 1-də Göyçayda dayandırıldı. Əks-hücuma keçən İslam ordusu sürətlə Bakıya yaxınlaşırdı. Bu mürəkkəb şəraitdə 98 gün hökmranlıq sürən "Şaumyan güruhu" iyulun 31-də hakimiyyəti eser-menşevik-daşnaklardan ibarət "Sentrokaspi" adlanan daha qəddar rejimə təslim etdi.

Sentyabrın 15-də düşmən qüvvələrini darmadağın edən İslam ordusunun qüvvələri, üç gündən sonra isə türk qoşunları Bakıya daxil oldular. Bu qanlı döyüşlərdə

təkcə min nəfərdən artıq türk əsgəri və 30 zabiti şəhid oldu.

Sentyabrın 20-də ADR-in dövlət idarələri Gəncədən Bakıya köçürüldü.

H. ADR-in ictimai-siyasi və ideoloji - mədəni həyatında yaxından iştirak edirdi. O, 1919 ilin yanvarından 1920 ilin aprelinədək ADR-in rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzetinin (1918 ilin sentyabrından nəşr olunurdu) redaktoru idi. Azərb.-ın istiqlaliyyətini böyük ruh coşqunluğu ilə qarşılayan H. müstəqilliyin birinci ildönümü münasibətilə yazdığı "Bir yaş" məqaləsində bildirirdi: "Bu əziz bayram günü sidq dil ilə "Yaşasın müstəqil Azərbaycan" - deyənlər əmin olmalı; onu müstəqil yaşatmağa qadir olarlar" ("Azərbaycan", 28 may 1919, №190). ADR-in dövlət bayrağı qəbul olunarkən, H. "Bayrağımız saralmaz" məqaləsində yazırdı: "Bayrağımız haqq bayrağıdır. O, bir millətin bəşəri hüquqlarının parçasıdır. Bir millətin ki, onun insan kimi yaşamağa haqqı vardır. Bir millətin ki, daha əsir olmaq istəmir!" ("Azərbaycan", 2 may 1919, №175). O dövrdə yazılmış "Azərbaycan" marşının (hazırda Azərb. Resp.-nın Dövlət Himnidir) da müəllifi H. idi.

Lakin azad, müstəqil ADR bolşevik Rusiyasını narahat edirdi. 1920 il aprelin 27-də işğalçı rus bolşevik qoşunları - XI ordu sərhədi pozdu, aprelin 28-də üçrəngli istiqlal bayrağı müvəqqəti endirildi.

**AZƏRBAYCAN DÖVLƏT KİTAB PALATASI** – Azərb. Resp.-nda dövlət biblioqrafiyası, mətbuat uçot və statistikası, mərkəzləşdirilmiş kataloqlaşdırma, kitab ticarətinə tələbatın və oxucu marağının öyrənilməsi üzrə sosioloji tədqiqat, nəşriyyat, poliqrafiya və kitab ticarəti sahəsində elmi-texniki informasiya mərkəzi. Palatanın fondunda H.-un 83 adda əsəri saxlanılır. Onlardan 8-i 1920 ilədək nəşr olunmuş kitablardır (ümumiyyətlə, 1920 ilədək H.-ın Azərb. dilində 16 adda kitabı nəşr edilmişdir): "Hesab məsələləri" (1907), "O olmasın, bu olsun" (1912, 1916), "Şah Abbas və Xurşidbanu" (1912-1917), "Leyli və Məcnun" (1915-1917), "Arşın mal alan" (1917) və s. 1920-1994 illərdə H.-un Azərb. və rus dillərində çap olunmuş 22 adda kitabı (onlardan 12-si Azərb., 10-u rus dilindədir), 45 adda notu da palatada mühafizə olunur. Notlardan "Leyli və Məcnun" 6 dəfə, "Koroğlu" operasından parçalar 8 dəfə, "Sənsiz" 6 dəfə, "Sevgili canan" 4 dəfə nəşr edilmişdir.

**AZƏRBAYCAN DÖVLƏT KONSERVATORİYASI,** Ü.Hacıbəyov ad. - ali musiqi təhsili məktəbi. Azərb. hökumətinin 1921 il 26 avqust tarixli qərarı ilə, H.-un təşəbbüsü və layihəsi əsasında təsis edilmişdir. Bu zaman H. Azərb. Xalq Maarif Komissarlığı nəzdində musiqi şöbəsinə rəhbərlik edirdi.

Konservatoriyaya daxil olmaq qəbul imtahanları ilə idi. Burada fp., vokal, ork. (skripka, violonçel, fleyta və s.), nəzəriyyə-bəstəkarlıq və şərq şöbəsi yaradılmışdı. Şərq şöbəsində milli musiqi alətlərində çalmaq öyrədilirdi. Bu şöbənin təşkilinə H. böyük səy göstərmişdi. O, fəaliyyətinin bütün mərhələlərində Avropa və Şərq musiqi mədəniyyətlərinin qarşılıqlı əlaqəsinin zəruriliyini daim xüsusi qeyd edirdi. Şərq şöbəsində təhsil iki istiqamətdə aparılırdı: ilk dəfə olaraq not sistemi üzrə və milli ifaçılıq sənətinin şifahi ənənəsi əsasında. Tarda çalmağı not sistemi üzrə H., ənənəvi şifahi ifaçılıq sistemi üzrə isə M.Mənsurov öyrədirdi. Resp.-da milli kadrların hazırlanması məsələsi kəskin şəkildə qoyulmuşdu. Bu məqsədlə H. azərb. tələbələr üçün nəzərdə tutulan Azərbaycan Dövlət Türk Musiqi Məktəbini təşkil etmişdi. 1926 ildə məktəb konservatoriya ilə birləşdirilərək, onun tələbə heyətini milli kadrlarla xeyli zənginləşdirdi. ADK-nın ilk milli məzunları A.Zeynallı, S.Rüstəmov, X.Ağayeva, F.Zeynalova, F.Səmədova, Ə.Həsənov, C.Muradova, N.Usubova və b. olmuşlar. H. direktor müavini iş-



Ü. Hacıbəyov ad. Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyasının) binası.

ləsə də, konservatoriyanın təşkil edildiyi ilk günlərdən onun əsl bədii rəhbəri olmuşdur. O, tədris prosesini daim Azərb. musiqisini öyrənən kurslarla zənginləşdirməyə çalışırdı. 1925 ildə H. konservatoriyada özünün rəhbərliyi ilə "Şərq musiqisini öyrənən sinif"in açılmasına nail oldu (sonralar "Azərb. xalq musiqisinin əsasları" adlandırılan bu kurs indi də mövcuddur). H.-un bu sahədəki pedaqoji fəaliyyəti "Azərbaycan xalq musiqisinin əsasları" nəzəri əsərinin yaranmasına kömək etmişdir. H. dəfələrlə ADK-da xalq musiqisinin toplanması və nota salınması məsələsini qaldırmışdı; o, 1927 ildə M.Maqomayevlə birlikdə Azərb. xalq mahnılarından ibarət ilk məcmuəni nəşr etdirdi. H.-ın təşəbbüsü ilə konservatoriyada Azərb. bəstəkarlarının əsərlərindən ibarət müntəzəm konsertlər təşkil olunurdu. H. burada resp.-da ilk xor kollektivini yaratmağa səy göstərmiş (1926), lakin bu xor tezliklə dağılmışdı. 1928-30 illərdə ADK yenidən qurularaq ali musiqi təhsili müəssisəsi funksiyası daşımağa başladı. Bununla belə, 1933-34 tədris ilində ADK nəzdində "xüsusi istedadlı uşaqlar qrupu" yaradılmışdı. Bu qrup bir neçə ildən sonra onillik orta ixtisas musiqi məktəbinə çevrildi. Bu məktəb (hazırda Bülbül ad.) konservatoriya üçün musiqi kadrları hazırlayan əsas baza oldu. 30-cu illərdə konservatoriyada hazırlıq şöbəsi funksiyası daşıyan fəhlə fakültəsi təşkil edilmişdi. 1939 ildən ömrünün axırınadək ADK-nın direktoru olan H. konservatoriyanın tədris prosesini və bədii həyatını ardıcıl surətdə təkmilləşdirirdi. H. bu tədris müəssisəsinin fəaliyyətini resp.-nın musiqi həyatının tələblərinə uyğunlaşdırmış, resp.-nın musiqi mədəniyyətinin əsas ocaqlarından biri kimi onun nüfuzunu daim yüksəltmişdir. 1941-45 illərin ağır müharibə şəraitində H. konservatoriyada ciddi yaradıcılıq intizamını qoruyub saxlaya bilmişdi. ADK müəllimlərinin filarmoniyada təşkil etdikləri konsertlərdən yığılan vəsait müdafiə fonduna keçirilirdi. H.-un rəhbərliyi ilə müəllim və tələbələr hərbi hamilik işində fəal iştirak edirdilər. Onlar hərbi hissə və qospitallarda 1500-dən artıq konsert vermişdilər. Ayrı-ayrı konsert briqadaları cəbhədə çıxış edirdi. Müharibə illərində fundamental əsərini - "Azərbaycan xalq musiqisinin əsasları"nı tamamlayan H. Azərb. musiqisinin tarixi kursu proqramının tərtibinə rəhbərlik edirdi. H.-un təşəbbüsü ilə konservatoriyada Azərb. şöbəsi açılmışdı; bu, əsasən rayonlardan gələn tələbələr üçün hazırlıq şöbəsi kimi nəzərdə tutulmuşdu. Xəstəlik H.-a bu şöbəni təkmilləşdirmək planını həyata keçirməyə imkan vermədi. (1948 ildə şöbə bağlandı). 40-cı illərdə ADK bəstəkarlıq yaradıcılığına güclü təsir göstərirdi. Hələ konservatoriya tələbəsi olan bir sıra gənc bəstəkarlar (Q.Qarayev, C.Hacıyev, S.Hacıbəyov, Niyazi, F.Əmirov) simfonik musiqi sahəsində fəal işləyərək onu inkişaf etdirmişlər. ADK-nın müəllim və tələbələri Zaqafqaziya respublikaları musiqi sənəti ongünlüyündə (1944, Tbilisi) fəal iştirak etmişdilər. Ongünlüyün təşkilatçılarından biri H. idi. 1917 ildə ADK kollektivi Nizaminin anadan olmasının 800 illiyi münasibətilə keçirilən tədbirlərdə fəal iştirak etmişdi. H.-un "Sevgili canan" və "Sənsiz" romansları, Niyazinin "Xosrov və Şirin" operası, Q.Qarayevin "Leyli və Məcnun" simf. poeması, F.Əmirovun "Nizami simfoniyası ifa olunmuşdu. H.-un rəhbərliyi ilə ADK resp.-nın hüdudlarından uzaqlarda da böyük nüfuz qazanmışdı. Burada Bülbül, Ş.Məmmədova, M.Brenner, B.Zeydman, L.Rudolf və b. dərs demişlər. 1949 ildə ADK-na H.-un adı verilmişdir.

**AZƏRBAYCAN DÖVLƏT KUKLA TEATRI,** Abdulla Şaiq ad. Azərbaycan Dövlət Kukla Teatrı – 1931 ildə təşkil edilmişdir. Bakıdadır. Teatrın təşkilatçısı, ilk bədii rəhbəri və baş rej. M.Bəbirli olmuşdur. Müxtəlif illərdə (1931-41, 1948-50) müstəqil teatr kimi, müəyyən dövrlərdə isə Azərb. Gənc Tamaşaçılar Teatrı (1941-46) və Azərb. Dövlət Filarmoniyası (1950-65) nəzdində fəaliyyət göstərmişdir. 1965 ildən müstəqil teatrdır. Azərb. və rus bölmələri var. 1977 ildə teatrda H.-un "O olmasın, bu olsun" ("Məşədi İbad") musiqili komediyası ixtisarla tamaşaya qoyulmuşdur.

**AZƏRBAYCAN DÖVLƏT MAHNI VƏ RƏQS ANSAMBLI** – Azərb.-nın ən qocaman musiqi kollektivlərindən biri. Azərb. əməkdar kollektivi (1958). 1936 ildə H.-un təşəbbüsü ilə Azərb. Dövlət Filarmoniyası nəzdində yaradılmışdır. H. po-

lifonik çoxsəsliliyin, mürəkkəb ritmlərin kollektivə aşılanmasında mühüm rol oynamışdır. Əvvəllər xor və rəqs qrupu müstəqil olmuş, 1938 ildə isə vahid ansamblda birləşmişdir. Kollektivin ilk proqramına H.-un əsərləri və onun kollektiv üçün işlədiyi xalq mahnılarından "Aman nənə", "Ay bəri bax", "Lolo", "Gedək gəzək bağçada" və s. daxil edilmişdi. Müxtəlif vaxtlarda Q.Almaszadə, S.Rüstəmov, C.Cahangirov, Q.Salahov və b. ansamblın bədii rəhbəri olmuşlar. Resp.-nın məşhur rəqqasları Ə.Dilbazi, Ə.Abdullayev, B.Məmmədov, R.Cəlilova, N.Məmmədov, T.Həmidova, N.Mahmudova, A.Məlikova, görkəmli ifaçılar Ş.Ələkbərova, L.Cavanşirova (Bədirbəyli), R.Muradova, G.Məmmədov və b. ilk yaradıcılıq addımlarını bu kollektivdə atmışlar. Kollektiv dünyanın bir çox ölkələrində Azərb. musiqisini və milli rəqslərimizi müvəffəqiyyətlə nümayiş etdirir.

**AZƏRBAYAN DÖVLƏT MUSİQİ MƏDƏNİYYƏTİ MUZEYİ** – 1967 ildə Bakıda yaradılmışdır. Arxiv-memuar, foto-neqativ şöbələri, musiqi alətləri fondu, fonotekası var. Muzeydə 20 mindən artıq eksponat saxlanılır. Bu eksponatlar həm Azərb. musiqisinin tarixini, həm də müasir dövrdəki nailiyyətlərini nümayiş etdirir. Opera müğənnilərindən H.Sarabskinin, F.Muxtarovanın, M.Bağırovun arxivləri burada saxlanılır. H.-un bəzi musiqi əsərlərinin əlyazması da muzeyin fondundadır. 1988 ildən Ə.Bakıxanovun Bakıdakı ev-muzeyində muzeyin "Azərbaycan xalq çalğı alətləri" şöbəsi fəaliyyət göstərir.

**AZƏRBAYCAN DÖVLƏT MUSİQİ NƏŞRİYYATI** – 1942 ildə H.-un təşəbbüsü və bilavasitə iştirakı ilə yaradılmışdır. İlk nəşr olunan əsərlər müharibə mövzusuna həsr olunmuş kütləvi mahnılar idi. Nəşriyyatda H.-un "Çağırış", "Döyüşçülər marşı", "Ananın oğluna nəsihəti", "Şəfqət bacısı", "Yaxşı yol" kimi hərbi vətənpərvərlik mövzusundakı mahnıları, "Sənsiz" və "Sevgili canan" romans-qəzəlləri, "Arşın mal alan" musiqili komediyasının klaviri, "Arazbarı" əsərinin partiturası və s. əsərləri çap olunmuşdur. Nəşriyyat 1962 ilədək müstəqil fəaliyyət göstərmişdir.

**AZƏRBAYCAN DÖVLƏT MUSİQİ TEXNİKUMU,** A.Zeynallı ad. – orta musiqi təhsili müəssisəsi. Əsasını Tiflis



Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının çıxışı.

və Moskva konservatoriyalarının məzunu A.N.Yermolayeva qoymuşdur. O, 1895-96 tədris ilində Bakıda özünün şəxsi musiqi məktəbini yaratmışdır. 1901 il may ayının 24-də Rus Musiqi Cəmiyyətinin Bakı şöbəsi fəaliyyət göstərməyə başlayır və bu şöbə nəzdində A.N.Yermolayevanın şəxsi musiqi məktəbi əsasında musiqi sinifləri yaranır. Bu siniflərdə vokal, skripka, violonçel, fleyta, klarnet, valtorn, truba, trambonda çalmaq ixtisasları üzrə dərs keçirilirdi. 1916 ildə bu musiqi sinifləri əsasında ilk musiqi məktəbi (texnikumu) yaradıldı. Burada 440-dan çox tələbə təhsil alırdı. İllər ötdükcə təhsil alanların sayı artır, müəllim heyəti ixtisasçılarla zənginləşirdi. Azərb.-nın bir çox görkəmli musiqi xadimləri - bəstəkarlar Q.Qarayev, F.Əmirov, C.Hacıyev, S.Hacıbəyov, R.Hacıyev, T.Quliyev, Ə.Abbasov, Z.Bağırov, C.Cahangirov, A.Məlikov, Ə.Hüseynzadə, musiqişünaslardan - M.S.İsmayılov, C.Muradova, X.Məlikov, L.Karagiçeva, D.Məmmədbəyov, E.Abasova, A.Tağızadə, İ.Əfəndiyeva, N.Mehdiyeva, S.Qasımova, R.Fərhadova, vokalçılardan - F.Əhmədova, M.Maqomayev, L.İmanov, A.Bünyadzadə, Ş.Ələkbərova, S.Qədimova, R.Muradova, Z.Xanlarova və b. burada təhsil almışlar.

**AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİ,** Ü.Hacıbəyov ad. Azərb.Resp.-nın məşhur musiqi kollektivlərindən biri. 1920 ildə N.Nərimanovun və Xalq Maarif Komissarı D.Bünyadzadənin imzaladığı dekretə əsasən Azərbaycanda müstəqil Dövlət Simfonik orkestri yaradılır. İlk illərdə bu orkestrlə dirijorlardan M.Çernyaxovski, U.Qoldşteyn, A.Sto-



Ü.Hacıbəyov ad. Azərbaycan Dövlət Simfonik Orkestrinin çıxışı. Dirijor pultu arxasında Niyazidir.

lerman, L.Şteynberq, A.Orlov və b. işləmişlər. 1938 ildə həmin orkestr Dövlət Filarmoniyasının nəzdində yenidən yaradılan simfonik ork.-in əsasını təşkil etmişdir. İlk dirijoru Nikolay Anosov idi. 1944 ildə ork.-ə H.-un adı verilmişdir. Uzun illər ork.-in bədii rəhbəri və baş dirijoru Niyazi olmuşdur. Azərb. bəstəkarlarının simf.musiqisinin yüksək professionallıqla təbliğində ork.-in müstəsna xidməti var. Müxtəlif illərdə ork.-lə N.Raxlin, A.Qauk, K.İvanov, L.Qinzburq, K.Zanderlinq, A.Yansons, Y.Fayer, O.Dmitriadi, A. Staseviç, M. Paverman, K.Eliasberq kimi tanınmış dirijorlar işləmişlər. Azərbaycan musiqiçilərindən Ə.İsrafilzadə, Ç. Hacıbəyov, Ə.Həsənov, K.Abdullayev, Ə. Bədəlbəyli, F.Mustafayev, Y.Adıgözəlov ork.-ə dirijorluq etmişlər. 1997 ildən ork.-in bədii rəhbəri və baş dirijoru R.Abdullayevdir. H-un əsərləri ork.-in repertuarında mühüm yer tutur.

**AZƏRBAYCAN DÖVLƏT TÜRK MUSİQİ MƏKTƏBİ** – 1922 ildə Bakıda H.-un təşəbbüsü ilə təşkil edilmişdir. Ümumiyyətlə, musiqi sənəti sahələrində, xüsusilə Şərq musiqisi sahəsində milli kadrlar hazırlamaq məqsədilə yaradılmışdı. 5 şöbəsi (fp., vokal - Avropa və Şərq üslubunda, musiqi nəzəriyyəsi, ork.) var idi. 1924 ildən orta ixtisas musiqi təhsili müəssisəsi hüququ qazanaraq Azərb. Dövlət Türk Musiqi Texnikumu adlandırıldı. Texnikumda dərs deməyə yüksək ixtisaslı musiqiçilər dəvət olunmuşdu. H. pedaqoji şuranın sədri idi və not sistemi üzrə tar dərsi deyirdi. Texnikumun tələbələri resp.-nın musiqi həyatında fəal iştirak edir, klub və müəssisələrdə konsertlər verirdilər. 1925 ildə AOBT-nın səhnəsində onların iştirakı ilə H.-un "Arşın mal alan" musiqili komediyası tamaşaya qoyulmuşdu (əsərə H. dirijorluq edirdi). Bu tamaşa böyük bir hadisəyə çevrilmişdi. Bəstəkarlar A.Zeynallı, M.Nəsirbəyov, S.Rüstəmov, musiqişünaslar X.Ağayeva, F.Zeynalova, F.Səmədova, dirijorlar Ə.Bədəlbəyli, Ə.Həsənov, pianoçu N.Usubova, kamançaçalan Q.Salahov və b. burada təhsil almışlar. 1926 ildə texnikum ADK ilə birləşdirildi. Məktəbin qısa müddətli fəaliyyəti H.-un cəsarətli və prinsipial ictimai-bədii simasını aydın göstərir. Beynəlmiləlçiliyin geniş təbliğ edildiyi yeni sosial və ideoloji şəraitdə H. "millətçi" damğasından çəkinməyərək azərb.-ların musiqi təhsili üçün xüsusi müəssisə yaratmışdı. O, çox düzgün müəyyən etmişdi ki, milli musiqi mədəniyyətinin tərəqqisi üçün, ilk növbədə, məhz yüksək sənətkarlığa yiyələnmiş azərb. kadrlar lazımdır. Azərb.-lar üçün nəzərdə tutulmuş bu məktəbdə təlim həm Avropa, həm də milli profildə aparılırdı. H.-un estetik proqramın - müxtəlif musiqi mədəniyyətlərinin qarşılıqlı əlaqəsinin həyata keçirilməsində bu məktəb özünəməxsus rol oynamışdır.

**AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI,** M.Maqomayev ad. – resp.-nın ən iri konsert təşkilatlarından biri. 1936 ildə yaradılmışdır. ADF-nın ilk kollektivlərindən olan Azərb. Dövlət Mahnı və Rəqs Ansamblı H.-un təşəbbüsü ilə təşkil edilmişdir. Əvvəllər xor (rəhbəri H.) və rəqs (rəhbəri Q. Almaszadə, sonralar Ə.Abdullayev) qrupları müstəqil olmuş, 1938 ildə vahid ansamblda birləşmişdir. Ansamblın ifası üçün ilk əsərləri və xalq mahnı işləmələrini H. yaratmışdır. ADF nəzdində 1938 ildə simf. ork. təşkil edilmişdir (indiki Azərb. Dövlət Simf. Ork.). Uzun illər ork.-in bədii rəhbəri Niyazi olmuşdur. Ork-in repertuarında klassik və müasir bəstəkarların əsərləri ilə yanaşı, Azərb. bəstəkarlarının, o cümlədən H.-un əsərləri geniş yer tutur. H.-un təşəbbüsü ilə bir çox görkəmli ifaçılar ADF-na qastrola dəvət olunurdular. ADF-da kamera ork. (1964), xor kapellası (1966), Azərb. Dövlət Rəqs Ansamblı (1972) da

fəaliyyət göstərir. Bütün bu kollektivlər H.-un əsərlərini həm resp.-da, həm də xarici ölkələrdə geniş təbliğ edirlər.

**AZƏRBAYCAN DÖVLƏT XORU** – Azərb.-da ilk professional xor kollektivi. Yaranma tarixi 1926 ildə H.-un konservatoriya tələbələrindən ibarət xor kollektivi yaratmaq cəhdi ilə bağlıdır. Yarımçıq qalmış bu cəhd 1936 ildə filarmoniya nəzdində professional xor kollektivinin yaradılması ilə başa çatdırıldı. Xorun ilk repertuarına H. tərəfindən işlənmiş xalq mahnıları daxil edilmişdi ("Aman nənə", "Ay bəri bax", "Lolo" və s.). Bu dövrdə xor musiqisinin bir sıra janrları da təşəkkül tapmışdı (H.-un "Firdovsi", Q.Qarayevin "Könül mahnısı" kantataları və s.). Xor musiqisinin inkişafında H.-un "Koroğlu" operasındakı monumental xor səhnələrinin, xüsusilə "Çənlibel" xorunun rolu böyükdür. 1938 ilədək A.D.X. müstəqil fəaliyyət göstərmiş, 1938 ildə rəqs qrupu ilə birləşdirilmişdir.

**"AZƏRBAYCAN İNCƏSƏNƏTİ"** – H.-un məqaləsi. "Литературный Азербайджан" jurnalının 1938 il tarixli 4-cü sayında dərc edilmişdir. Məqalədə 1920-38 illər ərzində Azərb. musiqi sənətinin hərtərəfli tərəqqisi - yeni müğənnilər nəslinin yetişməsi, professional musiqi təhsili, özfəaliyyət yaradıcılığı, aşıq sənəti, xalq musiqi nümunələrinin nota salınması və s. məsələlərə toxunulmuş, 1938 ildə Moskvada keçirilən dekadada Azərb. incəsənətinin yüksək qiymətləndirildiyi qeyd olunmuşdur.

**AZƏRBAYCAN İNCƏSƏNƏTİ DEKADASI** – 1938 ildə Moskvada Azərb. incəsənətinin nailiyyətlərini nümayiş etdirən dekada. Dekadanın hazırlıq işlərinə H. rəhbərlik edirdi. Dekadada Azərb.-nın ən iri kollektivləri - AOBT, xalq çalğı alətləri, ork., rəqs ansamblı, xor, bədii özfəaliyyət və s. kollektivləri, görkəmli ifaçılar iştirak edirdi. H.-un "Koroğlu" operası dekadada xüsusilə böyük müvəffəqiyyət qazandı [rej. İ.Hidayətzadə, dirijor - Ə.Həsənov, rəssam R.Mustafayev, ifaçılar - Bülbül (Koroğlu), G.İsgəndərova (Nigar), M.Bağırov (Həsən xan), H.Rzayeva (Xanəndə qız) və b.]. Qəbul olunmuş reqlamentə əsasən hər tamaşa adətən 2 dəfə göstərilirdi. Lakin "Koroğlu" böyük müvəffəqiyyət qazanaraq 3 dəfə göstərildi. Dekadada H.-un "Arşın mal alan" musiqili komediyasının tamaşası da uğurlu oldu. Dekadanın proqramına H.-un xalq çalğı alətləri ork. üçün fantaziyaları, kantatası, xor üçün işlənmiş xalq mahnıları (bu kollektiv H.un rəhbərliyi ilə çıxış edirdi) və s. daxil idi.

Dekada İttifaqın musiqi həyatında mühüm hadisəyə çevrildi. Azərb.-ın bir çox görkəmli incəsənət xadimi fəxri ad, orden və medallara layiq görüldülər. H.-a SSRİ xalq art. fəxri adı verildi və o, Lenin ordeni ilə təltif edildi. Dekada H.-un həyatında da dönüş yaratdı. Bundan sonra Azərb.-ın musiqi həyatının əsas sahələrinə rəsmi olaraq H. rəhbərlik etməyə başladı.

**AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI FONDU** – mədəniyyət və təhsil sahələrində fəaliyyət göstərən xeyriyyə fondu. 1995 ildə yaradılmışdır. Prezidenti YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevadır. Fondun təşkilatçılığı H. ilə bağlı bir sıra mədəni layihələr gerçəkləşdirmişdir. Fond H.-un 120 illik yubileyinə həsr olunmuş konsertlər, o cümlədən də muğam axşamları keçirmişdir. 2006 ildə Fondun təşəbbüsü və dəstəyi ilə Vyana Kamera Teatrında H.-un "Arşın mal alan" əsəri səhnələşdirilmişdir.

Fond "Azərbaycan-İrs" adlı jurnal nəşr edir. 1996 ildən üç dildə (azərbaycanca, rusca və ingiliscə) çap olunan jurnal Azərb. mədəniyyətinin, o cümlədən H. irsinin təbliği və beynəlxalq ictimaiyyətə çatdırılması yolunda mühüm nailiyyətlər qazanmışdır.

**"AZƏRBAYCAN MUSİQİ HƏYATINA BİR NƏZƏR"** – H.-un məqaləsi. "Maarif və mədəniyyət" jurnalının 1925 il tarixli 1, 2, 3-cü saylarında dərc olunmuşdur. Məqalədə Azərb. xalq musiqisi



"Arşın mal alan" tamaşasından səhnə.



"O olmasın, bu olsun" tamaşasından səhnə.

janrlarının, muğamların, musiqi alətlərinin xüsusiyyətləri araşdırılmış, ifaçılıq sənəti, dini mərasimlərdə musiqinin yeri, Azərb. opera və musiqili komediyalarının ictimai şüurun inkişafındakı rolu, Azərb. və Avropa musiqisi səs sistemlərinin müqayisəsi və s. məsələlərdən bəhs edilmişdir. Bu məqalə ilə H. o vaxtlar maarif komissarı olan M. Quliyevin Azərb. musiqi sənətinə dair tənqidi məruzəsinə cavab vermişdir.

**AZƏRBAYCAN MUSİQİLİ KOMEDİYA TEATRI,** Ş.Qurbanov ad. Azərbaycan Dövlət Musiqili Komediya Teatrı – Azərb.-ın ən böyük musiqili teatrlarından biri. Bakıdadır. Azərb.-da musiqili komediyanın əsası 1910 ildə H.-un "Ər və arvad" musiqili komediyası ilə qoyulmuşdur. Sonrakı illərdə onun "O olmasın, bu olsun" (1911), "Arşın mal alan" (1913) musiqili komediyaları da oynanılmışdır. Bu tamaşaların yaradılmasında H.Ərəblinski, H.Sarabski, M.Əliyev, Ə.Ağdamski, Ə.Anaplı, R.Darablı və b. mühüm xidməti olmuşdur. 1938 ildə müstəqil musiqili komediya teatrı (Azərb. və rus bölmələri ilə) təşkil edildi. Bu dövrdə "Arşın mal alan" rus bölməsinin səhnəsində də oynanılmışdır. 40-cı illərdə teatrın repertuarı xeyli zənginləşdi. Bu dövrdə H.-un musiqili komediyaları yeni quruluşda ("Arşın mal alan", 1945; "O olmasın, bu olsun", 1946) tamaşaya qoyulmuşdu. Müəyyən fasilədən sonra 1956 ildə yenidən fəaliyyətə başlayan teatrın repertuarında H.-un musiqili komediyaları mühüm yer tutur.



Azərbaycan Opera və Balet Teatrının binası.

**AZƏRBAYCAN OPERA VƏ BALET TEATRI.** Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı – resp.-nın ən böyük musiqi teatrı. Bakıdadır. Azərb. milli opera sənətinin tarixi H.-un 1908 il yanvarın 12-də H.Z.Tağıyevin teatrında tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə başlanır. Onların ilk tamaşasının dirijoru Ə.Haqverdiyev, rej. H.Ərəblinski olmuş, Məcnun rolunda H.Sarabski, Leyli rolunda isə aşpaz şagirdi Əbdürrəhim Fərəcov çıxış etmişlər. "Leyli və Məcnun"dan sonra H., M.Maqomayev, Z.Hacıbəyov tərəfindən daha bir neçə opera yaradıldı. Bügünkü teatrın binası 1910 ildən başlayaraq kiçik bir dəstədən ibarət opera həvəskarlarına verildi. Bu opera dəstəsi 1913 ildə Gəncəyə, 1914 ildə Tiflisə, 1915 ildə isə Dərbəndə qastrol səfərinə getdi. 1916 ildə Gəncədə yaşayan məşhur musiqiçi, tarzən Məşədi Cəmil Əmirov "Seyfəlmülk" adlı operasını tamaşaya qoydu. Sonralar Bakıda Hacıbaba Şərifovun "Mehri-Mah" operası, Süleyman Səfərovun "Xırdavat oğlan", Əhməd Qəmərlinskinin "Məkri-zənan" musiqili komediyaları tamaşaya qoyulmuşdu. 1920 ildə opera teatrı milliləşdirilərək Dövlət teatrı adlandırıldı. Dövlət teatrının qarşısında tenor, bareton, bas səsləri olan kişi müğənnilər, soprano, metsosoprano və kontralto səsləri olan peşəkar aktrisalar yetişdirmək, xor heyəti üçün səsli oğlan və qızlar axtarıb tapmaq, peşəkar dirijor, rej., xormeyster, səhnə rəs-

samları cəlb etmək kimi ciddi yaradıcılıq problemləri dururdu. 1925-26 illər teatr mövsümündə Azərbaycan Opera Teatrı dram teatrından ayrılaraq (həmin vaxtadək hər iki kollektivin tamaşaları bir binada göstərilirdi), indiki opera və balet teatrı binasında müstəqil fəaliyyətə başladı. Teatrda H.-un "Harun və Leyla" operası istisna olmaqla, başqa operaları da göstərilmişdir: "Şeyx Sənan" [dirijor - müəllif, rej. - Q. Şərifov, Şeyx Sənan - H.Sarabski, Xumar - Leyla xanım (Tamara Boqatko), Giko - Mirzəağa Əliyev; ilk tamaşa 1909 il noyabrın 30-da Nikitin qardaşları sirkinin binasında göstərilmişdir]: "Rüstəm və Söhrab" (dirijor - müəllim, rej. və Söhrab rolunun ifaçısı - H.Sarabski, Xurşidbanu - Ə.Ağdamski, ilk ifa 1910 il noyabrın 18-də Tağıyev teatrında olmuşdur); "Şah Abbas və Xurşidbanu" (dirijor - M.Maqomayev, rej. - H.Ərəblinski, Şah Abbas - H.Sarabski; ilk tamaşa 1912 il martın 10-da Nikitin qardaşları sirkində olmuşdur); "Əsli və Kərəm" (dirijor - müəllif, rej. H.Ərəblinski, Kərəm - H.Sarabski, Əsli - Ə.Ağdamski; ilk tamaşa 1912-ci il mayın 18-də olmuşdur).

1937 il aprelin 30-da teatrda H.-un şah əsəri - "Koroğlu" operasının ilk tamaşası göstərildi (dirijor - müəllif, rej. - İ.Hidayətzadə, Koroğlu - Bülbül, Nigar - G.İsgəndərova, Həsən xan - M.Bağırov, İbrahim xan - B.Mustafayev, Ehsan paşa - Ə.Zülalov, Həmzə bəy - H.Hüseynov). 1943 ildə opera rus dilində də tamaşaya qoyulmuşdur (dirijor - Niyazi, rej. - İ.Hidayətzadə, Koroğlu - A.Drozdov).



"Leyli və Məcnun" tamaşasından səhnə.

H.-un operaları müxtəlif illərdə teatrın repertuarında daim mühüm yer tutmuş, yeni quruluşlarda dəfələrlə tamaşaya qoyulmuşdur. Bax, həmçinin H.-un ayrı-ayrı operaları haqqında məqalələrə.

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT ARXİVİ** – 1930 ildə Mərkəzi Dövlət Arxivinin İnqilab tarixi şöbəsi əsasında yaradılmışdır. Arxivdə saxlanan Azərb. SSR MİK, XKS, Xalq Maarif Komissarlığı və digər idarələrin arxiv fondlarında H.-un həyat və fəaliyyəti ilə bağlı çoxlu sənədlər qorunur. Sənədlərdən 1920 ildə Azərb. SSR Xalq Maarif Komissarlığının musiqi bölməsinə rəhbərliyə dəvət edilən H.-un Azərb.-da musiqi təhsilinin təşkilində, xüsusilə ADK-nın yaradılmasında müstəsna xidmətləri olduğu görünür. Arxivdə saxlanan yüzlərlə qərar, əmr, yazışma, məruzə, arayış və digər sənədlərdə H.-un Azərb. professional musiqisinin inkişafı, resp.-da musiqi təhsilinin təşkili və musiqi kadrlarının tərbiyə-



"Koroğlu" tamaşasından səhnə.

sindəki rolunu, musiqi və teatr sənəti sahəsində yaradılmış çoxsaylı komissiyalardakı fəaliyyətini əks etdirən geniş məlumat vardır.

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT ARXİVİ** – Azərb. SSR Nazirlər Sovetinin 17 iyul 1965 il tarixli qərarı ilə yaradılmış, 1966 ilin yanvarından ədəbiyyat və incəsənət xadimlərinin şəxsi fondlarının yaradılması sahəsində fəaliyyətə başlamışdır. Hazırda arxivdə 650-dən çox şəxsi fond, arxivin profilinə uyğun 40-dan çox idarə arxivlərinin fondları mühafizə edilir. Arxivdə saxlanılan şəxsi fondlarda H.-un özünə məxsus və onun haqqında çoxlu sənəd də vardır. Əziz Şərifin, C.Hacıbəylinin, A.Rzayevanın, Q.Qasımovun və b.-nın H.-la əlaqələrinə aid məktub, məqalə, fotoşəkillər xüsusi yer tutur. H.-un H.Sarabskiyə məktubu (1913), bəstəkarın əsgərlərlə birlikdə (1936), fərdi fotoşəkilləri, avtoqraf yazıları da bu qəbildəndir. “Arşın mal alan” musiqili komediyasının Parisdən gətirilmiş və C.Hacıbəylinin arxivində mühafizə edilən not yazısı (1917) maraqlıdır.

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT KİNO-FOTO SƏNƏDLƏR ARXİVİ** – 1930 ildə Oktyabr inqilabı arxivinin foto-kino şöbəsi kimi yaradılmış, 1943 ildə isə müstəqil dövlət arxivinə çevrilmişdir. Arxivdə H.-un həyat və fəaliyyətini özündə əks etdirən çoxlu foto və kino sənədlər saxlanılır. Fotoşəkillərdə H. gəncliyində, konservatoriyada iş otağında, royal arxasında, musiqi bəstələyərkən, həmkarları arasında, tələbələri və musiqi kollektivləri, ailə üzvləri ilə birlikdə əks olunmuşdur. Arxivdə saxlanılan “Həyatın səhifələri” sənədli filmində, “Ordenli Azərbaycan”, “Sovet Azərbaycanı” kinojurnallarında H.-a yüksək hökumət mükafatlarının təqdim olunmasını, bəstəkarın royal arxasında əsər üzərində işləməsini, konservatoriyada dərs keçməsini, tələbələrlə söhbətini və s. əks etdirən nadir kino lentləri qorunub saxlanılır. Burada H. Sarabski, H. Rzayeva, Bülbül və b. görkəmli səhnə ustalarının H.-un “Leyli və Məcnun”, “Koroğlu” operalarında, digər musiqi əsərlərində ifalarını canlandıran nadir kino lentlər də mühafizə edilir.

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SƏSYAZMALARI ARXİVİ** – 1968 ildə yaradılmışdır. H.-un nitqləri bütün opera və operettalarının, romans, kantata və xalq çalğı alətləri ork. üçün əsərlərinin müxtəlif ifalarda lent yazıları arxivin qızıl fonduna daxildir. Burada, habelə, bəstəkarın yubileylərinə həsr olunmuş təntənəli gecələrin lent yazıları, D.Şostakoviç, Q.Qarayev, Ə.Bədəlbəyli, Bülbül, Ə.Bakıxanov və b. görkəmli şəxsiyyətlərin H. haqqında xatirələri də saxlanılır.

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SİYASİ PARTİYALAR VƏ İCTİMAİ HƏRƏKATLAR ARXİVİ** – 1991 ildə keçmiş Resp. partiya arxivinin əsasında yaradılmışdır. Burada H.-un 1938 ildə kommunist partiyası sıralarına qəbul edilməsi haqqında ərizəsi və Azərb. K (b) P MK Bürosunun bu haqda qərarı, Moskvada keçiriləcək Azərb. incəsənəti ongünlüyü, “Koroğlu” operası haqqında, habelə H.-un Azərb. Bəstəkarlar İttifaqının sədri, ADK-nın rektoru təyin edilməsi, ona Azərb. SSR xalq art. fəxri adı verilməsi, anadan olmasının 60 illiyi və musiqi yaradıcılığının 40 illiyi yubileyinin keçirilməsi və s. barədə Azərb. K(b)P MK Bürosunun qərarları saxlanılır. Arxivdə H.-un 1940 ilə qədərki əmək fəaliyyəti haqqında arayış, ona qarşı böhtan məktubu və oradakı “faktları” təkzib edən sənədlər, bəstəkarın səhhətini müayinə edən xüsusi həkim komissiyasının arayışı, onun M.C.Bağırova məktubu və çoxlu digər sənədlər də mühafizə olunur.

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT TARİX ARXİVİ** – 1930 ildə Mərkəzi Dövlət Arxivinin qədim tarix şöbəsi əsasında yaradılmışdır. Arxivdə H.-un həyat və fəaliyyətinin ilk dövrlərini əks etdirən sənədlər qorunub saxlanılır. Onların arasında H.-un Qori seminariyasını qurtarması, Yelizavetpol (Gəncə) quberniyasında Hadrut kənd məktəbinə müəllim təyin edilməsi haqqında sənədlər, bəstəkarın əsərlərinin ifasına icazə verilməsinə aid yazışmalar və digər sənədlər də vardır.

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ ŞİRKƏTİ** – dövlət müəssisəsi. Resp.-da radio verilişləri ilk dəfə Bakıda 20 illərin axırlarından fəaliyyətə başlamışdır. İndiyədək Azərb.-nın bir çox görkəmli müğənnilərinin və musiqiçilərinin ifa-



Azərbaycan Respublikası Elmlər Akademiyası Rəyasət Heyətinin binası.

sında H.-un "Leyli və Məcnun", "Koroğlu" operaları, "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyaları radio üçün montaj edilmişdir. Onun bir çox başqa musiqi əsərləri lentə yazılaraq radionun fondunda saxlanılır.

Resp.-da ilk televiziya verilişi 1956 ildə olmuşdur. Hazırda televiziya fondunda H.-un bir çox musiqi əsərləri, onun haqqında çəkilmiş sənədli filmlər və s. vardır.

**AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASI** – resp.-da fundamental elmi tədqiqatların və tətbiqi araşdırmaların mərkəzi olan ən böyük elm ocağı. 1945 il martın 27-də SSRİ EA-nın Azərb. filialı əsasında təsis edilmişdir. H. Azərb. EA təsis edilərkən onun tərkibinə seçilən ilk 15 akademikdən biri olmuşdur. O, EA-nın fəaliyyətini canlandırmaq, elmi tədqiqat işlərini genişləndirmək məqsədilə fəal iş aparır, SSRİ EA-nın aparıcı alimləri ilə görüşür, məsləhətləşirdi. Akademiyanın indiki Memarlıq və İncəsənət İn-tu bilavasitə onun təşəbbüsü ilə yaradılmış, bəstəkar həmin in-tun ilk direktoru olmuşdur. H. məhsuldar bəstəkarlıq fəaliyyəti ilə yanaşı, elm sahəsində də araşdırmalarını müntəzəm olaraq davam etdirirdi. Onun musiqişünaslıq sahəsində apardığı çoxillik səmərəli tədqiqatların nəticəsi olan "Azərbaycan xalq musiqisinin əsasları" monoqrafiyası təkcə müəllifinin deyil, bütünlükdə Azərb. sənətşünaslıq və estetika elmlərinin ən böyük uğurlarından biri kimi bu gün də öz fundamental nəzəri əhəmiyyətini qoruyub saxlamaqdadır. EA-nın in-tlarında H.-un həyat və yaradıcılığının müxtəlif yönlərdən öyrənilməsinə həsr olunmuş bir sıra tədqiqat işləri aparılmış, monoqrafiyalar yazılıb çap edilmişdir. Hazırda Azərb. EA-nın tərkibində müasir elmin ən müxtəlif istiqamətləri üzrə araşdırmalar aparan 34 elmi tədqiqat müəssisəsi, 10 xüsusi konstruktor bürosu fəaliyyət göstərir.

**AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASININ ƏLYAZMALAR İNSTİTUTU** – Azərb. və Şərq ölkələrinə aid qədim nadir əlyazmalar saxlanılan və tədqiq edilən elmi idarə. Bakıdadır. Şöbə kimi 1928 ildə yaradılmış, 1950 ildən Azərb. EA Resp. Əlyazmalar Fondu adı ilə fəaliyyət göstərmişdir. 1986 ildən in-tdur. İn-tda Azərb., habelə Yaxın və Orta Şərq xalqlarının elm və mədəniyyətinin bütün sahələrinə aid 40 mindən artıq əlyazma abidələri, qədim çap kitabları, mətbuat nümunələri və s. qorunub saxlanılır. 19 əsrin 2-ci yarısı - 20 əsrin əvvəllərinin mədəniyyət və elm xadimlərinin şəxsi arxiv materialları in-tun fondunda əhəmiyyətli yer tutur. Burada H.un şəxsi arxivi də mühafizə olunmaqdadır. Bəstəkarın notları, əsərlərinin avtoqraf əlyazmaları, keçmiş SSRİ-nin görkəmli bəstəkarları və yazıçıları ilə yazışmaları, sadə əmək adamlarından aldığı məktublar, müxtəlif fotoşəkillər və ayrı-ayrı kitabları arxivin əsasını təşkil edir. Ümumiyyətlə, in-tda H.-un 936 ədəd fond materialı qeydə alınmışdır. Bütün bu materiallar in-tun əməkdaşları tərəfindən qorunur və öyrənilir.

**AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASININ MEMARLIQ VƏ İNCƏSƏNƏT İNSTİTUTU** – resp.-da sənətşünaslığın elmi mərkəzi. SSRİ EA Azərb. filialında H.-un rəhbərliyi ilə 1944 ildə təşkil olunmuş incəsənət bölməsinin əsasında 1945 ildə yaradılaraq İncəsənət in-tu adlandırılmışdır. 1951 ildən indiki adını daşıyır. H.-un anadan olmasının 60 illik yubileyi münasibətilə in-ta onun adı verilmişdi. H. in-t təşkil olunandan ömrünün sonunadək onun direktoru olmuşdur. İn-tda Azərb. incəsənətinin bütün sahələri üzrə tədqiqat işləri aparılır. H.-un "Azərbaycan xalq musiqisinin əsasları" (1945) adlı monumental elmi əsərinin çapı in-tun həyatında əlamətdar hadisə oldu. İlk

vaxtdan H. onu hələ Qori seminariyasında oxuduğu illərdən düşündürən Azərb. musiqisində çoxsəslilik problemi üzərində işləyirdi. Bununla yanaşı, bəstəkarın təşəbbüsü və rəhbərliyi ilə milli incəsənətin tarixi və nəzəriyyəsi problemlərinə dair tədqiqatların nəşrinə başlandı. 1949 ildə H.-un redaktə etdiyi "Azərbaycan incəsənəti" məcmuəsinin iki cildi nəşr edildi. İn-tda H. irsinin onun nəzəri-estetik görüşlərinin öyrənilməsi sahəsində mühüm işlər görülmüş, bir sıra sanballı monoqrafik tədqiqatlar nəşr olunmuşdur.

**AZƏRBAYCAN SSR DÖVLƏT HİMNİ** – H.-un 1945 ildə bəstələdiyi rəsmi dövlət himni (1945-92). Xor və simf. ork. üçün nəzərdə tutulmuşdur. Sözləri Səməd Vurğun və Süleyman Rüstəmindir. 1978 ildə himnin mətnində Hüseyn Arif bəzi dəyişikliklər etmiş, Niyazi tərəfindən musiqi redaktəsi aparılmışdır.

**"AZƏRBAYCAN TÜRK EL NƏĞMƏLƏRİ"** – məcmuə. 1927 ildə, Azərb. Xalq Maarif Komissarlığı tərəfindən H. və M.Maqomayevin ümumi redaktorluğu ilə nəşr edilmişdir. Məcmuədə toplanan 33 el nəğməsini H., M.Maqomayev və Z.Hacıbəyov toplayıb nota salmışlar. Bu işdə onlara xanəndə Cabbar Qaryağdı oğlu da böyük köməklik göstərmişdir. Bu məcmuə ilə Azərb.-da musiqi folklorşünaslığının əsası qoyulmuşdur. Məcmuədə toplanan bəzi nəğmələri H. sonradan simli kvartet, eləcə də xor üçün işləmişdir. 1985 ildə məcmuə təkrar nəşr edilmişdir.

**"AZƏRBAYCAN TÜRK XALQ MUSİQİSİ haqqında"** – H.-un məqaləsi. "На рубеже Востока" jurnalının 1928 il 3-cü sayında dərc olunmuşdur. Burada müəllif "Şərq musiqisi haqqında Qərb alimlərinin təfsiri" ("Maarif və mədəniyyət" jurnalı, 1926, №7) məqaləsində irəli sürdüyü fikirləri inkişaf etdirmişdir. H.-un Azərb. xalq musiqisini böyük səylə öyrəndiyi illərdə yazdığı hər iki məqalədə ərəb-fars musiqi sisteminin yaranması və inkişafı haqqında yürütdüyü fikirlər onun 1945 ildə yazdığı "Azərbaycan xalq musiqisinin əsasları" əsərində elmi cəhətdən daha dolğun və səlis ifadə edilmişdir.

**"AZƏRBAYCAN TÜRKLƏRİNİN MUSİQİSİ HAQQINDA"** – 1919-cu ildə Azərbaycan Cümhuriyyətinin bir ili münasibətilə çıxmış «İstiqlal» məcmuəsində



Azərbaycan türklərinin musiqisi haqqında kitabçasının üz qabığı.

H.-un məqaləsi. H.-un musiqişünas alim kimi ilk elmi araşdırmasıdır. Uzun illər bəstəkarın irsindən obyektiv və subyektiv səbəblərdən «silinmiş» bu məqalə musiqişünas Fərəh Əliyeva tərəfindən aşkar edilərək 2005 ildə ayrıca kitabça şəklində təqdim olunmuşdur (bax: Ü.Hacıbəyli. «Azərbaycan türklərinin musiqisi haqqında», Bakı, «Adiloğlu», 2005).

**"AZƏRBAYCAN XALQ MUSİQİSİNİN ƏSASLARI"** – H.-un Azərb. lad-məqam sisteminin öyrənilməsinə aid sanballı tədqiqat əsəri. İlk dəfə 1945 ildə Bakıda çap olunmuşdur. Müəllif bu tədqiqatların qayəsini belə səciyyələndirir: "Mənim bu əsərim Azərbaycan xalq musiqisinin əsas cəhətlərini öyrənmək üçün nəzəri bir vəsait və Azərbaycan ladları əsasında musiqi yazan bəstəkarlara bir yaradıcılıq köməyidir". Bu monoqrafiya pedaqoji baxımdan tədris materialı kimi də qiymətlidir. Artıq 50 ildir ki, onun əsasında "Azərbaycan xalq musiqisinin əsasları" kursu ADK-nın bütün fakültələrində, həmçinin musiqi texnikumlarında və musiqi məktəblərində tədris edilir. Monoqrafiya indiyədək Bakıda dəfələrlə nəşr olunmuşdur: 1945 (rus dilində), 1950, 1957, 1962, 1965 (Azərb. dilində), 1985 (rus, Azərb., ingilis dillərində).

**AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİ,** Azərb. Resp. Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin S.Rüstəmov ad. Xalq Çalğı Alətləri Orkestri – 1932 il may ayının 1-də H. tə-

rəfindən yaradılmışdır. 22 nəfərlik ork.-in dirijoru H., dirijor köməkçisi və konsertmeysteri S.Rüstəmov olmuşdur. Bu, notla çalan ilk Azərb. xalq çalğı alətləri ork. idi. H. Azərb. xalq mahnı və rəqslərini bu ork. üçün işləmiş, Qərbi Avropa və rus bəstəkarlarının əsərlərini də ork.-ə uyğun şəkildə təfsir etmişdi. H. ork.-in repertuarını zənginləşdirmək məqsədilə ilk növbədə S.Rüstəmovu, Q.Salahovu və b. bu işə cəlb edir. Onların ork. üçün işləmələri kollektivin püxtələşməsində və ifaçılıq məziyyətlərinin artırılmasında xüsusi rol oynamışdır. 1932 ilin axırlarında H. bu ork. üçün iki böyük əsər - I və II fantaziyalarını yazır. 1933 ildə ork.-in tərkibi bir qədər böyüyərək, 30 nəfərə çatır. Get-gedə xalq çalğı alətləri üçün yeni-yeni əsərlər yaranmağa başlayır. 1935 ildə ork.-ə rəhbərlik etmək H.-un tələbəsi S. Rüstəmova tapşırılır. Ork.-in tərkibinə fp. daxil edilir. 1937 ildə artıq 40 nəfərdən ibarət olan ork. özünün ilk qastrol səfərlərində - Moskva və Leninqradda böyük müvəffəqiyyətlə çıxış edir. 1938 ildə Moskvada keçirilən Azərb. incəsənəti ongünlüyündə ork.-in ifası xüsusi olaraq qeyd edilmişdi. Həmin il aprelin 9-da Böyük Teatrın səhnəsində H.-un “Arşın mal alan” musiqili komediyasını xalq çalğı alətləri ork. müşayiət etdi. (H. musiqili komediyanın musiqisinin xalq çalğı alətləri üçün ork.-ləşdirilməsini və dirijorluğu S.Rüstəmova həvalə etmişdi). Sonralar da H., M.Maqomayev və S. Rüstəmovla yanaşı, F.Əmirov, Niyazi, S.Ələsgərov, Ə.Abbasov, S.Hacıbəyov, C.Cahangirov, H.Xanməmmədov, Adil Gəray və b. bu kollektiv üçün orijinal əsərlər yazmışlar.

**“AZƏRBAYCANDA MUSİQİ TƏRƏQQİSİ”** – H.un məqaləsi. “Maarif və mədəniyyət” jurnalının 1926 il 8 və 9-cu saylarında dərc olunmuşdur. Xalq Maarif komissarı M.Quliyevin Azərb. teatr və musiqi sənətlərinin inkişafına dair məruzəsinə cavab olaraq yazılmışdır. Məqalədə Şərq musiqi sistemi ilə Avropa musiqi sistemi arasındakı fərqlər izah edilmiş, tar təhsilinin labüdlüyü göstərilmişdir.

**“AZƏRBAYCANDA MUSİQİ TƏHSİLİ”** – H.-un məqaləsi. “Maarif və mədəniyyət” jurnalının 1925 il 3-cü sayında dərc olunmuşdur. Məqalədə çar hakimiyyəti vaxtında Bakıda “Rus imperator musiqi cəmiyyəti” nəzdindəki musiqi məktəbində bir nəfər də olsun yerli türklərdən təhsil almaması qeyd olunmuşdur. 1928 ildə Azərb. Dövlət Türk Musiqi Məktəbinin təşkili, məqsədləri, şagirdlərin sayı, tədris edilən fənlər məqalədə işıqlandırılmış, məktəbin yetirmələrinin Şərq musiqisinin tərəqqisinə kömək edəcəklərinə ümid ifadə olunmuşdur.



Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin çıxışı. Dirijor pultu arxasında S.Rüstəmovdur.

**“AZƏRBAYCANIN MUSİQİ MƏDƏNİYYƏTİ”** – H.-un məqaləsi. “Pravda” qəzetinin 1938 il 1 aprel tarixli sayında dərc olunmuşdur. Məqalədə Moskvada keçiriləcək Azərb. incəsənəti dekadası ərəfəsində aşıq sənəti, musiqi təhsili, xalq çalğı alətləri ork., dövlət xoru, rəqs ansamblı, musiqi folklorunun toplanması və nəşri, Azərb.-ın çağdaş opera sənəti haqqında ümumi məlumat verilir.

**“AZƏRBAYCANFİLM”,** C.Cabbarlı ad. “Azərbaycanfilm” kinostudiyası – 1923 ildə yaradılmışdır. Bakıdadır. 1923-26 illərdə Azərb. Foto-Kino İdarəsi (AFKİ), sonralar “Azdövlətkino” (1926-1930), “Azərkino” (1930-1933), “Azfilm” (1933), “Azdövlətkinosənayesi” (1934), “Azərfilm” (1935-1940), “Bakı kinostudiyası” (1941-1959) adlanmışdır. 1961 ildən indiki adını daşıyır. Azərb.-da tammetrajlı bədii filmlər hələ 20 əsrin 2-ci onilliyində çəkilmişdir (1916 ildə İ.Musabəyovun eyniadlı əsəri üzrə “Neft və milyonlar səltənətində”, 1917 ildə H.-un eyniadlı musiqili komediyası əsasında “Arşın mal alan” filmləri). Sonralar “A.”-də bəstəkarın “Arşın mal alan” (1945 və 1965), “O olmasın, bu olsun” (1956) musiqili komediyaları ekranlaşdırılmışdır. 1982 ildə “A.”-də “Üzeyir ömrü” adlı rəngli bədii televiziya filmi çəkilmişdir.

# B



**A.Babayev**
Məcnun rolunda.



**R.Babayev**



**M.Babayev**



**H.Bağırov**

**BABAYEV** Arif İmran oğlu (d. 1938) – müğənni. professor. Azərb. xalq art. (1989). 1966 ildən AOBT-nın solistidir. Azərbaycan Dövlət Konservatoriyasının kafedra müdiridir. "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında Məcnun və Kərəm partiyalarında çıxış edib.

**BABAYEV** Mirzə Əbdülcabbar oğlu (1913-2003) – estrada müğənnisi, aktyor. Azərb. xalq art. (1992). H.-un eyniadlı musiqili komediyası əsasında çəkilmiş "O olmasın, bu olsun" filmində Məşədi İbadın mahnıları B.-in ifasında səsləndirilmişdir.

**BABAYEV** Rafiq (1936-1994) – pianoçu. Azərb. xalq artisti (1993). Caz musiqisi Beynəlxalq festivallarının laureatı olmuşdur. R.Behbudovun Mahnı teatrının musiqi rəhbəri (1966 ildən), Azərbaycan Radio və Televiziyası Estrada simfonik Orkestrinin baş dirijoru (1983), "Cəngi" estrada folklor ansamblının (1991) yaradıcısı olmuşdur. Caz kompozisiyalarının, mahnıların, 20-dən çox filmlərə musiqinin müəllifidir. Erməni terrorunun qurbanı olmuşdur. Estrada simfonik Orkestri üçün "Arşın mal alan" operettasının mövzularına fantasiyası məşhurdur.

**BAĞDADBƏYOV** Cəlil Əmrah oğlu (1887-1949) – aktyor. Azərb. əməkdar art. (1943). 1910 ildə "Nicat" cəmiyyətinin teatr truppasına daxil olmuş, dram və opera tamaşalarında çıxış etmişdir. Qadın partiyalarını da ifa etmiş B. "Leyli və Məcnun", "Şah Abbas və Xurşidbanu" operalarında Leyli, Xurşidbanu rollarını özünəməxsus ustalıqla oynamışdır. Sonralar İbn-Səlam, Leylinin atası ("Leyli və Məcnun"), Süleyman ("Arşın mal alan") partiyalarında çıxış etmişdir.

**BAĞIROV** Hacıbaba Ağarza oğlu (1932-2006) – aktyor. Azərb. xalq art. (1982). 1962-89 illərdə Azərb. Musiqili Komediya Teatrının aktyoru olmuşdur. 1989 ildən özünün təşkil etdiyi Bakı Tənqid-Təbliğ Teatrının bədii rəhbəri idi. H.-un "O olmasın, bu olsun" musiqili komediyasında Məşədi İbad rolunda çıxış etmişdir. Azərb. Musiqili Komediya Teatrının direktoru olmuşdur.

**BAĞIROV** İmamverdi Salman oğlu (1913-1989) – aktyor. Azərb. əməkdar art. (1964). 1929 ildən Bakı, Tiflis və İrəvan teatrlarında, 1934 ildən ADT-nda, 1956 ildən isə Azərb. Musiqili Komediya Teatrında fəaliyyət göstərmişdir. H.-un "O olmasın, bu olsun" musiqili komediyasında Həsənqulu bəy rolunda oynamışdır.

**BAĞIROV** Məmmədtağı Abbas oğlu (1890-1961) – müğənni (bariton). Azərb. xalq art. (1939). 1920-59 illərdə AOBT-nın solisti olmuşdur. H.-un operalarında Həsən xan, Qara keşiş (Koroğlu", Əsli və Kərəm") və b. obrazları yaratmışdır. "Arşın mal alan" musiqili komediyasında Süleyman və Soltan bəy rollarını da ustalıqla oynamışdır.

**BAĞIROV** Mircəfər Abbas oğlu (1895-1956). 1933-1953 illərdə Azərbaycan KP MK (b)-nın birinci katibi vəzifəsini tutub. 1953 ilin aprel-iyul aylarında M.Bağırov Azərbaycan hökumətinin sədri olmuşdur. Totalitar rejim şəraitində Azərbaycan SSR-ə rəhbərlik edən M.Bağırovun adı respublikada əldə edilən nailiyyətlərlə, uğurlarla, həm də baş vermiş faciələrlə sıx bağlıdır. Müasirləri onu cəsarətli, iradəli, mütaliə etmək qabiliyyətində olan və eyni zamanda sərt, bəzən qəddar və amansız bir rəhbər kimi xarakterizə edirlər.

Ü.Hacıbəyovun iki dəfə (1941, 1946) Stalin mükafatının alınmasını və 1945 ildə "Arşın mal alan" musiqili komediyasının ekranlaşdırılmasını M.Bağırov dəstəkləmişdi.

M. Bağırov Ü.Hacıbəyovun yaradıcılığını xüsusilə dəyərləndirirdi. Onun haqqında belə deyirdi: "Mədəni cəbhədə elə bir xadim yoxdur ki, Hacıbəyov qədər yüksələ bilsin". M.Bağırov Azərb. mus. sənətinin təbliğinə mane olan cəhdləri dəf etməyə çalışırdı. M.Bağırov respublikada

musiqinin inkişafının ümumi məsələlərinə dair öz münasibətini bildirmişdir.

Mircəfər Bağırov 1953 ilin iyulunda respublikaya rəhbərlikdə ciddi nöqsanlar buraxmasına görə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsindən, Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizədlikdən çıxarılıb, 1954-cü ilin martında isə həbs edilib.



M.Bağırov

**BAĞIROVA** Sona Əyyub qızı (1916-?) – müğənni (lirik soprano). Azərb. əməkdar art. (1943). H.-un "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarında Gülnaz və Gülçöhrə, "Koroğlu" operasında Nigar rollarında yadda qalan obrazlar yaratmışdır.

**BAĞIROV** Zakir Cavad oğlu (1916-1996) – bəstəkar. Azərb. əməkdar inc. xad. (1960), prof. (1978). 1949-1992 illərdə ADK-nda dərs demişdir. "Aygün" və "Qoca Xottabıç" operalarının, "Kəndimizin mahnısı" və "Qaynana" operettalarının, simf. ork. üçün bir çox əsərlərin, simf. ork.-in müşayiətilə fp., tar üçün konsertlərin, xalq çalğı alətləri üçün süitaların, mahnı və romansların müəllifidir. H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarının musiqi materialları və "Çahargah" muğamı əsasında solo arfa üçün əsər yazmışdır.

**"BAHAR NƏĞMƏSİ"** – H.-un tamamlamadığı əsərlərdən biri. Nəğmənin sözləri də H.-undur. Əsərin yazılma tarixini təyin etmək çətindir. Lakin mətnin latın hərflərilə yazılmasını nəzərə alıb nəğmənin 20-30 illərdə yazdığını təxmin etmək olar.

...Qanad çal, çəmənlərdə süz, bahar,
Ellərə gəl, incilər düz, bahar.
Bülbül öpüb gülləri yar desin,
Gül qızartsın nəşədən üz, bahar...

Əsər bəstəkar S.Fərəcov tərəfindən fp. və səs, fp., simli kvartet, xor və simf. ork. üçün işlənmişdir.

**BAKI** – Azərb. Resp.-nın paytaxtı, ən iri sənaye, elm və mədəniyyət mərkəzi. H. 1905 ildə B.-ya köçmüş, burada həm müəllimlik etmiş, həm də bəstəkarlıq və publisistika ilə məşğul olmuşdur. Ömrünün 43 ilini B.-da yaşamış H.-la əlaqədar şəhərdə bir çox ünvanlar vardır. B.-ya köçdüyü ilk vaxtlar H. "Təbriz" mehmanxanasında (indiki Sabir bağının Gənclər meydanı tərəfindəki üçmərtəbəli bina, indiyədək qalmamışdır) yaşamış, Bibiheybət kənd məktəbində (indiki 51 saylı orta məktəb) müəllim işləmiş, eyni zamanda "Həyat" və "İrşad" qəzetləri ilə əməkdaşlıq etmişdir. 1906 ildə H.Bayılda. Krasilnikovun evində (evin yeri dəqiq məlum deyil) kirayədə qalırdı. 1907 ilin fevralında H.-un mənzilində polis tərəfindən yoxlama aparıldığı barədə "İrşad" qəzetində məlumat dərc edilmişdi. 1907 ildə H. "İslamiyyə" mehmanxanasına (indiki H.Hacıyev küçəsi ilə Nizami küçəsinin tinində) köçmüş, "Leyli və Məcnun" operasını, "Hesab məsələləri" dərsliyini, "Türk-rusi, rusitürki lüğət"ini burada yazıb başa çatdırmışdı. Operanın məşqləri də çox vaxt mehman-



Köhnə Bakı. 1. Bakının dənizdən görünüşü. 19 əsr. 2. Olqa (indiki M.Rəsulzadə) küçəsi. 3. Opera teatrının binası. 4. Nikolay (indiki İstiqlal) küçəsi.

xanadakı otaqda, yaxud "Nicat" cəmiyyətinin fəal üzvü İ.Qasımovun mənzilində (indiki M.Muxtarov küçəsi, 115) keçirilirdi. Operanın ilk tamaşası 1908 il yanvarın 12-də H.Z.Tağıyevin teatrında (indiki Ş.Qurbanov ad. Azərb. Musiqili Komediya Teatrı) oldu. 1908-11 illərdə H. "Səadət" xeyriyyə cəmiyyətinin Çəmbərəkənd yaxınlığında yerləşən məktəbində müəllimlik edirdi (məktəbin binası qalmamışdır). 1909 ilin ilk aylarında H. mehmanxananı tərk edərək, bacısı oğlu Camal Paşayevin məlumatına görə, Spaskaya (Zərgərpalan) küçəsində kirayə tutduğu mənzilə köçmüşdü (evin dəqiq ünvanı məlum deyil). H. Moskvaya oxumağa gedənədək, bir müddət Aşağı Çəmbərəkənd (indiki M.Lermontov) küçəsində yaşamış, sonra isə 3-cü paralel (indiki Əbilov) küçəsinin Şamaxı (indiki C.Cabbarlı) küçəsilə kəsişdiyi yerdə mənzil kirayə tutmuşdu. Buradan o, Rusiyaya oxumağa getmişdi.

Peterburqdan qayıtdıqdan sonra H. 1915 ilin sentyabrından Verxni Priyut (indiki Ş.Əzizbəyov) küçəsindəki 67 saylı evə köçür və 1942 ilədək bu evdə yaşayır. Hazırda bu evdə H.-un xatirə-ev muzeyi yerləşir. 1942 ildə H. Hacıyev küçəsində yeni istifadəyə verilmiş "Monolit" adlanan binada mənzil alan H. ömrünün sonunadək burada yaşamışdır.



Ə.Bakıxanov

B.-da gərgin yaradıcı, elmi və ictimai fəaliyyət göstərən H.-un həyatı şəhərin müxtəlif r-nlarında yerləşən bir sıra binalarla bağlıdır. 1921 ildə Buynakski (indiki Şeyx Şamil) küçəsində yerləşən Azərb. Dövlət Türk Musiqi Məktəbini təşkil etmişdi. ADK-nın 1926-40 illərdə M.Qorki küçəsində, 1940 ildən G.Dimitrov (indiki Ş.Bədəlbəyli) küçəsində yerləşən binalarında dərs demiş, 1928-29, 1939-48 illərdə onun rektoru olmuşdur.

Azərb. Radio Komitəsi nəzdindəki (indiki Azərbaycan prosp., ev №33) yaradılmış ork. ilə birlikdə H. Bayıl, Sabunçu, Suraxanı və Zabratdakı mədəniyyət saraylarında, "Rote-Fane" (indiki Nizami) parkında, Mərdəkanın istirahət evlərində və s. yerlərdə açıq konsertlərdə iştirak edir, çox vaxt ork.-ə özü dirijorluq edirdi. 1938-40 illərdə ADK-nın binasında yerləşən Azərb. Bəstəkarlar İttifaqının sədri, 1945-48 illərdə Kommunist (indiki İstiqlaliyyət) küçəsindəki 10 saylı binada yerləşən Azərb. EA-nın akademiki və həmin binada yerləşən İncəsənət İn-tunun direktoru olmuşdur.



T.Bakıxanov

B.-da yaşadığı dövrdə H.Ağayev, M.Ə.Rəsulzadə, Ə.Haqverdiyev, N.Vəzirov, M.Maqomayev, Abdulla Şaiq, S.S.Axundov, Hüseyn Cavid, Ə.Topçubaşov, H.Sarabski, M.İbrahimov, Səməd Vurğun və b. görkəmli şəxsiyyətlərlə yaxından dostluq edir, onlarla tez-tez görüşürdü. Dövrünün bir çox görkəmli musiqiçiləri ilə yaxın dostluq əlaqələri saxlayan H. onları tez-tez B.-ya dəvət edir, onlar da bu dəvəti böyük məmnuniyyətlə qəbul edirdilər.

1948 il noyabrın 23-də H. ağır xəstəlikdən sonra B.-da vəfat etdi. Azərb. zəhmətkeşlərinin sevimli bəstəkarla vidalaşması üçün onun cənazəsi EA-nın böyük salonuna qoyulmuşdu. Azərb.-ın hər tərəfindən minlərlə gözüyaşlı adam cənazə qarşısından keçirdi. H.-un vəfatı ümumxalq matəminə çevrilmişdi. H. Fəxri Xiyabanda dəfn edildi. 1956 ildə onun məzarı üzərində heykəltəraş Ö.Eldarovun hazırladığı qəbirüstü abidə qoyuldu.

Bakı Musiqi Akademiyası və şəhərin mərkəzi küçələrindən biri H.-un şərəfinə adlandırılmışdır. 1960 ildə Ş.Bədəlbəyli küçəsində, ADK-nın (indiki Bakı Musiqi Akademiyasının) binası qarşısında H.-un əzəmətli heykəli (heykəltəraş T.Məmmədov) ucaldılmışdır.

**BAKI MUSİQİ AKADEMİYASI** Ü.Hacıbəyov ad., bax Azərbaycan Dövlət Konservatoriyası.

**BAKIXANOV** Əhməd (Əhmədxan) Məmmədrza oğlu (1892-1973) – tarzən, pedaqoq, musiqi xadimi, Azərb. xalq art. (1973), əməkdar müəllim (1943), əməkdar inc. xad. (1964). 1920 ildən pedaqoji fəaliyyətə başlamışdır. 20-30 illərdə bir sıra musiqi ansamblı yaratmış, 1941 ildə H.-un təşəbbüsü ilə xalq çalğı alətləri ansamblını təşkil etmiş və ömrünün sonunadək onun rəhbəri olmuşdur (ansambl 1973 ildən B.-un adını daşıyır). Azərb. xalq musiqisinin, xüsusilə muğamların təbliğində B.-un böyük xidməti var. O, H.-la sıx əməkdaşlıq etmiş, onunla ailəvi yaxın olmuşdur. B. Azərb. muğamlarının qorunub saxlanmasında H.-la həmrəy olmuş milli musiqiyə münasibətdə, yeni ifaçılar nəslinin yetişdirilməsində onun ənənəsini davam etdirmişdir. B. musiqi məktəbləri üçün muğamat proqramı tərtib etmişdir. "Azərbaycan xalq rəngləri" (1964), "Azərbaycan ritmik muğamları" (1968), "Muğam, mahnı, rəng" (1975) əsərlərinin müəllifidir.

**BAKIXANOV** Tofiq Əhmədağa (Əhmədxan) oğlu (d. 1930) – bəstəkar, skripkaçı. Azərb. xalq art. (1990), əməkdar inc. xad. (1973). Ə.M.Bakıxanovun oğludur. "Altı qızın biri Pəri" (1964), "Məmmədəli kurorta gedir" (1969), "Qız görü-

şə tələsir" (1978) musiqili komediyalarının (hər üçü N.Məmmədovla birgə), "Xəzər balladası" (1968), "Şərq poeması" (1976), "Xeyir və şər" (1990) birpərdəli baletlərinin, 5 simfoniya, simf. poemalar, vokal və instrumental əsərlərin və s.-nin müəllifidir. H.-un məsləhəti ilə 1938 ildə ADK nəzdindəki 10 illik musiqi məktəbinin skripka sinfində oxumuşdur. 1945 ildə B.-un skripkada ifasını eşidən H. onu yüksək qiymətləndirmişdir. B.-un repertuarına "Arşın mal alan" mövzusunda fantaziya və "Aşıqsayağı" əsəri daxildir.

**"BAKİNSKİ DEN"** – gündəlik ictimai-siyasi və ədəbi qəzet (iyul 1907 yanvar 1908). Cəmi 53 nömrəsi nəşr edilmişdir. Bakının ictimai-siyasi həyatından, azərb. ziyalılarının münasibətlərindən bu qəzetin redaktoru çox da xəbərdar deyildi. "Tazə həyat" qəzetinin redaktoru H.Vəzirov bu fürsətdən istifadə edərək, rus oxucuları qarşısında əməlisaleh, siyasi həyatda sola doğru istiqamətli xadim kimi görünmək, digər tərəfdən "İrşad" qəzetini ləkələmək, "İrşad"çıları gözdən salmaq niyyətilə "Bakinski den" qəzetində böhtan dolu təhqiramiz məqalə dərc etdirmişdi. H. təhqir və böhtana dözməyib, "İrşad"çının cavabı" adlı məqalə ilə ("Bakinski den", 3 avqust 1907, №44) H.Vəzirova kəskin cavab vermiş, onu mətbuatda mübahisəyə çağırmışdı. Lakin H.Vəzirov bu məqaləyə cavab verməmişdir.

**"BAŞÇI LAZIMDIR"** – H.-un məqaləsi. "Tərəqqi" qəzetinin 5 avqust 1909 il tarixli 174 sayında "Üzeyir" imzası ilə dərc olunmuşdur. Müəllifin fikrincə, hər bir millətin istər təkamül, istərsə inqilab yolu ilə tərəqqi tapması üçün o millətin başında azadlıqsevər və yenilikçi firqələr durmalıdır. Bu firqələr milləti qabağa apararkən qarşıya çıxan hər cür maneəni aradan qaldırır və nəticədə məqsədlərinə nail olurlar. Məqalədə elm və bilik əldə etmək, insan şəxsiyyətinə hörmət, şərdən çəkinmək təlqin edilir. Məqalə cəhalət çölündə, köhnə çürük əqidələr girdabında batmış millətimizin karvanını irəli aparmağa, onu azadlığa çıxartmağa qadir olan bir başçı - partiya görmək arzusu ilə bitir.

**"BAŞLANIR"** – H.-un məqaləsi. "Azərbaycan" qəzetinin 13 fevral 1919 il tarixli 113 sayında "Ü.Hacıbəyli" imzası ilə dərc olunmuşdur. Məqalədə Azərb. hökumətinin quldur Andronik başkəsənlərinin törətdikləri cinayətlər nəticəsində Qarabağda yaranmış fövqəladə vəziyyəti aradan qaldırmaq məqsədilə Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarından ibarət Qarabağ general-qubernatorluğu yaratması barədə məlumat verilir. Məqalə aşağıdakı sözlərlə tamamlanır: "Daşnaklar Qarabağ ermənilərini bizə qarşı üsyana dəvət edirlər. Bu üsyanın açıq-açığına qəzet vasitəsilə elanı daşnakların bihəyalığını sübut edən aşkar dəlillərdən birisidir".

**BAYRAM GÜNÜ** – Ü.Hacıbəyovun şair Mirmehdi Seyidzadənin sözlərinə bəstələdiyi mahnıdır. Mahnı məktəblilər üçün nəzərdə tutularaq 1934 ildə bəstələnmişdir. 1976 ildə "İşıq" nəşriyyatı tərəfindən nəşr olunmuş, "II mahnı bayramı" məcmuəsinə daxil edilmişdir.

**BAYRAMOV** Həbib (1926-1994) – tarzən. Azərb. xalq artisti (1983). 1941 ildən Ə.Bakıxanovun rəhbərlik etdiyi Azərbaycan Xalq Çalğı Alətləri Ansamblında çalışmış, 1973-cü ildən ömrünün sonunadək ansamblın bədii rəhbəri olmuşdur. Onun sənəti yüksək ifaçılıq mədəniyyəti ilə fərqlənirdi. H-un mahnılarını müxtəlif ifalarda müşayiət etmişdir.



**H.Bayramov**

**BEHBUDOV** Rəşid Məcid oğlu (1915 - 1989) – müğənni (lirik tenor), musiqi-teatr xadimi və ictimai xadim. Azərb. xalq art. (1951) SSRİ xalq art. (1959). Sosialist Əməyi Qəhrəmanı (1980), Azərb. Dövlət mükafatı laureatı (1978). B. "Arşın mal alan" (1945) filmində yaratdığı Əsgər obrazına görə dünya şöhrəti qazanmış, digər əsas ifaçılarla birlikdə Stalin mükafatına layiq görülmüşdür (1946). Onun ifa etdiyi Əsgər rolunu H. çox bəyənmişdir. B. Əsgər obrazının özünəməxsus, təkrarolunmaz həllini tapmışdır. Onun ifasında Əsgər lirik qəhrəman olmaqla yanaşı, həm incə yumora, həm də təzadlı əhval-ruhiyyəyə malikdir. Bütün hərəkət və mimikasına, ifa tərzinə görə B. əsl milli obraz yaratmışdır. Əsgər - B.-un yaradıcılığında mərhələ təşkil edərək, onun vizit vərəqəsinə çevrilmişdi.AOBT-nın, həmçinin K.S.Stanislavski və V.İ.Nemiroviç-Dançenko ad. Moskva Dövlət Musiqili



**R.Behbudov**



**R.Behbudov** "Arşın mal alan" filmində.



Ə.Bədəlbəyli

Teatrının səhnəsində H.-un "Arşın mal alan" musiqili komediyasında Əsgər rolunu böyük müvəffəqiyyətlə ifa etmişdir.

Yaratdığı və ömrünün sonunadək bədii rəhbəri olduğu Mahnı teatrı ilə dünyanın bir çox ölkələrində konsertlər verən B.-un repertuarında Əsgərin ariyası daim səslənirdi, "Arşın mal alan" musiqili komediyasının qrammofon valına yazılışında (1973) da Əsgər partiyasını ifa etmişdir.



F.Bədəlbəyli

**BƏDƏLBƏYLİ** Əfrasiyab Bədəl bəy oğlu (1907-1976) – bəstəkar, dirijor, musiqişünas, librettoçu. Azərb. xalq. art. (1960). B. Bədəlbəyovun oğlu, H.-un xalanəvəsidir. İlk Azərb. baletinin ("Qız qalası", 1940) müəllifidir. 1930 ildən ömrünün sonunadək AOBT-nın dirijoru olmuşdur. Repertuarında Avropa, rus, eləcə də Azərb. bəstəkarlarının əsərləri, o cümlədən H.-un "Leyli və Məcnun" operası mühüm yer tutmuşdur. H.-la sıx yaradıcılıq və şəxsi dostluq əlaqələri saxlamışdır.

**BƏDƏLBƏYLİ** Fərhad Şəmsi oğlu (d. 1947) – pianoçu. Azərb. xalq art. (1978), SSRİ xalq art. (1990), prof. (1985). Ş.Bədəlbəylinin oğludur. 1969 ildə ADK-nı bitirmişdir. Beynəlxalq müsabiqələr laureatıdır. 1971 ildən ADK-nda dərs deyir (1992 ildən buranın rektorudur). Xarici ölkələrdə qastrolda olmuşdur. Repertuarına dünyanın bir çox görkəmli bəstəkarlarının, o cümlədən H.-un əsərləri daxildir. Azərb. Dövlət Musiqi Akademiyasının rektorudur.



Ş.Bədəlbəyli

**BƏDƏLBƏYLİ** Şəmsi Bədəl bəy oğlu (1911-1986) – rejissor. Azərb. xalq art. (1964). B.Bədəlbəyovun oğlu, H.-un xalanəvəsidir. B. uzun illər Azərb. Musiqili Komediya teatrında bədii rəhbər və direktor işləmiş, burada H.-un "O olmasın, bu olsun" (1956), "Arşın mal alan" (1958) əsərlərini tamaşaya qoymuşdur. AOBT-nda bəstəkarın "Koroğlu" (1952), "Əsli və Kərəm" (1958) operalarına quruluş vermişdir. 1941-43 illərdə Təbrizdə həvəskar aktyorların iştirakı ilə H.-un "Arşın mal alan" musiqili komediyasını, 1957 ildə isə Aşqabadda Türkmənistan Opera və Balet Teatrında "Koroğlu" operasını tamaşaya qoymuşdur.



B.Bədəlbəyov

**BƏDƏLBƏYOV** Bədəl bəy Bəşir oğlu (1875-1932) – maarif xadimi Ə. və Ş. Bədəlbəylinin atası, H.-un xalası oğludur. Qori seminariyasını bitirdikdən sonra Bakıdakı rus-müsəlman məktəbinin (indiki 6 №-li məktəb) müdiri olmuşdur. H. bir müddət bu məktəbdə müəllimlik etmiş, hesab, rus dili, coğrafiya, ədəbiyyat və musiqi fənlərindən dərs demişdir. B. "Nicat" xeyriyyə cəmiyyətinin üzvü olmuş, həvəskar aktyor kimi opera və dram tamaşalarında, o cümlədən H.-un "Leyli və Məcnun" operasında Məcnun rolunda məharətlə çıxış etmişdir.

**BƏDİRBƏYLİ** Leyla Ağalar qızı (1920-2000) – aktrisa. Azərb. xalq art. (1959). Azərb. Dövlət mükafatı laureatı (1972). 1937-42 illərdə Azərb. Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının solisti olmuş, 1942-75 illərdə və 1990 illərdə ADT-nın aktyoru olub. Bir çox filmlərə çəkilmişdir. "Arşın mal alan" filmində böyük uğurla oynadığı Gülçöhrə roluna görə Stalin mükafatına layiq görülmüşdür (1946).

**BƏDİİ DİL VƏ ÜSLUB,** H.-un bədii dili və üslubu - H.-un dili bütün yaradıcılığının dili olub, üslubi baxımdan çoxşaxəlidir: elmi dili, publisist dili, dramaturji dili.

Elmi dili "Hesab məsələləri" kitabının sadə, ibtidai sinif şagirdlərinin qavrayışını nəzərdə tutan dərslik dilindən başlayır və incəliklərini daha çox sənətçilərin dərk edə biləcəyi professional musiqi ilə bağlı nəzəri əsərlərinin mükəmməl dili kimi kamala çatır. H.-un elmi dili lüğəti və qrammatikası ilə 20 əsrin birinci yarısında Azərb. dilinin elmi üslubunun təkamülünü əks etdirir. Azərb. dilinin elmi üslubunun, ümumən, işlənmədiyi müxtəlif elm sahələri, eləcə də sənətşünaslıq, o cümlədən musiqişünaslıq üzrə terminologiyanın hazırlanmadığı bir dövrdə H.-un dili lüğəti-terminləri və sintaksisi ilə elmi sənət dilinin örnəyi kimi meydana çıxır. H. əsrin əvvəllərindəki felyetonlarında ana dilinin əcnəbi meyllərlə korlanmasına qarşı mübarizə aparmışdır. 20-30 illərin elmi dilindəki əvəzolunmaz professional (opera, operetta, simfoniya, orkestr, dirijor, romans, repertuar, emosional, harmoniya, etnoqrafizm, major, minor və s.) Avropa terminləri ilə yanaşı, müəyyən Türkiyə türkcəsi ünsürləri və lüzumsuz əcnəbi sözlər (revolyusiya, kultura, proqres, stil, intensiv, praktika, dissiplina və s.) zamanın məcburi əlavələri idi. Sonrakı elmi əsərlərində artıq həmin söz və terminlər işlənmir.

Publisist dili yaradıcılığının sovet dövrünə qədərki mərhələsi üçün daha fəal olub, şirin bədiiliyi, dərin yumoru ilə səciyyələnir. H. publisistikaya qədəm qoyanda Azərb. publisist üslubu möhkəmlənmə, sabitləşmə, ədəbi dilin normasına müdaxilə prosesini yaşayırdı. Buna görə də onun dili bu işə publisist nitqi səciyyələndirən qrammatik mükəmməllik, ictimai məzmun, kütləvi anlaşma əlamətləri ilə xidmət edirdi. Publisist nitqin mahiyyətini şərtləndirən müəllif mövqeyi onun vətəndaş şəxsiyyəti



**L.Bədirbəyli** "Arşın mal alan" filmində.

aydınlığı H.-un bütünlükdə publisistikasının bariz səciyyəvi xüsusiyyətidir. Müəllif publisist nitqin nüfuzetmə imkanlarını gücləndirmək üçün müxtəlif üslubu boyalardan istifadə edir. Kinayə H.-un ən işlək və tikanlı bədii fəndidir: "Nə etməli? Hər şeyin təzəsi, dostun köhnəsi; senzor da, məlum olduğu üzrə, mətbuatın köhnə dostudur". Bu kinayə çox vaxt siyasi sərtliyi ilə seçilir. Kinayə gülüşlə-yumorla birləşib bədii material kimi çıxış edir. H.-un felyetonlarındakı bədii fəndlərdən biri bir ifadənin nəqərat yerində təkrarından ibarətdir (sanki bu musiqi detalı onun dilində gələcək bəstəkarlığını qabaqlamışdı). "Nəqərat"la gülüş və kinayə də təkrarlanır: "Qəzetəni oxuyan müsəlman qəzetədən məlumat qazanır, biliyi artır. Ona görə qəzetə oxumaq müsəlmana haramdır". Hər abzasdan sonra "ona görə" bağlayıcısı bu nəqəratı həmin məntiqlə altı abzasa nəticə-sillogizm kimi bağlayır. Bu qrammatik bağlılıq məntiqi uyğunsuzluq üstündə qurulur və bədii-yumoristik məqsəd daşıyır. Yumor ovqatı yaratmaq üçün söhbəti lağlağı axarına salmaq, məna ilə mənasızlığın mübadiləsi H.-un üslubunda geniş yer tutur (gələcəkdə "Molla Nəsrəddin" jurnalında "Lağlağı" imzası peyda olacaq). Bu, dünya gülüş təcrübəsində (Rable, Qoqol, Saltıkov-Şedrin) sınaqdan çıxmış bir fənddir, tipin öz naqisliyini başucalığı sayması satirik gülüş, komizm yaradır. Bədii məntiq ədəb və ədəbsizlik, azadlıq və qudurğanlıq, nainsaflıq və kafirlik anlayışlarının müxtəlif şəkildə mənalandırılması üstündə qurulur. Xeyli felyetonunda şeirlə nəsrin sintezi, növbələşməsi bədii nitq mühiti yaradır. Bu halda, adətən, yumoristik dil lirizmin şəkil dəyişməsindən ibarət olur. Beləcə, müəllif öz tənqidini məlum, yayılmış şeirin üstündə kökləyib tövsiyələr verir: Peterburqda Dövlət Dumasının müsəlman üzvlərinə: "Getdin, gördün dum, nə eləyirsən şurum-burum, otur yerində, ağzını bərk-bərk yum". Dünyada bütün müsəlman dövlətlərinə: "Getdin, gördün Zəngəzurda ac, nə eləyirsən axtarıb əlac, ciblərini tutub, dabanına tüpür qaç". Yaxud: "Füzuli - Ah kim, bir dəm fələk rəyimcə dövran etmədi. Şah (Məmmədəli şah nəzərdə tutulur - red.) - Hər kəs ki, göndərdim, Təbrizi viran etmədi". H. müxtəlif üslub qruplarından olan sözləri bir qrammatik qəlibdə birləşdirməklə güclü emosional məna yaradır: zülmət və sitəmin şöhrəti; əlindən gələn zülmü əsirgəməyən polis; su yerinə müsəlman qanı ilə dəstamaz alan abid; arvad-uşağı əşkilə (göz yaşı - red.) qüsl edən zahid. Atalar sözü və hikmətli ifadələrindən bol-bol bəhrələnən H. onların əsasında bədii-yumoristik dil lövhələri yaradır; məs.: "Çəkmə, çəkə bilməzsən, bərkdir fələyin yayı" müdrik kəlamından belə komik nitq impulsları alınır: "Minmə, minə bilməzsən, tünddür fələyin atı; Tüf etmə, edə bilməzsən, keçməz fələyin şamı; Tutma, tuta bilməzsən, çoxdur onların sayı...". Müxtəlif sırf məişət məzmunlu atalar sözü və məsəllərə siyasi kontekstin ictimai məzmununu hopdurmaqla, söhbətə guya qeyri-ciddi səciyyə verir və beləliklə, əsəri "senzura dalanından" (Gertsen) keçirir: "On iki qurda bir boz eşşək nə eləsin"; "Soğan yeməmisən, için niyə göynəyir"; "Abbasını bəyənməyən beş şahı çıxardar" və s. Qəribə, vərdiş olunmamış, hətta bəzən təzadlı müqayisə - təşbehlərlə həm mətnin bədiiliyi artırılır, həm də ictimai mətləb əyaniləşdirilərək qabardılır: "Məktəb bahar gülü kimi özbaşınamı açılır"; "Dükançılar köhnə qəzetənin içinə darçın, istiot, mixək bükdüyü kimi, hər yazı yazan da, görürsən, yazdığı sözlərin içinə bir ideya bükür"; "Biz uşaq olanda deyirdilər: Bala, soldat gəldi, qaç. İndi soldatın özünə deyirlər ki, ədə, japon gəldi, qaç"; "Dövlət dumasını da, "Molla Nəsrəddin" jurnalını da bağladılar, təfavüt burasındadır ki, Dumanı bağladılar padşah əmri ilə, "Molla Nəsrəddin"i danos ilə..."



**L.Bədirbəyli**

H.-un dili həm ədəbiliyi, həm də xəlqiliyi ilə örnəkdir. Ondakı ərəb-fars, türk-osmanlı, rus sözləri şəxslərin dünyagörüşünü səciyyələndirmək işini görür. Bəzi qərb və şərq mənşəli alınmalar və onların paralelliyi isə dövrün termin işlətmə xüsusiyyətini əks etdirir. Piş əz vəqt, əzon cümlə, bain

həmə, baxüsus, bərqəsd, binaən ileyh kimi əcnəbi ifadələr dövrün ziyalılarının şifahi-məişət danışıqlarında da işlənirdi, ədəbi norma üçün zərərsiz idi və kütlə içində так-что, во стобы-то не стало, таким образом, в основном, неужели, уже qəbilindən olanlardan (parazitizmdən) sakit qarşılanırdı. Publisist və dramaturji dilindəki səfər (dəfə), dişqarı (bayır), xubunca (yaxşıca), dayna (da, də), çöndərmək, qısqırtmaq, qısqı, salba, qovzamaq (qaldırmaq), başuva (başına), ayağuvi (ayağını) tipli loru sözlər və dialektizmlər bədii şəraitlə bağlıdır.

H.-un komediyalarındakı ictimai məzmun, sosial dərd, məişət bəlaları və s., eləcə də dil-üslub xüsusiyyətləri bədii publisistikasında - felyetonlarında sınaqdan çıxarılmış, müəyyənləşdirilmişdi. O, dramaturq kimi felyetonlarının içində yetişmişdi. Əslində, H.-un dramaturji yaradıcılığı felyetonlarının bədii yekunudur; onun dramlarındakı obrazlardan hər biri felyetonlarının ümumiləşdirilmiş qəhrəmanıdır. Bu, eyni ilə onların dilinə də şamildir. Dramaturq bu obrazları müvafiq felyetonlarındakı dünyagörüşü və dili ilə müəyyən süjet üzrə qruplaşdırıb səhnə-səhnə cəmləşdirmişdir. Təsadüfi deyil ki, H.-un felyetonlarının yarıdan çoxu dialoq üstündə qurulub. Lakin felyetonlarından fərqli olaraq dramaturji dili obraz tutumuna görə monumentallaşır, rəngarəng nitqlər üz-üzə durduğu üçün nitq effektləri bir-birini tamamlayır, nitq rəngləri müxtəlif boyalı vahid tablo effekti yaradır. Komediyalarında lirik dil də işlənir. Musiqinin müşayiəti nəticəsində komediyaların dili xüsusi nüfuzedicilik qazanır. H.-un dramaturji dilinin öz analitizmi var: operalarının və musiqili komediyalarının mətn dili bir-birindən çox fərqlənir. Opera mətnində dilin öz şərtilikləri var - burada musiqinin dili aparıcıdır, mətn-danışıq dili isə bələdçi rolunu oynayır, sənət tələbinə və təyinatına görə musiqidən asılıdır, məhz ona xidmət edir. Ən lirik operası olan "Leyli və Məcnun"da, bir tərəfdən, ən kamil dil (Məcnun: Yandı canım hicr ilə, vəsli-rüxi-yar istərəm; Leyli: Eşq daminə giriftar olala zar olubam, - bu, Füzuli şeirinin dilidir), o biri tərəfdən, canı musiqidə olan, musiqisiz əcaib səslənən şeir dili (Məcnun: Ata, ana, eşqin havası məni Məcnun edəcəkdir... Leylinin atası: Xeyir, verməyəm, verməyəm, verməyəm! Verməyəm, verməyəm, verməyəm!) səslənir. Məcnunun sözündə həzin lirizm, Leylinin atasının daxili böhrandan gələn təkrarında etiraz psixologiyasına uyğunluq olsa da, bu, şeir dili deyil, operanın şərti dilidir. Hətta gözəl yumor dili ilə səciyyələnən "O olmasın, bu olsun" komediyasında da musiqi aləmində şeir dili öz bəsitliyi ilə seçilir - bu bəsitlik də sənətin öz təzahürüdür (Rüstəm bəy: Söylə görüm bir mənə, cib doludurmu pul ilən?.. Məşədi İbad: Sən qızı mənə verginən, gör necə səni şad edərəm...). Ailə işinə alver kimi baxan, qadını əmtəə sayan şəxsləri bu "bəsit" dildəkindən kəsərli satira ilə döymək olmaz. Əlbəttə, komediyalarında ədibin gücü nəsr dilindədir. Bu dil hazırcavablığı, şirin yumoru, canlı məişət havası ilə seçilir. Gülnazın və Sərvərin, Gülçöhrənin və Əsgərin dilində lirizmi və ədəbiliyi ilə səciyyələnən dramaturji dil, Məşədi İbad, Rza bəy, Həsən bəy, Vəli və Tellinin dilindəki komizmlə növbələşir. H. komediyalarında yalnız ifşa etmir, yeri gələndə obrazlarını (Süleyman, Cahan xala, Soltan bəy və s.) yumşaq yumorla dindirir. "Arşın mal alan" lirik komediyasının dili gülümsərliyin nadir nümunəsidir. H. komediyalarındakı hazırcavab, yumorlu ifadələri ilə Azərb. dilinin frazeologiyasını xeyli zənginləşdirib. Bu gün həmin ifadələrdən gündəlik ünsiyyətdə, ictimai və məişət məqamlarında kütləvi şəkildə istifadə olunur: "arşın malçı demişkən"; "sən dul, mən dul"; "dərdinə tapdın əlac, bizə də sən bir yol aç"; "mənimki bir hallıca, dulluca arvaddır"; "bir nəfər molla, üç manat pul, bir kəllə qənd"; "halal olsun, "Süleyman!", "sənin müzdün bu olar ki..."; "Məşədi İbadın hambalı"; "qurban olasan, ayağımın altındakı hambala"; "qızın iki namizədi var"; "bə mənim bir abbasım"; "heç hənanın yeridir"; "qoçu Nəcəfqulunun keçisi"; "mənim eyibim eyibsizliyimdir"; "mən nə qədər qoca olsam da, dəyərəm min cavana"; "Tarixi-Nadiri yarısınacan oxumuşam" və s.

**BƏDİROV** Mürsəl Tağı oğlu (d. 1931) – müğənni (bariton). Azərb. xalq art. (1979). AOBT-nın solistidir (1956 ildən). H.-un "Leyli və Məcnun" operasında Nofəl partiyasında çıxış etmişdir. "Arşın mal alan" musiqili komediyasının qrammofon valına yazılışında (1973) Süleymanın partiyasını oxumuşdur.

**BƏŞİR** Səfəroğlu (1925-1969) – aktyor. Azərb. xalq art. (1968). 1942 ildən ömrünün sonunadək işlədiyi Azərb. Musiqili Komediya Teatrında oynadığı Məşədi İbad və qoçu Əsgər ("O olmasın, bu olsun") rolları ilə yaddaqalan səhnə obrazları yaratmışdır.

**"BƏYANİ-MƏSLƏK"** – H.-un məqaləsi. "Həqiqət" qəzetinin 1-ci sayında (25 dekabr 1909) baş məqalə kimi çıxmışdır. Bu məqalə "Həqiqət"in redaktoru H.-un



**B.Səfəroğlu** "O olmasın, bu olsun" tamaşasında Məşədi İbad rolunda.

proqram yazısı idi. Müəllifin fikrincə, qəzet mənəvi tərbiyə vasitəsi olmalı və müəyyən bir məsləkə xidmət etməlidir. H.-a görə, "məslək hər kəsin etiqad etdiyi bir yoldur... Məsləksizlik yolsuzluqdur, əxlaq pozğunluğudur". Tək-tək adamların, fərdlərin yox, ümumi tərəqqisinə, xoşbəxtlik və səadətinə, əmin-amanlığına xidmət edən məslək müqəddəsdir.

**BİBİHEYBƏT KƏND MƏKTƏBİ** – 1905-08 illərdə H.-un dərs dediyi məktəb. B. k. m.-də fəhlə uşaqları təhsil alırdılar. H. burada ana dili, rus dili, riyaziyyat, coğrafiya və musiqidən dərs demişdir. Şəhərdə yaşayan H. nəqliyyat olmadığından hər gün 10 km-lik məsafəni piyada qət etməli olurdu. Hazırda bu məktəbin əsasında 51 saylı orta ümumtəhsil məktəbi fəaliyyət göstərir. 1981 ildə məktəbdə H.-un həyat və fəaliyyətinə həsr olunmuş guşə yaradılmışdır.

**"BİR YAŞ"** – H.-un məqaləsi. "Azərbaycan" qəzetinin 28 may 1919 il tarixli 190-cı sayında "Hacıbəyli Üzeyir" imzası ilə dərc olunmuşdur. ADR-in siyasi və milli istiqlaliyyət gününün birinci ildönümü münasibətilə yazılmış məqalə Azərb. dövlətinin böyük çətinliklə, hədsiz qurbanlar bahasına doğulduğu, düşmənlərin onu ana bətnində ikən təpikləri altında tapdalamaq, əzmək istədikləri, lakin onun içində gizlənmiş eşq və məhəbbətin qüdrətli ruhu sayəsində düşmən zülmü qarşısında tab və taqətdən düşməyib, yaşamaq və yaşatmaq iqtidarını itirmədiyi göstərilir. Müəllif inanır və inandırır ki, uzun illər istibdad altında tərəqqidən məhrum edilmiş millətimiz azad olduqdan sonra öz sərvətlərini dünyanın mədəniyyət bazarlarına çıxaracaq və "qoca millətləri" heyran qoyacaqdır. Məqalə müqəddəs bir andla bitir: "Ölmək var, dönmək yoxdur".

**"BİZ HAMIMIZ QAFQAZLI BALALARIYIQ"** – H.-un məqaləsi. "İrşad" qəzetinin 9 mart 1906 il tarixli 64-cü sayında "Üzeyir bəy Hacıbəyov" imzası ilə dərc olunmuşdur. İki qonşu xalq - ermənilərlə azərbaycanlılar arasında törədilən milli nifaq və qırğın əleyhinə yazılmışdır. Məqalə belə başlanır: "Daha bəsdir, ağlımızı başımıza cəm edək, minlərcə illərdən bəri əşk ilə qan sellərinə qərq olan Vətənimizin belə bir dəhşətamiz mənzərəsini pozub, ittifaq gününün şəşəsi altında nurlanmağa qeyrət edək. Biz hamımız qafqazlı balalarıyıq. Aramızda ülfət olsun, bir-birimizə üz tutaq, yek-digərimizə rast gəldikdə qəlbimiz məhəbbət, sevgi hissindən nəşət edən fərəh ilə dolsun. Yek-digərimizin qəm və fərəhindən hissəyab olaq...". Məqalə M.Ə.Sabirin eyni mövzuda yazılmış "Beynəlmiləl" şeirilə səsləşirdi.

**BRAUDO** Yevgeni Maksimoviç (1882-1939) – musiqi nəzəriyyəçisi, Peterburq İncəsənət Tarixi İn-tunun prof. 1936 ildə Azərb. musiqi mədəniyyəti ilə yaxından tanış olmaq niyyətilə Bakıya gəlmiş, H.-la tanış olmuş, Azərb-ın bir sıra bölgələrini gəzmişdir. Peterburqa dönəndən sonra "Sovetskoye iskusstvo" qəzetində (5 oktyabr 1936, №46) "Türk mahnısı" məqaləsini yazmışdır. Məqalədə Azərb. xalq musiqisi və mahnılarının xüsusiyyətlərindən, onların virtuoz ifaçılarından vəcdlə danışılır. Onun "Can Azərbaycan" adlı əlyazma əsəri də maraq doğurur. B. "xalq musiqisinin böyük bilicisi" adlandırdığı H.-la müntəzəm məktublaşırdı.

**BRENNER** Mayor Rafailoviç (1907 - 1973) – pianoçu, pedaqoq. Azərb. xalq art. (1968). Peterburq konservatoriyasını bitirmiş (1930), Peterburq filarmoniyasının solisti olmuşdur (1930-35). 1935 ildə H. onu şəxsən ADK-na dəvət etmiş və B. ömrünün sonunadək burada dərs demişdir. Azərb-da pianoçu kadrların (F.Bədəlbəyli, F.Quliyeva, N.Usubova və b.) yetişdirilməsində, ifaçılıq mədəniyyətinin inkişafında böyük rolu olmuşdur.

**BÜLBÜL** (Murtuza Rza oğlu Məmmədovun təxəllüsü; 1897-1961) – müğənni (lirik-dramatik tenor). SSRİ xalq art. (1938), Stalin mükafatı laureatı (1950), prof. (1940). Kiçik yaşlarından gözəl səsinə və məlahətli zəngulələrinə görə ona "bülbül" adı vermişlər. 1920 ildən Birləşmiş Dövlət Teatrı opera truppasının (1924 ildən AOBT) solisti olmuş, H.-un "Leyli və Məcnun" və "Əs-



**Bülbül**



**Bülbül** “Koroğlu” operasında Koroğlu rolunda.

li və Kərəm” operalarında İbn Səlam və Kərəm rollarında çıxış etmişdir. 1927 ildə ADK-nı bitirmiş, həmin ildən təhsilini 4 il Milanda (İtaliya) davam etdirmişdir. B. və H. uzun illər ayrılmaz şəxsi və yaradıcılıq dostu olmuşlar. B. ilk dəfə 1925-26 illərdə H.-un Füzulinin sözlərinə bəstələdiyi “Nalədəndir” mahnısını ifa etmişdir. H. mahnını dinlədikdən sonra öz təəssüratını belə bildirmişdir: “İndi elə bir müğənni vardır ki, onun üçün opera yaza bilərəm”. Güman etmək olar ki, bəstəkarı onun şah əsəri olan “Koroğlu” operasını yazmağa məhz B.-ün ifası həvəsləndirmişdir. B.-ün ilk əvəzsiz ifaçısı olduğu Koroğlu obrazı onun ifaçılıq sənətinin zirvəsidir. Ustad müğənni romantik ruhlu xalq qəhrəmanının daxili aləmini hərtərəfli aça bilmişdir. B.-ün ifasında Koroğlu partiyası Azərb. musiqili teatrı tarixində bütöv bir mərhələ təşkil edir. B-ün yaratdığı rollar içərisində Əsgər (“Arşın mal



**Bülbül** “Koroğlu operasında Koroğlu rolunda.

alan”) də əhəmiyyətli yer tutur. Azərb. bəstəkarlarının kamera-vokal əsərlərinin populyarlaşmasında müstəsna xidməti olan müğənni H.-un “Sənsiz” və “Sevgili canan” romans-qəzəllərinin ilk və əvəzsiz ifaçısı olmuş, zəngin boyalı təkrarolunmaz musiqi obrazları yaratmışdır.

**BÜNYADZADƏ** Ağababa Balağa oğlu (1915-1974) – müğənni (bariton). Azərb. xalq art. (1955). 1937 ildən AOBT-nın solisti olmuş, müxtəlif xarakterli, xüsusilə dramatik partiyalarda müvəffəqiyyətlə çıxış etmişdir. H.-un “Koroğlu” operasında Həsən xan partiyası B.-nin ən yaxşı səhnə uğurlarındandır. H.-un “Vətən və cəbhə” kantatasının “Yaralı əsgərin hekayəti” hissəsini məharətlə ifa edirdi.



**A.Bünyadzadə** “Koroğlu” operasında Həsən xan rolunda.

**BÜNYADZADƏ** Cəfər Xoca oğlu (?-?) – müəllim, publisist. “Tuti! (1914-1917) jurnalının redaktoru (1916 ildən həm də naşiri) olmuşdur. B. “Səda”, “Sədayi-Vətən və b. mətbuat orqanlarında müxtəlif imzalarda yazılar dərc etdirmiş, uşaqlar üçün hekayələr yazmışdır. Milli məktəblərdə istifadə üçün “Kəşkül” adlı nəğmələr məcmuəsi (notsuz) nəşr etdirmişdi (1915). B. Azərb. teatrında opera və musiqili komediyaların əleyhidarlarından olmuş, H.-un operalarını “falsız yumurta adlandırmış, bəstəkarın özünü isə layiqsiz ifadələrlə təhqir etmişdi. H. isə B.-nin tərtib etdiyi “Kəşkül” məcmuəsi haqqında “Tənqid əvəzinə” adlı kəskin rəy yazmışdır. (“Yeni iqbal” qəzeti, 4 yanvar 1916, №199). Bu məqalədə məcmuədəki nəğmələrin notsuz çap edilməsi, havaları məlum olmayan hər nəğməni notsuz təlim etmək məsləhətləri və s. ciddi tənqid olunurdu.

# C

**CABBAR QARYAĞDIOĞLU** (Cabbar Məşədi İsmayıl oğlunun təxəllüsü; 1861-1944) – xanəndə, musiqi xadimi. Azərb. xalq art. (1935). Azərb. xanəndəlik sənətinin ən görkəmli nümayəndələrindəndir. Musiqi təhsilini Şuşada Xarrat Qulunun məktəbində almışdır. 1887 ildə Ə.Haqverdiyevin hazırladığı "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəciyində Məcnun rolunu ifa etmişdir. ADK-nın yaradılmasında H.-un yaxın məsləkdaşlarından olmuş, burada klassik xalq musiqisindən dərs demişdir. C.Q. o., əsərlərində xalq musiqisindən, muğamatdan bəhrələnən H.-la yaxından əməkdaşlıq etmiş, ona yaradıcılıq köməyi göstərmişdir.

**CABBARLI** Cəfər Qafar oğlu (1899-1934) – dramaturq, şair, yazıçı, rejissor. Azərb. əməkdar inc. xad. (1932). Yaradıcılığa lirik və satirik şeirlərlə başlamış, hekayələr yazmışdır. Lakin C. ədəbiyyat tarixində yeni Azərb. dramaturgiyasının banisi kimi tanınmışdır. Onun "Solğun çiçəklər" (1917), "Aydın" (1919), "Oqtay Eloğlu" (1922), "Od gəlini", "Sevil" (hər ikisi 1928), "1905 ildə", "Almaz" (hər ikisi 1931), "Yaşar" (1932) və s. pyesləri Azərb. dramaturgiyası, teatrı, habelə kinosunun inkişafında müstəsna rol oynamışdır. H.-la yaxın şəxsi və yaradıcılıq əlaqəsi saxlamışdır. Hər ikisi "Müsavat" partiyasının üzvü olmuş, ADR-in rəsmi orqanı olan "Azərbaycan" qəzetində birlikdə çalışmışlar. C.-nın parlament iclaslarından yazdığı protokollar qəzetdə dərc olunurdu. H. öz məqalələrində həmin materiallardan istifadə edirdi.

**CABBAROVA** Rəhilə Muxtar qızı (1922-2002) – müğənni (messo-soprano). Azərb. əməkdar art. (1958). AOBT səhnəsində oynadığı ilk rol "Koroğlu" operasında məharətlə ifa etdiyi Xanəndə qız olmuşdur. Repertuarına Azərb. bəstəkarlarının (o cümlədən H.-un) mahnı və romansları, xalq mahnıları daxildir.

**CAHAN** – "Arşın mal alan" musiqili komediyasında personaj. C. avam, sadəlövh dul qadındır, Əsgərin xalasıdır. Ənənəvi müsəlman mühitində tərbiyə almış C. evlənmək, ailə qurmaq kimi həyati məsələlərdə də bu mühitin tələblərindən uzaqlaşa bilmir, bacısının yadigarı Əsgərin qarşısındakı borcunu "başına çadra salıb" ona qız axtarmaqda görür. Yeniliyin bu ənənəvi-patriarxal həyata hər cür müdaxiləsi C.-nı qorxudur. Ona görə də o, Əsgərin evlənmək istədiyi qızı əvvəlcə görmək arzusuna heyrətlə yanaşır. Komediyanın finalı C. üçün də xoşbəxt sonluqla bitir. O, birdən-birə həm qızını, həm qardaşı qızını, həm də qulluqçusunu ərə verən dul Soltan bəylə izdivaca girir.

Bu əsər əsasında çəkilmiş eyniadlı filmlərdə M.Kələntərli (1945) və N.Məlikova (1965) C. rolunu böyük ustalıqla ifa etmişlər.

**CAHANGİROV** Cahangir Şirgəşt oğlu (1921-1992) – bəstəkar. əməkdar inc. xad. (1959). Azərb. xalq art. (1963). Stalin mükafatı laureatı (1950). C.-un yaradıcılıq taleyində H.-un mühüm rolu olmuşdur. 1937 ildə teatr texnikumunda oxuyarkən H. onu Azərb. Dövlət Filarmoniyasında yaratdığı xor kapellasına dəvət etmişdi. C.-un musiqi bəstələməsindən xəbər tutan H. onun əsərlərini dinlədikdən sonra C.-a musiqi təhsilini artırmağı məsləhət görmüşdür. C. bundan həvəslənərək A.Zeynallı ad. Musiqi Məktəbinin bəstəkarlıq şöbəsinə daxil olmuşdur. C.-un yaradıcılığı ilə daim maraqlanan H. onu ADK-nın hazırlıq kursuna dəvət etmişdir. Burada o, H.-dan Azərb. xalq musiqisinin



**C.Qaryağdıoğlu**



**C.Cabbarlı**



**C.Cahangirov**



A.Cavadov



C.Cəfərov

əsaslarını öyrənmiş və 1940 ildə ADK-nın bəstəkarlıq sinfinə daxil olmuşdur (müharibə illərində təhsilini yarımçıq qoymalı olan C. konservatoriyanı 1951 ildə bitirmişdir). C. skripka və simf. ork. üçün konsert janrına müraciət etmiş ilk Azərb. bəstəkarıdır. O, "Azad" (1957), "Xanəndənin taleyi" (1979) operalarının, "Təzə gəlin" operettasının (1976), "Arazın o tayında" vokal-simf. poemasının (1949), "Füzuli (1959) və "Nəsimi" (1973) kantatalarının, bir çox mahnıların, teatr tamaşalarına və kinofilmlərə musiqinin və s. müəllifidir.

**CAVADOV** Ağahüseyn Xəlil oğlu (1894-1981) – aktyor. Azərb. xalq art. (1938). Səhnə fəaliyyətinə 1920 ildən başlamış, Bakı Azad Tənqid-Təbliğ Teatrında (1921-33), Gəncə Dram Teatrında (1933-38), Azərb. Musiqili Komediya Teatrında (1938-42) çıxış etmişdir. 1942 ildən ADT-nın aktyoru olmuşdur. H.-un musiqili komediyalarında maraqlı obrazlar yaratmış, "O olmasın, bu olsun" filmində çəkilmişdir.

**CƏFƏROV** Cavanşir Xəlil oğlu (1953) – dirijor, Azərb. xalq art. (2005), professor. Leninqrad konservatoriyasını bitirib (1977).

Dövlət Akademik Opera və Balet teatrında xormeyster, Azərbaycan Dövlət Musiqili Komediya teatrında baş dirijor işləmişdir. Opera və Balet teatrının baş dirijorudur.

**"CƏNGİ"** – H.-un musiqi pyesi. Bəstəkarın 1941-1945 illər müharibəsi dövründə bəstələdiyi ən məşhur əsərdir. İlk dəfə 1941 ildə Azərb. xalq çalğı alətləri ork. tərəfindən ifa olunmuşdur. Əsər az sonra fp. üçün işlənmiş və bu transkripsiya 1956 ildə Azərb. Musiqi Nəşriyyatında nəşr edilmişdir. "C." müxtəlif illərdə tar, kamança, zurna, kanon və s. alətlər üçün də transkripsiya olunmuşdur. Əsərin böyük simf. ork. üçün variantı da var. "C." pyesi ilə H. professional Azərb musiqisinə yeni bir janrın yol açmasına zəmin yaratdı. Sonralar S.Hacıbəyov, S.Ələsgərov, Adil Gəray, H.Xanməmmədov, S.Rüstəmov və b. bu janrda yeni əsərlər bəstələdilər.

# Ç

**"ÇAĞIRIŞ"** 1941-1945 illər müharibəsi dövründə H.-un bəstələdiyi ilk mahnılardan biri. Mahnının mətni Surə Əliyevanındır. İlk variantı "Mazut" adı ilə 30-cu illərin əvvəllərində yazılmışdı. Mahnı ilk dəfə 1941 ildə Azərb. Musiqi Nəşriyyatı tərəfindən nəşr olunmuşdur.

**ÇƏMƏNZƏMİNLİ** Yusif Vəzir (təxəllüsü; əsl adı və soyadı Yusif Mirbaba oğlu Vəzirov; 1887-1943) – yazıçı, ədəbiyyatşünas, publisist. Realist hekayələrin, tarixi romanların ("Qızlar bulağı", "Qan içində" və s.) müəllifi kimi tanınmışdır. Ç. həmyerlisi H.-un yaxın dostu idi. "Leyli və Məcnun" operasının ilk tamaşasından (1908) sonra əsər üzərində aparılan yaradıcılıq və təkmilləşdirmə işləri Ç.-nin gündəliyində qeydə alınmışdır. Gündəlikdəki qeydlər Ç.-nin Üzeyir bəylə, ümumiyyətlə, Hacıbəyov qardaşları ilə yaradıcılıq əlaqələri saxladığını da göstərir. H. "Azərbaycan" qəzetinin redaktoru olarkən (1919-20), Ç. burada ADR-in xarici siyasətinə dair silsilə məqalələr dərc etdirmişdir. H. onun redaksiyanın işində fəal iştirakına imkan yaradırdı. Azərb.-da musiqinin və opera sənətinin inkişafına sevinən Ç. bu sahədə H.-un xidmətini xüsusi qeyd edərək yazırdı: "Musiqimiz millətimizin şan və adıdır, onun tərəqqisi bizim nüfuzumuzu qonşularımız arasında artırır. Musiqarımız Üzeyir Hacıbəyov cənablarının qədrini bilib, onun aləmi-islamda ilk opera vücüdə gətirməsini təşviq etməlidir..." (Azərb. EA Əlyazmalar İn-tu, Arxiv 26, q. 3 (71).

**"...ÇI** – H.-nun gizli imzası. 1919 ildə "Azərbaycan" qəzetinə redaktor təyin olunandan sonra H. daha "Filankəs" imzasını işlətməyərək, "Surna" başlıqlı felyetonlarını "...çı" imzası ilə dərc etdirirdi.

**"ÇIRPINIRDI QARA DƏNİZ"** – H.-un Əhməd Cavadın sözlərinə bəstələdiyi mahnı (1918). Türkiyədə çox məşhur olan bu mahnı məlum səbəblərə görə, 1920 ildən bəri uzun müddət Azərb.-da səslənməmiş və notu olmadığı üçün unudulmuşdu. 1990 ilin payızında ADK-da təkmilləşmə kursu keçən İstanbul Texniki Un.-tinin müəllimi, musiqişünas Süleyman Şənel H.-un xatirə ev-muzeyinə bu mahnı haqda məlumat vermişdir. Uzun fasilədən sonra mahnı Azərb.-da ilk dəfə ictimaiyyət qarşısında 1993 il martın 10-da Bakıda Respublika sarayında Əhməd Cavadın anadan olmasının 100 illik yubiley gecəsində səslənmişdir.



**Y.Çəmənzəminli**

**"ÇÖRƏYİN BAHALANMAĞI"** – H.-un məqaləsi. "Azərbaycan" qəzetinin 1919 il 7 noyabr tarixli 316-cı sayında, "Üzeyir Hacıbəyli" imzası ilə dərc olunmuşdur. 1919 ilin ikinci yarısında çörəyin bahalaşmasının səbəblərini açıqlayan müəllif, taxılı qonşu ölkələrə nisbətən bol olan Azərb.-da bahalaşmanın qıtlıqdan baş vermədiyinə şükür edərək, bahalığın başlıca səbəbini xalq varı olan taxılın oğurlanmasında, pul-para qazanmaq hərislərinin, vətənimizin öz əhalisinin ehtiyacı olan taxılı müxtəlif hiylələrlə ölkədən xaricə çıxarıb özgələrə satmaqla mənfəət götürən tamahkarların xəyanətkarlığında olduğunu gördükdə xalqla birlikdə kədərlənir və qəzəblənirdi. H. paradan özgə əziz və müqəddəs bir şey tanımayan belələrini vətən xaini adlandırır və onların əməllərinə görə cəzalandırılmasını tələb edirdi.

# D



S.Dadaşov

**DADAŞOV** Soltan Baba oğlu (təxəllüsü Zəki; 1906-1969) – rejissor. Azərb. xalq art. (1958), əməkdar inc. xad. (1940). 1931 ildən AOBT-nın quruluşçu rej. olmuş, burada "Leyli və Məcnun" (1932, 1954), "Koroğlu" (1946), "Əsli və Kərəm" (1957) operalarını, Musiqili Komediya Teatrında isə "O olmasın, bu olsun" (1931) və "Arşın mal alan" (1954) musiqili komediyalarını tamaşaya qoymuşdur.

**DARABLI** (Hüseynov) Rza Nəcəfəli (Nəcəfqulu) oğlu (1883-1942) – aktyor, rejissor. Azərb. əməkdar art. (1933). 1915 ildən müxtəlif teatr truppalarında çıxış etmiş, H.-un "Arşın mal alan", "O olmasın, bu olsun", "Ər və arvad" musiqili komediyalarında Vəli, Soltan bəy, Hambal, Səfi rollarında oynamışdır.



**"Leyli və Məcnun"** operasından səhnə. Rej. S. Dadaşov.

**"DAĞISTAN"** – H.-un 1919 ildə bəstələdiyi xoreoqrafik əsər. "Qaytağı" və "Ləzgi rəqsi" adı ilə də tanınmışdır. "Azərbaycan" qəzetinin 1919 il 4 aprel tarixli 145-ci sayında yazılıb: "...məruf bəstəkar Üzeyir Hacıbəylinin şərəfinə "Arşın mal alan" oynanacaqdır. ...Dördüncü məclisdə, yenə Üzeyir bəy tərəfindən yazılmış "Azərbaycan" və "Dağıstan" rəqsləri gözəl bir mənzərədə artistlər tərəfindən oynanacaqdır. Dirijor Üzeyir bəy..."

**"DƏBİSTAN"** – həftəlik uşaq jurnalı. 1906-1908 illərdə görkəmli maarif xadimləri Əlisgəndər Cəfərzadə və Məhəmmədhəsən Əfəndizadə tərəfindən nəşr olunmuşdur. Jurnalda H.Zərdabi, M.Ə.Sabir, A. Səhhət, M.Hadi, F.Köçərli, A.Şaiq, S.M.Qənizadə və b. əsərlərinə geniş yer verilirdi. Maddi imkansızlıq üzündən müntəzəm nəşr oluna bilməyən jurnalı

"diriltmək üçün" 1907 ildə müəllimlərdən ibarət şirkət təşkil edilmişdi. Onun üzvləri arasında H. da var idi ("İrşad", 25 dekabr 1907).

**"DƏRİN QUYULAR" –** H.-un məqaləsi. "İrşad" qəzetinin 7 mart 1907 il tarixli 40-cı sayında "Üzeyir" imzası ilə dərc olunmuşdur. Çar hökumətinin Rusiya imperiyasında yaşayan millətləri birbirindən ayırmaq, onların arasında nifaq salmaq qəsdilə "dərin quyular" qazmaq siyasəti məqalədə ciddi təhlil və tənqid edilir. Müəllif mütləqiyyətin müsəlman millətləri arasında dərin və gen quyular qazmaqda usta olduğunu, bu səbəbdən xalqların tərəqqipərvər və azadlıqsevər nümayəndələrinin bir-birlərinə "əl uzada bilmədiklərini" söyləyir, dözülməz siyasi vəziyyətin aradan qaldırılması imkanlarını arayaraq üç yol göstərirdi: "quyuları dolanıb, kənardan bir yol aramaq; ittifaq imkanı əldə etmək üçün quyuların üzərindən körpü salmaq; quyuları doldurub basdırmaq, illər sərf edib, güc ilə bu məsələnin aradan bilmərrə götürülməsinə qeyrət etmək..." Bu üç yoldan birini seçərkən müəllif mütləq "təqazayi-zəmanəyə görə" hərəkət etməyi məsləhət bilirdi.

**DİLBAZİ** Əminə Paşa qızı (d. 1919) – rəqqasə, baletmeyster və pedaqoq. Azərb. xalq art. (1959). İstiqlal ordeni (1997). Rəqqasəliyə 1935 ildən başlamış, 1936-69 illərdə Azərb. Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solisti, 1946-52 və 1962-65 illərdə rəqs qrupunun rəhbəri, habelə müxtəlif illərdə "Çinar", "Sevinc", "Şərur", "Yallı" və s. ansamblların bədii rəhbəri və baletmeysteri, 1941-1946 illər Az. Dövlət sirkinin baş baletmeysteri olmuşdur. İlk dəfə 1938 ildə H.-un "Kolxoz çöllərində" musiqisinə rəqs hazırlamışdır. H.-un "Arşın mal alan" və "O olmasın, bu olsun" musiqili komediyaları tamaşalarında rəqslərin quruluşunu vermişdir.

**DOLİDZE** Viktor İsidoroviç (1890-1933) – gürcü bəstəkarı. İlk gürcü komik operasının yaradıcısı. H.-la 1914 ildə Tiflisdə Azərb. opera truppasının qastrolu zamanı tanış olmuşdur. "Arşın mal alan"ın Tiflisdəki ilk tamaşasını görən D. bu əsəri ürəkdən bəyənmişdir. Onun 1919 ildə yazdığı "Keto və Kote" komik operasında "Arşın mal alan"ın təsiri hiss



**Ə.Dilbazi**

olunur. İlk tamaşada iştirak edən H. əsəri yüksək qiymətləndirmiş və zarafatla onu gürcüsayağı "Arşın mal alan" adlandırmışdı.



**Ə. Dilbazi**

**"DÖYÜŞÇÜLƏR MARŞI" –** H.-un səs və fp. üçün bəstələdiyi mahnı (1942). Mahnının sözləri Səməd Vurğunundur. Mahnı sonralar xalq çalğı alətləri ork., simfonik ork. və xor üçün işlənmişdir. 1944 ildə Zaqafqaziya resp.-larının incəsənət ongünlüyündə Azərb. nümayəndələrinin yekun konserti bu əsərdə tamamlanmışdı və əsər tamaşaçıların sürəkli alqışına görə təkrar səsləndirilmişdi. İlk dəfə 1942 ildə Azərb. musiqi nəşriyyatı tərəfindən nəşr edilmişdir. Rusca mətninin müəllifləri Y.Fidler və L.Zaltsmandır.

**"DÖRD KVARTET" –** H.-un simli kvartet üçün pyesləri. Bəstəkarın son vaxtlaradək məlum olmayan və adı heç yerdə qeyd edilməyən bu əsərləri R.Xəlilov tərəfindən araşdırılıb. H.-un xatirə ev-muzeyinə təqdim edilən bu pyeslər Azərb xalq mahnıları əsasında tərtib edilmişdir. Dörd pyesdən ibarət məcmuə (əlyazması) kimi təqdim edilən əsərin 1-ci səhifəsindəki yazıya əsasən ilk üç pyesin ("Dağlarda çiçək", "Üç telli durna", "A ləlli") H.-a. dördüncü pyesin isə

("Dağıstan dağ yeridir") M.Maqomayevə aidliyi aydın olur. Bu pyeslərin yazılma tarixini 20-ci illərin əvvəllərinə aid etmək daha düzgün olar. Əvvəla, pyeslərin yazı üslubu bəstəkarın məhz həmin dövrünə xas olan məziyyətləri əks etdirir. Həm də, ADK-nın yaranması dövründə Bakıda bir sıra mahir ifaçılar - müəllimlər fəaliyyət göstərirdilər. Məhz bu ifaçıların dördü – A.Lednik (I skripka), N.Simberov (II skripka), M.Rayev (alto), L.Rostropoviç (violonçel) 1921 ildə Bakıda ilk simli kvarteti yaratdılar. Kvartetin yaradılmasının təşəbbüskarlarından olan H., şübhəsiz, bu kollektivin proqram və repertuarlarında milli əsərlərin də olmasının vacibliyini gözəl bilirdi. Xalq mahnıları əsasında yazılmış bu 4 pyes kamera janrında bəstələnmiş ilk milli əsərlər kimi olduqca qiymətlidir. Uzun illərdən sonra aşkar olunmuş bu pyeslər 1991 il mayın 30-da H.-un xatirə ev-muzeyində keçirilən kamera konsertində "Bakı", simli kvartetinin (rəhbəri Rüfət Əmirəliyev) ifasında səsləndirilmişdir. Kvartet bu miniatürləri 1994 ilin yayında ABŞ səfərləri zamanı da ifa etmişdir.

**"DÖVLƏT DUMASININ AÇILMASI"** – H.-un məqaləsi. "İrşad" qəzetinin 1906 il 11-16 may tarixli 110, 111, 112, 113 və 114-cü saylarında "Üzeyir" imzası ilə dərc olunmuşdur. H.-un ən irihəcmli məqaləsidir. Məqalədə 20-ci yüzilliyin ilk illərində Rusiyada ictimai-siyasi, iqtisadi və mədəni durum, "Belə dolanmaq olmaz!" – deyən cana doymuş əhalinin ayağa qalxması, hökumətin Dövlət Duması çağırmağa razılıq verməsi, rus-yapon müharibəsində məğlubiyyət, 17 oktyabr manifesti və azadlıqların geri alınması, ölkədəki Monarxist, Kadet və digər partiyaların xarakteristikası, dumaya seçkilərin keçirilməsi, nəhayət, 1906 ilin aprelində Peterburqda Dövlət Dumasının işə başlaması kimi məsələlər açıqlanır.

**DRAMATURGİYA** – H. ədəbi-bədi yaradıcılıq, o cümlədən dramaturgiya sahəsində də müntəzəm çalışmış, bir sıra əsərlərinin, o cümlədən musiqili komediyalarının mətnlərini özü yazmışdır. H. bəstəkar kimi daha çox opera ustasıdırsa, dramaturq kimi məzhəkənəvisdir. O, dünya komediya təcrübəsi və milli ənənə zəminində ideya məzmunu, bədii-əxlaqi ovqatı ilə tamamilə yeni, şuxluğu, məlahət və duzluluğu ilə seçilən misilsiz məzyaratmışdır. 20 əsrin əvvəlində Azərb.-da ictimai şüurun səciyyəsini, o vaxtkı bədii-obrazlı təfəkkürü, milli-mənəvi mentaliteti bunlarsız təsəvvürə gətirmək qeyri-mümkündür. Onlar bir janr kimi komediyanın özünün inkişafında da yeni mərhələnin ifadəsidir. Dəyişiklik qəhrəmanların həm tərkibində, həm də tarixi taleyində və sosial-mənəvi vəziyyətində baş verir: buradakı ümumiləşmiş ictimai tiplər artıq axıradək kölə, asılı, yaltaq, müti bir psixologiyanın nümayəndələri olan hacı, məşədi, bəy, ağa və "intelligentlər", xalqa, maarifə və mədəniyyətə yox, hakim sinfə – məmur mundirinə, vəzifəyə, rəyasətə xidmət eləyən "millətpərəstlər"dir, Allaha, dinə yox, qəpiyə, manata səcdə qılan fanatiklərdir. H. göstərir ki, alver və tacir əxlaqı ideya, məslək sahəsinə də nüfuz edib, "baqqal-intelligent"in müasir tipi artıq hər şeyi alıb-satır: qadından (Gülnazdan) tutmuş ana dilinədək, xalqın taleyinə və qəzetədək. Belə ki, müftə pul bəzən ziyalıya hər şeyi, ideyanı da əvəz edir. Rəsmi peşələri müxtəlif olsa da, H.-un bütün "ziyalıları" məhz eyni rolda - dəllal və baqqal rolunda çıxış edirlər: Məşədiyə iş düzəldir, parça və bez tacirinə şərəf və mənəviyyat tacirliyini də öyrədirlər. "O olmasın, bu olsun" - Məşədi İbadın bu ifadəsi əslində onun özündən daha çox, həmin komediyalardakı "ziyalıların" sosial psixologiyasını əks etdirir: saf sevgi olmasın, satın alınan sevgi olsun; ürək dolu eşq olmasın, ətək dolu pul olsun; ana dili olmasın, yad dil olsun. Böyük humanist, mütəfəkkir sənətkar bu tiplərə münasibətdə sənətin əbədi əxlaqi suallarına klassik maarifçi cavablar verir.

"Ər və arvad" H.-un ilk və nisbətən zəif komediyasıdır. Əsərin mərkəzində Mərcan bəylə Minnət xanımın ailə münaqişəsi durur. Pozğun və şərəfsiz Mərcan nə vasitə ilə olursa-olsun, öz nikahlı qadını Minnət xanımdan "canını qurtarmağa" çalışır. Çünki Minnət pozğun ərinə hər dəqiqə ailə, əxlaq qanununu yada salan ciddi bir maneədir. Odur ki, Mərcan bəy öz qadınını hiylə ilə qoca dostuna ərə vermək istəyir. Lakin Minnət ərinin qurduğu xəyanət toruna qarşı daha ağıllı kələk işlədir: nəticədə başqasına qurmaq istədiyi tələyə Mərcan bəyin özü

düşür; o, boşamaq istədiyi arvadını ikinci dəfə alır! Konfliktin belə komik və nikbin şəkildə həlli ilə müəllif öz mütərəqqi əxlaqi qayəsini ifadə etmişdir. Mübarizə açıq çarpışma şəklini almır: yalnız hiylə işlədən iki kələkbazdan biri məğlub olur. Hiylələr və pərdələr kənara atılır, finalda xilas edilən ailə - ər və arvad görünür.

"O olmasın, bu olsun"da da süjetin mərkəzində tələbə Sərvərin kələyi durur. Lakin bu kələyi doğuran, onu mümkün, hətta zəruri edən, yenə də komik qəhrəmanın xarakteridir. Bu qəhrəman özünü, əslində, layiq olmadığı bir vəziyyətdə təsəvvür edir, pis məqsəddən doğan namünasib səyləri ilə əsərin inkişaf xəttinə satirik bir ahəng verir. Pulsuz qoçular, cibiboş "intelligentlər", yad ləhcədə kəkələyən qəzetçi Rza bəylər onun başına toplaşır. Bu cəmiyyətə təkcə hambal təsadüfən daxil olur və öz rolu ilə kəskin kinayəli gülüşü daha da gücləndirir: Hambaldan başqa Məşədini hamı soyur. Xəsis qoca ətək-ətək pul itirir. O, hər səyində aldadılır, məğlub edilir. Lakin hər məğlubiyyəti ondakı artıq tamahın cəzası kimi səsləndiyindən oxucuda xoş təsir, şən və yumorlu ovqat yaradır.

"Arşın mal alan" daha çox lirik məlahəti ilə seçilir. O, dramaturq H.-un ən şairanə əsəri hesab edilir. "Arşın mal alan" mənfi qəhrəmansız komediyadır. Buradakı bütün obrazlar həyatın işıqlı cəhətini əks etdirən, şad və saf qəlbli adamlardır. Əsərin komik konflikti də köhnələn çirkin adətlər və bu adətlərlə yaşamaq istəməyən adamlar arasında qurulmuşdur. Maraqlıdır ki, konfliktin əsasında yenə də müsbət qəhrəmanın şux bir "kələyi" qoyulur: lakin bu kələyin qurbanı indi köhnə cəmiyyətin bu və ya digər nümayəndəsi deyildir: bu qurban - feodal - patriarxal görüşlər, vaxtı keçmiş adətlər, köhnə əxlaq normaları, eybəcər nikah qaydalarıdır. Bu nikbin komediyada lirik, dramatik motivlər də çox qüvvətlidir: Əsgərlə Gülçöhrənin ciddi sevgi macərasına Telli və Vəlinin, Cahan xala və Soltan bəyin arasındakı sevgi xətləri komik paralellər təşkil edirlər. Əsərin finalı birləşən dörd toyun xoşbəxt büsatı ilə bitir. Həm də hamı - gənclər də, qocalar da nikah mərasiminin köhnə ənənələrini pozur, tamam yeni müasir qaydada, bir-birini görərək, sevərək evlənirlər.

H. digər musiqi əsərlərinin də "dramaturgiya"sını, bədii ssenarisini, əsasən, özü yazmışdır. "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm" - həm bəstəkar, həm də dramaturq H.-un birgə sənətkarlığından xəbər verən klassik sənət nümunələridir.

**DROZDOV** Aleksandr Aleksandroviç (1892-1968) – müğənni (lirik-dramatik tenor). Azərb. xalq art. (1940). 1935-59 illərdə AOBT-nın solisti olmuş, burada H.-un "Koroğlu" operasında Koroğlunun partiyasını ifa etmişdir.

**"DÜZ YOL"** – H.-un məqaləsi. "Azərbaycan" qəzetinin 1919 il 10 mart tarixli 133-cü sayında "Hacıbəyli Üzeyir" imzası ilə dərc olunmuşdur. Müəllif "Azərbaycan" qəzetini Müsavat partiyasına mənsub hesab edən müxalifət qüvvələrinə cavab verərək qeyd edirdi ki, "bu fəqərə barəsində bunu bəyan etməyi lazım bilirik ki, qəzetimiz partiya qəzeti deyildir". Onun məsləki "Vətən istiqlalı yolunda çalışmaqdır". Məqalədə deyilirdi ki, qəzet, onun redaktoru və yaradıcı kollektivi suveren Azərbaycan Respublikasına, Vətənin azadlığı, milli mənlik, milli qeyrət və qurtuluş uğrunda mübarizə işinə sədaqətlə xidmət edir.

# E



Elçin

**ELÇİN** (Elçin İlyas oğlu Əfəndiyev; d. 1943) – yazıçı, ədəbiyyatşünas, tənqidçi, ictimai xadim. Filologiya e.n. (1970). Azərb. Yazıçılar İttifaqının katibi (1975 ildən), “Vətən” cəmiyyətinin sədri (1987 ildən), Azərb. Resp. Baş nazirinin müavini (1993 ildən). Sosial-mənəvi problemlərə həsr olunmuş hekayə, povest və romanların, eləcə də elmi monoqrafiyaların ədəbi-tənqidi məqalələrin, esselərin müəllifidir. Elmi fəaliyyətində H. yaradıcılığının tədqiqi əhəmiyyətli yer tutur, bu mövzuda bir çox məqalələr yazmışdır. “Üzeyir Hacıbəyovun publisistikasına bir nəzər” (“Bəstəkarın vətəndaş sözü”) monoqrafiyasında bəstəkarın publisistikası dövrün ümumi ədəbi kontekstində götürülmüş, çoxsaylı məqalə və felyetonlarının timsalında Azərb. ədəbi-ictimai fikrini düşündürən bir sıra ciddi problemlərin onun publisistikasında necə əks olunması araşdırılmış, Azərb. ictimai fikir tarixində H.-un yeri müəyyənləşdirilmişdir. Əsərdə H. publisistikasının sənətkarlıq xüsusiyyətlərinin təhlilinə də geniş diqqət yetirilmişdir. Monoqrafiya ədəbi elmi ictimaiyyət tərəfindən H.-şünaslıqda əhəmiyyətli hadisə kimi qiymətləndirilmişdir. Azərb. mədəniyyəti və onun klassikləri haqqında məqalələrində də H.-un yaradıcılığı ilə bağlı ayrı-ayrı məqamlara toxunulur.



Ə.Eldarova

**ELDAROVA** Əminə Mehrab qızı (d. 1921) – musiqişünas. Sənətşünaslıq namizədi (1975). ADK-nda H.-un sinfində oxumuşdur. H.-un rəhbərliyi ilə “Aşıq sənəti və muğamatın müqayisəli icmalı” mövzusunda diplom işi müdafiə etmişdir. E. bəstəkarın “Azərbaycan xalq musiqisinin əsasları” monoqrafiyasının Azərb., rus və ingilis dillərində nəşrlərinin, X.Ağayevanın “Ü.Hacıbəyov” (rusca) əsərinin redaktorudur (Q.İsmayılova ilə birlikdə). H. haqqında bir sıra məqalələr yazmışdır.



Ö.Eldarov

**ELDAROV** Ömər Həsən oğlu (d. 1927) – heykəltəraş. Azərb. xalq rəs. (1982). Azərb. əməkdar inc. xad. (1962). Rusiya Rəssamlıq Akademiyasının m. üzvü (1967). Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, qorelyef və s.) bir çox əsərləri var. 1956 ildə yaratdığı H.-un qəbirüstü abidəsi (tunc, qranit) dərin ifadəliyi ilə fərqlənilir. Azərb. Rəssamlıq Akademiyasının rektorudur.

**ELOĞLU** (Hüseynov) İsmayıl (1912-1957) – müğənni (lirik bariton). 1926 ildən AOBT-nda müxtəlif rollar oynamışdır. “Leyli və Məcnun”da Nofəl, “Əsli və Kərəm”də Keşiş və Paşa, “Koroğlu”da Alı kişinin yaddaqalan obrazlarını yaratmışdır.

**“ERMƏNİSTAN VƏ AZƏRBAYCAN MÜNASİBƏTİ”** – H.-un məqaləsi. “Azərbaycan” qəzetinin 1919 il 17 oktyabr tarixli 298-ci sayında “Hacıbəyli Üzeyir” imzası ilə dərc olunmuşdur. Müəllif Zəngəzur məsələsinin Azərb.-ın ayrılmaz hissəsi olan Qarabağa diş qıcırdan Ararat hökumətinin barmağı ilə idarə olunan daşnak hiyləsiylə ortaya atıldığını tutarlı şəkildə sübut edir. H. Tiflisdə rus dilində nəşr etdirdikləri “Slovo” qəzetində bu fəsadı həyata keçirmək niyyətilə yazılar verən erməni millətçilərinin əsassız iddialarını məntiqlə alt-üst edir.

**“EY VƏTƏN”** – H.-un xor kapellası üçün bəstələdiyi əsər. Sözləri Səməd Vurğunundur. Əsər 40-cı illərdə bəstələnib, lakin əlyazması itirilmişdir. Bəstəkarın ən məşhur və sevilən əsərlərindəndir. Konsertlərdə tez-tez səslənir.

# Ə

**ƏBDÜLQADİR** Marağİ, Əbdülqadir İbn Qeybi Əl-Hafiz Əl-Marağİ (1353-1435) – Azərb. musiqi nəzəriyyəçisi, bəstəkar və xanəndə. Əl-Fərabi, İbn Sina, Səfiəddin Urməvinin musiqi nəzəriyyələrini inkişaf etdirmiş, nəzəri əsərlərində məqam və ritmlərin quruluşunu izah etmiş, ilk dəfə olaraq, 12 əsas məqamdan törəmə 24 şöbə sistemini elmi cəhətdən əsaslandırmış, dövrünün musiqi formalarının təsvirini vermişdir. Onun yaratdığı 20 yeni ritmdən (iqa) 6-sı klassik ritmlər silsiləsinə daxil edilmişdir. Ə.M. bir çox musiqi alətində çalmış, bəzi alətləri isə təkmilləşdirmişdir. Onun elmi-nəzəri və musiqi yaradıcılığı Yaxın və Orta Şərq musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərmişdir. Ə.M.-nin yaradıcılığını yüksək qiymətləndirən H. "Azərbaycan xalq musiqisinin əsasları" əsərində onun haqqında da məlumat vermişdir.

**ƏBDÜRRƏHMANOV** Fuad Həsən oğlu (1915-1971) – heykəltəraş. Azərb. xalq rəs. (1956), Azərb. əməkdar inc. xad. (1943). SSRİ Rəssamlıq Akademiyasının m. üzvü (1949). Stalin mükafatları laureatı (1947, 1951). Azərb. heykəltəraşlığının banilərindən olan Ə. monumental heykəltəraşlıqla yanaşı, portret janrında da əsərlər yaratmışdır. H.-un büst-portreti bu baxımdan diqqətəlayiqdir.

**ƏDƏN MİLLİ DRAM TEATRI** – Yəmən Ərəb Resp.-nın Ədən ş.-ndədir. 1980 ildə yaradılmışdır. 1981 ilin martında H.-un "O olmasın, bu olsun" musiqili komediyası ərəb həyatına təbdil edilərək teatrın səhnəsində "Şeyx Ubad" adı ilə tamaşaya qoyulmuşdur. Komediyanın personajlarının adı ərəb adlarına uyğunlaşdırılmışdı. Əsəri ərəb dilinə Ömər Abdulla Saleh, şeirləri Əli-Şaab Məhəmməd Avad tərcümə etmişdi. Tamaşanın quruluşçu rej. Əflatun Nemətzadə idi.

**ƏFƏNDİYEV** İsmayıl Mahmud oğlu (1910-1967) – aktyor, rejissor. Azərb. əməkdar art. (1943). Azərb.-ın ilk peşəkar kino aktyorlarındandır. "Səbuhi", "Fətəli xan", "O olmasan, bu olsun" və s. filmlərdə çəkilmişdir. "Arşın mal alan" (1945) filmindəki Süleyman obrazı Ə.-in ən yaxşı rollarındandır.

**ƏFƏNDİYEV** Məmmədsadıq Mirzəhməd oğlu (1902-1942) – teatr tənqidçisi, pedaqoq. Bakı Türk İşçi Teatrında, Moskva və Bakı konservatoriyalarında, Azərb. xalq maarif komissarlığında və s. işləmişdir. H.-la Ə.-in çoxillik yaradıcılıq əlaqələri olmuş, ADK-nda birgə əməkdaşlıq etmişlər. Ə. "Koroğlu" operası haqqında tədqiqat xarakterli, dərin təhlilli ilk sanballı məqalələrdən birini yazmışdır. Məqalə "Azərbaycan xalqının "Koroğlu" eposu M.F.Axundov ad. opera teatrının səhnəsində" başlığı ilə "Литературный Азербайджан" jurnalında (1937, №5) dərc olunmuşdur. Ə. əsərə düzgün qiymət vermiş və göstərmişdi: "...Musiqi folkloru ilə yüksək bəstəkarlıq texnikasını ustalıqla birləşdirərək Ü.Hacıbəyov yüksək keyfiyyətli musiqi əsəri yaratmışdır. Şübhəsiz, bu əsər Azərbaycan operasının gələcək inkişafı üçün nümunə olacaqdır..."



**F.Əbdürrəhmanov**

**ƏFƏNDİYEV** Rəşid bəy İsmayıl oğlu (1863-1942) – maarif xadimi, yazıçı, dramaturq, etnoqraf. Qori seminariyasını (1882) və Tiflisdə Müəllimlər İn-tunu (1900) bitirmişdir. 1900-1917 illərdə Qori seminariyasında dərs demişdir. H. Qori seminariyasında oxuyarkən Ə.-ə daim ehtiram bəsləmişdir. H.-un 1909 ildə "Tərəqqi" qəzetində dərc olunmuş "Milli məktəblərdə rus dili tədrisi" məqaləsinə Ə. həmin qəzetdə tənqidi münasibətini bildirmiş, H. isə "Yenə üsuli-təbii haqqında bir neçə söz" məqaləsi ilə Ə.-ə cavab vermişdir.

**ƏFQANLI** (qızlıq soyadı Ağamalova) Bədurə Məlik qızı (1912-2002) – ilk Azərb.



Ə.Cavad



Ə.Ələkbərov



Ş.Ələkbərova



F.Əhmədova

qadın teatr rəssamlarından biri. Azərb. xalq rəs. (1974), Azərb. əməkdar inc. xad. (1949). Bir sıra tamaşalar, xüsusilə H.-un "Leyli və Məcnun" operası üçün çəkdiyi geyim eskizləri professionallığı ilə diqqəti cəlb edir.

**ƏHMƏD CAVAD** (Cavad Məhəmmədəli oğlu) Axundzadənin təxəllüsü; (1892-1937) – şair, tərcüməçi, müəllim. 1912 ildə "Gəncə mədrəsəsi"ni (Gəncə ruhani seminariyası) bitirmiş, ömrünün sonunadək müəllimlik etmişdir. Sağlığında iki orijinal şeirlər kitabı - "Qoşma" (1916) və "Dalğa" (1919) nəşr olunmuşdur. ADR dövründə qızğın ictimai-ədəbi fəaliyyət göstərmişdir. Azərb.-ın milli istiqlaliyyətini Türkiyə və Azərb. xalqlarının sarsılmaz həmrəylik və birliyini tərənnüm edən şeirlər yazmışdır. H.-un redaktor olduğu "Azərbaycan" qəzeti ilə fəal əməkdaşlıq etmişdir. Ə.C.-ın yaradıcılığını yüksək qiymətləndirən H. onun "Yol ver türkün bayrağına" ("Çırpınırdı Qara dəniz") şeirinə milli marş bəstələmişdir. H.-un bəstələdiyi ADR Dövlət Himninin sözləri də Ə.C.-ındır. Bəstəkar "Qurtuluş" adlı məşhur məqaləsinə Ə.C.-ın şeirindən epiqraf götürmüşdür.

Ə.C. 1937 ildə həbs olunaraq güllələnmişdir.

**ƏHMƏDOVA** Firəngiz Yusif qızı (1928-2002) – müğənni (lirik-dramatik soprano). Azərb. xalq art. (1964), SSRİ xalq art. (1967). H.-un təşəbbüsü ilə ADK-na qəbul olunmuşdur. 1950-77 illərdə AOBT-nın solisti olmuşdur. Azərb., rus və Avropa bəstəkarlarının operalarında oynamış, o cümlədən H.-un "Koroğlu" operasında Nigarın obrazını böyük məharətlə yaratmışdır. "Arşın mal alan" musiqili komediyasında Gülçöhrə rolunda oynamışdır. Azərb. bəstəkarlarının bir çox mahnı və romanslarının ilk ifaçısı olmuşdur.



**F.Əhmədova** "Koroğlu" operasında Nigar rolunda.



**C.Əkbərov** "Leyli və Məcnun" operasında Məcnun rolunda.

**ƏKBƏROV** Canəli Xanəli oğlu (d. 1940) – xanəndə. Azərb. xalq art. (1992). 1976 ildən AOBT-nın artistidir. H.-un operalarında İbn Səlam, Məcnun ("Leyli və Məcnun"), Kərəm ("Əsli və Kərəm") partiyalarında çıxış edir.

**ƏLƏKBƏROV** Əliheydər Əbdüləli oğlu (1915-1974) – rejissor. Azərb. xalq art. (1949). Ü.Hacıbəyov ad. Resp. (1967) və Azərb. Dövlət (1972) mükafatları laureatı. 1960-67 illərdə Azərb. Musiqili Komediya Teatrının baş rej., 1967 ildən ADT-nın direktoru olmuşdur. 1966 ildə Bolqarıstanın Şumen şəhər teatrında H.-un "O olmasın, bu olsun" musiqili komediyasını bolqar və türk dillərində tamaşaya qoymuşdur.

**ƏLƏKBƏROVA** Şövkət Feyzulla qızı (1922-1993) – müğənni. Azərb. xalq art. (1959). 1938 ilin axırlarında bədii özfəaliyyət kollektivlərinə baxışın AOBT-nda keçirilən yekun konsertində Ə.-nın oxuduğu "Qarabağ şikəstəsi" H.-un çox xoşuna gəlmiş və bəstəkar onu, rəhbərlik etdiyi Azərb. Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblına solist götürmüşdür. Sonralar Ə. onun müğənni kimi yetişməsində və püxtələşməsində H.-u minnətdarlıq hissilə xatırlamışdır: "Üzeyir bəy mənim səsimi çox xoşlayırdı. Həmişə mənə, "özündən, səsindən muğayat ol" deyərdi... O, bizə oxumağın sirrini öyrədərdi. Bu gün müxtəlif dəst-xəttli ansamblların, ork.-lərin müşayiəti ilə oxuya bildiyim üçün ilk növbədə Üzeyir bəyə, onun yaratdığı xora borcluyam".

Ə. bəstəkarın "Qaragöz", "Şəfqət bacısı", "Addımla, əsgər" mahnılarını çox gözəl oxuyardı. H. 1944 ilin dekabrında Tbilisidə keçirilmiş Zaqafqaziya resp.-ları musiqi ongünlüyünün yekunlarına dair məqalələrində ongünlükdə iştirak etmiş Ə.-nın adını xüsusi olaraq qeyd etmişdi.

**ƏLƏSGƏROV** Süleyman Əyyub oğlu (1924-2000) – bəstəkar, dirijor, pedaqoq. Azərb. xalq art. (1974). Ü.Hacıbəyov ad. Resp. mükafatı laureatı (1967). ADK-nı bitirmişdir (1948). Bakı Musiqi Məktəbinin direktoru, Azərb. Dövlət Radio və Televiziyası xalq çalğı alətləri ork.-nin dirijoru, Musiqili Komediya Teatrının direktoru, baş dirijoru və s. vəzifələrdə işləmişdir. 1956 ildən ADK-da dərs demişdir (1976 ildən prof.). 11 operetta, 2 opera, kantatalar, simfoniyalar, "Bayatı-Şiraz" simf. muğamı, kamera-vokal, instrumental və s. əsərlərin müəllifidir. Ə.-un musiqisi xalq musiqisi intonasiyaları ilə sıx bağlıdır.

1941-44 illərdə H.-un sinfində Azərb. xalq musiqisinin əsaslarını öyrənmiş, 1943 ildə Bəstəkarlar İttifaqına da H.-un zəmanəti ilə qəbul olunmuşdur. 1944-48 illərdə Musiqili Komediya Teatrında "Arşın mal alan", "O olmasın, bu olsun", "Ər və arvad" musiqili komediyalarına dirijorluq etmiş və H. onun işini bəyənmişdir. Ə. sonralar da H.-un əsərlərinə dirijorluq etmişdir. Trio üçün "Düşüncə" pyesinin və müğənni ilə simf. ork. üçün "Eşq olsun sənətkara" balladasını böyük bəstəkarın xatirəsinə həsr etmiş, H.-un 1 kantatasını xalq çalğı alətləri ork. üçün işləmişdir.

**ƏLİXANOVA** Firuzə Məmmədqulu qızı (1917-1994) – aktrisa. Azərb. xalq art. (1974). 1932 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmiş, həm dram tamaşalarında, həm də opera və musiqili komediyalarda oynamışdır. H.-un "Leyli və Məcnun" operasında Leyli, "Arşın mal alan" musiqili komediyasında Gülçöhrə və Cahan xala obrazlarını uğurla yaratmışdır.

**ƏLİLİ** Məmməd Əli oğlu (1906-1993) – kino rejissoru, aktyor. Azərb. əməkdar inc. xad. (1959). Kinoda və teatrda fəaliyyət göstərmiş, 1965 ildə çəkilmiş "Arşın mal alan" filminin 2-ci rej. olmuşdur.

**ƏLİVERDİBƏYOV** Ağalar Kərbəlayi Ələkbər oğlu (1880-1953) – musiqi xadimi, musiqi folkloru toplayıcısı. H.-un dayısı. Şuşada Realni məktəbi bitirmiş, Peterburq və Varşavada inşaat mühəndisi ixtisası üzrə təhsil almışdır. H.-un musiqi üzrə ilk müəllimi olmuşdur. Ömrünün son illərində A.Zeynallı ad. Bakı Musiqi Məktəbində muğam ifaçılığından (vokal) dərs demişdir.

**ƏLİVERDİBƏYOV** Bahadur bəy Kərbəlayi Ələkbər oğlu (1883-1953) – həkim. H.-un dayısı. Xarkov Tibb İn-tunu bitirmişdir. Birinci Dünya müharibəsində hərbi həkim kimi iştirak etmişdir. Uşaqlıqdan musiqiyə güclü meyl göstərmiş, xalq mahnıları, təsnif və muğamları tarda məharətlə ifa etmişdir.

**ƏLİVERDİBƏYOV** Kazım Ağalar oğlu (d. 1934) – dirijor. Azərb. əməkdar inc. xad. (1978), prof. (1991). H.-un dayısı oğludur. ADK-nı xor dirijorluğu üzrə bitirmişdir (1959). 1961 ildən AOBT-ında işləyir. H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" operalarına, "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyalarına dirijorluq etmişdir.

**ƏLİVERDİBƏYOV** Nazim Ağalar oğlu (1926-1985) – bəstəkar. H.-un dayısı oğludur. ADK-nı bitirmiş, 1951-85 illərdə Bülbül ad. orta ixtisas məktəbində (1964-85 illərdə direktor) və ADK-da dərs demişdir. H.-un "Əsli və Kərəm" və "Leyli və Məcnun" operalarını yenidən orkestrləşdirmişdir. H.-un nəşr edilmiş "Leyli və Məcnun" (1983) və "Koroğlu" (1985) operalarının partituralarının redaktoru olmuşdur.

**ƏLİYEV** Baba Balababa oğlu (1915-1991) – rəssam. Azərb. xalq rəssamı (1982). Azərb. əməkdar inc. xad. (1964). Yaradıcılığında portretlər, natürmortlar əsas yer tutur. H.-un portretini çəkmişdir. (1985).

**ƏLİYEV** Əbülfət Əsəd oğlu (1926-1990) – müğənni. Azərb. xalq art. (1964). Azərb. Dövlət Filarmoniyasının (1945-78), Azərb. Dövlət Qastrol-Konsert Birliyinin



**Əbülfət Əliyev** "Leyli və Məcnun" operasında Məcnun rolunda.

(1978-90), eyni zamanda AOBT-nın solisti olmuşdur. Məlahətli, xoş tembrli səsi olan müğənni H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında Məcnun və Kərəm partiyalarının ən yaxşı ifaçılarından idi.

**ƏLİYEV** Əziz Məmmədkərim oğlu (1897-1962) – həkim, səhiyyə təşkilatçısı, dövlət xadimi. Tibb e. d. (1938), prof. (1956), Azərb. əməkdar həkimi (1960). Müxtəlif rəhbər elmi və dövlət vəzifələrində çalışmış, o cümlədən Azərb. Tibb İn-tunun, ADU-nun rektoru, Azərb. SSR Xalq Səhiyyə Komissarı, Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərb. KP



**B.Əliverdibəyov**



**S.Ələsgərov**



**Ə.Əliyev**



**F.Əlixanova**



**Əziz Əliyev**

MK-nın katibi, Azərb. SSR Nazirlər Soveti sədrinin birinci müavini və s. olmuşdur. H.-la ailəvi dost idi. Ə. Ali Sovetdə işlədiyi dövrdə mədəniyyət və incəsənət işlərinə rəhbərlik etdiyindən, H.-la daha tez-tez görüşər, Azərb. incəsənətinin inkişafı yolları haqda onunla məsləhətləşərdi.



H.Əliyev

**ƏLİYEV** Habil (d.1927) – musiqiçi. Azərb. xalq artisti. Dünyada tanınan istedadlı kaman ustası, xalq artisti Habil Əliyev xüsusi konservatoriya təhsili görməmişdir. O, hələ yeniyetməlik, ilk gənclik çağlarından H.-un əsərlərini ifa etməyə başlamışdır. 40-cı illərin ortalarında N.Vəzirov ad. Ağdaş Dövlət Dram Teatrında "Leyli və Məcnun" operasının bütün tamaşalarını tərkibində gənc Ə.-in də olduğu xalq çalğı alətləri üçlüyü əvvəldən axıradək müşayiət edərdi.

**ƏLİYEV HEYDƏR ƏLİRZA OĞLU** (10.05.1923-12.12.2003) – Azərb. Resp.-nın prezidenti (1993-2003), Yeni Azərb. Partiyasının sədri (1992-2003), Dünya azərbaycanlılarının ümummilli lideri, müstəqil Azərb. dövlətçiliyinin qurucusu, azərbaycançılıq fəlsəfəsinin banisi.

Ə.-in respublikaya rəhbərlik etməyə başladığı 1969-cu ildən etibarən Azərb.-ın görkəmli şəxsiyyətlərinin, o cümlədən H.-un irsinin öyrənilməsi, xatirə ev-muzeylərinin açılması, yubileylər keçirilməsi ənənə halını almışdır. Əslində bu, milli ruhun və milli özünüdərkin yüksəlişini təmin etmiş, xalqın tarixi yaddaşının özünə qaytarılması və qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratmışdır. Milli oyanışın ən parlaq təzahürü Ə.-in siyasi repressiyalara məruz qalmış böyük mütəfəkkir-şair Hüseyn Cavidin cənazəsinin uzaq Sibirdən vətənə gətirilməsini təmin etməsi olmuşdur. Bu istiqamətdə atılan addımlar Azərb.-da müstəqillik arzuları və milli azadlıq hərəkatının başlanğıc nöqtəsi olaraq səciyyələndirilmişdir.

Hələ 1970-ci illərin əvvəllərindən etibarən milli mədəniyyətlə bağlı söylədiyi mülahizələr, irəli sürdüyü fikir və ideyalar Ə.-in Azərb. tarixinə və mədəniyyətinə həmişə böyük nikbinliklə yanaşdığını sübuta yetirir.

Müstəqillik dövründə Azərb.-ın böyük şəxsiyyətlərinin, milli mədəniyyətin görkəmli nümayəndələrinin zəngin irsinin azərbaycançılıq fəlsəfəsi baxımından yenidən öyrənilməsi və təbliği ön plana çəkilmişdir. Ə.-in bununla bağlı imzaladığı fərman və sərəncamlar, o cümlədən H.-un



Heydər Əlirza oğlu Əliyev

110 illiyi ilə bağlı qərar bu sahədə aparılan siyasətin aydın təzahürləridir.

Ə.-ə görə, "tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən, onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir... Digər tərəfdən, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir". Bu baxımdan Azərb. mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsi xalqın milli varlığına, milli duyğuların güclənməsinə son dərəcə müsbət təsir göstərmişdir.

Milli mədəniyyət klassiklərinin geniş miqyasda, beynəlxalq aləmdə tanınmalarında, onların hörmət və ehtiramla yad olunmalarında müstəsna rol oynamış Ə. öz çıxış və nitqlərində H.-un çoxşaxəli zəngin irsinə həmişə dərin hörmət və ehtiramını ifadə etmişdir. H.-un anadan olmasının 90 illiyi misli görünməmiş təntənə ilə Bakıda, Moskvada və digər şəhərlərdə qeyd olunduğu dövrdə məhz Ə.-in təşəbbüsü və yaxından iştirakı ilə Bakıda 1975-ci ilin noyabrında H.-un yaşadığı mənzil bəstəkarın ev-muzeyinə çevrilmişdir. Bu, Azərbaycanın paytaxtında mədəniyyət xadimlərinin xatirəsini əbədiləşdirmək məqsədilə yaradılmış ilk ev-muzeyi idi. Qısa vaxt ərzində muzeydə toplanmış eksponatlar təkcə Azərb. professional musiqisinin deyil, eləcə də Azərb. xalqının XX əsrin

ilk onilliklərində yaşadığı ədəbi-mədəni intibahı göz önündə canlandırırdı. O zaman – 90 illik yubileyində bəstəkarın Şuşada da həmçinin ev-muzeyi yaradılmışdı.

Azərb. mədəniyyətinin digər nümayəndələri kimi, H. barəsində fikir və mülahizələrində də Ə. yüksək professionallıq, mövzuya dərin bələdlik, ən başlıcası isə haqqında söz açdığı şəxsiyyətə böyük ehtiram nümayiş etdirmişdir.

Yaradıcılıqda varisliyə böyük diqqət yetirən Ə. resp.-da musiqi mədəniyyətinin yaranmasında və formalaşmasında H.-un rolunu xüsusi qeyd etmişdir: "Üzeyir Hacıbəyovun Azərbaycanda yaratdığı musiqi məktəbi elə bir məktəb olub ki, ondan sonra xalqımız dünyaya bir çox görkəmli bəstəkarlar, musiqiçilər, mədəniyyət xadimləri verib". H.-un vaxtilə üzləşdiyi çətinlikləri qeyd edərək, Ə. Azərb. bəstəkarlarının V qurultayındakı nitqində demişdir: "Biz... professional musiqinin banilərinin, ilk növbədə, Üzeyir Hacıbəyovun fəaliyyətini böyük minnətdarlıq və iftixarla xatırlayırıq. Onlar xalqa nəinki gözəl musiqi əsərləri bəxş etmiş, həm də Azərbaycanda bəstəkarlıq məktəbinin təməlini qoymuş və bu məktəbi yaratmışlar".

Ə.-in dahi bəstəkarın anadan olmasının 110 illiyinə həsr olunmuş yubiley gecəsindəki nitqi H. irsinin öyrənilməsi və onun yüksək vətəndaşlıq mövqeyindən yaratdığı əsərlərin qiymətləndirməsində müstəsna əhəmiyyətə malikdir.

H.-u XIX əsrin sonlarındakı Şuşa ədəbi mühitinin və ümumən XX əsrin əvvəllərindəki mütərəqqi mühitin yetirməsi hesab edən Ə.-ə görə, "Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sıralarında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur".

Azərb. ədəbi-ictimai fikri tarixində yeri uzun müddət lazımınca araşdırılmadığı və xüsusən də milli Azərb. hökuməti dövründəki ictimai-siyasi və publisistik fəaliyyəti üzərindən sükutla keçildiyi üçün H. fenomeninə yeni gözlə baxılmasını, gerçəklərin üzə çıxarılmasını və obyektiv işıqlandırılmasını zəruri sayan Ə. deyirdi ki, "1918-ci ildə Azərbaycanda ilk demokratik respublika yaranan zaman və yaranandan sonra Üzeyir Hacıbəyov o vaxt gedən ictimai-siyasi proseslərin fəal iştirakçısı olmuşdur. O, görkəmli bir şəxsiyyət kimi həmin proseslərin düzgün istiqamətdə getməsinə təsir etmiş və o ağır dövrdə, çətin dövrdə xalqımızın milli mənliyinin yüksəlməsi üçün çox işlər görmüşdür".

Ə. zaman baxımından H.-un yaradıcılığını üç dövrə ayırır ki, birinci dövrə də onun əsrin əvvəllərindən 1917-ci ilin Fevral inqilabına qədərki fəaliyyətini daxil edir. Ə. haqlı olaraq, H. yaradıcılığının bu ilk mərhələsinin yalnız ədəbi nümunələr və musiqi əsərləri ilə məhdudlaşmadığını, eyni zamanda dahi bəstəkarın öz xalqının dönməz və qətiyyətli ictimai-siyasi xadimi kimi tanındığını vurğulayır: "Keçmiş zamanlarda Üzeyir Hacıbəyovun həyat yolu haqqında söhbət düşəndə yaratdığı əsərlərdən danışırdılar, amma onun o dövrlərdə, əsrin əvvəllərindən 1920-ci ilə qədər ictimai-siyasi fəaliyyəti haqqında heç bir şey deyilmirdi".

Bu dəqiq müşahidədən aydın göründüyü kimi, H. yaradıcılığının bir o qədər də uzunmüddətli olmayan ikinci mühüm mərhələsi milli hökumət dövrünü – 1918-1920-ci illəri əhatə edir. "Üzeyir Hacıbəyov böyük vətəndaş olmuşdur. Bir də qeyd edirəm, 1918-1920-ci illərdə, ağır bir dövrdə – Azərbaycanın ilk respublikasının fəaliyyət göstərdiyi dövrdə Üzeyir Hacıbəyovun yaradıcılığı əvəzsizdir" – sözləri ilə Ə. həmin qısa, lakin şərəfli yaradıcılıq dövrünün də həqiqi dəqiq qiymətini vermişdir.

Nəhayət, H. yaradıcılığının üçüncü dövrü, Ə.-in fikrincə, 1920 ildən dahi bəstəkarın ölümünə qədər olan müddəti əhatə edir.

Ə. ölməz bəstəkarın yaradıcılığının tarixi ədalət hissi ilə obyektivlik işığında öyrənilməsinin əsl tərəfdarı olmuş, dövrün və zamanın tələbləri bəhanəsilə əyintilərə yol verilməsinə, bir dövrün qabardılıb o biri dövrün gizlədilməsinə qarşı çıxmışdır, çünki Ə.-ə görə, bütövlükdə "Üzeyir Hacıbəyov... anadan olandan... dünyasını dəyişənə qədər Azərbaycan xalqının görkəmli bir oğlu olmuşdur. Azərbaycan xalqına xidmət etmişdir və hansı sistemdə olursa-olsun, hansı hakimiyyət dövründə olursa-olsun, bütün imkanlarından istifadə edərək xalqını daim irəliyə doğru aparmışdır... Azərbaycan mədəniyyətinin çiçəklənməsində – biz bu gün iftixar hissi ilə deyə bilərik ki, ...Üzeyir Hacıbəyovun əvəzsiz rolu vardır".

Ə. yaradıcılığının bütün dövrlərində doğma xalqı ilə birlikdə olduğuna görə, "hər üç mərhələdə hakimiyyətin formasından, xarakterindən asılı olmayaraq, xalqına xidmət etmiş olduğuna görə" dahi bəstəkarın zəngin irsini və şəxsiyyətini

ideoloji yönlü təftişlərdən qorumağa çalışmışdır.

Ə. "Üzeyir Hacıbəyovun bütün əsərləri ölməzdir" deyir, XX əsr Azərb. mədəniyyəti tarixinə özünün çoxşaxəli fəaliyyəti ilə sözün həqiqi mənasında ensiklopedik şəxsiyyət kimi daxil olmuş H. fenomenini bütün cəhətlərilə öyrənməyə çağırırdı: "Çünki Üzeyir Hacıbəyov dahi bir bəstəkar, musiqiçi, eyni zamanda böyük alimdir, filosofdur, maarifçidir... Xalqımızda milli dirçəliş, milli oyanış, milli özünüdərk hisslərinin yaranmasında, formalaşmasında, inkişaf etməsində Üzeyir Hacıbəyovun əsərləri və onun bilavasitə fəaliyyəti böyük rol oynamışdır. Azərbaycanlılar – gənclər, vətəndaşlarımız məhz Üzeyir Hacıbəyovun əsərlərindən ruhlanaraq, Vətənimizi daha çox sevmişlər; onun musiqisini dinləyərək, onun əsərlərindən irəli gələn fikirlərin təsiri altına düşərək hiss etmişlər ki, Vətən, ölkə, millət hər bir insan üçün nə qədər əzizdir, doğmadır".



H.Əliyev



M.Əliyev

Ə.-dən ötrü Azərb. mədəniyyətinin bütün klassikləri kimi, H. da ilk növbədə məhz vətənə, torpağa bağlılığı, milli azadlıq və müstəqillik ideallarına sonsuz sədaqəti ilə qiymətli və əzizdir.

Azərb. xalqının milli şüurunun formalaşdırılması və qorunmasında ədəbiyyat və mədəniyyət nümayəndələrinin bir çox mərhələlərdə həm də siyasi xadimlərin vəzifələrini öz üzərlərinə götürmələri baxımından istisna təşkil etməyən, vətən sevgisi və yurd təəssübkeşliyinin əməli işdə təsdiqində özünün bir çox sələflərini və adlı-sanlı müasirlərini qabaqlayan H.-u Azərb. xalqının yaddaşında əbədi yaşadacaq amillər sırasında Ə. onun həm də Dövlət Himninin müəllifi olmasını göstərmişdir.

H. irsinə yüksək ehtiram və məhəbbətin təzahürü olan: "Üzeyir Hacıbəyovun yazdığı hər bir əsər... bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti əvvəldən-axıra qədər bizim üçün qiymətlidir. Çünki bunlar hamısı Azərbaycan xalqının güclənməsinə, mədəniyyətin inkişaf etməsinə, xalqımızın özünü tanımasına xidmət etmişdir. Bu xidmətlər heç vaxt unudula bilməz. Bu xidmətlər əvəzsizdir" sözləri Azərb. xalqının ümummilli lideri Ə.-in bütünlükdə sənətə və sənətkara münasibətini özündə parlaq əks etdirir.

H.-un 90, eləcə də 100 və 110 illik yubileylərinin təntənəli surətdə keçirilməsinin bilavasitə təşkilatçısı və iştirakçısı olan Ə. 1995-ci ildə, H.-un 110 illiyi ərəfəsində Azərb. musiqisi tarixinin ən əlamətdar tarixi olaraq, anılması məqsədilə dahi bəstəkarın doğum gününün – 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd edilməsi barədə fərman imzalamışdır.

**ƏLİYEV** Hüseyn Əlirza oğlu (1911-1991) – rəssam. Azərb. xalq rəs. (1982). Bakı Dövlət Rəssamlıq Texnikumunu bitirmiş (1932), Leninqrad Boyakarlıq, Memarlıq və Heykəltəraşlıq İn-tunda oxumuşdur (1932-35). Yaradıcılığında portret və mənzərələr mühüm yer tutur. 1938 və 1985 illərdə H.-un portretlərini işləmişdir.

**ƏLİYEV** Mirzəağa Əli oğlu (1883-1954) – aktyor. SSRİ xalq art. (1949). Stalin mükafatı laureatı (1943, 1948). İlk dəfə səhnəyə 1901 ildə çıxmışdır. 1906-7 illərdə "Həmiyyət" teatr truppasının rəhbəri və aktyoru olmuş, 1907-12 illərdə "Nicat" cəmiyyətinin teatr truppasında çıxış etmişdir. 1912-16 illərdə Rusiyada, Türkiyədə, İranda və s. tamaşalar vermişdi. Bakı Azad Tənqid-Təbliğ Teatrının təşkilatçısı, 1924 ildən ömrünün sonunadək ADT-nın aktyoru olmuşdur. H.-un "Ər və arvad" (Kəblə Qubad), "O olmasın, bu olsun" (Məşədi İbad), "Arşın mal alan" (Soltan bəy) musiqili komediyalarında son dərəcə realist, koloritli, unudulmaz səhnə obrazları yaratmışdır. Azərb. radiosunda lentə alınmış "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarının radio-tamaşalarında Məşədi İbad və Soltan bəy rollarını ifa etmişdir. Kino aktyoru kimi də məşhur idi.

**ƏLİYEV** Sabir Hüseynəli oğlu (1928-1983) – violençel çalan. Azərb. xalq art. (1972), prof. (1972). 1951 ildə ADK-nı bitirmiş və orada müəllimlik etmişdir. Ə.-in sənət taleyində H.-un mühüm rolu olmuşdur. Hələ yeniyetmə Ə.-in çalğısına qulaq asan H. demişdi ki, "uşağa göz olun, deyəsən, ondan bir şey çıxacaq". H. uşaq vaxtlarından çox ciddi xəstəliyə düçar olan Ə.-ə himayədarlıq edir, onu müalicə etdirirdi. Ə. bir sənətkar kimi öz çalğısı ilə H.-un qayğı və etimadını doğrultmuşdur.

**ƏLİYEVA** Nərminə Ağalar qızı (1939-2001) – musiqişünas. Sənətşünaslıq namizədi. (1969), prof. (1992). Azərb. bəstəkarlarının, o cümlədən H.-un yaradıcılığında polifoniyanı tədqiq edirdi. "Üzeyir Hacıbəyovun yaradıcılığında bəzi polifoniya prinsipləri və polifonik formalar" (1969), Ü.Hacıbəyovun "Koroğlu" operasında polifoniya haqqında" (1975) və s. məqalələrin müəllifidir.

**ƏLİZADƏ** Aqşin Əliqulu oğlu (d. 1937) – bəstəkar, Azərb. xalq artisti (1987), Azərb. Dövlət mükafatı laureatı (1978). "Babək" baleti (1979), "Qafqaza səyahət" baleti (2002), 5 simfoniya, kamera ork. üçün "Pastoral" və "Aşıqsayağı" (1970), skripka və ork. üçün konsert (1992), instrumental və vokal əsərlər və s. müəllifidir. H. sənəti ilə Ə.-nin əlaqələri geniş və çoxşaxəlidir. O, H.-un milli musiqi qaynaqlarının saflığını qoruyub saxlamaq ənənələrinə sadiq qalmış, Azərb. musiqi folklorunun arxaik qatlarına müraciət edərək, əsərlərində qədim el nəğmə və rəqslərinin avaz və ritmlərini canlandırmışdır. H.-un musiqi forması, melos, lad harmoniyası və ritmika sahəsindəki bədii kəşflərindən bəhrələnən Ə. Azərb. musiqisini kompozisiya quruluşunun, musiqi dilinin orijinallığı ilə seçilən əsərlərlə zənginləşdirmişdir. "Bayatılar"a-kapella xor silsiləsi və "Azərilər" kantatasında H.-un xor musiqisi ənənələrini yaradıcılıqla inkişaf etdirmişdir.

**ƏLİZADƏ** Firəngiz Əliağa qızı (d.1947) – bəstəkar, pianoçu, Azərb. xalq art. (2000), prof. (1999), ADK-nı bitirib (pianoçu - 1970, bəstəkar - 1972, prof.). Əsərləri: rok-opera "Ağ atlı haqqında əfsanə" (1985), baletləri: "Boş beşik" (1993), "Azərbaycan haqqında rəvayət" (2000), N.Hikmətin şeirlərinə "Ölməzliyə səyahət" Oratoriyası və s. əsərləri. "Qara Qarayev" kitabı, məqalələr. Əsərləri Beynəlxalq arenada geniş şöhrət qazanmışdır. H.-un ənənələrindən, lad nəzəriyyəsinin qanunauyğunluqlarından, muğam və aşıq musiqisindən yaradıcılıqla istifadə etmiş, yeni orijinal tərzdə üzə çıxartmışdır. Azərbaycan Bəstəkarlar İttifaqının katibi (1979-1985, 1990-cı ildən hal-hazıra kimi). Beynəlxalq musiqi seminarında (Lüsern-İsveçrə) ilk qadın-rezident, 1999-cu ildən Almaniyanın Akademik qarşılıqlı mübadilə xidmətinin təqaüdçüsüdür.

**ƏMİRZADƏ** Xeyri Osman oğlu (1893-1958) – Krım-tatar və Azərb. aktyoru, Krım MR xalq art. (1923). 1921-24 illərdə Krım-Tatar Dövlət Teatrının aktyoru olmuş, burada H.-un "Arşın mal alan" musiqili komediyasında Soltan bəy rolunda oynamışdır. 1924 ildən kinoda fəaliyyət göstərmişdir. 30-cu illərin əvvəllərindən Azərb. kinosunun tanınmış aktyorlarından idi.

**ƏMİROV** Azad bəy Abbas oğlu (1883-1939) – həkim, pedaqoq. Azərb.-da ilk fizioloqlardan biri. Qori seminariyasını (1904), Odessa un-tinin hüquq və tibb fakültələrini bitirmişdir. 1926 ildən ADU-da dərs demişdir. H.-un uşaqlıq dostu olmuş, Qori seminariyasında onunla birgə təhsil almışdır. Musiqi istedadına və gözəl səsə malik olan Ə. 1912 ildə Şuşada "O olmasın, bu olsun" musiqili komediyasını tamaşaya qoymuşdu. H. öz xatirələrində Məşədi İbad rolunun Ə.-un ifasında əvəzsiz olduğunu söyləmişdi. 1918 ildə Leyli və Məcnun" operasının 10 illiyi münasibətilə H.-a yazdığı məktubda Ə. onun Azərb. tarixindəki mühüm rolunu çox böyük uzaqgörənliklə göstərmişdi: "Vaxt gələcək, tarix, yalnız ədalətli tarix özünün ehtiyatlı əli ilə öz səhifələrində müsəlman həyatındakı bu misilsiz müstəsna hadisəni qızıl hərflərlə yazacaq və sənin, əziz Üzeyir, əzabkeş millətinin fərəhsiz həyatına çox zəngin xəzinə, nadir inci kimi bəxş etdiyin gözəl, ilahiləşdirilmiş cərəyanı xüsusi qeyd edəcəkdir".

**ƏMİROV** Məşədi Cəmil Əmiraslan oğlu (1875-1928) – tarzən, bəstəkar, musiqi xadimi. Musiqiçi kimi yetişməsinə M.Nəvvabın musiqi məclislərinin böyük təsiri olmuşdur. 1907 ildən Gəncədə yaşamış, bir sıra məşhur xanəndələri tarda müşayiət etmişdir. 1911-12 illərdə İstanbulda musiqi təhsili almışdır. "Seyfəlmülk" operasının və "Namuslu qız" musiqili dramının müəllifidir. H.-un Şuşa, Gəncə, Tiflis və İrəvanda göstərilmiş "Leyli və Məcnun", "Əsli və "Kərəm" operalarında Məcnun, Kərəm partiyalarını oxumuşdur.

**ƏMİROV** Fikrət Məşədi Cəmil oğlu (1922-1984) – bəstəkar. Azərb. xalq art. (1958), SSRİ xalq art. (1965). Azərb. EA m. üzvü (1980). SSRİ (1949, 1980) və Azərb. (1974) Dövlət mükafatları laureatı. M.C.Əmirovun oğludur. ADK bitirmişdir (1948). H.-un bilavasitə yetirməsi, xələfi və ənənələrinin davamçısı olan Ə. Azərb. musiqisini xeyli zənginləşdirmiş, onun dünya şöhrəti qazanmasında mühüm rol oynamışdır. H.-un novatorluq yolu və estetik prinsiplərinə əsaslanan Ə. Şərq və Qərb musiqi mədəniyyətlərinin qarşılıqlı təsirinin inkişafı prosesinə böyük xidmət göstərmiş, şifahi ənənəyə malik Azərb. musiqisinin lad-intonasiya və kompozisiya quruluşunun yeni imkanlarını aşkara çıxarmışdır. "Sevil" operasının (1953), "Ürəkçalanlar" (1944), "Gözün aydın" (1946) musiqili komediyalarının, "Nəsimi dastanı" (1973), "Min bir gecə" (1979), "Nizami" (1984) baletlərinin müəllifidir. Hələ 40-cı illərdə ADK-da təhsil aldığı zaman yazdığı poemanı (M.İsrafilzadənin xatirəsinə) H. bəyənmişdi. Bu illərdə Ə.



A.Əlizadə



F.Əlizadə



M.C.Əmirov



F.Əmirov



Fikrət Əmirov



H.Ərəblinski



Ərtoğrul Cavid

skripka, fp. və simf. ork. üçün ikiqat konsert (1946), fp. ilə xalq çalğı alətləri ork. üçün konsert (147, A.Babayevlə) yazaraq Azərb. musiqisində simf. musiqinin əsasını qoyanlardan biri olmuşdur. O, H.-un xalq çalğı alətləri ork. üçün fantaziyalarında aşkar etdiyi Qərb və milli tembrlərin qarşılıqlı əlaqə imkanlarını inkişaf etdirmiş, ərəb mövzuları əsasında fp. ilə ork. üçün konsertdə (1956, E.Nəzirova ilə) şərq musiqi mövzularının simf. musiqidə tətbiqinin mümkünlüyünü sübuta yetirmişdir. Ə.-un "Nizami" simfoniyası, "Şur", "Kürd-ovşarı", "Gülüstan - Bayatı-Şiraz" simf. muğamları onun yaradıcılığında mühüm mərhələ təşkil edir. H. muğamları ilk dəfə əslində olduğu kimi muğam operalarında tətbiq etmişdisə, Ə. onları simf. musiqi prinsipləri əsasında inkişaf etdirmiş və iki müxtəlif üslublu Qərb və Şərq professional musiqisinin üzvi əlaqəsinə nail olmuşdur. O, "Azərbaycan" süitası, "Simfonik rəqslər", "Azərbaycan qravürləri", fp. üçün "12 miniatür", uşaq pyesləri, skripka ilə fp. üçün sonata, romans, mahnı və s. əsərlər bəstələmişdir. H.-un xatirəsinə həsr olunmuş elegiyaya Ə. "Arşın mal alan"dan Əsgərin ariyasının bir hissəsini daxil etmişdir. Onun musiqisi üçün melodiya zənginliyi səciyyəvidir. H. kimi Ə. da ifadəliyi, fərdiliyi ilə seçilən orijinal melodiyalarında milli musiqi duyumunu, onun obrazlı intonasiya kökünə bağlılığını qoruyub saxlaya bilmişdir. H.-un yolunu davam etdirən Ə. şifahi ənənəyə malik Azərb. musiqisinin janr xüsusiyyətlərini təkmilləşdirmiş, folklorçu-bəstəkar olmuş, bir sıra xalq mahnılarını toplamış və işləmişdir. Not yazısı vasitəsilə o, mahnıların lad intonasiya kökünü böyük ustalıqla verə bilmişdir. Musiqi sənəti, xüsusilə aşıq, muğam sənəti və ifaçıları haqqında Ə.-un xeyli publisistik məqalələri vardır. Ə. "Üzeyir məktəbi" məqaləsində 1938 ildə Bülbülün vasitəçiliyi ilə H.-la ilk tanışlığını, H.-un ona göstərdiyi diqqət və qayğını xatırlayır, H.-un yaradıcılığını, şəxsiyyətini yüksək qiymətləndirərək "Biz hamımız Üzeyir məktəbindən çıxmışıq" fikrini söyləyir.

**ƏRƏBLİNSKİ** (təxəllüsü, əsl soyadı Xələfov) Hüseyn (Hüseynbala) Məmməd oğlu (1881-1919) – aktyor, rejissor. Azərb. professional teatr sənətinin banilərindən biri. Səhnəyə ilk dəfə 1897 ildə çıxmışdır. Sonralar "Nicat" və "Səfa" cəmiyyətləri nəzdindəki teatr truppalarında işləmiş, 1918 ildən Z. və Ü.Hacıbəyov qardaşlarının teatr truppasında aktyor və rej. (1918 ildən baş rej.) olmuşdur. H.-la yaxın dost olan və onun sənətinə yüksək qiymət verən Ə. 1908 ildə "Leyli və Məcnun" operasının ilk quruluşçu rej. olmuşdur. Sonralar bəstəkarın "Ər və arvad", "Əsli və Kərəm", "O olmasın, bu olsun", "Şah Abbas və Xurşidbanu", "Arşın mal alan" əsərlərini də uğurla tamaşaya qoymuşdur. Ə.-nin yaradıcılığını diqqətlə izləyən H. redaktoru olduğu "Azərbaycan" qəzetində dəfələrlə onun haqqında məqalələr yazmışdır. Ə.-in xaincəsinə öldürülməsini "əvəzolunmaz itki" adlandıran H. qatilin ciddi cəzalandırılmasını tələb etmişdir. Bəstəkar Ə.-nin ölümünün 20 illiyi münasibətilə "Revolyusiya və kultura" (indiki "Azərbaycan") jurnalında dərc etdirdiyi "Ərəblinski - teatr tariximizdə unudulmaz sənətkardır" sərlövhəli məqaləsində Ə.-nin "insanı heyrətə salan və sevindirən bacarığa malik" sənətkar olduğunu göstərirdi.

**ƏRTOĞRUL CAVİD** (Ərtoğrul Cavid oğlu Rəsizadə; 1919-1943) – bəstəkar, şair. Hüseyn Cavidin oğlu. Azərb. Pedaqoji İn-tunu bitirmiş (1940), ADK-da oxumuşdur (1941-42). H.-un sinfində bəstəkarlıq üzrə dərs almış, fp. üçün "Doqquz variasiya" əsərini ona ithaf etmişdir. "Şeyx Sənan", "Məhsəti" operaları, "Babəkin andı" simf. poeması və bir sıra kamera instrumental əsərləri yarımçıq qalmışdır. 1942 ildə tələbə olmasına baxmayaraq, orduya çağırılan Ə.C. oradan ana və bacısına yardım göstərilməsi barədə H.-a bir neçə məktub yazmışdır. H. həm özü, həm də ADK tərəfindən Ə.C.-ə və Cavidlər ailəsinə yardım edirdi.

**ƏSGƏR** – "Arşın mal alan" musiqili komediyasının əsas qəhrəmanlarından biri. Ə. əsrin əvvəllərində Azərb. cəmiyyətini yeniləşdirmək istəyən qüvvələrin təmsilçisidir. Bu cəmiyyətdə Ə. özünü narahat hiss edir. Gənc, yaraşıqlı, zəngin olmasına, cəmiyyətdə artıq müəyyən bir mövqe tutmasına baxmayaraq, o, həyatını



**R.Behbudov** "Arşın mal alan" filmində Əsgər rolunda.

istədiyi şəkildə qura bilmir. Ə. ata-babalarının yüz illərdən bəri yaşadığı kimi yaşamaq, öz taleyini görmədiyi, tanımadığı, sevmədiyi bir qadınla bağlamaq istəmir. Ə.-i əhatə edən mühit və münasibətlər sistemi isə bunun əksini etməyə imkan vermir. Onu bu çətin vəziyyətdən dostu Süleymanın ağıllı məsləhəti xilas edir. Ə. arşınmalçı kimi qapı-qapı gəzərək axtardığını tapır - gözəl Gülçöhrəyə aşiq olur, onun məhəbbətini qazanır və H.-un digər musiqili komediyaları kimi, "Arşın mal alan" da xoşbəxt sonluqla - Ə.-lə Gülçöhrənin toy məclisi ilə başa çatır. Dramaturq Ə. surətinin təsvirində nikbin, işıqlı çalarlardan, Azərb. gəncliyini müsbət tərəfdən göstərən xarakterik cəhətlərdən geniş istifadə etmişdir. Ə.-in qələbəsi bir qədər istisna təsiri bağışlasa da, məhz müəllifin yüksək istedadı və ümumiləşdirmə qabiliyyəti sayəsində, yeniləşən Azərb. cəmiyyətinin simvoluna çevrilə bilmişdir.

Azərb. teatrının və kinosunun tarixində Ə. obrazının bütöv bir qalereya istedadlı ifaçıları olmuşdur. İlk tamaşada (1913) Ə. rolunu H.Sarabski ifa edirdi. Rəşid Behbudov eyniadlı filmdə (1945) böyük ustalıqla yaratdığı Ə. obrazı ilə dünyada məşhurlaşmış, o zamankı SSRİ-nin ən yüksək Stalin mükafatını almışdır.

**ƏSGƏROV** Qulu Rüstəm oğlu (1928-1989) – müğənni. Bir neçə mahnı və təsnifin müəllifidir. AOBT-nın solisti olmuşdur. Məlahətli səsi, özünəməxsus ifa tərzi və səhnə qabiliyyəti olan müğənni H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında Məcnun və Kərəm rollarında uğurla çıxış etmişdi.

**"ƏR VƏ ARVAD"** – H.-un ilk musiqili komediyası. 3 pərdəli bu əsər Azərb.-da musiqili komediyanın ilk nümunəsidir. Librettosu da bəstəkarındır. Bu əsərlə H.-un musiqili səhnə trilogiyasının (buraya "O olmasın, bu olsun" və "Arşın mal alan" musiqili komediyaları da daxildir) başlanğıcı qoyulmuşdur. Hər üç əsərdə ailə-məişət mövzusu çox ardıcıl və dinamik şəkildə açılır, Azərb. qadınının ailə və cəmiyyətdəki kölə vəziyyətinə etirazı səslənir. Əhvalatın süjet xəttinin adiliyi və sadəliyi, iştirakçıların azlığı "Ə. və a."-ı vodevilə yaxınlaşdırır. Əsərin ideyası ağıllı və tədbirli arvadın (Minnət xanım) müflisləşmiş və düşgünləşmiş ərindən (Mərcan bəy) mənəviyyatca üstünlüyünü açıb göstərməkdir. Əsərdə Minnətin məsləhətçisı və müttəfiqinə çevrilən namuslu, vicdanlı nökər obrazının böyük rəğbətlə yaradılması o dövr Azərb. cəmiyyətində gedən demokratikləşmə prosesinin təzahürü idi. Ə. və a."-ın musiqisi mahnı-rəqs xarakterli olmaqla obrazların daha qabarıq açılmasına xidmət edir. Mərcan bəyin komik obrazı səhnə hadisələrinin əksinə olaraq, lirik, səmimi, xarakter daşıyaraq (1-ci və 2-ci pərdələrdəki mahnılar) onun mənfi xüsusiyyətlərini daha bariz nəzərə çarpdırır. Nökər Səfinin obrazı 2-ci pərdədəki lirik mahnı ilə açılır; burada H. "Laçın" xalq mahnısından istifadə etmişdir. "Ə. və a." musiqili komediyasında xor səhnələri tamaşanın mühüm, ümumiləşdirici məqamlarında yerləşdirilərək hadisələrin emosional atmosferini, eləcə də əsas qəhrəmanların davranışına münasibəti ifadə edir. Əsərin əsas qayəsini ifadə edən bu xorlar "müəllif sözü" kimi qavranılır. "Ə. və a."-dakı instrumental musiqi parça-



**Q.Əsgərov** Məcnun rolunda.




**“Əsli və Kərəm”** operasının bukleti. 1941-42-ci illər.

ları - müqəddimə və antraktlar - çox canlı və şən səhnə əhvalatları atmosferi yaratmaqla əsəri xeyli zənginləşdirir. Hadisələrlə zəngin olan 2-ci pərdənin antraktında H. ilk dəfə klassik polifoniya formasından - fugettadan istifadə etmişdir. Komediyanın ilk tamaşası 1910 il mayın 24-də Bakıda Nikitin qardaşları sirkinin səhnəsində göstərilmişdir. Rollarda H.Sarabski (Mərcan bəy), Ə.Ağdamski (Minnət xanım), H.Terequlov (Səfi), M.Əliyev (Kərbəlayi Qubad) və b. çıxış etmişlər. “Ə. və a.” Azərb.-ın digər teatrlarının (Naxçıvan, Ağdam, Şəki və s.) da repertuarında olmuşdur.

**“ƏSLİ VƏ KƏRƏM”** – H.-un beşinci muğam operası. 4 pərdəli, 6 şəkilli bu operanın librettosu da H.-undur. Qafqazda geniş yayılmış eyniadlı Azərb. xalq dastanının motivləri üzrə yazılmışdır. Operada fədakar məhəbbətin gücü, insanın mənəvi gözəlliyi tərənnüm edilir; əsərdə dini dairələrin təbliğ etdiyi feodal münasibətləri və millətçilik ideyalarına qarşı etiraz ifadə olunmuşdur. Əsas qəhrəmanların - Kərəm və Əslinin obrazlarının açılmasında H., əsasən, muğamlardan istifadə etmişdir. Məsələn, qəhrəmanların qarşılıqlı məhəbbətini göstərən, dialoq şəklində qurulmuş ilk geniş səhnə-ekspozisiya Bayatı-Şiraz və Şikəsteyi-fars muğamlarının melodiyasına əsaslanır. Həmin səhnədə səslənən Qarabağ şikəstəsi zərbi muğamı böyük və saf məhəbbəti tərənnüm edir. Bu zərbi-muğam bir daha IV pərdədə - qəhrəmanların uzun ayrılıqdan sonra görüşdükləri səhnədə səslənir. Şeyx Nuraninin partiyası Humayun muğamı ilə verilmişdir. Azərb. musiqiçilərinin az-az ifa etdikləri bu muğam qəhrəmanın bir qədər qeyri-adi, əfsanəvi mahiyyətini açıb göstərir. Şahın obrazı üçün T. Rast muğamından istifadə etmişdir. H. muğam operalarından ilk dəfə “Ə. və K.”-ə leytxarakteristika gətirmişdir. Bu, Kərəmin obrazını daha dolğun yaratmaq üçün H.-un istifadə etdiyi “Kərəmi” aşıq melodiyasıdır. “Kərəmi” operada dəfələrlə səslənərək qəhrəmanın dərin iztirablarını ifadə edir. Zərbi muğam növü olan “Kərəmi”nin vokal partiyası improvizasiya ilə oxunduğundan hər dəfəki təkrarında müğənniyə bu havanı yeni obrazlı-emosiya çaları ilə zənginləşdirmək imkanı verir və bununla da, obrazın daha dinamik açılışına və bütövlüyünə kömək edir. H.-un özünün nota salıb




**“Əsli və Kərəm”** operasının afişası.

işlədiyi “Kərəmi” havasının instrumental təkrarları - refreni operanın bütün pərdələrində ork.-də səslənir. Uvertüranın əsas mövzusu olan bu refren qəhrəmanın obrazı ilə, eləcə də onunla bağlı səhnə hadisələrilə bilavasitə əlaqə yaradır. Refren musiqisinə xas marşvari cizgilərlə müəllif şahzadə Kərəmin daim səyahətdə olduğunu qeyd edir. Muğam operası olan “Ə. və K.”-də əsl aşıq havasından istifadə etməklə, H. əsərə janr mənasında orijinallıq gətirmiş, dastan əlamətləri vermişdir. “Ə. və K.”-i muğam-dastan operası adlandırmaq olar. Operada bəstəkarın özünün yazdığı xeyli musiqi nömrələri vardır. Öz qızının xoşbəxtliyinə maneələr törədən Qara keşişin partiyası belə musiqi nömrələrindəndir. H. keşişin qəzəbini, qəddarlığını sadə ifadə vasitələri (deklamasiyalılıq, reçitativ xüsusiyyətləri, kəskin ritm, geniş intervallı intonasiyalar) ilə verə bilmişdir. Keşişin partiyasını bir çox cəhətdən “Koroğlu” operasındakı Həsən xanın partiyasına hazırlıq hesab etmək olar. Operanın digər parçalarından II pərdənin bir və ikinci şəkillərinin antraktları, IV pərdədəki rəqs, bir sıra xorlar H.-un özünün bəstələdiyi musiqi əsasındadır. Xalq mahnı intonasiyaları ilə aşılanmış bu musiqi nömrələri çox gözəl və ifadəlidir. Operada məişət səhnələrinin təsviri, qəhrəmanların psixoloji vəziyyətinin açılışına kömək edən xor







**“Əsli və Kərəm”** operasının müxtəlif illərə aid tamaşalarından səhnələr.











**“Əsli və Kərəm”** operasının müxtəlif illərə aid tamaşalarından səhnələr.

səhnələri mühüm dramaturji məna kəsb edir. IV pərdədəki "Axşam oldu" qızlar xoru bu mənada xüsusilə əhəmiyyətlidir. Çox kədərli, incə, təsirli musiqisi olan bu xor qəhrəmanların faciəli ölümü haqqında qabaqcadan xəbər verərək hüznlü əhval-ruhiyyə yaradır. H.-un əvvəlki operalarından fərqli olaraq, "Ə. və K."-də danışıq epizodları mövcuddur; bu epizodlar gələcək Azərb. operalarında reçitativ səhnələri üçün hazırlıq hesab oluna bilər. Bu opera H.-un fəal bədii axtarışlarının bariz nümunəsi olaraq onun yaradıcılığında mühüm mərhələ təşkil edir.

Opera ilk tamaşasından böyük müvəffəqiyyət qazanaraq uzun və maraqlı səhnə ömrü olan əsərlər sırasına daxil olmuşdur. "Ə. və K."-in ilk tamaşası 1912 il mayın 18-də indiki AOBT-nın binasında olmuşdur. Tamaşanın rej. H.Ərəblinski, dirijoru H. idi. Rollarda H.Sarabski (Kərəm), Ə.Ağdamski (Əsli), H.Terequlov (Qara keşiş), M.Məmmədov (İsfahan şahı), Q.Göyçaylinski (Şeyx Nurani) və b. çıxış etmişlər. Opera Qafqaz, Orta Asiya və İranın bir çox ş.-lərində də göstərilmişdir. "Ə. və K." AOBT-ndan başqa, resp.-nın digər teatrlarında (Ağdam, Naxçıvan və s.) da tamaşaya qoyulmuşdur. AOBT-nda "Ə və K" 1957 ildən bəstəkar N.Əliverdibəyovun ork. redaksiyası ilə ifa olunurdu. 1988 ildən opera teatrın səhnəsində yeni quruluşda oynanılmışdır.

**ƏŞRƏFİ** Muxtar Əşrəfoviç (1912-1975) – özbək bəstəkarı, dirijor. SSRİ xalq art. (1951). Stalin mükafatları laureatı (1943, 1952). Opera və baletlərin, simfoniya və s. əsərlərin müəllifidir. H.-la 1939 ildə Moskvada Özbəkistan incəsənəti dekadasında tanış olmuşdur. Daşkənddə tamaşaya qoyulan "Arşın mal alan" musiqili komediyasına dirijorluq etmişdir.

**ƏZİMOV** Aydın (Aydın Əzim Kərimoğlu) (1946) – bəstəkar. 1972 ildə ADK-nin professoru Q.Qarayevin sinfini bitirmişdir. Ü.Hacıbəyovun bir neçə əsərini orkestr üçün işləmişdir. Müstəqil Azərbaycan Himni olan "Azərbaycan" marşını xor və simfonik orkestr üçün aranjeman etmişdir. Ü.H. haqqında bir neçə məqalənin müəllifidir.

**ƏZİMOV** Cəbrayıl Əlimuxtar oğlu (1926-1969) – kino rəssamı. Azərb. əməkdar rəs. (1964). 1953 ildən "Azərbaycanfilm" kinostudiyasında quruluşçu rəssam işləmiş, bir çox filmlərin, o cümlədən "O olmasın, bu olsun" filminin bədii tərtibatını (N.Zeynalovla birgə) vermişdir.

**ƏZİMOV** Nəriman Abbasqulu oğlu (1936) – dirijor, Azərb. xalq art. (1991), professor (2003). ADK-nı xor dirijorluğu ixtisası üzrə bitirib (1960. prof. Yurlovun sinfi). 1974 ildən əsası Ü.Hacıbəyov tərəfindən qoyulmuş Azərbaycan Televiziyası və Radiosunun S.Rüstəmov ad. Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijorudur. H.-un bir sıra əsərlərini, operalarından fraqmentləri x.ç.a. orkestri üçün işləmişdir.


N.Əzimov

**ƏZİMZADƏ** Əzim Aslan oğlu (1880-1943) – rəssam. Azərb. xalq art. (1927). Əmək Qəhrəmanı (1927). Azərb. rəssamlığında realist qrafika sənətinin banisi. H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarının, "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyalarının tamaşalarına tərtibat və geyim eskizləri vermişdir.


Ə.Əzimzadə

**ƏZİZ ŞƏRİF** (Əziz Qurbanəli oğlu Şərifov; 1895-1988) – ədəbiyyatşünas, tərcüməçi, jurnalist. Filologiya e.d. (1956), prof. (1962), Azərb. əməkdar elm xadimi (1963). Klassik və müasir Azərb. ədəbiyyatına dair tədqiqatların müəllifidir. H.-un yaradıcılığı ilə ilk dəfə 1914 ildə Tiflisə qastrola gəlmiş Bakı opera dəstəsinin göstərdiyi "Leyli və Məcnun" operası vasitəsilə tanış olmuş, bununla əlaqədar gündəliyindəki qeydində operanın əsas məziyyətinin iki dahiyanə ünsürün - Füzuli poeziyası ilə xalq musiqisinin vəhdətində olduğunu göstərmişdir. 20-ci illərdə AOBT opera truppasının Tiflis qastrolları zamanı göstərilən "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu" operaları haqqında Tiflis mətbuatında məqalələr dərc etdirmişdir. "Ukrayna Sovet Ensiklopediyası"nın Zaqafqaziyadakı rəsmi nümayəndəsi prof. Axvledianinin xahişi ilə həmin ensiklopediyanın 1-ci cildi üçün Azərb. musiqisi haqqında məqalə yazmaq barədə H.-a müraciət etmişdir. H. həmin məqaləni yazıb 1932 il yanvarın 14-də müxtəsər məktubla Ə.Ş.-ə göndərmişdi (lakin "USE"-nin nəşri təxirə salındığından həmin məqalə dərc olunmamışdır). 30-cu illərin ortalarında Bakıya köçən Ə.Ş. burada H.-la şəxsən tanış olmuş, "Koroğlu" operasının tamaşaya hazırlanmasında iştirak etmişdir. Operanın ilk tamaşası haqqında bu münasibətlə buraxılmış "Koroğlu" məcmuəsində və "Bakinski raboçi" qəzetində məqalələr dərc etdirmişdir. 1981 ildə H. haqqında "Azərbaycan musiqisinin atası" adlı geniş xatirələrini yazmışdır.


Əziz Şərif

# F

**FANTAZİYA** – sərbəst formalı instrumental musiqi pyesi. H.-un xalq çalğı alətləri ork. üçün bəstələdiyi F.-lar Azərb. bəstəkarlarının yaradıcılığında yeni sahə idi. H.-un 1931 ildə yazdığı Birinci F. - dörd, İkinci F. - iki hissədən ibarətdir. Bu F.-larda ilk dəfə olaraq improvizədən notlu ifaya keçirilmiş çoxtembrli milli musiqi alətləri ansamblından çoxsəsli musiqidə istifadə imkanları yaranmışdı. H.-un partituraları milli musiqi alətlərinin müxtəlif ifa üsulları ilə zəngindir; fp.-nın onların tembrləri ilə səsləşməsi milli və Avropa musiqi alətlərinin uyğun gəldiyini sübut edir. H. bu əsərləri yaradarkən Avropa sonata formasında milli-intonasiya əsasını (Birinci F.-da - Çahargah, İkinci F.-da - Şur) yaratmağı qarşısına məqsəd qoymuşdu. Bu mürəkkəb musiqi kompozisiyasının klassik əsası dünyanın dahi bəstəkarlarının əsərlərində də tətbiq olunmuşdur. Dahi Avstriya bəstəkarı V.Motsartın yaradıcılığını çox sevən H. onun "Do-major №15" sonatasının musiqisini Çahargah ladında transkripsiya edərək özünün Birinci F.-sında istifadə etmişdir. Bununla o, həm Avropa major-minor sistemi şəraitində formalaşmış sonata qanunauyğunluqlarını milli Azərb. ladında tapıb müəyyənləşdirməyə, həm də Azərb. dinləyicisini milli çalğı alətləri vasitəsilə Avropa klassik musiqisinə yaxınlaşdırmağa çalışırdı. H.-un bu F.-ları daim xalq çalğı alətləri ork.-lərinin repertuarındadır. Onlar həmçinin tar və fp. üçün transkripsiya olunmuşlar.

**FELYETON** – bədii-publisistik ədəbiyyat və qəzet-jurnal janrı. Təsvir obyektinə kəskin tənqidi münasibət, aktual ictimai-siyasi, məzmun, həyat faktlarının konkretliyi, satira və yumor F.-un başlıca səciyyəvi xüsusiyyətləridir. XX əsrin əvvəllərində Azərb. mətbuatının aparıcı janrlarından olan bu janr H.-un da publisistik fəaliyyətində əhəmiyyətli yer tuturdu. H. bu gün başa düşüldüyü mənada F. sayılan əsərlərini ilk dəfə 1906 ildə "İrşad" qəzetində "Ordan-burdan" ümumi başlığı altında dərc etdirməyə başlamışdı. "Ordan-burdan"lar birinci dəfə "Baku" qəzetində (2 dekabr 1909, №270) F. adlandırılmışdır. Lakin "İrşad", "Tərəqqi", "İqbal" və "Yeni iqbal" qəzetlərindəki "Ordan-burdan", "Həqiqət" qəzetindəki "O yan-bu yan" başlıqlı yazıların hamısını F. adlandırmaq olmaz. F. janrına xas olan bədii və publisist tarazlığın saxlanması baxımından H.-un F.-ları əsl sənət əsərləridir. Müəllifin monoloji nitqi, təhkiyəçi obrazı, sadə dil, şirin duzlu zarafat, daxili tendensiya, həyat materialı ilə satirik formanın sintezi onun F.-larının bədii keyfiyyətlərinin səciyyəvi cəhətləridir. H.-un satirik hekayə, pamflet və başqa publisist janrlardan seçilən F.-ları şəkilcə rəngarəngdir.

**FƏRƏCOV** Əbdürrəhman (?-?) – H.-un "Leyli və Məcnun" operasında Leyli rolunun ilk ifaçısı. H. çayçı şagirdi olan F.-u ilk dəfə çayxanada görmüş, səsini dinləmiş və çox bəyənmiş, teatra dəvət edərək Leyli rolunu ona tapşırmışdır. H.Sarabski "Köhnə Bakı" kitabında, F.-un çox yalvar-yaxardan sonra heç kəsin bilməməsi şərtilə Leyli rolunu oynamağa razı salındığını, çətinliklə qrimlənməyə razılıq verdiyini və ikinci tamaşaya dəvət olunduqda "mən bir də qələt edərəm oynaram", - deyə bundan imtina etdiyini göstərir.



**S.Fərəcov**

**FƏRƏCOV** Sərdar Fərəculla oğlu (d.1957) – bəstəkar. ADK-nı (1982) və oranın aspiranturasını (1988) bitirmişdir. 1984 ildən H.-un xatirə ev-muzeyində işləyir. H.-un məlum olmayan və yarımçıq qalmış əsərlərini tədqiq, yenidən redaksiya və aranjeman etmişdir. H.-un "Azərbaycan" marşı, "Milli marş", "Bahar nəğməsi",

"Simfonik rəqslər", "Dörd kvartet", Süita" və s. əsərləri F. tərəfindən tədqiq olunmuşdur. Bir sıra simf. əsərlərin müəllifidir. H.-un xatirəsinə xor üçün konsert yazmışdır.

S.Fərəcov Ü.Hacıbəyovun son illər nəşr edilmiş bir neçə kitabının redaktoru və tərtibçisi olmuşdur. 2005 ildən bəstəkarın ev muzeyinin direktorudur.

**FƏTƏLİYEV** Əyyub Cəfər oğlu (1925-2000) – teatr rəssamı. Azərb. əməkdar inc. xad. (1964). V.İ.Surikov ad. Moskva Rəssamlıq İn-tunu (1952) bitirmişdir. 1952-55 illərdə Böyük Teatrda (Moskva) işləmişdir. 1955-57 illərdə AOBT-nda tərtibatçı rəssam, 1957 ildən baş rəssamdır. F. burada bir çox tamaşalara, o cümlədən H.-un "Koroğlu" operasına səhnə tərtibatı (1959, 1975 - T.Salahovla birgə) vermişdir.

**FİLANKƏS** – H.-un ilk ("İrşad" qəzeti, 14 mart 1906, №67) və ən çox işlətdiyi gizli imzası. Ədib "Ordan-burdan" ümumi başlıqlı felyeton və satirik miniatürlərini "İrşad", "Tərəqqi", "İqbal", "Yeni iqbal", "Azərbaycan" qəzetlərində bu imza ilə dərc etdirirdi.

**FİRDOVSİ** Əbülqasım (təqr. 934-təqr. 1030) – fars və tacik şairi. Dünya ədəbiyyatının ən möhtəşəm abidələrindən olan "Şahnamə" eposunun müəllifidir. H. "Şahnamə"-nin ən çox yayılmış dastanlarından olan "Rüstəm və Söhrab"ın süjeti əsasında libretto yazmış və eyniadlı opera bəstələmişdir. Operanın ədəbi mətni əruz vəzni ilə qələmə alınan şeir parçaları ilə zəngindir. Operanın ilk tamaşası 1910 il noyabrın 12(25)-də olmuşdur.

H. "Maarif işləri, yaxud şurayi-valideyn" adlı felyetonunda da "Şahnamə" eposunun şeirlərindən istifadə etmişdir.

1934 ildə F.-nin 1000 illik yubileyi münasibətilə H. xor və simf. ork. üçün kantata bəstələmişdir.

**"FİRUZƏ"** – H.-un yarımçıq qalmış operası. 1945 ildə yaradılırdı. Librettosu H. tərəfindən xalq rəvayətləri əsasında yazılmışdır. İlkin adı "Şəhrəbanu" idi. Bəstələnmiş musiqi parçaları arasında Firuzənin ariyası xüsusilə diqqətəlayiqdir. Onun musiqisi həzinliyi, şairanəliyi ilə fərqlənir. Bu ariya melodiyasının ifadəliliyi və oxunaqlığına görə bəstəkarın yazdığı ən gözəl opera ariyalarından biridir. Operanın librettosu H.-un "Seçilmiş əsərləri"nin I cildində (B., 1964) çap olunmuşdur. Firuzənin ariyası Moskvada (Y.Fidlerin tərcüməsi ilə - 1949; P. Pançenkonun tərcüməsi ilə - 1956) və Bakıda (Ü.Hacıbəyov. "Seçilmiş ariyalar, romanslar və mahnılar" toplusu. Tərtibçi və redaktor Ə.Abbasov. B., 1975) nəşr edilmişdir.

**"FÜYUZAT"** – həftəlik elmi, ədəbi, ictimai-siyasi jurnal. 1906-1907 illərdə Bakıda milyonçu, xeyriyyəçi H.Z.Tağıyevin vəsaiti və Əlibəy Hüseynzadənin redaktorluğu ilə nəşr olunmuşdur. Ə.Hüseynzadə "F."-da H.-un "Dərin quyular" məqaləsinə iki dəfə münasibətini bildirmişdir. H. da "Halımıza dair" məqaləsini yazarkən Ə.Hüseynzadənin "Vəlvələ və zümzümə"sindən ("F.", 1906, №9) faydalanmışdır.



**FÜZULİ** Məhəmməd Süleyman oğlu (1494-1556) – şair, mütəfəkkir. Azərb., fars və ərəb dillərində klassik Şərq poeziyasının qəzəl, qəsidə, müsəddəs, tərkibbənd, tərcibənd, rübai, qitə, mürəbbe və digər formalarında yazmış, hər üç dildə divan bağlamışdır. "Bəngü Badə", "Ənis ül-qəlb", "Yeddi cam", "Səhhət və Mərəz", "Rindü Zahid", "Şikayətnamə", "Hədiqət üssüəda", "Mətlə ül-etiqad" və s. ədəbi-bədii, fəlsəfi və elmi əsərlərin müəllifidir. Təkcə Azərb. və ümumtürk ədəbiyyatının deyil, dünya poeziyasının nadir incilərindən biri olan "Leyli və Məcnun" poeması F. sənətinin zirvəsidir. H. böyük şair sələfinin poeziyasını hədsiz dərəcədə sevmiş, ona dərindən bələd olmuş, sinədəftər əzbər bilmiş, ədəbi-bədii və musiqi yaradıcılığında F. irsinə dönə-dönə müraciət etmiş, ondan bol-bol faydalanmışdır. Bu yaradıcılıq təmasının ən böyük bəhrəsi H.-un şairin eyniadlı poeması əsasında bəstələdiyi, bütün Yaxın və Orta Şərqdə ilk opera olan ölməz "Leyli və Məcnun" operasıdır (1908). Bəstəkar "Əsli və Kərəm" operasında, musiqili komediyalarında da Füzuli qəzəllərindən istifadə etmiş, Sərvər və Gülnazın ("O olmasın, bu olsun"), Əsgər və Gülçöhrənin ("Arşın mal alan") mənəvi aləmini, iztirab və sevinclərini onların vasitəsilə məharətlə açmışdır. H. ədəbi və jurnalistlik fəaliyyətində də F. poeziyasından məharətlə bəhrələnərək, Sabiranə parodiyalar yaratmışdır.

# G



A.Gəraybəyli

**GƏRAYBƏYLİ** (Gəraybəyov) Ağasadıq Ağəli oğlu (1897-1988) – aktyor. Azərb. xalq art. (1940). 1910-12 illərdə Bakıda H.Ərəblinskinin rəhbərlik etdiyi həvəskar dram dərnəyində, sonralar “Nicat” və “Səfa” cəmiyyətlərinin, Z. və Ü.Hacıbəyov qardaşlarının teatr truppalarında çıxış etmiş, burada H.-un “O olmasın, bu olsun” (Rza bəy), “Arşın mal alan” (Soltan bəy) və “Leyli və Məcnun” (Nofəl) əsərlərinin tamaşalarında çıxış etmişdir. “O olmasın, bu olsun” (1956) filmində Rüstəm bəy obrazını məharətlə yaratmışdır.



**A.Gəraybəyli** “O olmasın, bu olsun” filmində.



İ.İ.Giqoşvili

**GİQOŞVİLİ** İvan (İvane) İvanoviç (1890-1976) – gürcü dramaturqu, tərcüməçi. Şair İ.Qrişaşvili ilə birlikdə H.-un “Arşın mal alan” musiqili komediyasını ilk dəfə gürcü dilinə tərcümə etmişdir. 1915 ildə o, şairlə birlikdə Bakıya gələrək, tərcüməni gürcü dilini gözəl bilən müəllifə (H. bu dili Qori seminariyasında təhsil aldığı zaman öyrənmişdi) oxumuşlar. H.-un bir sıra qeyd və əlavələrindən sonra əsər 1916 ilin oktyabrında Tiflisdə gürcü dilində səhnəyə qoyulmuşdur.

**GÜLÇÖHRƏ** – H.-un “Arşın mal alan” musiqili komediyasının əsas personajlarından biri. Müəllifin yaratdığı qadın qəhrəmanları içərisində lirizmi, həssaslığı, hisslərinin səmimiliyi ilə seçilir. Bəy ailəsində tərbiyə almasına baxmayaraq, G. mənsub olduğu sinfin iddialı ədalarından, silk təəssübkeşliyindən və imtiyazlarından uzaqdır. Buna görə də o, sadə bir



**R.Əliyeva** Gülnaz rolunda.

arşınmalçını sevməkdən çəkinmir. Atasının onu varlı, cavan bir tacirə vermək istədiyini eşidəndə belə, arşınmalçının məhəbbətini ürəyindən çıxarmır. H. öz qadın qəhrəmanının zəngin daxili dünyasını və hisslər aləmini açmaq üçün Füzulinin lirikasından məharətlə faydalanmışdır. Ümumilikdə də, 20 əsrin əvvəllərində cəmiyyətdə baş verən proseslərin təsiri altında Azərb. qadınlarının təbiətində, həyata münasibətində baş verən dəyişikliklər G. obrazında əksini tapmışdır. Görkəmli səhnə ustası L.Bədirbəyli G. surətini ekranda (1945) çox gözəl canlandırmışdır.

**GÜLNAZ** – H.-un "O olmasın, bu olsun" musiqili komediyasının əsas personajlarından biri. G. sevgilisi Sərvərlə birlikdə komediyadakı ciddi, lirik xəttin təmsilçiləridir. G. öz xarakteri, şəxsiyyəti ilə komediyanın satirik gülüş və yumor üzərində köklənmiş ümumi ovqatına bir lirizm və poetiklik gətirir. O da Sərvər kimi müəllifin rəğbətlə yanaşdığı yeni nəslin nümayəndəsidir. Hələ çox gənc olmasına baxmayaraq, o, müsəlman məişətinin, islamın yazılmamış qanunlarının çoxəsrlik tabularından çıxmaq, həyatını istədiyi şəkildə qurmaq uğrunda mübarizə aparır. Müəllif yeni Azərb. qadını ilə bağlı fikir və düşüncələrinin müəyyən bir qismini G. obrazında əks etdirmişdir. Bu mənada G. surəti H. publisistikasının ana xətlərindən birini təşkil edən qadın azadlığı mövzusunun bədii təcəssümüdür.



**L.Bədirbəyli** "Arşın mal alan" filmində Gülçöhrə rolunda.

# H



H.Hacıbababəyov

**HACIBABABƏYOV** Hüseynağa Soltan oğlu (1898-1972) – müğənni (lirik tenor). Azərb. xalq art. (1938). 1916 ildən Azərb. musiqi truppasının qastrollarında iştirak etmiş, Ü.Hacıbəyovun muğam operalarında və musiqili komediyalarında qadın rollarını - Leyli, Əsli, Xurşidbanu, Gülçöhrə, Gülnaz ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu", "Arşın mal alan", "O olmasın, bu olsun") oynamışdır. 1920-62 illərdə AOBT-nın solisti olmuş, Məcnun, Kərəm, Əsgər və Süleymanın ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan") partiyalarını oxumuşdur.

**HACIBƏYLİ** Ceyhun Ceyhun bəy oğlu (1918-1941) – təyyarəçi. Ü.Hacıbəyovun qardaşı oğludur. Bakıda doğulmuş, 1920 ildən Parisdə yaşamışdır. İkinci Dünya müharibəsində Hitler faşizminə qarşı döyüşlərdə həlak olmuşdur.



C.Ə.Hacıbəyli

**HACIBƏYLİ** Ceyhun bəy Əbdülhüseyn oğlu (1891-1962) – ictimai xadim, dilçi, tarixçi, jurnalist, tərcüməçi. Ü.Hacıbəyovun kiçik qardaşıdır. İbtidai təhsilini doğulduğu Şuşada "rus-tatar" məktəbində almış, orta təhsilini Bakıda tamamlamışdır. "Leyli və Məcnun" operasının yaradılmasında yaxından iştirak etmiş, ilk tamaşada (1908) iki rolda - İbn Səlam və Nofəl rollarında - çıxış etmişdir. Müasirlərinin rəyinə görə, o, "...İbn Səlamlıqda öz rolunu nə qədər gözəl və mahir ifa etsə də... Nofəl rolunda, demək olar ki, layiqincə oynayıb, layiqincə oxuyurdu" ("Tazə həyat", 14 yanvar 1908, №11).



T.Hacıbəyli

H. milyonçu M. Muxtarovun ayırdığı vəsait ilə Peterburq un-tinin hüquq fakültəsinə daxil olmuş (1909), oradan Parisə gedib, məşhur Sorbonna un-tində oxumuşdur. 1916 ildə ali təhsilini başa vurub Bakıya qayıdan H., əsasən, mühərrirliklə məşğul olmuşdur. ADR (1918-1920) hö-



**H.Hacıbababəyov** "Leyli və Məcnun" operasında Məcnun rolunda.

kuməti tərəfindən Paris sülh konfransına göndərilən nümayəndə heyətinin tərkibində xaricə yola düşənədək "Azərbaycan" qəzetinin redaktoru olmuşdur. 1920 il 28 aprel bolşevik çevrilişindən sonra H.Vətənə qayıda bilməmiş, Fransada yaşayaraq ömrünü mühacirətdə başa vurmuşdur.

H. gənclik çağlarından Bakıda başladığı jurnalistlik fəaliyyətini ["Proqress" (rusca), "İrşad", "Tərəqqi" və s. qəzetlər] sonralar da davam etdirmişdir. Paris, London və Münhendə fransızca və b. dillərdə yazdığı, həm də 1910-1915 illərdə "Kaspi", "Baku" qəzetlərində dərc olunmaq üçün Bakıya göndərdiyi məqalələrində o, milli mədəniyyətin qızğın təbliğatçısı kimi Avropa xalqlarını və rusdilli oxucuları Azərb. ədəbiyyatı, dili, mətbuatı və incəsənəti ilə tanış edirdi. Parisdə çıxan "Jurnal Aziatik" jurnalında dərc olunmuş "XIX əsrin əvvəlləri Azərbaycan tarixçisi Abbasqulu ağa Bakıxanov", "Qarabağ (Qafqaz Albaniyası) dialekti və folkloru" əsərlərinin müəllifidir. Ömrünün son illərində keçmiş SSRİ-ni öyrənən in-tun Parisdə fransızca nəşr etdiyi "Qafqaz" jurnalının Azərb. bölməsində gedən yazıların və Münhendə Azərb. milli birliyinin orqanı kimi buraxılan "Azər-

baycan" məcmuəsinin redaktəsi ilə məşğul olmuşdur.

İstedadlı tərcüməçi olan H. "Arşın mal alan" musiqili komediyasının ədəbi mətnini fransız və ingilis dillərinə tərcümə etmişdir.

Bakıda "Seçilmiş əsərləri" (rus dilində) adlı ilk kitabı 1993 ildə çapdan buraxılmışdır. Şəxsi fondu Azərb.-a gətirilərək, Resp. Dövlət Ədəbiyyat və İncəsənət Arxivində mühafizə olunur.

**HACIBƏYLİ** Timuçin Ceyhun bəy oğlu (1921-1993) – mühəndis. Ü.Hacıbəyovun qardaşı oğlu. Parisdə ali təhsil almış, alüminium üzrə mütəxəssis olmuş, Fransa Alüminium Konserninin baş mühəndisi vəzifəsində çalışmışdır. İki dəfə Bakıda olmuş, Üzeyir bəyin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar təntənələrdə (1985) iştirak etmişdir.

**HACIBƏYOV** Əbdülhüseyn Molla Məhəmməd oğlu [1842(?)-1901] – Üzeyir Hacıbəyovun atası. Xurşidbanu Natəvanın sarayında mirzə işləmiş, daha sonra onun Ağcabədidəki təsərrüfatına başçılıq etmişdir. Həyat yoldaşı Şirinbəyim xanımla da Natəvanın sarayında tanış olub, 1870 ildə ailə qurmuşdur. Onların beş uşağı (2 qız, 3 oğlan) var idi. H. ziyalı şəxs olmuş, evində tez-tez şeir, musiqi məclisləri qurarmış. Atasının vaxtsız ölümü Üzeyiri çox sarsıtmışdı.

**HACIBƏYOV** İsmayıl Soltan oğlu (1949-2006) – bəstəkar, əməkdar incəsənət xadimi (2000), Bakı Musiqi Akademiyasının professoru, Soltan Hacıbəyovun oğludur, Hacıbəyov bəstəkarlar sülaləsinin son nümayəndəsi. ADK-nı Qara Qarayevin sinfi üzrə bitirmişdir (1972). H.un "Firuzə" operasını tamamlamışdır (1997). Əsas əsərləri: Simfoniya; skripka, violonçel və simfonik orkestr üçün İkiqat Konsert, fp. və orkestr üçün "Cəngi" rapsodiyası, "Naxışlar" simfonik fantaziyası, "Azərbaycan" odası, "Memorial" kantatası, fleyta və simfonik orkestr üçün Xocalı faciəsinə həsr olunmuş "Konsertştyük", fp. üçün "Batto ruhunda eskizlər", "Paqanini mövzusuna variasiyalar", vokal silsilələr və digər əsərlər. Onun həyat yoldaşı, pianoçu Ülviyyə Hacıbəyova (1960) Hacıbəyovlar nəslinin musiqi irsinin yorulmaz təbliğatçısıdır. O, Üzeyir bəyin "Koroğlu" operasının Uvertürasını ilk dəfə pianoda konsert ifasında təqdim etmiş və daimi repertuarına salmışdır.

**HACIBƏYOVA** Əbuhəyat Əbdülhüseyn qızı (1880-1951) – Ü.Hacıbəyovun bacısı. Evdar qadın idi. 1900-cü illərin əvvəllərində Bakıya köçmüş, dul qaldıqdan sonra Üzeyir bəyin evində yaşamışdır.

**HACIBƏYOVA-ƏLİVERDİBƏYOVA** Şirinbəyim xanım Kərbəlayı Ələkbər qızı (1853-1939) – Üzeyir Hacıbəyovun anası. Mülkədar ailəsində doğulmuşdur. Ailədə 12 uşaq var idi: dörd qardaş, səkkiz bacı. Oğlanların hamısı mükəmməl təhsil, qızlar isə ev təhsili almışdılar. Şirinbəyim xanım ədəbiyyatı çox sevir, şeirlər oxuyur, Füzulinin əsərlərini əzbər bilirdi. 1870 ildə Əbdülhüseynə ərə getmiş, beş uşağı olmuşdur: Sayad, Əbuhəyat, Zülfüqar, Üzeyir, Ceyhun. Ömrünün son illərini Bakıda, oğlu Üzeyirin evində keçirmişdir.

**HACIBƏYOVA-PAŞAYEVA** Sayad Əbdülhüseyn qızı (1872-1954) – Üzeyir Hacıbəyovun böyük bacısı. Evdar qadın idi. Cavan yaşlarından 4 uşaqla dul qalmış, 1900-cü illərin əvvəllərində Bakıya köçərkən, ömrünün sonunadək Üzeyir bəyin evində yaşamışdır.

**HACIBƏYOVUN EV-MUZEYİ** – 1962 ildə Şuşada H.-un uşaqlıq və ilk, gənclik illərində yaşadığı 4 otaqlı evdə açılmış, sonralar H.-un 100 illiyi ərəfəsində qonşu binanın hesabına genişləndirilmişdi. Hacıbəyovlar ailəsinin yaşadığı mühiti əks etdirən muzeydə H.-ın uşaqlıq və gənclik dövrünə aid sənədlər, əşyalar, fotoşəkillər və s. saxlanılırdı. Muzeyin qarşısında H.-un abidəsi qoyulmuşdu. Şuşanın erməni təcavüzkarları tərəfindən işğalından (1992, may) sonra başqa tarixi, maddi mədəniyyət və memarlıq abidələrimiz kimi muzey də vəhşicəsinə məhv edilmiş, H.-un güllələbaran olunmuş abidəsi çətinliklə xilas edilib Bakıya gətirilmişdir.

**HACIBƏYOVUN XATİRƏ EV-MUZEYİ** – 1975 ildə Azərb. Resp.-nın rəhbəri Heydər Əliyevin şəxsi təşəbbüsü və bilavasitə iştirakı ilə Bakıda açılmışdır. H. 1915-42 illərdə bu evdə [Ş.Əzizbəyov (keçmiş Verxni Priyut) küçəsi, №67] yaşamışdır. Muzeydə H.-un həyat və fəaliyyətinin bütün dövrlərini əks etdirən sənədlər, fotoşəkillər, bəstəkarın şəxsi əşyaları, kitabxanası və s. mühafizə olunur. Muzeyin nəzdində musiqi lektoriyası fəaliyyət göstərir. Muzey H.-un bəstəkar, dramaturq, publisist, pedaqoq və ictimai xadim kimi zəngin yaradıcılıq irsini təbliğ edir. Elmi-tədqiqat işi aparır, tematik sərgilər nümayiş etdirir, yaradıcılıq gecələri, müsabiqələr, incəsənət xadimləri ilə görüşlər keçirir. Muzeydə dünyanın bir çox görkəmli xadimlərinin H. haqqında xatirələri saxlanılır.



İ.Hacıbəyov



Ə.Hacıbəyova



Ş.Hacıbəyova-Əliverdibəyova



S.Hacıbəyova-Paşayeva



**Zülfüqar, Ceyhun və Üzeyir Hacıbəyov** qardaşları.



**M.Hacıbəyova**

**HACIBƏYOVA** Məleykə Həsənağa qızı (1893-1966) – pedaqoq, maarifçi, musiqişünas. Ü.Hacıbəyovun həyat yoldaşı. Terequlovlar ailəsindəndir. Tiflisdə Birinci Qızlar gimnaziyasında oxumuş, pedaqoji fəaliyyət göstərmişdir. 1910 ildə Ü.Hacıbəyova ərə getmiş və Bakıya köçmüşdür. Burada da pedaqoji fəaliyyətini davam etdirmiş, Azərb.-da konservatoriya təşkil olunanda oraya daxil olmuş, nəzəri biliklərə yiyələnmişdir. Üzeyir bəyin ölümündən sonra bəstəkarın "Arşın mal alan" musiqili komediyasının klavirinin Bakıda, "Koroğlu" operasının klavirinin isə Moskvada nəşr olunub işıq üzü görməsində onun böyük əməyi və xidməti olmuşdur.



**Ç.Hacıbəyov**

**HACIBƏYOV** Çingiz Zülfüqar oğlu (1913-1971) – dirijor. Azərb. əməkdar inc. xad. (1960). Üzeyir bəyin qardaşı Z. Hacıbəyovun oğludur. Uşaqlıqdan skripka çalmağa başlamış, 1931 ildən AOBT-nın ork.-ində Ü.Hacıbəyov və M.Maqomayevin rəhbərliyi ilə skripkaçı kimi fəaliyyət göstərmişdir. 1938-53 illərdə Azərb. Musiqili Komediya Teatrında baş dirijor olmuş, bir çox tamaşalara, o cümlədən Ü.Hacıbəyovun musiqili komediyalarına dirijorluq etmişdir. 1953-60 illərdə Azərb. Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin simf. ork.-ndə baş dirijor, 1953 ildən ömrünün sonunadək Ü.Hacıbəyov ad. Azərb Dövlət Simf. Ork.-ndə dirijor olmuşdur.



**S.Hacıbəyov**

**HACIBƏYOV QARDAŞLARININ OPERA-OPERETTA ARTİSTLƏRİ DƏSTƏSİ,** Hacıbəyov qardaşları müdiriyyəti – 1914 ildə "Nicat" cəmiyyəti ilə H. arasında "Leyli və Məcnun" operasına sahiblik haqqında münaqişədən sonra yaranmış müstəqil müsəlman opera-operetta artistləri truppası. Truppaya Üzeyir və Zülfüqar Hacıbəyov qardaşları rəhbərlik edirdi. "Açıq söz" qəzeti bu barədə ilk xəbərində yazmışdı: "Üzeyir bəy Hacıbəyov tərəfindən öz təhti-idarəsində olmaq üzrə "Hacıbəyov qardaşlarının opera-operetta dəstəsi" adında bir truppa təşkil edilibdir. Məşhur artistlərimizin hamısı həmin dəstəyə daxildir. Dram artistlərindən Abbas Mirzə Şərifzadə dəxi Üzeyir bəy tərəfindən cəlb edilib, rejissorluq cəhəti ona tapşırılıbdır..." ("Açıq söz", 1916, 31 avqust). Truppa həm Bakıda tamaşalar verir, həm də Qafqazın bir çox şəhərlərinə qastrol səfərlərinə gedirdi. Truppanın repertuarında "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib" və s. operalar, "Ər və arvad", "Evliykən subay", "Arşın mal alan", "O olmasın, bu olsun" və s. musiqili komediyalar var idi.

ADR süqut edən gün - 1920 il aprelin 28-də təcili iclas çağırılmış və neçə illər uğurla fəaliyyət göstərən müdiriyyət, guya "mövqeyi-etibarini itirdiyi" üçün ləğv edilərək, əvəzinə "Türk aktyorları ittifaqı" yaradılmışdı.

**HACIBƏYOV MÜKAFATI.** Ü.Hacıbəyov ad. Respublika mükafatı – ən yaxşı musiqi əsərləri üçün Azərb. Resp. Dövlət mükafatı. 1966 ildə təsis edilmişdi. İki ildən bir verilirdi. Təltif olunanlara "Ü.Ə.Hacıbəyov mükafatı laureatı" diplomu, bəstəkarın barelyefi olan qızıl döş nişanı və pul mükafatı təqdim edilirdi. 1970 ildə Azərb. Resp. Dövlət mükafatı təsis edildikdən sonra ləğv olunmuşdur.

**HACIBƏYOV** Soltan İsmayıl oğlu (1919-1974) – bəstəkar, pedaqoq. SSRİ xalq art. (1973), SSRİ (1952) və Azərb. (1970) Dövlət mükafatları laureatı. Prof. (1964). Ü.Hacıbəyovun əmisi oğlu İsmayılın oğludur. 1941-1945 illərdə ADK-nda B. Zeydmandan (bəstəkarlıq) və Ü.Hacıbəyovdan (Azərb. xalq musiqisinin əsasları) dərs almışdır. Yaradıcılığında Ü.Hacıbəyovun ənənələrindən, zəngin xalq musiqisindən bəhrələnmişdir. Bəstəkar kimi formalaşmasında Ü.Hacıbəyov böyük rol oynamışdır. Onun bəstəkarlıq sənətini seçməsinə də məhz Üzeyir bəylə şəxsi ünsiyyətinin həlledici təsiri olmuşdur. 1931-1941 illərdə Üzeyir bəyin evində yaşamışdır. Üzeyir bəy əmisi nəvəsinin bəstəkarlıq sahəsindəki ilk addımlarını diqqətlə izləyir, onun həvəsini, marağını təqdir edir, lazım gələndə köməkçi kimi öz yaradıcılıq işlərinə də cəlb

edirdi. H. "Qızıl gül" (1940) musiqili komediyasını da Üzeyir bəyin evində yaşayarkən bəstələmişdi. "Karvan" (1945) simfonik əsərini Ü.Hacıbəyova həsr etmiş, 1960 ildə "O olmasın, bu olsun" musiqili komediyasını orkestrovka etmişdir. H.-un yaradıcılığında simf. musiqi əsas yer tuturdu. O, "Gülşən" baletinin (1950), uşaqlar üçün "İsgəndər və çoban" (1947) operasının, bir neçə simfoniya və uvertüraların, mahnı və romansların, dram tamaşalarına musiqinin müəllifidir.

**HACIBƏYOV** (Hacıbəyli) Üzeyir Əbdülhüseyn oğlu (18.IX.1885, Şuşa qəzasının Ağcabədi k. – 23.XI.1948, Bakı) - Azərb. bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərb. professional musiqisinin və milli operasının banisi. Şərqdə ilk operanın yaradıcısı. SSRİ xalq art. (1938), Azərb. EA akad. (1945). Prof. (1940). Stalin mükafatı laureatı (1941, 1946). Azərb. Bəstəkarlar İttifaqının sədri (1937-48), ADK-nın rektoru (1928-29; 1939-48), Azərb. EA İncəsənət İn-tunun direktoru (1945-48) olmuşdur.

H. kənd mirzəsi ailəsində doğulmuş, valideynləri Ağcabədidən Şuşaya köçdükdən sonra ilk təhsilini buradakı ikisinifli rus-Azərb. məktəbində almışdır. Şuşanın zəngin musiqi-ifaçılıq ənənələri H.-un musiqi tərbiyəsinə müstəsna təsir göstərmişdir. Onun ilk musiqi müəllimi Azərb. xalq musiqisinin gözəl bilicisi, dayısı A.Əliverdibəyov olmuşdur. H. 1897-98 illərdə Ə.Haqverdiyevin rəhbərliyi və Cabbar Qaryağdı oğlunun ifası ilə Şuşada göstərilən "Məcnun Leylinin məzarı üstündə" səhnəciyində xorda iştirak etmişdi. O, 1899-1904 illərdə Qori müəllimlər seminariyasında təhsil almışdır. Onun dünyagörüşünün formalaşmasında seminariya böyük rol oynamışdır. H. seminariya illərində qabaqcıl dünya mədəniyyəti ilə yaxından tanış olmuş, rus və Qərbi Avropa musiqi klassiklərinin əsərlərini mənimsəmiş, skripka və baritonda çalmağı öyrənmiş, xalq mahnı nümunələrini nota köçürmüşdür. Seminariyanı bitirdikdən sonra H. 1904 ildə Cəbrayıl qəzasının Hadrut k.-nə müəllim təyin edilmişdi.

H. 1905 ildə Bakıya köçərək Bibiheybətdə, sonralar isə "Səadət" məktəbində dərs demiş, 1907 ildə Bakıda Azərb. dilində "Hesab məsələləri" və "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti"ni nəşr etdirmişdir. H. bədii yaradıcılığa publisistika ilə başlamışdır. O, "İttihad", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında "Ordan-burdan", "O yan - bu yan" və s. başlıqlar altında "U", "Filankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir. O, bu dövrdə çoxlu maraqlı hekayələr, satirik miniatürlər, publisist məqalələr yazmış, N.V.Qoqolun "Şinel" povestini Azərb. dilinə tərcümə etmişdir.

H.-un 1908 il yanvarın 12-də (yeni stillə 25-də) Bakıda H.Z.Tağıyevin teatrında göstərilən "Leyli və Məcnun" ope-



Hacıbəyov qardaşlarının opera-operetta dəstəsinin müdiriyyəti.



**Ə.Hacıbəyov** oğlu Üzeyirlə. 1890.



rası ilə təkcə Azərb.-da deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulmuşdur. H. operanın librettosunu Füzulinin eyniadlı poeması əsasında yazmışdır. H. bu ilk operasında feodal-patriarxal mühitinin mühafizəkar adət və ənənələrinə qarşı çıxmışdır. Operanın musiqisi əsasən, muğam və təsniflər üzərində qurulmuşdur. Operada muğamlardan məharətlə, müəyyən səhnənin, obrazın xüsusiyyətinə uyğun istifadə olunmuş, onlar əsərdə ariya, ariozo, reçitativ və ansamblları əvəz etməklə dramaturji əhəmiyyət kəsb etmişdir. H. 1909-15 illərdə bir-birinin ardınca "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) muğam operalarını bəstələmişdir. Bu operaların librettolarını H. xalq dastanları və rəvayətlər, Firdovsinin "Şahnamə" əsərinin motivləri əsasında yazmışdır. H. "Leyli və Məcnun"dakı üslub xüsusiyyətlərini və estetik sənət prinsiplərini sonrakı operalarında da davam etdirmişdir. O, "Şeyx Sənan"da muğamlara az yer vermiş, musiqinin böyük qismini özü bəstələmişdir. Xalq dastanı əsasında bəstələdiyi "Əsli və Kərəm" operasında H. muğamatla bərabər, aşıq musiqisindən də istifadə etmişdir. H.-un dramaturgiya sahəsindəki fəaliyyəti Azərb. ədəbiyyatında mühüm əhəmiyyət kəsb edir. O, Azərb.-da musiqili komediya janrının yaradıcısıdır (komediyalarının mətnini də özü yazmışdır). Onun "Ər və arvad" (ilk tamaşası - 1910), "O olmasın, bu olsun" (ilk tamaşası - 1911), "Arşın mal alan" (1913) musiqili komediyalarında inqilabdan əvvəlki Azərb. məişəti, xalq adət və ənənələri öz əksini tapmışdır. H. 1912 ildə musiqi təhsilini artırmaq üçün Moskvaya getmiş, həmin il burada filarmonik cəmiyyətin musiqi kurslarında (solfecio üzrə N.M.Laduxindən, Harmoniya üzrə N.N.Sokolovskidən dərs almışdır). 1914 ildə isə Peterburq konservatoriyasında oxumuşdur (konservatoriyada harmoniya üzrə müəllimi N.A.Rimski-Korsakovun tələbəsi V.P. Kalafati idi. Fp. və orqan üzrə dərsləri görkəmli müəllimlər V.V.Şerbaçov və Y.Y.Qandşin aparırdı). Peterburq dövrü H.-un yaradıcılığında mühüm rol oynamış, o, "Arşın mal alan" musiqili komediyasını məhz burada yaratmışdır. Lakin Birinci Dünya müharibəsinin başlanması və maddi çətinliklər H.-u təhsilini yarımçıq qoymağa məcbur etdi.

H. 1918-20-ci illərdə ADR hakimiyyəti dövründə "Azərbaycan" qəzetində fəaliyyət göstərmişdir. Onun bu illərdəki fəal ədəbi yaradıcılığı məhz bu qəzetlə bağlıdır. H.-un yazıları hər gün, yaxud günaşırı "Azərbaycan" qəzetində çap olunurdu; bəzən bir nömrədə iki yazısı müxtəlif imzalarla çıxırdı. Qəzetin ilk redaktoru H.-un kiçik qardaşı Ceyhun bəy olmuşdu. H.-un özü isə 1919-cu ilin yanvarından 1920 il aprelin 27-ə qədər qəzetin müdiri olmuşdur. H. qəzetə rəhbərlik edərək onun ideya istiqamətini müəyyənləşdirmiş, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə kömək etmişdir. Qəzetdə H.-un "Partiyalarımıza", "Tarixi günümüz", "Andronikin məsələsi", "Vəzifəmiz nədir", "Lənkəran faciəsi", "Kim nəyin fikrində imiş", "Qarabağ", "İçimizdəki denikinlər", "Ermənistan və Azərbaycan münasibəti", "Təəssürat" və s. bir sıra yazılar çap edilmişdir. Bütün bu yazılar günümüzlə həmahəng səsləşərək H.-u uzaqgörən siyasətçi, ideyalı publisist kimi nümayiş etdirir.

Ümumiyyətlə, 20-ci illər Azərb. musiqisinə "təşkilatçılıq" illəri kimi daxil olmuş və bu təşkilati işlərin başında H. durmuşdur. Azərb. Xalq Maarif Komissarlığı yanında İncəsənət İdarəsinin musiqi şöbəsinə rəhbərlik edən H. "Sənaye-nəfisə" (1921, №1) məcmuəsində dərc etdirdiyi "Vəzifeyi-musiqiyyəmizə aid məsələlər"



**Ü.Hacıbəyov** Qori seminariyasının şagird və müəllimləri ilə. 1889-1904-cü illər.

məqaləsində Azərb. musiqisinin gələcək inkişaf proqramını müəyyənləşdirmişdir. Məqalədə peşəkar musiqi kadrları yetişdirmək, milli musiqinin əsaslarını işləyib hazırlamaq, ümumdünya musiqisini öyrənmək və s. məsələlərdən bəhs olunurdu. 20-30-cu illərdə milli operanın inkişafı məsələləri müəyyən mübahisələrə səbəb olsa da, Azərb.-ın musiqisi məhz H., M. Maqomayev və onların tərəfdarlarının tutduğu yol ilə inkişaf etmişdir. H. 1921-ci ildə Bakıda azərb. tələbələr üçün ilk musiqi məktəbini - Azərb. Dövlət Türk Musiqi Məktəbini (sonralar texnikum) təşkil etmişdir; texnikum (ilk direktoru H. olmuşdur) 1926 ildə ADK ilə birləşdirilmişdir. 1926 ildən ADK-da fəaliyyət göstərən H. burada nəzəriyyə, harmoniya, Azərb. musiqisinin əsasları fənlərindən dərs demiş, konservatoriya yanında ilk çoxsəsli Azərb. xor kollektivi yaratmışdır. Lakin bu xor tezliklə dağılmış, sonralar H.-un təşəbbüsü ilə 1936 ildə Azərb. Dövlət Filarmoniyası nəzdində yenidən təşkil olunmuşdur. O, 1927 ildə M.Maqomayevlə birgə ilk "Azərbaycan türk el nəğmələri" məcmuəsini nəşr etdirmişdir. H. 1931 ildə Azərb. Radio Komitəsi yanında ilk notlu xalq çalğı alətləri ork. təşkil etmişdir. Ork.in repertuarına M.Qlinka, V.Motsart, F.Şubert, J.Bize və b.-nın əsərləri ilə yanaşı, H.-un bu ork. üçün 1931-32 illərdə bəstələdiyi 1-ci ("Çahargah") və 2-ci ("Şur") fantaziyaları daxil idi. Ork.-ə ilk vaxtlar H. özü dirijorluq etmişdi. H.-un kamera instrumental əsərləri içərisində skripka, violonçel və ork. üçün bəstələdiyi "Aşıqsayağı" (1931) triosu Azərb. musiqisində ilk ansambl pyeslərindəndir. H. əski sovet dövründə yaradıcılığa kütləvi mahnı janrı ilə başlamışdı ("Süvari mahnısı", "Pilotlar"). O, 30-cu illərdə bir neçə kantata [Firdovsinin 1000 illiyinə (1934), M.F.Axundova həsr olunmuş "Ölməz sənətkar" (1938) və s.] da yazmışdır.



**Ü.Hacıbəyov** M.Maqomayev, H.Sarabski və H.Terequlov ilə.



**Ü.Hacıbəyov** yaxın qohumları ilə. 1911.



**Üzeyir Hacıbəyov**



**Ü.Hacıbəyov** Azərbaycan Dövlət Xorunun ilk heyəti ilə. 1936.



SSRİ Elmlər Akademiyası Rəyasət heyəti komissiyasının üzvləri Azərbaycan Elmlər Akademiyasının ilk həqiqi üzvləri arasında (1945): soldan (oturan) - Ü.Hacıbəyov, İ.Q.Yesman, M.Mirqasımov, İ.İ.Meşşaninov, D.N.Pryanişnikov, İ.İ.Şirokoqorov, D.S.Belyankin, M.A.Kapelyuşnikov, N.N. Andreyev, A.A.Qrossheym; (ayaq üstə) - Y.Məmmədəliyev, Səməd Vurğun, M.İbrahimov, Ş.Əzizbəyov, Ə.Əlizadə, H.Hüseynov, S.Dadaşov, M.Qaşqay, M.Topçubaşov, M.Hüseynov.







Yuxarıdan aşağı: 1. Ü.Hacıbəyov iş otağında. 2. Ü.Hacıbəyov dövrünün görkəmli bəstəkarları S.N.Vasilenko, Y.A.Şaporin, R.M.Qlier və V.A.Belı ilə. Bakı, 1944. 3. Ü.Hacıbəyov həyat yoldaşı Məleykə xanımla. 1948.



**Ü.Hacıbəyovun** Bakıda heykəli. Tunc, qranit. 1960.
Heykəltəraş T.Məmmədov.



**Ü.Hacıbəyovun** operalarından səhnələr: yuxarıdan - 1. H.Hacıbababəyov Məcnun rolunda. 2. "Əsli və Kərəm" operasından səhnə. 3. H.Sarabski Şah Abbas rolunda. 4. "Koroğlu" operasından səhnə. 5. F.Muradova Nigar rolunda. 6. L.İmanov Koroğlu rolunda. 7. F.Qasımova Nigar rolunda.






**Ü.Hacıbəyovun** musiqili komediyaları ekranda və xarici ölkə səhnələrində: yuxarıdan - 1. “Arşın mal alan” kino-filmindən kadr. Rejissorlar R.Təhmasib və N.Leşşenko. 2. “O olmasın, bu olsun” kino-filmindən kadr. Rej. H.Seyidzadə. 3. “Arşın mal alan” musiqili komediyasından səhnə. Ankara Dövlət Opera və Balet Teatrı (Türkiyə). Rej. V.Həsənov, 1984. 4. “Arşın mal alan” musiqili komediyasından səhnə. Pekin Mərkəzi Eksperimental Opera Teatrı (Çin). 1960.









**Ü.Hacıbəyovun** əsərlərinin buklet və afişaları: yuxarıdan - 1-2. "Arşın mal alan" və "O olmasın, bu olsun" (Məşədi İbad) musiqili komediyalarının Türkiyədə çap olunmuş bukletləri. Ədən Milli Dram Teatrında tamaşaya qoyulmuş "O olmasın, bu olsun" musiqili komediyasının afişası. ADK-nın Opera studiyasında tamaşaya qoyulmuş "Arşın mal alan" musiqili komediyasının afişası. Rəssam S.Pirayeşi.




**Ü.Hacıbəyovun** əsərlərinin qrammafon valları.



**Ü.Hacıbəyov** royal arxasında.

1937 il aprelin 30-da AOBT-nda ilk dəfə tamaşaya qoyulan "Koroğlu" operası (librettosu H. İsmayılov və M.S.Ordubadinindir) H. yaradıcılığının zirvəsini təşkil edir. Azərb., eləcə də əski sovet opera sənətinin incilərindən sayılan bu operada H. ilk dəfə olaraq, klassik opera formasına riayət edərək bitkin ariyalar, kütləvi xor səhnələri, müxtəlif ansamblılar, balet nömrələri, reçitativlər yaratmışdır. Operanın musiqi dramaturgiyasının əsasını monumental xor səhnələri təşkil edir. Koroğlu xalq qəhrəmanı olmaqla yanaşı, həm də aşıqdır. Məhz buna görə də, opera əsas etibarilə aşıq musiqisi üslubunda bəstələnmişdir. H. "Koroğlu" operasında simf. ork.-in tərkibinə Azərb. xalq musiqi alətlərini daxil edərək ork.-in rəngarəng səslənməsinə nail olmuşdur.

H. Böyük Vətən müharibəsi illərində "Çağırış", "Yaxşı yol", "Ananın oğluna nəsihəti", "Şəfqət bacısı", "Döyüşçülər marşı" və s. vətənpərvər ruhlu mahnılar, eləcə də xalq çalğı alətləri ork. üçün "Cəngi" (1941) pyesini, "Vətən və cəbhə" (1942) kantatasını bəstələmişdir. Onun bu illərdə yaratdığı vokal musiqi əsərləri içərisində Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə həsr etdiyi "Sənsiz" (1941) və "Sevgili canan" (1943) romans-qəzəlləri xüsusi yer tutur. H. həyatının son illərində "Firuzə" operası üzərində işləmişdir. Bu bitməmiş operadan təkcə Firuzənin ariyası qalmışdır. H. Azərb. Resp. Dövlət Himnlərinin (1945, 1992) musiqisinin müəllifidir.

H. Azərb. musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. O, XIX əsrin əvvəllərinədək şifahi xalq musiqi sənəti şəklində mövcud olan Azərb. milli musiqisini Qərbi Avropa, rus bəstəkarlıq məktəblərinin nailiyyətləri, forma və janrları ilə zənginləşdirmişdir. O, öz opera və musiqili komediyalarında, eləcə də digər janrlarda yazdığı musiqi əsərlərində Şərq və Qərb musiqi sistemlərinin üzvi vəhdətini yaratmağa nail olmuşdur. H. vaxtilə Şərq və Qərb musiqi mədəniyyətləri arasında keçilməz sayılan səddi aradan götürmüş, Azərb. və ümumiyyətlə, Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirmişdir. H. öz musiqisində Azərb. xalq musiqisinin bütün janrlarının, mahnıların, rəqslərin, muğam və aşıq yaradıcılığının üslub xüsusiyyətlərini birləşdirərək özünün orijinal üslubunu, Üzeyir üslubunu yarada bilmişdir. H. əsərlərinin formasının klassik aydınlığı, biçimliliyi və xalq mahnısı ilə bağlı olan melodiyanın böyük üstünlüyü bu üslubun xarakter xüsusiyyətləridir. Azərb. musi-

qisinin beynəlmiləl əhəmiyyət kəsb edərək, yeni pilləyə qalxmasında H.-un böyük rolu vardır.

Azərb. musiqisinin xüsusiyyətlərinin H. tərəfindən dərin elmi təhlili milli musiqi dilinin və ümumiyyətlə, musiqimizin inkişafı üçün qüvvətli nəzəri əsas olmuşdur. H. həm də böyük musiqişünas alim idi. O, müasir Azərb. elmi musiqişünaslığının əsasını qoymuş, musiqiyə dair çoxlu məqalələr yazmış, tədqiqatlar aparmışdır. "Azərbaycan xalq musiqisinin əsasları" (1945) fundamental tədqiqat əsərində o, xalq musiqisinin nümunə və formalarının dərin təhlilinə əsaslanaraq, qədim tarixə malik Azərb. musiqisinin qanunauyğunluqlarını, milli xüsusiyyətlərini göstərmişdir. H.-un nəzəriyyədə irəli sürdüyü məsələlər bəstəkarın yaradıcılığında praktiki həllini tapmışdır (Azərb. musiqisində çoxsəsliliyin geniş tətbiqi, milli məqam əsası ilə major-minor sisteminin üzvi vəhdəti və s.). Azərb. musiqisində realizm, xəlqilik və beynəlmiləlçilik kimi estetik problemlərin ciddi tədqiqi də H.-un adı ilə bağlıdır. H. istedadlı bəstəkarlar, musiqişünaslar nəsli yetişdirmişdir. Q.Qarayev, F.Əmirov, Niyazi, S.Hacıbəyov və b. H.-un tələbələri olmuşlar.

H.-un formaca milli, ruhən beynəlmiləl musiqisi ümumdünya şöhrəti qazanmış, dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur. D.Şostakoviç, T.Xrennikov, Q.Qarayev kimi görkəmli musiqi xadimləri H.-un sənətkarlığından bəhs edərkən, bəstəkarı əski sovet musiqisinin gələcək inkişafına böyük təsir göstərən sənətkar kimi qiymətləndirmişlər. T.Xrennikov onu "Professional Şərq musiqisinin atası" adlandırmışdır. H.-un "Arşın mal alan" musiqili komediyası ingilis, alman, Çin, ərəb, fars, polyak, rus, Ukrayna, belarus, gürcü və s. dillərə tərcümə edilmiş, bir çox şəhərlərdə, o cümlədən Moskva, Nyu-York, Paris, London, Tehran, İstanbul, Qahirə, Pekin, Berlin, Varşava, Sofiya, Budapeşt, Buxarest və s. yerlərdə tamaşaya qoyulmuşdur. "O olmasın, bu ol-



**Ü.Hacıbəyovun** qəbirüstü abidəsi. Tunc, qranit. 1956. Heykəltəraş Ö.Eldarov.



**Ü.Hacıbəyov** həyat yoldaşı Məleykə xanımla. 1946.



**Z.Ə.Hacıbəyov**

sun" musiqili komediyası Zaqafqaziya, Dağıstan, Orta Asiya, Türkiyə, Bolqarıstan, İran və Yəməndə, "Koroğlu" operası isə Aşqabadda (1939, türkmən dilində), Yerevanda (1942, erməni dilində), Daşkənddə (1950) özbək dilində səhnəyə qoyulmuşdur. H.-un "Arşın mal alan" musiqili komediyası 1916 (rej. Belyakov), 1917 (rej. B.Svetlov), 1945 (rej.-lar R.Təhmasib, N.Leşşenko) və 1965 (rej. T.Tağızadə) illərdə, "O olmasın, bu olsun" (rej. H.Seyidzadə) 1956 ildə ekranlaşdırılmışdır. "Arşın mal alan" (1945) filminin bir qrup yaradıcısı və iştirakçısı, o cümlədən H. Stalin mükafatına layiq görülmüşdür. "Arşın mal alan"ın motivləri üzrə ABŞ-da (1937) da film çəkilmişdir.

H. SSRİ Ali Sovetinin deputatı (1 və 2-ci çağırış) olmuşdur. O, bir sıra orden



**Ü.Hacıbəyovun** Şuşada ev-muzeyi.

və medallarla təltif edilmiş, ADK-na (1949) və Azərb. Dövlət Simf. Ork.-nə (1944) H.-un adı verilmişdir. 1966-70 illərdə Azərb.-da H. adına Resp. Dövlət mükafatı təsis edilmişdi. Şuşada (1965) və Bakıda (1975) H.-un ev-muzeyləri açılmışdır. Bakıda (1960, tunc, qranit, heykəltəraş T.Məmmədov) və Şuşada (1985; tunc, qranit, heykəltəraş Ə.Salikov) heykəli ucaldılmışdır (təəssüflə qeyd edilməlidir ki, Şuşadakı heykəl erməni işğalçıları tərəfindən güllələbarana məruz qalmış və böyük çətinliklə Bakıya gətirilmişdir). F.Əmirov skripkalar, violonçel və 2 fp. üçün "Üzeyir Hacıbəyova ithaf" (1949) poemasını yazmışdır. "Azərbaycanfilm" kinostudiyasında 2 seriyalı "Üzeyir ömrü" (1982; ssenari müəllifi və quruluşçu rej. Anar) rəngli bədii televiziya filmi çəkilmişdir. 1983-85 illərdə H.-un musiqi əsərlərinin akademik nəşrinin 1-3 cildləri ("Leyli və Məcnun" operasının partiturası və klaviri, "Koroğlu" operasının 1-3-cü pərdələrinin partiturası) çap olunmuşdur.

H.-un anadan olmasının 100, 110 illik yubileyləri böyük təntənə ilə keçirilmiş, dünyanın bir sıra şəhərlərində yubiley gecələri təşkil olunmuşdu. YUNESKO-nun qərarı ilə H.-un 100 illik yubileyi beynəlxalq miqyasda qeyd edilmişdir.

**HACIBƏYOV** Zülfüqar Əbdülhüseyn oğlu (1884-1950) – bəstəkar. Azərb. əməkdar inc. xad. (1943). Ü.Hacıbəyovun böyük qardaşı, Niyazinin atasıdır. Azərb. musiqi mədəniyyətinin inkişafında xidmətləri böyükdür. İlk Azərb. opera-

larından olan "Aşıq Qərib" (1915, tamaşası 1916) əsərində muğamlara əsaslanmış, xalq musiqi folkloru ilə Avropa musiqisini əlaqələndirməyə çalışmışdır. Öz librettolarına bəstələdiyi "Əlli yaşında cavan" (1909), "Varlı" ("On bir yaşında gəlin", 1911), "Evliykən subay" (1911) musiqili komediyaları musiqisinin sadəliyi, aydınlığı və dramaturgiya baxımından diqqətəlayiqdir. Bir sıra mahnı, simf. ork., nəfəs alətləri və xalq çalğı alətləri üçün əsərlər, dram tamaşalarına, "Almaz" kinofilminə (Niyazi ilə birgə) musiqi yazmışdır. "Nüşabə" və "Üç aşıq" ("Məlikməmməd") operaları yarımçıq qalmışdır.

**HACIBƏYOV** Zülfüqar Məmməd bəy oğlu (1885-1906) – müəllim, maarifçi. Üzeyir bəyin əminəvəsi, Firidun bəy Köçərlinin bacısı oğludur. Rus-tatar məktəbində və Qori seminariyasında Üzeyir bəylə birgə oxumuşdur. H. musiqiyə xüsusi həvəs göstərirdi. 1904 ildə seminariyanın ork.-ndə fəal iştirakına və əla ifaçılıq bacarığına görə Ü.Hacıbəyov, A.Əmirov və M.Maqomayevlə birlikdə pulla mükafatlandırılmışdı. 1904 ildə seminariyanı bitirdikdən sonra H. Gəncə sənət məktəbində müəllim olmuş, lakin tezliklə ağır xəstəlikdən vəfat etmişdir. Uşaqlıq dostunun vaxtsız ölüm xəbərini eşidən Üzeyir bəy hüzn və kədərlə dolu nekroloq - məqalədə yazırdı: "Zülfüqar öldü... Bu, bir acı həqiqətdir! Nakam öldü! Valideyni Zülfüqar adlı bir oğul itirdisə, biz Zülfüqar adlı bir adam itirdik ki, xalqımız üçün yıxılmaz, qaralmaz, bir sütun olacağı ap-aşkar idi!.."

**HACIYEV** Əhməd Cövdət İsmayıl oğlu (1917-2002) – bəstəkar, pedaqoq. Azərb. xalq. art. (1960), prof. (1963). Stalin mükafatları laureatı (1946, 1952). Milli simfonizmin yaradıcılarındandır. Bəstəkar kimi yetişməsində Ü.Hacıbəyovun mühüm rolu olmuşdur. H. 1926 ildə Hacıbəyovun tövsiyəsi ilə skripka üzrə məşğul olmağa başlamışdır. Üzeyir bəyin məsləhəti ilə konservatoriyaya daxil olduqdan sonra isə onun sinfində Azərb. xalq musiqisinin əsaslarını öyrənmişdir. Üzeyir bəy gənc bəstəkara həmişə qayğı ilə yanaşmış, onun üslubunun, musiqi dünyagörüşünün formalaşmasına böyük təsir göstərmişdir. 1936 ildə ilk iri əsərini - "Simfoniya"nı dinlədikdən sonra Üzeyir bəy ona təhsilini Moskvada davam etdirməsini məsləhət görmüşdür. H. 1938 ildə Moskva konservatoriyasında A.İ.Aleksandrovun, sonralar isə D.D.Şostakoviçin sinfində oxumuşdur. O, 8 simfoniyanın (o cümlədən Azərb. xalqının böyük oğlu Heydər Əliyevə həsr olunmuş "Onu zaman seçib" simfoniyasının), "Sülh uğrunda" simf. poemanın (1957), "Vətən" operasının (Q.Qarayevlə birlikdə, 1945), xor, solist və ork. üçün oratoriyanın (1949) və s. əsərlərin müəllifidir.



Ə.C.Hacıyev

**HACIYEV** İsmayıl Əhməd Cövdət oğlu (1949) – bəstəkar, dirijor, Ə.C.Hacıyevin oğlu. Qara Qarayevin tələbəsi. ADK-nı (1973) və Leninqrad Konservatoriyasını bitirmişdir. 1982-84 illərdə Leninqrad Konservatoriyasında təcrübə keçmişdir. 1984-89 illərdə AOBT-nın dirijoru kimi H.-un operalarına dirijorluq etmişdir. 1989-99-cu illərdə Az.D.Teleradio Verilişləri Şirkətinin Niyazi ad. simf. ork. bədii rəhbəri və baş dirijoru işləmişdir. 1986 ildə Leninqrad Filarmoniyası Akademik simf. ork.iştirakı ilə H.-un 100 illik yubiley gecəsinin təşkilatçısı və dirijoru olmuşdur. 1991 ildə «İlham» qədim və müasir musiqi ork.-ni yaratmış və bir sıra xarici ölkələrdə (Almaniya (1993), İraq (1994), ABŞ, Kanada) H.-un əsərlərini ifa etmişdir.



İ.Ə.Hacıyev

1999 ildən Kanadada yaşayır, Toronto Opera Teatrının dirijorudur. 2006 ildə onun təşəbbüsü və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə hər il Kanadanın Niaqara şəhərində keçirilən «Beynəlxalq Kamera Musiqi Festivalında» H.-un xalq çalğı alətləri orkestri üçün «Birinci fantaziyası» (simfonik orkestr üçün işləməsi İ.Hacıyevindur) və «Koroğlu» operasının Uvertürası ifa olunmuşdur.

**HACIYEV** Rauf Soltan oğlu (1922-1995) - bəstəkar. SSRİ xalq art. (1978). 1953 ildə ADK-nı (Q.Qarayevin sinfini) bitirmişdir. Onun yaradıcılıq taleyində Ü.Hacıbəyov mühüm rol oynamışdır. Həsən bəy Zərdabinin qızı Qərib Soltan yeniyetmə Raufun musiqi istedadını görüb, qonşusu Abdulla Şaiqdən onun konservatoriyaya qəbul olunmasına köməklik göstərməsini xahiş etmişdir. Abdulla Şaiq Raufu ADK-nın direktoru Ü.Hacıbəyovun yanına aparmışdır. H.-nin musiqi qabiliyyətini görən Üzeyir bəy onun konservatoriyaya qəbul olunmasına razılıq vermişdir. H. müxtəlif janrlı əsərlərin - operetta, balet, simfoniya, lirik mahnı və s. müəllifi kimi tanınmışdır.



R.Hacıyev

Ü.Hacıbəyovun əsərlərinin motivləri əsasında televiziya üçün yazdığı "Ordan-

burdan" musiqili komediyasını xatirəsini əziz tutduğu böyük ustadına ithaf etmişdir.



S.Hacıyeva

**HACIYEVA** Sona Salman qızı (1907-1979) – aktrisa. Azərb. xalq art. (1949). Xanəndə Əbdülbağı Zülalovun nəvəsidir. Teatr səhnəsində fəaliyyət göstərən ilk azərb. aktrisalardandır. 1923-79 illərdə ADT-nda, 1927 ildən, eyni zamanda opera və musiqili komediyalarda uğurla çıxış etmişdir: Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında əsas rolların (Leyli, Əsli) ilk azərb. qadın ifaçısı olmuş, onların obrazlarını məharətlə yaratmışdır.



M.Hacınski

**HACINSKİ** Mehdi bəy Süleyman oğlu (1879-1941) – teatr xadimi, aktyor, publisist. 1906 ildən "Nicat" xeyriyyə cəmiyyətinin teatr bölməsinə rəhbərlik etmiş, 1914 ildən "Səfa" cəmiyyəti teatr bölməsinin sədr müavini olmuşdur. Dövri mətbuatda Azərb. teatrına, aktyor sənətinə aid məqalə, oçerk, hekayə və felyetonlar dərc etdirmiş, 1906 ildən aktyor kimi də fəaliyyət göstərmişdir. "Nicat" cəmiyyəti adından Ü.Hacıbəyova "Leyli və Məcnun" operasına görə mükafatı o, təqdim etmişdir. Ü.Hacıbəyovun yaradıcılığına daim diqqətlə yanaşırdı.

**HACINSKİ** Camo Süleyman oğlu (1887-1942) – publisist, teatr tənqidçisi, sənətşünas. Peterburq un.-tini bitirmişdir (1912). "Nicat" xeyriyyə cəmiyyətinin işində iştirak etmiş, Müsəlman Dram Cəmiyyətinin təşkilatçılarından (1916) olmuşdur. Ü.Hacıbəyovun əsərlərinin tamaşaları haqqında məqalə və resenziyalar yazmışdır.

**HADRUT** – Azərb. Resp.-nda şəhər tipli qəsəbə. Hadrut r-nunun mərkəzi. 1904 ildə Qori seminariyasını bitirən Hacıbəyov Cəbrayıl qəzasının H. kənd məktəbinə müəllim göndərilmiş, burada rus dili, hesab və musiqidən dərs demiş, məktəbə öz puluna pianino almışdı. 1905 ildə erməni-müsəlman (Azərb.) davası başlandığından Hacıbəyov pedaqoji fəaliyyətini yarımçıq qoyaraq Bakıya köçmüşdür.



Ə.Ə.Haqverdiyev

**HAQVERDİYEV** Əbdürrəhim bəy Əsəd bəy oğlu (1870-1933) – yazıçı, dramaturq, ictimai xadim. Azərb. əməkdar inc. xad. (1928). 1891 ildə Peterburq yol mühəndisləri in-tuna daxil olmuş, eyni zamanda azad dinləyici kimi Peterburq un.-tinin şərq fakültəsində oxumuşdur. İlk dram əsərlərini də təhsil illərində qələmə almışdır. "Bəxtsiz cavan", "Pəri-cadu" və s. pyeslərin, "Ağa Məhəmməd şah Qacar" tarixi faciəsinin, realist nəsr əsərlərinin ("Marallarım" adlı hekayə silsiləsi, "Xortdanın cəhənnəm məktubları" povesti, "Bomba", "Şeyx Şaban", "Mirzə Səfər" və s. hekayələri) müəllifidir. Ü.Hacıbəyov 1897-98 illərdə Şuşada H.-in rəhbərliyi və Cabbar Qaryağdı oğlunun ifası ilə göstərilən "Məcnun Leylinin məzarı üstündə" adlı səhnəcikdə xorda iştirak etmişdir. XX əsrin əvvəllərindən Bakıda yaşayan H. burada ədəbi yaradıcılıqla yanaşı, rej.-luqla da məşğul olmuş, 1908 ildə "Leyli və Məcnun" operasının ilk tamaşasına dirijorluq etmişdir.

**HAQVERDİYEV** Əli Həsən oğlu (1939-1992) – müğənni (bariton). ADK-nı bitirmiş, AOBT-nin solisti olmuşdur. Ü.Hacıbəyovun "Koroğlu" və "Leyli və Məcnun" operalarında Həsən xanın, Nofəlin partiyalarını uğurla ifa etmişdir. "O olmasın, bu olsun", "Arşın mal alan" və "Üzeyir ömrü" filmlərində çəkilmişdir. "Arşın mal alan" musiqili komediyasının qrammofon valına yazılışında (1973) Soltan bəyin partiyasını oxumuşdur.

**HAQVERDİYEV** Əyyub Məmmədəli oğlu (1911-1996) – aktyor. Azərb. xalq art. (1964). 1928 ildən ömrünün sonunadək Naxçıvan Musiqili Dram Teatrında çalışmış, burada "O olmasın, bu olsun" və "Arşın mal alan" musiqili komediyalarında Məşədi İbad və Vəli rollarını məharətlə oynamışdır.

**HAQVERDİYEV** Xanlar Məmməd oğlu (1906-1980) – müğənni (lirik-dramatik tenor). Azərb. (1956) və Türkmənistanın (1939) əməkdar art. ADK-nın vokal şöbəsində oxumuşdur (1928-31). 1931-62 illərdə (fasilələrlə) AOBT-nın solisti olmuş, "Leyli və Məcnun" operasında Məcnun və İbn Səlamın, "Əsli və Kərəm" operasında Kərəmin partiyalarını ifa etmişdir. 1938-42 illərdə Türkmənistan Opera və Balet Teatrında "Koroğlu" operasında Koroğlu rolunda çıxış etmişdir.

**"HALIMIZA DAİR"** – H.-un məqaləsi. Redaktoru olduğu "Həqiqət" qəzetinin 1909 il 29 dekabr tarixli 4-cü sayında baş məqalə kimi dərc edilmişdir. Bakı ş. haqqında mülahizələrini açıqlayan müəllif onu Qafqazın əhalisi tərəqqi etmiş qabaqcıl şəhəri adlandırır. Lakin onun fikrincə, şəhər camaatının hamısı eyni dərəcədə tərəqqi tapa bilməmişdir. H. göstərir ki, təzə əsr insanları yaşamağa çağırır, amma Rusiyanı qəflət yuxusundan oyadan zərbədən (1905-1907 illər inqilabı nəzərdə tutulur) Bakının özündə bir oyanıqlıq müşahidə olunmur. Müəllif əhalini fikri oyanışa və fəallığa çağırır.

**HAMBAL** – Ü.Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasında personaj. Bəylərin, tacirlərin, "intelligentlərin", qoçuların və s. iştirak etdiyi bu əsərdə H. sadə xalqın, zəhmətkeş, öz əməyi ilə dolanan adamların təmsilçisidir. Yuxarıda sadalanan təbəqə nümayəndələrinin H.-a münasibəti, eyni zamanda onların sadə xalqa münasibətinin təzahürüdür. H. simasında məhz bir tikə çörəyini min bir əziyyətlə qazanan, hər addımda aldanılan, təhqir edilən, alçaldılan, məclislərdən qovulan qara camaatı - xalqı təsvir etdiyindən, müəllif bu personaja konkret bir ad verməyi də lazım bilməmişdir. H. əsərin sonuna qədər sağa, sola pul səpələyən Məşədi İbaddan özünün bir abbası haqqını ala bilmir. Çox səciyyəvi olan bu detal ədibin publisistikasında, felyetonlarında əks olunan ovqatın davamı kimi diqqəti çəkir. H. təmsilçisi olduğu xalq kimi səbirlidir, dözümlüdür, onun kimi zülmə tab gətirməyi bacarır və H.-ın fəlakətlərinin çoxu da, yəqin ki, onun bu ifrat dözümlülüyündə, qəzavü-qədərə itaətindədir. Artist Əhməd Əhmədov musiqili komediya əsasında çəkilmiş eyniadlı filmdə H.-ın çox uğurlu ekran surətini yaratmışdır.

**HARMONİYA** – Hacıbəyovun yaradıcılığında onun fərdi üslubunun müəyyənedici amillərindən biridir. Bəstəkar bütün yaradıcılığı boyu major-minorun milli məqam-intonasiya əsasında şərhinə dayaqlanan yeni keyfiyyət və formalar axtarırdı. Hacıbəyovun bu sahədə novatorluğunun mahiyyəti ondadır ki, o, milli məqamlara xas keyfiyyətləri h.-da təcəssüm etdirir. Bəstəkar milli məqama novatorcasına yanaşmanın məğzini "Azərbaycan xalq musiqisinin əsasları" kitabında dəqiq müəyyənləşdirirdi: "Azərbaycan melodiyasına bacarıqsız surətdə harmoniya tətbiq edilərsə, onun səciyyəsini dəyişdirər, lad xüsusiyyətlərində bir namüəyyənlik törədər və hətta onu yaramaz bir hala sala bilər. Lakin bu, o demək deyildir ki, Azərbaycan musiqisi həmişəlik birsəsli olaraq qalmalıdır. Azərbaycan ladlarının müntəzəm sistemi və mənalı melodiyalar əmələ gətirməyin ciddi qanunları çoxsəsli musiqi yaranmasına nəinki mane olur, əksinə, bunlar quru, cansız qammalar əsasında... deyil, Azərbaycan xalq musiqisinin canlı və həyatı ladları əsasında böyük formalı çoxsəsli musiqi əsərləri üçün möhkəm bir bünövrədir... Burada əsas məsələ ondan ibarətdir ki, çoxsəslilik akkordların düzgün ardıcıllığını əldə etmək və lad səsqatarları quruluşunun dəyişilməsini tələb edən harmonik kadanslar təşkil etmək qanununa yox, məntiqli qurulan müstəqil melodiyaların uyuşması qanunlarına əsaslanmalıdır".

Hacıbəyovun harmonik üslubunun ümumiləşdirici prinsipi melodikada ifadə olunmuş milli məqam ilə h.-da ifadə olunmuş major- minorun qarşılıqlı təsiri nəticəsində yaranmış çoxsistemli (ikisistemli) məqam əsasıdır. Bu qarşılıqlı təsirin formaları müxtəlifdir. Onlardan biri - səsləşmələrin məqamın intonasiya-melodik inkişafının şaquli vəziyyətdə "yığışması" nəticəsində yaranmasıdır. Çox zaman bu, ikisəslilik yaradır (major-minor hissiyyatını neytrallaşdıran kvartalı, kvintalı səsləşmələr). Akkorda melodiyada olmayan, lakin onun məqam əsasını səciyyələndirən səslər də əlavə oluna bilər. Major-minor ilə milli məqamların qarşılıqlı təsirinin daha bir forması - ənənəvi major-minor akkordunun funksiyalarının yeni şərhi idi. Məsələn: Hacıbəyovun musiqisində tonika h.-sı rolunu melodiyanın əsas istinad tonlarını birləşdirən kvartsekst-akkord icra edir. Və yaxud, major-minor aspektində dominanita kimi qavranılan üçsəslilik Hacıbəyovda tonika funksiyasını yerinə yetirir. Bəzən Hacıbəyov melodiyadakı ton ostinatlığı ilə əlaqədar uzun müddət bir h.-dan istifadə edir. Çox zaman Hacıbəyovun əsərlərində kvarta-kvintalı səsləşmələrin qaynağı aşıq musiqisi (aşıq akkordu) olur. Hacıbəyov milli məqamın intonasiya məzmununa xələl gətirməmək şərtilə ənənəvi major-minor akkordlarından da istifadə edir. Onun yaradıcılığında çoxsistemli məqam prinsipinə dayaqlanan özünəməxsus modulyasiya sistemi formalaşmışdır. Bir məqamdan digərinə modulyasiya edən bəstəkar onların major-minor ilə uyğunluğundan istifadə edir. Bunun nəticəsində milli məqamlar əsasına eyniadlı və ya paralel major və minorun qarşılaşdırılması yaranır. Hacıbəyovun musiqisində tonallıqların şur məqamının spesifik intonasiyası əsasında yaranan sekundalı münasibətlər də orijinaldır. Bütövlükdə Hacıbəyovun modulyasiya sistemi üçün milli məqam əsasına uyğun olan plaqallıq səciyyəvidir. Hacıbəyov musiqisində harmonik çoxsəslilik bütün təzahür formalarında melodiya, onun məqam-intonasiya dayaqlarının münasibətləri tərəfindən "idarə olunur". Hacıbəyovun h. sahəsində novator nailiyyətləri şifahi ənənəli musiqi mədəniyyətimi-



1



2



3



4



5



6

**Ü.Hacıbəyovun xatirə ev-muzeyi** 1. Muzeyin xarici görünüşü. 2. Ü.Hacıbəyovun büstü. Mərmər. Heykəltəraş Ə.Salikov. 3. Ü.Hacıbəyovun iş otağı. 4. Ü.Hacıbəyovun qonaq otağı. 5. Bəstəkarın yazı masası. 6. Bəstəkarın son əsərinin əlyazması.



1



2



3



4



5




6

**Ü.Hacıbəyovun xatirə ev-muzeyi.** 1. Ü.Hacıbəyova hədiyyə edilmiş musiqi alətləri və bəstəkarın anası Şirin xanımın paltarları. 2. Bəstəkarın geyimləri. 3. Bəstəkarın 60 illiyində ona bağışlanmış hədiyyələr. 4. M.Abdullayev. "Ü.Hacıbəyovun portreti". 1943. 5. Üzərində bəstəkarın təsviri olan xalça. Azərb. EA-nın Ü.Hacıbəyovun 60 illiyi münasibətilə yubilyara hədiyyəsi. 6. E.Şahtaxtinskaya. Ü.Hacıbəyovun 100 illiyinə həsr olunmuş plakat. 1985.

zin üslub təmayülləri ilə zənginləşmiş bəstəkarlıq sənətinin inkişafı prosesi ilə üzvi surətdə bağlıdır.

**"HARUN VƏ LEYLA"** – H.-un altıncı, sonuncu muğam operası. 1915 ildə bəstələnmiş, lakin tamaşaya qoyulmamışdır. Librettosunu eyniadlı ərəb dastanının motivləri əsasında H. özü yazmışdır. 5 pərdəli idi. Müəllifin şəxsi qeydlərindən məlum olur ki, "operanın klaviri əsərin tamaşasına qədər məhv edilmişdir". Görünür, operanın musiqisi müəllifi qane etməmiş və o, həmin əsəri "musiqili pyes" adlandırmışdır. Artıq bu vaxt muğam operasının imkanlarının tükəndiyi fikrinə gələn bəstəkar "H. və L."-dan sonra muğam operası yazmamışdır.

**HAFİZ** (Şəmsəddin Məhəmməd Şirazi; təqr. 1325-təqr. 1390) – fars şairi. Müstəsna yaddaşı olan H. Quranı əzbər bilirdi, "Hafiz" (hafizəli, Quranı əzbər bilən) ləqəbi də bununla əlaqədardır. Lirik şair kimi məşhur olan H.-in qəzəlləri bütün Şərqdə, o cümlədən Azərb.-da da geniş yayılmış, hətta onların peşəkar ifaçıları (hafizxanlar) olmuşdur. Ü.Hacıbəyov yaradıcılığında H.-in şeirlərindən bəhrələnmişdir. "Sədini tənqid və Hafizi tərif", "Eynüd-dövlə, yəni, dövlətin gözü" felyetonlarında H.-in qəzəllərindən gətirilən beytlər bu əsərlərin bədii təsir gücünü əhəmiyyətli dərəcədə artırmışdır. "Koroğlu" operasının librettosunda da H.-in bir neçə beytindən istifadə olunmuşdur.

**HAŞIMLI** Sima Heydər qızı (1921-?), – müğənni. 1946 ildən AOBT-da muğam operalarında çıxış etmiş, Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Leyli, "Əsli və Kərəm" operasında Əsli obrazlarını məharətlə yaratmışdır.

**HAŞIMOV** Bakir Musa oğlu (1926-1989) – müğənni, muğam ifaçısı. Yumşaq tembrli səsi olan müğənni F.Əmirov və Niyazi tərəfindən 1958 ildə AOBT-na dəvət olunmuşdu. Burada o, Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Məcnun, İbn Səlam, "Əsli və Kərəm" operasında Kərəm rollarını ifa etmişdir.

**"HESAB MƏSƏLƏLƏRİ"** – H.-un dərsliyi. 1907 ildə Bakıda nəşr olunmuşdur. Hələ Qori seminariyasında oxuyarkən "Mən gələcəkdə nə iş görəcəyəm?" mövzusunda inşasında "...məktəblərimiz üçün ana dilində tədris olunmaqdan ötrü dərs kitabları" tərtib etməyi vəd verən H. vədini doğruldaraq, ibtidai məktəb şagirdləri üçün bu dərsliyi yazmışdır. Dərslik üç hissədən (birrəqəmli ədədlər, yuvarlaq onluqlar, ikirəqəmli ədədlər) ibarətdir. Hər hissədə 352 məsələ pedaqoji tələblərə cavab verən ardıcıllıqla düzülmüşdür. Dərslikdə xalq məişətinə dair çoxlu məsələ vardır. Müəllif bu məsələləri kəndli, əkinçi, bostançı, cütçü, balıqçı, dərzi, misgər və başqa peşə sahiblərinin həyatını əks etdirən misallarla dolğunlaşdırmağa çalışmışdır. O dövrün görkəmli pedaqoqları bu dərsliyi "gözəl üslub ilə tərtib edilmiş" kitab, Azərb. məktəbləri üçün faydalı və lazımlı vəsait saymışdılar.

**HEYDƏR ƏLİYEV FONDU** – milli-mənəvi dəyərlərin qorunması, Azərb. mədəniyyətinin geniş təbliğ olunması və ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin, milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədilə yaradılmış qeyri-hökumət təşkilatı. 2004-cü il mayın 10-dan fəaliyyət göstərməyə başlamışdır. Prezidenti YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevadır.

Fond Azərb. mədəniyyətinin, o cümlədən H. irsinin dünyada geniş təbliği sahəsində bir sıra uğurlu layihələr həyata



keçirir. Bu sırada Azərb. muğamı ilə bağlı proyektlər, silsilə muğam konsertləri və "Qarabağ xanəndələri" musiqi albomunun nəşri xüsusi yer tutur. Fondun təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınmışdır.

Fond dahi bəstəkar H.-a həsr olunmuş genişmiqyaslı layihə həyata keçirməyə başlamışdır. Artıq gerçəkləşdirilən birinci mərhələyə H.-un tərcümeyi-halı, arxiv sənədləri və H. ev-muzeyi haqqında məlumatlar, eləcə də bəstəkarın müxtəlif müğənni və solistlərin ifasında səslənən vokal əsərləri, H. elektron sorğu diski və H. haqqında sənədli və bədii filmlər daxil

edilmişdir. Layihə çərçivəsində H.-un bütün irsinin nəşri, audio və video materialların müasir rəqəmli formatda təqdimatı və müvafiq klavirlərin çapı nəzərdə tutulmuşdur. Layihənin muğamla bağlı hissəsi müxtəlif tədqiqatçıların muğam yaradıcılığına həsr olunmuş əsərlərinin, ayrı-ayrı ifaçıların CD-ləri və bioqrafik kitabların nəşrini əhatə edir.

Fond H.-un 120 illik yubileyi münasibətilə bir sıra mədəni tədbirlər, o cümlədən muğam müsabiqəsi və bəstəkarın 120 illik yubiley gecəsini keçirmişdir.

**“HƏQİQƏT”** – gündəlik ictimai-siyasi və ədəbi qəzet. 1909-10 illərdə Bakıda Orucov qardaşlarının mətbəəsində nəşr edilirdi. 156 sayı çıxmışdır. Naşiri və baş redaktoru Ü.Hacıbəyov idi; 121-ci sayından sonra redaktoru O. Orucov olmuşdur. “H.” Azərb. dövri mətbuatının tarixində izi qalmış qəzetlərdəndir. Hacıbəyovun “Bəyani-məslək” ünvanlı baş məqaləsi ilə nəşrə başlayan “H.”-də onun onlarca dəyərli publisist məqaləsi (“Halımıza dair”, “Qədrşünaslıq”, “Hər işi öz əhlinə tapşırmalı”, “Dil” və s.), çoxlu duzlu-məzəli felyetonu (“Purişkeviç və Hacı Xudu” və s.), 2 açıq məktubu, neçə-neçə səhnəciyi dərc olunmuşdur. Hacıbəyovun 1910 il mayın 30-da rus dilində çıxan “Kaspi”, Baku” qəzetlərində dərc edilmiş məktubunda onun daha “H.” qəzetində işləmədiyi və həmin qəzetlə heç bir əlaqəsi olmadığı bildirilirdi.

**HƏMZƏYEVA** Zəroş Mirzəbağır qızı (1925-2004) – aktrisa. Azərb. xalq art. (1967). Səhnə fəaliyyətinə 1942 ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrında başlamış, həm dram əsərlərində, həm də opera və musiqili komediyalarda çıxış etmişdir. Ü.Hacıbəyovun “Leyli və Məcnun”, “Əsli və Kərəm” operalarında Leyli və Əsli rollarını yaratmışdır.

**“HƏR İŞİ ÖZ ƏHLİNƏ TAPŞIRMALI”** – H.-un məqaləsi. “Həqiqət” qəzetinin 1910 il 5 yanvar tarixli 4-cü sayında “Üzeyir” imzası ilə dərc olunmuşdur. Məqalənin başlıca qayəsi dövlətin iqtisadi siyasətini düzgün qurmaq və mütərəqqi yollarla inkişaf etdirmək üçün hər işin başında işgüzar mütəxəssisin durması ideyasıdır. Müəllif qeyd edirdi ki, vəzifəyə seçilən əhl adamı “tamam və kamal sərbəst” buraxılmalıdır. H. əhl adamlarını özləri bir şey bilməyə-bilməyə başqalarının işlərinə qarışan bədxasiyyət, boşboğaz və müzür şəxslərdən qorumağı da ümdə şərtlərdən sayırdı.



**İ.Bağırov** Həsənqulu bəy rolunda.

**HƏSƏNQULU BƏY** – “O olmasın, bu olsun” musiqili komediyasının personajı H. b. əsərdə “millətpərəst” kimi təqdim olunsa da, əslində komediyadakı boşboğazcasına nitqlər söyləyən digər “intelligentlər” kimi, onun da əsas məqsədi hansı vasitə ilə olursa-olsun, Məşədi İbaddan pul qopartmaqdır. H. b. boğazdan yuxarı danışır, qeyri-səmimidir, onun fikir və mülahizələri hər hansı ictimai yükdən, xalqın, millətin taleyi ilə bağlı qayğı və düşüncələrdən xalidir. Əksinə, məşhur hamam səhnəsində o, özünün də, Hambalın da eyni xəzinədə çimməsinə etirazını bildirir və bununla da, üzərinə götürdüyü “millətpərəst” adının, əslində, adi bir maska olduğunu sübuta yetirir. Müəllif H. b. simasında boş ibarələr, təmtəraqlı cümlələr və əsassız iddialar arxasında gizlənən boş, puç, millət qayğısından uzaq prinsipsiz bir “intelligent” obrazı yaratmışdır.

**HƏSƏNZADƏ** (Sarıcalı) Axund Mehdi Məşədi İsgəndər oğlu (1868-1942) – müəllim. Təbrizdə ali dini təhsil almış, Şuşada mədrəsədə və realni məktəbdə şəriətdən, ərəb və fars dillərindən, klassik ədəbiyyatdan dərs demişdir. Ü.Hacıbəyovun ilk müəllimi olmuşdur. Bəstəkar klassik ədəbiyyatı ona H.-nin sevdirdiyini, fars və ərəb dillərini müəlliminin sayəsində dərindən öyrəndiyini dəfələrlə etiraf etmişdir. Üzeyir bəy müəlliminin ömrünün axırınadək ona hər ay təqaüd verirdi.

**HƏSƏNOV** Vaqif İbrahim oğlu (d. 1949) – rejissor. Əməkdar inc. xad. (1989), Azərb. “Qızıl Dərviş” mükafatı laureatı (1994). 1984-85 il teatr mövsümündə Azərb. Musiqili Komediya Teatrında Ü.Hacıbəyovun “O olmasın, bu olsun”, Ankara Dövlət Opera və Balet Teatrında



**Z.Həmzəyeva**



**Ə.Həsənov**



**İ.Hidayətzadə**



**Hüseyn Cavid**

isə “Arşın mal alan” musiqili komediyalarını tamaşaya qoymuşdur. “O olmasın, bu olsun” musiqili komediyasına 1989 ildə Ankara teatrında, 1990 ildə isə Bursanın (Türkiyə) Əhməd Vefik Paşa ad. Dövlət teatrında da quruluş vermişdir.

**HƏSƏNOV** Əşrəf Həsən oğlu (1909-1983) – dirijor, pedaqoq. Əməkdar inc. xad. (1940). Azərb. xalq. art. (1959), ADK-nı (1932) və Moskva konservatoriyasını (1938) bitirmişdir. 1932-79 illərdə AOBT-nın dirijoru olmuş, repertuarında Ü.Hacıbəyovun “Leyli və Məcnun” və “Koroğlu” operaları başlıca yer tutmuşdur. 1938 ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə “Koroğlu” operasına dirijorluq etmişdir.

**HƏSƏNOVA** Gülxar İbrahim qızı (1918-2005) – müğənni (soprano). Azərb. xalq art. (1982). 1942 ildə Üzeyir bəyin



**G.Həsənova** Cahan xala rolunda.

məsləhəti və yaxından köməkliyi ilə AOBT-na qəbul olunmuş, onun səhnəsində Leyli, Leylinin anası (“Leyli və Məcnun”), Əsli (“Əsli və Kərəm”), Xanəndə qız (“Koroğlu”), Cahan xala (“Arşın mal alan”) rollarını ifa etmişdir.



**“Koroğlu”** operasından səhnə. Rej. **İ. Hidayətzadə.**

**HƏTƏMOVA** Simuzər Rza qızı (1921-2006) – müğənni, muğam ifaçısı. Ağdam Dram Teatrında işləmiş, “Arşın mal alan” musiqili komediyasında Telli, “Əsli və Kərəm” operasında Əsli rollarında çıxış etmişdir. 1955 ildən AOBT-nda çalışmış, burada Leyli, Leylinin anası (“Leyli və Məcnun”) rollarında çıxış etmişdir.

**“HƏYAT”** – gündəlik ictimai-siyasi, iqtisadi və ədəbi qəzet. 1905-06 illərdə Bakıda “Kaspi” mətbəəsində nəşr olunmuşdur. Milyonçu, mesenat H.Z.Tağıyevin vəsaiti ilə buraxılırdı. Redaktorları Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə (1906 il, 102-ci sayından sonra təkcə Ə.Hüseynzadə) olmuşlar. H.Zərdabi, N.Nərimanov, N.Vəzirov, M.Hadi “H.”-da fəal iştirak edirdilər. Ü.Hacıbəyov 1905 ilin sentyabrından dekabrınadək “H.”-da tərcüməçi vəzifəsində çalışmışdır.

**HİDAYƏTZADƏ** İsmayıl Hüseyn oğlu (1901-1951) – aktyor, rejissor, teatr xadimi. Azərb xalq art. (1938). Səhnə fəaliyyətinə 1917 ildə peşəkar milli teatr kollektivlərinin tamaşalarında başlamış, 1920 ildən Birləşmiş Dövlət Teatrının dram truppasında (indiki ADT) aktyorluq etmişdir. H. həm də görkəmli rej. olmuş, Hüseyn Cavid, C.Cabbarlı, S.Rüstəm və b. pyeslərini tamaşaya qoymuşdur. 1937 ildən ömrünün sonunadək AOBT-nın baş rej. işləmişdir. “Koroğlu” operasını ilk dəfə tamaşaya qoymuşdur; onun tamaşaya verdiyi quruluş Azərb. opera sənəti tarixində milli rej.-luq mədəniyyətinin uğuru olmuş, 1938 ildə Moskvada keçirilmiş Azərb. incəsənəti ongünlüyündə yüksək qiymətləndirilmişdir. “Arşın mal alan” musiqili komediyasını da tamaşaya qoymuşdur.

**“HİMN”** – H.-un əsəri. 1930 ildə Azərb.-da Sovet hakimiyyəti qurulmasının 10 illiyi münasibətilə bəstələnmişdir. Əsərin ədəbi mətni də bəstəkarındır. Ork. və xor üçün yazılmış bu əsər ilk dəfə 1930 il aprelin 28-də müəllifin idarəsi ilə səslənmişdir. 3 hissədən ibarət əsər kantata janrına yaxın olduğundan onu bəzən kantata da adlandırırlar.

**HÜSEYN CAVİD** (Hüseyn Abdulla oğlu Rasizadənin təxəllüsü; 1882-1941) – şair, dramaturq. Azərb. ədəbiyyatında romantizmin banilərindən biri və ən görkəmli nümayəndəsidir. Lirik şeirlərin, lirik-epik və epik poemaların, Azərb. ədəbiyyatında ilk mənzum dram və faciələrin müəllifidir. Onun “Şeyx Sənan” (1914),

"İblis" (1918), "Peyğəmbər" (1922), "Topal Teymur" (1925), "Səyavuş" (1933), "Xəyyam" (1935) və s. dram əsərləri Azərb. dramaturgiyasında yeni bir mərhələ olmaqla yanaşı, milli teatr sənətinin inkişafına da güclü təsir göstərmişdir. Üzeyir bəylə H.C.-i əsrin əvvəlindən dostluq telləri bağlayırdı. Şairin həyat yoldaşı Mişkinaz xanımın xatirələrində onların gənclikdən tanış olduqları göstərilir. Hacıbəyov "Yeni iqbal", "Həqiqət" və "Azərbaycan" qəzetlərinin redaktoru olduğu vaxtlarda H.C.-lə yaxından əməkdaşlıq etmişdir; "Həqiqət" qəzetində şairin Ə.Hüseynzadəyə həsr olunmuş "Çiçək sevgisi" şeiri ("Həqiqət", 1909, 27 yanvar), "Yeni iqbal" qəzetində isə "Şeyx Sənan" faciəsindən parçalar (1915, 11, 24 may) dərc olunmuşdur. Hər iki sənətkar təkcə rəsmi yığıncaqlarda, teatr və konsert tamaşalarında deyil, ailəvi məclislərdə də tez-tez görüşərdilər. Üç bacanaq - Ü.Hacıbəyov, M.Maqomayev və P.Qasımov vaxtaşırı H. C.-lə qapıbir qonşu və dost olan sonuncunun mənzilində toplaşanda həmin məclislərə həmişə ədib də dəvət edilirdi. 1936 il sentyabrın 27-də belə məclislərin birində (P.Qasımovun ailəsi 1929 ildə yeni mənzilə köçmüşdü) bəstəkar H.C.-ə müraciətlə "Koroğlu"nu bitirdikdən sonra onun "Şeyx Sənan"ı əsasında opera yazmaq istədiyini bildirmişdir. M.C. Üzeyir bəyin bu mövzuda vaxtilə opera bəstələdiyini xatırlatdıqda o, həmin operanın librettosunun uğursuz olduğunu, dramaturqun pyesini isə çox bəyəndiyini demişdir. H.C. bəstəkarın təklifini razılıqla qarşılasa da, onun çox keçmədən həbs olunması bu niyyətin həyata keçirilməsinə imkan vermədi. Söhbət əsasında H.C. də "Koroğlu" kinossenarisi yazmaq niyyətində olduğunu bildirmişdir (ssenarinin planı H.C.-in həbsindən 3 gün əvvəl kinostudiyada müzakirə olunmuşdu). Cavidlər ailəsi Hacıbəyovun dəvəti ilə "Koroğlu" operasının ilk tamaşasında iştirak etmişdir. Tamaşadan sonra H.C. "bu gün əsl xalq bayramı, sənət bayramıdır", - deyə bəstəkarı təbrik etmişdir. "Yeni yol" qəzetində operanın ilk tamaşası ilə bağlı H.C. -in də qısa rəyi dərc olunmuşdur. Bu onun sağlığında mətbuatda dərc olunmuş son yazısı idi.



**Ə.Hüseynzadə** Soltan bəy rolunda.

H.C. həbs olunduqdan sonra Hacıbəyov müharibə ərəfəsində və onun ilk illərində Cavidlər ailəsinə həm maddi, bəm də mənəvi himayədarlıq göstərirdi.

**HÜSEYN NATİQ** (Hüseyn Mirabdulla oğlu Əliyevin təxəllüsü; 1912-1941) – şair. İlk şeir kitabı "Buruqlar" 1931 ildə çap olunmuşdur. Ü.Hacıbəyov onun sözlərinə "Qaragöz" (1930), "Süvari mahnısı" (1933) mahnılarını, M.F.Axundovun anadan olmasının 125 illiyinə həsr olunmuş "Ölməz sənətkar" xor əsərini yazmışdır. 1939 ildə orduya çağırılmış, 1941 ildə cəbhədə həlak olmuşdur.

**HÜSEYNZADƏ** Ədilə Hacağa qızı (1916-2005) – bəstəkar. Azərb. əməkdar inc. xad. (1982). Azərb-ın ilk qadın bəstəkarlarındandır. Ü.Hacıbəyovun tələbələrindən olmuş, 1942-48 illərdə ADK-nın xalq musiqisi şöbəsində Üzeyir bəydən dərs almışdır. ADK-nı bitirmişdir (1953). Yaradıcılığında mahnı və romans janrı əsas yer tutur. H. həmçinin simf. poema, kantata, simli kvartet, violonçel üçün sonata və s. əsərlərin müəllifidir. H.-un təklifi ilə "Arşın mal alan" filmində (1945) Asyanın vokal partiyasını ifa etmişdir.



**Ə.Hüseynzadə**

**HÜSEYNZADƏ** Ələkbər Hüseyn oğlu (1887-1967) – aktyor, rejissor, Azərb. əməkdar art. (1957). Səhnə fəaliyyətinə 1908 ildən başlamış, Ü.Hacıbəyovun bir çox əsərlərində yadda qalan rollar yaratmış, 1915-16 illərdə bir qrup Azərb. artisti ilə birlikdə Aşqabadda "Ər və arvad", "Arşın mal alan" tamaşalarında iştirak etmişdir. 1916-30 illərdə, fasilələrlə, Aşqabad teatrında (sonralar Aşqabad Dövlət Azərb. Musiqili Teatrı) işləmiş, burada 'Əsli və Kərəm", "Leyli və Məcnun", "Arşın mal alan" əsərlərini tamaşaya qoymuşdur. Yaradıcılığında "Arşın mal alan" musiqili komediya-



H.Hüseynov



Əli bəy Hüseynzadə



M.Hüseynov

sındakı Soltan bəy obrazı xüsusi yer tutur; o, bu rolu musiqili komediyanın ilk tamaşasında (25 oktyabr 1913) və sonralar 600 dəfədən çox oynamış, Ü.Hacıbəyov onun bu ifasını yüksək qiymətləndirmişdir. H. "Arşın mal alan" (1945) filmində həmin rolun uğurlu ifasına görə Stalin mükafatına layiq görülmüşdür (1946).

**HÜSEYNZADƏ** Əli bəy Hüseyn oğlu (1864-1940) – yazıçı, jurnalist, müəllim, həkim, ictimai xadim, tərcüməçi. Tiflis klassik gimnaziyasını (1885), Peterburq untinin fizika-riyaziyyat fakültəsinin təbiiyyat şöbəsini (1889), İstanbul ali hərbi tibb məktəbini (1895) bitirmişdir. 1904 ildə Bakıya qayıdıb, "Həyat" qəzetinin redaktorlarından biri, "Kaspi" qəzetinin, "Füyuzat" jurnalının redaktoru olmuşdur. Ü.Hacıbəyov jurnalistlik fəaliyyətinə məhz "Həyat" qəzetində başlamışdı. 1907 ildə Bakıda müəllimlərin II qurultayında H. sədr, Ü.Hacıbəyov isə katib olmuşdur. H. bəstəkarın "Leyli və Məcnun" operasının baş məşqində iştirak edərək, əsərin mətni barədə qeydlərini söyləmiş, bir sıra məsləhətlər vermişdir. "Səadət" xeyriyyə cəmiyyətinin məktəbində müdir işləyərkən (1908-1910), H. həmin məktəbdə dərs deyən Üzeyir bəylə yaxından əməkdaşlıq etmiş, onun musiqi dərslərində şagirdlərə öyrədilən bir nəğməsinin mətnini yazmışdır. Ü.Hacıbəyovun "Dərin quyular" adlı məqaləsinə iki dəfə müraciət edib, öz münasibətini bildirmişdi ("Füyuzat", 1907). Ü.Hacıbəyov da 1907 ildə "Şair Naim"in (H.-nin təxəllüsüdür) bir şeirini yüksək qiymətləndirmiş, "Telefon" adlı əsərində isə "Əlibəy poeziya idi", - deyə H.-nin yüksək zövq sahibi olduğunu bildirmişdir.

H. 1910 ildə Türkiyəyə köçərək ömrünün sonunadək orada yaşamışdır.

**HÜSEYNOV** Əlikram Həsən oğlu (1926-2006) – tarzən. Azərb. əməkdar art. 1942 ildən Azərb. Radio Verilişləri Komitəsinin xalq çalğı alətləri ork.-ndə çalmış, 1943 ildən həm də ADT-nda tarzən-solist kimi fəaliyyət göstərmişdir. 1957 ildən AOBT-nda ork.-in solisti olmuşdur. 1947 ildə Ü.Hacıbəyov H.-un çalğısına qulaq asmış və onun təklifi ilə H. Praqada keçirilən I Ümumdünya gənclər festivalına göndərilərək orada laureat adına layiq görülmüşdür. Bəstəkarın "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında müşayiətçi-solist kimi, eləcə də "Koroğlu" operasında simf. ork.-in tərkibində yüksək ifaçılıq məharəti ilə çıxış etmişdir.

**HÜSEYNOV** Hacıbala Ağahüseyn oğlu (1912-1967) – müğənni, Azərb. əməkdar art. (1940). Ü.Hacıbəyovun "Koroğlu" operasında Həmzə bəy rolunun ilk ifaçısı olmuşdur. Sonralar bəstəkarın "Leyli və Məcnun" operasında Leylinin atası rolunu da məharətlə oynamışdır.

**HÜSEYNOV** Heydər Nəcəf oğlu (1908-1950) – fəlsəfəşünas, ictimai xadim. Fəlsəfə e.d. (1944), prof. (1944), Azərb. EA akad. (1945) və vitse-prezidenti (1945-50). Üzeyir bəy H.-la həm yaxın qonşu kimi, sonralar isə həm də birgə çalışdıqları akademiyada xidməti məqsədlərlə - bəstəkarın rəhbərlik etdiyi İncəsənət İnstitutunun elmi yaradıcılıq və təşkilat məsələlərinin həlli ilə əlaqədar tez-tez görüşərdilər. Üzeyir bəyin yaradıcılığını yüksək qiymətləndirən H. "Böyük sənətkar" adlı məqaləsində onun publisistikasını, ictimai fəaliyyətini, resp.-da musiqi təhsilinin yaranmasında və inkişafındakı xidmətlərini xüsusi qeyd edirdi.

**HÜSEYNOV** Mikayıl Ələsgər oğlu (1905-1993) – memar, memarlıq tarixçisi. Memarlıq doktoru (1950), Azərb. EA akad. (1945), SSRİ xalq memarı (1970), Azərb. əməkdar inc. xad. (1940), SSRİ (1941) və Azərb. (1967) Dövlət mükafatları laureatı. Müasir Azərb. memarlığının banilərindəndir. Azərb. EA təsis edildikdən sonra (1945) onun ilk həqiqi üzvlərindən olan Ü.Hacıbəyovla H. mehriban dostluq və yaradıcılıq əlaqələri saxlamışlar. Yeni təşkil olunmuş Azərb. EA İncəsənət İN-tunda Üzeyir bəy direktor, H. isə direktor müavini işləmiş və in-tun inkişafı üçün çalışmışlar; Ü.Hacıbəyovun ölümündən sonra H. ömrünün sonunadək in-tun (1948 ildən Memarlıq və İncəsənət İn-tu adlanır) direktoru olmuşdur.

**HÜSEYNOVA** Sofiya Həsən qızı (1926-2000) – aktrisa. Azərb. xalq art. (1982). 1942 ildən Naxçıvan Dövlət Musiqili Dram Teatrında işləyir. Müxtəlif janrlarda maraqlı səhnə obrazları yaratmışdır. H. "Arşın mal alan" musiqili komediyasında Gülçöhrənin rolunu uğurla oynamışdır.

**HÜSEYNOV** Şirzad Abbasəli oğlu (1906-1971) – müğənni. Azərb. əməkdar art. (1943). AOBT-nda işləmişdir. Ü.Hacıbəyovun operalarında Zeyd, İbn Səlam ("Leyli və Məcnun"), Koroğlu Eyvaz ("Koroğlu"), Kərəm ("Əsli və Kərəm") və s. yaddaqalan obrazlar yaratmışdır. 1941-45 illərdə cəbhə bölgələrində, Uzaq Şərqdə və İranda Ü.Hacıbəyovun əsərlərindən ibarət repertuarla konsertlər vermişdir.

# X

**XALQ MAHNILARININ İŞLƏNMƏLƏRİ** – mahnının hormonizə, aranjeman və ya transkripsiya vasitəsilə dəyişdirilməsi. “İşlənmə” dedikdə xalq melodiyalarına instrumental müşayiətin əlavə edilməsi, onların xor üçün işlənməsi və s. nəzərdə tutulur. Azərb.-da xalq mahnılarının işlənməsi ilə ilk dəfə H. məşğul olmuşdur. O, 35-ə yaxın xalq mahnısını xor və ya fp. ilə oxumaq üçün işləmişdir. “Ay bəri bax”, “Aman nənə”, “Güloğlan” və s. xalq mahnılarının xor üçün, “Ninni”, “Beşik mahnısı” uşaq mahnılarının, “Tutu nənəm”, “İş başına”, “Zəhmətin işığı”, “Çıxdı günəş”, “Biçinçiyəm”, “Çək, şumla yeri” kimi əmək mahnılarının, “Küçələrə su səpmişəm”, “Üç telli durna”, “Əlində sazın qurbanı”, “Qalalıyam” və s. lirik mahnıların, “Qarabağ şikəstəsi”nin fp. ilə səs üçün işlənmələri bu qəbildəndir.

**XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİ,** bax Azərbaycan xalq çalğı alətləri orkestri.

**XALIQOV** Qəzənfər Ələkbər oğlu (1898-1981) – rəssam. Azərb. xalq rəs. (1973). Azərb. Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir (1928). Boyakarlıq, qrafika və teatr rəssamlığı sahəsində fəaliyyət göstərmişdir. Bir müddət AOBT-nda işləmiş, H.-un “Koroğlu” operasının geyim eskizlərini hazırlamışdır.

**XANLAROVA** Zeynəb Yəhya qızı (d. 1936) – müğənni (lirik soprano). Azərb. xalq art. (1975), SSRİ xalq art. (1980). 1961 ildə A. Zeynallı ad. Bakı Musiqi Məktəbinin muğamat şöbəsini (S. Şuşinskinin sinfini) bitirmiş, həmin ildən AOBT-nın solisti olmuşdur. X. burada H.-un “Leyli və Məcnun”, “Əsli və Kərəm” operalarında Leyli və Əsli obrazlarını həm dramatik ifaçılıq, həm də musiqi səciyyəsi baxımından son dərəcə dolğun və təsirli yaratmışdır. Muğam, təsnif, xalq mahnıları, Azərb. bəstəkarlarının və dünya xalqlarının mahnılarının ifaçısı kimi geniş şöhrət qazanmışdır.



**Z.Xanlarova** “Leyli və Məcnun” operasında Leyli rolunda.

**XANMƏMMƏDOV** Hacı Dadaş oğlu (1918-2005) – bəstəkar. Əməkdar inc. xad. (1967), Azərb. xalq art. (1988), prof. (1988). 1932 ildə musiqi məktəbinə tar ixtisası üzrə qəbul olunmuşdur (imtahan komissiyasının sədri H. idi). H. onun yataqxanaya düzəlməsinə, maddi yardım almasına da kömək etmiş, onu, bədii rəhbəri və dirijoru olduğu xalq çalğı alətləri ork.-nə işə götürmüşdü. X., bəstəkarın 1942 ildə ADK-nda açdığı Azərb. xalq musiqisinin əsasları şöbəsinin ilk tələbələrindən olmuş, H.-dan dərs



**Z.Xanlarova**



**H.Xanməmmədov**

almışdır. Lakin müharibə ilə əlaqədar təhsilini dayandıran X. yalnız 1952 ildə Q.Qarayevin sinfini bitirmişdir. Müxtəlif janrlı əsərlərin - 2 operetta, tar və simf. ork. üçün 5 konsert, kamança üçün konsert, arfa ilə simf. ork. üçün konsert, süitalar, mahnılar və s.-nin müəllifidir.

**XƏLİL İBRAHİM** (Xəlil İbrahim oğlu İbrahimov; 1892-1938) – jurnalist, ədəbiyyatşünas, tənqidçi. 1913 ildən Bakıda jurnalistika ilə məşğul olmuş, "Səda", "Açıq söz", "Azərbaycan" qəzetlərində müxtəlif mövzu və janrlarda məqalələr dərc etdirmişdir. 1919 ildə H. məzuniyyətdə olduğu zaman X. İ. iyun ayının 4-dən sentyabrın 1-dək "Azərbaycan" qəzetinin 49 nömrəsinə onun əvəzinə redaktorluq etmişdir. 1920-37 illərdə "Kəndli" qəzetində çalışmış, tənqidçiliklə məşğul olmuşdur. Fəal müsavatçı kimi həbs olunaraq güllələnmişdir.



R.Xəlilov

**XƏLİLOV** Ramazan Həmzət oğlu (1901-1999) – jurnalist, tərcüməçi. Prof. (1995). H.-un baldızı oğlu. 1908-1914 illərdə Tiflisdə, 1914-1917 illərdə isə Moskvada gimnaziyada oxumuş, 1918 ildə "Ləzgi alayı"nın tərkibində Zaqatala, Qəbələ, Şəki və Gəncənin erməni daşnaklarından təmizlənməsində iştirak etmişdir. 1923 ildən jurnalistika ilə məşğul olmuş, 1933 ildə Moskva Redaktə-Nəşriyyat İn-tunu bitirmişdir. 1933-1938 illərdə Leninqradda yaşamış, jurnalist fəaliyyətini davam etdirmişdir. H.-un dəvəti ilə Bakıya gələn X. əvvəlcə ADK-da Üzeyir bəyin ədəbi katibi, 1941-53 illərdə isə rektorun birinci müavini vəzifəsində işləmişdir.

H.-un həyat və yaradıcılığının gözəl bilicisi və alovlu təbliğatçısı olan X. 1975 ildən bəstəkarın xatirə ev-muzeyinə rəhbərlik edirdi.

1995 ildə Azərb. mədəniyyətinin inkişafında, xüsusən H. irsinin qorunmasında xidmətlərinə görə X. "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

**XOR** – müğənnilər kollektivi üçün nəzərdə tutulmuş musiqi əsəri. H.-un yaradıcılığında böyük yer tutur. Bəstəkar geniş dinləyici kütlələrinə təsir etmək, insanları birləşdirmək, onların kollektiv fikir və hisslərini əks etdirmək iqtidarında malik bu janrın xüsusi keyfiyyətlərini dərindən hiss edirdi. Artıq ilk operası "Leyli və Məcnun"da H. şifahi ənənəli Azərb. musiqisində geniş təmsil olunmayan X.-dan istifadə edir. Bu operada X. müxtəlif dramaturji funksiyalar daşıyır. Onlardan biri əsərin lirik-epik xarakterinin dərinləşdirilməsidir. Operada ülvi mənəvi-etik idealı vəsf edən, uzaq keçmişin ruhunu təcəssüm etdirən proloqdan "Şəbi-Hicran" və sonuncu şəkildən final xoru məhz bu xassəyə malikdir. Digər bir funksiya - X.-un bilavasitə musiqili səhnə hərəkətinin təkanvericisi kimi çıxış etməsidir. Məs., I pərdədə Leyli və Məcnunun dostlarının X.-u (burada "Evləri var xana-xana" xalq mahnısının melodiyasından istifadə olunub) münaqişənin məğzidir. II pərdədə Leylinin rəfiqələrinin X.-u (burada "Simayi-Şəms" zərbi muğamının mövzusundan istifadə olunub) hadisələrin fəal inkişafına təkan verir. Məcnunun elçilərinin xoru, İbn Səlamın elçilərinin xoru və b. da bu qəbildəndir.

H. hadisələrin psixoloji atmosferinin açılmasında X.-dan mühüm vasitə kimi istifadə edir. "Məcnun səhrada" epizodunda səhnə arxasında səslənən qızların "Bu gələn yara bənzər" X.-unu misal göstərmək olar. Burada H. eyniadlı xalq mahnısının həm melodiyasından, həm də mətnindən istifadə etmişdir, İbn Səlamın toyunda qonaqların X.-u məişət lövhəsini yaradır.

H. digər erkən operalarında da X.-u bütün funksiyalarda istifadə etmişdir. Onun ən gözəl X.-larından biri "Əsli və Kərəm" operasının axırıncı pərdəsində qızların "Axşam oldu" mahnısıdır. Burada qəmgin elegiya musiqisi operanın faciəvi sonluğunu xəbər verir.

H.-un musiqili komediyalarında, xüsusilə də "Ər və arvad" və "O olmasın, bu olsun" komediyalarında X.-a böyük yer verilir. Bu əsərlərdə də onun dramaturji funksiyaları rəngarəngdir. Lakin onların əsas funksiyası - müəllifin mövqeyini daha geniş şəkildə, ictimai rəyi açıqlayan şərhçi kimi çıxış etməsidir. Təsadüfi deyil ki, hər iki musiqili komediya geniş X. səhnələri ilə tamamlanır. "Ər və arvad" musiqili komediyasının demokratik istiqamətini xüsusi vurğulayan bəstəkar, X.-un köməyi ilə əsərin etik ideyasının daşıyıcısı olan nökərlərin kollektiv portretini yaradır. "O olmasın, bu olsun" musiqili komediyasında isə əksinə, X. mənfi qəhrəmanların kollektiv portretini əks etdirir,bu

zaman X. musiqisinə qrotesk elementləri daxil edilir (I pərdədə Rüstəm bəyin qonaqlığı səhnəsindəki X., qoçuların X.-u), "Arşın mal alan"da məişət səhnəsini yaradan yalnız bir X. (II pərdədə qızların mahnısı) var.

H. "Koroğlu" operasında X.-u xüsusilə geniş inkişaf etdirir. Burada X.-un əsas funksiyası - tarixin əsas hərəkətverici qüvvəsi olan xalq kütlələrinin kollektiv obrazının təcəssümüdür. Bəstəkar X.-un köməyi ilə fəal inkişafda olan obrazın müxtəlif tərəflərini əks etdirir. I pərdədə "Bu təbiət" X.-u əzilən, istismar olunan, eyni zamanda, öz etiraz səsini ucaldan xalqın obrazını yaradır. Bu pərdədə xalq kütlələrinin hiddət və qəzəbini əks etdirən "Ah intiqam" X.-u dramatik xarakter daşıyır. Xalqın qəhrəmanlıq ruhu I pərdənin final X.-unda ("Dağdan, daşdan") verilir. Öz qüvvəsi və yenilməzliyini anlayan, qətiyyətlə mübarizə edən azadlıqsevər xalqın ümumiləşdirilmiş obrazı III pərdədə məşhur "Çənlibel" X.-unda təccəsüm olunur. Operada X. səhnələrinin aparıcı rolu onlarda xalq kütlələrini xarakterizə edən bütün leytmotivlərin səslənməsi ilə xüsusi qeyd olunur.

H. yaradıcılığında X. janrı Firdovsinin 1000 illiyinə, Samur-Dəvəçi kanalının açılışına, Nizaminin 800 illiyinə həsr olunmuş kantatalarda da tətbiq olunmuşdur. 1936 ildə H. Azərb. xalq mahnılarının ("Ay bəri bax", "Nə gözəldir", "Aman nənə" və b.) X. və xalq çalğı alətləri ansamblı, yaxud fp. üçün işləmələrini yazır.

Bəstəkar X. janrının ifadəli imkanlarını çox gözəl hiss edirdi. Onun X. əsərlərinin fakturası homofon-harmonik və ya polifonik olsa da, lakin faktura ağırlığına rast gəlinmir. O, hər bir X. partiyasının tembr ifadəliliyini, vokal səslərin parlaq təbiətini xüsusi vurğulayır. Bəstəkar X. fakturasını xalq çalğı alətləri ansamblının ifası üçün səciyyəvi olan üsullar əsasında qurur, xalq zərb alətlərinin səslənməsini təqlid edən ostinat metro-ritmik fakturadan da tez-tez istifadə edir. O, Azərb.-da ilk dəfə olaraq X. janrında klassik polifonik forma - fuqato yaratmışdır ("Çənlibel" xoru).

H.-un yüksək bədii səviyyəsi, bəstəkar yaradıcılığı və şifahi ənənəli milli musiqi əsaslarının qarşılıqlı əlaqəsinə dayaqlanan X. əsərləri Azərb.-da X. yaradıcılığı və X. mədəniyyətinin geniş, hərtərəfli inkişafına təkan verərək, Azərb. bəstəkarlarının yaradıcılığında iri həcmli vokal-simf. formaların (kantata, oratoriya) yaranmasına zəmin yaratdı.

**XRENNİKOV** Tixon Nikolayeviç (d.1913) – rus bəstəkarı, ictimai xadim. SSRİ xalq art. (1963). Sosialist Əməyi Qəhrəmanı (1979), Lenin (1974) və SSRİ Dövlət mükafatları (1942, 1946, 1952, 1967) laureatı. "Tufanda", "Ana", "Doroteya" və s. operaların, "Məhəbbətə məhəbbətlə" və "Qusar balladası" baletlərinin, bir sıra operetta və simf. əsərlərin müəllifidir. H. 1939 ildə X.-un "Tufanda" operasının ilk tamaşasında iştirak etmiş, bu opera bir çox görkəmli musiqişünaslar tərəfindən kəskin tənqid olunduğu zaman onu qətiyyətlə müdafiə etmiş, musiqidə "yeni söz" kimi qiymətləndirmişdir. X. yaradıcılığına və şəxsiyyətinə dərin hörmətlə yanaşdığı H.-u "Azərbaycan musiqisinin ağsaqqalı" adlandırmış, onun haqqında xatirə yazmış, eləcə də bəstəkarın anadan olmasının 100 illiyi ilə əlaqədar keçirilən təntənəli gecələrdə çıxış etmişdir.



**T.N.Xrennikov**

# İ

**İBRAHİM AZƏRİ** (Atakişiyev İbrahim Ağakərim oğlu; 1897-1969) – teatr və kino aktyoru. Səhnəyə ilk dəfə 1914 ildə H.Z.Tağıyev teatrında ("Müsəlman dram artistləri"nin heyətində) çıxmışdır. H.-un "Leyli və Məcnun" operasında İbn Səlamın partiyasını, "O olmasın, bu olsun" musiqili komediyasında Qoçu Əsgər rolunu ifa etmişdir.



M.İbrahimov

**İBRAHİMOVA** Zivər Məmməd İbrahim qızı (1923-1986) – arfaçalan. H.-un böyük bacısı Sayad xanımın nəvəsidir. ADK-nı bitirmiş, uzun illər musiqi məktəbində dərs demişdir. H.-un evində tərbiyə almış, 1943 ildən ömrünün sonunadək onun evində yaşamış, bəstəkarın ev əşyalarını mühafizə etmiş, ev-muzeyinin yaradılmasında fəal iştirakı olmuşdur.

**İBRAHİMOV** Hüseyn Məmmədəli oğlu (d. 1919) – yazıçı. Bir sıra roman, povest, hekayə və pyeslərin müəllifidir. H.-a həsr olunmuş "Ölməz mahnılar" (1963) kino-povestində dahi bəstəkarın uşaqlıq və Qori seminariyasındakı təhsil illərindən, "Leyli və Məcnun" operasından tutmuş "Koroğlu"yadək keçdiyi böyük həyat və sənət yolundan, onun böyük müasirləri, həmnəsli olan qələm, sənət dostları, həmkarları ilə yaradıcılıq və şəxsi ünsiyyətindən bəhs edilir.



N.İbrahimov

**İBRAHİMOV** Mirzə Əjdər oğlu (1911-1993) – yazıçı, dramaturq, ictimai xadim. Azərb. xalq yazıçısı (1961), Azərb. EA akad. (1945), SSRİ (1950) və Azərb. (1965) Dövlət mükafatları, Beynəlxalq Nehru mükafatı (1979) laureatı. Xalq həyatının mühüm dövrlərini əks etdirən dram əsərlərinin ("Həyat", "Məhəbbət", "Közərən ocaqlar" pyesləri, "Kəndçi qızı", "Yaxşı adam" komediyaları), romanların ("Gələcək gün", "Böyük dayaq", "Pərvanə"), povestlərin, hekayələrin, monoqrafya, elmi, tənqidi və publisistik məqalələrin müəllifidir. 1937-1948 illərdə H.-la yaxından əlaqə saxlamış, dostluq etmişdir. H.-un 4 cildlik əsərlərinin redaksiya heyətinin üzvü, ayrılıqda isə hər cildin redaktoru olmuş, 1-3-cü cildlərə müqəddimə ("Ü.Hacıbəyovun dram yaradıcılığı", "Ü.Hacıbəyov sənət və sənətkarlıq haqqında", "Üzeyir Hacıbəyovun publisistikası haqqında") yazmışdır. H.-a həsr olunmuş əsərlər arasında İ.-un bəstəkarın "musiqi və ədəbi yaradıcılığı haqqında onun pərəstişkarlarından olan bir yazıçının təəssüratı"nı (M.İbrahimov) əks etdirən "Tufanlara kömək edən bir qələm" adlı kitabı (1987) xüsusilə dəyərlidir.

**İBRAHİMOV** Nazim Sadıq oğlu (d. 1935) – naşir, ictimai xadim. Bakı şəhərinin Yasamal (keçmiş Oktyabr) rayonunun rəhbəri (1971-1980), Azərb. Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti Komitəsinin (Mətbuat və İnformasiya Nazirliyi) sədri (1980-88), "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direkoru (1991-92) "Azərbaycan" nəşriyyatının baş direktoru (1993-2005), 2006-cı ildən Azərb. Yazıçılar birliyinin katibidir, elmi tədqiqatla məşğul olmuşdur (e.n.-dir). İ. Azərb. Ensiklopediyası Baş redaksiya heyətinin və H.-un 100 və 110 illik yubileylərinin keçirilməsi üzrə dövlət komissiyalarının üzvü idi. Bir sıra kitabların müəllifi və tərtibçisidir. "Natəvan" operasının librettosunun müəllifi, Üzeyir Hacıbəyov ensiklopediyasının hazırlanmasının təşəbbüsçüsüdür. Azərbaycan dilində (kiril qrafikası ilə) (1996), rus dilində (2003) çapa hazırlamış və onun elmi-redaksiya şurasının sədridir. "Humay" mükafatına layiq görülmüşdür (2000).

**“İÇİMİZDƏKİ DENİKİNLƏR”** – H.-un məqaləsi. “Azərbaycan” qəzetinin 10 iyun 1919 il tarixli 200-cü sayında “Hacıbəyli Üzeyir” imzası ilə dərc olunmuşdur. Məqalə H.-un Azərbaycan Demokratik Cümhuriyyətini xaricdən hədələyən, “Vahid və bölünməz Rusiya” sərhədlərini bərpa etmək xəyalına düşmüş general Denikinin 150 minlik ordusundan daha qorxulu saydığı içimizdə gizlənmiş “daxili denikinlər” əleyhinə yönəldilmişdi. Müəllif yazırdı ki, “xaricdəki Denikin ilə aramızda bir müharibə başlanarsa, heç şübhə edilməsin ki, daxilimizdə yemləyib bəslədiyimiz denikinlər öz həsrətkeşlərinin yolunu asanlaşdırmaqdan ötrü içimizdə cürbəcür xəyanət və cinayətlər törədib, bizə arxadan xəncər yaraları vurmaq və zərbələr endirməkdən çəkinməyəcəklər”. Hadisələrin sonrakı gedişi daxili denikinlərin məkrlərindən qorunmağı vacib sayan H.-un haqlı olduğunu göstərdi.

**“İKİNCİ İL”** – H.-un məqaləsi. “Tərəqqi” qəzetinin 19 avqust 1908 il tarixli 32-ci sayında “Üzeyir” imzası ilə dərc olunmuşdur. Bu məqalə M. Mahmudbəyov, S.S.Axundov, F.Ağazadə, A.Şaiq və b.-nın yazdığı “İkinci il” dərsliyi haqqında ilk rəy idi. H. dərsliyi məzmununa, pedaqoji prinsiplərə cavab verdiyinə, şəkilli olduğuna, dilinin sadəliyinə və ahəng qanununa uyğunluğuna görə bəyənib təriflәyirdi.

**“İQBAL”** – gündəlik ictimai-siyasi və ədəbi qəzet. “Müsavat” partiyası ideyalarının ilk təbliğatçısı. 1912-1915 illərdə Bakıda çıxmışdır. Müxtəlif illərdə “İ.”-a S.Eynullayev (İbrahimov), Seyid Hüseyn redaktorluq etmişlər. 1914 ildən baş redaktoru M.Ə.Rəsulzadə olmuşdur. H.-un “İ”-da ilk yazısı - “Ramazan ayında ibadət” başlıqlı felyetonu qəzetin 4 sentyabr 1912 il tarixli 152-ci sayında dərc olunmuşdur. Musiqi təhsilini təkmilləşdirməklə məşğul olan H. “İ.” qəzetilə də əməkdaşlığa imkan tapa bilmişdir; burada müəllifin Moskvadan yazıb göndərdiyi “Ordan-burdan” başlıqlı 12 felyetonu çap olunmuşdur.

**“İLK AZƏRBAYCAN XALQ XORU”** – H.-un məqaləsi. “M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası” məcmuəsində (B., 1938) rus dilində çap olunmuşdur. Məqalədə 20-30-cu illərdə Azərb. musiqi sənətinin böyük yüksəlişi, yeni janr, ifaçılıq vasitələri ilə zənginləşməsi, musiqi kollektivlərinin, o cümlədən çoxsəsli xorun yaradılması, Azərb. vokal sənətinin spesifik xüsusiyyətləri göstərilmişdir. Müəllifin 1926 ildə ADK-nda təşkil etdiyi ilk çoxsəsli xorun “Azərb. xalqına çoxsəsli xor, polifoniya lazım deyil” deyilənlərin ciddi müqavimətinə rast gələrək dağılması və 1936 ildə filarmoniya nəzdində ilk dövlət xorunu təşkil etməsi qeyd olunmuşdur. H. bu xor üçün xalq mahnılarının harmonizə etmə üsulunu, eyni zamanda improvizasiya xüsusiyyətinin saxlanmasını şərh etmiş, xorun repertuarından danışmışdır.



**“Koroğlu”** operasından səhnə.

**İMANOV** Lütfiyar Müslüm oğlu (d. 1928) – müğənni (lirik-dramatik tenor). SSRİ xalq art. (1977). Moskvada Böyük Teatrda (1965) və Milanda “La Skala” teatrında (1975) təcrübə keçmişdir. 1943 ildə Sabirabad Dövlət Dram teatrında H.-un “Leyli və Məcnun”, “Əsli və Kərəm” operalarının, “Ər və arvad” musiqili komediyasının tamaşalarında iştirak etmişdir. 1957-59 illərdə Azərb. Musiqili Komediya Teatrında işləmiş, burada H.-un “Arşın mal alan” musiqili komediyasında Əsgər (Azərb. bölməsinin tamaşasında) və Vəli (rus bölməsinin tamaşasında) rollarını ifa etmişdir. 1959-1991 illərdə AOBT-nın solisti olmuş, sonralar İzmir Opera və Balet Teatrında işləmişdir. H.-un “Koroğlu” operasındakı Koroğlu partiyası İ.-un ən mühüm rollarındandır. Repertuarına H.-un qə-



**L.İmanov**



**L.İmanov** Koroğlu rolunda.

zəl-romansları (“Sənsiz”, “Sevgili canan”) da daxildir. Bir çox xarici ölkədə çıxışları zamanı Əsgərin ariyasını həmin ölkə xalqlarının dillərində ifa etmişdir. 1985 ildə Ankara Opera və Balet Teatrının “Arşın mal alan” tamaşasında Əsgər rolunu oynamışdır.

**“İNQİLAB VƏ MƏDƏNİYYƏT”** – “Azərbaycan” jurnalının 1928-36 və 1946-52 illərdə adı.

**İNTELLİGENT HƏSƏN** – “O olmasın, bu olsun” musiqili komediyasında personaj. İ. H.-nin simasında H. əsrin əvvəllərindəki Azərb. ziyalıları arasında digər bir ideya cərəyanının - ruspərəstlərin xarakterini açıqlamışdır. Rza bəy kimi İ. H. də cəmiyyət üçün eyni dərəcədə anlaşılmayan adam və yad ünsürdür. Onun öz alimliyini sübut etmək üçün rus və əcnəbi sözləri ilə doldurduğu nitqi, eyni zamanda bu personajın boş, mənasız daxili aləmi haqqında da təsəvvür yaradır. Özünü əsl ziyalı, fikir və ideya adamı kimi təqdim etməyə çalışan İ. H. də komediyadakı digər “intelligent” yoldaşları kimi eyni dərəcədə Məşədi İbadın pul kisəsinə bağlıdır. Müəllif İ. H.-i ironik boyalarla təqdim etməklə yanaşı, onun nitqini fərdiləşdirmək yolu ilə personajı daha görümlü və cəmiyyət üçün səciyyəvi şəkildə təqdim etməyə nail olmuşdur. Qeyd etmək lazımdır ki, İ. H.-nin monoloqları əsərin digər mərkəzi personajlarının - Məşədi İbadın və Rüstəm bəyin xarakterlərini açıqlamağa da kömək edir.

İlk tamaşadan (1911) başlayaraq bu rolu, əsasən H.Terequlov ifa edirdi. Görkəmli sənətkar M.Mərdanov eyni adlı filmdə İ. H.-nin yüksək bədii- estetik səviyyəli ekran surətini yaratmışdır.

**İPPOLİTOV-İVANOV** (əsl soyadı İvanov) Mixail Mixayloviç (1859-1935) – rus bəstəkarı, dirijor, pedaqoq, musiqi xadimi. Rus musiqi cəmiyyətinin Tiflis şöbəsinə və onun nəzdindəki musiqi məktəbinə rəhbərlik etmiş (1882-93), Moskva konservatoriyasının prof. (1893), direktoru (1905-18), rektoru (1919-22), Böyük Teatrın dirijoru olmuşdur. “Türk fraqmentləri” əsərində Azərb. xalq melodiyalarından istifadə etmişdir. 1912 ildə H.-la tanış olmuş, H. onun təklifi ilə Moskvada musiqi kurslarına qəbul olunmuşdur.

**“İRAN. HÖKUMƏTİ-MƏŞRUTƏ”** – H.-un məqaləsi. “İrşad” qəzetinin 4 avqust 1906 il tarixli 183-cü sayında “Üzeyir” imzası ilə dərc olunmuşdur. Müzəffərəddin şah İranda güclənən xalq hərəkatının təzyiqi nəticəsində 1906 il avqustun ilk günlərində məşrutə fərmanını imzalamağa, seçkili qanunverici orqan - Milli məclis qurulacağını elan etməyə məcbur olmuşdur. H. həmin münasibətlə dərc etdiyi bu məqaləsində həm İranda başlanan məşrutə hərəkatı və onun mahiyyəti,həm



**M.Mərdanov** “O olmasın, bu olsun” filmində.



**“Arşın mal alan”** musiqili komediyasından səhnə.

də bilavasitə şahın fərmanı barədə fikirlərini şərh etmişdir. Şah fərmanının aldadıcı olduğunu, bu gün verilib, sabah geri alınacağını bilən müəllif, bununla belə qeyd edirdi ki, “İranın istibdaddan məşrutəyə keçməsi aləmi-islamda ən əzim bir fel idi ki, bu gün bizim əsrimizdə icra olundu...”

**“İRANDA İNQİLAB”** – H.-un məqaləsi. “Tərəqqi” qəzetinin 1908 il, 2, 3, 5, 6 iyul tarixli 146, 147, 148, 149-cu saylarında “Üzeyir” imzası ilə dərc olunmuşdur. “Tehran millət mücahidlərinin əlinə keçib, istibdad, İranın o qoca istibdadı gurultu ilə kökündən qoparılır...” sözlərilə başlanan məqalədə qeyd olunurdu ki, 20 əsrin səsinə səs verməklə, İran özünün diri olduğunu nümayiş etdirir. Müəllif İranda inqilabi hərəkatın başlanmasını “bütün cahana təsiri olan”, millətlərin gözünü açan Rusiya “...inqilabi-əziminin zühuru ilə” izah edirdi.

**“İRƏLİYƏ DOĞRU İLK ADDIM”** – H.-un məqaləsi, “Kommunist” qəzetinin 15 may 1934 il tarixli sayında dərc olunmuşdur. R.M.Qlierin “Şahsənəm” operasının ilk tamaşası münasibətilə yazılmış bu məqalədə “orkestrovka, harmonik forma kimi musiqi isimlərində zəngin bir texnikaya malik olan ustad kompozitor R.M.Qlierin layiqincə istifadə edilmədiyi”, eyni zamanda operanın tamaşaya qoyulmasının opera ifaçılığının inkişafına təkan verdiyi, eləcə də geniş türk kütləsinin yeni formalı operanı öyrənməyə başladığı qeyd edilir.

**İRƏVAN AZƏRBAYCAN TEATRI,** C.Cabbarlı ad. İrəvan Dövlət Azərbaycan Dram Teatrı – İrəvanda Azərb. teatrının tarixi F.Köçərlinin təşəbbüsü və yaxından köməyi ilə 1886 ildə gimnaziyada oxuyan azərb. teatr həvəskarlarının ifa etdiyi “Müsyö Jordan və Dərviş Məstəli şah” (M.F.Axundov) komediyasının tamaşasından başlanır. 19 əsrin sonu - 20 əsrin əvvəllərində burada həvəskarlar tərəfindən M.F.Axundov, N.Nəri-



İrəvan Azərbaycan teatrında **“O olmasın, bu olsun”** musiqili komediyasından səhnə.

manov, C.Məmmədquluzadə və b.-nın əsərləri tamaşaya qoyulmuşdur. 1928 ildə İ. A. T. yaradılmış, müəyyən fasilədən (1949-67) sonra 1988 ilədək fəaliyyət göstərmişdir. Teatrın repertuarında H.-un "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyaları başlıca yer tutmuşdur. Teatrda müxtəlif vaxtlarda Yunis Nuri, K.Ziya, Ə.Şahsabahlı və b. çıxış etmişlər. 1988 ildə azərb.-ların Ermənistandan kütləvi köçürülmələri ilə əlaqədar teatr ləğv edilmişdir. Teatrın yaradıcı heyəti 1989 ildən ADT nəzdində teatr studiyasında fəaliyyətini davam etdirir.

**"İRŞAD"** – gündəlik ictimai-siyasi, iqtisadi və ədəbi qəzet. 1905-1908 illərdə Bakıda çıxmışdır. Müdir və imtiyaz sahibi Əhməd bəy Ağayev (Ağaoğlu) idi. 1908 ildə müvəqqəti redaktoru M.Ə.Rəsulzadə olmuşdur. H. "İ."-ın ən fəal əməkdaşlarından idi. Burada işlədiyi müddətdə 100-ə yaxın publisistik məqalə, "Ordan-burdan" ümumi başlığı altında 200-dən çox felyeton və satirik miniatür yazmış, "İ."-ın felyetonçusu kimi şöhrət tapmışdı. "İ."-ın nəşri iki dəfə dayandırılmışdı: 1907 ildə müvəqqəti, 1908 ildə isə həmişəlik. Hər ikisinin "günahkarı" H. olmuşdur. Birinci dəfə "Stolıpinin xəyalı" felyetonuna, ikinci dəfə isə çar hökumətinin "İvan" obrazı ilə ciddi məsxərə olunduğu "Nağıl" felyetonuna görə.

**"İRŞAD"ÇININ CAVABI"** – H.-un məqaləsi. "Bakinski den" qəzetinin 3 avqust 1907 tarixli 44-cü sayında "İrşad"çı Üzeyir bəy Hacıbəyov" imzası ilə dərc olunmuşdur. Bir müddət (1906) "İrşad"ın baş redaktorunu əvəz edən Haşım bəy Vəzirov 1907 ildə müstəqil "Tazə həyat" qəzetini nəşr etməyə başlayandan sonra təzəcə ayrıldığı yaradıcı kollektivi pis qələmə vermək, ləkələyib gözdən salmaq niyyətilə "Bakinski den" (1907, №40) qəzetində məqalə dərc etdirmişdi. H. fəal əməkdaşı olduğu "İrşad"ın rus oxucuları arasında nahaq ləkələnməsinə razı olmamış, söhbət qəzetin ləyaqətindən getdiyindən, hətta keçmişdə onun təhsil aldığı məktəbin direktoru olmuş H.Vəzirova tutarlı cavab vermişdi.

**İSAZADƏ** Ağa Əhməd İsa oğlu (d. 1928) – musiqişünas. Sənətşünaslıq doktoru (1989). Azərb. əməkdar elm xad. (1991). 1955 ildən Azərb. EA Memarlıq və İncəsənət İn-tunda işləyir. H.-un yaradıcılığına dair "İnqilaba qədərki Bakının professional musiqi həyatının tarixindən", "Ü.Hacıbəyov və M.Maqomayevin "Azərbaycan türk el nəğmələri" məcmuəsi və onun Azərbaycan folklorşünaslığının inkişafında elmi-tarixi əhəmiyyəti" və s. məqalələr yazmış, "Bəstəkarın xatirəsi" (1976), "Üzeyir Hacıbəyov haqqında söz" (1985; 1990, rus dilində) kitablarını tərtib etmişdir.

**İSGƏNDƏROV** Qulam Kazım oğlu (1901-1975) – müğənni. Azərb. əməkdar art. (1940). 1930 ildən AOBT truppasında çalışmış, H.-un demək olar ki, bütün əsərlərində müxtəlif rolları oynamışdır. "Koroğlu" operasının ilk tamaşasından başlayaraq, uzun illər təlxək rolunun əvəzsiz ifaçısı olmuşdur. "Leyli və Məcnun"da İbn Səlam, Məcnunun atası, "Əsli və Kərəm"də Şah, "Arşın mal alan"da Vəli, "O olmasın, bu olsun"da hambal rollarında çıxış etmişdir.

**İSMAYILOVA** Səkinə Qulu qızı (d.1956) – müğənni. Azərb. xalq art. (1992). 1980 ildən AOBT-nın solistidir. O, burada H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında Leyli və Əsli partiyalarında uğurla çıxış edir.



**S.İsmayılova** Leyli rolunda.

**İSMAYILOV** Heydər Ələkbər oğlu (1900-1950) – iqtisadçı-mühəndis, ziyalı. Tarix elmləri namizədi. Bir sıra ali məktəblərdə, o cümlədən ADK-nda dərs demiş, müxtəlif janrlarda əsərlər yazmışdır. H.-un “Koroğlu” operasının libretto müəllifidir. (M.S.Ordubadi ilə birlikdə).

**İSMAYILOV** Məmmədsaleh Cəmil oğlu (1912-1993) – musiqişünas alim. Azərb.-nın ilk nəzəriyyəçi-musiqişünası. Azərb. əməkdar inc. xad. (1972), sənətşünaslıq namizədi (1964), prof. (1983). H.-un tələbəsi və Azərb. xalq musiqisinin əsasları üzrə onun işinin davamçısıdır. 1930 ildə ADK-nın skripka sinfinə, sonradan isə H.-un məsləhəti ilə həm də tar sinfinə qəbul edilmişdir. ADK-nda H.-un köməkliyi ilə Azərb. xalq musiqisinin əsaslarını öyrənmiş, “Koroğlu” operası haqda diplom işi yazmışdır; bu “Koroğlu” operası haqqında yazılmış ilk dərin məzmunlu əsərdir. Konservatoriyanı bitirdikdən sonra (1940) H.-un təklifi ilə burada saxlanılmışdır. Bir il sonra könüllü olaraq cəbhəyə gedən İ. 1946 ilədək orduda xidmət etmişdir. H.-un marşal İ.S.Konevə müraciəti nəticəsində tərxis olunan İ. Bakıya qayıdaraq, H.-un direktoru olduğu İncəsənət in-tuna işə qəbul olunmuş, eyni zamanda ADK-nda müəllimlik etmişdir. H.-un “Azərbaycan xalq musiqisinin əsasları” kitabını Azərb. dilinə tərcümə etmişdir. 1991 ildə yazdığı Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər” kitabı H.-un sistemləşdirdiyi milli musiqimizin əsasını təşkil edən məqamlarla bağlı məsələlərə həsr olunmuşdur.

**İSMAYILZADƏ** Mirzə Əbdülqədir (təxəllüsü Vüsaqi; 1869-1914) – şair, müəllim, Şərq poeziyası üslubunda lirik, məktəb, ailə tərbiyəsi mövzusunda satirik şeirlər yazmışdır. O, M.Maqomayevin “Şah İsmayıl” operasının librettosunun, daha doğrusu şeirlərinin müəllifidir. İ. ilə M.Maqomayev arasında müəlliflik məsələsində ixtilaf baş verərkən H., müəllim A. Qasımovla birlikdə “münsiflər məhkəməsi”ndə M.Maqomayevi təmsil etmişdir. Məhkəmə qərara gəlmişdir ki, operanın “əşar tərəfin tək Mirzə Əbdülqədir düzəldib, musiqi tərəfin isə tək Əbdülmüslüm düzəldib. Ona görə də bu təsnifə hər ikisi müsavi sayaqda şərikdirlər” (“Sədayi-həqq” qəzeti, 30 aprel, 1913, №97).

**İSRAFİLZADƏ** Əbdüləhəd (Əhəd) Hüseyn oğlu (1915-2005) – dirijor, pedaqoq. Azərb. əməkdar inc. xad. (1963). AOBT-nın (1951-64) dirijoru olmuş, H.-un “Leyli və Məcnun”, “Əsli və Kərəm”, “Koroğlu” operalarına dirijorluq etmişdir.

**İSRAFİLZADƏ** Məmmədağa Hüseyn oğlu (1922-1942) – bəstəkar. Ə.İsrafilzadənin qardaşı. H.-un ilk tələbələrindən olan İ.-nin bütün əsərlərində Azərb. xalq musiqisinin təsiri duyulur. İ. “Leyli və Məcnun” operasının musiqi mövzuları əsasında simli kvartet üçün işləmələr yazmışdı. İkinci Dünya müharibəsində həlak olmuşdur.

**“İSTİQLAL VƏ İSTİQBAL ÜMİDİ”** – H.-un məqaləsi. “Azərbaycan” qəzetinin 30 dekabr 1918 il tarixli 74-cü sayında “Üzeyir Hacıbəyli” imzası ilə dərc olunmuşdur. Məqalə Parisdə çağırılacaq sülh konfransına nümayəndələr seçilməsi məsələsindən bəhs edir. Konfransı yaxşı bir fürsət, elçi seçkisini isə ən vacib iş sayan müəllif yazırdı ki, “sülh konfransına göndərmək üçün adam seçənlərin də, seçilən adamların da boynuna düşən olduqca ağır və ağır olduğu qədər də müqəddəs olan vəzifəni hər iki tərəf dürüst mülahizə etməlidir... Seçən seçdiyinə, seçilənlər də özünə arxayın olmalıdırlar. Bu işdə adi seçki işlərimizdə olan kimi bəzi arzu olunmayan hərəkətləri rəva görsək, onda vay bizim halımıza”. H. məsələnin vacibliyini ona görə qeyd edirdi ki, azadlığımızın, müstəqil yaşamağımızın “hə”, ya da “yox” nəticəli həlli həmin məclisin qərarından asılı idi. O, ümidvar idi ki, elçilərimiz çalışarlar, ağıl və dərrakə ilə iş görərlər və Vətənə “hə” cavabı ilə qayıdar, millət qabağına üzüağ çıxarlar.

**“İTTİHAD”** – siyasi-ictimai, iqtisadi və ədəbi qəzet. “İttihad” partiyasının orqanı idi. 1917 il dekabrın 4-dən 31-dək Bakıda, Azərb. dilində, 1919 il fevralın 21-dən 1920 il aprelin 23-dək rus dilində çıxmışdır. Redaktorları əvvəlcə C.Hacıbəyli, sonra doktor Q.Qarabəyov olmuşdur. C.Hacıbəylinin redaktorluğu dövründə qəzetdə H.-un 3 məqaləsi dərc edilmişdi. Q.Qarabəyovla şəxsi münasibətləri yaxşı olmadığından onun redaktorluq dövründə H. bu qəzetlə əməkdaşlıq etməmişdir.

# J

**JURNALİSTİKA,** H.-un jurnalist fəaliyyəti – H. peşəkar jurnalist idi. 1905-1920 illərdə “Leyli və Məcnun”, “Əsli və Kərəm” və b. operalarını, “Ər və arvad”, “O olmasın, bu olsun”, “Arşın mal alan” musiqili komediyalarını, kiçik həcmli başqa musiqi əsərlərini yaratdığı illərdə də o, ardıcıl jurnalist fəaliyyəti göstərmiş, “Həyat”, “İrşad”, “Tərəqqi”, “İqbal” qəzetlərində çoxsaylı yazılar (əsasən felyetonlar) dərc etdirmiş, “Həqiqət”, “Yeni iqbal”, “Azərbaycan” qəzetlərinin baş redaktoru işləmişdir. H.-un jurnalistlik fəaliyyəti bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir. Tərbiyəsi, zövqü, idealları və xalqa bağlı, xalqın həyatına, psixologiyasına, tarix və mədəniyyətinə yaxından bələd olan H. istər opera və musiqili komediyalarını bəstələyəndə, istərsə də ədəbi əsərlərini, məqalə və felyetonlarını yazanda hər şeydən əvvəl, işə bir vətəndaş kimi girişir, sanki özü-özündən hesabat tələb edirdi: Kimin üçün, nə məqsədlə yazırsan?! Bu, H. sənətinin məhək daşı, yaradıcılığının əzəli və əbədi başlanğıcıdır. H.-un mənalı həyat yolu, musiqi yaradıcılığı, pedaqoji və jurnalistlik fəaliyyəti xalqa təmənnasız vətəndaş xidməti nümunəsidir. Onun publisistikasını səciyyələndirən keyfiyyətlərdən biri ideyalılıqdır. O, yazılarına “bükdüyü” ideyaları oxucularının mühakiməsinə verir, ümumxalq işinə, əli qabarlı insanların mənafeyinə xidmət edirdi. Xəlqilik bir keyfiyyət kimi, qüdrətli qələm sahibinin mövzu axtarışında, satirasının məndəricə və formasında, dilinin sadəliyində, şirinliyində, ifadə aydınlığında özünü göstərirdi. Ədəbi publisistika hadisələri ən tez əks etdirən, zamanla, dövrlə ayaqlaşmağa can atan janrdır. İctimai-siyasi həyatın irəli sürdüyü ən vacib suallara yubanmadan, ləngimədən cavab vermək, bügünkü vəziyyəti əks etdirmək publisistikanın əsas vəzifələrindəndir. H.-un təbiətindəki narahatlıq və cəldliklə jurnalistik sənətindən irəli gələn operativlik bir-birini tamamlayırdı. O, “İrşad”, “Tərəqqi”, “Həqiqət”, “Yeni iqbal” qəzetlərində hər gün yazırdı; elə olurdu ki, qəzetin bir nömrəsində həm ciddi məqalə, həm də felyeton və ya satirik miniatürü çıxırdı. H. publisistik yazılarında yüksək bəşəri ideyalar, ali fikirlər təbliğ edirdi. Özü də bu yüksək fikirlər, müqəddəs məramlar onun qələmindən təbii şəkildə, hər tutumlu kəlamı dərin düşüncənin ölçü-biçi görmüş ifadəsi kimi öz-özünə süzülüb gəlirdi. H. siyasi həyatda baş verən ən ciddi, ən mürəkkəb, bəzən gizli icra olunan hadisələrdən belə çox tez xəbər tutur, onu yubanmadan qələmə alır, xalqın ümumi mənafeyi baxımından ona münasibətini bildirirdi. Bu mənada xalqdan gizlədilən, lakin onlara çatdırılması vacib olan çox mühüm məsələlərə operativ müdaxilə, hadisələri qabaqlamaq H. publisistikasının əlamətdar xüsusiyyətlərindən biridir. Dərin müşahidəçilik qabiliyyətilə müasirlərini heyrətdə qoyan H. 1907 ildə irtica baş verəcəyini (“Stolıpinin xəyalı”), 1908 ildə Təbriz inqilabının qələbə ilə qurtaracağını (“Yuxuda”) qibtəediləcək uzaqgörənliklə xəbər vermişdi. H.-un jurnalistlik fəaliyyətinin əlamətdar keyfiyyətlərindən biri gülüşdür. Təbii yumor, baməzə söhbət, düşündürən gülüş H. qələminin bəzəyidir. H. dövri mətbuata yüksək qiymət verir, jurnalistin xitabət kürsüsü olan qəzeti bilik mənbəyi, informasiya daşıyıcısı, insanlar və xalqlar arasında əlaqənin, ünsiyyətin, mənəvi və əxlaqi tərbiyənin əvəzsiz vasitəsi, kəsərli silah sayırdı. O göstərirdi ki, “...millətə, camaata bir təh-

lükə üz verdiyi zaman qəzet dördgözlü olmalıdır ki, təhlükə bir tərəfdən üz verdikdə, digər tərəfdən vüqiu mə'n edilsin, qabağı alınsın" ("Həqiqət", 1910, 28 yanvar, №22).

H. jurnalistdən yüksək əxlaqi keyfiyyətlər tələb edirdi. Onun fikrincə, jurnalist hər şeydən əvvəl məslək sahibi olmalıdır. "Həqiqət" qəzetinin "Bəyani məslək" adlı baş məqaləsi bu baxımdan diqqətəlayiqdir. H.-un qənaətinə görə, məslək sahibi olması jurnalistin vətəndaşlıq simasından, ictimai mövqeyindən xəbər verən keyfiyyətdir. Jurnalist hər bir hadisə, məsələ barədə həvəslə, ürəyinin qanı ilə yazmalıdır. O, "həvəssiz, könülsüz, etinasız, ruhsuz tamaşaçı ola bilməz". Camaat "qəhrəmanlarının fədakarlıqları" jurnalistin ürəyində rəğbət, "hökumət məmurlarının rəftari-zülmkaranəsi" nifrət hissi oyandırmalıdır. Xalqa xidmət edən qəzet də, vətəndaş jurnalist də həqiqətpərəst, doğruçu olmalıdır.

# K

**KANDELAKİ** Vladimir Arkadyeviç (1908-1994) – müğənni (bas-bariton), rejissor. SSRİ xalq art. (1970), Stalin mükafatı laureatı (1952). Dramatik və komik rollarda çıxış etmişdir. 1952 ildə K.S.Stanislavski və V.İ.Nemiroviç-Dançenko ad. Moskva Akademik Teatrının səhnəsində H.-un "Arşın mal alan" musiqili komediyasını yeni redaksiyada tamaşaya qoymuş və bu tamaşada Soltan bəy rolunu oynamışdır.



K.Kazımzadə

**"KASPİ"** – ictimai-siyasi, ədəbi qəzet. 1881-1919 illərdə Bakıda rus dilində, H.Z. Tağıyevin vəsaiti ilə çıxmışdır. Ə.M.Topçubaşov, Ə.Hüseynzadə, H.Zərdabi və b. müxtəlif vaxtlarda qəzetin redaktorları olmuşlar. "K"-də H.-un tamaşaya qoyulmuş bütün əsərləri haqqında müntəzəm olaraq rəy və məlumat verilmişdir. İctimaiyyət tərəfindən bəyənilməmiş "Şeyx Sənan" operasının musiqisinin estetik dəyəri haqqında ən müsbət məqalə də "K."-də dərc edilmişdi.

**KAZIMOV** Ağakişi Şəmməd oğlu (d. 1935) – rejissor. Azərb. əməkdar inc. xad. (1987). 1975 ildən (1983-90 illərdə fasilələrlə) Azərb. Gənc Tamaşaçılar Teatrının baş rej.-dur. 1975 ildə Azərb. Musiqili Komediya Teatrında H.-un "Arşın mal alan" musiqili komediyasını tamaşaya qoymuşdur.



M.Kazımovski

**KAZIMOVSKİ** Mirmahmud Mirələkbər oğlu (1882-1940) – aktyor, dramaturq. Azərb. əməkdar art. (1938). İlk peşəkar Azərb. aktyorlarındandır. 1897 ildən C.Zeynalovun "ev tamaşaları"nda, sonralar "Nicat" xeyriyyə cəmiyyətinin teatr truppasında çıxış etmiş, H.-un "Leyli və Məcnun" operasında Leylinin anası rolunu ifa etmişdir. 1919 ildən Z. və H.Hacıbəyov qardaşlarının truppasında, Bakı Azad Tənqid-Təbliğ Teatrında və s. teatrlarda işləmiş, bir çox rayon teatrlarında "Arşın mal alan", "O olmasın, bu olsun" və s. tamaşalara rej.-luq etmişdir.

**KAZIMOVSKİ** Rauf Mirmahmud oğlu (1928-1976) – rejissor. M.Kazımovskinin oğlu. Azərb.-da ilk radio və televiziya rej. olan K. 1956 ildən ömrünün sonunadək televiziyada quruluşçu rej. işləmişdir. Onun hazırladığı "O olmasın, bu olsun" tamaşası radionun qızıl fonduna daxildir. Televiziya üçün 1958 ildə H.-un "Leyli və Məcnun" tamaşasını hazırlamışdır.

**KAZIMZADƏ** Kazım Məmmədəli oğlu (1913-1992) – rəssam. Azərb. xalq rəs. (1965), Azərb. əməkdar inc. xad. (1943). Stalin mükafatı laureatı (1950). H.-un "Leyli və Məcnun", "Koroğlu" operalarının geyim eskizlərinin müəlliflərindəndir. Bəstəkarın portretini işləmişdir.

**KƏLƏNTƏRLİ** Münəvvər Səməd qızı (1912-1963) – aktrisa. Azərb. əməkdar art. (1959). Səhnə fəaliyyətinə 1933 ildən başlamış, əvvəllər milli opera tamaşalarında, sonralar, əsasən musiqili komediyalarda çıxış etmişdir. H.-un "Leyli və Məcnun" operasında Leylinin anası, "O olmasın, bu olsun" musiqili komediyasında Sənəm rolunu ifa etmişdir. "Arşın mal alan" (1945) filmində böyük ustalıqla yaratdığı Cahan xala obrazına görə K. 1946 ildə Stalin mükafatı laureatı adına layiq görül-



**M.Kələntərli** "Arşın mal alan" filmində.



**Y.Kələntərli** Leylinin anası rolunda.

müşdür. "O olmasın, bu olsun" filmində (1956) yengə rolunda çəkilmişdir.

**KƏLƏNTƏRLİ** (qızlıq soyadı Zamanova) Yavər Abbas qızı (1902-1979) – müğənni. Azərb. əməkdar art. (1940). İlk dəfə 1918 ildə səhnəyə çıxan K. "Cəmiyyəti xeyriyyə" məktəbində tamaşaya qoyulmuş "Arşın mal alan" musiqili komediyasında Əsgər rolunu ifa etmişdir. 1923 ildə H.-un məsləhəti ilə C.Qaryağdı oğlu və S.Şuşinskinin yanında muğamatdan dərs almışdır. Gözəl, yanıqlı səsi, improvizasiya ustalığı ilə fərqlənən xanəndə kimi tanınmış K. 1937 ildə AOBT-na dəvət olunaraq, burada H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında Leyli, Leylinin anası, Əsli partiyalarını məharətlə oxumuşdur.

**"KƏRƏMİ"** – ənənəvi vokal-instrumental aşıq havası. "K." səmimi, lirik, poetik xarakteri, müxtəlif emosional əhvalların incəliklə dəyişməsi, hisslərin dərinliyi və ifadəliyi ilə seçilir. Birhissəli irihəcmli əsər olan "K." gərgin kulminasiyaya doğru dinamik şəkildə, məqsədyönlü inkişaf edən bir sıra bölmələrdən ibarətdir. "K." orta əsrlərdə yaranmış və saf, fədakar məhəbbəti tərənnüm edən "Əsli və Kərəm" aşıq dastanı daxilində bitkin musiqi parçası kimi meydana çıxmışdır. Havanın adı dastanın əsas qəhrəmanı - öz şahlıq mənşəyindən uzaqlaşaraq aşıqlıq edən Kərəmin adı ilə bağlıdır. Musiqi üslubuna görə "K." zərbi muğam növlərindəndir; müəyyən melodik çərçivəyə və dəqiq quruluşlu inkişafa əsaslanan sərbəst vokal improvizasiya sazın müşayiəti ilə səslənir. Saz partiyasındakı melodiya ciddi vəzn-ritm çərçivəsində təkrarlanır. "K." vokal-instrumental əsər kimi müstəqil də ifa olunur. Saz ifaçılığı sənətinin inkişafı ilə əlaqədar "K." sazın virtuozluğunu, ifadə imkanlarını effektlə nümayiş etdirən instrumental aşıq havasına çevrilmişdir. Dastanın məzmunundan irəli gələrək "K."-nin müxtəlif növləri yaranmışdır: "Yanıq Kərəmi", "Atlı Kərəmi", "Hicran Kərəmisi" və s. H. "Əsli və Kərəm" operasında əsas qəhrəmanın xarakterizə edilməsi üçün "K."-dən istifadə etmişdir. H. sazın ifa etdiyi müşayiət - refreni nota salaraq ork. üçün işləmişdir. "K."nin vokal partiyası müğənni aktyor tərəfindən sərbəst improvizasiya olunur.



S.Kərimi

**KƏRİMİ** Siyavuş Əşrəf oğlu (1954) – bəstəkar. Əməkdar inc. xadimi (1998). Azərb. xalq art. (2005). ADK-nı bitirib (1977, tar ixtisası üzrə). 1979-cu ildə əmək fəaliyyətinə başlamış, R.Behbudov, R.Babayev, P.Bülbüloğlu və s. kimi görkəmli musiqi xadimləri ilə müxtəlif yaradıcı kollektivlərdə birgə çalışmışdır.



Y.Kələntərli

2001 ildə Azərbaycan Milli Konservatoriyasına rektor təyin edilmişdir.

Onlarla gözəl mahnıların, bədii filmlərə, televiziya filmlərinə, sənədli filmlərə, teatr tamaşalarına bəstələnmiş musiqinin müəllifidir.

S.Kərimi rejissor V.Mustafayevin çəkdiyi 6 seriyalı, "Heydər Əliyev" televiziya filminə də musiqi bəstələmişdir. S.Kərimi H.-un "Arşın mal alan" və digər operettalarını yeni formada aranjeman etmişdir.

"Humay" mükafatı (1998-2003) laureatıdır.



F.Kərimov

**KƏRİMOV** Fəxrəddin Nuru oğlu (1954) – dirijor. 1978 ildə Moskva, 1988 ildə Leninqrad Dövlət Konservatoriyasını opera, simfonik orkestr dirijoru ixtisası üzrə bitirmişdir. 1989-1991 illərdə Leninqrad Opera Teatrında dirijor, 1995-2001 illər İstanbul CRR Opera Teatrında, 2001-2004-cü illər İzmir Opera Teatrında baş dirijor vəzifəsində çalışmışdır. 2004 ildən Bakıda Ü.Hacıbəyov adına Dövlət Simfonik Orkestrinin dirijorudur.

1995 ildə İstanbul CRR Opera Teatrında ilk dəfə tamaşaya qoyulan "Arşın mal alan" operettasının musiqi rəhbəri olmuşdur. 1999 ildə İstanbulda Osmanlı İmperiyasının 700 illik yubileyinə həsr olunmuş konsertdə Ü.Hacıbəyovun "Milli Marş"ını səsləndirmişdir. Repertuarında Ü.Hacıbəyovun əsərləri böyük yer tutmuşdur. Bakı Musiqi Akademiyasının dosentidir.

**KƏRİMOV** Kamal Həmid oğlu (1925-1995) – müğənni (lirik tenor), pedaqoq. Azərb. əməkdar art. (1961). 1948-61 illərdə



**K.Kərimov** Əsgər rolunda.

Azərb. Musiqili Komediya Teatrı və AOBT-nda çıxış etmiş, H.-un "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyalarında Əsgər və Sərvər rollarını oynamışdır.

**"...KƏS"** – H.-un gizli imzalarından biri; onun məşhur "Filankəs" gizli imzasının ixtisar şəkli. Bu gizli imza ancaq 1910 ildə "Həqiqət" qəzetində işlədilmişdir. Müəllifin "O yan-bu yan" ümumi başlıqlı "Quyruqlu ulduz", "Ata və oğul", "Purişkeviç və Hacı Xudu" və s. felyetonları həmin imza ilə dərc olunmuşdur.



**M.Kirmanşahlı**

**KİRMANŞAHLI** Mir Seyfəddin (1892-1933) – aktyor, rejissor, teatr xadimi. Yaradıcılığının əsas dövrü Tiflis Azərb. Teatrı ilə bağlıdır. Bu teatrda H.-un bir sıra əsərlərini tamaşaya qoymuşdur. 1930 ildə İrana qayıdaraq, Təbrizdə "Ariyan" truppasının rəhbəri olmuş, Tehranda "Cameyi Bərbət" və "Nəkisa teatrı"nda işləmiş, H.-un "O olmasın, bu olsun", "Leyli və Məcnun" əsərlərini tamaşaya qoymuşdur.

**KNİJNİKOV** Konstantin Lvoviç (1883-1952) – müğənni (dramatik bariton), pedaqoq. Azərb. xalq. art. (1940). Səhnə fəaliyyətinə 1912 ildən başlamış, 1929-46 illərdə AOBT-nın solisti olmuş, burada H.-un "Koroğlu" operasında Həsən xan partiyasını da ifa etmişdir.

**"KOLXOZ ÇÖLLƏRİNDƏ"** – H.-un xalq çalğı alətləri ork. üçün bəstələdiyi pyes, 1932 ildə H.-un rəhbərliyi ilə SSRİ-də yaradılmış ilk notlu xalq çalğı alətləri ork. üçün bəstələnmiş ilk əsərlərdəndir. Əsər rəqsvari səpkidədir. Sonralar S.Rüstəmovun tərtib etdiyi "Tar məktəbi" dərsliyinə salınmışdır.

**"KOMEDİYALAR VƏ YUMORİSTİK MİNİATÜRLƏR"** – Ü.Hacıbəyovun 120 illik yubileyi ərəfəsində nəşr olunan kitabdır. Kitaba bəstəkarın üç operettasının librettosu, kiçik komediyaları, yumoreskaları daxil edilmişdir. Kitabın tərtibçisi Sərdar Fərəcovdur.

**"KOMSOMOLÇU QIZ"** – H.-un 1932 ildə səs və fp. üçün bəstələdiyi mahnı. Sözləri M.Təhmasibindir. Mahnı 1934 ildə Azərnəşrin musiqi bölməsi tərəfindən nəşr edilmişdir.

**KOREV** Semyon (Simon) İsaakoviç (1900-1953) – musiqişünas. "Üzeyir Hacıbəyov və onun operaları" (rus dilində, Moskva, 1952) monoqrafiyasının müəllifidir. Burada H.-un həyatı və yaradıcılıq yolu işıqlandırılır, əsas əsərləri xarakterizə edilir. "Leyli və Məcnun", "Koroğlu" operaları, "Arşın mal alan" musiqili komediyası daha təfərrüatla təhlil olunmuşdur. Monoqrafiyanın H. yaradıcılığının populyarlaşmasında xidməti olmuşdur.

**"KOROĞLU"** – H.un operası. Bəstəkarın yaradıcılığında kulminasiya mərhələsi olan "K." dünya klassik operaları sırasında parlaq nümunələrdən biridir. 5 pərdəli bu operanın libretto müəllifləri H.İsmayılov və M.S.Ordubadidir. Librettonun yaradılmasında H. fəal iştirak etmişdir. H. opera üzərində 1932-36 illərdə işləmiş, ilk tamaşa 1937 il aprelin 30-da AOBT-nda olmuşdur. Azərb.-da, ümumiyyətlə, Zaqafqaziyada, Orta Asiya, Türkiyə və İranda geniş yayılmış "K." xalq dastanı operanın süjet əsasını təşkil edir. Operanın musiqisində Azərb. xalqının tarixi taleyi, xarakteri, psixologiyası, bütövlükdə dünyagörüşü əksini tapmışdır. "K." tipik xalq qəhrəmanlıq dastanıdır. "K."-da opera sənətinə xas bütün əlamətlər bəstəkarın milli musiqi təfəkkürü süzgəcindən keçərək kamillik səviyyəsində yaradılmışdır. Operanın əsas qəhrəmanı olan xalqın obrazı məzlum vəziyyətdən tədricən güclənən etiraza, ədalət uğrunda əzmlə mübarizəyə qalxmaq qərarından - qələbə sevincinə qədər hərtərəfli, ardıcıl verilmişdir. Xalq obrazının açılışında ifadəli kiçik mövzu-tezislər - leytmotivlər böyük rol oynayır: 1. Xalqın məzlumluğunu ifadə edən həyəcanlı mövzu (çahargah ladının kadensiya intonasiyası üstündədir). 2. Üsyan etmiş xalq mövzusu (şur ladının kadensiya intonasiyaları üstündədir; çağırış xarakteri daşıyaraq aşıq musiqisinin obraz-intonasiya quruluşu ilə səsləşir). Qətiyyətli, təsirli xarakter daşıyan 3 və 4-cü leytmotivlər xalqın qəhrəmani obrazı ilə bağlıdır; rast ladı intonasiyaları üstündə qurulan bu leytmotivlərdə müasir



**“Koroğlu”** operasının IV pərdəsinin partiturası. Müəllifin əlyazması.

kütləvi mahnı əlamətləri müəyyən qədər özünü göstərir. 5-ci mövzuda xalqın iradəsi, poetik əhval-ruhiyyəsi, yüksək mənəvi keyfiyyətləri ifadə olunmuşdur. I pərdənin əvvəlində xalqın məzlumluğu leytmotivi üstündə qurularaq onun kədərini, həyəcanını, qəzəbini ifadə edən “Bu gözəl təbiət” xoru xalq obrazının ekspozisiyası rolunu oynayır. Kəndlilərin obrazı artıq 1 pərdədən dramaturji fəallığı ilə seçilir. Hüznlü “Yazıq Alı” xoru, rəqs, dramatik xarakterli “Gərək bu gün edək qiyam” xorundan sonra, səhnə qəhrəmanlıq leytmotivi üstündə qurulan “Hər bir yerdən, dağdan, daşdan” xoru ilə tamamlanır. III pərdədə xalqın obrazı geniş və hərtərəfli verilmişdir. Xordan əvvəl səslənən antraktda üsyançıların yenilməz xarakteri ifadə olunmuşdur. Bu xor xalqın qəhrəmanlıq, mərdlik və nikbinliyinə həsr edilmiş himndir. Xorun musiqisi təntənəli, bayramsayağı, iradəli xarakter daşıyır. Burada kütləvi yallı rəqsinin üslub xüsusiyyətləri aydın ifadə olunmuşdur. Xalqın qəhrəmanlıq keyfiyyətlərinin açılışı “Cəngi” rəqsində və “Əhdnamə” xorunda (5-ci leytmotiv əsasında) davam etdirilmişdir. Qıratın oğurlanması - tufan səhnəsi gərgin dramatik xarakter kəsb edir. V pərdədəki xalq səhnələri I pərdənin bir növ dinamik reprizidir. Burada məzlum xalq leytmotivi Nigar, Eyvaz, Poladın edam olunmalarına hazırlıqla əlaqədar gərginliyi, hüznü ifadə edərək mühüm dramaturji məna daşıyır. Üsyançıların qələbəsi xor ritmikaları və Koroğlunun partiyasında səslənən iki qəhrəmanlıq leytmotivi ilə təmsil olunmuşdur. Opera bayramsayağı təntənəli kütləvi rəqslə tamamlanır; rəqsin orta hissəsindəki melodiyada “Çənlibel” xoru ilə Koroğlunun I pərdədəki “Səni gördüm” ariozosunun mövzuları birləşmişdir. “K.”-dakı kütləvi xalq səhnələri xorla yanaşı, rəqslər əsasında qurulması ilə fərqlənir. Operada rəqs mənşəli musiqinin geniş tətbiq edilməsi Azərb. folklorunda kütləvilik, kollektivçiliyin xorla deyil, rəqslə (ilk növbədə yallı ilə) ifadə olunmasından irəli gəlir. Məhz bu səbəbdən də opera rəqslə tamamlanmışdır.

Koroğlu obrazı operada dinamik şəkildə verilmişdir. I pərdədəki iki ariozoda qəhrəmanını ehtirasla sevən aşıq (“Səni gördüm”) və coşğun mübarizlik (“Təngə gəldik yox tavan”) kimi ən tipik cəhətləri təzahür edir. III pərdədəki “Mərd igidlər nərə çəksin davada” epik mahnısında Koroğlu qorxmaz, mərd üsyan başçısı, cəngavər kimi verilmişdir. Həmin pərdədəki lirik xarakterli ariya (“Sevdim səni mən”) mübarizəyə qalxmış Koroğlunun dərin səmimi hisslərini, incə təbiətini açıb göstərir. IV pərdədə Koroğlu yenidən aşıq qiyafəsində səhnəyə gəlir. Həsən xanın sarayında çıxış edən Koroğlu təkcə adi aşıq deyil, cəsarətli xalq qəhrəmanı kimi təqdim edildiyi üçün onun oxuduğu lirik aşıq mahnıları burada qəhrəmanlıq rəmzi kimi qavranılır. Koroğlu obrazı operada, demək olar ki, həmişə kütləvi xalq səhnələri çərçivəsində açılır. Məsələn, I pərdədə Koroğlunun səhnədə ilk çıxışı - “Səni gördüm” ariozosu kəndlilərin rəqsindən sonra, həmin pərdədəki ikinci ariozo isə bilavasitə final xoru ilə birgə səslənir.

Nigarın obrazı da operada dinamik inkişafda verilmişdir. I pərdədəki ariya onun bütöv musiqi portretini yaradır; ariyada şəxsi hisslərin zərifliyi, səmimiliyi ilə xalqla bağlılıqdan gələn qəhrəmanlıq əzmi üzvi vəhdətdə verilmişdir. Ariyanın fəal, qətiyyətli orta hissəsində ilk dəfə Nigarın iki leytmotivi tam şəkildə səslənir. Bu leytmotivlər kütləvi mahnı intonasiyaları əsasından qurulmuşdur. Nigarın II pərdədəki ariyası isə son dərəcə kədərli, fəryad xarakteri daşıyaraq onun ağır taleyinin rəmzi kimi səslənir. Nigar obrazının açılmasında gözəl, axıcı melodiyası olan leytmotivin də rolu böyükdür. O, Nigarın vokal partiyasında deyil, Koroğlunun və b.-nın partiyalarında,

kütləvi səhnələrdə və Nigarın səhnəyə gəlişi zamanı ork.-də səslənir. Bu dramaturji cizgi ilə H. qəhrəmanın mənəvi gözəlliyini, ciddiliyini nəzərə çarpdırır.

Mənfi qəhrəmanlar arasında Həsən xan xüsusilə seçilir. I pərdədəki iki kiçik musiqi parçasında onun zülmkar, müstəbid xarakteri - lovğalıq, təkəbbür (“Xanların xanıyam”), kütlük, rəhmsizlik (“Qəsdən bunu etmiş ol haramzada”) kimi müxtəlif cəhətləri açılmışdır. Həsən xanın ümumiləşdirilmiş portreti onun II pərdədəki ariyasında (“Minai briklərə şərab doldurun”) verilmişdir. Ariyada kəndli üsyanından qorxuya düşməsini məharətlə gizlədən hökmlü, lovğa hökmdarın süni əzəməti musiqi vasitəsilə canlandırılmışdır. H. xanın amiranə nidalarına münasib nitq intonasiyalarını son dərəcə dəqiqliklə tapa bilmişdir. Eyni zamanda ariyanın oynaq xarakterli ork. partiyası vasitəsilə bəstəkar ustalıqla xana öz istehzalı münasibətini bildirmişdir.

Mənfi obrazlar sırasında təlxək xüsusi yer tutur; bir yandan o, Koroğlunun əsir düşməsinə kömək edir, digər tərəfdən isə saray əhlini - əyanları məharətlə ələ salır. Təlxəyin obrazı meyxana ruhunda yazılmış reçitativ və mahnı ilə (“Axı, necə mən gülməyim”) çox təsirli iz buraxır. Həsən xanın döyüşçülərinin “Vergi yığdıq kəndlilərdən” xorunda mənfi obrazların ümumiləşdirilmiş xarakteristikası öz əksini tapmışdır; onların hədsiz qorxu və həyəcanı reçitativ-deklamasiya intonasiyaları vasitəsilə ifadə olunmuşdur. Sarayın təmtəraqlı həyatı II və IV pərdədəki zərif incə rəqslərlə, xanəndə qızın muğamvari mahnısı ilə səciyyələnmişdir. Mənfi ob-







**“Koroğlu”** operasının müxtəlif illərdəki tamaşalarından səhnələr.



**"Koroğlu"** operasının müxtəlif illərdəki tamaşalarından səhnələr.

razlar operada leytmotivlər məcmusu ilə - qammavari xromatik hərəkət, sərt punktirli ritmlə birləşdirilmişdir.

Xalq kütlələri və Nigarın leytmotivləri əsasında qurulmuş uvertüra operanın qəhrəmani-epik istiqamətini aydın nəzərə çarpdırır. Mütəşəkkil, məqsədyönlü intonasiya dramaturgiyasına əsaslanan “K.” operası geniş mənada H.-un simfoniya bəstəkarı olduğunu nümayiş etdirir. Musiqi vasitəsilə qəhrəmanlar müsbət və mənfi obrazlara ayrılmış, onların hər biri münasib intonasiya vasitələri ilə aydın, inandırıcı təsvir olunmuşdur. Operanın dramaturgiyası leytmotivlər sistemi əsasında qurulmuşdur. Mənfi surətləri xarakterizə edən leytmotivlər sabit, dəyişməz qalaraq feodal dünyasının yaşamağa qabil olmadığını, tarix səhnəsindən gedəcəyini aydın nümayiş etdirir. Xalq kütlələri, müsbət qəhrəmanlarla bağlı leytmotivlər isə, əksinə, əsər boyu fəal inkişafda verilərək dəyişir, bir-birlərinə təsir edir, qəhrəman və lirik obrazlı intonasiyaları çarpazlaşdıraraq, tam və çoxcəhətli musiqi səhnələrinin yaranmasına zəmin olur.

“K.” ilə H.-un yetkin yaradıcılıq üslubu formalaşmış, Azərb.-da bəstəkar yaradıcılığının mövcud olduğu 30 illik nailiyyətlərinə yekun vurulmuşdur. H. “Leyli və Məcnun”-dan “Koroğlu”ya qədər” məqaləsində yazır: “...həm ilk, həm də hələlik axırıncı Azərbaycan operasının müəllifi olmaq şərəfi mənə nəsib olmuşdur. Beləliklə, “Leyli və Məcnun”dan “Koroğlu”ya qədər keçilən yol təkcə Azərbaycan operasının otuz illik tarixi deyil, həm də mənim şəxsi yaradıcılıq yolumdur...” “K.” ilə H. milli musiqi təfəkkürünü bütövlüklə bəstəkarlıq yaradıcılığının yüksək tələblərinə cavab verən yeni inkişaf mərhələsinə qaldırmış, bununla da, mürəkkəb bədii məsələni həll etmişdir. H. şifahi ənənəli Azərb. musiqisindəki formayaratma prosesinin ümumi cəhətlərinin qanunauyğunluqlarını bu əsasda inkişaf etdirmişdir. H. milli melodikanın müxtəlif növlərini ümumiləşdirərək “K.”-da emosional ifadəliliyinə görə mənalı və rəngarəng tipik opera kantilenası yaratmışdır. Bununla belə, milli janrlardan gələn ahənglər operada aydın nəzərə çarpır; bu cəhətlər xüsusilə xalq və Koroğlunu xarakterizə edən aşıq musiqisinin obrazlı intonasiya kökü ilə bağlılıqda özünü göstərir. H. milli musiqi ilə bəstəkarlıq yaradıcılığının sintezi prinsipindən çıxış edərək polifoniya və harmoniya formalarını geniş tətbiq etmişdir. Məsələn, “Çənlibel”




**“Koroğlu”** operasının afişası. 1957.

xorunda klassik polifoniya və Azərb. ladının intonasiya xüsusiyyətlərinə əsaslanaraq klassik fuqa formasından istifadə etmişdir. Operadakı orijinal akkordlar sistemi də milli musiqinin lad-intonasiya xüsusiyyətlərindən irəli gəlir. Musiqi forması sahəsində də H. Avropa və milli musiqi təfəkkürünü çarpazlaşdırmışdır; bu vəhdət, xüsusilə sonata formasının tətbiqində aydın nəzərə çarpır. Məsələn, uvertüra və III pərdənin antraktındakı melodiyanın inkişafındakı monotematizm (birmövzuluq) və monointonasiya quruluşu muğam kompozisiyasından irəli gələn xüsusiyyətlərdir. Operanın ork. partiyasının orijinal səslənməsinə nail olmaq üçün H. simf. ork.-in heyətinə tar, kamança, zurna, balaban kimi milli musiqi alətlərini daxil etmişdir. “K.”-da xor, ariya, ariozo, vokal ansambl, simf. fraqmentlər kimi klassik musiqili səhnə janrları geniş inkişaflı mükəmməl formaya malikdirlər. Xor operada xüsusi dramaturji əhəmiyyət kəsb edir. H. yaradıcılığının hələ ilkin dövründən bu janrdan geniş istifadə etmişdir. Lakin “K.”-da ilk dəfə olaraq xorlar əsas mövzunun açılışında başlıca musiqili səhnə forması funksiyasını daşıyaraq səhnə hadisələrinin “nüvə”si rolunu oynayır. Xorlarda xalq kütlələrinin əzəmətli obrazı yaradılmış, onun psixologiyası və dünyagörüşü əksini tapmışdır. H. operada xorla qədim yallı rəqsini bir-

ləşdirərək onun təsirini daha da gücləndirmişdir. "K."-dakı xor səhnələri Azərb. bəstəkarlarının yaradıcılığında kantata-oratoriya janrlarının inkişafına təkan vermişdir. Simf. fraqmentlər operada xüsusi əhəmiyyət kəsb edərək qəhrəmanlıq ideyasının açılışında böyük rol oynayır. İri həcmli musiqi lövhələri olan bu fraqmentlər milli simf. musiqinin inkişafı üçün mühüm mənbəyə çevrilmişdir, kökün milli rəqslərlə bağlı olan musiqidən operada geniş istifadə olunmuşdur; o, məişət fonu yaradılmasında, eyni zamanda qəhrəmanlıq ideyasının açılışında əhəmiyyətli rol oynayır. "K."-nun rəqs səhnələri milli baletin təşəkkülü və inkişafı üçün zəmin olmuşdur. H. əsl novator əsər olan "K." ilə Azərb. musiqi sənətinin hərtərəfli zəngin inkişafı üçün yollar açmışdır.

"K." operasına görə H. 1941 ildə Stalin mükafatına layiq görülmüşdür. "K."-nun ilk tamaşasının rej. İ.Hidayətzadə, dirijoru H., (sonralar Ə.Həsənov), rəssamı R.Mustafayev olmuşdur. Rollarda Bülbül (Koroğlu), G.İsgəndərova (Nigar), M.Bağırov (Həsən xan), Q.İsgəndərov (təlxək), Ə.Zülalov (Ehsan paşa), Q.Hüseynov (Həmzə bəy), B.Mustafayev (İbrahim xan) çıxış etmişlər. 1938 ildə opera Moskvada Azərb. incəsənəti dekadasında böyük müvəffəqiyyət qazanmışdır. AOBT-nda "K."-nun 1943 (rus dilində; dirijor Niyazi), 1959 (rej. M.Məmmədov, dirijor Niyazi, rəssam Ə.Fətəliyev), 1975 ildə (rej. F.Səfərov, dirijor R.Abdullayev, rəsam T.Salahov) yeni quruluşları hazırlamışdır. "K." Aşqabad (1939, türkmən dilində), İrəvan (1942, erməni dilində) və Daşkənddə (1950, özbək dilində) tamaşaya qoyulmuşdur. AOBT-nın qastrol tamaşaları zamanı "K." Təbriz, Tiflis, Kiyev, Peterburq və s. ş.-lərdə göstərilmişdir.

"K."-nun 1952, 1970 illərdə klaviri və partiturası nəşr olunmuş, opera vala yazılmışdır.

**"KOROĞLU" OPERASI HAQQINDA** – H.-un məqaləsi "Kommunist" qəzetinin 1938 il 5 aprel tarixli sayında dərc olunmuşdur. Məqalədə müəllifin "Koroğlu" operası üzərində işə başlamazdan əvvəl 20 il müddətində Azərb. xalq musiqisinin əsaslarını və köklərini, eləcə də opera bəstələmək sənətini hərtərəfli öyrəndiyi və yalnız 1930 ildə özündə hazırlıq hiss edərək əsəri yazmağa başladığı və buna 4 il vaxt sərf etdiyi göstərilir. H. burada əsərin tarixi əhəmiyyəti, sənətkarın xalqı qarşısında məsuliyyəti məsələlərinə də toxunmuşdur.



F.Ə.Köçərli

**KÖÇƏRLİ** Firidun bəy Əhməd bəy oğlu (1863-1920) – pedaqoq, yazıçı, ədəbiyyatşünas alim. İkicildlik (4 kitab) "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərinin (1925-1926) müəllifidir. Qori müəllimlər seminariyasının məzunu və müəllimi olmuşdur. H. "Tərəqqi" və başqa qəzetlərdə ən sevimli müəllimi K.-nin fəaliyyətini "şirindilli məqaləleri ilə tərbiyə və təlimin lüzumu və vacibliyi haqqında vazeh bəyanlar buyurmuşdur", - deyə yüksək dəyərləndirirdi.



F.Q.Köçərli

**KÖÇƏRLİ** Firidun Qasım oğlu (1920-2005) – fəlsəfəşünas. Fəlsəfə e.d. (1966), prof. (1967), Azərb. EA akademiki (1976; m. üzvü 1972). Azərb. əməkdar elm xadimi (1989). 20 əsr Azərb. fəlsəfi fikir tarixinə dair tədqiqatların müəllifidir. Elmi fəaliyyətində T.-a həsr olunmuş araşdırmalar əhəmiyyətli yer tutur. "Ü.Hacıbəyovun ictimai-siyasi görüşləri" (1965) monoqrafiyasında ədəbi-publisistik əsərlərinin təhlili əsasında H.-un mübariz demokratik dünyagörüşünün mühüm yönləri əhatəli şəkildə açıqlanır. "Ü.Hacıbəyov və Azərbaycan mədəniyyəti" (1985), "Ü.Hacıbəyov və Azərbaycan dilinin inkişafı" (1985), "Ü.Hacıbəyov və "Molla Nəsrəddin" (1990) məqalələri var.

**"KÖNÜLLÜ ORDUNUN HƏZİMƏTLƏRİ"** – H.-un məqaləsi. "Azərbaycan" qəzetinin 5 yanvar 1920 il tarixli 4-cü sayında "Ü.H." imzası ilə dərc olunmuşdur. Məqalədə göstərilir ki, bizim istər könüllü ordu, istərsə də qırmızı ordu haqqında nöqteyi-nəzərimiz birmənalı və müəyyəndir: hər ikisindən uzaq olmaq, çünki özümüzü müstəqil bir millət və dövlət hesab etdikdən sonra Rusiya dövlətinə müharib qüvvələrlə toqquşmaya girişmək bizim üçün tamamilə avantürist siyasət deməkdir.



İ.Krılov

**KRILOV** İvan Andreyeviç (1769-1844) – rus təmsilçisi. H. məqalə və felyetonlarında tez-tez K.-un təmsillərinə müraciət edir. O, "Təəssüflər olsun" məqaləsində məşhur "Qu quşu, xərçəng və durnabalığı", "Cəmiyyətin ağası" felyetonunda isə "Sazəndələr" təmsillərindən geriliyə, nadanlığa, cəmiyyətdə yerləri tərs düşənlərə qarşı ideya mübarizəsində kəsərli silah kimi istifadə etmişdir. Müəllifin "Tərəqqi və tədənni", "Hər işi öz əhlinə tapşırmalı" məqalələrində də K.-un təmsillərinin təsiri görünməkdədir.

# Q

**QACAR** Xurşid (1894-1963) – müğənni (lirik soprano). Azərb. əməkdar inc. xad. Moskva Konservatoriyasını bitirmiş (1915), Moskva estrada ansamblının solisti olmuşdur (1919-1924). 1924-1934 illərdə AOBT-nda fəaliyyət göstərmiş, burada H.-un əsərlərində Xurşidbanu, Gülçöhrə, Asya, Gülnaz - ("Şah Abbas və Xurşidbanu", "Arşın mal alan", "O olmasın, bu olsun") partiyalarında çıxış etmişdir.

**QACAR** Süreyya Sədrəddin qızı (1910-1992) – müğənni (messo-soprano). Azərb. xalq art. (1954). Səhnə fəaliyyətinə 1927 ildən başlamışdır. İlk rolu H.-un "Leyli və Məcnun" operasında Leyli olmuşdur. Azərb. səhnəsində Leylini oynayan ilk azərbaycanlı qadınlardandır. Sonralar "Əsli və Kərəm"də Əsli, "Arşın mal alan"da Gülçöhrə rollarında çıxış etmişdir. Q.-ı Leyli və Əsli rollarına H.Sarabski hazırlamışdı.

**QAFAROV** Cavanşir Qafarağa oğlu (1928-1994) – müğənni (bariton). Azərb. əməkdar artisti. H. 1947 ildə Gədəbəydən gəlmiş gənc Q.-un səsini yoxlamış, onun və başqa bir gənc ifaçı - Kazım Məmmədovun yaşaması üçün konservatoriyanın binasında bir otaq ayırmışdı. Q. 1953 ildə ADK-nı bitirərək, H.-un əsərlərinin daimi iştirakçısı olmuş, "Leyli və Məcnun"da Nofəl, Leylinin atası, "Arşın mal alan"da Süleyman, "Koroğlu"da Həsən xan, İbrahim xan, carçı və b. rollarda oynamışdır.

**QAFARLI** Əlihüseyn Əbdülrəhim oğlu (1911-1961) – aktyor. Azərb. əməkdar art. (1959). 1929 ildən Bakı Türk İşçi Teatrının, 1935-43 illərdə Gəncə Dram Teatrının, 1943-61 illərdə isə Azərb. Musiqili Komediya Teatrının aktyoru olmuşdur. Q. komik rolların mahir ifaçısı kimi tanınmış, H.-un əsərlərində Soltan bəy, Məşədi İbad ("Arşın mal alan", "O olmasın, bu olsun") rollarında uğurla çıxış etmişdir.

**QAFAROVA** Zemfira Həsən qızı (d. 1942) – musiqişünas. Sənətşünaslıq namizədi (1984). H.-un yaradıcılığını tədqiq etmiş, bu mövzuda bir sıra məqalələr - "Koroğlu"nun avtoqrafı" (1972), "Ü.Hacıbəyovun opera estetikası" (1975), "Ü.Hacıbəyovun "Koroğlu" operasının uvertürası" (1973) və s. yazmışdır. "Ü.Hacıbəyovun "Koroğlu" operası" (1994) monoqrafiyasının müəllifidir.

**QARABAĞ** – Azərb.-da tarixi vilayət. Kiçik Qafqaz dağlarından başlamış Kür və Araz çayları arasındakı ərazini əhatə edir. "Azərb.-ın konservatoriyası" adlandırılan Q. milli musiqi mədəniyyətinin inkişafında müstəsna rol oynamışdır. Q.-da doğulub ərsəyə çatmış bir çox xanəndə və musiqiçilərin adı təkcə Qafqazda deyil, qonşu Şərq ölkələrində də məşhur idi. H. bu vilayətin Şuşa qəzasının Ağcabədi kəndində doğulmuşdur. Valideynləri Şuşaya qayıtdıqdan sonra burada, maarifçi H. Vəzirovun açdığı ikisinifli türk-rus məktəbində təhsil almışdır. 19 əsrin sonu - 20 əsrin əvvəllərində Q.-ın mədəni həyatı olduqca qaynar idi. Q.-da şeir ("Məclisiüns", "Məclisi-fəramuşan") və musiqi məclisləri fəaliyyət göstərirdi. Bu məclislərə şairə Xurşidbanu Natəvan, alim, mu-



**Ə.Qafarlı** "O olmasın, bu olsun" tamaşasında Məşədi İbad rolunda.



siqişünas, rəssam və şair Mir Möhsün Nəvvab və b. başçılıq edirdilər. Q.-ın zəngin musiqi-ifaçılıq ənənələri H.-un musiqi tərbiyəsinə güclü təsir göstərmişdir. O dövrdə Q.-ın ziyalı gənclərindən bir çoxu Moskva, Peterburq, Kiyev və b. şəhərlərdə ali təhsil alırdılar. Yay tətillərini doğma yurdlarında keçirən bu gənclər onun mədəni həyatında yaxından iştirak edərək müxtəlif tədbirlər hazırlayır, ədəbi əsərləri səhnələşdirirdilər. 1897 ildə Ə.Haqverdiyev Şuşada M.Füzulinin "Leyli və Məcnun" poeması əsasında "Məcnun Leylinin məzarı üstündə" adlı səhnəni tamaşaya qoymuşdu. Kiçik yaşlı H. bu tamaşada böyük həvəslə iştirak etmiş və xorda oxumuşdu. Tamaşa ona böyük təsir göstərmişdi. Sonralar H. yazırdı ki, "...həmin səhnə məni o qədər həyəcanlandırdı ki, bir neçə ildən sonra Bakıya gəlib operaya bənzər bir şey yazmaq qərarına gəldim". H. 1899 ildə təhsilini davam etdirmək məqsədilə Q.-dan Qoriyə getmişdir. Qori seminariyasında təhsili başa vurduqdan sonra (1904) Q.-da müəllimlik etmiş, 1905 ildə Bakıya köçmüşdür.

**QARABƏYOV** Qarabəy (1874-1953) – həkim, ictimai xadim. Tiflis gimnaziyasını, sonra isə Derpt (indiki Tartu) un-tinin tibb fakültəsini bitirmişdir. Q. Bakıda həkimliklə yanaşı, şəhərin ictimai həyatında fəal iştirak etmiş, Azərb. və rus dillərində çıxan qəzetlərə məqalələr yazmışdır. Bir müddət "Haqq yolu" həftəlik jurnalının (1911-1912) və cəmi beş nömrəsi çıxmış "Yeni həyat" qəzetinin (1918) redaktoru olmuşdur. "İttihad" partiyasının sədri olan Q. Azərb. parlamentinə deputat seçilmişdi (1918-1920). H. müxalifətçi Q.-un parlamentdə Azərb.-ın müstəqilliyi əleyhinə yönəldilmiş dağıdıcı siyasətinə, pozucu nitqlərinə qarşı çıxaraq, onu ciddi tənqid etmişdi ("Azərbaycan" qəz., 16 dekabr, 1918, №66).

**QARADAĞLI** (Abdullayev) İbrahim Məcnun oğlu (1909-1978) – aktyor, rejissor. Azərb. əməkdar art. (1943). 1940 ildən Ağdaş dram teatrında aktyor və rej. (1941 ildə direktor və baş rej.) kimi fəaliyyət göstərmişdir. Həmin teatrda oynanılan "Leyli və Məcnun" tamaşasının rej. və Məcnun rolunun ifaçısı olmuşdur. H.-un "Ər və arvad", "Əsli və Kərəm", "O olmasın, bu olsun" əsərlərini də tamaşaya qoymuşdur.

**"QARAGÖZ"** – H.-un 1930 ildə bəstələdiyi mahnı. Sözləri Hüseyn Natiqindir. Səs və xalq çalğı alətləri ansamblı üçün nəzərdə tutulmuşdur. Mahnının ilk ifaçısı X.Şuşinski olmuşdur.

**QARAYEV** Qara Əbülfəz oğlu (1918-1982) – bəstəkar, pedaqoq, ictimai xadim. Azərb. xalq art. (1958), SSRİ xalq art. (1959). Azərb. EA akad. (1959). SSRİ Dövlət (1946, 1948), M.F.Axundov ad. Resp. (1965) və Lenin (1967) mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı (1978), Lenin ordeni (1967, 1978). H.-un vəfatından sonra Azərb. bəstəkarlıq məktəbinə başçılıq etmiş, bu məktəbin inkişafına böyük təsir göstərmiş, özünəməxsus musiqi yaradıcılıq məktəbi yaratmışdır. Q. 1935-38 illərdə ADK-da oxumuş, Azərb. xalq musiqisinin əsasları üzrə H.-dan dərs almışdır. 1938 ildən təhsilini Moskva konservatoriyasında davam etdirərək, 1946 ildə konservatoriyanı bitirmiş (D.Şostakoviçin bəstəkarlıq sinfini) və həmin ildən ADK-da dərs demişdir (1957 ildən prof.).



Q.Qarayev

Q. musiqinin demək olar, bütün janrlarında yüksək bədii dəyərli əsərlər yaratmışdır. Novator sənətkar olan Q. Azərb. musiqisinin obraz-məzmun dairəsini xeyli genişləndirmiş, ilk dəfə psixoloji, fəlsəfi məzmunda əsərlər bəstələmişdir. İnsanın gözəllik uğrunda mübarizəsi Q. musiqisinin əsas mövzusudur. Q. yaradıcılığının inkişaf mənbəyi rəngarəngdir. O, şifahi ənənəli Azərb. musiqisinin üslub xüsusiyyətlərindən, ələlxüsus aşıq və muğam sənətindən bəhrələnmişdir. Q.-in bir çox yaradıcılıq təşəbbüslərinin əsası H.-un musiqisi və estetik prinsipləri ilə bağlıdır. D.Şostakoviç, S.Prokofyev və İ.Stravinskinin də Q.-ə güclü təsiri olmuşdur. Klassik musiqi ənənələrini inkişaf etdirən Q. müasir musiqini neoklassik üsullu əsərlərlə zənginləşdirmişdir. Q. "Vətən" operasının (1945, C.Hacıyevlə birgə), dünyaşöhrətli "Yeddi gözəl" (1952) və "İldırımlı yollarla" (1957) baletlərinin, "Coşqun qaskoniyalı" (1973) romantik musiqili komediyasının müəllifidir. Yaradıcılığının ilk çağlarından Q. simf. musiqiyə meyl etmiş, bilavasitə



**A.Qasımov** “Leyli və Məcnun” operasında Məcnun rolunda.



**F.Qasımova**



**X.Qasımova**



**A.Qasımov**

H.-un təsiri altında “Azərbaycan süitası”nı (1939) yaratmışdır. O, 3 simfoniya, “Leyli və Məcnun” simf. poeması, simf. ork. üçün “Alban rapsodiyası”, “Vyetnam süitası”, “Don Kixot” simfonik qravürlərinin, skripka ilə ork. üçün konsertin və s. müəllifidir. Onun kinofilmlərə, dram tamaşalarına yazdığı musiqi müstəqil müəllif konsepsiyası və simf. vüsəti ilə seçilir. O, H.-un “Aşıqsayağı” əsərini kamera ork.-i üçün transkripsiya etmişdir (1964). Q.-in publisist fəaliyyəti üçün dərin elmilik, dolğunluq, kəskin tənqid səciyyəvidir. Onun fikir və mülahizələri qlobal estetik problemlər ətrafında qurulmuşdur. H.-un estetik təsəvvürlərindən bəhrələnərək Q. ənənə və novatorluq, millilik və beynəlmiləlçilik anlayışlarını öz baxımından hərtərəfli vəhdətdə şərh etmişdir.

H. kimi Q. də xalq musiqisini bəstəkar yaradıcılığının əsas mənbəyi hesab edirdi. H.-u çox dərindən və həssaslıqla xarakterizə edərək, onun Azərb.-da bəstəkarlıq yaradıcılığının yaranması və inkişafındakı rolunu xüsusi vurğulamışdır. H. haqqında “Unudulmaz müəllim, böyük sənətkar” məqaləsində Q. yazırdı: “...Öz musiqi dilini zənginləşdirmək, yeni bədii ifadə vasitələri tapmaq məqsədini izləyən bəstəkar, xalq sənətinin həyat bulağından daim su içmişdir. Eyni zamanda öz əsərlərində heç bir zaman xalq nəğmə və muğamlarını eynən təkrar etməmiş, xalq musiqisinin mahiyyətini ifadə etmək üçün özünün orijinal yaradıcılıq üslubunu yaratmağa səy göstərmişdir. O, xalqın musiqisindən istifadə edərkən, onu yeni bir keyfiyyətlə zənginləşdirilmiş bir şəkildə xalqa qaytarmaq məqsədini izləmişdir”.

**QARYAĞDIOĞLU CABBAR,** bax Cabbar Qaryağdı oğlu.

**QASIMOV** Alim Həmzəli oğlu (d.1957) – müğənni. Azərb. xalq art. (1992). 1990 ildən solisti olduğu AOBT-nda H.-un “Leyli və Məcnun”, “Əsli və Kərəm” operalarında Məcnun və Kərəm partiyalarını böyük müvəffəqiyyətlə ifa edir.

**QASIMOVA** Fidan Əkrəm qızı (d. 1947) – müğənni (lirik soprano). Azərb. xalq art. (1982). SSRİ xalq art. (1988). Azərb. Dövlət mükafatı laureatı (1984), musiqiçilərin C.Viotti ad. müsabiqəsinin (1977, İtaliyanın Verçelli ş., birinci mükafat) laureatıdır. Q. beynəlxalq müsabiqələr laureatı adına layiq görülmüş ilk azərb. qadın müğənnidir. ADK-nı (1971, skripka sinfi; 1972, vokal sinfi) və Moskva konservatoriyasının aspiranturasını (1974) bitirmişdir. 1974 ildən ADK-da dərs deyir (1990 ildən prof.). 1974 ildən solisti olduğu AOBT-nda “Koroğlu” operasında Nigarın partiyasını məharətlə ifa edir. Q.-nın ifasında da Nigar partiyası hisslərin səmimiliyi, psixoloji incəliyi, vokal-dramatik cizgilərinin ifadəliliyinə görə inandırıcıdır. Q. rəngarəng səs çalarına nail olaraq obrazın daxili aləmini incə nüanslarla aça bilir. Q.-nın ifasında H.-un “Firuzə” operasında Firuzənin ariyası, “Sənsiz” romans-qəzəli yeni ahənglə səslənir. “Arşın mal alan” bədii filmində (1965) və musiqili komediyanın qrammofon valına yazılışında (1973) Gülçöhrənin partiyasını məharətlə oxumuşdur.

**QASIMOVA** Xuraman Əkrəm qızı (d. 1951) – müğənni (soprano). Azərb. xalq art. (1986), Azərb. Dövlət mükafatı laureatı (1984). F.Qasımovanın bacısıdır. ADK-nı bitirmişdir (1975). 1982 ildən orada dərs deyir (1992 ildən prof.). 5-ci Zaqafqaziya (1977, 1-ci mükafat), M.İ.Qlinka ad. 7-ci Ümumittifaq (1977) və Mariya Kallas ad. Beynəlxalq (Afina, 1981; həmçinin “Qran pri” qızıl medalına layiq görülmüşdür), P.İ.Çaykovski ad. 8-ci Beynəlxalq (Moskva, 1982) müsabiqələrin laureatıdır. 1976 ildən AOBT-nın solistidir. Repertuarında H.-un “Koroğlu” operasında Nigarın partiyası mühüm yer tutur. 1985 ildə Ankara Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş “Arşın mal alan” musiqili komediyasında Gülçöhrə rolunda böyük müvəffəqiyyət qazanmışdır. “Arşın mal alan” bədii filmində (1965) və musiqili komediyanın qrammofon valına yazılışında (1973) Asyanın partiyasını oxumuşdur.

**QASIMOVA** Rəfiqə Məmməd qızı (d. 1935) – ədəbiyyatşünas. 1960 ildən Azərb. EA Nizami ad. Ədəbiyyat İn-tunun elmi iş-



**F.Qasımova** "Koroğlu" operasında Nigar rolunda.

çisidir. H.-un komediyalarını tədqiq etmişdir. "Üzeyir Hacıbəyovun irsi" (1964), "Ü.Hacıbəyov və folklor" (1966), "Ü.Hacıbəyovun komediyalarının tamaşa tarixindən" (1970), "Bəstəkar-dramaturq" (1975) və s. məqalələrin, "Üzeyir Hacıbəyovun komediyaları" (1983) monoqrafiyasının müəllifidir.

**QASIMOVA** Solmaz Cəlal qızı (d. 1929) - musiqişünas. Sənətşünaslıq namizədi (1969), prof. (1990). ADK-nı bitirmişdir (1954). "Azərbaycan bəstəkarlarının opera yaradıcılığı" (I cild, rusca, 1972; 2 cild, 1984), "Azərbaycan sovet musiqi ədəbiyyatı" (rusca, 1984; həmmüəllif N.Bağırov), "Azərbaycan musiqi tarixi" (1992, həmmüəlliflər E.Abasova, L.Karagiçeva, N.Mehdiyeva və A.Tağızadə) və s. əsərlərində H.-un yaradıcılığı haqqında geniş məlumat vermişdir.

**QASIMOV** Hacı İbrahim (1886 - 1936) – jurnalist, teatr tənqidçisi, tərcüməçi. Müxtəlif illərdə "Nicat", "Səfa" cəmiyyətlərində çalışmış, "İqdam", "Bəsirət" qəzetlərinin, "Kəlniyət" jurnalının redaktoru olmuşdur. H.-un opera və musiqili komediyaları haqqında çox vaxt ziddiyyətli mövqedən resenziyalar dərc etdirmişdir. "Əsli və Kərəm" operasının ilk tamaşası ilə əlaqədar rəydə ("İqbal", 20 may, 1912) H.-u görkəmli musiqişünas, "qabil opera və operettaçı" adlandıran, onun əsərlərində məslək və ali fikirlərin, ideyaların musiqi dili ilə ifadə edildiyini göstərən Q. az sonra "opera dramın evini yıxdı", - deyə şikayətlənənlərə qoşularaq yazmışdı: "...Bu operalar müsəlman dram və faciələrini öldürdü və camaatı özünə rağib elədi. Onsuz da zurna zırıltısına, dəf dingiltisinə adətkərdə olmuş müsəlmanlar aydındır ki, operanı qoyub dram kimi tamaşalara getməyəcəklərdi..." ("İqbal", 28 mart, 1914). H. "Arşın mal alan" musiqili komediyasını "tamaşaçıların əxlaqını pozan əsər" adlandırmışdı ("İqbal", 27 oktyabr, 1913).

**QASIMOV** İmran (1881 - 1914) – mühəndis. "Nicat" maarif cəmiyyəti idarə heyətinin üzvü və onun dram qrupunun rəhbəri olmuşdur. "İnsaniyyət və maarif dairəsinə qədəm qoymağına səbəb olan müqəddəs səhnə və teatr işində cani-dil ilə çalışan" ("İqbal" qəz., 31 may 1914) fəal mədəniyyət xadimi idi. H.-la yaxın dost olmuşdur. 1907 ilin son günlərində "Leyli və Məcnun" operasının məşqləri Q.-un öz təklifi ilə onun geniş mənzilində keçirilirdi. Milyonçu M.Muxtarovun "Voronsovski küçəsində inşa edilən evinin hündür yerindən yıxılıb qıçı şikəst olan İmran Qasımov almış olduğu şikəstlik təsirindən yanvarın 26-da bu radülfənadan darülbəqayə rəhmət elədi" ("İqbal" qəz., 28 may 1914).

**QASIMOV** Qubad Abdulla oğlu (1896-1993) – musiqişünas. Tarix elmləri namizədi (1949). Azərb. əməkdar mədəniyyət xadimi (1968). H.-un bacanağı idi. 1940-1944 illərdə ADK-da musiqi elmi-tədqiqat kabinəsinin elmi işçisi, 1944-1945 illərdə SSRİ EA Azərb. filialının incəsənət sektorunun, 1945 ilin aprelindən isə Azərb. EA-nın İncəsənət İn-tunun elmi katibi işləmiş, 1955 ildən Memarlıq və İncəsənət İn-tunda teatr və musiqi şöbəsinin müdiri, baş elmi işçi olmuşdur. H.-un ədəbi-publisistik və musiqi yaradıcılığına dair tədqiqatların - "Ü.Hacıbəyov" monoqrafiyası (1945, rusca; 1949, azərbaycanca), "Ü.Hacıbəyov. Biblioqrafiya" (1947), çoxsaylı məqalələrin müəllifi, Azərb.-ın elm və mədəniyyət xadimləri silsiləsindən nəşr edilən "Ü.Hacıbəyov" biblioqrafiyasının (1976, 1985) müəlliflərindən biridir.



**Q.Qasımov**



**F.Qasımova** və **L. İmanov** "Koroğlu" operasında.

H.-un ədəbi və elmi irsinin toplanması, tərtib və nəşr olunmasında xidməti var.

**QASIMOV** Pənah Ələkbər oğlu (1881-1939) – maarif xadimi. H.-un bacanağı idi. Qori seminariyasını (1905) və Tiflis müəllimlər in-tunu (1907) bitirdikdən sonra Lənkəranda və Bakıda müəllimlik etmiş, Azərb. dilində məktəblərin açılmasına çalışmışdır. Sonralar Ali Pedaqoji İns-tun və Azərb. Müəllimləri Təkmilləşdirmə İn-tunun direktoru, Azərb. SSR Xalq Maarif Komissarının müavini, Azərb. SSR Maarif İşçiləri Həmkarlar İttifaqının ilk sədri olmuşdur. H.-la yaxın dostluq əlaqəsi saxlamışdır. 30-cu illər repressiyasının qurbanlarından olmuş, sonralar bəraət almışdır.

**QASPRİNSKİ** İsmayıl bəy Mustafa ağa oğlu (1851-1914) – Krım-tatar publisisti, pedaqoq, ictimai xadim. "Tərcüman" qəzetinin naşiri olmuş, müsəlman məktəblərində yeni Avropa nümunəli "Üsuli-cədid" təhsil sistemini yaratmışdır. Q. 1912 ildə Moskvada xeyriyyəçilik fəaliyyəti göstərən "Müsəlman cəmiyyəti" təşkil etmişdi. H. və Məleykə xanım bu cəmiyyətin fəal üzvlərindən olmuşlar. Cəmiyyətə müxtəlif xalqların nümayəndələri (Azərb., tatar, özbək, türkmən, dağıstanlılar və s.) daxil idi.



**S.Qədimova**

**QƏDİMOVA** Sara Bəbiş qızı (1922-2005) – müğənni (lirik-koloratur soprano). Azərb. xalq art. (1963). 1941 ildən Azərb. Dövlət Filarmoniyasının solisti olmuş, H.-un bəstələdiyi bir sıra mahnıları ("Şəfqət bacısı" və s.) ilk dəfə ifa etmişdir. 1956-62 illərdə AOBT-nda Leyli, Əsli (Leyli və Məcnun", "Əsli və Kərəm") rollarını uğurla oynamışdır.

**"QƏDİRŞÜNASLIQ"** – H.-un məqaləsi. "Həqiqət" qəzetinin 15 fevral 1910 il tarixli 37-ci sayında dərc olunmuşdur. Məqalədə məşhur rus aktrisası V.F.Komissaryevskayanın vəfatı ilə əlaqədar Rusiya və Avropada ictimaiyyətin səhnə ustalarına göstərdiyi hörmət və qədirşünaslıqdan bəhs olunur. "Biz kimin qədrini bilirik ki, teatrçıların qədrini biləк" - deyən müəllif ümidsizliyə qapılmır, bu qənaətə gəlir ki, "20 əsrdə bütün aləmə car olmağa başlamış mədəniyyət selinin qabağını heç bir maneə ilə durdurmaq mümkün olmayacaqdır. Bu selin muradı dünya üzünün kəsafətini təmizləməkdir. Yavuqdur o zaman ki, haman seli-xüruşan bizim yerlərə dəxi hücumavər olub, üzərimizdə olan və bizi nəfəs almağa qoymayan kəsif daşları, qayaları yerindən oynadıb zail edər. O daşların altında yatmış olan qurdları yuyar, yerimizə, torpağımıza can verər. O halda bizim yerlərdə də güllər və çiçəklər bitib, buraları çəmənzara döndərər!.."



**S.Qəniyev**

**"QƏLƏBƏ HİMNİ",** "Zəfər himni" – H.-un xor və simfonik ork. üçün bəstələdiyi təntənəli oda. 1941-1945 illər müharibəsində xalqımızın qələbəsinə ithaf olunmuşdur. Əsərin mətn müəllifi Səməd Vurğundur. "Q. h." sənətkarlıq baxımından H.-un ən kamil və orijinal əsərlərindəndir. Oda 1985 ildə "İşıq" nəşriyyatında çapdan çıxan "Odlu illərin mahnıları" məcmuəsində nəşr edilmişdir.

**QƏMƏR XANIM** (əsl adı və soyadı Tamara Vissarionovna Topuriya; 1902-1947) – aktrisa. Azərb. əməkdar art. (1943). Milliyyətcə gürcüdür. Səhnə fəaliyyətinə 1918 ildə Z. və Ü.Hacıbəyov qardaşlarının teatr truppasında başlamış, ilk dəfə H.Ərəblinskinin hazırladığı "Arşın mal alan" musiqili komediyasında Gülçöhrə rolunda çıxış etmişdir. 1920-24 illərdə Tiflis Azərb. Dram Teatrında, 1924 ildən ADT-nda çalışmış, müxtəlif xarakterli obrazlar yaratmışdır.

**QƏMƏRLİNSKİ** (Məlikov) Əhməd Haşım oğlu (1880-1952) – aktyor. Azərb. əməkdar inc. xad. (1940). Səhnəyə ilk dəfə 1906 ildə Balaxanıda həvəskar aktyorların hazırladığı tamaşada çıxmışdır. Sonralar "Nicat" xeyriyyə cəmiyyəti nəzdindəki teatr truppasının aktyoru olmuş, 1924 ildən Bakı teatrlarında aktyor və rej. işləmişdir. H.-un "O olmasın, bu olsun", "Ər və arvad" musiqili komediyalarında Rüstəm bəy, Kərbəlayi Qubad rollarında çıxış etmişdir.

**QƏNİYEV** Sərvər Soltanhəmid oğlu (1937) – skripkaçı, dirijor, Azərb.xalq artisti (1982), prof. (1983), ADK-da (1954-1957), Moskva Dövlət Konservatoriyasında (1957-1961), oradaca aspiranturada oxumuşdur (1961-1963, prof. D.Siqanovun sinfi). İfaçıların I Zaqafqaziya müsabiqəsinin laureatı. 1971-1976 illərdə Qahirə Konservatoriyasında işləyib. 1989 il-



**S.Qədimova** "Leyli və Məcnun" operasında Leyli rolunda.

dən Türkiyədə yaşayıb-işləyir. Bilkənd Universitetinin professoru və simfonik orkestrinin dirijorudur. Azərbaycan Dövlət Kvartetində 1-ci skripkaçı (1967-1990) olmuş, Q.Qarayev ad. Azərbaycan Dövlət Kamera Orkestrinin yaradıcılarından biri olmuş, konsertmeyster, bədii rəhbər və baş dirijor kimi çalışmışdır.

**QƏZETÇİ RZA BƏY** – "O olmasın, bu olsun" musiqili komediyasında personaj. Rza bəyin timsalında H. hər cür yüksək qayə və məqsəddən uzaq, xalqın həqiqi dərd və problemlərinə biganə olan, qəzetdən yalnız öz şəxsi məqsədləri üçün istifadə edən prinsipsiz bir intelligent"in obrazını yaratmışdır. Rza bəyin digər səciyyəvi cəhəti onun özünü yalnız dilin təhrif edilməsində və korlanmasında büruzə verən türkpərəstliyidir. Danışığı, ədaları, geyimi ilə Osmanlı türklərini korkoranə təqlid edən Rza bəy sarkastik gülüş hədəfidir. Çünki o, özünü xalqın başbiləni, yolgöstərni saysa da, əslində hər cür milli və ictimai tərəqqiyə mane olur, simasızlığı, pul düşkünlüyü, əqidəsizliyi ilə ictimai mənada Məşədi İbaddan və müflisləşmiş Rüstəm bəydən daha təhlükəli bir tipdir. Rolun ilk ifaçısı məlum deyil. Lakin elə 1911 ilin iyununda Tiflisdə göstərilən tamaşada bu rolu C.Hacıbəyli ifa etmişdir. "O olmasın, bu olsun" bədii filmində (1956) xalq artisti İ.Osmanlı Rza bəyin yaddaqalan surətini yaratmışdır.

**"QIZIL ƏSGƏR MARŞI"** – H.-un solist, xor və fp. üçün bəstələdiyi marşmahnı (1934). Xalq arasında nəqəratın ilk sözlərindən gələn "Addımla əsgər" adı ilə də tanınır. Marşın mətn müəllifi M.S.Ordubadidir. "Q. ə. m." ilk dəfə 1934 ildə Azərb. musiqi nəşriyyatı tərəfindən nəşr olunmuşdur.

**QLAZUNOV** Aleksandr Konstantinoviç (1865-1936) – rus bəstəkarı, dirijor, musiqi xadimi. Peterburq konservatoriyasının direktoru (1905 - 1928). "Qüdrətli dəstə" və P.İ.Çaykovski ənənələrini yaradıcılıqla davam etdirən Q. rus simf. musiqisinin inkişafında mühüm rol oynamışdır. Simfoniya, balet və kamera əsərlərinin müəllifidir. H. 1914 il yanvar ayının əvvəlində, Q.-un direktor olduğu Peterburq konservatoriyasının orqan sinfinə qəbul edilmişdir (o, həm də kompozisiya kursu keçirdi).

**QLİER** Reynhold Moritseviç (1875 - 1956) – bəstəkar, dirijor, Azərb (1934) və SSRİ (1938) xalq art. Stalin mükafatları laureatı (1946, 1948, 1950). Azərb, SSR Xalq Maarif Komissarlığının dəvəti ilə Bakıya gəlmiş (1923), Azərb. musiqi folkloru və "Aşıq Qərib" dastanı əsasında "Şahsənəm" operasını yazmışdır (ilk tamaşası 1927, 2-ci redaksiyası 1934). H. Azərb. milli musiqi mədəniyyətinin inkişafında əhəmiyyətli rolu olmuş bu operanı yüksək qiymətləndirərək yazmışdır: "R.M.Qlierin təcrübəsi Azərbaycan musiqisinə simfoniya üslubu gətirmək, Azərbaycan musiqi mövzuları əsasında mürəkkəb formalar yaratmaq sahəsində çox böyük rol oynamışdır". Q. isə H.-un "Azərbaycan xalq musiqisinin əsasları" kitabının Azərb. musiqi mədəniyyətinin inkişafında misilsiz əhəmiyyət kəsb edəcəyinə əmin olduğunu bildirmişdir.



R.M.Qlier

**QOÇU ƏSGƏR** – "O olmasın, bu olsun" komediyasında personaj. Digər sənət həmkarları kimi Q. Ə. də sadəcə dil pəhləvanıdır, kobud və naqqaldır, ağlına, biliyinə, mərifətinə deyil, həmişə ayaqda saxladığı "piştova" arxalanır. Lakin zahiri zəhmliyinə, sərhəd bilməyən dil qəhrəmanlığına baxmayaraq, Q. Ə. əslində qorxaq və ürəksizdir, fırıldaqçı və yalançıdır. Sərvərlə qarşılaşdığı zaman adicə bir fit səsindən qorxaraq bütün dəstəsi ilə qaçdığı səhnə Q. Ə.-in daxili miskinliyini aşkara çıxarır. Q. Ə. də pula pərəstiş baxımından əsərdəki digər personajlardan fərqlənmir.



A.K.Qlazunov

İlk illər Q. Ə. rolunu əsasən Xəlil Hüseynov ifa edirdi. Görkəmli sənətkarımız M.Sənani Q. Ə.-in teatrda və kinoda koloritli, canlı obrazını yaratmışdır.

**QOQOL** Nikolay Vasilyeviç (1809-1852) – rus yazıçısı. Q.-un yaradıcılığı C. Məmmədquluzadə, N.Nərimanov, Ə.Haqverdiyev və b. Azərb. yazıçılarının ictimai-ədəbi görüşlərinə təsir göstərmişdir. Azərb. ədəbiyyatı, dramaturgiyası və publisistikasında Q.-un satirik və yumoristik gülüşündən istifadə olunmuşdur. Yazıçının "Müfəttiş" (ilk tərcüməçisi N.Nərimanov, 1896), "Evlənmə" (tərcüməçi M.Hacınski) komediyaları Azərb. səhnəsində dəfələrlə tamaşaya qoyulmuşdur. Onun məşhur "Şinel" hekayəsi H.-un tərcüməsində ilk dəfə "Tərəqqi" qəzetində hissə-hissə (1909, № 62, 63, 66, 86, 106, 121, 126, 131) dərc olunmuşdur. H. "Quyruqlu ulduz" səhnəciyini (1909) və "Şəhər işləri" felyetonunu (1910) Q.-un təsirilə yazdığına açıq işarələr etmişdir.



N.Qoqol

**QOLDENVEYZER** Aleksandr Borisoviç (1875-1961) – pianoçu, bəstəkar, pedaqoq, musiqi xadimi. SSRİ xalq art.

(1946), Stalin mükafatı laureatı (1947). Moskva konservatoriyasının prof. (1906-61) və direktoru (1922-27; 1939-42) olmuşdur. Azərb. pianoçu kadrların (N.Usubova, S.Quliyeva, A.Zülfüqarova və b.) yetişməsində xidməti var. 1938 ildə Moskva konservatoriyasında musiqiçilərlə H.-un görüşünü təşkil etmişdir. (H.-un Azərb. xalq musiqisinin əsasları haqqında məruzəsi görüş iştirakçıları tərəfindən böyük maraqla qarşılanmışdı). H.-un dəvəti ilə ADK-nda dövlət imtahan komissiyasının sədri kimi dəfələrlə Bakıya gəlmişdir.

**QORİ SEMİNARİYASI,** Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası – Zaqafqaziyanın, əsasən yerli əhalisindən ibtidai məktəb müəllimi hazırlayan orta pedaqoji təhsil müəssisəsi. 1876 ildə (Azərb. şöbəsi 1879 ildə) Qori ş.-ndə açılmış, 1918 ilədək fəaliyyət göstərmişdir. Seminariya Zaqafqaziya xalqlarının, o cümlədən Azərb. xalqının mədəni inkişafında mühüm rol oynamışdır. Azərb.-nın bir sıra görkəmli maarif, mədəniyyət, elm, ədəbiyyat və incəsənət xadimləri Q. s.-nın məzunu olmuşdur. H. 1899 ildə H.Vəzirovun müdir olduğu Şuşa iki sinifli rus-tatar məktəbini əla əxlaq və müvəffəq qiymətlərlə bitirib, həmin il Q. s.-nın aşağı hazırlıq sinfinə qəbul edilmişdir. Seminariyadakı təhsil illərində o, səylə oxumuş, dünya ədəbiyyatı klassiklərinin əsərləri ilə tanış olmuş, mütərəqqi pedaqogika elminin sirlərinə yiyələnmişdir. Seminariyanın aşağı hazırlıq sinfinin müəllimi K.Qaraqanidzenin seminariya tələbələrinin təhsil müvəffəqiyyəti haqqında hesabatlarından H.-un öz üzərində səylə çalışdığı məlum olur. O, seminariyanın ictimai işlərində də yaxından iştirak etmiş, ən yaxşı tələbələrdən biri kimi hörmət qazanmışdır. Tələbə yoldaşlarının onun haqqında yazdığı xatirələrindən məlum olur ki, H. dadlı-duzlu söhbətləri və şeirləri ilə seminariyada "tatar şairi" ləqəbini qazanıbmış. Yuxarı sinif rəhbəri V.Polevski də yazdığı rəylərdə H.-un dilinin səlisliyi, aydınlığı və elmiliyini xüsusi vurğulamışdır.

H. seminariyanın musiqi həyatında da yaxından iştirak etmişdir. O, hələ hazırlıq sinfində oxuyarkən seminariyadakı orkestrə üzv yazılmışdı. Sonralar musiqi qabiliyyəti ilə başqalarından seçilən H. öz üzərinə seminariyanın aşağı sinif tələbələrinə musiqi dərslərini öyrətmək kimi böyük vəzifə götürür. Bu zaman onda əsl müəllimə xas olan öyrətmək, təşkil etmək, ünsiyyət yaratmaq kimi gözəl keyfiyyətlər inkişaf edib təşəkkül tapır. Seminariyanın müəllimlər şurası H.-un musiqi müəlliminə böyük köməkliyini nəzərə alaraq, onu 20 manat məbləğində pulla mükafatlandırmağı qərara almışdı.

Q. s.-nın Gürcüstanın Xalq Maarifi Muzeyində qorunub saxlanan arxiv sənədlərindən aydın olur ki, seminariyanın son kursunda pedaqoji təcrübə zamanı H. rus dilindən sınaq dərsi demişdir. Maraqlı fakt burasındadır ki, H. dərsi o zaman məktəblərdə hökm sürən "lal üsul"la deyil, "təbii üsul"la aparmışdır. Bu, sinif rəhbərinin diqqətini cəlb etmişdir. Sinif rəhbəri V. Polevski 1904 ildə H.-un bu orijinallığını o qədər təqdir etməsə də, onun gələcəkdə bacarıqlı, ağıllı və bənzərsiz müəllim olacağını etiraf etməyə məcbur olmuşdu. H. 1904 ildə seminariyanı bitirərək ibtidai kənd məktəbi müəllimi adını almış və həmin ilin iyul ayında Cəbrayıl qəzası Hadrut kənd məktəbinin 3-cü paralel sinfinə müəllim təyin olunmuşdur. Təyinatını aldıqdan sonra müəllim M.Alekseyeviçə yazdığı məktubunda H. onun istər bir şəxsiyyət, istərsə də müəllim kimi formalaşmasında seminariyanın roluna yüksək qiymət verərək yazırdı: "...Şübhəsiz, çətin, lakin müqəddəs vəzifənin icrasına başlayaraq, Ana Seminariyanın bizə möhkəm aşıladığı mənəvi və fiziki qüvvələri büruzə çıxaracağam".

**QRABAR** İqor Emmanuiloviç (1871-1960) – rus rəssamı, sənətşünas. SSRİ xalq rəs. (1956), SSRİ EA-nın (1943) və SSRİ Rəssamlıq Akademiyasının (1947) həqiqi üzvü, SSRİ EA İncəsənət Tarixi İn-tunun direktoru (1944-60). 1945 ildə Azərb. SSR EA İncəsənət İn-tu (indiki Azərb. EA Memarlıq və incəsənət İn-tu) açıldıqdan sonra, H. onun inkişafını düzgün yönəltmək məqsədilə Q.-la görüşüb, yeni yaradılmış in-tun məşğul olacağı problemlər, tədqiqat işlərinin istiqaməti və gələcək əməkdaşlıq perspektivləri barədə ətraflı fikir mübadiləsi etmişdir.

**QRİŞAŞVİLİ** İosif Qriqoryeviç (1889-1965) – gürcü şairi. Gürcüstanın xalq şairi (1959), Gürcüstan EA-nın akademiki (1946). Azərb. dilini yaxşı bilmiş, Azərb. şairlərinin əsərlərini, eləcə də, H.-un "Arşın mal alan" musiqili komediyasının şeirlərini gürcü dilinə tərcümə etmişdir. O, bununla əlaqədar 1915 ildə mətnin tərcüməçisi İ.İ.Giqoşvili ilə Bakıda, H.-un evində olmuşdur. "Arşın mal alan" gürcü dilində ilk dəfə 1916 ildə Zubalovun "Xalq evi"ndə tamaşaya qoyulmuş, uzun illər səhnədən düşməmiş, vaxtaşırı yeni quruluşlarda oynanılmışdır.

**QUBA DRAM TEATRI,** A. Bakıxanov ad. Quba Dram Teatrı – 1940 ildə kolxoz-sovxoz teatrı kimi yaradılmış, 1946 ildə dövlət dram teatrına çevrilmiş və həmin il ona A. Bakıxanovun adı verilmişdir. Aktyor və rej.-lardan İ.Musayev, Yusif Yulduz, C.Bağdadbəyov, A. Kazımov, Səyavuş Aslan, M.Hacıbəyov, F.Mehdiyev və b. müxtəlif illərdə teatrda fəaliyyət göstərmişlər. Teatrın repertuarında H.-un "Arşın mal alan", "O olmasın, bu olsun", "Ər və arvad" musiqili komediyaları mühüm yer tutmuşdur. Teatr 1962 ildə bağlanmışdır.

**QULİYEV** Cahid Süleyman oğlu (1928-1991) – fəlsəfəşünas. Fəlsəfə e.d. (1970), prof, (1972), Azərb. əməkdar elm xadimi (1990). N.Tusi ad. APU-nun fəlsəfə (1973-78), sosiologiya və politologiya (1978-91) kafedralarının müdiri olmuşdur. Azərb. ədəbiyyatı və incəsənətində humanizm və estetika problemlərinə aid bir sıra əsərlərin müəllifidir. H.-un fəlsəfi və estetik görüşlərindən bəhs edən "Böyük humanist (Ü.Hacıbəyovun həyat və yaradıcılığından səhifələr)" (1981) monoqrafiyası bu baxımdan xüsusilə diqqətəlayiqdir.

**QULİYEV** Cavanşir Rəhim oğlu (d.1950) – bəstəkar, əməkdar incəsənət xadimi (1992), dosent (2005). ADK-nı professor Cövdət Hacıyevin sinfi üzrə bitirib (1975). Əsas əsərləri: 2 operetta, zurna və simfonik orkestr üçün "Uvertüra", 4 simfoniya, saz və skripka üçün Sonata, simli orkestr üçün "Dastan", piano üçün "Azərbaycan muğamlarında yeddi kiçik pyes", fleyta, saz və violonçel üçün "Karvan", mahnılar, kinofilmlərə, teatr tamaşalarına musiqi və s.

H.-un ənənələrini davam etdirərək öz musiqisində muğamın, aşıq musiqisinin prinsiplərindən, xalq çalğı alətlərinin tembrlərindən yaradıcılıqla istifadə edir.

**QULİYEV** Əliağa Eyvaz oğlu (1917-?) – tarzən, Azərb. xalq art. (1989). A. Zeynallı ad. musiqi məktəbində H.-un sinfini bitirmişdir. Sonralar H.-un rəhbərlik etdiyi birinci notlu Azərb. xalq çalğı alətləri ork.-ində (Azərb. Radio Verilişləri Komitəsinin nəzdində) çalmış, 1936 ildən AOBT-nda "Koroğlu" operasında tarzənlər qrupunun konsertmeysteri olmuşdur. Bu dövrdə Bakı Musiqi Texnikumunda da fəaliyyətə başlamışdır. Burada H., eləcə də S.Rüstəmov, Ə.Bakıxanov, Q.Pirimov, M.Mənsurov, H. Xanməmmədov, Əmrullah və Adil Gəray Məmmədbəyli ilə birlikdə Avropa not sistemi ilə tədris planı tərtib etmiş və təhsili bu yöndə davam etdirmişdir.

**QULİYEV** Mustafa Zəkəriyyə oğlu (1893-1938) – tənqidçi, sənətşünas, ictimai xadim. Tiflis gimnaziyasını bitirdikdən (1913) sonra Kiyev un-tinin fizika-riyaziyyat fakültəsinə daxil olmuş, orada inqilabi hərəkata qoşulmuş, təhsilini başa çatdırmadan Bakıya qayıdaraq siyasi fəaliyyət göstərmişdir. Sovet hakimiyyəti dövründə bir sıra məsul vəzifələrdə (o cümlədən xalq maarif komissarı vəzifəsində) çalışmış, eyni zamanda "Maarif və mədəniyyət" jurnalının redaktoru (1923-26, 1929-31) olmuşdur. Q. ədəbiyyat və incəsənətin inkişaf prosesinin yaradıcılıq, nəzəri-metodoloji və təşkilati məsələlərinə dair məqalələrin müəllifidir. Lakin bir sıra məqalələrində vulqar-sosioloji, milli mədəni irsə, ədəbi-mədəni ənənələrə münasibətdə nihilist meyllərin təsirinə qapılaraq muğamatı yad, tarı gəlmə musiqi aləti sayır, musiqi məktəblərində tarın tədrisinin əleyhinə çıxırdı. H. bu yanlış dünya görüşlərlə mübahisə edərək tarın təkcə "gələcək üçün sazandalar hazırlanması" üçün deyil, "Şərq musiqisinin əsası olan muğamatın kəşf və şərhi üçün elmi bir alət sifəti ilə" (Əsərləri, B., 1985, səh. 203) musiqi məktəblərinin, konservatoriyanın proqramına daxil edilməsinin vacibliyini göstərirdi.



C.Quliyev

**QULİYEV** Rafiq Teyyub oğlu (d.1934) – pianoçu. ADK bitirib (1957), Azərb. əməkdar art. (1989), Azərb. Dövlət Musiqi Akademiyasının professoru (1960). Moskva Konservatoriyasının aspiranturasını bitirib. H-un bir sıra əsərlərini ifa edib.

1960 Moskvada, Sütunlu zalda H.-un 75 illiyinə həsr olunmuş gecədə onun "Cəngi" və "Yaxşı yol" fp. üçün əsərlərini ifa etmişdir.



R.Quliyev

**QULİYEV** Ramiz Əyyub oğlu (d. 1947) – tarzən, pedaqoq, Azərb, xalq art. (1989), prof. (1990). H.-un bir sıra əsərlərini ("Sənsiz", "Sevgili canan" və s.) tar və fp. üçün işləmiş, onların tarda ilk ifaçısı olmuş və bu əsərləri dünyanın bir çox ölkəsində ifa etmişdir. H. haqqında bir sıra elmi məqalələrin, metodik tövsiyələrin müəllifidir. "Üzeyir ömrü" bədii filmində çəkilmişdir.



R.Quliyev

**QULİYEV** Tofiq Ələkbər oğlu (1917-2000) – bəstəkar, musiqi xadimi. Azərb. xalq art. (1964). 1934 ildə ADK-na daxil olmuş, burada H.-un təsiri ilə xalq musiqi folklorunu ciddi öyrənmişdir. Bu dövrdə bir qrup gənc musiqiçi ilə birlikdə Azərb. xalq musiqisinin toplanıb yazılmasında fəal iştirak etmiş, 1935 ildə "Rast" və "Segah-zabul" muğamlarını no-



T.Quliyev

ta salmışdır. 1936 ildə H.-un təklifi ilə Q. təhsilini davam etdirmək üçün Moskva konservatoriyasına göndərilir, burada bəstəkarlıq və dirijorluq üzrə təhsil alır. 1939 ildə Bakıya qayıdaraq resp.-da ilk caz-ork. təşkil edir. Müxtəlif illərdə Moskvada A.Sfasman və E.Roznerin ork.-ləri ilə işləmiş, Azərb. estrada ork.-nə rəhbərlik etmişdir. 1951 ildə Moskva konservatoriyasını, 1954 ildə isə oranın aspiranturasını bitirərək Bakıya qayıtmış, 1954-57 illərdə ADK-nın ork. sinfinə rəhbərlik etmiş, 1961-64 illərdə Azərb. Dövlət Filarmoniyasının direktoru (1958-59 illərdə bədii rəhbəri) olmuşdur. Azərb. estrada musiqisinin yaradıcılarındandır. Xalq musiqisinin ənənələrindən faydalanan Q.-in mahnıları kütləvi mahnı janrının gözəl nümunələrindəndir. Onun musiqi dili sadə, aydın və milli koloritlidir. Q. yüzlərlə mahnı, 5 operetta, valslar, fp. üçün prelüd və variyasiyalar, filmlərə və dram tamaşalarına musiqi və s. yazmışdır. Q. Azərb. musiqi folkloruna münasibət və ondan istifadə üslubuna görə H.-un yolunu davam etdirmiş, özünəməxsus, bənzərsiz musiqi dili yaratmışdır.



İ.Quliyeva

**QULİYEVA** İlhamə Məzahir qızı (1943) – müğənni, Azərb. xalq art. (1998). ADU-nun filologiya fakültəsini bitirmişdir (1968). Səhnə fəaliyyətinə tələbəlik illərindən başlamışdır. Azərb. Dövlət Filarmoniyasının və Konsert Birliyinin solisti olub. 46 ildən çoxdur ki, Azərb. Dövlət Televiziyasının solistidir. İ.Q. "Humay" mükafatına layiq görülmüşdür. 2003 ildə Şöhrət ordeni ilə təltif olunmuşdur.

Yaradıcılığında T.Quliyev, F.Əmirov, C.Cahangirov, Hacı Xanməmmədov, F.Sücəddinovun və b. mahnıları yer tutur. İ.Q. H.-un "Qara göz" mahnısını və "Arşın mal alan"dan Gülçöhrənin ariyasını ifa edir.

**QULİYEVA** Qəndab Həbi qızı (d. 1949) – müğənni. Azərb. xalq art. (1992). A.Zeynallı ad. Bakı Musiqi Məktəbini bitirmişdir (1980). 1982 ildən solisti olduğu AOBT-nda H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında Leyli və Əslinin partiyalarında çıxış edir.

**QULİYEVA** (Məmmədbəyova) Səltənət Məmməd bəy qızı (1907-1979) – müğənni (lirik soprano). Azərb. əməkdar art. (1943). 1927 ildən H.-un dəvəti ilə Azərb. radiosunda solist-müğənni kimi çıxış etmişdir. 30 illərdə ADK-nda vokal üzrə təhsil almışdır. 1934-48 illərdə



**Q.Quliyeva** "Leyli və Məcnun" operasında Leyli rolunda.

AOBT-nın solisti olmuş, burada Nigar və Gülçöhrə ("Koroğlu", "Arşın mal alan") partiyalarında çıxış etmişdir.

**QUMRİYEV** Ağamehdi Teyyub oğlu (1924-1989) – rəssam. Azərb. tətbiqi sənət ustası (1964). Əsasən bədii tərtibat və tətbiqi sənət sahəsində çalışmışdır. 1941-51 illərdə Bakı kinostudiyasında quruluşçu rəssam işləmiş, H.-un eyniadlı musiqili komediyası əsasında çəkilmiş "Arşın mal alan"ı (1945) filminin bədii tərtibatını və geyim eskizlərini vermişdir.

**QURBANOV** Ağadadaş Gülməmməd oğlu (1911-1965) – aktyor. Azərb. xalq art. (1954). Səhnə fəaliyyətinə 1927 ildə Gənc Tamaşaçılar Teatrında başlamış, 1952 ildən ADT-nda işləmişdi. Həm dramatik, həm də xarakterik və komik səpkili rollarda müvəffəqiyyətlə çıxış edirdi. 1965 ildə "Arşın mal alan" filmində Soltan bəy rolunda çəkilmişdir.



**A.Qurbanov** "Arşın mal alan" filmində Soltan bəy rolunda.

# L

**LEVİN** Matvey Abramoviç (1907-1975) – müğənni (bariton). Azərb. əməkdar art. (1940). AOBT-nın rus bölməsin-



**M.Levin** Həsən xan rolunda.

də tamaşaya qoyulan Azərb. operalarında çıxış etmiş ilk artistlərdəndir. H.-un "Koroğlu" operasında Həsən xan rolunu böyük məharətlə oynamışdır.

**"LEYLİ VƏ MƏCNUN"** – H.-un ilk operası. 1907 ildə yazılmış, 1908 il yanvarın 25-də Tağıyev teatrında ilk tamaşası olmuşdur. İlk redaktədə əsər 5 pərdə və 6 şəkildə, sonrakı quruluşlarda 4 pərdə, 6 şəkildə idi. "L. və M."-la Azərb. musiqi mədəniyyəti tarixində yeni bir dövr açılmış, eyni zamanda müsəlman Şərqində opera janrının əsası qoyulmuşdur. Opera M.Füzulinin eyniadlı poemasının motivləri əsasında yazılmışdır. Librettonun müəllifi H.-dur. O, poemanın əsas ideya məzmununu, şeirlərini olduğu kimi saxlamış, eyni zamanda orta əsr Şərq aləminin ziddiyyətli mühitini daha qabarıq vermişdir. Beləliklə, H. keçmişin obrazları vasitəsilə yaşadığı dövrün gərgin inkişafı ilə seçilən demokratik proseslərini açıb göstərmişdir. "L. və M." muğam ilə Avropa operasının üzvi vəhdətindən yaranmış yeni opera janrının - muğam operasının ilk nümunəsidir. Muğamlar operanın əsas musiqi materialı olaraq ənənəvi opera formalarını - ariya, ariozo, reçitativ, vokal ansamblları (duet, trio və s.) əvəz etmişdir. Qəhrəmanların obrazlarının açılmasında, bütövlükdə musiqi dramaturgiyasının inkişafında muğamlar mühüm rol oynayır. "L. və M."-da musiqi dramaturgiyasının tədricən, lirik-epik planda inkişaf etməsi onun obraz-emosiya məzmunundan, intonasiyasının inkişafı və kompozisiya quruluşundan irəli gəlmişdir. Operanın bir çox bitkin səhnələri muğam üstündə qurulmuşdur. H. muğamların not yazısını verməmişdir. Müğənni-xanəndələr öz vokal partiyalarını tarzənin müşayiətilə oxuyurlar. H. muğamların əsrlər boyu təşəkkül tapmış ənənəvi emosional təsir gücünü, qavranılma xüsusiyyətlərini nəzərə almışdır. Məsələn, I pərdədə Leyli ilə Məcnun qarşılıqlı məhəbbətinin sevinc və fərəhi lirik, xoş əhvallı Segah muğamı ilə verilmişdir. Sonrakı pərdələrdə talelərinin faciəviliyini anlayan qəhrəmanların partiyasında kədər, iztirab ifadə edən Şur, Bayatı-Şiraz və s. muğamlar səslənir. Oğlunun vəziyyətindən narahat



**“Leyli və Məcnun”** operasının
I pərdəsindən bəstəkarın əlyazması.

olan Məcnunun atası I pərdədə həyəcanlı, gərgin Çahargah muğamını oxuyur. Nofəlin cəngavər obrazı üçün H. mətin, marş xarakterli heyratı zərbi muğamından istifadə etmişdir. H. muğamları səhnə hadisələrinə münasib seçməklə onların ifadə vasitələrinin yeni xüsusiyyətlərini üzə çıxarmışdır. “L. və M.”-da klassik Azərb. xalq mahnı melodiyalarından istifadə edilmişdir (I pərdədə mədrəsə şagirdlərinin xoru - “Evləri var xana-xana”; Məcnunun səhradakı səhnəsindəki qızlar xoru - “Bu gələn yara bənzər”). Bu opera əsrlər boyu təşəkkül tapmış Azərb. musiqi mədəniyyəti haqqında hərtərəfli, tam təsəvvür yaradır. Ona görə də “L. və M.”-u şifahi ənənəli Azərb. musiqisinin ensiklopediyası adlandırmaq olar. Operada H.-un bəstələdiyi orijinal musiqi, əsasən muğam səhnələrini əlaqələndirərək ork. ifasında səslənir; bəzi vokal partiyalar da müəllif tərəfindən yazılmışdır (1 pərdədə Məcnunun atası, anası və Məcnunun triosu). Bu musiqi parçaları təsnif, rəng, yaxud xalq mahnıları ruhunda bəstələnmişdir. Müxtəlif funksiya daşıyan xor musiqisinin geniş tətbiq edilməsi “L. və M.”-un musiqi dramaturgiyasının başlıca xüsusiyyətlərindəndir. Əsas qəhrəmanların psixoloji vəziyyətinin, məişət səhnələrinin xarakterizə olunması, səhnə hadisələrinə münasibət bildirilməsində xorlar vasitəçi rolunu oynayırlar. Xorların musiqi fakturası sadə, melodiyası əsasən birsəslidir (bəzi xorlarda melodiya tersiya və ya seksta intervalı nisbətində ikisəsli şərh olunmuşdur). Operanın ork. heyəti ilkin variantlarda çox sadə - yalnız simli musiqi alətlərindən ibarət olmuşdur; muğam səhnələrində müğənni yalnız tarın müşayiəti ilə oxumuşdur. Əsərdə uvertüra, “Ərəb rəqsi” (Leyli və İbn Səlamın toy səhnəsində), antrakt (III pərdənin sonuncu şəklində) kimi müstəqil ork. parçaları vardır. “L. və M.”-un musiqisi H.-un yeni bəstəkarlıq üslubu yaratmaq, xüsusilə milli lad-intonasiya sistemi ilə Avropa major-minor sisteminin qarşılıqlı təsiri və üzvi əlaqəsi sahəsindəki novator meylləri üçün başlanğıc, əsas mənbə olmuşdur. H. muğam ifaçılığına səciyyəvi olan imitasiyalı polifoniya elementlərindən istifadə edərək “Arazbarı” zərbi muğamı üstündə qurulmuş parlaq simf. əsər - sonuncu pərdənin antraktını yaratmışdır. Bu antrakt müstəqil




**“Leyli və Məcnun”** operasının
ilk tamaşasının afişası.









**“Leyli və Məcnun”** operasının müxtəlif illərdəki tamaşalarından səhnələr.













**“Leyli və Məcnun”** operasının müxtəlif illərdəki tamaşalarından səhnələr.









**“Leyli və Məcnun”** operasının müxtəlif illərdəki tamaşalarından səhnələr.



**N.Məmmədova** və **A.Babayev** **“Leyli və Məcnun”** operasında.

əsər kimi də ifa olunur; o, Azərb. simf. musiqisinin ilk nümunəsi kimi simf. muğam janrının meydana gəlməsinə zəmin hazırlamışdır. Opera ilk tamaşasından bu günədək Azərb. dinləyicilərinin məhəbbətini qazanmış ən sevimli əsərlərdən biridir. O, AOBT-nın daimi repertuarındadır. H. bu opera üzərində dəfələrlə işləmiş, təkmilləşdirmiş, yeni musiqi parçaları əlavə etmiş, lakin əsərin bənzərsiz, təravətli musiqi üslubunu qoruyub saxlaya bilmişdir. “L. və M.”-un təsiri ilə İranda demokrat şair M.Eşqi “Rəstaxize-səlatine-İran” (“İran səltənətinin dirçəlişi”) muğam operasını yazmışdır (1916-17). “L. və M.” - Qafqaz bölgəsində, eləcə də Orta Asiya və İranda dəfələrlə nümayiş etdirilmiş, bu xalqların professional musiqi mədəniyyətinin təşəkkülündə əhəmiyyətli rol oynamış və indi də oynamaqdadır.



**Ə.Ləmbəranski**

“L. və M.”-un ilk tamaşasının rej. H.Ərəblinski, dirijoru Ə. Haqverdiyev olmuşdur. Rollarda: H.Sarabski (Məcnun), Ə.Fərəcov (Leyli), C.Dağıstani (ibn Səlam), M.Kazımovski (Məcnunun anası), Mirzə Muxtar (Məcnunun atası), İ.Qasımov (Leylinin atası), C.Vəzirov (Leylinin anası) çıxış etmişlər. Rej.-lardan S.Dadaşov (1935, 1958), M.Məmmədov (1955, 1976), F.Səfərov (1994) operanın yeni quruluşunu vermişlər. Baş rollarda Ə.Sadıqov, H.Hacıbababəyov, Ə.Əliyev, B.Haşımov, Q.Əsgərov, C.Əkbərov (Məcnun), S.Qacar, H.Rzayeva, G.Həsənova, R.Muradova, S.Qədimova, Z.Xanlarova, N.Məmmədova, S.İsmayılova, Q.Quliyeva (Leyli) və b. çıxış etmişlər. Bəstəkar N.Əliverdibəyov operanın yeni ork. redaksiyasını hazırlamışdır. “L. və M.”-un librettosu ilk dəfə 1912 ildə Bakıda Orucov qardaşlarının mətbəəsində, klaviri 1959 ildə, partiturası 1983 ildə çap edilmişdir (baş redaktoru Q.Qarayev, redaktoru N.Əliverdibəyov, ön söz və şərhlərin müəllifi Z.Səfərova).

1996 ildə Azərbaycantelefilm” yaradıcılıq birliyində “Leyli və Məcnun” film-operası çəkilmişdir (rej.-lar Nazim Abbas və Ş.Nəcəfzadə).

**“LEYLİ VƏ MƏCNUN”DAN “KOROĞLU”-YA QƏDƏR”** – H.-un məqaləsi. “Bakinski raboçi” qəzetinin 1938 il 16 mart tarixli sayında çıxmışdır; “Искусство азербайджанского народа” (M.-L., 1938) məcmuəsində də dərc olunmuşdur. Məqalədə Azərb. operasının, eləcə də bəstəkarın özünün keçdiyi otuz illik yaradıcılıq yolu, Azərb. musiqisinin bu dövrdəki uğurları araşdırılır. Burada “Leyli və Məcnun” operasının yaranma tarixindən, əsərin ilk tamaşası zamanı qarşıya çıxan çətinliklərdən, onun ifaçılarından ətraflı danışılır. Müəllif opera və musiqili komediyalarının mövzusunu şərh edir, ilk operaların nöqsanlarını açıb göstərir. H. müasir tələblərə cavab verən “Şahsənəm”, “Koroğlu”, “Nərgiz” operalarının yaranması ilə yanaşı, dördsəsli xor, notlu ork., nota yazılmış muğamlar və simf. əsərlərin meydana gəlməsini, musiqi ifaçılarının yetişməsini inkişaf etməkdə olan Azərb. musiqi mədəniyyətinin böyük nailiyyətləri kimi qeyd etmişdir.

**LƏMBƏRANSKİ** Əliş Cəmil oğlu (1914-1999) – dövlət xadimi. Məsul dövlət vəzifələrində çalışıb. SSRİ Dövlət mükafatı laureatı (1951). Azərb. SSR əməkdar mühəndisi (1964). Ən güclü, yaddaqalan Bakı şəhəri İH başçısı olmuşdur (1956-1966). H.Əliyev adına Respublika sarayının inşası zamanı fəal üzvlərdən biri olub. Opera və Balet Teatrı, Musiqili komediya teatrının yenidən bərpa olunmasında böyük əməyi olub. Bu da həmin səhnələrdə H.-un “Arşın mal alan” və “O olmasın, bu olsun” əsərlərinə tamaşa etməyə imkan verir.

**LƏNKƏRAN DRAM TEATRI,** N. Vəzirov ad. Lənkəran Dövlət Dram Teatrı – 19 əsrin ortalarından Lənkəranda həvəskar tamaşalar göstərilmiş, 1905 ildə H.Ərəblinskinin iştirakı ilə N.Vəzirovun “Müsibəti-Fəxrəddin” pyesi oynanılmışdır. 1930-cu illərdən xalq teatrı kimi fəaliyyət göstərmişdir. 1973 ildən Dövlət Dram Teatrıdır. Burada “Leyli və Məcnun (1943), “Əsli və Kərəm” (1944) operaları, H.-un musiqili komediyaları və felyetonları əsasında “Olanlardan, keçənlərdən” tamaşası (1978) səhnəyə qoyulmuşdur.

# M

**MAARİF MUZEYİ,** Azərb. Resp. Təhsil Nazirliyinin Xalq Maarifi Muzeyi – 1940 ildə Bakıda yaradılmışdır. Azərb.-da xalq maarifinin 1810 ildən başlayaraq, inkişaf mərhələlərini əks etdirən muzeyin ekspozisiyası 1976-79 illərdə elmi-tarixi əsaslarla yenidən qurulmuşdur. Muzeyin ekspozisiyasında H.-un təhsili və pedaqoji fəaliyyəti ilə bağlı sənədlər də əksini tapmışdır. Qori seminariyasına həsr olunmuş bölmədə H.-a aid xüsusi stend ayrılmışdır. Burada gənc Üzeyirin Qori seminariyasına qəbul edilmək üçün direktorun adına yazdığı ərizə, onun seminariyanın qəbul imtahanlarına buraxılmasına dair şəhadətnamə, seminariyanın tələbələri ilə birlikdə çəkdirdiyi fotoşəkil, seminariyanı qurtarması haqqında şəhadətnamənin surəti və s. nümayiş etdirilir. Başqa bir bölmədə H.-un "Səadət" məktəbinin şagirdləri ilə çəkdirdiyi fotoşəkil, "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti" və s. var. Ekspozisiyadakı materiallardan əlavə, muzeyin fondunda H. haqqında dövri mətbuatda dərc edilmiş məqalələr, fotoşəkillər və b. sənədlər saxlanılır.



**B.Mahmudoğlu** Məcnun rolunda.

**MAÇAVARİANİ** Aleksey Davidoviç (1913-1995) – gürcü bəstəkarı. SSRİ xalq art. (1958). SSRİ Dövlət mükafatı laureatı (1951). "Ana və oğul", "Hamlet" operalarının, "Pələng dərisi geymiş pəhləvan", "Otello" baletlərinin və s. əsərlərin müəllifidir. M. 1928 ildə Qoridə "O olmasın, bu olsun" musiqili komediyasında Sərvər rolunu ifa etmişdir. H. yaradıcılığının böyük pərəstişkarı olan M. onun haqda mətbuatda çıxış etmiş, eləcə də H. haqqında çəkilmiş sənədli filmdə xatirələrini söyləmişdir.

**MAHMUDOĞLU** (Mirzəyev) Baba (1940-2006) – müğənni. Azərb. xalq art. (1992). 1962 ildən AOBT-nın muğam şöbəsində əvvəl stajor, sonra isə solist işləmiş, H.-nun muğam operalarında əsas rollarda - "Leyli və Məcnun"da Məcnun, "Əsli və Kərəm"də Kərəm - çıxış etmişdir. "Koroğlu" operasında təlxək obrazını özünəməxsus ustalıqla yaratmışdır.

**MAHNI,** nəğmə – vokal musiqisinin geniş yayılmış növü. Müstəqil janr kimi H. tərəfindən ilk dəfə 20-ci illərin sonu - 30-cu illərin əvvəllərində işlənilmişdir. Yeni həyat tərzi yeni M.-lar tələb edirdi; çox vaxt xalq M.-larının sözlərini müasir həyata uyğunlaşdıraraq oxuyurdular. M.-ya olan tələbatı hiss edən H. çox tez müddətdə məşhurlaşmış "Komsomolçu qız", "Süvari mahnısı", "Qızıl əsgər marşı", həmçinin uşaqlar üçün "Yetim quzu", "Bir quş düşdü havadan" və s. mahnıları bəstələdi. H.-un bu mahnıları major-minor əsası xüsusilə nəzərə çarpdıran marşa bənzər ritm, geniş melodik gedişi ilə



M.Maqomayev



M.Maqomayev

fərqlənirdilər. Böyük Vətən müharibəsi illərində H. bir sıra vətənpərvərlik ruhunda M.-lar yazdı - "Vətən ordusu", "Yaxşı yol", "Ananın oğluna nəsihəti", "Şəfqət bacısı", "Döyüşçülər marşı" və s. Erkən M.-larından fərqli olaraq, bu əsərlərdə əsas vurğu xalq M.-larının və aşıq lirikasının intonasiya - obraz quruluşuna əsaslanırdı. H. müharibə illərində yaratdığı bu əsərlərlə yeni kütləvi Azərb. M.-sı stilini yaratdı. Bəstəkar özünün musiqili-səhnə əsərlərində, xüsusilə musiqili komediyalarında (Mərcan bəyin, Minnətin, Məşədi İbadın, Əsgərin və b.-nın M.-ları) M.-dan geniş istifadə etmişdir.

**MAQOMAYEV** Müslüm (Əbdülmüslüm) Məhəmməd oğlu (1885-1937) – bəstəkar, dirijor, ictimai xadim. Azərb. əməkdar inc. xad. (1936). Qori seminariyasında oxumuş (1899-1904), burada H.-la tanış olmuşdur. Təhsil illərində musiqiyə böyük maraq göstərmiş, ilk əsərlərini yazmışdır. 1905-11 illərdə Şimali Qafqazda, Lənkəranda müəllimlik etmişdir. 1911 ildə H.-un məsləhəti ilə Bakıya köçmüş, Sabunçuda müəllim, Azərb. opera teatrında skripkaçı işləmişdir. Həmin vaxtdan



**M.Maqomayev** Azərbaycanın incəsənət xadimləri ilə. 1922-ci il.



S.Mehmandarov

mütərəqqi mədəniyyət xadimlərinin Azərb. musiqili teatrının təşəkkülü və inkişafı uğrunda apardıqları mübarizəyə qoşulmuş, H.-un ən yaxın silahdaşı olmuşdur. 1912 ildən ömrünün axırınadək opera tamaşalarına dirijorluq etmişdir. "Şah İsmayıl" və "Nərgiz" operalarının, mahnı, rapsodiya, rəqs, marş və fantaziyaların, "Şəlalə" simf. pyesinin və s. əsərlərin müəllifidir. 300-dən artıq Azərb. xalq mahnı və rəqslərini nota salmışdır.

H.-la Qoridə başlanan dostluğu sonralar qohumluğa çevrilmiş - hər ikisi Terequlova bacılarına evlənmiş, bacanaq olmuşlar. Onları bir-birinə yaradıcılıq amalları bağlayırdı. H. Moskva və Peterburqda təhsil aldığı illərdə onun Bakıda yarımçıq qalmış bütün işlərini M. öz üzərinə götürmüş, opera truppasına rəhbərlik etmiş, H.-un əsərlərinin tamaşaya qoyulmasında böyük rol oynamışdır.

**MAQOMAYEV** Müslüm Məhəmməd oğlu (d. 1942) – müğənni (bariton), bəstəkar. SSRİ xalq art. (1973). M.Maqomayevin nəvəsidir. "La Skala" (Milan) teatrında təcrübə keçmişdir. Bir sıra beynəlxalq mahnı müsabiqələrinin laureatıdır. Repertuarında H.-un "Koroğlu" operasında Həsən xanın partiyası və bəstəkarın romans-qəzəlləri ("Sənsiz", "Sevgili canan") mühüm yer tutur.

**MALDIBAYEV** Abdılas Maldıbayeviç (1906-1978) – qırğız bəstəkarı, müğənni (tenor). SSRİ xalq art. (1939). Qırğız musiqili teatr, vokal-simf. və mahnı janrının yaradıcılarındandır. H.-un "Arşın mal alan" musiqili komediyasında Əsgərin partiyasını oxumuşdur.

**MARCANİŞVİLİ** (Marcanov) Konstantin (Kote) Aleksandroviç (1872-1933) – gürcü rejissoru. Gürcüstan xalq art. (1931). 1924 ildə Rostovda "Arşın mal alan" musiqili komediyasını tamaşaya qoymuşdur. M.-nin Tiflisdə təşkil etdiyi və hazırda onun adını daşıyan teatrda "Arşın mal alan" səhnəyə qoyulmalı idi; lakin rej.-un xəstəliyi və ölümü buna imkan vermədi. H. Tiflisdə M. ilə bir neçə yaradıcılıq gecəsində iştirak etmişdir.

**MEHDİYEV** Əli Məhəmməd oğlu (d. 1934) – müğənni. 1964 ildən AOBT-nda çalışan M. burada bütün muğam operalarında baş rollarda çıxış etmişdir. Gözəl və məlahətli səsə malik olan müğənni H.-un "Leyli və Məcnun" operasında Məcnun, "Əsli və Kərəm"də Kərəm rollarını özünəməxsus ustalıqla oynamışdır.

**MEHDİYEV** Firidun Mehdi oğlu (d.1927) – müğənni (dramatik tenor). Azərb. əməkdar art. (1977). 1957 ildən AOBT-nın solistidir. H.-un "Koroğlu" operasında Həmzə bəy, "Leyli və Məcnun" operasında Leylinin atası və s. partiyaları ifa etmişdir.

**MEHMANDAROV** Səməd bəy Sadıq bəy oğlu (1857-1931) – hərbi xadim, artilleriya general-leytenantı. 1872 ildən çar ordusunda xidmət etmiş, Port-Arturun müdafiəsi (1904) zamanı göstərdiyi igidliyə görə qızıl qılıncla mükafatlandırılmışdı. 1918 il dekabrın 25-də ADR-nın hərbi na-

ziri təyin olunmuşdu. H.-un "Ordumuz" adlı məqaləsində ("Azərbaycan", 28 mart 1919) "ordu görməmiş, rəsmi əsgərliyə adət etməmiş" millətimiz içində, həm də "qat-qarışıq" zamanda nizamlı ordu təşkil etməyi öhdəsinə götürən M. "sahibi-qüdrət və maliki-qüvvət" bir şəxsiyyət kimi tərif və təqdim edilir. Müəllif "Port-Artur müharibəsində böyük qəhrəmanlıq göstərməklə ad çıxarmış" bu istedadlı sərkərdənin bütün çətinlikləri aradan qaldıracağına, nizamlı ordu təşkil edəcəyinə səbatlı bir ümid, dərin inam bəsləyirdi.

**MEHRƏLİYEVA** Fatma Yusif qızı (1926-2000) – xanəndə. Azərb. əməkdar art. (1956). 1938 ildə H.-un təşəbbüsü ilə Bakıya gəlmiş və onun himayəsi altında yaşamışdır. ADK-nda fp. və vokal üzrə



**F.Mehrəliyeva** "Arşın mal alan" filmində Telli rolunda.

dərs almışdır. H.-un qayğısı sayəsində M. az bir zamanda mahir müğənni olmuş, bəstəkarın məsləhəti ilə "Arşın mal alan" (1945) filmində çəkilmiş, Telli rolunu uğurla oynamışdır.

**MELODİYA** – H.-un musiqi yaradıcılığında əsas ifadə vasitəsi. Musiqisinin bu keyfiyyətini H. bəstəkar yaradıcılığının bütün dövrlərində qoruyub saxlamışdır. H. musiqisi ilə şifahi ənənəli Azərb. xalq və professional musiqi yaradıcılığı arasındakı bağlılığın əsasını M. təşkil edir. H. ilk əsərlərində orijinal musiqi nümunələrindən istifadə etmişdir. Belə ki, muğam M.-larını olduğu kimi saxlamış, mahnı-rəqs M.-larını isə cüzi dəyişikliklə - major-minor sisteminin ən sadə akkordları vasitəsilə işləmişdir. H.-un əsərlərində həm muğamların, həm də xalq M.-larının obrazlı-emosional təsir gücü nəzərə alınaraq istifadə olunmuşdur. Operalarda xalq mahnı M.-larının obrazlı emosional "sima"sı olduğu kimi saxlanmışsa (məs., "Leyli və Məcnun"da "Evləri var xana-xana", "Bu gələn yara bənzər"), musiqili komediyalarda lirik xarakterli M.-lar səhnə hadisələrinə uyğun olaraq, komik xarakter kəsb etmişdir ("O olmasın, bu olsun"da "Uzundərə" rəqsi, "Arşın mal alan"-da "Canlar içindəki" mahnısı). Yaradıcılığının ilk dövründə H. xalq M.-larının daha mürəkkəb şəkildə dəyişdirilməsinə, onların major-minor sisteminə uyğun keyfiyyətlərini üzə çıxarmaqla üzvi bağlılığına nail olmuşdur. Məs., kiçik həcmli, sadə quruluşlu "Boynunda var sarılıq" xalq mahnısını H. Avropa musiqisində təşəkkül tapmış klassik period formasının əlamətləri ilə uyğunlaşdıraraq "Arşın mal alan"ın uvertürasında istifadə etmişdir. "Tərəkəmə" xalq rəqsinin M.-sındakı (Arşın mal alan"da Asyanın rəqsi) intonasiya-ritm ostinatlığından H. böyük ustalıqla istifadə etmişdir. H.-un ilk dövrdəki əsərlərində şəhər məişəti ilə bağlı olan qeyri-milli mənşəli intonasiyalar da təzahür edir. Bu ən çox H.-un musiqili komediyalarındakı milli lad-intonasiya kökünə əsaslanan vals xarakterli musiqidə özünü göstərir ("Ər və arvad"da Mərcan bəyin mahnısı, I pərdədə nökərlərin xoru; "Arşın mal alan"da II pərdədə Əsgərin mahnısı, qızlar xoru). Beləliklə, H.-un melodikasında milli və qeyri-milli musiqi əlamətlərinin qarşılıqlı əlaqəsi yaranmış, milli musiqinin gələcək inkişaf yolları müəyyənləşmişdi. H.-un yaradıcılığının ilk dövrü onun musiqi təfəkkürünün tədricən formalaşması ilə əlamətdardır. Bu təkamül prosesinin yekunu olan "Arşın mal alan"da Azərb. musiqisində yaranmış yeni melodik üslub aydın nəzərə çarpır



**F.Mehdiyev** (solda) Həmzə bəy rolunda.

(bu üslubun ilkin əlamətləri "O olmasın, bu olsun"da Gülnaz ilə Sərvərin partiyasında var idi). Yeni melodik üslub müxtəlif janrlı milli M.-ların ən tipik cəhətlərinin Avropa opera kantilenası üslubu ilə sintezinə əsaslanmışdır (Əsgər və Gülçöhrənin ariyaları). H.-un 20 - 30-cu illərdə yaratdığı əsərlərin melodikasında qeyri-milli əlamətlərlə zənginləşmə prosesi davam etdirilmişdir. Məs., "Komsomolçu qız", "Qızıl əsgər marşı", "Mazut" və s. mahnılarında inqilabi, kütləvi mahnı intonasiyalarının təsiri aydın nəzərə çarpır (M.-nın hərəkətindəki interval genişliyi, marş ritmi, qammavarı hərəkət və s.). Lakin bu mahnılarda H. milli musiqi kökü ilə bağlılığı qoruyub saxlamışdır. "Aşıqsayağı" pyesində H. ilk dəfə muğam tipli orijinal M. yaratmış, onu bu janr üçün tipik olan tədrici inkişaf yolu ilə işləmişdir.

H.-un çoxplanlılığı və eyni zamanda tamlığı ilə seçilən kamil melodik üslubu "Koroğlu" operasında parlaq ifadə olunmuşdur. Musiqisi vahid dramaturji axına bənzəyən bu operada şifahi ənənəli Azərb. musiqisi janrlarının bütün obrazlı-intonasiya qaynaqları H.-un fərdi yaradıcılıq süzgəcindən keçərək yeni məna kəsb etmişdir. I pərdədə Koroğlunun "Səni gördüm" ariozosu, kəndlilərin rəqsi, III pərdədə "Çənlibel" xoru, Koroğlunun epik mahnısı, IV pərdədə Koroğlunun mahnıları - aşıq musiqisi, I pərdədə Koroğlunun Nigarla vidalaşma epizodu, IV pərdədə xanəndə qızın mahnısı - muğam, III pərdədə üsyançıların rəqsi, V pərdədə final rəqsi - xalq rəqsləri üslubundadır. Operada müasir kütləvi mahnı intonasiyaları da səslənir (I pərdədə Koroğlunun 2-ci ariozosu, final xoru, V pərdədə xor replikaları). Ən başlıca M. xüsusiyyəti isə H.-un "Koroğlu"da yaratdığı opera kantilenasının kamilliyindədir. Bu kantilena vasitəsilə H. qəhrəmanlarının zəngin daxili aləmini bütün incəliklərinə qədər aça bilmişdir. "Koroğlu"dakı reçitativlər də milli musiqinin spesifik ifadə vasitələri əsasında qurulmuşdur. H. yaradıcılığının müxtəlif dövr və mərhələlərindəki bütün M. tiplərinin ümumi cəhətləri var. Bunlardan biri milli lad-intonasiya kökü ilə çoxcəhətli və möhkəm bağlılıqdan ibarətdir. Digər cəhətlərdən biri də H.-un ənənəvi klassik M. modellərindən istifadə etməsidir. Bu modellər, əsrlər boyu şifahi ənənəli Azərb.musiqisində təşəkkül tapmış və H.-un M. təfəkkürünün əsasını təşkil etmişdir. Lakin bu modellər intonasiya cəhətdən qapalı olmayıb, əksinə, digər qeyri-milli M. dairəsi ilə qarşılıqlı təsir və əlaqə imkanına malikdir. Bununla da, H. Azərb. bəstəkarlarının yeni nəsilləri üçün yaradıcılıq kəşfləri sahəsini genişləndirmişdir.

H. dünya bəstəkarları sırasında incə və zəngin M. yaradan sənətkarlardandır. O, özü yaradıcılığının bu keyfiyyətini şifahi ənənəli Azərb. musiqisindəki M. üslubunun özünəməxsusluğu ilə izah etmişdir.

**"MƏCNUN LEYLİNİN MƏZARI ÜSTÜNDƏ"** – 1897 ildə Ə.Haqverdiyevin təşəbbüsü və rəhbərliyi ilə Şuşada həvəskar artistlər tərəfindən göstərilmiş musiqili səhnəcik. M.Füzulinin "Leyli və Məcnun" poemasından götürülmüş, muğam musiqisi əsasında oynanılmış bu səhnəcikdə Məcnun rolunda Cabbar Qaryağdı oğlu çıxış etmişdi. Tamaşanın musiqi tərtibatçısı məşhur tarzən Sadıq Əsəd oğlu (Sadıqcan) idi. 13 yaşlı H. bu tamaşada xorda oxumuşdur. Səhnəcik balaca Üzeyirə güclü təsir etmiş və bəstəkarın etirafına görə, bir neçə ildən sonra ilk Azərb. operasının - "Leyli və Məcnun"un yaranması üçün əsas təkan olmuşdu.

**"MƏCNUNUN ATASININ ARİYASI"** – H.-un əsəri. 30-cu illərin 1-ci yarısında bəstəkar kimi böyük təcrübəyə malik olan H.-da "Leyli və Məcnun" operasının yeni variantını yaratmaq ideyası əmələ gəlmişdi. Burada bütün muğam səhnələri müəllif musiqisi ilə əvəz olunmalı idi. "M.a.a." da bu məqsədlə bəstələnmişdi. Oğlunun faciəli taleyini duyan qəhrəmanın keçirdiyi həyəcanları bütün dərinliyi ilə ifadə edən ariyanın musiqisi təsirli və səmimi olub, melodiyasının zərifliyi və ifadəliliyi ilə seçilir. H. "Leyli və Məcnun" operasının böyük tarixi əhəmiyyətini düzgün qiymətləndirərək tezliklə bu ideyadan imtina etsə də, yüksək bədii məziyyətlərə malik həmin ariya müstəqil əsər kimi diqqətəlayiqdir.

**"MƏKTƏB"** – elmi-pedaqoji və ədəbi-bədii jurnal. 1911-1920 illərdə Bakıda, iki həftədə bir dəfə nəşr olunurdu. Redaktorları Q.Rəşad (həm də naşiri) və Ə.Əfəndizadə idi. Jurnalın birinci sayında H.-un "Müəllimə" adlı məzəli hekayəsi dərc olunmuşdu.

**MƏLİKASLANOV** Ramiz Lütfəli oğlu (d. 1942) – dirijor. Azərb. xalq art. (1991), prof. (1993). 1971 ildən Dövlət Teleradio Komitəsinin Niyazi ad. simf. ork.-nin bədii rəhbəri və baş dirijoru olmuşdur. 1977-79 illərdə Qahirə konservatoriyasının ork.-ndə işləmiş, vətənə qayıt-

dıqdan sonra Q.Qarayev ad. Dövlət Kamera Ork.-nin rəhbəri və dirijoru olmuşdur. H.-un bir çox əsərlərinə, o cümlədən operalarından parçalara dirijorluq etmişdir.

**MƏLİKOV** Adil İbrahim oğlu (d. 1933) – müğənni (lirik-dramatik tenor). Azərb. əməkdar art. (1977). 1965 ildən AOBT-nın solistidir. H.-un "Koroğlu" operasında Koroğlunun partiyasını özünəməxsus ustalıqla ifa edir.

**MƏLİKOV** Akif Turan oğlu (d. 1950) – pianoçu, ictimai xadim. Azərb. əməkdar inc. xadimi (2006). 1973 ildə Azərbaycan Dövlət Konservatoriyasının ifaçılıq fakültəsini bitirmişdir. 1977-1987 illərdə Ş.Məmmədova adına Opera studiyasının direktoru vəzifəsində işləmişdir. 1989 ildə Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının direktoru təyin edilmiş və bu gün də həmin vəzifədə çalışır.

2000-ci ildə "Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi" adına, 2002-ci ildə "Humay" mükafatına layiq görülmüşdür.

**MƏLİKOV** Arif Cahangir oğlu (d. 1933) – bəstəkar. Azərb. xalq art. (1978), SSRİ xalq art. (1983). Azərb. Dövlət mükafatı laureatı (1988). ADK-nı bitirmişdir (1958, Q.Qarayevin sinfi). Azərb. bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi olan M.-un yaradıcılığı musiqinin müxtəlif janrlarını əhatə edir. O, "Məhəbbət əfsanəsi" (1961), "İki nəfər" (1968), "İki qəlbin dastanı" (1981) baletlərinin, "Dalğalar" operettasının (1967), "Torpağın səsi" kantatasının, 8 simfoniya, "Nağıl", "Füzuli", "Metamorfozlar", "Axırıncı aşırım" simf. poemalarının, N.Hikmətin sözlərinə 2 romans silsiləsinin, dram tamaşaları və kinofilmlərə musiqinin, bir çox mahnıların, kamera instrumental əsərlərin müəllifidir. Onun "Məhəbbət əfsanəsi" baleti geniş şöhrət qazanmış, dünyanın bir çox teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. H.-un Şərq və Qərb musiqi təfəkkürü tiplərinin qarşılıqlı təsiri, sintezi ideyası M.-un yaradıcılığında özünəməxsus tərzdə ifadə olunmuşdur. M.-un musiqi təfəkkürünün formalaşmasında muğam sənətinin böyük təsiri olmuşdur. M. bədii axtarışlarının əsas meydanı kimi simfoniya janrını seçmiş, muğam və simf. yazı üslubunun orijinal vəhdətinə nail olmuşdur. O, H.-u "Azərb. musiqisinin atası, həm də nəcib, ağıllı, müdrik atası" adlandırmış, onu "öz ardınca aparan qüvvə" kimi qiymətləndirmişdir.

**MƏLİKOV** Nicat Musa oğlu (1925-1988) - ilk ali təhsilli azərbaycanlı xormeyster. Azərb. əməkdar art. 1957 ildən AOBT-nda baş xormeyster işləmiş, Azərb. bəstəkarlarının bütün operalarının, o cümlədən "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" operalarının xormeysteri olmuşdur.

**MƏLİKOV** Xanlar Həmid oğlu (d. 1923) – musiqişünas. Sənətşünaslıq namizədi (1965), prof. (1991). Hələ A.Zeynallı ad. musiqi məktəbinin 4-cü kursunda oxuyarkən H. onun musiqi savadını görüb, konservatoriyanın nəzəriyyə şöbəsinin 1-ci kursuna qəbul etmişdi. 1941 - 45 illər müharibəsindən qayıtdıqdan sonra konservatoriyada təhsilini davam etdirmiş, 1946 - 1948 illərdə H.-un sinfində Azərb. xalq musiqisinin əsasları fənnini öyrənmişdir. "Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası" (1955, rusca), "Üzeyir Hacıbəyovun musiqili komediyalarının üslub və dramaturji xüsusiyyətləri (1963, rusca) kitablarının, bəstəkar haqqında məqalələrin müəllifidir.

**MƏLİKOVA** Narınc Murad qızı (1917-1990) – aktrisa. Azərb. əməkdar art. (1989). İrəvan Azərb. Dram Teatrında, Füzuli və Ağdam dram teatrlarında işləmiş, H.-un "Leyli və Məcnun", "Arşın mal alan" əsərlərində Leyli və Gülçöhrə rollarını ifa etmişdir.

**MƏLİKOVA** Nəcibə Haşım qızı (1921-1992) – aktrisa. Azərb. xalq art. (1974). 1952 ildən ADT-nda işləmişdir. H.-un eyniadlı musiqili komediyası əsasında çəkilmiş "Arşın mal alan" (1965) bədii filmində Cahan xala rolunu məharətlə oynamışdır.



**A.Məlikov**



**A.Məlikov**



**N.Məlikova** "Arşın mal alan" filmində.

**MƏLİKOVA-SƏYYAR** Şirin (d. 1947) – fransız şərqşünası. Əslən azərb.-dır. Məşhur türkoloq İren Məlikovanın qızıdır. "Əfsanədən operaya. Sovet Azərbaycanında Koroğlu mövzusunun təkamülü" monoqrafiyasını yazmışdır (1979). Paris Şərq Dilləri Milli İn-tu tərəfindən nəşr edilən bu monoqrafiyanın rus dilinə tərcüməsi 1985 ildə Bakıda çap olunmuşdur. Monoqrafiyada H.-un həyat və yaradıcılığından ətraflı bəhs edilir, "Koroğlu" operasının milli ruhu və qaynaqları, novator mahiyyəti ciddi təhlil əsasında açıqlanır.



**C.Məmmədquluzadə**

**MƏMMƏDQULUZADƏ** Cəlil Məmmədqulu oğlu (ədəbi təxəllüsü: Molla Nəsrəddin; 1869-1932) – yazıçı, dramaturq, mütəfəkkir, jurnalist, ictimai xadim. "Molla Nəsrəddin" jurnalının yaradıcısı və redaktoru, realist-demokratik "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi. "Danabaş kəndinin əhvalatları" povestinin, "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" kimi klassik səhnə əsərlərinin, onlarca hekayə, novella, felyeton, oçerk və məqalənin müəllifidir. M. və H. arasında dostluq yazıçı 1904 ildə "Şərqi-Rus" (Tiflis) qəzetinin müvəqqəti redaktoru olarkən yaranmağa başlamışdır. M.-ni ədəbiyyat və jurnalistika sahəsində ustadlarından biri sayan H. hələ 1906 - 1910 illərdə "İrşad", "Tərəqqi", "Həqiqət" və s. qəzetlərdə dəfələrlə ona dərin ehtiramını bildirmişdir: "Molla Nəsrəddin"haqq söz danışırdı. Və haqq və həqiqət acı olduğuna görə bizim həmişə "şirin" yeməyə öyrənmiş hökumətimizin xoşuna gəlmədi... Haqq və həqiqətin ağzını yumdurdu. Lakin yumdura bildimi? Bu özgə məsələdir. Bunu get camaatdan xəbər al, desin" ("İrşad", 1907, 12 iyun). M. də H.-a eyni rəğbət və səmimiyyət bəsləmişdir. O, "Tövhid" məqaləsində ana dilini əla bilən və onun təmizliyini qoruyan məşhur ziyalıların sırasında H.-un da adını çəkir. Onun "Qoqol" felyetonunda H.-un 1909 ildə "Şinel" hekayəsini məharətlə tərcümə etdiyi göstərilmişdir. 1911 ildə bəzi qəzetlərdə H.-un operaları barədə qərəzli rəylər dərc ediləndə, M. onların, ümumiyyətlə, bir çox cəmiyyət məsələlərində kobud səhvlər buraxdıqlarını, musiqi sənətinə münasibətdə isə tam nadanlıq büruzə verdiklərini göstərir, gənc bəstəkarı müdafiə edirdi ("Teatr" felyetonu). H. və M. arasındakı dostluğun digər aparıcı mənəvi əsası hər ikisinin sənətə baxışı, estetik görüşləri, ədəbi-bədii yaradıcılığı, publisist satirası ilə eyni amal - Azərb. musiqi mədəniyyətinin tərəqqisi, orijinallığı, eyni zamanda dünya musiqisindən bəhrələnməsi yolunda çalışmaları idi.

M. ilə H.-un qarşılıqlı hörmət və məhəbbətə əsaslanan dostluğu həm də ailəvi idi. Onlar bir neçə il yayı birlikdə kurortda istirahət etmişlər. M.-nin həyat yoldaşı Həmidə xanım xatirələrində göstərir ki, "Mirzə Cəlil Üzeyiri çox sevirdi. Onlar baməzə söhbətlər edir, uşaqlarla birlikdə qaçışıb oynayırdılar". M. 1923 ildə Həmidə xanıma məktubunda yazırdı: "Midhədə velosiped almışam. Üzeyir məsləhət görür ki, skripka da alım".

M.-nin "Ölülər" pyesinin ilk tamaşasının hazırlanmasına yaxından kömək edən H. "İqbal" qəzetində bu klassik əsərə yüksək qiymət vermişdi: "Ölülər" - "Molla Nəsrəddin" kimi baltanı dibindən vuran bir pyesdir". H. yazıçının "Kamança" pyesini də çox bəyənirdi.



**Y.Məmmədəliyev**

**MƏMMƏDƏLİYEV** Yusif Heydər oğlu (1905-1961) – kimyaçı alim, ictimai xadim. Kimya e. d. (1942), prof. (1942), Azərb. EA akad. (1945) və prezidenti (1947 - 51 və 1958 - 61), SSRİ EA m. üzvü (1958). 1945 ildə H. və digər görkəmli elm və mədəniyyət xadimləri ilə birlikdə Azərb. EA-na həqiqi üzv seçilmişdir. Bu dövrdə, xüsusilə 1947 ildə EA-nın prezidenti seçildikdən sonra akademiyanın incəsənət in-tunun direktoru olan H.-la daim təmasda olmuş, resp.-da elm və mədəniyyətin inkişafı məsələlərində onunla məsləhətləşmişdir. 1948 ildə H.-un vəfatı münasibətilə "Böyük itki" məqaləsini ("Azərb. SSR EA Xəbərləri", №12) yazmışdır.



**Q.Məmmədli**

**MƏMMƏDLİ** Qulam Məmməd oğlu (1897-1994) – jurnalist, ədəbiyyatşünas və teatrşünas. Azərb. əməkdar mədəniyyət işçisi (1977). 1916 ildən mətbuatda çıxış etmiş. "Kəndli qəzetəsi" (1930-1932), "Azərbaycan kolxozçusu" (1932-35), "Yeni yol" (1937) qəzetlərinin, "Kirpi" jurnalının (1956-59) redaktoru olmuşdur. Azərb. teatrının, Azərb. ədəbiyyatı və incəsənətinin bir çox klassikləri (C.Məmmədquluzadə, H.Ərəblinski, C.Zeynalov, Hüseyn Cavid, N.Nərimanov) haqqında salnamələrin, o cümlədən H.-un həyat və yaradıcılıq rolunu əks etdirən "Üzeyir Hacıbəyov. Həyat və yaradıcılığının salnaməsi"nin (Bakı, 1984) tərtibçi-müəllifidir.



**G.Məmmədov**

**MƏMMƏDOV-ƏHLİYEV** Əsəd (? - ?) – publisist; "Səfa cəmiyyətindən olan bədxahların, "opera dramın evini yıxdı" - deyib fəryad qoparan "Müsəlman dram

cəmiyyəti"nin təşkilatçılarının təhriki ilə, əslində musiqi və səhnə sənətilə əlaqəsi olmadığı halda H.-un əleyhinə məqalə yazmışdı. "Səhnənin tərbiyəvi əhəmiyyəti haqqında" adlanan məqaləsində ["Kaspi" qəzetinə (27 oktyabr 1917, №241) əlavə buraxılan "Bakı müsəlman ictimai təşkilatları komitəsinin əxbarı"] dram sənətini musiqi sənətinə qarşı qoyur, ictimai əxlaqa təsir etməkdə birincini üstün tutur və iddia edirdi ki, musiqi əsərləri "səhnə sənətinin tərbiyəvi əhəmiyyəti ola biləcək ikinci, hətta üçüncü dərəcəli məhsuludur". H. cavab yazısında ("Kaspi", 1917, 28 oktyabr, №242) bunu "musiqi sənətinə qeyri-ciddi münasibət" kimi şərh edərək musiqili teatrın inkişafını ləngitmək meylinin, bu sahədə çalışan sənət adamlarını həvəsdən salmaq qəsdinin zərərli olduğunu əsaslandırmışdır. Sakit və təmkinlə yazılmış bu cavab və sonrakı məqalələr ("Kaspi", 1917, №256, 260) H.-un dərin biliyini, mühakimələrində son dərəcə güclü təfəkkürə və məntiqə əsaslandığını göstərir.

**MƏMMƏDOV** Gülağa Allahverdi oğlu (1925-1994) – müğənni. Azərb. xalq art. (1982). 1944-46 illərdə Şəki teatrında, 1947-49 illərdə Azərb. Musiqili Komediya Teatrında işləmiş, H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında, "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyalarında Məcnun, Kərəm, Əsgər, Sərvər rollarında çıxış etmişdir. 1952 ildən ömrünün sonunadək Azərb. xalq çalğı alətləri ork.-nin solisti olmuşdur. Repertuarında H.-un mahnı və romansları mühüm yer tuturdu.

**MƏMMƏDOV** Həsən (Əbdülhəsən) Ağaməmməd oğlu (1938-2003) – aktyor. Azərb. xalq art. (1982). SSRİ (1981) və Azərb. (1986) Dövlət mükafatları laureatı. H.-un eyniadlı musiqili komediyası əsasında çəkilmiş "Arşın mal alan" (1965) bədii filmində tacir Əsgərin yadda qalan obrazını yaratmışdır.

**MƏMMƏDOV** Kazım Yaqub oğlu (1926-1988) – müğənni (lirik-dramatik tenor). Azərb. əməkdar art. 1947 ildə H.-un köməkliyi və himayəsi ilə ADK-na daxil olmuşdur. H. yaşamağa yeri olmayan iki gənc tələbə (M. və Cavanşir Qafarov) üçün konservatoriyanın binasında bir otaq ayırmış, onların bir vokalçı kimi püxtələşməsinə diqqət yetirmişdir. M. konservatoriyanı bitirdikdən sonra AOBT-nda



"Koroğlu" operasından səhnə. Rej. **M.Məmmədov**

solist işləmiş, "Koroğlu"da Ehsan paşa, təlxək, Həmzə bəy, "Leyli və Məcnun"da Leylinin atası, "Əsli və Kərəm"də şah rollarını məharətlə ifa etmişdir.



**M.Məmmədov**

**MƏMMƏDOV** Mehdi Əsədulla oğlu (1918-1985) – rejissor, aktyor, pedaqoq. SSRİ xalq art. (1974). Sənətşünaslıq doktoru (1968), prof. (1960). Əsasən dram əsərlərində rej. və aktyor kimi fəaliyyət göstərmişdir. 1953 - 60 illərdə AOBT-nda baş rej. işləmiş, bir sıra tamaşalara, o cümlədən H.-un "Leyli və Məcnun" (1958) və "Koroğlu" (1959) operalarına quruluş vermişdir.



**T.Məmmədov**

**MƏMMƏDOV** Tokay Həbib oğlu (d. 1927) – heykəltəraş. Azərb. xalq rəs. (1973) və əməkdar inc. xad. (1962). SSRİ Rəssamlıq Akademiyasının m. üzvü (1975), prof. (1977). SSRİ (1978) və Azərb. (1982) Dövlət mükafatları laureatı. Z.Məmmədovanın oğludur. H.-un ADK qarşısındakı abidəsinin (tunc, qranit, 1960) müəllifidir.



**H.Məmmədov**

**MƏMMƏDOV** Tariyel Aydın oğlu (1949) – musiqişünas, sənətşünaslıq doktoru (1989), prof. (2005). Azərbaycanda ilk beynəlxalq musiqi, elmi-pedaqoji, tənqidi-publisistik, mədəni-maarif "Musiqi Dünyası" jurnalının baş redaktoru və naşiridir, aşıq musiqisinin tədqiqatçısıdır, "Koroğlu mahnıları" (1984, rus dilində), "Azərbaycan aşıqlarının ənənəvi nəğmələri" (1988, rus dilində) adlı monoqrafiyaları vardır. H.-a həsr olunmuş internet portalın layihəsinin müəllifi və rəhbəridir (2005).



**T.Məmmədov**

**MƏMMƏDOVA** Nəzakət Əli qızı (1944-1982) – lirik-dramatik səsli müğənni. Azərb. əməkdar art. (1979). 1966 ildən AOBT-nın muğam truppasında solist kimi fəaliyyət göstərmiş, bütün muğam operalarında əsas rolları oynamışdır. H.-un "Leyli



N.Məmmədova Leyli rolunda.



B.Mənsurov



R.Məmmədova



Ş.Məmmədova



M.Mənsurov

və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" operalarında Leyli, Əsli, Xanəndə qız partiyalarını özünəməxsus ifaçılıq məharəti ilə yaratmış, "Arşın mal alan" musiqili komediyasının qrammofon valına yazılışında (1973) Tellinin partiyasını oxumuşdur.

**MƏMMƏDOVA** Rəna Azər qızı (d.1950) – musiqişünas, alim, sənətşünaslıq doktoru (1990), AMEA-nın müxbir üzvü (2001), prof. (2001). H.Sarabskinin nəvəsi. Muğam janrının tarixi və nəzəriyyəsi ilə bağlı əsas tədqiqatlarında Ü.H.-un yaradıcılığına böyük yer ayrılır. Namizədlik dissertasiyası H.-un sonata formasında muğamın lad-intonasiya əsaslarının roluna həsr olunub. Azərb. muğamında funksional problemlər (1989), Azərb. muğamı (2002), Azərb. musiqisinin teatr tarixinin monoqrafiyasında (2006) H.-la bağlı fəsillər vardır.

**MƏMMƏDOVA** Şövkət Həsən qızı (1897-1981) – müğənni (lirik-koloratur soprano), pedaqoq, musiqi xadimi. İlk azərb. professional qadın müğənni. SSRİ xalq art. (1938). 1910 ildə Tiflis musiqi məktəbini bitirmiş, təhsilini davam etdirmək üçün 1911 ildə Milana (İtaliya) getmişdir. 1912 ildə M.-nın Bakıya qayıtdığını eşidən H. onunla görüşmüş, M.-nın maddi çətinlik üzündən İtaliyada təhsilini yarımçıq qoyduğunu eşitdikdə ona yardım üçün tamaşa təşkil edib, toplanan pulla M.-nı yenidən oxumağa göndərməyə səy göstərmişdir. Bu məqsədlə 1912 il aprelin 13-də H.Z.Tağıyev teatrında "Ər və arvad" musiqili komediyası oynanılmış, tamaşadan sonra isə M. bir neçə vokal nömrəsi ilə çıxış etmişdi. Azərb. qızın səhnəyə çıxmasından qəzəblənən "millət qeyrəti" çəkənlərdən ehtiyat edən H. və Mirzağa Əliyev M.-nı səhnədən qaçıra bilmişlər. Lakin tamaşadan toplanan 1500 manat pul müsadirə olunduğundan, H.-un M.-ya yardımı baş tutmamışdır.

M. 1921 - 48 illərdə AOBT-nın solisti olmuş, digər rollarla yanaşı, H.-un "Arşın mal alan" musiqili komediyasında Gülçöhrə partiyasını ifa etmişdir. H. onun ifasını yüksək qiymətləndirirdi. H.-un dəvəti ilə M. 1945 ildən ADK-da dərs demişdir.

**MƏMMƏDOVA** Zivər Nəcəfqulu qızı (1902-1980) – ilk azərb. heykəltəraş qadın. Bakı Ali Rəssamlıq Məktəbini bitirmişdir (1924). 1950 ildə H.-un gipsdən heykəlini yaratmışdır.

**MƏNSUROV** Bəhram Süleyman oğlu (1911-1985) – musiqiçi, tarzən. Azərb. xalq art. (1978). Muğam dəstgahlarının mahir ifaçısı idi. 1932 ildən AOBT-nın solisti olmuş, burada H.-un bütün muğam operalarını yüksək professionallıqla tarda müşayiət etmişdir. 1938 ildə Moskvada keçirilən Azərb. incəsənəti ongünlüyündə H.-un "Arşın mal alan" musiqili komediyasının tamaşasında çalmışdır.

**MƏNSUROV** Mənsur Məşədi Məlik oğlu (1887-1967) – tarzən, pedaqoq. Azərb. əməkdar inc. xad. (1940). Muğam dəstgahlarını ustalıqla çalmışdır. 1920 ildən H.-un təşkil etdiyi Azərb. Dövlət Türk Musiqi Məktəbində, 1926 - 46 illərdə ADK-nda dərs demişdir. H.-un təşəbbüsü ilə tar-muğamat sinifləri üçün ilk proqramı tərtib etmişdir.

**MƏRDANOV** Mustafa Haşım oğlu (1894-1968) – aktyor. Azərb. xalq art. (1943). 1924 ildən ADT-nda işləmişdir. H.-un eyniadlı musiqili komediyası əsasında çəkilmiş "O olmasın, bu olsun"



**M.Mərdanov** (sağda) "O olmasın, bu olsun" filmində İntelligent Həsən rolunda.

(1956) filmində böyük ustalıqla yaratdığı İntelligent Həsən obrazı ona geniş şöhrət qazandırmışdır.

**MƏŞƏDİBƏYOV** Ağası Abutalıb oğlu (1912-1984) – bəstəkar, tarzən. Azərb. əməkdar inc. xad. (1963). H.-un təşkil etdiyi xalq çalğı alətləri ork.-nin yaranmasında fəal iştirak etmişdir. M.-un "Toy kimindir" musiqili komediyasının səhnə həyatında H.-un böyük rolu olmuşdur. 1946-cı ildə H.-un məsləhəti ilə M. Gəncədə filarmoniya təşkil etmək üçün oraya göndərilmişdir. 1948-1949 illərdə Şəki Musiqili Dram Teatrında "Leyli və Məcnun operasının tamaşaya qoyulmasında iştirak etmişdir.

**MƏŞƏDİ İBAD** – H.-un "O olmasın, bu olsun" musiqili komediyasının əsas personajlarından biri. M. İ. timsalında H. dövrün avam, cahil, elm və mədəniyyətdən uzaq, mənəvi hisslərdən xali, pula sitayiş edən, onun gücü ilə hər şeyi, canlı insanları belə satın almağı mümkün sayan tacirlərin ümumiləşdirilmiş və koloritli obrazını yaratmışdır. M. İ. komik surətdir. Bir insan kimi avamlığı, sadəlövhlüyü, bəsitliyi, nəhayət, pulun gücünə güvənməsi, nadanlığa əsaslanan lovğalığı M. İ.-ı biri-birindən gülünc vəziyyətlərə salır və onun yeniliklər qarşısında, həqiqi insani münasibətlər önündəki məğlubiyyətini hazırlayır. M. İ.-ın imkanları (yaşlı, xəsis, eybəcər olması) ilə iddiası (gənc və gözəl qız eşqinə düşməsi) arasında komik bir təzad var. M. İ. Azərb. ədəbiyyatının ən populyar bədii obrazlarından biridir. Onun bir sıra deyimləri xalq arasında məcazi məna kəsb edərək son dərəcə geniş yayılmış, zərbi-məsəllərə çevrilmişdir. Azərb. səhnəsinin görkəmli ustaları M.Əliyev və Ə.Ağayev M. İ. obrazını böyük uğurla ifa etmişlər.

**"MƏŞƏDİ İBAD"** – bax: "O olmasın, bu olsun".

**MƏŞƏDİ QƏZƏNFƏR** – H.-un "O olmasın, bu olsun" musiqili komediyasında personaj. Cəmi bir səhnədə (üçüncü pərdədə) iştirak edən M. Q.-in timsalında H. Şərq hamamçısının koloritli bədii surətini yaratmışdır. "Həqiqət, hər bir şeyi fikirdən keçirib, yenə baxıb görürəm ki, dünyada hamamdan başqa ləzzətli bir yer varsa, yenə hamamdır", - deyən M. Q. öz hamamından başqa dünyada heç bir marağı olmayan, bütün söhbətlərin əsasını, bütün hadisələrin məğzini, hətta poeziya mənbəyini hamamla bağlayan bir tipdir.



**Ə.Ağayev** "O olmasın, bu olsun" filmində Məşədi İbad rolunda.

**MƏŞƏDİ ZEYNAL** (Haqverdiyev; 1861-1918) – tarzən. Sadıq Əsəd oğlu məktəbinin məşhur davamçılarından olmuş, uzun illər xalq məclisləri, Şərq konsertləri və xeyriyyə gecələrində Ə.Zülalov, M.Fərzəliyev, M.Behbudov, S.Şuşinski və b. tanınmış xanəndələri tarda müşayiət etmişdir. H.-un dəvəti ilə onun opera və musiqili komediyalarının Bakı, Tiflis və Şuşadakı tamaşalarında çalmışdır.

**"MİLLİ MARŞ"** – H.-un 1919 ildə bəstələdiyi əsər. Sözləri də bəstəkarındır. Əsər 1920 il aprel çevrilişindən sonra bir daha səslənməmiş və not materialları itirilmişdi. Son dövrlərdə onun haqqında məlumat və birsəsli musiqisindən bir parça türk musiqişünası Etem Üngörün 1966 ildə Ankarada nəşr etdirdiyi "Türk marşları" kitabında dərc olunmuşdu. Həmin kitabda göstərilir ki, "Azərbaycan milli marşının tənzim və seçimi üçün təyin olunmuş konkursda (müsabiqədə) Üzeyir Hacıbəyovun "Milli marş"ı birincilik qazanmış və 15.000 rubl məbləğində mükafat almışdır". 14 noyabr 1919 tarixli, 246 saylı "Azərbaycan" qəzeti də bu haqda yazır və bildirir ki, "...Azərbaycan Dövlət Teatrosunu dolduran milli dövlət ərkanı və əxlaq hüzurunda bir dəfə çalınmışdır..." Müasir Azərb. oxucusuna bu marş haqda ilk məlumat bəstəkar S.Fərəcovun "Ü.Hacıbəyovun iki marşı" məqaləsində verilmişdir ("Ədəbiyyat və incəsənət" qəzeti, 1989, 14 iyul). Uzun axtarışdan sonra R.Xəlilov tərəfindən marşın ilkin klavir variantı və ork. səsləri tapılmışdır. S.Fərəcov əsərin 4 səsli xor və böyük ork. üçün yeni partiturasını hazırladıqdan sonra o, ifa olunub, lentə yazılmışdır.

**"MİLLİLƏŞMƏK"** – H.-un məqaləsi. "Azərbaycan" qəzetinin 1919 il 21 sentyabr tarixli 278-ci sayında "Hacıbəyli Üzeyir" imzası ilə dərc olunmuşdur. Mə-



Ə.Mirəhmədov



R.Mirişli



M.Mirqasımov



X.Mirzəzadə

qalədə Azərb. Resp. hökumətinin həyata keçirdiyi demokratik, ümumbəşəri tədbirlər sırasında mühüm yer tutan xalq təhsili sahəsində görülmüş işlərdən bəhs edilir. Müəllif hökumətin Azərb. dilinə dövlət dili statusu verilməsinə ümumi və ali təhsil ocaqlarının yaradılması ilə başlamasını, Maarif Nazirliyinin "bu yolda ciddiyyətlə" çalışmasını bəyənir, tərif və təbliğ edir. İctimai həyatın milliləşdirilməsinə yüksək qiymət verən H. "türk hökumətində türk dilini qəsb edilmiş haqqı"nın özünə qaytarılmasını bu yolda "birinci qədəm" sayırdı.

**MİRƏHMƏDOV** Əziz Mirfeyzulla oğlu (1920-2002) – ədəbiyyatşünas, ədəbiyyat tarixçisi, mətnşünas, tənqidçi. Filologiya e. d. (1978), Azərb. EA m. üzvü (1980), Azərb. əməkdar elm xadimi (1990). 19 - 20 əsrlər Azərb. ədəbiyyatı tarixinə, onun ayrı-ayrı klassiklərinin həyat və yaradıcılığına həsr olunmuş tədqiqatların müəllifidir. Elmi-tənqidi fəaliyyətində H.-la bağlı mövzular mühüm yer tutur. Əsərlərində H.-un ədəbi-publisistik və elmi-nəzəri fəaliyyətindən geniş bəhs etmişdir. H.-un "Azərbaycan xalq musiqisinin əsasları" kitabını Azərb. dilinə tərcümə etmiş və çapa hazırlamış (musiqişünas M.İsmayılovla), X.Ağayevanın "Üzeyir Hacıbəyov" monoqrafiyasının çapa hazırlanmasına yaxından kömək göstərmişdir.

**MİRQASIMOV** Mirəsədulla Mirələsgər oğlu (1883-1958) – ilk azərb. alim-cərrah. Tibb e. d. (1927), prof. (1929), Azərb. EA akad. (1945). Azərb. əməkdar elm xadimi (1934). Azərb. EA-nın ilk prezidenti (1945 - 47). H.-la yaxın dostluq münasibətləri vardı. M. EA-nın prezidenti olduğu zaman, İncəsənət in-tuna rəhbərlik edən H.-la tez-tez görüşər, onların incəsənət barəsində maraqlı söhbətləri olardı.



**"Milli marş"**ın klaviri.
Bəstəkarın əlyazması.

**MİRİŞLİ** Mirhəsən Miriş oğlu (1903-1973) – aktyor. Azərb. əməkdar art. (1955). 1916-23 illərdə dram dərnəklərində əsasən qadın rollarının ifaçısı kimi tanınmış, Sənəm, Asya ("O olmasın, bu olsun", "Arşın mal alan") rollarında çıxış etmişdir. 1923 ildən Naxçıvan Dövlət Dram Teatrında fəaliyyət göstərmiş, H.-un musiqili komediyalarında Süleyman ("Arşın mal alan"), Həsənqulu bəy ("O olmasın, bu olsun") rollarını oynamışdır.

**MİRİŞLİ** Ramiz Aqil oğlu (d. 1934) – bəstəkar. Azərb. xalq. art. (1990). ADK-nı bitirmişdir (1962). Həmin ildən orada dərs deyir (1993 ildən prof.). 1989-95 illərdə Azərb. Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri olmuşdur. H.-un bir neçə əsərini, o cümlədən "Zəfər himni"ni xalq çalğı alətləri ork. üçün işləmişdir. "Qaçırılmış qız" (1982), "Gəl qohum olaq" (1983) operettalarının, tar və simf. ork. üçün konsertin, 3 simf. poemanın, kamera ork. üçün simfoniyanın, xalq çalğı alətləri ork. üçün 3 konsertin, kantata və süitaların, bir çox dram əsərlərinə və kinofilmlərə musiqinin, 500-ə yaxın lirik mahnının və s. müəllifidir.

**MİRZƏ MUXTAR** Əli Əsgər oğlu (Məmmədov, 1841-1929) – musiqişünas, müğənni, 1908 ilədək dram tamaşalarında çıxış etmişdir. "Leyli və Məcnun" operasının ilk tamaşasında Məcnunun atası rolunu oynamışdır. O, həmçinin "Əsli və Kərəm"də Kərəmin atası, "Şah Abbas və Xurşidbanu"da Vəzir və s. rollarda çıxış edirdi. M. M. 1912 ildən sonra Məcnunun anası rolunu da ifa etmişdir. 1913 ildə Bakı teatr ictimaiyyətinin M. M.-ın səhnə fəaliyyətinin 40 illiyi münasibətilə keçirdiyi yubiley gecəsində yubilyarın iştirakı ilə H.-un "Rüstəm və Söhrab", "Leyli və Məcnun" operalarından səhnələr göstərilmişdi, 1919 ildə səhnə ilə vidalaşdıqda, "Hacıbəyov qardaşları" ona ayda 500 manat təqaüd təyin etmişdi.

**MİRZƏZADƏ** Xəyyam Hadı oğlu (d.1935) – bəstəkar. Azərb. xalq art. (1987), əməkdar inc. xad. (1972). Milli Yaradıcılıq Akad.-nın fəxri m. üzvü, Azərb. Dövlət mükafatları laureatı (1976,

1986). ADK-nı bitirmişdir (1957). Həmin ildən orada dərs deyir (1979 ildən prof.). Bir neçə simfoniya, simli kvartet, simf. süita və s. əsərlərin, dram tamaşalarına və kinofilmlərə musiqinin, lirik mahnıların müəllifidir. Bəstəkarların Ümumittifaq müsabiqəsinin laureatıdır (1963).

**"MİZRAB"** – H.-un səhnə sənəti, teatr tamaşaları və ayrı-ayrı aktyorların ifaçılıq ustalığı haqqında yazdığı və "Azərbaycan" qəzetində dərc etdirdiyi resenziyalarda işlətdiyi imza.

**"MOLLA NƏSRƏDDİN"** – həftəlik illüstrasiyalı ilk Azərb. satirik jurnalı. Birinci nömrəsi 1906 il aprelin 7-də Tiflisdə çapdan çıxmışdır. Jurnal müəyyən fasilələrlə 25 il (1906-18 illərdə Tiflisdə, 1921 ildə Təbrizdə, 1918-21, 1922-31 illərdə Bakıda) nəşr olunmuşdur. Naşiri və baş redaktoru Cəlil Məmmədquluzadə idi. H.-un ədəbi-publisistik və jurnalistlik fəaliyyəti "mollanəsrəddinçilər" ədəbi məktəbi ilə sıx bağlı idi. Onun publisistikası ideya, mövzu və üslub baxımından "M. N." jurnalına çox yaxın idi. Təsadüfi deyil ki, H. "Haqq söz danışan" və "Haqq və həqiqətdən xoşu gəlməyən" hökumət tərəfindən vaxtaşırı "ağzı yumdurulan" ("İrşad" qəzeti, 1907, 12 iyun) jurnalın fəaliyyətini yüksək qiymətləndirərək yazırdı: "Molla Nəsrəddin" jurnalı mənfəətli məqalələri ilə millətimizə çox xidmətlər göstəribdir" ("Həqiqət", 1910, 18 mart). "M. N." də H.-un publisistikasına diqqət və rəğbətlə yanaşır, bəzən onun qəzetlərdə qaldırdığı bu və ya digər ictimai-siyasi məsələ barədə səsinə səs verirdi. Jurnal H.-un şəxsiyyətini və yaradıcılığını yüksək qiymətləndirirdi. Burada H.-un yaradıcılığı, musiqili komediyaları və publisist əsərləri haqqında onlarla təqdiredici yazı və rəsm verilmişdi. Jurnal onu haqsız hücumlardan qoruyur, müdafiə edirdi ("Teatr" felyetonu). 1911 ildə H.-un "M. N."-də iki felyetonu da dərc olunmuşdu.

**MOSKVA** – Rusiyanın, eləcə də dünyanın ən böyük elm və mədəniyyət mərkəzlərindən biri. H. musiqi təhsilini artırmaq məqsədilə 1912 ilin yayında M.-ya



getmişdi. "İqbal" qəzetinin yazdığına görə təhsil müddəti iki il olmalı idi ("İqbal", 1912, 4 sentyabr, №154). Lakin konservatoriyanın qəbul imtahanlarına gecikdiyindən H. filarmonik cəmiyyətin təşkil etdiyi musiqi kurslarına daxil olmuş və bir neçə ay burada oxumuşdur. Solfecio dərslərini prof. N.M.Laduxindən, harmoniya dərslərini isə N.N.Sokolovskidən almışdır. Maddi ehtiyac üzündən dərsləri yarımçıq qoyub Bakıya qayıdan H. bir il sonra - 1913 ilin yayında Sankt-Peter-



Moskvada Azərbaycan incəsənəti dekadasının iştirakçıları. 1938.



**Ü.Hacıbəyov** Moskvada, dövrünün görkəmli bəstəkarları ilə birlikdə.



**S.Mövləvi**

burqa gedərək, təhsilini Peterburq konservatoriyasında davam etdirmişdir.

Sonrakı illərdə SSRİ-nin görkəmli bəstəkarlarından biri olan H. Stalin mükafatları komitəsinin üzvü, SSRİ Ali Sovetinin deputatı, bir çox ümumittifaq müsabiqələrinin sədri, qurultay və müşavirələrin iştirakçısı kimi dəfələrlə M.-ya gəlmişdir. M.-da olarkən H. adətən "Moskva" mehmanxanasında yaşayardı. Onun "Arşın mal alan" əsəri M.-da Musiqili teatrda tamaşaya qoyulmuşdu. 1938 ildə Azərb. incəsənət ongünlüyü dövründə "Koroğlu" operası və "Arşın mal alan" musiqili komediyası çox böyük müvəffəqiyyətlə M. tamaşaçılarına göstərilmişdir.

H.-un anadan olmasının 100 illik yubileyi M.-da böyük təntənə ilə keçirilmişdir.

**MOSKVA KONSERVATORİYASI,** P.İ.Çaykovski ad. – Rusiyanın ən böyük ali musiqi təhsili məktəbi. 1866 ildə yaradılmışdır. H. 1912 ildə musiqi təhsilini artırmaq məqsədilə Moskvaya gələrək, M. k.-na daxil olmaq istəmişdir. Lakin qəbul imtahanlarına gecikdiyindən, konservatoriyanın direktoru M.M.İppolitov-İvanovun məsləhəti ilə prof. İlinskinin rəhbərlik etdiyi xüsusi musiqi kurslarının dinləyicisi olmuş və bir neçə ay orada təhsil almışdır.

1935 ildən ömrünün sonunadək tez-tez Moskvaya gələn H. həmişə konservatoriyadakı həmkarları ilə görüşərək, öz yaradıcılıq planları ilə bölüşər, burada təhsil alan azərb. tələbələrin qayğısına qalardı.

**MOSKVA MUSİQİLİ TEATRI,** K.S. Stanislavski və V.İ.Nemiroviç-Dançenko ad. Moskva Akademik Musiqili Teatrı – 1941 ildə K.S.Stanislavski ad. opera teatrı ilə V.İ.Nemiroviç-Dançenko ad. musiqili teatrın birləşdirilməsi əsasında yaradılmışdır. Teatrda opera, balet və operettalar tamaşaya qoyulur. 1952 ildə burada H.-un "Arşın mal alan" musiqili komediyası oynanılmışdır. Rej. V.Kandelaki, dirijor İ.Bayi, rəssam M.Çikovani, baletmeyster İ.Arbatov idi. Baş rolları R.Behbudov, T.Lazarenko, V.Kandelaki, T.Zenkova, S.Qalemba və b. ifa etmişlər.

**MÖVLƏVİ** Səməd Məhəmməd oğlu (1900-1962) – aktyor, rejissor. Azərb. xalq art. (1960). 1921 ildən ömrünün sonunadək Naxçıvan Dram Teatrında (sonralar Naxçıvan Dövlət Musiqili Dram Teatrı) işləmiş, H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu" operalarını tamaşaya qoymuşdur. 1924-26 illərdə İrəvan və Tiflis Azərb. teatrlarında işləmiş, İrəvanda "Leyli və Məcnun" və "Arşın mal alan" tamaşalarına quruluş vermişdir.

**MUĞAM OPERASI** – 20 əsrin əvvəllərində H.-un yaradıcılığında təşəkkül tapmış orijinal opera janrı. İlk M. o. "Leyli və Məcnun"un yaranmasında 1897 ildə Şuşada oynanılmış "Məcnun Leylinin məzarı üstündə" adlı kiçik musiqili tamaşanın əhəmiyyətli rolu olmuşdur. Füzulinin "Leyli və Məcnun" poemasının son fəsli əsasında qurulmuş bu tamaşada şeirlər muğam melodiyaları üstündə oxunmuş, tamaşa xorla, ork. əvəzinə isə sazanda ansamblı ilə müşayiət edilmişdi. Bu səhnəcik, H.-un sonralar etiraf etdiyi kimi, ilk Azərb. M. o.-nın yaranması üçün mühüm bir təkan olmuşdur. H.-un ən dəyərli kəşflərindən olan M. o. ilə Azərb.-da bəstəkarlıq yaradıcılığının əsası qoyulmuşdur. Novator sənətkar H. Azərb. musiqisinin ən mürəkkəb və iri həcmli janrlarından olan muğamı Avropa bəstəkarlıq yaradıcılığının ən mürəkkəb musiqi sahəsi sayılan operaya daxil etmiş, bununla da, Şərq və Qərb musiqi mədəniyyətlərinin vəhdətinə nail olmuşdur. H. ilk operalarında şifahi ənənəyə malik improvizasiya janrlı muğamları olduğu kimi saxlamışdır. Muğamlar burada əsas emosional-obrazlı ifadə vasitəsi olaraq əsərin musiqili dramaturgiyasında başlıca rol oynayır. Muğam, operadakı iştirakçı-

ların, ilk növbədə baş qəhrəmanların obrazlarını açır, səhnə hadisələrinin dramaturji inkişafına təsir göstərir.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərb. muğamı öz inkişaf tarixinin yeni mərhələsinə yüksəlmişdi; bu illərdə bir sıra görkəmli muğam ifaçıları - xanəndə və çalğıçılar yetişmişdi. Eyni zamanda muğam sənətində böhran əlamətləri də təzahür edirdi. Belə ki, bəzən muğam ciddi fəlsəfi motivlərdən uzaqlaşaraq əyləncəvi xarakter daşıyır, bir növ musiqili məişət fonuna çevrilirdi. Digər tərəfdən, əsrlər boyu inkişaf etmiş muğamın obrazlı-intonasiya kökü ilk növbədə orta əsrlərin həyat şəraiti ilə bağlı olduğundan, yeni dövrün təzadlarını, şəxsiyyətin, eləcə də xalq kütlələrinin azadlıq arzusundan doğan etiraz hisslərini əvvəlki bədii qüdrətilə ifadə edə bilmirdi. H. böyük uzaqgörənliklə milli musiqi mədəniyyətində klassik nailiyyətləri qoruyub saxlamaqla inqilabi dəyişiklik zərurətini hiss etmiş, faktiki olaraq muğam sənətini dirçəldərək onun yeni ifadə imkanlarını üzə çıxartmışdır. O, ilk dəfə olaraq Avropa mənşəli opera janrında muğamlardan istifadə etmişdir.

Muğamdan istifadə edərkən, H. bu janr üçün ənənəvi olan obraz-emosiya mühitinə əsaslanırdı. Belə ki, parlaq, xoşbəxt məhəbbət – "Segah" muğamı ilə, qəhrəmanlıq – "Heyratı" zərbi-muğamı ilə, qəmli hadisələr – "Şur", "Bayatı-Şiraz", "Kürd-Şahnaz", "Şüştər", fəal dramatik hadisələr – "Çahargah" muğamı vasitəsilə ifadə olunurdu. Operadakı hadisələri müşayiət edən muğamlar ariya, ariozo, duet, reçitativ kimi ənənəvi musiqi-səhnə formalarını əvəz edirdi. Qəhrəmanların müxtəlif xarakterik hisslərini ifadə edən ayrı-ayrı muğamları H. vahid dramaturji əsasla birləşdirdi. Bununla da, muğam konkret həyatı şəraiti, müəyyən tipajı təsvir edən musiqiyə çevrildi. Muğamın operadakı hadisələrin açılmasındakı əsas rolu "M. o." termininin yaranmasına səbəb oldu.

Lakin H.-un ilk operalarının musiqi materialı təkcə muğamlar deyildi. Bəstəkar bir çox xalq mahnılarından da müvəffəqiyyətlə istifadə edirdi. Bəzi hallarda bu xalq mahnıları H.-un operalarındakı hadisələrlə elə üzvi birləşirdi ki, sonradan elə H. operasının melodiyası kimi sayılırdı (məs., "Leyli və Məcnun" operasında Məcnunun səhrada olması səhnəsində qızlar xorunda istifadə edilmiş "Bu gələn yara bənzər" mahnısı).

M. o.-nda muğamların ayrı-ayrı dəstgahlarının təsnif və rəngləri səslənir. Not yazısı olmayan muğam improvizasiyalarından fərqli olaraq, H. istifadə etdiyi dəqiq metroritmikalı şifahi musiqi nümunələrini ilk dəfə olaraq sadə harmonik major-minor vasitələrilə nota salmış və işləmişdir. H.-un muğam operalarında folklor ruhunda yazılmış müəllif musiqisi də vardır ki, bu da Azərb.-da bəstəkarlıq fəaliyyətinin meydana gəlməsi və gələcək inkişafı üçün zəmin yaratdı. H.-un muğam operalarında milli musiqi mədəniyyətimizdə o vaxtadək inkişaf tapmamış xor janrından da geniş istifadə olunmuşdur. Bu əsərlərdə xor müxtəlif dramaturji rollar oynayır, - hadisələri ümumiləşdirir, izah edir, məişət səhnələrini təsvir edir, qəhrəmanların psixoloji vəziyyətini açır və s. Bu quruluşda reçitativ-deklamasiya improvizasiyasının ritmik cəhətdən dəqiq fraqmentlərlə - təsnif və rənglərlə növbələşməsinə əsaslanan muğam dəstgahının kompozisiya əlamətləri müşahidə olunur. Bu operaların quruluşu nəsrlə şeirin (mahnının) növbələşməsinə əsaslanan aşıq dastanlarının kompozisiyası ilə də müəyyən analogiya yaradır.

H. altı M. o. yazmışdır – "Leyli və Məcnun" (1908), "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915). Bu operaların əksəriyyəti yüksək, ülvi məhəbbəti, gözəl insani keyfiyyətləri tərənnüm edən lirik faciələrdir. H.-un qəhrəmanları öz mübarizələrində məhəbbətdən güc alırlar. Bu operalarda məhəbbət yüksək mənəvi gözəllik kimi təsvir edilir. Sevən insan həm də həyatdakı haqsızlıqlarla barışa bilmir, onlara qarşı üsyan edir.

Muğam operaları Azərb.-da bədii yaradıcılığın tarixi inkişafının gedişi nəticəsində yaranmışdılar. Onların əsası həm şifahi xalq musiqi ənənələrindən (muğam, aşıq sənəti, xalq mahnı və rəqsləri), həm də qədim tarixi olan, dini, məişət hadisələrini əks etdirən səhnələşdirilmiş tamaşalardan götürülmüşdür.

M. o. Azərb. ziyalıları və geniş xalq kütlələri tərəfindən məhəbbətlə qarşılandı. H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu" operaları xüsusilə böyük müvəffəqiyyət qazandılar. Lakin mətbuatda H.-un operaları haqqında bəzi mənfi rəylər də çap edilirdi. Bəstəkarı Azərb. mədəniyyətinə



**R.Muradova**



**M.Muxtarov**



**F.Muxtarova**

operanı çox tez daxil etməkdə günahlandırır, kütlələrin operanı qavramağa hələ hazır olmadığını, operanın dramı sıxışdıracağını bildirirdilər. H. bu tənqidlərə mətbuatda əsaslı cavablar verirdi.

H.-dən sonra Z.Hacıbəyov "Aşıq Qərib" (1916), M.Maqomayev "Şah İsmayıl" (1916) və b. da M. o. yazdılar. Muğam operaları milli mədəniyyətimizdə yeni ifaçılıq sənətinin - musiqili teatrın yaranmasına səbəb oldu. Bu musiqi teatrının da banisi ilk milli musiqi truppasını təşkil etmiş H. idi. Azərb. musiqili teatrının yaranmasında yazıçı Ə.Haqverdiyevin, rej.-lar H.Ərəblinski və A.Şərifzadənin, ilk opera artistlərimiz H.Sarabski, Ə.Ağdamski, H.Hacıbababəyov, H.Terequlov və b.-nın da böyük xidməti olmuşdur.

**MUXTAROV** Murtuza (1855-1920) – mütərəqqi milyonçu, mühəndis, xeyriyyəçi. Bakıdakı xeyriyyə cəmiyyətlərinin işində yaxından iştirak etmiş, milli kadrların hazırlanmasına diqqət və qayğı ilə yanaşmış, ədəbiyyat və incəsənət xadimlərinə daim maddi yardım göstərmişdir. H.-un müvəqqəti redaktor olduğu "Tərəqqi" qəzetinin naşiri idi. M.-un 1909 ildə Novruz bayramı münasibətilə "Tərəqqi" qəzeti əməkdaşlarına verdiyi ziyafətdə çıxış edən H. onun xeyriyyəçiliyini yüksək qiymətləndirmişdi.

1920 ildə XI ordu əsgərlərinə silahlı müqavimət göstərmiş və intihar etmişdir.

**MUXATOV** Vəli (1916-2006) – türkmən bəstəkarı. SSRİ xalq art. (1965). Stalin (1951, 1952) mükafatları və Türkmənistan Dövlət (1972) mükafatı laureatı. Türkmən milli-professional musiqisinin banilərindəndir. H.-un "Koroğlu" operası və "Arşın mal alan" musiqili komediyasının Aşqabadda, Türkmənistan Dövlət Opera və Balet Teatrında tamaşaya qoyulmasının təşəbbüskarı olmuşdur. H.-un musiqisini nikbin və dərin milli koloritə malik musiqi kimi yüksək dəyərləndirmişdir.

**MUXTAROVA** Fatma Səttar qızı (1893-1972) – müğənni (messo-soprano). Azərb. xalq art. (1940). Saratov konservatoriyasını bitirmiş (1914), Moskva, Saratov, Sankt-Peterburq, Kiyev, Xarkov, Odessa və s. şəhərlərin opera teatrlarında oxumuş, 1938-53 illərdə AOBT-nın solisti olmuşdur. Fitri istedada, güclü və gözəl səsə, yüksək aktyorluq məharətinə malik olan M. bir çox məşhur müğənnilərlə çıxış etmişdir. H. onun sənətkarlığını yüksək qiymətləndirirdi.



**R.Muradova** "Leyli və Məcnun" operasında Leyli rolunda.

**MURADOVA** Rübaba Xəlil qızı (1933-1983) – müğənni (messo-soprano). Azərb. xalq art. (1971). Güclü, təsirli və müxtəlif çalarlı səsə, orijinal ifaçılıq üslubuna malik müğənni idi. 1954 ildən AOBT-nın solisti olmuş, burada H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" və "Koroğlu" operalarında Leyli, Əsli və Xanəndə qız partiyalarını böyük məharətlə ifa etmişdir. M. muğam, təsnif və xalq mahnılarının ifaçısı kimi də məşhur idi.

**MURADOVA** Firuzə Ramazan qızı (1927-1987) – müğənni (dramatik soprano). Azərb. əməkdar art. (1958). Gözəl və gur səsə malik müğənni idi. AOBT-nda H.-un "Koroğlu" operasında Nigarın partiyasını uğurla ifa etmişdir.

**MUSİQİ FORMASI** – musiqidə müəyyən ideya-bədii məzmunu təcəssüm etdirən, bir-birinə qarşılıqlı təsir göstərən və əlaqədə olan ifadə vasitələri kompleksi. H.-un yaradıcılığında M. f. şifahi ənənəli Azərb. musiqisi və bəstəkarlıq sənətinin kompozisiya quruluşunun üzvi sintezi ilə şərtlənir. Hələ yaradıcılığının ilk dövrlərində H. müxtəlif kompozisiya əhatələri arasında "ümumi məqamlar" axtarırdı. Bu axtarışların mənbələrindən biri özünəməxsus klassik dövrün formalaşması üçün zəmin yaratmış xalq təranələrinin ardıcıl quruluşu olmuşdur. H.-un yaradıcılığında dövr milli məqam sistemi qanunauyğunluqlarından irəli gəlir. Bu cür dövr "Arşın mal alan" musiqili komediyasında geniş istifadə olunmuşdur. H.-un yaradıcılığında

dövr forması çox vaxt klassik Avropa musiqisində mövcud və mümkün olmayan keyfiyyətlərlə fərqlənir. Bu özünəməxsusluq şifahi ənənəli Azərb. musiqisinin kompozisiya əsaslarını səciyyələndirən iki prinsiplə - melodikanın variantlı inkişafı və reflenlik ilə bağlıdır.

"Arşın mal alan"-da H.-un Azərb. musiqisinə xas olmayan tematik reprizliyin təcəssümünə meyl etməsi aydın görünür. Təsadüfi deyil ki, H. burada xalq mahnı yaradıcılığı üçün tipik kuplet formasının quruluşundan yaranan üçhissəli (sadə, mürəkkəb) formadan geniş istifadə edir. Bu iki formanın sintezi "Arşın mal alan"ın kompozisiyasında müəyyənedici xassələrdəndir. Eyni zamanda H. milli musiqinin formayaradıcı meyllərindən birinə dayaqlanaraq, məqam-tonal reprizaya malik iki və üçhissəli formalar da yaradır. H. burada kuplet formasından da geniş istifadə edir.

M. f. sahəsində "Arşın mal alan"da qazandığı nailiyyətləri H. "Koroğlu" operasında uğurla inkişaf etdirərək, sonata formasını tətbiq edir. Əvvəllər H. bu formanı xalq çalğı alətləri üçün I fantaziyanın (1931) birinci hissəsində işlətmişdi (burada musiqi materialı kimi V.Motsartın fp. üçün 15 nömrəli sonatasının birinci hissəsinin musiqisindən istifadə etmişdi). "Aşıqsayağı"nın musiqi mövzularının təşkilində də sonata formasına xas prinsip vardır. Burada sonata forması əlamətləri ilə zərbi muğamın musiqi quruluşu üçün səciyyəvi olan refrenlik üzvi surətdə əlaqələndirilmişdir.

"Koroğlu" operasında milli məqam-intonasiya qanunauyğunluqlarına əsaslanan klassik sonata forması kamil təcəssümünü tapmışdır. Bu formanın orijinal nümunələrindən biri operanın uvertürasıdır. Buradakı sonata forması bütövlükdə ənənəvi quruluşa - üsyan etmiş xalq leytmotivinə əsaslanan giriş, kütləvi xalq səhnələrinin musiqisi ruhundakı əsas mövzu, məhəbbət leytmotivinə əsaslanan köməkçi mövzu, qısaldılmış repriza və iki qəhrəmanlıq leytmotivi üzərində qurulmuş koda malikdir. Uvertüranın sonata formasının özünəməxsusluğu onun muğamların formayaratma prinsipləri ilə əlaqəsindən irəli gəlir. Uvertüranın musiqisi öz mənbəyini üsyan etmiş xalq leytmotivindən götürür. Fasiləsiz, mütəmadi məqam-intonasiya inkişafı muğam kompozisiyasının əsasını təşkil edir. Uvertüranın sonata formasının fərdiliyi həm də onun musiqi materialının bütünlüklə milli məqamlara (şur, segah, bayatı-şiraz, çahargah, rast) əsaslanması ilə də şərtlənmişdir. Operanın III pərdəsinin antraktında sonata forması musiqinin ifadə etdiyi mənaya (üsyana qalxmış xalqın qəhrəmanlığına) uyğun olaraq monotematikdir. Girişdə verilmiş bir intonasiya kompleksi - üsyan etmiş xalqın leytmotivi sonata formasının bütün mövzularının əsasını təşkil edir. Antraktın başqa bir özünəməxsus cəhəti stabil surətdə şur məqamının istifadə olunmasıdır (üsyan etmiş xalq leytmotivi bu məqamdadır). Antraktın musiqisinin məqam-intonasiya əsasının bir diqqətəlayiq cəhəti də sonata formasının hər tamamlanmış bölməsindən əsas vahid məqam-tonallığa qayıdışıdır. Antraktın məqam-tonal inkişafının bu cür qeyri-adi quruluşu, muğamın hər şöbəsindən sonra əsas məqam-tonallığa refrenvari qayıdışla izah olunur.

H. "Koroğlu"da bəstəkarlıq sənətinə və milli musiqiyə xas bir sıra formaları sintezləşdirir (məs., "Çənlibel" xorunda). Xorun musiqi formasının modeli xalq mahnısının kuplet quruluşudur. Sanki böyüyən iki kuplet iki mövzunun (bir növ bənd və nəqərat) inkişafına əsaslanan geniş həcmli ikihissəli formaya çevrilir. Müxtəlif məqam-tonallıqlarda səslənmə xorda sonata formasının mövcudluğuna dəlalət edir. Birinci mövzu isə öz-özlüyündə fuqatonun parlaq nümunəsidir.

Bəstəkar yaradıcılığının klassik formalarına üz tutan H. onları şifahi ənənəli Azərb. musiqisinə xas kompozisiya normaları baxımından əxz edir, milli musiqi və Avropa bəstəkar yaradıcılığının tipik kompozisiya keyfiyyətlərinin üzvi vəhdətinə əsaslanan musiqi formaları yaradırdı. Forma bölmələrinin tonal münasibətləri H. yaradıcılığında daim geniş inkişaf etdirilmiş milli məqam qanunauyğunluqları əsasında qurulmuşdur.

**"MUSİQİDƏ TƏRCÜMƏ"** – H.-un məqaləsi. "Maarif və mədəniyyət" jurnalının 1926 il 5-6-cı saylarında dərc olunmuşdur. H. Qərbi Avropa dramaturqlarının əsərlərinin təbdil edilərək Azərb. səhnəsində tamaşaya qoyulduğu dövrdə yazılmış bu məqalədə "anlaşılmayan Qərb musiqi parçasını Şərq musiqisinə tərcümə ilə şərqlilərin anlayacağı bir hala salmaq" məsələsini qaldırmış, min il ərzində inkişaf etmiş Qərb musiqi formalarının Şərq musiqi sənətinin inkişafında böyük rol oynayacağını söyləmişdir. Müəllif Qərb mu-

siqisini anlamaq üçün onu illərlə dinləməkdən əlavə, nəzəri cəhətlərinin də öyrənilməsinin vacibliyini, hər iki musiqinin məktəblərdə tədris edilməsinin əhəmiyyətini qeyd etmişdir.

**"MUSİQİDƏ XƏLQİLİK"** – H.-un məqaləsi. "Revolyusiya və kultura" jurnalının 1939 il 5-ci sayında dərc edilmişdir (kiçik dəyişikliklərlə Moskvada çıxan "Народное творчество" jurnalının 1939 il 4-cü sayında da çap olunmuşdur). Məqalədə xalq musiqi sənətinin tükənməz zənginliyi, xalqın özünün yalnız yaradıcı deyil, eyni zamanda misilsiz tənqidçi olduğu, "Saxta gözəllikləri və ideyasız dəbdəbələri amansızcasına rədd etdiyi" göstərilmişdir. H. xalqın yüksək estetik tələblərini təmin etmək üçün bəstəkarın ümumi musiqi mədəniyyətindən başqa, xalq musiqisi sahəsində də ciddi məlumata malik olmağının zəruriliyini, özünün "xalq musiqisini əsaslı surətdə öyrənməyincə böyük əsərlər yazmağa tələsmədiyini" qeyd etmişdir. Müəllif, həmçinin, Azərb. xalq musiqisinin xüsusi bir sistemə malik və tam formalaşmış müstəqil bir incəsənət növü olduğunu göstərmiş, eləcə də temperasiya, muğam, çoxsəslilik məsələlərinə toxunmuş, xalq musiqisinin konservatoriyada tədris olunmasının vacibliyini vurğulamışdır.

**MUSİQİLİ KOMEDİYA** – H.-un yaradıcılığında əsas janrlardan biri. H. Azərb. musiqi sənətində bu janrın yaradıcısıdır. O, üç M. k.-nın müəllifidir. Bəstəkar hər üç əsərini - "Ər və arvad" (1909-1910), "O olmasın, bu olsun" (1911) və "Arşın mal alan" (1913) M. k.-larını yaradıcılığının ilk dövründə yazmışdır. Həmin əsərlərin ədəbi mətnlərinin də müəllifi H. özüdür. Müstəqil süjet xəttinə malik həmin əsərlər, eyni zamanda vahid mövzuya - qadın hüquqsuzluğuna qarşı mübarizə mövzusuna həsr edilmiş trilogiya olub, bir-birini tamamlayırlar. "Ər və arvad"ın müsbət qəhrəmanı Minnət əyyaş ərini məsxərəyə qoysa da, güzəştə gedib evin sahibəsi mövqeyini qoruyub saxlayırsa, "O olmasın, bu olsun"da Sərvər və Gülnaz feodal-patriarxal ailə-məişət qaydalarını pozurlarsa, "Arşın mal alan"ın qəhrəmanları bu və ya digər dərəcədə müstəqim, yaxud dolayısı ilə insana mənəvi zorakılıq əleyhinə etiraz edirlər.

M. k.-larda H.-un bəstəkar kimi təkamülü nəzərə çarpır. "Ər və arvad"da musiqi vodevil xarakteri daşıyıb, qəhrəmanların fərdi xarakterlərini deyil, hadisələrin emosional atmosferini təcəssüm etdirir. Xalq mahnıları intonasiyalarına əsaslanan və bir çox hallarda rəqs xarakterli mahnı-kupletlər qəhrəmanların səhnə portretlərini tamamlayır. Bəstəkar hələ ilk M. k.-sında hadisələrin məişət atmosferini canlandırmaqla yanaşı, həm də onu şərh edən (bir növ, müəllif sözü kimi) xordan geniş istifadə etmişdir.

"O olmasın, bu olsun" M. k.-sında musiqinin dramaturji rolu daha əhəmiyyətlidir. Onun köməyi ilə müsbət və mənfi qəhrəmanlar qarşı-qarşıya qoyulur. Mənfi surətlərin açılmasına rəqs melodiyaları daha çox yardım göstərir. Onların xarakteristikası xalq mahnısı üslubunda açıqlanır. Müsbət qəhrəmanlar H. musiqisi üçün yeni olan arioza vasitəsilə səciyyələndirilir. Xor burada da mənfi personajların kollektiv obrazını yaratmaq və müəllifin səhnədə baş verən hadisələrə münasibətini açıqlamaq baxımından mühüm dramaturji rol oynayır. Xalq musiqisindən yaradıcı şəkildə bəhrələnən H. onu dramaturji məqsədə tabe edirdi (məs., Məşədi İbadın geniş yayılmış lirik "Uzundərə" rəqs melodiyasının əsasında bəstələnmiş "Mən nə qədər qoca olsam da" komik mahnısı).

"Arşın mal alan" komik opera səviyyəsinə yüksəlir. Burada musiqi səhnə hadisələrini "idarə edir", qəhrəmanların xarakterlərini özündə cəmləşdirir, onların fərdi xüsusiyyətlərini parlaq surətdə təcəssüm etdirir, baş qəhrəmanların - Əsgər və Gülçöhrənin obrazlarının dinamik şəkildə açılmasına yardım göstərir. "Arşın mal alan"ın musiqi üslubu əvvəlki iki M. k.-dan xeyli fərqlənir. Bəstəkar burada əsas musiqi-səhnə forması kimi ariyadan istifadə edir, geniş opera melodikliyinə, reçitativ-deklamasiya elementlərinə, eyni zamanda Azərb. xalq musiqisinin lad-intonasiya özünəməxsusluğuna əsaslanan yüksək bədii keyfiyyətli melodika nümunələri yaradır. "Arşın mal alan" M. k.-sı H.-un yaradıcılığının zirvəsi olan "Koroğlu" operasına bilavasitə yol açmışdır. H. yaradıcılığının yetkin dövründə daha M. k. yazmamışdır. M. k.-nı "yüngül" deyil, həyatın ictimai problemlərini qlobal şəkildə əks etdirə bilən janr saysa da, o bu dövrdə gerçəkliyin epik inikasına xalq xarakterinin, onun çoxəsrlik azadlıq mübarizəsinin təcəssümünü daha vacib vəzifə hesab etmişdir. H.-un M. k. ənənələrini ondan sonra gələn bəstəkarlar nəsli – S.Rüstəmov, F.Əmirov, S.Ələsgərov, T.Quliyev, R.Hacıyev, A.Rzayev və b. davam və inkişaf etdirmişlər.

**MUSİQİŞÜNASLIQ** (H. musiqişünas-alim kimi) – H. müasir Azərb. musiqişünaslığının banisidir. O, Azərb.-da böyük musiqişünaslar ordusu yaratmış, onun yaradıcılığı Azərb. musiqişünaslığında "Üzeyirşünaslıq" kimi vacib qolunun yaranmasına səbəb olmuşdur. Uzun illər boyu xalq musiqisinin tədqiqi üzərində elmi işlər aparmış, saysız-hesabsız məqalələr yazmış H.-un elmi axtarışları "Azərbaycan xalq musiqisinin əsasları" tədqiqatında (1945) tamamlanmışdır. H. üçün doğma xalqının musiqisi, üzərində xalqın öz "musiqi barigahını" qurduğu canlı, bütöv bir sistem idi. H. yazırdı: "Azərbaycan xalq musiqisinin əsaslarını öyrənmək sahəsindəki işimin bir bəstəkar olaraq, mənim üçün əməli əhəmiyyəti o oldu ki, mən "Koroğlu" operasını yazdım". H. tədqiqatında xalq musiqisinin nəzəri problemlərinin dərin elmi təhlilini vermiş, onun böyük bilicisi olduğunu göstərmişdir. Əsər iki hissədən ibarətdir. Birinci hissədə milli musiqinin səs sistemi, tetraxordların birləşmə üsulları, Azərb. ladlarının əmələ gəlmə qaydaları kimi əsas müddəalar açıqlanır. İkinci hissə xalq üslubunda Azərb. ladlarında musiqi bəstələmək qaydalarından bəhs edir. Bu tədqiqat Azərb.-da musiqişünaslıq fikrinin inkişafı üçün böyük əhəmiyyət kəsb etməklə bərabər, müxtəlif beynəlxalq konqres və simpoziumlarda Şərq musiqi mədəniyyətinin təbiiliyi, onun Qərb musiqi sistemlərilə qarşılıqlı əlaqələri məsələlərinin qoyulduğu bu gün də öz aktuallığını saxlamışdır.

H. 1919 ildən mətbuat səhifələrində musiqişünaslığımızın müxtəlif problemlərinə həsr olunmuş məqalələr dərc etdirmişdir. "Azərbaycan türklərinin musiqisi haqqında", "Vəzifeyi-musiqiyyəmizə aid məsələlər", "Azərbaycan musiqi həyatına bir nəzər", "Şərq musiqisi və qərb musiqi aləti", "Musiqidə tərcümə", "Azərbaycanda musiqi tərəqqisi", "Azərbaycan türk xalq musiqisi haqqında", "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər", "Çaykovski və Azərbaycan musiqisi" və s. məqalələrində, bir sıra məruzə və çıxışlarında Azərb. musiqi dilinin lad, melodiya, metroritm, səs sistemi, çoxsəslilik, vokal sənəti, eləcə də musiqimizin tarixi, nəzəriyyəsi və inkişafı ilə bağlı problemləri irəli sürmüş və həll etmişdir. Ümumiyyətlə, 20-ci illər Azərb. musiqi tarixinə "təşkilatçılıq" illəri kimi daxil olmuşdur və bu təşkilat işlərinin başında H. özü dayanmışdır. O, "Sənaye-nəfisə" (1921, №1) məcmuəsində dərc etdirdiyi "Vəzifeyi-musiqiyyəmizə aid məsələlər" adlı proqram xarakterli məqaləsində Azərb. musiqisinin gələcək inkişafını müəyyən etmiş, professional musiqi kadrları yetişdirmək, Azərb. musiqisinin əsaslarını təyin etmək, ümumdünya musiqisini öyrənmək kimi məsələləri irəli sürmüşdür. H.-un musiqi sənəti haqqında konsepsiyasının bəzi müddəaları müxtəlif opponentlərlə elmi mübahisələrdə formalaşmışdır. Məs., H.-un 10-cu illərdə yazdığı opera və musiqili komediyalarının böyük müvəffəqiyyətinə və estetik-tərbiyəvi əhəmiyyətinə baxmayaraq, bəzi tənqidçilər, publisistlər bu əsərlərə qarşı çıxaraq onların vaxtsız yarandıqlarını iddia edir, tərbiyəvi mənada onları səhnə sənətinin ikinci və üçüncü dərəcəli sahəsi adlandırırdılar. Belə publisistlərdən biri də dramatik tamaşaları opera və operettaya qarşı qoyan Ə.Məmmədov-Əhliyev idi. Onun məqaləsinə cavab olaraq H. 1917 ildə "Kaspi" qəzetində "Səhnənin tərbiyəvi əhəmiyyəti haqda" və "Opera və dramının tərbiyəvi əhəmiyyəti haqda" məqalələrilə çıxış etmiş, özünün estetik və ictimai prinsiplərini bildirmişdi.

20-ci illərdə isə milli musiqinin inkişaf məsələləri, xüsusilə opera məsələsi ciddi mübahisələrə və diskussiyalara səbəb olmuşdur. Bu diskussiyaların mərkəzində milli opera sənətinin ənənələrini davam etdirmək, yaxud onlardan tamamilə imtina etmək məsələsi dururdu. Azərb. musiqi sənətinin bir çox digər qabaqcıl nümayəndələri kimi H. da milli musiqimizin ənənələrini qorumaq və inkişaf etdirmək, eyni zamanda dünya musiqisinin janr, forma və texnikasının öyrənilməsinin labüdlüyü mövqeyi tuturdu ("Türk operaları haqqında", "Azərbaycanda musiqi tərəqqisi" və s. məqalələri). Həyat məhz bu yolun doğru və perspektivli olduğunu göstərmiş və Azərb. musiqisi bu yolla inkişaf etmişdir. "Musiqidə tərcümə" (1926) adlı məqaləsində H. özünün musiqidə tərcümə nəzəriyyəsini və prinsiplərini izah edirdi. Bu qeyri-adi eksperimentin məqsədi Azərb. musiqisini və dinləyici auditoriyasını qısa bir müddətdə dünya musiqi mədəniyyətinin nailiyyətlərinə qovuşdurmaq idi. Maraqlıdır ki, H. yaradıcılıq təcrübəsində də bu nəzəriyyəni həyata keçirərək, birinci fantaziyası "Çahargah"da Motsartın məşhur 15 nömrəli do major sonatasının dəyişilmiş materialından istifadə etmişdir. Lakin sonralar nə H., nə də digər Azərb.

bəstəkarları musiqidə tərcümə təcrübələrinə müraciət etməmişlər. Bununla belə, H.-un musiqidə tərcümə prinsipi Şərq və Qərb musiqisinin yaxınlaşması yolunda maraqlı eksperimentlərdən biri sayıla bilər. Moskvada keçirilən Azərb. incəsənəti ongünlüyü münasibətilə yazılmış və opera sənətimizin inkişaf tarixindən bəhs edən məşhur "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər" (1938) adlı məqaləsində ona həm ilk, həm də hələlik axırıncı Azərb. operasının müəllifi olmaq şərəfi nəsib olduğunu qeyd edən H. "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər keçilən yolu təkcə Azərb. operasının otuz illik tarixi deyil, həm də özünün şəxsi yaradıcılıq yolu kimi nəzərdən keçirir.

Novator sənətkar olan H. bəstəkarlıq yaradıcılığında olduğu kimi, nəzəriyyədə də Azərb. musiqisinin bir çox üslub xüsusiyyətlərini, onun estetik prinsiplərini müəyyənləşdirmiş və inkişaf etdirmişdir. H.-un sırf estetik problemlərə həsr edilmiş xüsusi tədqiqatı olmamışdır. Lakin onun yaradıcılığında və nəzəri tədqiqatlarında estetikanın xəlqilik, ənənə və novatorluq, millilik və beynəlmiləlçilik kimi problemləri irəli sürülüb işıqlandırılmışdır. H.-un estetik konsepsiyası onun musiqi yaradıcılığı və musiqi-nəzəri axtarışları ilə əlaqədə inkişaf etmişdir. Bu konsepsiya 19-20 əsrlərin qabaqcıl Azərb. yazıçıları və mütəfəkkirlərinin - M.F.Axundovun, H.Zərdabinin, C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin və b.-nın ictimai-fəlsəfi və estetik ideyalarının ənənələri əsasında formalaşmışdır. H.-un musiqişünaslıq və musiqi-estetik tədqiqatları da onun bəstəkarlıq yaradıcılığı kimi Azərb. musiqi mədəniyyətinin qiymətli irsidir.

**MUSTAFAYEV** Böyükağa Hacıağa oğlu (1911-1976) – müğənni (bas). Azərb. əməkdar art. ADK-nın skripka sinfində təhsil alarkən H.-un rəhbərlik etdiyi xorda oxumağa başlamışdır. 1936 ildən AOBT-nda solist olmuşdur. Qaltanlı, gur səsə malik olan M. "Koroğlu" operasında İbrahim xan rolunun ilk ifaçısı idi. Ü.H-un "Əsli və Kərəm" operasında keşişin obrazını da böyük ustalıqla yaratmışdır.

**MUSTAFAYEV** Faiq İsmayıl oğlu (1923-1977) – müğənni (bariton). Azərb. əməkdar art. 1952 ildən AOBT-nın solisti olmuş, H.-un "Koroğlu" operasında Həsən xan, "Arşın mal alan" musiqili komediyasında Süleyman, "Leyli və Məcnun" operasında Nofəl rollarında çıxış etmişdir. 60-cı illərdə Rusiyanın Vladimir ş.-ndə filarmoniyanın solisti olmuş, eyni zamanda musiqi texnikumunda səhnə ustalığından dərs demiş, həmin məktəbdə özfəaliyyət artistlərinin köməyi ilə H.-un "Arşın mal alan" musiqili komediyasından parçalar hazırlamışdır. 1971 ildə Bakıya qayıdaraq AOBT-nda solist kimi fəaliyyət göstərmişdir. Bir sıra bədii filmlərdə, o cümlədən "O olmasın, bu olsun" filmində çəkilmişdir.

**MUSTAFAYEV** Ramiz Hacı oğlu (d. 1926) – bəstəkar. Azərb. xalq art.(1987). ADK-nın vokal (1952) və bəstəkarlıq (1957) fakültələrini bitirmişdir. 1958 ildən vaxtilə H. tərəfindən yaradılmış Azərb. Radio və Televiziya Komitəsinin xor kollektivinə rəhbərlik edir. H.-un opera yaradıcılığının davamçılarındandır. "Şirin" (1957), "Vaqif" (1960), "Polad" (1964), "Aydın" (1982) operalarının, bir neçə operetta, musiqili komediya, simfoniya, oratoriya və kantataların, mahnı və romansların müəllifidir.



"Koroğlu" operasından səhnə. Rəssam **R.Mustafayev.**



**F.Mustafayev** Həsən xan rolunda.

**MUSTAFAYEV** Rüstəm Məmməd oğlu (1910-1940) – teatr rəssamı. Azərb. realist teatr-dekorasiya sənətinin yaradıcılarındandır. Bakı Ali Rəssamlıq Məktəbini bitirmişdir (1926). AOBT-nda bir çox tamaşalara bədii tərtibat vermişdir. H.-un "Leyli və Məcnun" (1931) və "Koroğlu" (1937, müştərək; 1938, müstəqil) operalarına, "Arşın mal alan" musiqili komediyasına (1940) çəkdiyi dekorasiyalar M.-in yaradıcılığında xüsusi yer tutur.

**MUSTAFAZADƏ** Vaqif (1940-1979) – bəstəkar, pianoçu, "caz-muğam" üslubunun banisi. Azərbaycan əməkdar inc. xadimi (1979). 1964-cü ildən "Orero" ansamblına, "Qafqaz" caz üçlüyünə, "Leyli" və "Sevil" qadın vokal-instrumental və "Muğam" instrumental ansambllarına rəhbərlik etmişdir. Beynəlxalq caz müsabiqələri və festivallarının ("Tallin-66", "Tbilisi-78", Monte-Karlo) laureatı olmuşdur. Fortepiano və simfonik orkestr üçün konsertin, "Muğam" simfoniyasının (tamamlanmamış), bir sıra caz kompozisiyaları və pyeslərinin müəllifidir.

**"MÜƏLLİMLƏR İCTİMAINA DAİR"** – H.-un məqaləsi. "İrşad" qəzetinin 1906 il 15 və 16 avqust tarixli 192 və 193-cü saylarında "Üzeyir" imzası ilə dərc olunmuşdur. Müəllimlərin 1-ci qurultayının işə başladığı gün dərc olunmuş məqalədə Qafqaz müsəlman müəllimlərinin bu ali məclisinin ümummillət mənafeyi üçün ilk təşəbbüs olduğu göstərilir, müəllimlərin mühüm vəzifələrindən ətraflı danışılır. Bakıda çalışan müəllimlərin fəaliyyətindən razılıqla bəhs edən müəllif kənd müəllimlərinin öhdəsinə düşən vəzifələr üzərində xüsusilə geniş dayanaraq yazırdı ki, "...kənd müəllimləri şəhər müəllimlərindən artıq iş görməlidirlər... kənd camaatı görsə ki, içlərində olan müəllimlər onların dərd göstərən və dərmanbilənləridir, şübhəsiz, o müəllimlərə məhəbbət və etibar ilə baxıb, övladlarını razılıqla onların təhti-tərbiyəsinə verərlər..."

**"MÜHÜM MƏSƏLƏLƏR"** – H.-un məqaləsi. "Azərbaycan" qəzetinin 1918 il 1 dekabr tarixli 53-cü sayında "Hacıbəyli Üzeyir" imzası ilə dərc olunmuşdur. Versal sülh konfransına hazırlıq dövründə yazılmış bu məqalədə müəllif ictimai fikri bu mühüm məsələyə xüsusi cəlb etməyə çalışmışdır. "Sülh konfransında hüquq paylamayacaqlar ki, biz də növbəyə durub, payımızı gözləyək!", - hökmlü qənaəti ilə H. sülh konfransında resp.-nı təmsil edəcək siyasət adamlarını fəal olmağa, işgüzarlığa dəvət edir və düşmənlərimiz müttəfiq dövlətlər qarşısında bizi bədnam etməyə çalışanda, onların yalan və böhtanlarını dəlillər əsasında təkzib etməyə qabil olmağa çağıraraq yazırdı. "Bizi kənd və şəhərlər dağıtmaqda ittiham edərlərsə, yüzlərlə dağılan kəndlərimizin və şəhərlərimizin hesabını meydana qoymalıyıq. Bizi ev soymaqda və adam öldürməkdə məzəmmət edərlərsə, minlərcə xarab edilmiş xanimanlarımızın və on minlərlə öldürülən adamlarımızın siyahısını lazım olan yerlərə təqdim etməliyik..."



**R.Mustafayev**

**MÜSAVAT** – Azərb.-da siyasi partiya. 1911 ildə M.Ə.Rəsulzadə, Q.Şərifzadə, A.Kazımzadə və b. tərəfindən "Müsəlman Demokrat Müsavat Partiyası" adı ilə Bakıda yaradılmışdı. 1917 ilin iyun ayında "Türk Ədəmi-Mərkəziyyət Partiyası" (1917 ilin martında Gəncədə N.Yusifbəylinin təşəbbüsü ilə təsis olunmuşdu) ilə birləşərək, 1-ci qurultayında (oktyabr, 1917) "Türk Ədəmi-Mərkəziyyət Partiyası" adlandırılmışdı. M.Ə.Rəsulzadə partiyanın sədri seçilmişdi. Azərb.-ın milli istiqlaliyyəti, dövlət müstəqilliyi uğrunda mübarizə partiyanın əsas məqsədi idi. "M."-ın lideri, Milli Şuranın sədri M.Ə.Rəsulzadənin rəhbərliyi ilə 1918 il mayın 28-də Azərb. Demokratik Resp. quruldu. 1920 il 28 aprel bolşevik işğalından sonra "M."-ın fəaliyyəti dayandırıldı.



**V.Mustafazadə**

"M." partiyasının üzvü olan H. partiyaya rəğbətini etiraf etsə də, məqalələrinin birində, redaktoru işlədiyi "Azərbaycan" qəzetinin təkcə "M."-a mənsub firqəvi qəzet olmadığını göstərmişdir.

# N



**"Ər və arvad"** musiqili komediyasından səhnə. Naxçıvan Dram Teatrı. 1937.

**NAĞIYEV** Rəhim Səfər oğlu (d.1921) – fəlsəfəşünas. Fəlsəfə e.n. (1968). H.-un ədəbi-bədii irsinin tədqiqi ilə məşğul olmuşdur. 1947 ildə ADU-da H.-la keçirilən görüşdə bəstəkarın ədəbi-bədii yaradıcılığı mövzusunda məruzə ilə çıxış etmiş, "Ü.Hacıbəyovun ədəbi-bədii yaradıcılığı" mövzusunda diplom işi yazmışdır. H.-un ədəbi-bədii irsinə və estetik görüşlərinə həsr olunmuş məqalələrin və "Üzeyir Hacıbəyovun estetik görüşləri" (1985) monoqrafiyasının müəllifidir. Həmin əsərlərdə H.-un Azərb.-da ictimai-estetik fikrin inkişafında rolu, onun sənətin, xüsusilə musiqi sənətinin spesifik xüsusiyyətləri, realizm, xəlqilik, novatorluq, ideyalılıq, müasirlik və sənətkarlıq problemlərinə dair baxışları açıqlanır.

**NAXÇIVAN DRAM TEATRI.** C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrı - Azərb.-ın ilk teatrlarından biri. 19 əsrin sonundan fəaliyyət göstərir. Burada H.-un "Leyli və Məcnun" operası, "Arşın mal alan", "Ər və arvad" musiqili komediyaları da tamaşaya qoyulmuşdur. Bu tamaşalarda S.Mövləvi, M.Mirişli, Ə.Haqverdiyev, F.Əlixanova, Z.Həmzəyeva, S.Hüseynova və b. çıxış etmişlər. Teatr 1965 ildən C.Məmmədquluzadənin adını daşıyır.

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI** – Azərb. Resp. tərkibində muxtar respublika (1924 il fevralın 9-dan). Paytaxtı Naxçıvan ş.-dir.

H.-un şəxsiyyətinə və yaradıcılığına böyük ehtiramla yanaşan Naxçıvan əhalisi 1937 ildə onu 100 saylı seçki dairəsindən 1-ci çağırış SSRİ Ali Sovetinə deputat göstərmişdi. Bu münasibətlə mətbuatda "Seçicilər SSRİ Ali Sovetinə deputatlığa göstərdikləri namizədi yaxşı tanımalıdırlar" ümumi başlığı altında H. haqqında rəsmi dövlət məlumatı dərc olunmuşdu. H. onu namizəd göstərən naxçıvanlılarla tez-tez görüşür, seçicilər qarşısında çıxış edirdi. 1937 il noyabrın 29-da Baş Noraşendə, 30-da Culfada, dekabrın 1-də Şahbuzda H.-un seçicilərlə görüşü olmuşdu. 1937 ildən ömrünün sonunadək H. Naxçıvanın ictimai həyatı və taleyi ilə, seçicilərin şəxsi məişətindən tutmuş muxtar respublikada baş verən mühüm hadisələrə qədər - hər şeylə bir deputat və vətəndaş kimi maraqlanmış, adi şikayət ərizəsinə və sadə məktuba da, təbii fəlakətə də ləngimədən fəal münasibətini bildirmişdir. İncəsənətin inkişafına xüsusi diqqət yetirən H. öz vəsaiti ilə bir royal alıb, muxtar respublikaya bağışlamışdı.

1939-cu ildə təbii fəlakət nəticəsində Əznəbürt və Təzəkənd kəndlərini sel aparmış, kolxozlara böyük maddi zərər dəymişdi. Seçicilər H.-a müraciət edərək, ondan kömək istəmişdilər. SSRİ Ali Sovetinin deputatı H. elçisi olduğu xalqın həyatında baş vermiş təbii fəlakət haqqında yüksək dövlət və hökumət orqanları qarşısında məsələ qaldırmış, problemi özünə layiq səviyyədə həll etmişdi. Təbii

fəlakət nəticəsində dəymiş ziyanın aradan qaldırılması, müxtəlif sosial-mədəni, məişət ehtiyaclarının təmin edilməsi üçün kolxozların hərəsinə 200000 manat vəsait ayrılması barədə Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1940 il 1 aprel tarixli qərarının (№976) çıxarılmasına və icrasına nail olmuşdu.

**NATƏVAN** Xurşidbanu Mehdiqulu xan qızı (1832-1897) – şairə. Qarabağ xanı Mehdiqulu xanın qızıdır. «Xan qızı» adı ilə də tanınmışdır. Xurşidbanu dövrün tanınmış alim və sənətkarlarından dərs almış, ərəb-fars dillərini də mükəmməl öyrənmişdi və ümumən müstəsna hafizəyə malik idi.Şərq mövzu və janrlarında şeirlər yazmış, həm də istedadlı rəssam olmuşdur.

Natəvanın yaradıcılığının coşqun çağları Qarabağ ədəbi məclislərinin fəaliyyət göstərdiyi dövrlə bağlıdır. 1872 ildə Xurşidbanunun təşəbbüsü və maddi yardımı ilə Şuşada «Məclisi-üns» ədəbi məclisi təşkil olunmuşdur. N-ın 25 ilə yaxın rəhbərlik etdiyi «Məclisi-üns»də Azərbaycan dili ilə yanaşı, fars və cığatay dillərində də qiymətli mənzumələr yaranmışdır.

H.-un atası Əbdülhüseyn N.-ın sarayında mirzə işləmiş, sonralar onun Ağcəbədidəki təsərrüfatına başçılıq etmişdir. 1896 ildə H. böyük qardaşı Zülfüqar və əmisi Hacıbəylə birlikdə N.-ın görüşünə getmiş, N. onlara xeyir-dua vermişdir.

**NEMANZADƏ** Ömər Faiq, bax Ömər Faiq.

**NEMƏTOV** Hacıağa Əlipaşa oğlu (1919-1943) – bəstəkar. H-un ilk tələbələrindəndir. Onun "Döyüşçünün andı" vətənpərvərlik mahnısı müharibə dövründə geniş yayılmış mahnılardan idi. H. bütün tələbələrinə olduğu kimi, N.-a da daim maddi kömək göstərirdi. Hətta ona böyük konsert royalı bağışlamışdı. Böyük Vətən müharibəsində ağır yaralanan N. müəlliminin maddi köməyi ilə Bakıya gətirilmiş və burada vəfat etmişdir.

**NEMƏTZADƏ** (Nemətov) Əflatun Nemət oğlu (d. 1944) – rejissor. Sənətşünaslıq namizədi. Azərb. İncəsənət İn-tunun aktyorluq, Leninqrad konservatoriyasının musiqi rej.-luğu fakültələrini bitirmişdir. Azərb. Musiqili Komediya Teatrında, AOBT-nda quruluşçu rej. işləmişdir. 1981-ci ildə Ədən Milli Dram Teatrında H.-un "O olmasın, bu olsun" musiqili komediyasını "Şeyx Ubad" adı ilə Yəmən həyatına təbdil edərək tamaşaya qoymuşdur.

**NEMİROVİÇ-DANÇENKO** Vladimir İvanoviç (1858-1943) – rejissor, teatr xadimi, yazıçı, dramaturq. SSRİ xalq art. (1936). Stalin mükafatları laureatı (1942, 1943). K.S.Stanislavski ilə birlikdə Moskva Bədaye Teatrını yaratmış, 1919 ildə həmin teatrın nəzdində musiqi studiyası təşkil etmişdi (1926 ildən K.S.Stanislavski və V.İ.Nemiroviç-Dançenko ad. Musiqili Teatr). N.-D.-nun H.-la işgüzar əlaqələri olmuşdur. Stalin mükafatları komitəsinin sədri N.-D., komitənin üzvü H.-la iclaslarda tez-tez görüşür, H.-u rəhbərlik etdiyi teatrın premyera tamaşalarına dəvət edirdi. N.-D. İncəsənət İşləri üzrə Ümumittifaq Komitəsinin nəzdindəki bədii şuranın sədri kimi də H.-un müzakirələrdəki rəy və fikirləri ilə hesablaşırdı.



**X.Natəvan**



**Nəcəfqulu.**
"Ü.Hacıbəyovun portreti". 1975.

**NƏCƏFQULU** (Nəcəfqulu Əbdülrəhim oğlu İsmayılov; 1923-1990) – rəssam. Azərb. əməkdar inc. xad. (1963). Məişət səhnələrinin və portretlərin, qrafik əsərlərin müəllifidir. 1975 ildə H.-un portretini işləmişdir. 1977-82 illərdə Azərb. mədəniyyət xadimlərinin, o cümlədən H.-un misdən barelyefini yaratmışdır.



**Nəcəfqulu**

**NƏCƏFOV** Kamil Abbas oğlu (1910-?) – aktyor, rejissor. Azərb. əməkdar art. (1943). Bakı Teatr Texnikumunu bitirmiş (1932), AOBT-nda xorda oxumuşdur. 1943 ildən (fasilələrlə) Lənkəran Dram Teatrında işləmiş, burada H.-un "Leyli və Məcnun" (1943), "Əsli və Kərəm" (1944) operalarını tamaşaya qoymuş, bu tamaşalarda Məcnun, Kərəm, Keşiş rollarında oynamışdır.

**NƏCƏFOV** Soltan Məmməd oğlu (1911-1981) – radio diktoru. Azərb. əməkdar art. (1966). Azərb. radiosunun ilk diktorlarındandır. Bədii qiraət ustası kimi tanınmış, H.-un "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyalarının radio-tamaşalarında aparıcı kimi çıxış etmişdir. "Oxu tar" adlı yazısında ("Üzeyir bəy haqqında söz" kitabında, B., 1990) H.-la bağlı xatirələrini yazmışdır.



H.Nəcəfova

**NƏCƏFOVA** Hökümə Yusif qızı (1911-2002) – bəstəkar. Azərb.-nın ilk qadın bəstəkarlarındandır. 1933 ildə H.-un dəvəti ilə Azərb. Radio Verilişləri Komitəsinin xalq çalğı alətləri ork.-ndə tar çalmış, 1938 ildə Moskvada keçirilən Azərb. incəsənəti ongünlüyündə müvəffəqiyyətlə çıxış etmişdir. Azərb. Dövlət Musiqi Texnikumunu bitirmiş (1939), 1939-41 illərdə ADK-nın hazırlıq kursunda, 1942-48 illərdə ADK-nın xalq musiqisi şöbəsində H.-dan dərs almışdır. Yaradıcılığında mahnı və romanslar mühüm yer tutur.



N.Nərimanov

**NƏRİMANOV** Nəriman Nəcəf oğlu (1870-1925) – yazıçı, publisist, həkim, ictimai və dövlət xadimi. Qori seminariyasını bitirmiş (1890), bir müddət Borçalı qəzasında müəllimlik etmiş, 1891 ildən Bakıda geniş mədəni-maarif, ədəbi-ictimai və siyasi fəaliyyət göstərmişdir. Odessa un-tinin tibb fakültəsini bitirdikdən sonra (1908) həkimlik etmişdir. Bakı kommunasında şəhər təsərrüfatı komissarı, Azərb. SSR XKS-nin sədri, Zaqafqaziya Federasiyası İttifaq Soveti sədrlərindən biri, SSRİ MİK sədrlərindən biri (1920-1925) və s. olmuşdur. Azərb. mədəniyyətinin inkişafına xüsusi diqqət yetirən N. "Yeni iqbal" qəzetinin 1916 il 21 aprel sayında dərc olunmuş məqaləsində H.-un "Əsli və Kərəm" operası haqqında çox yüksək fikir söyləmişdir. H. da N.-un ədəbi yaradıcılığını layiqincə qiymətləndirirdi. O, 1917 ildə "Kaspi" qəzeti səhifələrində səhnə əsərlərindən danışarkən N.-un adını M.F.Axundov ədəbi məktəbinin görkəmli nümayəndələri sırasında çəkmişdir.

**NƏRİMANOV** Yunis Əkbər oğlu (1895-1964) – aktyor. Azərb. əməkdar art. (1959). 1905 ildən M.A.Əliyevin truppasında çıxış etmiş, Leylinin anası ("Leyli və Məcnun") və Sənəm ("O olmasın, bu olsun") rollarını oynamışdır. 1917 ildə "Arşın mal alan" filmində çəkilmişdir. H.-un məsləhəti ilə balet studiyasında oxumuş (1920-22), onun "Leyli və Məcnun" və "Əsli və Kərəm" operalarının rəqslərinə quruluş vermişdir.

**NƏSİROVA** Həlimə (1913-?) – özbək müğənnisi (lirik-dramatik soprano). SSRİ xalq. art. (1937). Stalin mükafatları laureatı (1942, 1951). Bakı Teatr Texnikumunda (1924-27) və Moskva konservatoriyası nəzdində opera studiyasında (1934-37) oxumuşdur. 1929 ildən solisti olduğu Ə.Nəvai ad. Özbəkistan Opera və Balet Teatrında H.-un "Arşın mal alan" musiqili komediyasında Gülçöhrənin partiyasını ifa etmişdir. H. haqqında xatirələri ("Üzeyir ağa çox bəsirətli idi" - "Üzeyir bəy haqqında söz" kitabında. B., 1990) var.

**"NƏŞRİ-MAARİF"** – 1906-1917 illərdə Bakıda H.Z.Tağıyevin sədrliyi ilə fəaliyyət göstərmiş xeyriyyə cəmiyyəti. Cəmiyyət maarifi yaymaq məqsədilə ibtidai məktəblər, kitabxana və qiraətxanalar açır, yetimlərin, yoxsul uşaqların təhsil xərcini ödəyirdi. "N.-m." hər il ənənəvi pullu müsamirələr təşkil edirdi. Bu müsamirələrin proqramına həmişə H.-un "Leyli və Məcnun", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm" və s. operalarından, "O olmasın, bu olsun", "Ər və arvad", "Arşın mal alan" musiqili komediyalarından parçalar daxil edilirdi. Müsamirələrdən yığılan vəsait yalnız xeyriyyəçilik məqsədlərinə sərf olunurdu.



M.Nəvvab

**NƏVVAB** Mir Möhsün Hacı Mirəhməd oğlu (1833-1918) – şair, rəssam, filoloq, musiqişünas və xəttat. Şuşada "Məclisi-fəramuşan" ("Unudulmuşların məclisi") ədəbi məclisinə və "Musiqiçilər məclisi"nə (xanəndə Hacı Hüsü ilə birgə) başçılıq etmişdir. Qarabağın yüzə qədər şairi haqqında "Təzkireyi-Nəvvab"

(nəşri 1913), klassik Azərb. musiqisi haqqında "Dər elmi musiqi vüzuh ül-ərqam" ("Musiqi elmində rəqəmlərin aydınlaşdırılması", 1884, nəşri 1913; 2-ci nəşri 1989), habelə əxlaqi-tərbiyəvi mövzuda "Nəsihətnamə", "Nur ül-ənvar", astronomiyaya dair "Kifayət ül-ətfal və s. əsərlərin müəllifidir. Yağlı boya ilə realist səpkidə çəkilmiş bir çox əsərləri, miniatürləri, ornamentli divar rəsmləri var. H. "Azərbaycan xalq musiqisinin əsasları" əsərində N.-ın musiqişünaslıq sahəsindəki fəaliyyətini yüksək qiymətləndirmiş, Səfiəddin Urməvi və Əbdülqadir Marağidən sonra onun adını çəkmiş, əsərlərində Yaxın Şərq xalqlarının qədim musiqisindən bəhs olunduğunu qeyd etmişdir.

**"NİCAT"** – mədəni-maarif xeyriyyə cəmiyyəti. 1906-1917 illərdə Bakıda fəaliyyət göstərmişdir. H. bu cəmiyyətin üzvü olmuş, onun məktəblərində müəllimlik etmişdir. Cəmiyyətdə tez-tez, ədəbiyyat və teatr bölməsinin üzvü olan H.-un benefis gecələri keçirilirdi. 1910 ildə H.Z.Tağıyev teatrının yubileyi münasibətilə "N." cəmiyyətinin tapşırığı ilə H. yubilyarın şərəfinə marş bəstələmişdi. H. musiqi təhsilini davam etdirmək üçün Moskvaya və Sankt-Peterburqa getmək istərkən, maddi cəhətdən özünü təmin etmək məqsədilə ilk əsərlərinin səhnəyə qoyulmaq hüququnu "N."-a vermək haqqında həmin cəmiyyətlə müqavilə bağlamışdı. Bunun müqabilində təhsil aldığı müddətdə "N." onu maddi cəhətdən təmin etməli idi. "Leyli və Məcnun" və "Şeyx Sənan" operaları, "Ər və arvad" musiqili komediyası "N." cəmiyyətinin vəsaiti ilə tamaşaya qoyulmuşdu. Lakin 1912 və 1913 illərdə Moskva və Peterburqdan yazdığı məktublardan görünür ki, "N." cəmiyyəti ona lazımi kömək göstərmədiyindən H. maddi cəhətdən çətinlik çəkmişdi. Odur ki, H.-la cəmiyyət arasında münaqişə yaranmışdı. Bəstəkar bu barədə "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər" adlı məqaləsində ("Bakinski raboçi" qəzeti, 16 mart 1938 il) bəhs etmişdir.

**NİKOLSKİ** Vasili Alekseyeviç (1882-1967) – müğənni (bas). Azərb. xalq art. (1934). 1919-1952 illərdə AOBT-nın solisti olmuşdur. Opera səhnəsində rus və Azərb. dillərində çıxış etmiş, H.-un "Koroğlu" operasında İbrahim xan (Azərb. və rus dillərində), "Əsli və Kərəm" operasında Qara keşiş partiyalarını məharətlə oxumuşdur.


Niyazi

**NİYAZİ** (soyadı Tağızadə-Hacıbəyov) Zülfüqar oğlu (1912-1984) – dirijor, bəstəkar, ictimai xadim. SSRİ xalq art. (1959). Sosialist Əməyi Qəhrəmanı (1982). Stalin mükafatları (1951, 1952), Ü.Hacıbəyov ad. Azərb. Dövlət mükafatı (1967), Beynəlxalq Nehru mükafatı (1974) laureatı, H.-un qardaşı oğludur. N.-nin musiqiçi kimi formalaşmasında H.-un böyük rolu olmuşdur. N. Azərb. Dövlət Simfonik Ork.-nin təşkilində fəal iştirak etmiş, 1932 ildən (fasilələrlə) ork.-in bədii rəhbəri və baş dirijoru olmuşdur. O, AOBT-nın dirijoru (1937-48, 1951-52), direktoru, bədii rəhbəri və baş dirijoru (1958-59, 1961-65), Azərb. Dövlət Filarmoniyasının direktoru (1979 ildən) idi. Azərb. bəstəkarlarının bir çox əsəri, o cümlədən H.-un "Koroğlu" operası onun traktovkasında Azərb. musiqisinin qızıl fonduna daxildir. H.-un "Arşın mal alan" musiqili komediyasının yeni redaksiyasını hazırlamışdır.


**Q.Xalıqov.** "Nizami Gəncəvi". 1940.

**NİZAMİ** Gəncəvi (təxəllüsü; əsl adı - İlyas Yusif oğlu; 1141-1209) – şair və mütəfəkkir. Fars dilində yazmışdır. Şərq təzkirəçilərinin 20 min beyt həcmində ol-


V.Nikolski

duğunu qeyd etdikləri divanındakı şeirlərin çox az bir hissəsi dövrümüzədək gəlib çatmışdır. N.G. dünya ədəbiyyatı tarixinə "Xəmsə" adı ilə məşhur olan beş ölməz poemanın - "Sirlər xəzinəsi" (1177), "Xosrov və Şirin" (1180), "Leyli və Məcnun" (1188), "Yeddi gözəl" (1196), "İsgəndərnamə" (təqr. 1203) müəllifi kimi daxil olmuşdur. Yaradıcılığı ədəbiyyat və incəsənətin müxtəlif növ və janrlarının inkişafında əhəmiyyətli rol oynamış, bir çox sənətkar üçün ilham mənbəyi olmuşdur. H. şairin sözlərinə "Sənsiz" (1941) və "Sevgili canan" (1943) romans-qəzəllərini bəstələmişdir. N.G.-nin ölməz sözləri, H.-un bənzərsiz melodik musiqisi və Bülbülün qüdrətli səsi ilə üzvi surətdə birləşərək ecazkar sənət nümunələrinə çevrilən bu romanslar dinləyicilərin qəlbində və ruhunda özlərinə əbədi yuva salmışlar. Bəzi məlumatlara görə H. "İsgəndərnamə" mövzusunda opera bəstələmək də istəmişdir.

**"NOVOYE VREMYA"** – Rusiya imperiyasının gündəlik rəsmi qəzeti. Sankt-Peterburqda nəşr olunurdu (1868-1917). H. başqa dövlətlərin xalqların siyasi həyatına həyasızlıqla müdaxilə edən "N. v."-nın şovinist redaktorlarını, eləcə də onun "qırx biclik ilə" xəbər yazan müxbirlərini Rusiya hökumətini İran, Türkiyə və Qafqaz xalqlarının işlərinə qarışmağa təhrik etdikləri, başqa millətlərə münasibətdə zülm və zor işlətməyi məsləhət gördükləri üçün amansız satira atəşinə tuturdu. Felyetonların birində H. qəzetin baş redaktoru Suvorini bayquş adlandırmış, başqa bir yazısında isə intriqaçı müxbir Menşikovu ov itinə oxşatmışdı: "Rus "Molla Nəsrəddin"ləri "Novoye vremya" ilə Menşikovun şəklini çəkəndə həmişə bir adam və yanında bir ov iti çəkirlər ki, adamdan məqsud "Novoye vremya" olub, yanındakı da Menşikovdur. Sahibinin yanında durub, qısqırdılmağa müntəzirdir ki, o saat hürsün..." ("İrşad", 19 iyun 1908, №91).

# O

**“O OLMASIN, BU OLSUN”** – H.-un ikinci musiqili komediyası (1911). Bəstəkarın 19 əsrin sonu - 20 əsrin əvvəlləri Azərb. həyatının, məişətinin qüsurlarını kəskin ifşa edən 4 pərdəli (əvvəlcə 3 pərdəli idi) əsəridir. Burada müflisləşən və mənəviyyatca düşkünləşən zadəganlığın xəsisliyi, pulun gücünə fanatik inamı ilə seçilən varlı tacir zümrəsi ilə ittifaqa girmək cəhdi inandırıcı təsvir olunmuşdur. İnsanın mənəvi azadlığı və ləyaqəti uğrunda mübarizə aparan, pulun hökmranlığı və sosial-məişət qayda-qanunları ilə barışmayan yeni nəslin nümayəndələri “əski” cəmiyyətə qarşı qoyulmuşdur. Əsərdə musiqi mühüm dramaturji rol oynayıb, hadisələrin gedişatına fəal yardım göstərir, qəhrəmanların xarakteristikasını dərinləşdirir. Buradakı mənfi qəhrəmanlar arasında puluna görə “yuxarı” təbəqələrin hörmət bəslədiyi tacir Məşədi İbad əsas obrazdır. Onun musiqi partiyası ənənəvi xalq mahnı-rəqs havalarına əsaslanan orijinal parodiya üzərində qurulmuşdur. “Uzundərə” lirik xalq rəqsinin bir qədər dəyişdirilən melodiyasından istifadə olunmuş və Məşədi İbadın ilkin xarakteristikasını verən “Mən nə qədər, nə qədər qoca olsam da” mahnısı bu yöndəmsiz, çirkin tacirin ifasında ifrat mübaliğəli səslənir. Əsərin sonuncu pərdəsində təkrarlanan bu mahnı Məşədi İbadın mənəvi məğlubiyyətini göstərir. Qalan mənfi obrazlar kütləvi musiqi portreti - səhnədə cərəyan edən hadisələrə təbii surətdə qoşulan xor parçaları ilə səciyyələndirilir. Əsərin ən parlaq satirik səhnələrindən biri Məşədi İbadın “qorxunc” dostlarının (bir-birini sevən Sərvərlə Gülnazı hədələyən şəhər qoçularının) kollektiv obrazını təsvir edən təmtəraqlı-təntənəli “Ey kimsən orda, aç qapını!” marş-xorudur. Birinci pərdədə Rüstəm bəyin qonaqlarının dalaşma səhnəsində musiqisi hay-küy və vurnuxma mənzərəsini əks etdirən xor əlamətdardır.

Bu əsərdə H. ilk dəfə olaraq lirik obrazların fərdi aləmini əks etdirən mahnı-ariya xarakterli melodiyalar yaratmışdır. Müsbət obrazlar, həm də Füzulinin qəzəllərindən istifadə olunan duetlərlə səciyyələndirilir. Sərvər və Gülnazın dərin, səmimi hisslərini açıqlayan zərif, xəyalpərvər musiqi partiyaları “Arşın mal alan” və “Koroğlu”nun ariya üslubuna yol açmışdır. H. bu musiqili komediyasında ilk dəfə olaraq qəhrəmanların əhvali-ruhiyyəsini deyil, xarakterini təcəssüm etdirmək




**“O olmasın, bu olsun”** musiqili komediyasının afişası. 1911.






**“O olmasın, bu olsun”** musiqili komediyasından səhnələr.









**“O olmasın, bu olsun”** musiqili komediyasından səhnələr.



**Y.Olenskaya**

yolu ilə gedərək, musiqi obrazlarının fərdiləşdirilməsinə nail olmuşdur. Bəstəkarın melodik istedadı bu əsərdə parlaq təzahürünü tapmışdır. Komediyanın ayrı-ayrı parçaları geniş şöhrət qazanmış və müstəqil əsərlər kimi ifa olunur.

Əsərin ilk tamaşası 1911 il aprelin 25-də Bakıda olmuşdur. Baş rollarda M.A.Əliyev (Məşədi İbad), H. Sarabski (Sərvər) və Ə.Ağdamski (Gülnaz) oynamışlar. Tamaşaya H. özü dirijorluq etmişdir. Sonralar musiqili komediya müxtəlif dillərə tərcümə olunmuş, Zaqafqaziya şəhərlərində, Türkiyədə, Bolqarıstanda, Yəməndə və s. tamaşaya qoyulmuşdur. Əsərin ədəbi mətni ilk dəfə 1912 ildə Bakıda, Orucov qardaşları mətbəəsində nəşr olunmuşdur. Musiqili komediya 2 dəfə ekranlaşdırılmışdır.





**"O olmasın, bu olsun"** bədii filmindən kadrlar.

**"O OLMASIN, BU OLSUN"** – H.-un eyniadlı musiqili komediyası əsasında bədii film. İlk dəfə 1919 ildə Yaltada A. Xanjonkovun studiyasında rej.-lar V.Papazyan və İ.Lakka tərəfindən ekranlaşdırılmağa başlanmış, lakin çəkiliş başa çatdırılmamışdır.

1956 ildə Bakı kinostudiyasında Sabit Rəhmanın ssenarisi üzrə 9 hissəli, rəngli, səsli bədii film çəkilmişdir. Rej. H.Seyidzadə, baş operatoru Ə.Atakişiyev, rəssamları C.Əzimov və N.Zeynalov, musiqi redaktoru F.Əmirov idi. Baş rollarda Ə.Ağayev, A.Mirzəquliyev, T.Gözəlova, A.Gəraybəyli, B.Şəkinskaya, M.Sənani, İ.Əfəndiyev, M.Mərdanov, İ.Osmanlı, Ə.Əhmədov və b. çəkilmişdir. Filmin yaradıcıları musiqili komediyanı ekranlaşdırarkən əsərin həm ideya məzmunu, həm də partiturasına böyük ehtiramla yanaşmışlar. Rej. H.Seyidzadə əsərin qəhrəmanlarına uyğun gözəl aktyor heyəti seçmiş və bununla da, çox canlı, realist obrazlar yaratmağa müvəffəq olmuşdur.

**OLENSKAYA BACILARI** [Aleksandra Nikitiçna (?-?) və Yevgeniya (Yeva) Nikitiçna (1900-1959)] – Azərb. səhnəsində çıxış edən rus mənşəli aktrisalar. H.-un "Şah Abbas və Xurşidbanu" operasında, "Arşın mal alan" musiqili komediyasında çıxış edən ilk qadın aktrisalardır. H. gözəl səsi olan Aleksandra üçün Gülçöhrə partiyasını yenidən işləmişdir. O. b. 1918-19 illərdə Z. və Ü.Hacıbəyov qardaşlarının truppasında fəaliyyət göstərmişlər. 1917 ildə rej. B. Svetlovun çəkdiyi "Arşın mal alan" filmində Aleksandra - Asya, Yevgeniya isə Telli rollarında çəkilmişlər. Yevgeniya 20-ci illərdən dram aktrisası kimi daha çox şöhrət qazanmış, Əmək Qəhrəmanı (1927) və Azərb. xalq art. (1949) fəxri adlarına layiq görülmüşdür.

**OPERA** – musiqili dram sənəti janrı. H.-un yaradıcılığında mühüm yer tutur. 20 əsrin əvvəllərində Azərb. bədii yaradıcılığında, xüsusilə ədəbiyyatda mühüm dəyişikliklər baş vermişdi. Təməli M.F.Axundov tərəfindən qoyulan Azərb. dramaturgiyası sürətlə inkişaf edirdi. Dövrün ədəbi-bədii yaradıcılıq prosesi üçün tənqidi realizm və ictimai satira səciyyəvi idi. Bu isə təbii və qanunauyğun olaraq bədii ya-

radıcılığın ən demokratik növlərindən olan teatr sənətinin inkişafına əlverişli zəmin yaradırdı.

Bu dövrdə Azərb. musiqi mədəniyyətində də əhəmiyyətli dəyişikliklər baş verirdi. İri sənaye mərkəzinə çevrilmiş, müxtəlif millətlərin nümayəndələrinin, xarici iş adamlarının yaşadığı Bakıda Avropa musiqi mədəniyyətinin yeni ocağı formalaşırdı. Burada müxtəlif O. truppaları qastrol səfərləri ilə çıxış edir, şəxsi musiqi teatrlarında bir sıra rus və Avropa bəstəkarlarının əsərləri tamaşaya qoyulurdu. Bir çox görkəmli müğənni və musiqiçilər Bakıya qastrola gəlirdilər. Bakıda intişar tapan Avropa musiqisi geniş xalq kütlələrinə yad olsa da, Azərb.-da milli musiqili teatrın yaranmasına təkan verdi. Əsrlər boyu yaranmış və inkişaf etmiş Azərb. milli musiqi mədəniyyətinə teatr sənəti elementləri də xas idi. Bu elementlərin bir çox nümunələrinə kiçik səhnəcikləri xatırladan xalq mahnılarında, musiqi, poeziya, rəqs, teatr ünsürlərini özündə birləşdirən aşıq sənətində, dini və məişət mərasimlərində, xalq kukla teatrında da rast gəlmək olar. Epik-faciəvi mövzuya əsaslanan "Şəbih" dini tamaşaları da özünəməxsus bitkin musiqili-dramatik pyesləridir. O. sənətinin ilkin şərtləri, fəlsəfi-üzvi obrazları, onların daxili aləmini həssaslıqla ifadə edən musiqi ilə poeziyanın, vokal ilə instrumental sənətin üzvü vəhdətini səciyyələndirən muğamda da mövcuddur. Milli musiqinin zənginliyi Avropa musiqi mədəniyyəti dəyərlərinin Azərb.-ın musiqi sənətinə daxil olması, yeni ictimai-siyasi və mədəni həyatın sürətli inkişafı müxtəlif musiqi sistemlərinin qarşılıqlı əlaqə və sintezinə imkan yaradan bədii mühiti formalaşdırırdı. Bu prosesin ilk qaranquşu Şuşada 1897 ildə Ə.Haqverdiyevin musiqili-ədəbi dərnəyində Füzulinin poeması üzrə göstərilmiş "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəciyi oldu. Lakin Azərb.-da O. sənətinin əsasını H. qoymuşdur. H. uzaqgörənliklə öz bəstəkarlıq yolunu məhz O.-dan başladı. Bu, təkcə H. üçün deyil, həm də yeni musiqi mədəniyyəti üçün qeyri-adi və nadir yaradıcılıq başlanğıcı idi. Bədii duyum və uzaqgörənlik H.-a ilk milli O.-ları özünəməxsus muğam O.-ları kimi müəyyənləşdirməyə, musiqi materialı kimi şifahi ənənəli Azərb. musiqisi nümunələrindən istifadəyə sövq etdi. Avropa O. yaradıcılığının ilk nümunələri kimi, H.-un ilk O.-ları da ideya-məzmunca müasir dövrün müxtəlif ictimai-mənəvi hadisələri ilə səsləşən qədim süjetlərə əsaslanmışdır. "Leyli və Məcnun" (1908), "Rüstəm və Söhrab (1910) O.-larının əsasında klassik Şərq poeziyası (Füzuli, Firdovsi) durur. "Şeyx Sənan" (1909), "Harun və Leyla" (1915) O.-larının süjeti xalq rəvayətlərinə əsaslanır. "Şah Abbas və Xurşidbanu" (1912) O.-sının ədəbi əsasını Azərb. xalq nağılı təşkil edir. "Əsli və Kərəm" (1912) O.-sı eyniadlı aşıq dastanı motivləri əsasında bəstələnmişdir. Demək olar ki, bütün muğam O.-ları ölümdən qüvvətli olan ülvi insan hisslərini tərənnüm edən lirik faciələrdir. Bütün muğam O.-ları üçün səciyyəvi olan insanın, şəxsiyyətin mənəvi azadlığı uğrunda mübarizə ideyası, sə-





**"O olmasın, bu olsun"** bədii filmindən kadrlar.

daqətli məhəbbətin ilhamlı vəsfi pafosu, onları vahid O. silsiləsində birləşdirməyə imkan verir.

H.-un erkən O.larında şifahi ənənəli Azərb. musiqisinin bütün janrlarının (mahnı, rəqs, aşıq sənəti, muğam) nümunələri toplanmışdır. Bu baxımdan, muğam O.-ları Azərb. xalq musiqisinin çoxəsrlik inkişaf yolunu ümumiləşdirərək onun yeni - bəstəkarlıq sənətinin formalaşmasında fundamental əhəmiyyətini qabarıq şəkildə əks etdirdilər. Bununla da, həmin O.-lar milli musiqi mədəniyyətinin tarixi inkişafının qanunauyğun davamı kimi bəstəkar yaradıcılığına təbii keçidi təmin etdi. H.-un erkən O.-larına daxil etdiyi müəllif materialı (əsasən muğam səhnələri arasındakı ork. keçidləri) şifahi ənənəli musiqi ilə bəstəkar yaradıcılığı nümunələrinin yanaşı mövcudluğu imkanını əks etdirirdi. H. başa düşürdü ki, muğam O.-sı Azərb.-da bəstəkarlıq fəaliyyətinin erkən mərhələsinin məhsulu ola bilər. Musiqi sənətinin bu mürəkkəb növünün əsas tələblərinə cavab verə biləcək milli O.-nın yazılması üçün isə böyük yaradıcılıq təcrübəsi, sənətkarlıq lazımdır. Təsadüfi deyil ki, H. Moskvada və Peterburqda musiqi təhsilini davam etdirir, mütəmadi olaraq öz üzərində çalışır, bəstəkar yaradıcılığının ən müxtəlif sahələrini dərindən öyrənirdi. Eyni zamanda H. kiçik janrlarda - mahnı, kamera musiqisi, həmçinin kantata, sim. və xalq çalğı alətləri ork.-ləri üçün musiqi sahəsində də istedadını sınayır, milli və Avropa musiqi sistemlərinin yeni sintez formalarını arayıb-axtarır, tapırdı. H.-un qaynar yaradıcılıq işinin zirvəsi - “Koroğlu” O.-sı (1932-1936) oldu. Lirik-tragik O.-dan sonra H. qəhrəmanlıq eposuna müraciət etdi. “Koroğlu” Avropa bəstəkar yaradıcılığında formalaşmış ənənəvi musiqili-səhnə formaları (xor, ork. fraqmentləri, ariya, ariozo, reçitativ, vokal ansambllar, leytmotiv komplekslər) əsasında yazılmış O.-dır. Bununla belə, o, əsl milli O.-dır. Onun bütün musiqisi şifahi ənənəli Azərb. musiqisinin klassik qanunauyğunluqlarının Avropa bəstəkar yaradıcılığının tipik keyfiyyətləri aspektində fəal, fərdi işlənməsinə söykənən müəllif musiqisidir. “Koroğlu”dan sonra H.-un yaradıcılıq planlarında müasir və tarixli mövzularda başqa O.-ların da - “Babək”, “Firuzə”, Böyük Vətən müharibəsinə həsr olunmuş O. və s. yazılması da var idi.

H.-un O. yaradıcılığının ənənələrini Azərb. bəstəkarlarının yeni nəsli – Q.Qarayev, C.Hacıyev, F.Əmirov, Niyazi, C.Cahangirov və b. layiqincə davam etdirmişdir. H.-un O. yaradıcılığı müasir dünya musiqi mədəniyyətinin ən maraqlı və qiymətli səhifələrindəndir.

Bax, həmçinin H.-un ayrı-ayrı operaları haqda məqalələrə.

**“OPERA VƏ DRAMIN TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ HAQQINDA. CAVAB ƏVƏZİNƏ”** – H.-un məqalələri. “Kaspi” qəzetinin 1917 il 256 və 260-cı saylarında rus dilində dərc olunmuşdur. H.-un Əsəd Məmmədov-Əhliyevin “Kaspi” qəzetində dərc etdirdiyi “Səhnənin tərbiyəvi əhəmiyyəti” məqaləsinə cavab təriqi ilə yazılmış məqalələrindəndir (H.-un bu münasibətlə yazdığı birinci məqaləsi “Səhnənin tərbiyəvi əhəmiyyəti haqqında” adlanırdı). Tərbiyəvi əhəmiyyətinə görə dramın üstün olduğunu sübut etməyə çalışan Məmmədov-Əhliyev belə bir dəlil gətirirdi ki, “...əvvəlcə faciə, sonra dram meydana çıxıb inkişaf etmişdir, melodram və səhnə sənətinin başqa növləri isə artıq həm əqli, həm də estetik inkişafın müəyyən mərhələsinin məhsuludur”. Bu fikri rədd edən H. bildirirdi ki, hələ “Uzaq keçmişdə teatr xarakteri daşıyan hər bir tamaşa hökmən nəğmə və musiqilə müşayiət olunurdu”. H. qeyd edirdi ki, “bizim “Şaxsey” misteriyamız da “Şəbeh” adlanan səhnə tamaşası şəklini alaraq vokal, bəzi yerlərdə isə instrumental musiqi ilə müşayiət olunur”. O, sübut edirdi ki, səhnə sənətinin müasir növlərinin rüşeymləri paralel inkişaf etmiş, əsrlər keçdikcə müstəqil formalara (musiqili dram ünsürü - opera, operetta, oratoriya, dram ünsürü isə - dram, faciə, komediya və s.) ayrılmışlar. Musiqili əsərlərin tamaşaçılara böyük təsir göstərdiyini bildirən H. onu da qeyd edirdi ki, “...mən heç də təkcə musiqili səhnə əsərlərinin tərəfdarı deyiləm. İctimaiyyətin tərbiyəsi üçün faciə də, dram da, komediya da, opera da, operetta da lazımdır”. H. qətiyyətlə bildirirdi ki, tamaşaya qoyulan əsərlər həyatımızın təkcə əxlaqi cəhətlərini tərbiyə etməməli, həm də estetik hisslər aşılamalıdır.

H. qəzetin 260-cı sayında çap olunmuş üçüncü və sonuncu məqaləsində

Məmmədov-Əhliyevin "...operalar isə əslində eyni dramlardan ibarətdir, ancaq operalara musiqi şirəsi qatılmışdır..." ifadəsinə cavab verərək yazırdı ki, operanın mürəkkəb, dramın isə sadə olduğunu söyləmək tamaşaçını aldatmaq deməkdir. Heç kəs operanın drama nisbətən daha faydalı olduğunu da sübut etməyə çalışmamalıdır: "...istər bədii musiqi əsəri, istərsə də bədii nəzm əsəri olsun, - faydalıdır...". Operettaya mənfi münasibət bəsləyən opponentini tənqid edən H. bildirir ki, hətta dünya şöhrətli bir sıra bəstəkarlar da operetta yaratmışlar. H. opponentini teatr sənətimizin tarixini bilməməkdə günahlandırır və yazırdı ki, M.F.Axundov, Ə. Haqverdiyev, N.B.Vəzirov, N.Nərimanov və b.-nın komediya və dramları, rus dilindən, əcnəbi dillərdən tərcümə olunmuş, iqtibas edilmiş bir çox əsərlər opera və operettaların meydana çıxmasından xeyli əvvəl həyatımızın mənəvi-bədii tələbatını ödəmiş və indi də ödəməkdədir.

**"ORDAN-BURDAN"** – H.-un ilk dəfə 1906 ildə "İrşad", sonralar isə "Tərəqqi" (1908-1909), "İqbal" (1912), "Yeni iqbal" (1915-1916), "Azərbaycan" (1918-1920) qəzetlərində məşhur "Filankəs" imzası ilə dərc etdirdiyi felyeton və satirik miniatürlərin ümumi başlığı. Onun "Həqiqət" (1909-1910) qəzetindəki yazıları isə "O.-b." əvəzinə "O yan-bu yan" sərlövhəsi və "Filankəs"i yada salan "...kəs" imzası ilə çap olunur, ya da satirik miniatürlər sadəcə olaraq, sadalanırdı: bir, iki, üç, dörd, beş...

1981 ildə "Yazıçı" nəşriyyatında H.-un "Ordan-burdan" adlı felyetonlar toplusu çap olunmuşdur.



M.S.Ordubadi

**ORDUBADİ** Məmməd Səid Hacağa oğlu (1872-1950) – yazıçı, şair, publisist, dramaturq, ictimai xadim. Azərb. əməkdar inc. xad. (1938). Ədəbi yaradıcılığa şeirlə başlamışdır. "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firəngiməab" (1914) əsəri Azərb. ədəbiyyatında ilk romanlardandır. O, Azərb. ədəbiyyatında tarixi roman janrının banisi, "Qılınc və qələm" (1946-1948) və dördcildlik "Dumanlı Təbriz" (1933-1948) romanlarının müəllifi kimi məşhurdur. H.-la yaradıcılıq əlaqəsi saxlamış, "Koroğlu" operasının librettosunu (Heydər İsmayılovla birgə) yazmışdır.



İ.O.Osmanlı

**OSMANLI** İsmayıl Osman oğlu (1902-1978) – aktyor. Azərb. xalq art. (1949), SSRİ xalq art. (1974). 1929 ildən ömrünün sonunadək ADT-nda çalışmış, bütöv bir obrazlar qalereyası yaratmışdır. H.-un eyniadlı musiqili komediyası əsasında çəkilmiş "O olmasın, bu olsun" filmində öz dilinə xor baxan, məsləksiz və pulgir qəzetçi Rza rolunu məharətlə oynamışdır.



**İ.Osmanlı** "O olmasın, bu olsun" filmində qəzetçi Rza rolunda.

# Ö



Ömər Faiq

**ÖMƏR FAİQ** (Nemanzadə Ömər Faiq; 1872-1937) – mollanəsrəddinçi” publisist, maarifçi, ictimai xadim. Jurnalistlik fəaliyyətinə Tiflisdə nəşr olunan “Şərqi-Rus” (1903-1905) qəzetində başlamışdır “Molla Nəsrəddin” jurnalının və “Qeyrət” mətbəəsinin yaradıcılarındandır. 1906-10 illərdə C. Məmmədquluzadə ilə birlikdə “Molla Nəsrəddin” jurnalını idarə etmişdir. H. 1919 ildə ADR hökumətinin tərkibində təsis edilən Mülkiyyə baş müfəttişliyinə Ö. F.-in rəis təyin olunmasını böyük rəğbət hissilə qarşılamış, “bütün Azərbaycanda məşhur, fədakar, doğruçu olduğu heç kəsdə şəkk və şübhə doğurmayan etibarlı və möhtərəm” Ö. F.-in bu vəzifəyə təyin edilməsini Azərb. parlamanının ən ədalətli qərarlarından biri adlandırmışdı (“Azərbaycan”, 25 sentyabr, 1919).

**“ÖVRAQİ-NƏFİSƏ”** – aylıq ədəbiyyat və incəsənət jurnalı. 1919 ilin mart-avqust aylarında Bakıda (cəmi 6 nömrə) nəşr edilmişdir. Naşiri Z.Hacıbəyov, redaktorları Z.Hacıbəyov və Ə.Müznib idi. Jurnalda Azərb.-ın ədəbiyyat və incəsənət xadimlərinin həyat və yaradıcılığı, teatr tamaşaları haqqında yazılar verilirdi. H. “Ö.n.”-nin yüksək səviyyədə buraxılması ilə yaxından maraqlanırdı.

**“ÖZ HALIMIZDAN”** – H.-un məqaləsi. “Həqiqət” qəzetinin 1910 il 14, 16, 18 aprel tarixli 82, 84, 85-ci saylarında “Üzeyir” imzası ilə dərc olunmuşdur. H.-un özünün şəxsi həyatı, məişəti və yaradıcılığına aid örtülü eyhamlar bol olan məqalədə “millətpərəstlik” nədir və necə başa düşülməlidir”, “elm və fənn sahibləri, incəsənət xadimləri xalqa nə ilə qulluq etməli və onların əməyi necə qiymətləndirilməlidir” kimi xalqın milli tərəqqisi, təhsili, fikri inkişafı və ruhi tərbiyəsi ilə bağlı mühüm məsələlər həyati, tarixi hadisələrdən, millətin, hətta bəşəriyyətin tərəqqisinə xidmət etmiş görkəmli şəxsiyyətlərin həyatından gətirilən misallarla ətraflı şərh olunur.

**“ÖZ QƏDRİMİZİ BİLMİRİK”** – H.-un məqaləsi, “Həqiqət” qəzetinin 1910 il 1 yanvar tarixli 1-ci sayında “Üzeyir” imzası ilə dərc olunmuşdur. Məqalədə bizim millətin də içində Avropadakı kimi ağıl, fərasət və qabiliyyətləri ilə təkcə öz millətlərinə deyil, bəlkə ümuminsaniyyətə həm maddi, həm mənəvi xeyir və mənfəət yetirə bilən şəxslərin varlığı təsdiq edilir. Aramızda Şekspir istedadına malik, Edison ixtiralarına sahib ola biləcək,bütün millətə xeyir və mənfəət yetirib, xalqı başıuca edə biləcək adamların olduğunu inamla söyləyən müəllif, içərisində yaşadığımız mühitin, şəraitin dahilərin yetişməsi üçün müsaid olmadığını göstərir. Məqalə “vaxtdır ki, daha biz öz insanlığımıza diqqət yetirək!” - sözlərilə tamamlanır.

# P

**PALİAŞVİLİ** Zaxari Petroviç (1871-1933) – gürcü bəstəkarı, dirijor, pedaqoq. Gürcüstanın xalq art. (1925). Gürcü klassik musiqisinin banilərindəndir. Tbilisi konservatoriyasının prof. (1919 ildən) və direktoru (1919, 1923, 1929-32) olmuşdur. “Abesalom və Eteri” (1918), “Daisi” (1923), “Latavra” (1927) operalarının, kantata, süita, xor, romans, xalq mahnı işləmələri və s. müəllifidir. Bir neçə dəfə Bakıya qastrol səfərinə gəlmiş və hər dəfə H.-un qonağı olmuşdur. H. da Tiflisə gedəndə həmişə P.-nin qonağı olardı.



**Z.P.Paliaşvili**

**PANÇENKO** Pavel Mixayloviç (1907-1954) – rus şairi. 1937 ildə rus dilində “Azərbaycan poeziyası antologiyası”nın nəşrinə hazırlıqla əlaqədar bir qrup rus şairi ilə Bakıya gəlmiş, Nizami Gəncəvi, M.P.Vaqif, M.F.Axundov, Seyid Əzim Şirvani, Səməd Vurğun, Rəsul Rza və b.-nın, xüsusilə M.Ə.Sabirin əsərlərini, xalq mahnılarını, aşıq poeziyası nümunələrini, xalq dastanlarını tərcümə etmişdir. Orijinal şeirlərində xalqımız, onun həyat, məişət və mədəniyyəti haqqında həqiqəti söyləmişdir. Azərb. ədəbiyyatı və incəsənətinin klassiklərinə, o cümlədən H.-a həsr olunmuş şeirləri var. H.-un Nizami Gəncəvinin sözlərinə bəstələdiyi “Sənsiz” və “Sevgili canan” romans-qəzəllərinin mətnini rus dilinə çevirmişdir.

**“PARTİYALARIMIZA”** – H.-un məqaləsi. “Azərbaycan” qəzetinin 1918 il 3 dekabr tarixli 55-ci sayında “Hacıbəyli Üzeyir” imzası ilə dərc olunmuşdur. İctimai həyatda çoxpartiyalılığı qəbul edən müəllif, eyni zamanda bildirir ki, əgər “bir partiya bir millətin azadlığı əleyhinə çalışarsa və o milləti digər bir millətin və ya bir neçə xudsər adamın hökmü altında qul etmək “istəsə”, o partiya insaniyyətə düşməndir”. Məqalədə Azərb. hökumətini istehza, millətimizi təhqir edən, ölkəmizi əsarətə salmaq, yerimizi-yurdumuzu tələf, mal və mülkümüzü qarət etmək istəyən, özümüzü Biçeraxov qoşunu ilə hədələyən “Znamya truda” qəzeti, onu nəşr edən sol eserlər tənqid olunur.

**PAŞAYEV** Camal Məmməd oğlu (1895-1953) – jurnalist. İxtisasca iqtisadçı idi. H.-un böyük bacısı Sayad xanımın böyük oğludur. Gənc yaşlarından musiqiyə böyük həvəs göstərmiş, H.-un təklifi ilə bir müddət “Leyli və Məcnun” operasında Leylinin atası partiyasını ifa etmişdir. 1934-39 illərdə H.-un şəxsi katibi, 1939 ildən ömrünün sonunadək Azərb. Bəstəkarlar İttifaqının katibi vəzifəsində işləmişdir.



**C.Paşayev**

**PAŞAYEVA** Məhbubə Məmməd qızı (1905-1970) – müğənni (soprano). H.-un böyük bacısı Sayad xanımın qızı-



**M.Paşayeva** “Koroğlu” operasında Xanəndə qız rolunda.

dır. 1920-48 illərdə AOBT səhnəsində bir sıra rollarda, o cümlədən H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" operalarında Leyli, Əsli və Xanəndə qız, "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyalarında Gülçöhrə, Asya və Gülnaz partiyalarını ifa etmişdir.

**PAŞAYEVA-İBRAHİMOVA** Sehra Məmməd qızı (1900-1966) – H.-un böyük bacısı Sayad xanımın qızı. İxtisasca müəllim idi. H.-un evində tərbiyə almış, oradan da H. onu ərə vermişdi.

**PETERBURQ KONSERVATORİYASI,** N. A. Rimski-Korsakov ad. – Rusiyanın ilk və ən məşhur ali musiqi təhsili müəssisələrindən biri. 1862 ildə yaradılmış bu konservatoriya H.-un həyatında mühüm rol oynamışdır. 1913 ilin yayında P. k.-na girmək cəhdi baş tutmayan H. 1914 ilin yanvarında qəbul imtahanlarını müvəffəqiyyətlə verərək həmin konservatoriyaya daxil oldu. O, formal olaraq Y.Y.Qandşinin orqan sinfinə qəbul olunmuşdu. Lakin H. xüsusi harmoniya üzrə N.A.Rimski-Korsakovun tələbəsi V.P.Kalafatidən və fp. üzrə V.V.Şerbaçovdan böyük həvəslə dərs alırdı. Konservatoriyanın direktoru A.K.Qlazunov H.-a xüsusi qayğı ilə yanaşırdı. Tam əsasla demək olar ki, H.-un professional musiqi təhsilinin əsası N.A.Rimski-Korsakov məktəbində qoyulmuşdur. H. harmoniyanı, ork. sənətkarlığının əsaslarını onun dərsliyi üzrə öyrənmişdir. Təəccüblü deyildir ki, H.-un rəngarəng, zərif ork. "dili" hər bir musiqi alətinin tembrinin xüsusiyyətlərini nəzərə çarpdırır, çox vaxt musiqidə poetik-təsviri surətlər yaradırdı ("Aşıqsayağı", "Koroğlu" operasında III pərdənin antraktı, "Çənlibel" xoru).



Q.Pirimov

H. polifoniya ilə də dərindən maraqlanır, kontrapunkt sinfində məşğul olmağı arzulayırdı. Səciyyəvidir ki, Azərb. musiqisinin şifahi ənənələrində polifonik üslubun zəngin əsaslarını üzvi surətdə hiss edən H., öz yaradıcılığında onları daha da inkişaf etdirirdi.

H. konservatoriyada cəmi 6 ay təhsil ala bildi. Birinci Dünya müharibəsinin başlanması və maddi çətinliklər üzündən o, təhsilini yarımçıq qoymağa məcbur oldu. Lakin bu qısa müddət bəstəkarın yaradıcılığında böyük rol oynadı. P. k.-ndakı yüksək ixtisaslı müəllimlər, görkəmli musiqiçilərlə yaxınlıq, məşhur Mariya teatrının tamaşalarına baxış H.-un musiqi dünyasını zənginləşdirdi, onun bəstəkarlıq zövqünü inkişaf etdirdi.



P.Bülbüloğlu

H. sonralar da P. k. ilə əlaqə saxlayırdı. ADK-nın ilk nizamnaməsini yaradarkən, bəstəkar, P. k.-nın ona yaxşı tanış olan tədris-tərbiyə prosesinin təşkili üsullarından istifadə etmişdir.

**"PİLOTLAR"** – H.-un 1933-34 illərdə uşaqlar üçün bəstələdiyi mahnı. Sözləri Mirmehdi Seyidzadənindir. Bəstəkar bu mahnını fp. üçün işləyərək "Uşaq albomu"na daxil etmişdi. Mahnı sonralar başqa alətlər üçün də işlənib, tədris proqramına salınmış, 1953 ildə Azərb. Musiqi Nəşriyyatı tərəfindən ayrıca nəşr olunmuşdur.

**PİRİMOV** Qurban Baxşəli oğlu (1880-1965) – musiqiçi, tarzən. Azərb. xalq art. (1931). Məşhur tarzən Sadıq Əsəd oğlundan dərs almışdır. 1905 ildən Cabbar Qaryağdı oğlu ilə konsert fəaliyyətinə başlamışdır. 1920 ildən AOBT-nın ork.-ndə solist olmuş, həmin ildə xalq çalğı alətləri ork. təşkil olunan gündən bu ork.-in konsertmeysteri təyin edilmişdir. H.-la yaxın dost olmuşdur. Onların dostluğunun təməli hələ hər ikisi çox gənc ikən, H.-un dayısı A. Əliverdibəyovun evində keçirilən musiqi axşamlarında qoyulmuşdur. H.-la bir çox baxışlarda, o cümlədən 1938 ildə Moskvada keçirilən Azərb. incəsənəti ongünlüyündə iştirak etmişdir. H.-a tarı simf. ork.-ə daxil etmək ideyasını P. vermişdir. Məhz onun tarda çaldığı Azərb. xalq havaları H.-u bu işə sövq etmişdir. "Leyli və Məcnun" operasında Leyli və İbn-Səlamın dueti nömrəsinin melodiyasını H.-a təklif etmiş, 1908 ildə operanın ilk tamaşasında tarda çalmışdır.

**POLAD BÜLBÜLOĞLU** (d. 1945) – bəstəkar, müğənni, ictimai xadim. Azərb. xalq art. (1982), əməkdar inc. xad. (1973). Bülbülün oğludur. ADK-nı bitirmişdir (1968, Q.Qarayevin sinfini). Azərb. mədəniyyət naziri (1989-2006), Türksoyun sədri (1944-2006). 2006 ildən Rusiyada Azərb. Respub. fövqəladə səfiridir. P.B. geniş yayılmış bir sıra mahnıların müəllifi və onların ifaçısı kimi tanınmışdır. Kinofilmlərə, dram tamaşalarına musiqinin, simfoniya, simf. poema və s. əsərlərin müəllifidir.

**POLİFONİYA** – bir sıra müstəqil melodiyanın, eyni zamanda harmonik

əlaqəsi və inkişafına əsaslanan çoxsəsli musiqi növ Ü.H.-un yaradıcılığında novator mahiyyətlidir. Onun qaynağı şifahi ənənəli Azərb. musiqisində olan çoxsəslilik əlamətləridir. Artıq ilk əsərlərində bəstəkar muğamda təmsil olunmuş imitasiya üsulundan geniş istifadə etmişdir. İmitasiyanın parlaq nümunələrindən biri "Leyli və Məcnun" operasında axırıncı şəklin "Arazbarı" zərbi muğamına əsaslanan antraktıdır. İmitasiya, üslub xassəsi kimi "Arşın mal alan"ın musiqisi üçün də səciyyəvidir. Musiqili komediyada vokal ansambllar da əhəmiyyətli dərəcədə imitasiya üzərində qurulur. İmitasiya üsulu H.-un Azərb. xalq mahnılarının səs və fp. üçün işləmələrində də müəyyənedici rol oynayır. Bu üsuldan sırf dramaturji planda da istifadə olunur ("Ər və arvad" musiqili komediyasında Mərcan bəylə Kərbəlayı Qubadın dueti). Azərb. şifahi musiqi ənənələrinin təzadlı P.-sı bəstəkarın musiqisində geniş inkişaf tapmışdır. O belə hesab edirdi ki, şifahi ənənəli Azərb. musiqisinə harmonik inkişaf prinsiplərindən daha çox polifonik üsullar xasdır. H. təzadlı P.-nın yuxarıda qeyd olunan bütün qaynaqlarından geniş istifadə etmişdir. Təzadlı P. elementləri xüsusilə skripka, violonçel və fp. üçün "Aşıqsayağı" triosunda əhəmiyyətlidir: simli alətlərin axıcı, improvizasiya tərzli partiyaları ostinat ritmik fonda (fp. partiyası) səslənir. Burada təkcə vokal-instrumental aşıq musiqisinin deyil, həm də zərbi muğamın cizgiləri aydın sezilir. Təzadlı P. elementləri "Koroğlu" operasında da fəal rol oynayır. H. yaradıcılığında iki müstəqil melodik xəttin təzadlı qovuşuğuna əsaslanan özünəməxsus ikisəsli faktura yaranır. Parlaq nümunə kimi "Arşın mal alan"ın müqəddəməsini, "Koroğlu" operasının uvertürasını və III pərdənin antraktını göstərmək olar. Təzadlı P. "Koroğlu" operasında müəyyən dramaturji məna daşıyır. Belə ki, Nigarın çox zaman başqa qəhrəmanların partiyalarının ork. müşayiətində səslənən leytmotivi onların hərəkətlərinin, hisslərinin, fikirlərinin Nigarla əlaqəsini vurğulayır. "Çənlibel" xorunun ork. müşayiətində keçən üsyankar xalq leytmotivi musiqidə təcəssüm olunan obrazın dramaturji məğzini açır.

Şifahi ənənəli Azərb. musiqisinə xas heterofon üslubdan H.-un yaradıcılığında səsaltı ifadə tərzi yaranır. Onun yaradıcılığında Azərb. musiqisində ilk dəfə olaraq, Şərq və Qərb musiqi mədəniyyətlərinin üslub keyfiyyətlərinin dərin üzvi əlaqəsini, qarşılıqlı təsirini nümayiş etdirən polifonik formalar yaranmışdır. İlk üçsəsli Azərb. "fugetta"sı "Ər və arvad" musiqili komediyasında səslənmişdir. Rəngə oxşar mövzu əsasında yazılmış II pərdənin antraktı da bu formadadır.

Fuqato forması "Koroğlu" operasının III pərdəsindəki "Çənlibel" xorunda təmsil olunmuşdur. Xorun mövzusunu parlaq millilik,xalq melosu, aşıq musiqisi, yallı ilə bilavasitə əlaqə səciyyələndirir. "Çənlibel" xorunda fuqato formasından istifadə olunmasının dramaturji mənası vardır: belə ki, o, bütün operanın məzmununda bu fraqmentin kulminasiya xarakterini daha da qabarıqlaşdırır. Bundan başqa, fuqato forması xalq kütlələrinin mübarizə əzminin ifadəsi kimi musiqidə kütləvilik amilinin daha parlaq təcəssümünə şərait yaradır. "Çənlibel" xoru bəstəkarın yaradıcılığının bütün təzahür formalarında (məqam-intonasiya, metr-ritmik, kompozisiya) parlaq milliliyə malik melodiya ilə Avropa professional musiqisinin klassik formalarından biri olan fuqanın qarşılıqlı əlaqəsini nümayiş etdirən nadir nümunədir.

"Koroğlu"da digər polifonik formadan - kanondan da istifadə edilmişdir. I pərdədə Həsən xan, İbrahim xan və Həmzə bəyin triosu, II pərdədə Həsən xan ilə Ehsan paşanın, Həsən xanın ariyasının orta bölməsinin materialı üzərində qurulmuş dueti bu formada yazılmışdır.

H.-un yaradıcılığı Azərb. bəstəkarlıq sənətində P.-nın inkişafının möhkəm təməlini qoymuşdur. Bu, bir tərəfdən musiqi üslubunda, faktura ifadə tərzində (imitasiyalı, təzadlı, səsaltı), o biri tərəfdən musiqi formasında (fuqa, kanon) özünü büruzə vermişdir. Əsas məsələ isə ondadır ki, H.-un yaradıcılığında P. və şifahi ənənəli Azərb. musiqisinin əsas qanunauyğunluqları vəhdət şəklində bədii təcəssümünü tapmış, həm Avropa, həm də milli musiqi sənətinin perspektivlərini aşkarlamışdır.

**PROKOFYEV** Sergey Sergeyeviç (1891-1953) – rus bəstəkarı, pianoçu, dirijor. RSFSR xalq art. (1947). Lenin mükafatı (1957, ölümündən sonra) və Stalin



**S.S.Prokofyev**

mükafatları [1943, 1946 (3 dəfə), 1947, 1951] laureatı. P.-lə yaxın dostluq münasibətlərində olan H. onunla tez-tez görüşmüş, bir çox konfrans və iclaslarda həmfikir olmuşdur. P.-in yeni əsərlərini maraqla qarşılayan H., onun "Semyon Kotko" operasının ilk tamaşasında da iştirak etmiş və sonralar bu operanı SSRİ Bəstəkarlar İttifaqında və Stalin mükafatları komitəsindəki müzakirələrdə yüksək qiymətləndirmiş, P.-i "novator bəstəkar" adlandırmışdır.

**"PURİŞKEVİÇ VƏ HACI XUDU"** – H.-un felyetonu. "Həqiqət" qəzetinin 1910 il 17 fevral tarixli 39-cu sayında "O yan-bu yan" ümumi başlığı altında "...kəs" imzası ilə dərc olunmuşdur. Qatı qaragüruhçu və şovinist, çar dövlət xadimi, müstəmləkəçilik siyasətinin ideoloqlarından biri olan V.M.Purişkeviç (1870-1920) Peterburqda, dindar və avam Hacı Xudu isə Azərb.-da öz evində yatıb yuxuda bir-birini görür və söhbət edirlər. Hər ikisi Azərb. xalqının mədəni inkişafına - demokratik qəzet nəşrinə, teatr tamaşalarına, məktəb, təhsil işlərinə, insanların dəqiq elmlərə yiyələnməsinə, xarici dil öyrənmək istəklərinə maneçilik törətməyə hazır olduqlarını bildirir və bir-birindən razı qalırlar.

# R

**“REVOLYUSİYA VƏ KULTURA”** – “Azərbaycan” jurnalının 1936-41 illərdə adı.

**RƏHİMLİ** İlham Əziz oğlu (1949) – Azərb. Dövlət İncəsənət İstitutunun teatrşünaslıq fakültəsini bitirib (1972). Sənətşünaslıq doktoru, professordur. Əməkdar incəsənət xadimi (1989). “Humay” (2001) mükafatına layiq görülmüşdür. İncəsənətin və mədəniyyətin müxtəlif sahələrinə aid kitabların müəllifidir. İ.R. “Təbriz Azərbaycan Teatrı”, “Aşqabad Dövlət Azərbaycan Teatrı”, “Tiflis Azərbaycan Teatrı”, “İrəvan Azərbaycan Teatrı” kitablarında H.-un yaradıcılığı haqda dəyərli tədqiqat aparıb, dahi bəstəkarın musiqişünaslığımıza və teatrşünaslığımıza məlum olmayan faktları üzə çıxardıb. İ.R. H.-nun yaradıcılığı barədə silsilə məqalələrin müəllifidir.



**İ.Rəhimli**

**RƏHİMOVA** Zəhra (1914-1975) – kolorator-soprano səsə malik müğənni və gözəl həkim. 1935 illər Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki “Rabfak”da təhsil almışdır. Üzeyir Hacıbəyovun təşkil etdiyi xorda solist kimi çalışmış, bəstəkarın bir-neçə əsərinin ifaçısı, “Firuzə” ariyasının ilk ifaçısı olmuşdur. Dövlət Filarmoniyasının solisti idi.

**RƏİSNİYA RƏHİM** (d. 1931) – Cənubi Azərb. alimi, tarixçi, ədəbiyyatşünas. İran tarixinə dair elmi-tədqiqat əsərlərinin, ədəbi-tənqidi yazıların müəllifidir. 1979 ildə Tehranın “Çapar” nəşriyyatında fars dilində çap etdirdiyi “Üzeyir Hacıbəyov və iki inqilab” və “Üzeyir Hacıbəyov və İran məşrutə hərəkatı” monoqrafiyalarında dahi bəstəkarın həyatı, yaradıcılığı, publisistik və ictimai fəaliyyəti haqqında ətraflı bəhs etmişdir.

**RƏQS** – H.-un bütün musiqili səhnə əsərlərində mühüm yer tutur. “Leyli və Məcnun” operasındakı “Ərəb rəqsi”ndən başlamış, bəstəkar R.-ə böyük diqqətlə yanaşaraq, onun əsasında yeni bir musiqi üslubu - rəqslilik anlayışını yaratmışdır. Bu, “Leyli və Məcnun”un birinci pərdəsindəki trioda (Məcnunun atası, anası və özü) Məcnunun atasının partiyasında xüsusilə nəzərə çarpır. H.-un digər erkən operalarında R. məişət səhnələrinin təsviri kimi əsas dramaturji vəzifə daşıyır.

H.-un musiqili komediyalarında R.-dən daha geniş istifadə olunmuşdur. “Ər və arvad” musiqili komediyasındakı bir çox R. fraqmentləri xoş əhvali-ruhiyyə yaranmasına kömək edir, əsərin emosional atmosferini açıqlayır. “O olmasın, bu olsun” musiqili komediyasında R. mənfi surətlərin dramaturji cəhətdən tam açılmasında mühüm vasitələrdən biridir. Əsərin baş qəhrəmanı Məşədi İbadın birinci pərdədəki “Mən nə qədər qoca olsam da” mahnısında “Uzundərə” xalq R.-inin bəstəkar tərəfindən komik planda işlənilmiş melodiyasından məharətlə istifadə edilmişdir.

“Arşın mal alan” musiqili komediyasında R. xüsusilə mühüm yer tutur. Burada R. - Cahan xalanı, Asyanı, Vəlini, Süleymanı xarakterizə edən bədii ünsürdür. Əsər toy səhnəsindəki “Boynunda var sarılıq” xalq mahnısının melodiyasından istifadə edilmiş R. ilə bitir. Bu melodiya, həmçinin komediyanın ork. girişinin də əsasını təşkil edir. H. musiqili komediyalarında təkcə Azərb. xalq R.-lərindən deyil, həm də şəhər mühitinə xas olan vals musiqisindən də istifadə etmişdir (“Ər və arvad” əsərində nökər və qulluqçuların xoru, II pərdədə Mərcan bəyin mahnısı, “Arşın mal alan”da II pərdədə Arşınmalçının mahnısı, qızlar xoru və s.). “Koroğlu” operasında R. mü-

hüm dramaturji rol oynayır. Həsən xanın sarayının zənginliyinin, xalq kütlələrinin arzu və istəklərinin, mübarizəsinin və s. göstərilməsində R.-dən xüsusilə geniş istifadə olunur. Opera qalib gəlmiş xalqın təntənəsini ifadə edən böyük R. səhnəsi ilə başa çatır.

H. kantatalarına (məs.: "Vətən və cəbhə") da R. melodiyası daxil edərək, onları ənənəvi kantatalardan fərqləndirmişdir. Onun xalq çalğı alətləri ork. üçün yazdığı fantaziyalarda da rəqslik aydın nəzərə çarpır. H. 1919 ildə bəstələdiyi "Dağıstan" və "Azərbaycan" balet R.-lərində "Ləzgihəngi" və "Tərəkəmə" melodiyalarından geniş istifadə etmişdir.



Rəsul Rza

**RƏSUL RZA** (Rəsul İbrahim oğlu Rzayev; 1910-1981) – şair, ictimai xadim. Azərb. xalq şairi (1960), Azərb. əməkdar inc. xad. (1943). Sosialist Əməyi Qəhrəmanı (1980). Stalin mükafatı laureatı (1951). Azərb. Yazıçılar İttifaqının sədri, Azərb. Dövlət Filarmoniyasının direktoru, Azərb. SSR Kinematoqrafiya naziri, "Azərbaycan Sovet Ensiklopediyası"nın Baş redaktoru olmuşdur. H.-la sıx yaradıcılıq əlaqəsi saxlamışdır. Rej. S.Mərdanovun "Bakılılar" filminə R. R.-nın yazdığı üç mahnı mətninə ("Hacı Həsənoğlunun nəğməsi", "Göydəmirin nəğməsi", "Ülfətin nəğməsi") H. musiqi bəstələmişdir; həmin mahnıların mətnləri şairin "Çinar" (1939) kitabında çap olunmuşdur. 1938 ildə Moskvada Azərb. incəsənəti ongünlüyünə hazırlıq gedərkən, o vaxtlar filarmoniyanın direktoru olan R. R. ilə dekadanın bədii rəhbəri H. sıx əməkdaşlıq etmişlər. H. Azərb. Yazıçılar İttifaqının üzvlüyünə R. R. ittfaqın sədri işləyərkən qəbul olunmuşdu (1939). Bəstəkarın məşhur "Arşın mal alan" musiqili komediyası əsasında yaradılmış eyniadlı dünya şöhrətli bədii film o dövrdə resp.-nın kinematoqrafiya naziri işləyən R. R.-nın bilavasitə rəhbərliyi ilə çəkilmişdir. R. R. radio və televiziyada dəfələrlə H. barədə çıxış etmiş, haqqında xatirə yazmışdır. "Sadə və böyük insan" adlı bu yazı R. R.-nın bir neçə kitabında, o cümlədən şairin publisistikasından ibarət "Duyğuların izi ilə " (1991) kitabında dərc olunmuşdur. R. R. bir sıra şeirlərində də Üzeyir bəyi və onun əsərlərini xatırlamışdır.



M.Ə.Rəsulzadə

**RƏSULZADƏ** Məmməd Əmin Əli Əkbər oğlu (1884-1955) – ictimai-siyasi xadim, yazıçı-publisist, ədəbiyyatşünas. Azərb.-ın milli istiqlal mübarizəsinin lideri. 1917 ildə yaradıcılarından olduğu Müsavat partiyasının I qurultayında partiyanın sədri, 1918 il mayın 28-də Azərb. istiqlalı elan olunandan sonra Azərb. Milli Şurasının sədri seçilmişdir. 1920 ildə Azərb. bolşeviklər tərəfindən işğal olunduqdan sonra R. həbs olunmuş, lakin keçmiş dostu İ.Stalin onu həbsdən azad etdirmişdir. 1922 ildən mühacirətdə (Türkiyədə, Polşada, Almaniyada) yaşamış, Azərb.-ın istiqlalı uğrundakı mübarizəsini davam etdirmişdir. "Həyat", "İrşad", "Tərəqqi" və başqa qəzetlərdə publisist məqalələrlə çıxış etmiş, "Təkamül", "Açıq söz", Tehranda "İrani-nou" ("Yeni İran"), İstanbulda "Yeni Qafqaziya" (1923-1928), "Azəri-Türk" (1928-1929), "Odlu yurd" (1929-1931), sonralar Almaniyada "Qurtuluş", "İstiqlal" kimi qəzet və jurnallar nəşr etdirmişdir. R. ilə H. mehriban dostluq münasibətləri saxlamış, mətbuatda sıx yaradıcılıq əməkdaşlığı etmişlər. R. hələ 1907 ildə H.-un tərtib etdiyi lüğətin redaktoru olmuş, 1908 ildə onun "Hesab məsələləri" kitabı haqda "İrşad" qəzetində məqalə yazmışdı. H. "Azərbaycan" qəzetində redaktor işləyərkən R. burada müxtəlif mövzularda yazılarla çıxış etmişdir.

H.-un ölümü münasibətilə R. xaricdə çıxan "Azərbaycan" jurnalındakı məqaləsində yazırdı: "Başda bir həvəskar olaraq işə başlayan Hacıbəyli, sonra kəndi-kəndini (öz-özünü - red.) yetişdirmiş, musiqi təhsilini tamamlamış, nəticədə sözün Avropayi mənasıyla otoritesini (nüfuzunu - red.) hər kəsə tanıtmış bir kompozitor olmuşdur.

Fəqət beyhuda, dəmir pərdənin arxasında kəndisinə süni marşlar yazdırılsa da, Moskvada çiyni diktatorun əliylə oxşadılsa da, tabutu başında Azərbaycan mənəviyyatı ilə ilgiləri olmayan komissarlar növbədə dursalar da, Hacıbəyli Üzeyiri Azərbaycandan, Azərbaycan kulturundan və Azəri Türk tarixindən kimsə ayıramaz! O, milli Azərbaycan varlığının məsnədləri arasında qalacaq ayrılmaz bir dəyərdir!"

**RƏŞAD NURİ GÜNTƏKİN** (1889-1956) – türk yazıçısı. "Xarabaların çiçəyi" (1918), "Çalı quşu" (1922), "Damğa" (1924), "Dodaqdan qəlbə" (1925), "Yarpaq tökümü" (1930), "Köhnə xəstəlik" (1938), "Dəyirman" (1944), "Qan davası" (1956) və s. realist romanların müəllifidir. 1919 ildə Azərb. artistlərinin Türkiyədə qastrol tamaşaları münasibətilə yazdığı "Azərbaycan teatrı" məqaləsini H.-un "Arşın mal alan" və "O olmasın, bu olsun" musiqili komediyalarına həsr etmiş, həmin

əsərləri ideya və sənətkarlıq baxımından yüksək qiymətləndirmiş, yumor səviyyəsinə görə böyük fransız komediyanəvisi Molyerin əsərləri ilə müqayisə etmişdir.

**RİTM** – H. Azərb. musiqi ritmini tədqiq edən, onu lad, forma, melodiya ilə yanaşı öyrənən görkəmli musiqişünas alimdir. Xalq musiqi qaynaqlarından bəhrələnən bəstəkar "Azərbaycan musiqisinin ritmik xüsusiyyətləri" məqaləsində ("Azərbaycan xalq musiqisinin əsasları"), qeyd edirdi ki, el havaları, rəqslər, təsniflər, rənglər, "ən adi, yəni 6/4, 4/4, 3/4, 2/4, 4/8, 6/8, 3/8 ölçülərindən ibarətdir". H. "Azərbaycan musiqi həyatına bir nəzər" məqaləsində xalq musiqi janrlarını konkret metrik ölçülərlə bağlayırdı. Onun fikrincə, təsniflər daha çox 3/4, 3/8, 6/8 vəznli, ağır bəhrli, rəqslər və el havaları isə 6/8 ölçülü olur.

Bütün bu sadə metrlər H.-un öz musiqisinin də əsasını təşkil edir. H. yaradıcılığında vəzn-ritm janr xarakteri yaradan əsas amillərdən biridir. Binar və ternar bölgü sistemlərindən geniş istifadə etsə də, bəstəkarın əsərlərində metroritmik cəhətdən ikibölümlülük üstünlük təşkil edir. Hətta 3/4 ölçüsündən istifadə etdiyi zaman belə H.-un musiqisində xanələr qoşalaşır, böyük, ikiölçülü ritmbloklar yaradır. Bu cəhət də lirik xalq mahnılarımız və rəqslərimiz üçün səciyyəvidir.

Bəstəkarın yaradıcılığında ritm-intonasiyanın rolu böyükdür. Bu halda müəyyən ritmik quruluş müxtəlif yüksəklikli melodiya ilə birləşərək əsərin intonasiya aləmini müəyyən edir. Muğam sənətindən, onun intonasiya çalarları aləmindən gələn bu xüsusiyyət bəstəkarın bütünlüklə yaradıcılığının məğzini təşkil edir.

H. musiqisinin digər ritmik əsasını söz mətnindən doğan ritm-intonasiyalar təşkil edir. Xalq şeirinin janr xüsusiyyətləri, eləcə də əruz təfilələrinin quruluşu bəstəkarın yaradıcılığında əlvan musiqi R.-lərinə çevrilir. Bu baxımdan, "Koroğlu" operasının ikinci pərdəsində təlxəyin reçitativi xüsusilə səciyyəvidir. Meyxana janrından bəhrələnən bu reçitativdə xalq arasında geniş yayılmış "Üç badam, bir qoz" adı ilə tanınan R.-dən istifadə edilib. Bu ritmik quruluşa Üzeyir bəyin geniş istifadə etdiyi əruz vəzninin təfilələrində də rast gəlmək olar. Klassik poetik irsimizə yaxından bələd olan bəstəkar, demək olar, bütün səhnə əsərlərində, eləcə də kamera-vokal yaradıcılığında əruz vəznində yazılmış mətnlərdən geniş istifadə etmişdir. Musiqiyə son dərəcə uyarlı "Həzəc" və "Rəməl" bəhrlərinin müxtəlif növlərindən bacarıqla istifadə edən H. (məsələn, "Arşın mal alan" musiqili komediyasında Əsgərin ariyasının mətni "Rəməl", Gülçöhrənin ariyasının sözləri isə "Həzəc" bəhrlərində yazılıb. "O olmasın, bu olsun" musiqili komediyasında isə Gülnazla Sərvərin duetində "Həzəc" bəhrində yazılmış mətndən istifadə olunur) vokal əsərlərinin müşayiətində həmin ölçü daxilində, xalq yaradıcılığına xas olan ifa tərzinin, alt-üst mizrab vurğularının təsvirini verir. Beləliklə, milli instrumental ifa üslubu ilə uyuşdurulan əruz təfilələrinin metrik quruluşu zaman keçdikcə musiqi R.-inə çevrilir. Əruz R.-ləri xalq və bəstəkar yaradıcılığına daxil olub musiqimizi əzəmətli yallı oynaq və çılğın rəqs R.-lərilə zənginləşdirmişdir.

Quruluş və vəzn etibarilə olduqca sadə, xalq örnəklərindən bəhrələnən H.-un musiqi R.-i peşəkar musiqimizin intonasiya quruluşunun müəyyənləşməsində mühüm rol oynamışdır. Aşıq və sazəndə çalğı üslubunun, dilimizin fonetik quruluşunun musiqidə ifadəsindən doğan H. əsərlərinin metroritmi musiqimizin özümlüyünü, intonasiya məcmusunu yaratmış və gələcək bəstəkarlar nəslini istiqamətləndirmişdir.

**ROMANS-QƏZƏL** – instrumental müşayiətlə səs üçün musiqili-poetik əsər; romans janrının növü H. tərəfindən yaradılmışdır. 1940 illərin əvvəllərində Nizaminin 800 illiyi ilə əlaqədar olaraq, H. dahi şairin qəzəlləri əsasında yeddi R.-q. (onun "Yeddi gözəl" poemasındakı gözəllərin sayına müvafiq) yazmağı nəzərdə tuturdu. Bəstəkar hər bir vokal miniatürdə müəyyən musiqi portreti yaratmalı və müəyyən psixoloji vəziyyəti, fərdi xarakteri, hissləri, daxili aləmi, mənəvi gözəlliyi təsvir etməli idi. Lakin H. bunların yalnız ikisini - "Sənsiz" (1941) və "Sevgili canan"ı (1943) yaza bildi. Ağır müharibə dövründə yazılmış bu əsərlərdə H. insanın yüksək mənəvi keyfiyyətlərini, incəsənətin həyatın ən gözəl cəhətlərini əks edən dəyişməz bədii-sosial dəyərlərini tərənnüm edirdi.

H.-un bütün musiqi əsərləri kimi bu R.-q.-lər də gözəl, ifadəli melodiyaları ilə fərqlənir. Onlarda həm mahnı oxunaqlığı, həm də muğam reçitativliyi səslənir. H.-un R.-q.-ləri öz bədii ifadəliyinə görə dünya kamera-vokal musiqisinin ən uğurlu nailiyyətlərindəndir.



**A.Gəraybəyli** (solda) “O olmasın, bu olsun” filmində Rüstəm bəy rolunda.

**“RUS İNQİLABİ-KƏBİRİ”** – H.-un məqaləsi. “Azərbaycan” qəzetinin 1919 il 12 mart tarixli 135-ci sayında dərc olunmuşdur. H.-un Rusiyada 1917 ilin fevral inqilabına həsr olunmuş iki məqaləsindən birincisidir. “Rus istibdadını”, “Rus çarlığı kimi qara bir istibdadı yıxıb məhv edən” fevral inqilabının ildönümü hər il təzim və ehtiramla qeyd etməyi məsləhət görən müəllif, eyni zamanda təəssüflə göstərirdi ki, “əsarət zəncirindən xilas olmaqla çalışan zavallı millətlər, soyulmuş bədənlərinə hərəkət verib, qol-qanad açmaq” istədikləri zaman, “Rusiyada mütləqiyyət istibdadı yerinə bolşevizm istibdadı cayigir olub, bədbəxt millətləri təkrar əsarət zəncirinə vurmaq əməlinə girişdilər”. Rus istibdadının yıxıldığını görüb, şadlıqla istiqlala hazırlaşan başqa millətlərə “Sizə istiqlal əvəzinə xarabalıqlar verərik, torpağınızda daşıdaş üstə qoymarıq” - hədəsi ilə hökm edən hakimlər, müəllifin dediyi kimi, başımıza mart fəlakətini gətirib, hədələrinə nail oldular. Bu təcavüzü dəf etməyə gücsüz olduğumuza acıyan H. məqaləsini sanki çağdaş günlərimiz üçün peyğəmbərcəsinə söylənmiş bir çağırışla tamamlayırdı: “Mart hadisələri Azərbaycan tarixində mühüm bir hadisə olub, Azəri türklərinin istiqlal yolunda can verib qan tökdüklərini gələcək nəslə oxutduracaqdır. Bugünkü vəzifəmiz isə o qara günləri yaddan çıxarmamaq və buna görə də həmişə və hər an hazır olmaqdır! Belə hazırlıq ki, bu hadisələr bir də təkrar edilsə, müdafiəsinə qadir olaq!..

Bu gün həm hökumətimiz, həm də millət hazır və amadə olmalıyıq. Öz müqəddəratımızı öz əlimizə aldıq, borcumuz bu müqəddəratı hər növ təcavüzatdan qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır!”

**“RUSİYADA KOMMUNİZM İNQİLABININ İKİ İLLİYİ”** – H.-un məqaləsi, “Azərbaycan” qəzetinin 1919 il 12 noyabr tarixli 320-ci sayında “Ü.H.” imzası ilə dərc olunmuşdur. Məqalədə Rusiyada 1917 ilin oktyabr ayında “zühurə gələn kommunizm inqilabı”nın baş vermə səbəbləri, Müvəqqəti hökumətin süqutu və onun yerini “sovet hökumətinin işğal etməsi, “fevral inqilabının zəif cəhəti” araşdırılıb səciyyələndirilir.

**RÜSTƏM BƏY** – H.-un “O olmasın, bu olsun” musiqili komediyasındakı əsas personajlardan biri. R. b. müflisləşmiş, quru bəylərdəndir. O, öz maliyyə vəziyyətini düzəltmək üçün nə isə konkret bir işlə məşğul olmaqdansa, cavan, gözəl qızı Gülnazı yaşlı, kifir, cahil Məşədi İbada “satmağı” daha üstün tutur. R. b. bir ata kimi düzgün hərəkət etmədiyini başa düşür, daxili tərəddüdlər keçirirsə də, pulun qadir gücü qarşısında təslim olur. Ancaq Sərvər ortaya çıxıb öz kələkli planını açıqlayanda, həmişə bir bəy kimi özünü verdiyi sözün ağası adlandıran R. b. dərhal fikrini dəyişir. “İntelligentlərdən” və Məşədi İbaddan fərqli olaraq, müəllifin R. b.-ə münasibətində yüngül ironiya və komizm elementləri üstünlük təşkil edir. R. b., eyni zamanda komediyanın daha çox psixoloji yükə malik personajı adlandırıla bilər. Bu personaj əsrin əvvəllərində Azərb. ədəbiyyatında yaradılmış yaddaqalan və koloritli bəy obrazlarından biridir. Qüdrətli artist A. Gəraybəyli eyniadlı filmdə R. b.-in unudulmaz ekran surətini yaratmışdır.

**“RÜSTƏM VƏ SÖHRAB”** – H.-un üçüncü muğam operası. Firdovsinin “Şahnamə” poemasının motivləri əsasında 1910 ildə yazılmışdır. 4 pərdəli bu operanın ədəbi mətni əruz vəzni ilə yazılmış şeir parçaları ilə zəngindir. Librettonun H.




**“Rüstəm və Söhrab”** operasının ilk tamaşasının afişası. 1910.



**H.Rzayeva** Leyli rolunda.

tərəfindən yazılıb-yazılmaması haqda bir sıra fikirlər mövcud idi. Araşdırma nəticəsində (bax: M.Aslanov, "Rüstəm və Söhrab", "Ulduz" jurnalı, 1970, №8) librettonun müəllifliyi barədə mübahisələrə son qoyulmuş, oradakı bəzi şeir parçalarının isə şair-qəzəlxan Buzovnalı Azərə məxsusluğu müəyyən edilmişdir. Bu operada müəllif muğam səhnələrini azaltmış, musiqinin çox hissəsini özü bəstələmişdir. Operanın ilk tamaşası 1910 il noyabrın 25-də Bakıda Tağıyev teatrında olmuşdur (rej. - H.Sarabski, dirijor-müəllif. Əsas rollarda H.Sarabski (Söhrab), Ə.Ağdamski (Təhminə), H.Terequlov (Keykavus) və b. çıxış etmişlər. Mətbuatda yazıldığına görə, tamaşa müvəffəqiyyət qazanmamışdır. Ona görə də H. operanı səhnədən götürməyə məcbur olmuşdur. Əsər bir qədər işlənildikdən sonra ikinci dəfə 1915 il martın 6-da dirijor-bəstəkar M.Maqomayevin benefisində, H.Z.Tağıyevin teatrında tamaşaya qoyulmuşdu. Lakin yenə də



**H.Rzayeva** (ortada) Telli rolunda.

uğursuzluğa məruz qaldığı üçün səhnədən götürülmüşdür.



**S.Rüstəmov**

**RÜSTƏMOV** Səid Əli oğlu (1907-1983) – bəstəkar, dirijor və pedaqoq. Azərb. xalq art. (1957). Stalin mükafatı laureatı (1951). Prof. (1973). 1926 ildə müəllimlər seminariyasını, 1930 ildə Bakı musiqi məktəbinin tar sinfini (H.-dan və M.Mənsurovdan dərs almışdır), 1932 ildə APİ-ni bitirmişdir. 1931 ildən Azərb. Radio Verilişləri Komitəsində H.-un təşkil etdiyi Azərb. Xalq Çalğı Alətləri Ork.-nin konsertmeysteri, 1935-73 illərdə həmin ork.-in bədii rəhbəri və baş dirijoru olmuşdur. 1938 ildə Moskvada keçirilən Azərb. incəsənəti ongünlüyündə göstəriləcək "Arşın mal alan" musiqili komediyasını H.-un sifarişi ilə xalq çalğı alətlərinin müşayiəti üçün işləmiş və tamaşa onun dirijorluğu ilə göstərilmişdir. "Beş manatlıq gəlin", "Durna", "Rəisin arvadı" musiqili komediyalarının, bir çox mahnıların müəllifidir.



**A.Rzayeva**

**RZAYEVA** Ağabacı İsmayıl qızı (1912-1975) – bəstəkar. Azərb. əməkdar inc. xad. (1960). Azərb.-ın ilk qadın bəstəkarlarındandır. ADK-nda bəstəkarlıq üzrə H.-dan dərs almışdır. Yaradıcılığında mahnı və romanslar mühüm yer tutur. H.-un təklifi ilə Nizami, Füzuli, Vaqif, Natəvan və b.-nın şeirlərinə musiqi bəstələmişdir. "Höcət eləmə" (1965, İ.Quliyevlə birgə) musiqili komediyasının, xalq çalğı alətləri ork., simli kvartet üçün pyeslərin və s. əsərlərin müəllifidir.



**H.Rzayeva**

**RZAYEVA** Həqiqət Əli qızı (1907-1969) – müğənni. Azərb. xalq art. (1943). Böyük səhnəyə qədəm qoyan ilk qadın muğam ifaçılarındandır. 1927-1952 illərdə AOBT-nın solisti olmuşdur. H.-un opera və musiqili komediyalarında Leyli ("Leyli və Məcnun"), Əsli ("Əsli və Kərəm"), Sənəm ("O olmasın, bu olsun"), Telli ("Arşın mal alan"), Xanəndə qız ("Koroğlu") rollarını oynamışdır. "Arşın mal alan" musiqili komediyasında Telli rolunun yüksək səviyyədə ifasına görə H. məhz R. üçün Tellinin mahnısını ("Sən o yanda, yar bu yanda") artırmış və sonuncu pərdədə, qadın toyunda xanəndə əvəzinə Tellinin oxumasından istifadə etmişdir. R.-nın yaratdığı Leyli, Əsli və s. obrazlar milli musiqi tariximizdə yüksək yer tutmuşdur.



**A.Rzayev**

**RZAYEV** Azər Hüseyn oğlu (d. 1930) – bəstəkar, skripkaçı. Azərb. xalq art. (1990), prof. (1977). Bəstəkarların beynəlxalq müsabiqəsinin laureatı (1955). Hüseyn və Həqiqət Rzayevlərin oğlu, Həsən

Rzayevin qardaşıdır. 1944 ildə R.-in kiçik musiqi əsərlərini dinləyən H. onu ADK nəzdindəki onillik musiqi məktəbində prof. B.İ.Zeydmanın apardığı uşaq yaradıcılığı (bəstəkarlıq) sinfinə qəbul etdirmişdir. R. 1953 ildə ADK-nı bitirmişdir (skripka və bəstəkarlıq ixtisasları üzrə). 1972-87 illərdə AOBT-nın direktoru olmuş, bu dövrdə onun təşəbbüsü ilə "Koroğlu" (1975) və "Leyli və Məcnun" (1976) operaları yeni quruluşda tamaşaya qoyulmuşdur. R. "Hacı Kərimin Aya səyahəti" musiqili komediyasının, skripka ilə ork. üçün 2 konsertin, skripka və alto ilə ork. üçün ikiqat konsertin, 7 simf. poemanın, "Bakı-90" simfoniyasının və s. əsərlərin müəllifidir. 1986 ildə "Əsli və Kərəm" operasını xalq çalğı alətləri ork. üçün, 1990-92 illərdə "Arşın mal alan" musiqili komediyasından Əsgərin ariyasını tar və kamera ork. üçün, "Koroğlu" operasından "Çənlibel" səhnəsini xor və kamera ork. üçün, "Leyli və Məcnun" operasının I pərdəsindən Leyli və Məcnun duetini solistlər və kamera ork. üçün işləmişdir.



N.Rzayev

**RZAYEV** Əlabbas (1883-1962) – teatr xadimi, suflyor. 1907 ildən "Nicat" maarif cəmiyyətinin üzvü idi. "Leyli və Məcnun" operasının ilk tamaşasında suflyor olmuşdur. "Teatr və H.Ərəblinski haqqında xatirələrim" əsərinin müəllifidir. "Leyli və Məcnun" operasının ilk tamaşası haqqında xatirələrində tamaşanın böyük uğurla keçməsinə dair maraqlı epizodlar var.

**RZAYEV** Həsən Hüseyn oğlu (d. 1928) – bəstəkar, zərb alətləri ifaçısı. Bəstəkarların ümumittifaq müsabiqəsinin laureatı (1967), dosent (1977). Hüseyn və Həqiqət Rzayevlərin oğlu, Azər Rzayevin qardaşıdır. 1944 ildə R.-in bəstələdiyi kiçik musiqi əsərlərini dinləyən H. onu ADK-da özünün dərs dediyi Azərb. xalq musiqisi və muğamları sinfinə dinləyici kimi qəbul etmiş, həmçinin ADK nəzdindəki onillik musiqi məktəbində prof. B.İ.Zeydmanın apardığı uşaq yaradıcılığı (bəstəkarlıq) sinfində oxumağı məsləhət bilmişdir. R. 1953 ildə ADK-nı bitirmişdir (zərb alətləri və bəstəkarlıq üzrə). "Gülcamal boşanır" operettasının, "Babək" simfoniyasının, ork. pyeslərinin, müxtəlif musiqi alətləri, o cümlədən zərb alətləri üçün pyeslərin, ksilofon ilə ork., truba ilə ork. üçün konsertlərin və s. əsərlərin müəllifidir. O, "Leyli və Məcnun" operasından xoru vibrafon üçün solo, "Koroğlu" operasının V pərdəsindən rəqsi ksilofon və fp., həmçinin zərb alətləri və fp. üçün, "Əsli və Kərəm" operasından "Axşam oldu" xorunu vibrafon üçün, "Arşın mal alan" musiqili komediyasından Əsgərin ariyası vibrafon və fp., Gülçöhrənin ariyasını 2 viola üçün işləmişdir.



**Ü.Hacıbəyov və S.Rüstəmov** ilk notlu xalq çalğı alətləri orkestrinin üzvləri ilə.

**RZAYEV** Hüseyn Həsən oğlu (1906-1966) – rejissor. 1930 ildən AOBT-ında rej. köməkçisi işləmiş, 1932-52 illərdə AOBT səhnəsində tamaşaya qoyulmuş "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" operalarının, "Arşın mal alan" musiqili komediyasının aparıcı rej. olmuş, "Leyli və Məcnun" və "Arşın mal alan" tamaşalarına quruluş vermişdir. H.-un əsərlərini Azərb.-nın bir çox ş.-lərində səhnəyə qoymuşdur.

**RZAYEV** Nazim Əsədulla oğlu (1925-2006) – dirijor. Azərb. xalq art. (1977). SSRİ (1980) və Azərb. (1974) Dövlət mükafatları laureatı. Prof. (1985). AOBT-nın dirijoru (1958-60) olmuş, Moskvada Böyük Teatrda təcrübə keçmişdir (1960-63). 1964 ildən Azərb. Dövlət Kamera Ork.-nin bədii rəhbəri və baş dirijoru olmuşdur. Son illərdə Türkiyədə işləyir. H.-un bir neçə əsərinə dirijorluq etmişdir. 1984-85 illər teatr mövsümündə Ankara Dövlət Opera və Balet Teatrında H.-un "Arşın mal alan" musiqili komediyasının quruluşçu dirijoru olmuşdur.

**RZAYEV** Yaqub Kazım oğlu (1898-1975) – lirik-dramatik səsli müğənni. Azərb. əməkdar art. (1940). Təcrübə keçmək məqsədilə Moskvanın Böyük Teatrına göndərilən ilk azərb. professional müğənnidir. H.-un "Koroğlu" operasında Koroğlu rolunda Bülbülün dublyoru olmuşdur. Bülbül "Kommunist" qəzetində çıxan məqaləsində (24 yanvar 1939) istedadlı ifaçılar sırasında R.-in də adını çəkmişdir.

# S

**SABİR** (Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadənin təxəllüsü; 1862-1911) – şair, mütəfəkkir, ictimai xadim, müəllim. Azərb. ədəbiyyatında “Molla Nəsrəddin” ədəbi məktəbinin ən görkəmli nümayəndələrindən biri, inqilabi-satirik şeirin banisidir. Maarifpərvər ruhlu ilk mətbu şeiri 1903 ildə “Şərqi-Rus” qəzetində çıxan S.-i bu vaxtdan tanımağa başlayan H. 1904 ildə “Şərqi-Rus”da, 1906-1908 illərdə isə “İrşad”, “Həqiqət”, “Tərəqqi” qəzetlərinin redaksiyasında onunla daha yaxından tanış olmuşdur. S. çox vaxt “Filankəs” imzası ilə yazan H.-un jurnalist qələmini ilk dəfə bəyənib qiymətləndirən müəllifdir. Satiralarından birində şair “Filankəs”i “Molla Nəsrəddin”dəki “Hop-hop” (S.-in öz təxəllüsü), “Qızdırmalı” (M.H.Zeynalov) və “Mozalan” (Ömər Faiq) ləqəbli yazıçılarla yanaşı qoymuşdur. Ədəbiyyatın ictimai vəzifələrinə baxışda tam həmrəy olan hər iki sənətkarı satirik əsərlərindəki müştərək mövzular, ideya səsləşmələri ilə bərabər, milli musiqiyə məhəbbət də birləşdirib doğmalaşdırır, aralarındakı yaradıcılıq əməkdaşlığını möhkəmləndirirdi. Uşaqlıq və ilk gənclik illərində müsəlman Şərqinin dini musiqisi ilə, Səmərqənd, Buxara və Xorasanda təriqət rəqsləri və mahnıları ilə, Seyid Əzimin məktəbində xor havaları ilə tanış olan S. 1908 ildə Şamaxıda açdığı “Ümid” məktəbində uşaq xoruna və məktəbli şərqilərinə də layiqli yer vermişdi. H.-un “Leyli və Məcnun” operasının yaranması və tamaşaya qoyulmasını alqışlayan ziyalılardan biri də S. olmuş, bu münasibətlə Şamaxıdan, Məcnun rolunun ifaçısı H.Sarabskiyə hədiyyə göndərmişdi.

H. böyük şairin yaradıcılığını yüksək qiymətləndirmiş, ona daim böyük hörmətlə yanaşmışdır. O, “Məlumat” qəzetində yazırdı: “Qoy ədəbiyyat tarixində yazılsın ki, Sabir kimi şairi diriliyində təqdir edən kişi olmasa da, bir nəfər arvad (Həmidə xanım Məmmədquluzadə - red.) oldu” və onun müalicəsi üçün “milyonçu kişilərə rəğmən öz varından keçəcək qədər böyük bir həmiyyət göstərdi”.



**M.Ə.Sabir**

**SABİT RƏHMAN** (Sabit Kərim oğlu Maxmudovun təxəllüsü; 1910-1970) – yazıçı, dramaturq. Bir sıra hekayələrin (eləcə də teatr xadimləri haqqında), irihəcmli nəsr əsərlərinin, o cümlədən H. Ərəblinskinin həyatından bəhs edən “Son faciə” (1938) povestinin müəllifidir. Ən yeni dövr Azərb. komediyasının yaranması, inkişafı onun adı ilə bağlıdır: “Toy” (1939), “Xoşbəxtlər” (1940), “Aşnalar” (1945): “Nişanlı qız” (1953), “Əliqulu evlənir” (1961), “Yalan” (1965) və s.

S. R. yaradıcılığında C.Məmmədquluzadə, Ə.Haqverdiyev kimi H.-un da bədii irsindən, xüsusilə onun bədii publisistikasından və musiqili komediyalarından bəhrələnmişdir. Həyatın aktual məsələlərini əks etdirmək, yumor və satira ustalığına yiyələnmək baxımından H. yaradıcılığı S. R. üçün bir məktəb olmuşdur. Onun dramaturji, komizm üsulları S. R.-ı daha çox cəlb etmişdir. Təsadüfi deyildir ki, bəstəkarın “Arşın mal alan” və “O olmasın, bu olsun” musiqili komediyaları əsasında çəkilmiş kinofilmlərin ssenarilərini S. R. yazmış və bu komediyaların ideya-bədii xüsusiyyətlərinin ekranda dolğun təcəssümü üçün ciddi yaradıcılıq axtarışları aparmışdır.



**Sabit Rəhman**

**SADIQ ƏSƏD OĞLU,** Sadıqcan (1846-1902) – tarzən, müasir Azərb. tarının yaradıcısı. Məşhur musiqiçi Mirzə Ələsgər Qarabağidən dərs almış, virtuoz tarzən kimi geniş şöhrət qazanmışdır. Tarın quruluşunu dəyişmiş, ona yeni simlər



**Sadıq Əsəd oğlu**

əlavə etmiş, ifaçılıq üslubunu təkmilləşdirmişdir. Bir sıra məşhur tarzənlər S. Ə. o. məktəbinin yetişdirmələri və davamçıları olmuşlar. 1897 ildə Şuşada Ə.Haqverdiyevin rəhbərliyi və Cabbar Qaryağdı oğlunun iştirakı ilə səhnəyə qoyulmuş "Məcnun Leylinin məzarı üstündə" səhnəciyinin musiqi tərtibatını S. Ə. o. vermişdi. 13 yaşlı H. bu tamaşada xorda iştirak etmişdi.

**SADIQOV** Əlövsət Şirəli oğlu (1906-1971) – müğənni (lirik tenor). Azərb. xalq art. (1956). Güclü zil səsə, gözəl zəngulələrə malik sənətkar idi. 1928-30 illərdə ADK-nda oxumuşdur. AOBT-nın solisti olmuşdur (1930-63). H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında



**Ə.Sadıqov** Məcnun rolunda.

Məcnun və Kərəm partiyalarını böyük ustalıqla ifa edirdi. Azərb. xalq mahnıları, muğam ifaçısı kimi də məşhur idi.

**SADIQOVA** Rəsmiyyə Səlim qızı (d. 1940) – müğənni. Muğam operaları və xalq mahnılarının ifaçısı. 1962 ildə A.Zeynallı ad. musiqi məktəbini bitirmiş, həmin ildən solisti olduğu AOBT-nın səhnəsində H.-un "Əsli və Kərəm", "Leyli və Məcnun" operalarında Əsli və Leyli rollarını ifa etmişdir. "Arşın mal alan" musiqili komediyasında Telli rolunu da oynamışdır. H.-un bəstələdiyi bir sıra mahnıların ifaçısıdır.

**SALAHOV** Qılman Balaməmməd oğlu (1906-1974) – kamançaçalan, dirijor. Azərb. əməkdar inc. xad. (1940). H.-un təşkil etdiyi Azərb. Dövlət Türk Musiqi Məktəbində, sonra isə musiqi texnikumunda kamança sinfində oxumuşdur (1922-26). H.-un təşkilatçılarından olduğu xalq çalğı alətləri ifaçılarının I Ümumittifaq müsabiqəsinin (1939, Moskva) laureatıdır. 1931 ildən H.-un dəvəti ilə xalq çalğı alətləri ork.-ndə işləmiş, 1938-64 illərdə Azərb.



**Q.Salahov**



Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının bədii rəhbəri olmuşdur. Bir sıra mahnı və rəqslərin müəllifidir.

**SALAHOV** Tahir Teymur oğlu (d. 1928) – boyakar və qrafik. SSRİ xalq rəs. (1973). SSRİ Dövlət (1968), M.F.Axundov ad. Resp. (1965) və Azərb. Dövlət (1970) mükafatları laureatı. Prof. (1973). S.-un yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı ilə səciyyələnir. S. müasir Azərb. portret sənətinin ən kamil nümunələrinin yaradıcısıdır. Onun 1978 ildə çəkdiyi "Ü.Hacıbəyovun portreti" bəstəkarın xatirə ev-muzeyinin ekspozisiyasındadır. S. teatr-dekorasiya sənəti sahəsində də fəaliyyət göstərir. 1975 ildə AOBT-nda H.-un "Koroğlu" operasına olduqca uğurlu tərtibat vermişdir.

**SALİKOV** Əhməd Batskoyeviç (d.1930) – heykəltəraş. Azərb. Dövlət mükafatı laureatı (1980). Milliyyətcə osetindir. Bir sıra monumental əsərlərin, xatirə abidələri və lövhələrinin müəllifidir. H.-un büstünü (1973) və heykəlini (Şuşa, 1985) yaratmışdır.

**SARABSKİ** Azər Hüseynqulu oğlu (1924-1988) – sənətşünas, teatrşünas. Tarix e.n. (1964). H.Sarabskinin oğludur. "Azər-



**T.Salahov.** "Koroğlu" operasının I pərdəsinin dekorasiyasının eskizi. 1975.

baycan musiqili teatrının yaranması və inkişafı (1917-ci ilə qədər)" monoqrafiyasının (rus dilində, 1968) müəllifidir. Kitabda H.-un "Leyli və Məcnun" operasının ilk tamaşası, "Şeyx Sənan", "Rüstəm və Söhrab" operalarının taleyi, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarının səhnə tarixi, artistlərin oyunu, mətbuatda qiymətləndirilməsi, eləcə də bəstəkarın həyat və yaradıcılığının bir sıra digər məsələləri ən mötəbər sənəd və faktlar əsasında araşdırılır.

**SARABSKİ** (Rzayev) Hüseynqulu Məlik oğlu (1879-1945) – müğənni (lirik-tenor), aktyor, rejissor, teatr xadimi, pedaqoq. Azərb. xalq art. (1932). 1902 ildən Bakıda dramatik rollarda çıxış edən S.-nin H.-la ilk tanışlığı 1906 ildən - H. onun ifasında "Sarənc" muğamını bəyəndiyi gündən başlamışdır. 1908 ildən "Nicat" cəmiyyəti nəzdindəki opera truppasının solisti olan S. həmin il H.-un "Leyli və Məcnun" operasının ilk tamaşasında Məcnun rolunu böyük uğurla oynamışdır. S. bu rolda 400 dəfədən çox (sonuncu dəfə 1941 ildə) çıxış etmişdir. Həmin vaxtdan ömürlərinin sonunadək bu iki sənətkar möhkəm yaradıcılıq və şəxsi dostluq telləri ilə bağlı olmuşlar. S. bəstəkarın "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu" operalarında Şeyx Sənan, Söhrab, Kərəm, Şah Abbas partiyalarını, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarında Mərcan bəy, Sərvər və Əsgər rollarını ilk dəfə və böyük məharətlə ifa etmişdir. 1910 ildən rej. kimi də fəaliyyət göstərmiş, H.-un "Rüstəm və Söhrab", "Ər və arvad", "Arşın mal alan" əsərlərini tamaşaya qoymuşdur.



**H.Sarabski** Məcnun rolunda.



**H.Sarabski** "Əsli və Kərəm" operasında Kərəm rolunda.



**H.Sarabski**

H. sənət dostunun dəfn mərasimindəki nitqində onu "talantlı bir artist, qabil müğənni, fəal ictimai xadim", yaradıcılığını "sair artistlər üçün bir nümunə və tam bir məktəb" adlandırmışdır.

**SARIYEV** Zülfüqar (?-?) – müğənni (tenor), muğam ifaçısı. 1920-50 illərdə AOBT-nın solisti olmuş, muğam operalarında xarakterik rollar, o cümlədən H.-un "Leyli və Məcnun" operasında Məcnunun atası, "Əsli və Kərəm" operasında şah, osmanlı, şeyx, "Koroğlu" operasında carçı rollarını ifa etmişdir.

**"SEVGİLİ CANAN"** – H.-un ikinci romans-qəzəli. 1943 ildə Nizaminin sözlərinə səs və fp. üçün bəstələnmişdir. Qəzəlin Azərb. dilinə tərcüməsi M.Dilbazinindir. Musiqisi ehtiraslı, həyəcanlı, patetik ruh yüksəkliyi ilə yazılmışdır. Yüksək registrdə səslənən kulminasiya dərin hisslərin emosional gərginliyi, coşğunluğu ilə seçilir. İlk romans-qəzəli "Sənsiz"də olduğu kimi, bu əsərdə də musiqi ilə şeir - bədii cəhətcə eyni əhəmiyyət kəsb edən vahid sürət yaradırlar. Melodiya zərif intonasiya ifadəsi ilə fərqlənir. Muğam tipli reçitativ mahnı oxunaqlığı ilə vəhdət təşkil edir. Musiqi ritmi klassik şərq şeir vəzni - əruzun ritminə tam uyğun gəlir. Məlahətli, dolğun, geniş diapazonlu fp. partiyası romansın musiqisinin obraz-emosiya məzmununun tam açılmasına kömək edir.

Qəzəl-romansın ilk ifaçısı Bülbül olmuşdur. Romans ilk dəfə Bakıda 1944 il-



**"Sevgili canan"** romans-qəzəli.
Bəstəkarın əlyazması.

də nəşr edilmişdir. Fp. üçün işləyəni Q. Burşteyn idi. Romans simf., xalq çalğı alətləri və estrada ork.-lərinin müşayiəti ilə də ifa olunur.

**SEYİD HÜSEYN** (Hüseyn Mir Kazım oğlu Sadıqzadə; 1887-1938) – yazıçı, tənqidçi. "Tazə həyat" və "Kaspi" qəzetlərinin mətbəələrində mürəttib olmuş, şərikli "Bəhlul", "Kəlniyət" və "Qurtuluş" jurnallarını nəşr etdirmişdir. 1913-14 illərdə "İqbal"ın baş redaktoru idi. Bədii yaradıcılığa 1907 ildə başlamışdır. Hekayə və publisistik məqalələrində mürtəce ziyalıların əleyhinə çıxmış, Azərb. dilinin saflığı uğrunda mübarizə aparmışdır. Azərb. ədəbiyyatı və ədəbiyyat xadimləri haqda məqalələr, müasir həyatdan bəhs edən hekayələr yazmışdır. S. H. ictimai hadisələrə münasibətdə H. ilə daim həmfikir olmuşdur. Onların arasında qarşılıqlı səmimi münasibət var idi. H.-un redaktorluq etdiyi "Yeni iqbal" və "Azərbaycan" qəzetlərində S. H. məqalələrlə çıxış edirdi. "Qurtuluş" jurnalının nəşrə başlanılmasını H. böyük sevinclə qarşılamışdı.

Repressiyanın qurbanlarından olan S. H. 1937 ildə həbs edilmiş, 1938 ilin yanvarında güllələnmişdir.

**SEYİDOVA** İzzət Əli qızı (1910-1973) – ilk Azərb. qadın teatr rəssamlarından biri. Azərb. əməkdar inc. xad. (1943). 1938 ildən AOBT-nda fəaliyyət göstərmiş, 1958 ildə burada H.-un "Leyli və Məcnun" operasına bədii tərtibat vermişdir.

**SEYİDZADƏ** Hüseyn Əli oğlu (1910-1979) – kino rejissoru. Azərb. əməkdar inc. xad. (1970). Bir çox sənədli və bədii filmlərin rej. olmuşdur. "Doğma xalqımıza" sənədli-musiqili filmində (1954) Bülbül, A.Bünyadzadə, S.Aslanova və b. görkəmli opera ustalarını H.-un "Koroğlu" operasından fraqmentlərdə əbədiləşdirmişdir. H.-un eyniadlı musiqili komediyası əsasında çəkdiyi "O olmasın, bu olsun" bədii filmi (1956) Azərb. incəsənətinin qızıl fonduna daxildir.

**"SƏADƏT"** – 1908 ildə Bakıda "Səadət" müsəlman xeyriyyə cəmiyyəti tərəfindən açılmış məktəb. Məktəbin müdiri Əli bəy Hüseynzadə idi. "S." məktəbində təlim əsasən dini xarakter daşısa da, dünyəvi fənlər də tədris edilirdi. H. 1908 ilin yayında, müsabiqə yolu ilə "S." məktəbinə rus dili, hesab və təbiiyyat müəllimi təyin olunmuşdu. Burada o, bacarıqlı pedaqoq olmaqla yanaşı, həmkarları arasında rus dilinin təlimatçısı (metodist) kimi də məşhurlaşmışdı. H.-un qardaşı C.Hacıbəyli isə məktəbdə alman və fransız dillərindən, habelə rəsmdən dərs deyirdi. "S." məktəbi 1911 ildə bağlanmışdır.

**SƏDİ** (Müslihəddin əbu Məhəmməd Əbdullah ibn Müşrifəddinin təxəllüsü; təqr. 1203-1292) – fars şairi, mütəfəkkir. Azərb.-da da məşhur olan olan "Bustan" və "Gülüstan" əsərlərinin müəllifidir. Humanist idealları tərənnüm etmişdir. S.-nin ədəbi irsi H.-un da yaradıcılığına güclü təsir göstərmişdir. H. müxtəlif əsərlərində, o cümlədən məqalələrində ("Xəbərdarlıq", "Kəndçilərimizə dair"), felyetonlarında ("İki səs", "Məclis qurmağın qaydası", "Məsləhətli sözlər", "Sədini tənqid, Hafizi tərif", "Dost"), "O olmasın, bu olsun" musiqili komediyasında, həmçinin "Şah Abbas və Xurşidbanu" operasında S.-nin yaradıcılığına müraciət etmişdir.

**"SƏFA"** – 1910-17 illərdə Bakıda fəaliyyət göstərmiş mədəni-maarif cəmiyyəti. Mütərəqqi maarifpərvərlər tərəfindən yaradılmış "S." yeni məktəblər, qiraətxana və kitabxanalar açmaq, milli mədəniyyəti inkişaf etdirmək məqsədi daşıyırdı. Teatr truppası da var idi. Z.Hacıbəyovun "Evliykən subay" musiqili komediyası ilk dəfə 1913 ildə burada tamaşaya qoyulmuşdur. Bununla belə, "S." H.-a qarşı daim barış-



**Ü.Hacıbəyov** “Səadət” məktəbinin müəllim və şagirdləri ilə birlikdə.


K.Səfərəliyeva

maz mənfi mövqe tutmuşdur. Bu məqsədlə “S.” lazım gələndə müxalifətdə olduğu “Nicat” cəmiyyəti ilə də barışır, onun üzvlərini də münaqişəyə cəlb edirdi.

**SƏFƏRƏLİYEVA** Kövkəb Kamil qızı (1907-1985) – pianoçu, pedaqoq. Azərb. xalq art. (1972), prof. (1952). ADK-nı bitirmişdir (1932). 1926 ildən ADK-nda əvvəl təcrübəçi-müəllim, sonra isə ömrünün axırınadək fp. üzrə müəllim olmuşdur. Müxtəlif illərdə Bakı Fəhlə Teatrında, AOBT-nda müşayiətçi-konsertmeyster kimi fəaliyyət göstərmişdir. ADK nəzdində orta ixtisas musiqi məktəbinin yaradıcılarından biri, uzun illər (1937-1952) burada direktor və fp. üzrə müəllim olmuşdur.

S.-nın H. ilə ilk görüşü 1922 ilə təsadüf edir. Həmin ildən başlayaraq, o, bəstəkarın yaxın köməkçisi olmuşdur. H.-un “Azərbaycan xalq musiqisinin əsasları” kitabının redaktoru idi. “Ü.Hacıbəyov - Azərbaycan xalq musiqisinin banisi” (1948), “Ü.Hacıbəyov haqqında xatirələrim” (1975), “Bəstəkarın xatirəsi” (1976) məqalələri dərc olunmuşdur. S. “Koroğlu” operasındakı rəqsləri iki fp. üçün işləmişdir. H.-un fp. üçün “Uşaq pyesləri” məcmuəsinin redaktoru, musiqi məktəbi tələbələri üçün Azərb. xalq musiqisi əsasında pyeslərin tərtibçisi olmuşdur.


F.Səfərov

**SƏFƏROV** Firudin Səttar oğlu (d. 1933) – rejissor. Özbəkistan (1986) və Azərb. (1992) xalq art. 1969-77 illərdə AOBT-nın baş rej. olmuş, 1977 ildən Daşkənddə, Ə.Nəvai ad. Özbəkistan Opera və Balet Teatrında işləyir. AOBT-nda H.-un “Leyli və Məcnun” (1970, 1994), “Koroğlu” (1975) operalarına quruluş vermişdir. Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş “Leyli və Məcnun” (1994) tamaşası həmin il Türkiyədə də oynanılmışdır.


Z.Səfərova

**SƏFƏROVA** Zemfira Yusif qızı (d.1937) – musiqişünas-alim. Sənətşünaslıq namizədi (1970), Bəstəkarlar İttifaqının üzvü (1978). Sənətşünaslıq doktoru (1996), professor (1998), Azərb. əməkdar elm xad. (2006). Azərb. əməkdar inc. xad. (1989). “Humay” ilahəsi ilə təltif edilmişdir (1996). 1980 ildən Azərb. EA Memarlıq və İncəsənət İn-tunun musiqi tarixi və nəzəriyyə şöbəsinin müdiridir. H.-un musiqi yaradıcılığının tədqiqatçılarındandır. S.-nın “Üzeyir Hacıbəyovun musiqi-estetik görüşləri” (M., 1973, ön sözün müəllifi Q.Qarayev) adlı ilk kitabında H.-un estetik görüşlərində və yaradıcılığında xəlqilik, millilik və beynəlmiləllik, ənənə və novatorluq, musiqi dili problemləri araşdırılır. 1983 ildə rusca buraxılmış “Üzeyir Hacıbəyov” kitabçası 1985 ildə 7 dildə (Azərb., ingilis, fransız, ərəb, türk, fars və rus) yenidən çap edilmişdir. 1985 ildə S.-nın “Üzeyir Hacıbəyovun yaradıcılığında nəzəri və estetik problemlər” monoqrafiyası nəşr olunmuşdur. S. Üzeyir Hacıbəyovun 100 illiyinə kitab tərtibçisi, ön sözün müəllifidir (1985). H.-un musiqi əsərlərinin akademik nəşrinin cildlərini çapa hazırlamış, onlara geniş ön söz və elmi şərhlər yazmışdır. Bir sıra elmi simpozium və konqreslərdə H. haqqında məruzələr etmişdir. Ü.Hacıbəyov haqqında bir çox məqalələrin müəllifidir. O, “Üzeyir Hacıbəyov” biblioqrafiyasının redaktorlarından biri, Z.Qafarovanın “Üzeyir Hacıbəyovun “Koroğlu” operası” kitabının xüsusi redaktorudur. S. “Azərb. musiqi elmi” (1998) monoqrafiyasının və “Üzeyir Hacıbəyov və onun görkəmli sələfləri” (2005) ingilis dilində kitabın müəllifidir.

**SƏFİƏDDİN URMƏVİ** (Səfiəddin Əbdülmömin ibn Yusif ibn Faxir əl-Urməvi; 1217, bəzi mənbələrdə 1215, 1216, 1230-1294) – Azərb. musiqişünası, musiqi ifaçısı, bəstəkar, şair, xəttat. S.U. ud alətində mahir ifaçı olmuş, nüzhə və muğni musiqi alətlərini ixtira etmişdir. O, musiqişünaslıq və ədəbiyyatşünaslığa aid qiymətli risalələrin müəllifidir. “Kitab əl-ədvar” (“Dövrlər və ya dairələr haqqında kitab”) və “Risaleyi Şərəfiyyə” əsərləri musiqi nəzəriyyəsinə aid fundamental risalələrdir. Yaxın və Orta Şərq musiqisində “Sistemçilik” adı ilə məşhur məktəbin banisi olan S.U.-nin yaradıcılığı Şərq musiqi nəzəriyyəsinin inkişafında yeni mərhələdir. S.U.-nin musiqi nəzəriyyəsi sahəsində ən böyük nailiyyəti Azərb., eləcə də bütün Yaxın və Orta Şərq musiqisinin əsasını təşkil edən səs kompleksləri sistemini qaydaya salmasıdır. Bu sistemə əsaslanaraq, S.U. mükəmməl cədvəl (tabulatura) yaradaraq 12 məqam dairə və 6 avazın səs qatarını vermişdir. S.U. “Kitab əl-ədvar”da özünün icad etdiyi “əbcəd not sistemi” ilə 13 əsrin 4 musiqi parçasını yazıb saxlaya bilmişdir. Əsərlərində bir çox nəzəri və estetik problemləri araşdırmışdır. “Kitab əl-ədvar” risaləsinin əlyazma nüsxələri dünyanın bir sıra mötəbər kitabxanalarında saxlanılır. Azərb. EA Memarlıq və İncəsə-



**E.Şahtaxtinskaya.**
"Səfiəddin Urməvinin portreti".

nət İn-tunun kitabxanasında onun fotosürəti var. Bu fotosürəti 40-cı illərdə H. İstanbulun Nuri-Osmaniyyə kitabxanasından gətirtmişdir. H. "Azərb. xalq musiqisinin əsasları"əsəri üzərində işləyərkən "Kitab əl-ədvar"la tanış olmuş və əsərinin "Tarixi məlumat" hissəsində S.U. haqqında qiymətli fikir söyləmişdir.

**"SƏHNƏNİN TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ HAQQINDA"** – H.-un məqaləsi. "Kaspi" qəzetinin əlavəsi olan "Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi Xəbərləri"nin 1917 il 28 oktyabr tarixli 242-ci sayında rus dilində dərc olunmuşdur. Məqalə Ə.Məmmədov-Əhliyevin həmin qəzetin 241-ci sayında dərc edilmiş "Səhnənin tərbiyəvi əhəmiyyəti" adlı məqaləsinə cavab olaraq yazılmışdır. Ə.Məmmədov Əhliyev opera və operettanı səhnə sənətinin ikinci, hətta üçüncü dərəcəli məhsulu hesab edərək, musiqili tamaşaların müsbət rolunu inkar edirdi. H. məqalədə musiqili səhnə əsərlərinə belə münasibəti tənqid etmiş, belə söhbətləri "musiqi sənətinə qeyri-ciddi münasibət" kimi izah etmiş, həm dram, həm də musiqili dram əsərləri barədə ciddi söhbət açmağın faydalı olacağını söyləmişdir. Bu barədə H. "Opera və dramın tərbiyəvi əhəmiyyəti haqqında" məqalələrində də geniş bəhs etmişdir.

**SƏİD NƏFİSİ** (1895-1966) – İran ədəbiyyatşünası, yazıçı, tarixçi, ictimai xadim. Tehran un-tinin prof. (1934), İran Ədəbiyyat və Dil Akademiyasının üzvü (1935). İranın müasir ictimai-siyasi tarixinə, İran, Orta Asiya, Hindistan, rus və Qərbi Avropa ədəbiyyatına dair tədqiqatların, bədii əsərlərin müəllifidir. Babək və Nizami Gəncəvi haqqında tədqiqatları var. 3 dəfə Bakıda olmuş, Ə.Firdovsinin "Şahnamə" poemasının 1000 illiyi şənliklərində (1934), M.F.Axundovun anadan olmasının 150 illik yubileyində (1962) iştirak etmişdir. "Xəzərin o tayına səfərlərim" adlı yol qeydlərində H.-la görüşləri haqqında məhəbbətlə söhbət açmışdır. Bəstəkarın Firdovsiyə ithaf olunmuş kantatasını sevə-sevə dinləyən S.N. bu əsəri çox yüksək qiymətləndirərək yazmışdır: "...Bakıya gəlməzdən əvvəl də Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun adını eşitmişdim. Onun "Əsli və Kərəm", "Arşın mal alan", "Məşədi İbad" və qeyri əsərləri fars dilinə tərcümə edilmiş və İranda oynanılmışdır. Onun musiqi parçaları İran gənclərinin dilinin əzbəridir. ...Cürətlə deyə bilərəm ki, Azərbaycan musiqi cəhətdən Şərqin İtaliyasıdır. Üzeyir Hacıbəyovun Firdovsiyə ithaf edilmiş notları, musiqisi diqqətəlayiqdir".

**SƏLİMİ** Əli Zöhrab oğlu (d. 1922) – İran bəstəkarı, dirijor. Bakıda doğulmuşdur. İlk musiqi müəllimi Ə.Bakıxanov idi. 1939 ildə İrana köçmüş, burada görkəmli bəstəkar Hüseyn Nasehdən dərs almışdır. Tehran və Təbriz radiolarının xalq çalğı alətləri ansambllarına rəhbərlik etmişdir. "Babək" operasının, "Vətən" süitasının, lirik mahnıların ("Ayrılıq", "Sizə salam gətirmişəm" və s.), kino-filmlərə musiqinin müəllifidir. Yaradıcılığında H.-un musiqi ənənələrini davam etdirmişdir.

**SƏLİMOVA** Cənnət Əlibəy qızı (d. 1940) – rejissor, pedaqoq. Azərb. xalq art. (1998). ADU-nun Filol. fakültəsində təhsil almış (1958-1962), Leninqrad Teatr və Kinematoqrafiya İnstitutunu bitirmişdir (1968). 1968-1991 illərdə S.Vurğun ad. Rus Dram Teatrının rej., baş rej. işləmişdir. 1991 ildən Bakı Kasera Teatrında çalışır. 1975 ildən Mədəniyyət və İncəsənət Teatrında işləyir. Ü.Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasını (2000 ildə) Azərb. Dövlət Musiqili Komediya teatrında səhnəyə qoymuşdur.



Səməd Vurğun



M.Sənani

**SƏMƏD VURĞUN** (Səməd Yusif oğlu Vəkilov; 1906-1956) – şair, dramaturq, ictimai xadim. Azərb. xalq şairi (1956) və əməkdar inc. xad. (1943). Azərb. EA akad. (1945), fəxri filologiya e.d. (1956). Stalin mükafatı laureatı (1941, 1942). XX əsr Azərb. ədəbiyyatının ən görkəmli nümayəndələrindəndir. Onlarca şeir və poema kitablarının, "Vaqif" (1937), "Fərhad və Şirin" (1941), "İnsan" (1945) və s. pyeslərinin müəllifidir. S.V. və H. bir-birilə yaxın şəxsi dostluq və yaradıcılıq ünsiyyəti saxlamışlar. Yaxın müasirlərinin dediyinə görə onlar yazdıqları hər bir yeni şeiri, yaxud melodiyanı dərhal bir-birinə oxuyub çalarmışlar. H.-un şairin sözlərinə bəstələdiyi "Vətən ordusu", "Vətən", "Döyüşçülər marşı", "Şəfqət bacısı", mahnıları, "Zəfər himni" və s. məhz bu yaradıcılıq təmasının uğurlu bəhrələridir. 1942 ildə Moskvada Stalin mükafatları komitəsinin iclasında S.V.-un "Fərhad və Şirin" dramına mükafat verilməsi məsələsi müzakirə olunarkən H. şairin yaradıcılıq xüsusiyyətlərini yığcam və sərrast ifadə edərək, onun müasir Azərb. ədəbiyyatının ən görkəmli nümayəndəsi olması fikrini xüsusilə vurğulamış: dramaturgiyasının romantik və fəlsəfi mahiyyətini açıqlamışdır. 1945 ildə AOBT-nda H.-un anadan olmasının 60, yaradıcılıq fəaliyyətinin 40 illiyi münasibətilə keçirilən yığıncaqda S.V. çıxış edərək onu "qəhrəman xalqımızın mənəvi varlığını, onun müqəddəs amal və arzularını, sevinc və iztirablarını, həyat və mübarizə işini böyük bir məharət və məhəbbətlə tərənnüm etmiş Bəstəkar" adlandırmışdır.

S.V. ağır keçən xəstəliyi zamanı tez-tez atasını, bir də H.-u xatırlayırdı. Şairin qızı Aybəniz Vəkilova yazır ki, deyilənə görə, S.V. "xəstə Üzeyir bəyin yanında gözləri yaşarmış halda diz çökmüş, o da atama: "Mən gedirəm, şair, sən yaşa..." demişdir". Şair H.-un vəfat etdiyi həmin gün gözü yaşlı halda bu məşhur misraları yazmışdı:

Ölüm sevinməsin qoy!.. Ömrünü vermir bada,
El qədrini canından daha əziz bilənlər!
Şirin bir xatirə tək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər...

Bu misralar H.-un ev-muzeyinə də, S.V.-un məzar daşına da, xalqımızın bu iki böyük sənətkar oğlunun pərəstişkarlarının qəlbinə də həkk olunmuşdur.

Şair H. sənətinə məhəbbətini müxtəlif çıxış və məqalələrində, dahi bəstəkara həsr etdiyi şeirlərində, "Aygün" poemasında da ifadə etmişdir.

**SƏMƏDOVA** Fatma Əşrəf qızı (1909-1963) – musiqişünas, pedaqoq. Azərb. əməkdar müəllimi (1943). H.-un yetirməsi olan S. Azərb. Türk Musiqi Məktəbində təhsil almış, ADK-nı bitirmişdir. Bakıdakı 2 nömrəli musiqi məktəbinin təşkilatçısı və direktoru olmuş, ömrünün axırınadək burada musiqi nəzəriyyəsi fənlərindən dərs demişdir.

**SƏNANİ** Möhsün Sadıq oğlu (1900-1981) – aktyor. Azərb. xalq art. (1939). Səhnə fəaliyyətinə 1915 ildə Tiflis müsəlman teatr truppasında başlamış, 1921 ildən ADT-nda çalışmış, həm qəhrəmanı, həm xarakterik, həm də komik rolları böyük ustalıqla oynamışdır. H.-un "O olmasın, bu olsun" musiqili komediyası əsasında çəkilmiş eyniadlı bədii filmdə və radio tamaşasında Qoçu Əsgər obrazını böyük məharətlə yaratmışdır.



**M.Sənani** "O olmasın, bu olsun" filmində.

**SƏNƏM** – H.-un "O olmasın, bu olsun" musiqili komediyasında personaj. S. Gülnazın, sadəcə olaraq, qulluqçusu deyil, həm də onun həmfikridir, onun və Sərvərin öz həyatlarını istədikləri şəkildə qurmaq üçün apardıqları mübarizədə onların fəal köməkçisidir. S. həqiqəti deməkdən çəkinmir, eybəcərliklərə, naqisliklərə qarşı mübarizədə barışmazlığı ilə seçilir. İs-

tər Rüstəm bəylə, istərsə də Məşədi İbadla qarşılaşdığı səhnələrdə o, başqasının taleyi ilə oynamaq fikrinə düşən bu insan dəllallarının üzündəki maskanı cəsarətlə qoparıb atır. Əsərin sonunda S. müəyyən dərəcədə özünü çox sevdiyi Gülnazın yolunda qurban verir, Sərvərlə Gülnazın xoşbəxtliyi naminə öz taleyini insani və mənəvi keyfiyyətləri baxımından özündən qat-qat aşağıda dayanan Məşədi İbadla bağlamağa razı olur.

Xalq artisti B.Şəkinskaya eyniadlı filmdə S. surətinin çox koloritli və təbii təcəssümünə nail olmuşdur.

**"SƏNİ GÖZLƏYİR"** – Ü. Hacıbəyovun 1931 ildə şair Hüseyn Natiqin sözlərinə bəstələdiyi mahnıdır. Mahnının ilk ifaçısı Bülbül olmuşdur. Mahnı uzun müddət itirilmiş hesab edilərək Ü.Hacıbəyovun heç bir biblioqrafiyasında, ensiklopediyasında qeyd olunmamışdır. Mahnı 2005 ildə S.Fərəcov tərəfindən aşkar edilmiş, bu haqda "Respublika" qəzetində (7-VI-2005) "Unudulmaz mahnı - Səni gözləyir" adlı məqalədə ictimaiyyətə məlumat verilmiş, həmin il "Vətən, Millət, Ordu" adlı Ü.Hacıbəyovun vətənpərvərlik mahnıları məcmuəsində nəşr olunmuşdur.

**"SƏNSİZ"** – H.-un romans-qəzəli. Azərb. bəstəkarlarının yaradıcılığında bu janrda ilk əsərdir. 1941 ildə, Nizaminin anadan olmasının 800 illiyi münasibətilə



**"Sənsiz"** romans-qəzəli. Bəstəkarın əlyazması.

böyük şairin sözlərinə bəstələnmişdir (Azərb. dilinə tərcüməsi Cəfər Xəndanındır). "S." tənhalığa məhkum olmuş böyük, gözəl bir qəlbin hisslərinin zərif poeziyasını, məhəbbətin, hicranın sonsuz kədərini özündə cəmləşdirir. Romansın psixoloji fəlsəfəsi onu muğamın obraz-emosiya məzmunu ilə birləşdirir. Bədiiliyinə görə eyni əhəmiyyətli olan şeir və musiqi vahid musiqili-poetik surət yaradırlar. Romansın melodiyasında reçitativlə lirik oxunaqlıq bir-birini tamamlayır. Milli lad əsasını aydın nümayiş etdirən zərif polifoniya, ifadəedici harmoniyalı fp. partiyası vokal melodiyanı xeyli zənginləşdirir. Dəqiq və vahid metroritmik şəkilli fp. partiyasının ostinat (melodiyanın çoxsaylı təkrarı) strukturu fonunda səslənən improvizasiyalı azad melodiya zərbi muğam janrını xatırladır.

"S."-in ilk ifaçısı Bülbül romansa zərif bədii interpretasiya vermişdi. Müğənni M.Maqomayev romansda müəllif redaktəsi apararaq "Nizami" filmində onu böyük məharətlə ifa etmişdir. Romans ilk dəfə 1944 ildə Bakıda nəşr olunmuşdur. Əsəri fp. üçün Q.Burşteyn işləmişdi. Romans simf., xalq çalğı alətləri və estrada ork.-lərinin müşayiəti ilə də ifa olunur.

**"SƏRVAXT OLMALIDIR"** – H.-un məqaləsi. "Azərbaycan" qəzetinin 1920 il 12 yanvar tarixli 10-cu sayında baş məqalə kimi "Ü.H." imzası ilə dərc olunmuşdur. Məqalədə general Denikin təhlükəsi aradan qalxsa da, ölkədə siyasi vəziyyətin ciddi olaraq qaldığını göstərən müəllif, yenə də "qalanı xaricdən yox, daxildən zəbt edərlər" kəlamına müvafiq olaraq, ölkənin daxilində vəziyyəti nizama salmaqda hökumətin, parlamentin, hər bir vətəndaşın vəzifələrindən danışır, sabitliyə nail olmaq üçün onların səylərini birləşdirməyə, daxildə "fəsad çıxaran ünsürlərə qarşı şiddətli tədbirlər" görməyə çağırırdı.

**SƏRVƏR** – H.-un "O olmasın, bu olsun" musiqili komediyasının əsas personajlarından biri. S. istər ailə münasibətlərində, istərsə də ictimai həyatın digər sahələrində yenilik tərəfdarı olan, şəxsi nümunəsi ilə bu yeniliyə yol açan gənc nəslin nümayəndəsidir. O, gənc, gözəl Gülnazı sevir, öz məhəbbəti uğrunda sona qədər mübarizə aparır və köhnə cəmiyyətin çoxsaylı nümayəndələri ilə qeyri-bərabər mübarizədə qalib gəlir. S. səmimi və hazırcavabdır, fikirlərini açıq söyləyir, nə Rüstəm bəyin təhdidlərindən, nə Qoçu



**Səyavuş Aslan** Vəli rolunda.



**Səttarxan**



**S.Ruhulla**



**S.Aslan**

Əsgərin və onun əlaltılarının hərbə-zorbasından, nə də Məşədi İbadın gülünc hədələrindən çəkinir. Əsərdəki xoşbəxt sonluq bir tərəfdən cəmiyyətdə, həyatdakı məntiqi qanunauyğunluğun, digər tərəfdən, cəmiyyəti dəyişdirmək, yeniləşdirmək zərurətini başa düşmüş S. kimi həqiqi ziyalıların səylərinin nəticəsidir. H. yeni nəsildə görmək istədiyi mənəvi keyfiyyətləri qismən Sərvər surəti vasitəsilə ifadə etməyə çalışmışdır.

**SƏTTARXAN** Hacıhəsən oğlu (1867-1914) – 1905-11 illər İran inqilabının və Cənubi Azərb.-da milli azadlıq hərəkatının rəhbərlərindən biri, xalq qəhrəmanı. Təbrizdə xalq üsyanına rəhbərlik etmişdir. H. "İrşad" və "Tərəqqi" qəzetlərində dərc olunmuş məqalə və felyetonlarda S.-a və onun mücahidlərinə yüksək qiymət verirdi. S. hərəkatının ən ağır vaxtında, 1908 ildə yazılmış felyeton və məqalələrində S.-ın düşmənlərini, vədə xilaf çıxaraq ona köməyə gəlməyənləri qamçılayır, öz publisistikası ilə şah istibdadına qarşı mübarizə aparırdı. "Hara qaçacaqlar" məqaləsində H. iftixarla yazırdı: "Daha Səttarxanın gücü məlum oldu. Kişi daha padşahla padşahlıq etdi..."

**SƏYAVUŞ ASLAN** (Səyavuş Məmmədağa oğlu Aslanov; d. 1935) – aktyor, Azərb. xalq art. (1982). 1959-94 illərdə Azərb. Musiqili Komediya Teatrının və ADT-nın aktyoru olmuşdur. Azərb. Musiqili Komediya Teatrının direktoru və baş rej. olmuşdur. H.-un "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyalarında Vəli və Məşədi İbad obrazları S.A.-ın əsas rollarındandır.

**SİDQİ RUHULLA** (Ruhulla Fətulla oğlu Axundov; 1886-1959) – aktyor, teatr xadimi. SSRİ xalq art. (1949). Stalin mükafatı laureatı (1948). Səhnə fəaliyyətinə 1908 ildə, H.Ərəblinskinin truppasında başlamışdır. Təqr. 300-dən artıq müxtəlif xarakterli obrazlar yaratmışdır. Gürcüstan, Şimali Qafqaz, Orta Asiya və Cənubi Azərb.-ın şəhərlərində tamaşalar hazırlamışdır. 1912-16 illərdə Gəncədə işləmiş, burada H.-un "Leyli və Məcnun (1912), "O olmasın, bu olsun" (1913) əsərlərini tamaşaya qoymuşdur. 1916 ildə Daşkənddə H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarını tamaşaya qoymuş, bununla da özbək musiqili dram teatrının inkişafı üçün zəmin hazırlamışdır. 1924 ildən ömrünün sonunadək ADT-nda işləmiş, kinoya çəkilmişdir. Bir çox Azərb. aktyorlarının yetişməsi və inkişafında S.R.-nın xidməti vardır.

**SİMFONİK MUĞAM** – simfonik janr. İlk dəfə 1940 illərin axırlarında Azərb.-da yaradılmışdır. Janrın əsası H.-un ilk muğam operalarında qoyulmuşdur. Bu operalarda muğam ilk dəfə olaraq Avropa opera janrı ilə birləşdirilmişdi. "Leyli və Məcnun" operasında Heyratı (Nöfəlin partiyası) və Arazbarı zərbi muğamlarından istifadə buna misaldır. H.-un "Aşıqsayağı" kamera-instrumental əsəri də muğam-improvizasiya üslubunda yazılmışdır. H.-un, M.Maqomayevin öz əsərlərində simfonizmi fəal surətdə Azərb. musiqisinə gətirmələri, həmçinin simf. janrda yazan yeni bəstəkar nəslinin (Q.Qarayev, C.Hacıyev, S.Hacıbəyov və b.) yetişməsi S.m.-ın yaranmasına rəvac verdi. İlk S.m.-lar 1948 ildə F.Əmirov tərəfindən yazılmış "Şur" və "Kürd-ovşarı" idi. F.Əmirov bu əsərlərində muğamlardan geniş istifadə etmiş, onlara öz müəllif konsepsiyasını verərək yeni emosional məzmuna nail olmuşdur. F.Əmirov əsl muğamın kompozisiya strukturunu saxlamış, bəzi hallarda xalq mahnılarından da istifadə etmişdir. 1949 ildə Niyazinin bəstələdiyi "Rast" S.m.-ı da bu janrda ən əlamətdar əsərlərdəndir. Azərb.-ın bir sıra bəstəkarları - S.Ələsgərov, M.Əhmədov, T.Bakıxanov və b. da S.m.-lar yazmışlar.

**SİMFONİK MUSİQİ** – simfonik ork. tərəfindən ifa olunması nəzərdə tutulan musiqi. S. m.-yə dərin mürəkkəb ideya-emosional məzmuna malik çoxhissəli monumental kompozisiyalar, eləcə də kiçik



**Ə.Hüseynzadə** Soltan bəy rolunda.

formalı populyar musiqi əsərləri - simfoniya, simf. poema, uvertüra, süita, konsert, kantata, fantaziya və s. daxildir. Azərb.-da S.m.-nin inkişafında H.-un xidməti böyükdür. O, Azərb.-da bu janrın ilk nümunələrinin yaradıcılarından biri və S.m. məktəbinin banisi sayılır. Azərb. S.m.-nin Q.Qarayev, C.Hacıyev, F.Əmirov, Niyazi, S.Hacıbəyov, A.Məlikov, A.Rzayev və b. görkəmli nümayəndələri H. məktəbinin yetirmələridir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, "Azərbaycan simfonizmi özünün ən yaxşı nümunələrində müasir dünya musiqi mədəniyyətinin nailiyyətləri səviyyəsinə yüksəlmişdir. Azərbaycan bəstəkarlarının ən yaxşı əsərləri... Azərbaycan simfonik musiqisinin dünyada geniş vüsət tapmasına səbəb oldu".

**SOLTAN BƏY** – H.-un "Arşın mal alan" musiqili komediyasının personajlarından biri. O, sənaye və ticarət burjuaziyasının güclü inkişafı nəticəsində mövqelərini əldən vermiş, var-yoxdan çıxmış, yalnız quruca bəy adını saxlamış zadəganlardandır. Dul qalmış S. b.-in maraq və fəaliyyət dairəsi son dərəcə məhduddur: mümkün qədər ucuz yolla evlənmək. S. b. bir tərəfdən varlanan və öz iradəsini cəmiyyətə diqtə edən tacirlərə antipatiya ilə yanaşırsa, ikinci tərəfdən məhz pulun cazibə gücü ilə bu silkin qohumluq təklifini rədd edə bilmir. S.b. mənsub olduğu sinfin əksər nümayəndələri kimi, aydın fikirli, açıq sözlü ziyalılardan ehtiyat edir, onları yaxına buraxmır, "incinarlarla", "doxturlarla" əvvəldən arası olmadığını söyləyir. H.-un ironik boyalarla təsvir etdiyi S. b.-ə yumoristik münasibətinin əsasında onun imkanları ilə iddiaları arasındakı ziddiyyət dayanır.

İlk tamaşadan başlayaraq, bu rolun əsas ifaçısı olan Ə.Hüseynzadə musiqili komediya əsasında çəkilmiş eyniadlı filmdə (1945) də S. b. surətinin parlaq ekran təcəssümünü yaratmışdır.

**STALİN** (Cuqaşvili) İosif Vissarionoviç (1879-1953) – kommunist partiyasının və sovet dövlətinin görkəmli xadimi. 1922 ildən Sov.İKP MK-nın Baş katibi, 1941 ildən həmçinin SSRİ Nazirlər Sovetinin sədri olmuşdur. H.-un yaradıcılığı ilə yaxından tanış idi. 1938 ildə Moskvada keçirilən Azərb. incəsənəti dekadasının yekunu ilə əlaqədar Azərb. nümayəndə heyətinin Kremldə qəbulu zamanı H.-la söhbət edən S. Azərb. incəsənəti və bilavasitə "Koroğlu" operası haqda yüksək fikir söyləmiş, operanın 5-ci pərdəsinin genişləndirilməsini məsləhət görmüşdür. 1943 ildə Tehran konfransında iştirak edən S. burada ABŞ rej. R.Mamulyanın çəkdiyi və ermənilərin adına çıxdığı "Arşın mal alan" filmini görərək hiddətlənmiş və ağır müharibə şəraitinə baxmayaraq, təcili olaraq Azərb.-da H.-un bilavasitə iştirakı ilə "Arşın mal alan" filminin çəkilişinə başlanılması haqda göstəriş vermişdir.



**Stalin**

H. 1945 ildə "Stalinə salam" kantatası yazmışdır.

**"STALİNƏ SALAM"** – H.-un kantatası. 1945 ildə Süleyman Rüstəmin sözlərinə yazılmışdır. Əsər üç hissədən ibarətdir. Başqa kantatalardan fərqli olaraq, burada xor partiyası o qədər də seçilmir. Sintetik janr səpgisində yazılmış əsərdə müəllif xor partiyasından əsas xətt kimi yox, yalnız müəllif fikrini açmaq üçün bir üsul kimi istifadə etmişdir.

**STALİN MÜKAFATLARI KOMİTƏSİ** – Sovet İttifaqında elm, texnika, ədəbiyyat və incəsənət sahəsində görkəmli yaradıcılıq müvəffəqiyyətlərinə görə dövlət mükafatları komitəsi. 1940 ildə yaradılmış, 1952 ilədək fəaliyyət göstərmişdir. Təltif olunanlara 1-ci, 2-ci və ya 3-cü dərəcəli "Stalin mükafatı laureatı" adı, diplom və fəxri döş nişanı təqdim edilirdi. Mükafat komitəsi üzvlüyünə SSRİ-nin ən görkəmli elm, ədəbiyyat



**H.Yagizarov** "Arşın mal alan" filmində Süleyman rolunda.

və incəsənət xadimləri daxil idi. H. ilk dövrdən bu komitənin üzvü olmuşdur. O, müzakirələrdə Səməd Vurğun, S.S.Prokofyev, D.D.Şostakoviç, M.A.Şoloxov və b.-nın əsərləri haqqında yüksək fikir söyləmiş, onlara mükafat verilməsində əhəmiyyətli rol oynamışdır.



**S.Rüstəm**

**"STOLIPİNİN XƏYALI"** – H.-un felyetonu. "İrşad" qəzetinin 1907 il 30 may tarixli 100-cü sayında "Ordan-burdan" ümumi başlığı altında "Bu xəyalı duyan Filankəs" imzası ilə dərc olunmuşdur. Felyetonda Rusiyanın baş naziri P.A.Stolıpinin birinci Dövlət Dumasını qovmaq, hökumətə "əl mənim, ətək sənin" - deyən irticapərəstlərdən ibarət üzüyola deputatlar seçmək xəyalı məsxərə yolu ilə tənqid edilir. Həqiqətən, 3 gün sonra birinci Dövlət Duması qovuldu, Rusiyada irtica baş qaldırdı. "İrşad" qəzeti, müvəqqəti də olsa, bağlandı, H. özü də bir müddət redaksiyadan uzaqlaşdırıldı.

**SULTANLI** Əli Abdulla oğlu (1906-1960) – ədəbiyyatşünas, pedaqoq. Filologiya e. d. (1946), prof. (1947). APİ-nin (1934) və ADU-nun (1950-52, 1957-59) filologiya fakültələrinin dekanı, ADU-nun xarici ədəbiyyat kafedrasının müdiri (1941-60) olmuşdur. Azərb. dramaturgiyasının tarixi və nəzəriyyəsinə aid tədqiqatları var. H.-un pedaqoji və jurnalistlik fəaliyyətinə dair ilk dəfə tədqiqatlar aparmışdır. "Ü.Hacıbəyovun dramaturgiyası" (1945) monoqrafiyasının müəllifidir.

**SULTANOV** Ədhəm Fərəc oğlu (1904-1946) – rəssam. Əməkdar inc. xad. H.-un dəvətilə Moskvada keçirilən Azərb. incəsənəti ongünlüyündə göstərilmiş "Arşın mal alan" musiqili komediyasına bədii tərtibat vermiş və bu tərtibat yüksək qiymətləndirilmişdir.

**SÜLEYMAN** – H.-un "Arşın mal alan" musiqili komediyasının personajlarından biri. S. açıq fikirli, yenilik tərəfdarı olan ziyalıdır. Həm də o, yeniliyi ictimai-mənəvi həyata kimlərinsə gətirəcəyini passiv şəkildə gözləmir, özü təhsilinin, həyat təcrübəsi və düşüncə tərzinin verdiyi imkanlar daxilində bu yeniliklərin tətbiqinə çalışır. Müəllif S.-a rəğbət bəsləsə də, onu ideallaşdırmaq fikrindən də uzaqdır. Elçilik səhnəsindəki xırda bir detalla H. həm də personajın daxili tərəddüdlərini və onun bir insan kimi, dost kimi həmin tərəddüdlərin fövqünə qalxmaq bacarığını da göstərmişdir. Hamı üçün xoşbəxt sonluqla bitən əsərin finalında S. da öz mükafatını alır - onu Asya ilə nikah gözləyir.

**SÜLEYMAN RÜSTƏM** (Süleyman Əliabbas oğlu Rüstəmzadə; 1906-1989) – şair, dramaturq, ictimai xadim. Azərb. xalq şairi (1960), Sosialist Əməyi Qəhrəmanı (1976), əməkdar inc. xad. (1943), Stalin (1950) və Azərb. Dövlət (1970) mükafatları laureatı. H.-la yaxın dostluq və yaradıcılıq əlaqəsi saxlamışdır. H. şairin sözlərinə solist, xor, simf. ork. və rəqs qrupu üçün kantata (1938), Nizami Gəncəvinin 800 illik yubileyi münasibətilə kantata (1947), "Yaxşı yol" mahnısını, "Stalinə salam" kantatasını (1945) və s. yazmışdır.

**"SÜVARİ MAHNISI"** – Qızıl ordunun 13 illik yubileyi münasibətilə H.-un bəstələdiyi mahnı (1933). Sözləri Hüseyn Natiqindir. Mahnı əvvəlcə səs və fp. üçün bəstələnmiş, sonradan xalq çalğı alətləri ork. üçün işlənilmiş və sərbəst pyes kimi də ifa olunmuşdur. Vals ritmində yazılmış bu mahnı "Əsgər nəğməsi" adı ilə radionun fonotekasında saxlanılır.

**SVETLOV** Boris Nikolayeviç [1880-1926/27 (?)] – rus rejissoru. Müxtəlif teatrlarda işləmiş, 1911 ildən kinoda fəaliyyət göstərmişdir. 1915 ildə Bakıya gəlmiş, burada bir neçə bədii film, o cümlədən 1917 ildə H.-un eyniadlı əsəri üzrə "Arşın mal alan" filmini çəkmişdir. 1921 ildə Petroqradda (indiki Sankt-Peterburq) kino texnikumu təşkil etmişdir. Sovet dövründə təşviqat filmləri və bədii filmlər - eksentrik komediyalar çəkmişdir.

# Ş

**"ŞAH ABBAS VƏ XURŞİDBANU"** H.-un dördüncü muğam operası. Librettosu da H.-undur. Azərb. xalq nağılının motivləri əsasında yazılmışdır. 4 pərdəli, 6 şəkillidir. Əvvəlki operalarından fərqli olaraq xoşbəxt sonluqla bitən bu əsərin qəhrəmanı mənsəbpərəst və şöhrətpərəst şaha qalib gəlmiş sadə odunçu qızıdır. Əsərdə xeyir şərə qalib gəlir, ülvi məhəbbət zəfər çalır. H.-un əvvəlki əsərlərindəki kimi, burada da muğamlardan geniş istifadə olunur. Lakin əsərdə müəllif materialı xeyli artırılmışdır ki, bu da müəllifin yaradıcılıq inkişafına dəlalət edir. H. qəhrəmanların fərdi xüsusiyyətlərini əks etdirən musiqi yarada bilmişdir. Operada ən böyük uğur Şah Abbasın partiyasıdır. Muğam operalarında ilk dəfə olaraq ənənəviklassik tipli ariya səslənir (birinci pərdədə). Lakin bununla belə, bu ariyada milli lad-intonasiyası da aydın hiss olunur. Ariya dramaturji cəhətdən də çox maraqlıdır. Burada Şah Abbas obrazı hərtərəfli təsvir olunur, onun həm xəyalpərəst, şairanə, dərin hisslərlə yaşayan bir şəxs, həm də hökmran, qətiyyətli bir şah olması açıqlanır. Ariyanın iki planlı məzmunu bir tərəfdən - lirik, yumşaq, digər tərəfdən isə - marşabənzər ruhda olub, Heyratı zərbi muğamını xatırladır. Şah Abbasın bu ariyası sonralar M.Maqomayevin "Şah İsmayıl" operasındakı Aslan şah ariyasının yaranması üçün zəmin yaratdı. Bu ariya H.-un gələcək opera üslubu üçün çox mühüm əhəmiyyət kəsb edirdi. Operada Xurşidbanunun birinci pərdədəki ariyası, Məstavərin partiyası da müəllif musiqisi ilə ifadə olunur. H. üçün ənənəvi olan musiqi tərzi və yeni musiqi ifadələri bəstəkarın əvvəllər istifadə etdiyi musiqi vasitələrini xeyli genişləndirdi, operanın böyük müvəffəqiyyətinə səbəb oldu.



**H.Sarabski** Şah Abbas rolunda.

Opera ilk dəfə 1912 il martın 10-da (23-də) Nikitin qardaşlarının sirkində tamaşaya qoyulmuşdur. Tamaşanın rej. H.Ərəblinski, dirijoru M.Maqomayev idi. Rollarda H.Sarabski (Şah Abbas), Ə.Ağdamski (Xurşidbanu), H.Terequlov (Məstavər) və b. çıxış etmişlər. Opera Azərb. səhnəsində 30-cu illərədək tamaşaya qoyulurdu.

**ŞAHSABAHLI** Əli Fətulla oğlu (1896-1973) – aktyor, rejissor. Səhnə fəaliyyətinə 1911 ildə Tiflisdə Azərb. teatr truppasında başlamışdır. 1924-37 illərdə Tiflis Azərb. Teatrında, 1937-49 illərdə İrəvan Azərb. Teatrında aktyor və rej. kimi fəaliyyət göstərmişdir. 1938 ildə tamaşaya qoyduğu "Arşın mal alan" musiqili komediyası onun ən yaxşı rej-luq işlərindəndir.

**ŞAHTAXTİNSKAYA** Elmira Həbibulla qızı (1930-1996) – rəssam, qrafik. Azərb. xalq rəssamı (1977), Azərb. əməkdar inc. xad. (1963). Ə.Əzimzadə ad.



**E.Şahtaxtinskaya**

Azərb. Dövlət Rəssamlıq Məktəbini (1950) və V.İ.Surikov ad. Moskva Rəssamlıq İn-tunu (1956) bitirmişdir. Plakat və dəzgah rəsmlərinin müəllifidir. Azərb.-ın bir sıra görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin, o cümlədən H.-un portretini çəkmişdir (1985).

**ŞAMXOR DRAM TEATRI** – 1939 ildə Şamxorda (indiki Şəmkir) kolxoz-sovxoz teatrı kimi təşkil edilmiş, 1940 ildən Dövlət Dram Teatrı adı ilə fəaliyyət göstərmişdir. İlk illərdə teatrda H.-un “Arşın mal alan”, “Ər və arvad”, “O olmasın, bu olsun” musiqili komediyaları tamaşaya qoyulmuşdur. Teatrda İ.Bağırov, F.Bədirbəyli, Y.Nərimanov və b. tanınmış artistlər çıxış etmişlər. Teatr 1948 ildə bağlanmışdır.



G.G.Şaroyev

**ŞAROYEV** Georgi Georgiyeviç (1890-1969) – pianoçu, pedaqoq. Azərb. əməkdar inc. xad. (1936), prof. (1930). 1921 ildən ADK-nda dərs demiş (1934-52 illərdə prorektor), H.-un ən yaxın əməkdaşlarından olmuşdur. Dəfələrlə mətbuatda H. haqda xatirələrlə çıxış etmişdir.

**“ŞEYX SƏNAN”** – H.-un ikinci operası 5 pərdəlidir. Librettosunu eyniadlı xalq dastanının motivləri əsasında H. özü yazmışdır. Müxtəlif dinlərə etiqad edən iki gəncin faciəli məhəbbətindən bəhs edir. İlk dəfə 1909 il noyabrın 30-da (yeni təqvimlə dekabrın 13-də) Nikitin qardaşlarının sirkində tamaşaya qoyulmuşdur. Tamaşanın rej. H.Şərifov, dirijoru H. olmuşdur. Əsas partiyaları H.Sarabski (Şeyx Sənan), Leyla xanım (T.Boqatko, Xumar), H.Terequlov (Xumarın atası) ifa etmişlər. Lakin operanın səhnə taleyi uğursuz olmuş və o, bir daha oynanılmamışdır. İlk tamaşa ilə əlaqədar o dövr mətbuatında (“Səda”, “Tərəqqi”, “Həqiqət”, “Kaspi”, “Baku” qəzetləri və s.) dərc olunmuş yazılar bu uğursuzluğun səbəblərini qismən açıqlayır. Bu xalq dastanı haqqında rusdilli oxuculara hələ 1907 ildə ilk dəfə məlumat verən Mehdi bəy Hacınski “Ş.S.” operasına tamaşa edəndən sonra “Avara” imzası ilə dərc etdirdiyi məqalədə yazmışdı: ...”Leyli və Məcnun” operası gənc bəstəkara yeni “Şeyx Sənan” operasını yaratmağa imkan verdi. Gənc bəstəkar dastanın “eşqin sərhəddi yoxdur” kimi əsas ideyasını saxlamaqla ona gözəl musiqi yazmışdır” (“Kaspi”, 2 dekabr 1909, №270). “Ş.S.”-a tamaşa etmiş incəsənət xadimləri və jurnalistlərin rəylərində “operanın son dərəcə gözəl havası” (“Həqiqət”, 26 may 1910, №118), musiqisinin “çox gözəl” (“Səda”, 2 dekabr 1909, №45) olması, burada “gözəl nəğmələr” eşidilməsi (“Reklam” qəz., rusca) barədə tərifli fikirlər var. Bəs, “mükəmməl musiqi ilə tərtib olunmuş” (“Səda”, 25 oktyabr 1909, №15) “Ş.S.” operasının səhnə həyatı nə səbəbə uğursuz olmuşdur? İstər H.-un müasirləri, istərsə də tədqiqatçıları bunu operanın librettosunun zəifliyi ilə izah edirlər. Operanın librettosu, həqiqətən, zəif olub. Belə ki, tamaşa H.-un iki ildən bəri üzərində işlədiyi libretto əsasında oynanılmamışdır. Mənbələrdən aydın olur ki, H. Opera üzərində işləyərkən “Şeyx Sənan” dastanını nəzmə çəkməyi dərbəndli şair Mirzə Səməndərə sifariş etmişdi. Bunun bilavasitə şahidi olan H.Abbasov xatirələrində Mirzə Səməndəri H.-ın tapşırığı ilə Bakıya dəvət etdiyini, onun üç ay burada qalıb dastanı nəzmə çəkdiyini və həmin şeirləri əlbəəl H.-a təqdim etdiyini göstərir (H.Abbasov. “Xatirələrim”, B., 1968, səh. 30). Lakin güman etmək olar ki, Mirzə Səməndər hansı səbəbdənsə, kiminsə təhrikilə ilk tamaşaya az qalmış şeirləri H.-dan almış və o, librettodakı şeirlərin yerini dar macalda şifahi xalq ədəbiyyatından seçdiyi parçalarla əvəz etmişdir. Müasirləri operanın səhnə həyatının uğursuzluğuna “musiqisinin Avropa tərzində olmasını, (yəhudi xoru”nun xoşagəlməyən oxumalarını, Leyla xanımın “müsəlman ləhnlərinə biganəliyi”ni və s. səbəblər də göstərirdilər.

“İlk tamaşadan sonra Ü.Hacıbəyov özü “Şeyx Sənan” operasını məhv etmişdir”, iddiası da əsassızdır. H.-un 1911 ildə opera üzərində yenidən işlədiyi, təzə libretto yazacağı haqqında “Kaspi” qəzetində (8 may, 1911) məlumat vardır. “Ş.S.” operasının musiqisi isə heç zaman məhv edilməmiş, bəstəkar bu musiqidən sonrakı əsərlərində istifadə etmişdir. “Ş.S.” operasının ilk tamaşası barədə rəylərin, H.-un başqa əsərlərinə yazılmış resenziyaların, “Nicat” cəmiyyətinin iclaslarındakı müzakirələrdə irəli sürülən mülahizələrin tədqiqi bu əsər haqqında natamam təsəvvürləri dəqiqləşdirməyə imkan verərdi.

**“ŞƏBİH”** – orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Azərb.-da geniş yayılmış dini-misteriya

tamaşası. Meydan teatrı formalarından olan "Ş."-in özünəməxsus süjeti və poetikası olmuşdur. Epik xarakterli bu əsərlərdə islam tarixində baş vermiş faciəli hadisələrdən götürülmüş epizodlar başlıca yer tuturdu. Məhərrəmlik günlərində oynanılan "Ş." tamaşalarında İmam Hüseyn və onun tərəfdarlarının Yezid və onun adamları ilə döyüşləri təsvir edilir, birincilərə rəğbət, məhəbbət, ikincilərə nifrət təlqin olunurdu. "Ş."-lərdə melodramatizm, naturalizm, pafos, patetika, simvolika geniş yer tuturdu. "Ş." tamaşaları şəbihgərdanlar tərəfindən idarə edilir, musiqi ilə müşayiət olunurdu. "Ş." tamaşaları ədəbi cəhətdən dini məzmunlu olsa da, onların musiqisi dünyəvi səciyyə daşıyırdı. H. göstərdi ki, "1907-ci sənədən bəri Azərb. türkləri arasında opera əmələ gəlməsinin birinci amillərindən birisinin "şəbih" olduğu şübhəsizdir".

**"ŞƏFQƏT BACISI"** – H.-un mahnısı. Sözləri Səməd Vurğunundur. 1941-1945 illər müharibəsinin ilk aylarında bəstələnmişdir. "Ş. b." müxtəlif konsert briqadalarında çıxış edən müğənnilər tərəfindən dəfələrlə ön cəbhədə, əsgərlər qarşısında ifa edilmişdir. İlk ifaçılarından biri də 416-cı Taqanroq diviziyasında şəfqət bacısı kimi xidmət edən Rəşidə Qasımzadə olmuşdur. Mahnı ilk dəfə 1942 ildə Azərb. Musiqi nəşriyyatında, 1975 ildə isə "İşıq" nəşriyyatında çap olunmuşdur.

**ŞƏFİZADƏ** Mehdixan (1873-1943) – teatr xadimi, rejissor, aktyor. Təbrizdə "Azərbaycan artistləri dəstəsi" teatr truppasını (1909) təşkil etmiş, "Xeyriyyə teatrı"nın (1919) təşkilatçılarından olmuşdur. "Azərbaycan maarifinin islah və tərəqqisi uğrunda" teatr cəmiyyətində rej.-luq etmiş, H.-un "Leyli və Məcnun", "Arşın mal alan", "O olmasın, bu olsun" əsərlərini tamaşaya qoymuşdur.

**ŞƏKİNSKAYA** Barat Həbib qızı (1914-1999) – aktrisa. Azərb. xalq art. (1949). Səhnə fəaliyyətinə 1929 ildə başlamış, 1935-78 illərdə ADT-da çıxış etmişdir. Ş. həm dramatik, həm də komik rolların məharətli ifaçısı idi. "O olmasın, bu olsun" filmində (1956) Sənəm rolunu böyük ustalıqla oynamışdır.

**ŞƏRQLİ** (Quluzadə) Rza (1870-1933) – teatr xadimi, dramaturq, aktyor. Bir müddət Bakıda yaşamış, Bakı Azad Tənqid-Təbliğ Teatrında aktyor kimi çıxış etmişdir. Cənubi Azərb.-da milli teatrın təşkilatçılarından olan Ş. "Azərbaycan artistləri dəstəsi"ndə rej.-luq və aktyorluq etmiş (1909 ildən), 1929 ildən "Dram Təbriz" truppasını yaratmışdı. H.-un əsərlərini Cənubi Azərb. səhnəsində tamaşaya qoymuşdur.

**"ŞƏRQ MUSİQİSİ HAQQINDA QƏRB ALİMLƏRİNİN TƏFSİRİ"** – H.-un məqaləsi. "Maarif və mədəniyyət" jurnalının 1926 il 7-ci sayında dərc olunmuşdur. Burada ərəb, fars və Avropa musiqi sistemləri, musiqi alətlərinin mənşəyi, inkişafı və yayılması, muğam və onun hissələri haqqında məlumat verilmişdir. Məqalədə qaldırılan məsələlər Azərbaycan-Türk xalq musiqisi haqqında" məqaləsində inkişaf etdirilmişdir.

**"ŞƏRQ MUSİQİSİ VƏ QƏRB MUSİQİ ALƏTİ"** – H.-un məqaləsi. "Maarif və mədəniyyət" jurnalının 1926 il 4-cü sayında çap edilmişdir. Şərq musiqisinin Qərb musiqi alətləri ilə ifa olunması probleminə həsr olunmuş bu məqalədə H. qaboy, vialon, alto, violonçel, fleyta və s. Qərb musiqi alətlərini təhlil edərək, onların tembrcə "Şərq musiqisinə çox gözəlcəsinə yanaşdığını" sübut edir. Şərq musiqisində mövcud olan tonların Qərb musiqi alətlərinə uyğunluğu və pərdələrin bir-birinə müvafiqliyi sualına cavab verən H. qətiyyətlə bildirir ki, "Şərq musiqisində hər nə tövr tonlar olur-olsun" Qərb musiqi alətlərində çalmaq mümkündür. Qərb musiqi alətlərinin zənginliyini və kamilliyini göstərən bəstəkar, Şərq musiqisinin gələcək inkişafı naminə həmin alətlərdən istifadə olunmasını məsləhət bilir.

**ŞİRVANSKİ** (Dəmirov) Əlimran Müslüm oğlu (1904-1993) – rejissor, aktyor. Azərb. əməkdar mədəniyyət işçisi. 1918 ildən Bakı teatr truppalarında həvəskar aktyor kimi çıxış etmiş, dram dərnəklərinə rəhbərlik etmişdir. 1924 ildə Ə.Bayramov ad. qadınlar klubunda H.-un "Arşın mal alan" tamaşasında rej. köməkçisi, həmçinin Vəli rolunun ifaçısı olmuşdur. 1939-48 illərdə Azərb. Musiqili Komediya Teatrında aktyor və rej. vəzifələrində çalışarkən H.-un bir sıra əsərlərinin quruluşunu vermiş və bu tamaşalarda aktyor kimi iştirak etmişdir. Qoçu Əsgər, Həsənqulu bəy, Rza bəy və s. yadda qalan obrazlar yaratmışdır.



**B.Şəkinskaya**



L.Şıxlinskaya

**ŞIXLİNSKAYA** Leyla Fərrux qızı (d. 1952) – kino aktrisası, baletmeyster-pedaqoq. Azərb. əməkdar art. (1993). Sənətşünaslıq namizədi (1987). 1990-92-ci illərdə "Dyagilev-balet" truppasının baletmeysteri olmuş, bir müddət Moskvada özünün təşkil etdiyi "Şeyla" eksperimental balet yaradıcılıq mərkəzinin bədii rəhbəri olmuşdur. "Arşın mal alan" filmində (1965) Gülçöhrənin yadda qalan obrazını yaratmışdır.

**ŞOSTAKOVİÇ** Dmitri Dmitriyeviç (1906-1975) – rus bəstəkarı. SSRİ xalq art. (1954). Azərb. xalq. art. (1972). Sənətşünaslıq doktoru (1965). Lenin (1958) və SSRİ Dövlət (1941, 1942, 1946, 1950, 1952, 1968) mükafatları laureatı. Bir çox xarici ölkələrin incəsənət akademiyalarının fəxri üzvü. Ş.-in çoxşaxəli yaradıcılığı 20 əsrin klassikası sayılır. O, bir çox simfoniyaların, baletlərin, operaların, tamaşalara və kinofilmlərə yazılmış musiqinin və s. əsərlərin müəllifidir. Müasir Azərb. musiqisinin inkişafında və musiqi xadimlərinin (Q.Qarayev, C.Hacıyev və b.) yetişməsində xidməti var. Ş.-in yaradıcılığı ilə yaxından tanış olan və onun istedadını yüksək qiymətləndirən H. hələ 1940 ilin noyabrında Stalin Mükafatları Komitəsinin iclasında çıxış edərkən onu dünya əhəmiyyətli yaradıcılığı olan ən yüksək səviyyəli ustad adlandırmış, 5-ci simfoniyasına görə Ş.-in mükafata layiq görülməsini qətiyyətlə müdafiə etmişdir. Ş. dəfələrlə Azərb. musiqisinin uğurları, onun görkəmli xadimləri, o cümlədən H. haqqında qiymətli fikirlər söyləmişdir.



D.D.Şostakoviç

**ŞUŞA** – Azərb. Resp.-da şəhər. Şuşa r-nunun mərkəzi. Qaradağ silsiləsində, 1400 m yüksəklikdədir. Dağ-iqlim kurortudur. H.-un uşaqlıq illəri burada keçmişdir. O, 14 yaşınadək burada yaşamış, ilk təhsilini Ş.-dakı ikisinifli rus-Azərb. məktəbində almışdır. Ş.-nın zəngin musiqi-ifaçılıq ənənələri H.-un musiqi tərbiyəsinə müstəsna təsir göstərmişdir. O, sonralar yazırdı ki, "Mən ilk musiqi təhsilimi doğma Şuşada, xanəndə və sazəndələrdən almışam". H. 1897 ildə Ş.-da göstərilən "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəciyində xorda iştirak etmişdir. 1899 ildə Qori müəllimlər seminariyasına qəbul olunması ilə əlaqədar Ş.-dan getmişdir. Ş-da H.-un ev-muzeyi yaradılmış, büstü qoyulmuşdu (1992 ilin mayında şəhəri tutan erməni işğalçılarının güllələbaran etdikləri həmin büst böyük çətinliklə Bakıya gətirilmişdir).



**L.Şıxlinskaya** (ortada) "Arşın mal alan" filmində.



X.Şuşinski

**ŞUŞİNSKİ** Xan (İsfəndiyar Aslan oğlu Cavanşirovun təxəllüsü; 1901-1979) – xanəndə. Azərb. xalq art. (1943). H. geniş diapozonlu gur və məlahətli səsə malik olan Ş.-nin ifaçılıq məharətini yüksək qiymətləndirir, onu "görkəmli səhnə ustası" adlandırırdı. H.-a böyük ehtiram bəsləyən Ş. onun "Qaragöz" mahnısının ilk ifaçılarından idi. H. dəfələrlə onu muğam operalarına cəlb etməyə çalışmışdısa da, müğənniliyi üstün tutan Ş. buna razı olmamışdı. "O olmasın, bu olsun" (1956) filmində müğənni rolunda çıxış etmişdir.

**ŞUŞİNSKİ** Musa Fərhad oğlu (1893-1971) – xanəndə. Məlahətli səsə malik Ş. 1916-20 illərdə Tiflisdə yaşamış, burada H.-un "Əsli və Kərəm", "Arşın mal alan", "O olmasın, bu olsun" əsərlərinin tamaşalarında Kərəm, Əsgər, Sərvər rollarını ifa etmişdir. 1920 ildən Gəncədə xanəndəlik edən Ş. 1932 ildə H. tərəfindən Bakıya dəvət olunaraq, bəstəkarın rəhbərliyi ilə keçirilən "Şərq konsertləri"ndə oxumuşdur.



S.Şuşinski

**ŞUŞİNSKİ** Seyid (Mir Mövsüm ağa Seyid İbrahim oğlunun təxəllüsü; 1889-1965) – xanəndə, musiqi xadimi, pedaqoq. Azərb. xalq art. (1956), əməkdar müəllim (1961). H.-un müxtəlif illərdə Tiflisdə, Şuşada və Bakıda tamaşaya qoyulan "Leyli və Məcnun" operasında Məcnun, İbn Səlam, "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarında Sərvər və Əsgər rollarında çıxış etmişdir. 1926-33 illərdə ADK-nda, 1943 ildən Bakı Musiqi Məktəbində xanəndəlik üzrə dərs demişdir.

# T



**TAĞIYEV** Hacı Zeynalabdin Tağı oğlu (1838-1924) – Bakının ən böyük milyonçularından biri, ictimai xadim, xeyriyyəçi. Maarif və mədəniyyətin himayəçisi kimi xalq arasında böyük hörmət və nüfuz qazanmışdır. T. vətən övladlarının, xüsusilə kasıb, kimsəsiz uşaqların təhsil almasına böyük qayğı göstərmişdir. O, Azərb.-da məktəblər (o cümlədən qızlar məktəbi) açdırmış, bir sıra qəzet və jurnalların nəşrinə (“Kaspi”, “Həyat”, “Tazə həyat”, “Füyuzat” və s.), mədəni-maarif cəmiyyətlərinə, milli kadrların hazırlanmasına böyük vəsait sərf etmişdir. T.-in 1880 ildə Bakıda tikdirdiyi ilk teatr binası (xalq arasında “Tağıyev teatrı” adlanırdı) Azərb. ziyalıları üçün böyük hədiyyə idi. Teatrda dram əsərləri ilə yanaşı, ilk Azərb. opera və musiqili komediyaları da tamaşaya qoyulurdu. H.-un “Leyli və Məcnun” operasının ilk tamaşası da burada göstərilmişdir.

**TAĞIYEV** Tağı Əzizağa oğlu (1917-1993) – rəssam. Azərb. xalq rəs. (1982). Azərb. əməkdar inc. xad. (1962). Tematik tablolar, portret, natürmort, mənzərə və məişət səhnələrinin müəllifidir. “İlham” (1985) əsərində H.-un portretini yaratmışdır.

**TAĞIZADƏ** Aida Zeynal qızı (d.1934) – musiqişünas. Azərb. əməkdar inc. xad. (1987). Sənətşünaslıq namizədi (1969), prof. (1986). ADK-nı bitirmişdir (1958). “Azərbaycan musiqisi 1920-1945 illərdə” (1983), “Azərbaycan musiqisinin tarixi” (1985) və s. əsərlərində H.-un yaradıcılığı haqqında geniş məlumat vermişdir.



**T.Tağızadə**

**TAĞIZADƏ** Tofiq Mehdiqulu oğlu (1919-1998) – kino rejissoru. Azərb. xalq art. (1976). Azərb. (1960) və Çeçenistanın (1964) əməkdar inc. xad. H.-un eyniadlı musiqili komediyası əsasında çəkilmiş genişformatlı, rəngli “Arşın mal alan” bədii filminin (1965) quruluşçu rej.-dur.

**TALIŞİNSKAYA** Cahan Rza qızı (1909-1967) – müğənni. Azərb. əməkdar art. (1940), H.-un “Leyli və Məcnun”, “Əsli və Kərəm” operalarında Leyli, Əsli rollarını oynamışdır. 1941-1945 illər müharibəsi dövründə Orta Asiyaya - Özbəkistana sürgün edilmişdi. 1944 ildə Tiflis ş.-də yaşamasına icazə verilmiş və oradakı Azərb. teatrında dəfələrlə Leyli, Əsli, habelə “Arşın mal alan” musiqili komedi-



**H.Z.Tağıyevin** tikdirdiyi ilk teatr binası.

yasında Telli rollarında çıxış etmişdir. 1946 ildən Azərb. Musiqili Komediya Teatrında işləyən T. burada "Arşın mal alan" da Telli obrazını yaratmışdır.

**TANAİLİDİ** Panfiliya Nikolayevna (1892-1937) – aktrisa. Milliyyətcə yunandır. Səhnə fəaliyyətinə Tiflisdə başlamış, yunan və Azərb. teatr tamaşalarında çıxış etmişdir. 1921 ildən Tiflis Azərb. Dram Teatrında, 1925 ildən ADT-nda işləmişdir. H.-un "Arşın mal alan" musiqili komediyasında Asya rolunun mahir ifaçısı idi.

**"TAZƏ HƏYAT"** – gündəlik ictimai-siyasi, iqtisadi, ədəbi qəzet. 1907-1908 illərdə Bakıda Azərb. dilində, H.Z.Tağıyevin vəsaiti ilə nəşr olunurdu. Qəzetin redaktoru Haşım bəy Vəzirov onun səhifələrində müxalif olduğu H.-un əleyhinə məqalələr dərc etdirirdi.



Ə.Terequlov

**TEATR MUZEYİ,** C. Cabbarlı ad. Azərbaycan Dövlət Teatr Muzeyi – Azərb.ın teatr tarixinə aid materialları toplayan və qoruyan elmi, mədəni-maarif müəssisəsi. Əsası 1926 ildə qoyulmuşdur. 1927-34 illərdə Azərb. Dövlət Muzeyinin (indiki Azərb. Tarixi Muzeyi) şöbəsi olmuşdur. T.m.-nin yaradılmasında C.Cabbarlı, A.M.Şərifzadə, M.Əliyev və b. ilə yanaşı, H.-un da mühüm xidməti olmuşdur. Muzeyin fondunda H.-un "Leyli və Məcnun" operasının, "Ər və arvad" musiqili komediyasının ilk proqramları, onun əsərlərinin müxtəlif teatrlardakı tamaşalarından foto-şəkillər, afişalar və s. eksponatlar saxlanılır.



H.Terequlov

**"TEATR TƏƏSSÜRATI"** – H.-un məqaləsi. "Maarif və mədəniyyət" jurnalının 1925 il 3-cü sayında dərc olunmuşdur. Məqalənin əvvəlində türk opera tamaşalarının birində kiçik rolda oynayan bir aktrisanın yüksək sənətkarlıq nümayiş etdirdiyinə baxmayaraq, səhnə hərəkətlərinin, mimikasının qərb əhlinə məxsusluğunu və bu səbəbdən həmin rola yaramadığını göstərən H. eyni mövqedən şərq musiqisini (rəssamlığını da) dərindən araşdırıb öyrənmədən saxta "Şərq stili" yaratmağın əleyhinə çıxır. H. milli musiqinin qanunları ilə yanaşı, yüksək elm dərəcəsinə çatmış Avropa musiqi sənətini öyrənməyi vacib sayır. Məqalədə ifaçılıq sənətinin musiqi yaradıcılığının müxtəlif problemlərinə də toxunulur.

**TELLİ** – H.-un "Arşın mal alan" musiqili komediyasının personajlarından biri. Soltan bəyin qulluqçusu olan T., eyni zamanda onun qızının və qardaşı qızının həmdərdi, qulaq yoldaşıdır. Gülçöhrə və Asya ilə müqayisədə T. həyata daha çox bələddir, daha cəsarətli və açıq fikirlidir. Bu da T.-nin sosial mənşəyindən irəli gəlir. T., eyni zamanda, bir qədər çəkingən şəkildə də olsa, öz haqqını qorumağı bacarır, özü öz taleyinin sahibi olmaq istəyir. T.-ni fərqləndirən başqa bir cəhət onun nikbinliyi, heç bir halda ruhdan düşməməsidir. H. onun Vəli ilə münasibətlərini və dialoqlarını xəfif bir yumorla təsvir etmişdir. T. zahirən Vəlidən pul tələb etsə də, davranışından bu qızın Soltan bəyin yersiz danlaq və töhmətlərindən, bəzi artıq hərəkətlərindən xilas olmaq üçün bir himayəçi axtardığı hiss olunur. Görkəmli müğənni F.Mehrəliyeva "Arşın mal alan" filmində (1945) T. surətinin çox təbii ekran təcəssümünü yaratmışdır.

**TEREQULOV** Əli Həsən oğlu (1883-1950) – pedaqoq, ictimai xadim. H.-un qaynı və ən yaxın dostlarından biri. H. Terequlovun qardaşıdır. H.-la Qori seminariyasında oxuyarkən tanış olmuş, sonralar bu tanışlıq dostluğa, daha sonra isə qohumluğa çevrilmişdir. Seminariyanı bitirib bir müddət müəllimlik edən T. sonralar Bakıya köçərək "Hacıbəyov qardaşları" truppasına qoşulmuşdur. 1908 ildə "Leyli və Məcnun" operasının ilk tamaşasında birinci skripkanın partiyasını T. ifa etmişdir.

**TEREQULOV** Hənəfi (Məhəmmədhənəfi) Həsən oğlu (1877-1942) – müğənni (bariton), teatr xadimi, ictimai xadim. H.-un qaynı və ən yaxın dostu. Ə.Terequlovun böyük qardaşıdır. Qori seminariyasını bitirmişdir (1899). T. Azərb.-da opera xorunun təşkilatçılarından və "Hacıbəyov qardaşları" truppasının üzvü kimi ilk opera tamaşalarının əsas ifaçılarından olmuş, H.-un "Leyli və Məcnun", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm" operalarında Nofəl, Məstavər, Keşiş, "Arşın mal alan" musiqili komediyasında Soltan bəy rollarını oynamışdır.

**TEREQULOVLAR AİLƏSİ** – əsası Səfərağa Terequlov tərəfindən qoyulan bu ailə əslən Volqaboyu tatarlarındandır. 20 il Qafqazda, mühəndis alayında rekrut xidmətində olan S.Terequlov ordudan tərxis edildikdən sonra, 1845 ildə ailəsi ilə (həyat yoldaşı, iki oğlu - Həsən və İbrahim, qızı Fatma xanım) Tiflisə köçmüşdür. H.-un həyat yoldaşı Məleykə xanımın, qayınları Hənəfi və Əli Terequlovların atası olan Həsən Səfərağa oğlu Terequlov (1835-1911) - maarifçi, ictimai xadim olmuşdur. 1880 ildə, qardaşı İbrahimlə birlikdə Tif-

lisdə ilk dəfə olaraq qızların və oğlanların birgə oxuması üçün nəzərdə tutulan rus-tatar məktəbi açmışdır. O, Tiflisdə sünnilər məscidinin rəhbəri olmuşdur. Hər iki qardaş xeyriyyəçiliklə də məşğul idilər.

**TƏBRİZ TEATRI** – 1909 ildə yaradılmışdır. Teatrın təşəkkülündə və inkişafında S.Ruhulla, A.Şərifzadə, M.Vaizzadə və b.-nın xidməti böyükdür. Səttarxan, Şeyx Məhəmməd Xiyabani, 1920-22 illərdə Təbrizdə yaşayan C.Məmmədquluzadə T. t.-nın inkişafına yaxından kömək göstərmişlər. 1920 ildə Təbrizdə ilk teatr binası - "Xeyriyyə teatrı" tikilmişdir. Onun səhnəsində pyeslərlə yanaşı, musiqili əsərlər, o cümlədən, H.-un "Arşın mal alan", "O olmasın, bu olsun" ("Məşədi İbad" adı ilə), "Ər və arvad" ("Kəblə Qubad" adı ilə) musiqili komediyaları, "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu" operaları tamaşaya qoyulurdu. Teatr həmin əsərlərlə Urmiya, Xoy və b. şəhərlərdə də çıxış edirdi. Azərb. Milli hökumətinin qurulması (1945, 12 dekabr) T. t.-nın inkişafında yeni dövr açdı. Təbriz Dövlət Teatrı təşkil olundu. Teatrın repertuarında H.-un əsərləri yenə də mühüm yer tuturdu. Azərb. Milli Hökumətinin süqutundan (1946, dekabr) sonra T. t.-nın fəaliyyəti dayandırıldı.

**"TƏƏSSÜRAT"** – H.-un 1918-1919 illərdə ADR parlamentinin iclaslarından "Azərbaycan" qəzetində dərc etdirdiyi reportajların ümumi başlığı. "Azərbaycan" qəzetinin 1918 il 9 dekabr tarixli 60-cı sayında dərc olunan ilk reportajda parlamentin təsis iclasından böyük ruh yüksəkliyi ilə bəhs edən müəllif yazırdı: "Parlaman ümuratının içində zinət cümləsindən calibi-diqqət olan şey qiymətli xalılar deyildi, bəlkə üç rəngli bayraqlarımız idi. Məmməd Əmin nitqinin sonunda "bu bayraq endirilməz!", - dedikdə bütün məclis ayağa qalxıb əl çala-çala bayraqları salamlarkən təəssürati-fövqəladəmdən başımın bütün tükləri biz-biz durdu...". H. parlamentin üzvü olmasa da, Milli Məclisdə müzakirə olunan məsələlərə, ayrı-ayrı deputatların çıxışlarına öz münasibətini də bildirirdi. 1919 ilin ilk günlərində deputatlardan birinin uğursuz nitqindən qəzəblənən H. göstərirdi ki, bu gün hər vicdanlı vətən oğlu "qışın bu soyuq günlərində buzlu dağlara pənah aparmış, Araz çayının qara sellərinə qurban olmuş, yer və yurdlarından, mülk və mallarından, can və başlarından top və pulemyot güllələri zoru ilə məhrum edilmiş, əsir-yesir kökündə dağlara-daşlara, dərələrə, təpələrə səpələnmiş olan məzlum, məzlumlardan da məzlum olan bədbəxt qardaşlarımızın, ana və bacılarımızın" taleyindən, müdafiəsindən danışmalı ikən mənasız söhbətlərlə xitabət kürsüsünə çıxmaq heç kəsə lazım deyil ("Azərbaycan", 10 yanvar 1919, №8).

**TƏHMASİB** Rza Abbasqulu oğlu (1894-1980) – aktyor, rejissor, pedaqoq. Azərb. xalq art. (1964). Səhnə fəaliyyətinə 1910 ildə Tiflisdə "Müsəlman artistləri ittifaqı"nın teatr truppasında başlamışdır. Sonralar Tiflis, İrəvan, Naxçıvan, Rəşt və s. teatrlarda aktyorluq və rej.-luq etmişdir. 1920 ildən ADT-nda çalışmışdır. 1945 ildə H.-un eyniadlı musiqili komediyası əsasında N.Leşşenko ilə birlikdə çəkdiyi "Arşın mal alan" filmi az müddət ərzində bütün dünyada məşhurlaşmış, Azərb. kino tarixində görkəmli yer tutmuşdur. T. bu filmə görə Stalin mükafatına layiq görülmüşdür (1946).



**R.Təhmasib**

**"TƏNTƏNƏLİ MARŞ"** – H.-un əsəri. Bakı Türk İşçi Teatrının 10 illik yubileyi şərəfinə 1931 ildə bəstələnmişdir. Əsər ilk dəfə həmin ilin aprel ayında yubiley gecəsində dirijor S.Ştrasserin rəhbərlik etdiyi simf. ork. tərəfindən ifa olunmuşdur.

**"TƏRƏQQİ"** – ictimai-siyasi, iqtisadi və ədəbi qəzet. 1908-1909 illərdə Bakıda milyonçu M.Muxtarovun vəsaitinə nəşr olunmuşdur. Baş redaktoru Əhməd bəy Ağaoğlu idi. 1909 il iyunun 28-də Ə.Ağaoğlu Türkiyəyə köçüb getdikdən sonra qəzetin baş redaktoru H. olmuşdur. "T."-də H.-un müxtəlif janrlarda (siyasi icmal, açıq məktub, elmi-pedaqoji məqalə) 150-dən çox yazısı ("Osmanlıda inqilab qoxusu", "İran işləri", "Gələcək Avropa konfransı", "Milli məktəblərdə rus dili tədrisi", "Üsuli-təlim" və s. məqalələri, "Ordan-burdan" ümumi başlıqlı felyetonları) çıxmışdır. N.V.Qoqolun "Şinel" hekayəsi də ilk dəfə H.-un tərcüməsində "T." qəzetində dərc olunmuşdur.

**TİFLİS AZƏRBAYCAN TEATRI** – XIX əsrin sonu - XX əsrin 1-ci yarısında Tiflisdə fəaliyyət göstərmiş teatr. Əsası teatr həvəskarlarının 1873 ildə göstərdikləri "Lənkəran xanının vəziri (M.F.Axundov) komediyası ilə qoyulmuşdur. Tamaşalar Tiflisdəki "Gürcü dvoryan teatrı", "Mir", "Arsruni", "Kazyonnı teatr", Zubalov ad. Xalq Evi və s. teatr binalarında, 1912 ildə

Azərb. Xalq Evi - “Auditoriya” açıldıqdan sonra isə burada oynanırdı. Xalq evinin açılışında başqa mədəniyyət xadimləri ilə yanaşı, H. da iştirak etmişdir. C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Hüseyn Cavid və b. görkəmli ziyalılar kimi, H. da teatra yaxından kömək göstərirdi. Azərb.-ın bir çox görkəmli səhnə ustaları - H.Ərəblinski, Sidqi Ruhulla, İ.İsfahanlı, M.Kirmanşahlı, M.Sənani, M.Mərdanov, Əbülfət Vəli, sonralar Ə.Seyfi, S.Mövləvi və b. burada fəaliyyət göstərmişlər. Teatrın səhnəsində dram əsərləri ilə yanaşı, musiqili komediya və operalar, o cümlədən H.-un “Arşın mal alan”, “O olmasın, bu olsun”, “Ər və arvad”, “Leyli və Məcnun”, “Əsli və Kərəm” əsərləri tamaşaya qoyulmuşdur. “Auditoriya”nın açılışından bir neçə gün sonra (aprelin 11-12-də) burada H.-un “Leyli və Məcnun” operası, “O olmasın, bu olsun” musiqili komediyası göstərilmişdir. 1914 ildə H.Sarabski və H.Terequlovun başçılığı ilə Tiflisə qastrola gəlmiş Azərb. opera truppası H.-un “Arşın mal alan”, “O olmasın, bu olsun”, “Ər və arvad” musiqili komediyalarını, “Leyli və Məcnun”, “Əsli və Kərəm” operalarını tamaşaya qoymuşdur. 1916 ildə H.-un idarəsi və rej.-luğu ilə “Arşın mal alan” Tiflisdə oynanılmışdır. Teatr bu əsərlərin bir çoxunu Zaqafqaziya şəhərlərinə qastrollarda da göstərirdi. H.-un əsərləri Tiflisin erməni, gürcü və rus truppaları tərəfindən də dəfələrlə tamaşaya qoyulmuş, “Arşın mal alan” 1916 ilin avqustunadək Qafqazın müxtəlif şəhərlərində 400 dəfədən çox oynanılmışdı (“Kavkazski kray” qəzeti, 1916, 17 avqust). Çoxmillətli Tiflis mətbuatında H.-un opera və musiqili komediyalarının tamaşalarını hərarətlə təqdir edən yazılar dərc olunurdu. H.-un əsərləri sonralar T. A. t. truppası əsasında yaradılmış M.F.Axundov ad. Tiflis Azərb. Dram Teatrının (1922-1947) səhnəsində də oynanılırdı.

**TİTARENKO** (Koretskaya) Mariya Sergeyevna (1918-2002) – müğənni (soprano). Azərb. əməkdar art. (1960). ADK-nı bitirmişdir (1948). Konservatoriyanın 1-ci kurs tələbəsi T.-nun səsini eşidən H. ona “Koroğlu” operasında Nigarın partiyasını öyrənməyi təklif etmişdir. Təhsil illərindən AOBT-nın solisti olmuş, 25 il onun səhnəsində çıxış etmişdir. Azərb. bəstəkarlarının operalarında, o cümlədən H.-un “Koroğlu” operasında Nigar rolunu Azərb. dilində ifa etmiş, “Arşın mal alan” musiqili komediyası əsasında çəkilmiş eyniadlı filmin (1945) rus variantında Gülçöhrənin partiyasını səsləndirmişdir.

**TOPÇİYEV** Mustafa Ağabəy oğlu (1916-?) – müğənni (lirik bariton). Azərb. əməkdar art. (1982). 1947 ildən AOBT-nın solisti olmuş, 1958 ildə ADK-nı vokal üzrə (Bülbülün sinfi) bitirmişdir. H.-un AOBT səhnəsində tamaşaya qoyulan əsərlərində Nofəl (“Leyli və Məcnun”), Keşiş (“Əsli və Kərəm”), Süleyman (“Arşın mal alan”), Həsən xan, Ehsan paşa, Alı kişi (“Koroğlu”) rollarında çıxış etmişdir.



**Ə.Topçubaşov**

**TOPÇUBAŞOV** Əlimərdan bəy (1865-1934) – ictimai-siyasi və dövlət xadimi. Azərb. milli istiqlal hərəkatının liderlərindən biri. Peterburq un-tinin hüquq fakültəsini bitirmiş (1889), Tiflis və Bakıda hüquqşünas işləmiş, H.Z.Tağıyevin təklifi ilə Əhməd bəy Ağaoğlu ilə birlikdə “Kaspi” qəzetində çalışmışdır. “Kaspi” qəzetinin redaktoru, 1-ci Dövlət dumasının deputatı, ADR-in F.Xoyskinin başçılıq etdiyi 2-ci hökumət kabinetində xarici işlər naziri, 1918 il dekabrın 7-dən 1920 il aprelin 27-dək isə ADR parlamentinin sədri olmuşdur. Paris sülh konfransında Azərb. nümayəndə heyətinin başçısı idi. H. 1906-1907 illərdə T.-un kadet partiyasına mənsubluğuna görə ona rəğbət bəsləməmiş, 1918-1920 illərdə isə ADR-in xarici siyasətinə və parlamentə bacarıqla rəhbərlik etməsini bəyənmiş, onu hörmətlə yad etmişdir.



**M.Topçubaşov**

**TOPÇUBAŞOV** Mustafa bəy Ağabəy oğlu (1895-1981) – cərrah, ictimai və dövlət xadimi. Azərb. EA ilk həqiqi üzvlərindən biri (1945), SSRİ Tibb EA akad. (1960), Azərb. əməkdar elm xadimi (1940). Sosialist Əməyi Qəhrəmanı (1975). Stalin mükafatı laureatı (1943). Azərb. EA-nın vitse-prezidenti olmuşdur (1951-56 və 1969-81). Kiyev un-tinin tibb fakültəsini bitirdikdən sonra (1919), Naxçıvan və Bakı xəstəxanalarında cərrahlıq etmiş, 1930 ildən N.Nərimanov ad. Azərb. Dövlət Tibb İn-tunda cərrahiyyə kafedrasının müdiri,Eksperimental Tibb İn-tunun direktoru olmuşdur. T.-un musiqiyə olan sonsuz marağı onu H. ilə yaxın dost etmişdir. Onlar ailəvi yaxın idilər; musiqinin insana təsir qüvvəsi barədə maraqlı söhbətləri, mülahizələri olardı. H. onu “təbabətin filosofu və bəstəkarı” adlandırırdı. H.-un məsləhəti ilə T. bəzi cərrahiyyə əməliyyatlarını musiqinin müşayi-

əti ilə keçirmiş və bunun olduqca faydalı olduğunu dəfələrlə qeyd etmişdi.

**TRANSKRİPSİYA** – musiqi əsərinin müxtəlif alətlər üçün işlənilməsi (ork. üçün yazılmış əsərin fp. üçün işlənməsi, bir musiqi aləti üçün yazılmış əsərin başqa musiqi alətinə uyğunlaşdırılması). T.-dan ilk dəfə XVI-XVII əsrlərdə istifadə edilmişdir. XVIII əsrdə İ.S.Baxın ork. üçün yazdığı bir neçə əsər A.Vivaldi, B.Marçello tərəfindən fp. üçün işlənmişdir. H.-un da bir çox əsəri Azərb. bəstəkarları tərəfindən T. olunmuşdur: "Leyli və Məcnun" operasından və "Arşın mal alan" musiqili komediyasından musiqi parçalarının səs və fp., "Leyli və Məcnun", "Koroğlu" operalarından musiqi parçalarının fp.-da 4 əllə çalınması, "Koroğlu" operasından Nigarın və Koroğlunun ariyaları və aşıq mahnısının səs və fp. üçün işlənməsi, "Koroğlu" operasının musiqisi əsasında fp. üçün fantaziya, Nigarın ariyasının violonçel və fp. üçün uyğunlaşdırılması, operanın 2-ci, 5-ci pərdələrindəki rəqslərin tar və fp., uvertüranın nəfəsli ork. üçün işlənməsi, "Arşın mal alan" musiqili komediyasının musiqisi əsasında skripka və fp. üçün fantaziya, həmin əsərdən Asyanın rəqsinin tar və yaxud kamança ilə fp. üçün uyğunlaşdırılması və s.

**TURSUNZADƏ** Mirzo (1911-1977) – tacik yazıçısı, ictimai xadim. Tacikistan xalq şairi (1961), Tacikistan EA akad. (1951). Azərb.a həsr olunmuş şeir və məqalələr yazmış, Azərb. poeziyasından tərcümələr etmişdir. H.-la yaxın dostluq əlaqələri saxlamışdır. 1944 ildə Tacikistanın mədəniyyət naziri olarkən, H.-dan Tacikistanın Dövlət Himninin musiqisini yazmasını xahiş etmiş, H.- isə himnin milli tacik bəstəkarları tərəfindən yazılmasının daha məqsədəuyğun olduğunu bildirərək, himni yazacaq müəllifə hər cür köməklik göstərməyi təklif etmişdi. Təklifi məmnuniyyətlə qəbul edən T. Bakıya ezam etdiyi bəstəkarla H.-a himnin musiqisinin bəstələnməsində istifadə üçün iki tacik xalq musiqi aləti də göndərmişdi. Himn H.-un yaxından iştirakı ilə qısa müddətdə yazılmışdı.

**"TUTİ"** – həftəlik satirik jurnal. 1914-1917 illərdə Bakıda çıxmışdır. Redaktoru Cəfər Bünyadzadə idi. "T." jurnalının "qəzetçi Rza bəyləri" redaktorun H.-a xoşagəlməz şəxsi münasibətinə görə, həm də "Nicat" və "Səfa" cəmiyyətlərindən olan bədxahların fitvası ilə, heç bir əsas olmadan onu guya M.F.Axundovun, H.Zərdabinin, N.Vəzirovun dramaturgiya və teatrımızın inkişafı sahəsindəki xidmətlərini puça çıxarmaqda günahlandırır, "Leyli və Məcnun"u, "Şax Abbas"ı, "Əsli və Kərəm"i əhəmiyyətsiz operalar sayır, "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarını "xalqın əxlaqını pozan" əsərlər kimi qələmə verir, demək olar ki, jurnalın hər nömrəsində hədyanlar yazmaqla, bazar şeirləri dərc etdirməklə bəstəkarı gözdən salmağa çalışırdılar. H. "Tərəqqi və tədənni", "Boşboğazlar", "Yazıq ermənilər" və s. satiraları ilə "T."-yə kəskin cavablar vermiş, bəstəkarın yaradıcılığını yüksək qiymətləndirən C.Məmmədquluzadə isə "Molla Nəsrəddin" jurnalında (1914, №3) dərc etdirdiyi yazılarla "T."-ni və onun "təlimçilərini" susdurmuşdu.

**"...TÜRKİ-RUSİ VƏ RUSİ-TÜRKİ LÜĞƏT",** "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti" – H.-un kitabı. 1907 ildə Bakıda nəşr olunmuşdur. Lüğətin red. M.Ə.Rəsulzadə idi. Azərb.-da ilk ikidilli lüğətlərdən olan bu kitabda o zaman oxucuların mətbuatda tez-tez rast gəldikləri və xalq arasında geniş yayılmağa başlamış sosializm, inqilab, bolşevik, internasionalizm, intibahnamə, zabastovka, demokratiya və s. kimi sözlər ilk dəfə izah olunmuşdur. Məsələn, "Bolşevik" sözü belə izah edilir: "Rusiyada sosial-demokrat firqəsi iki qismə bölünür: biri bolşevik, o biri menşevik adlanır. Bolşeviklərin məramı silahlı üsyan yolu ilə dövlətin idarə üsulunu dəyişdirməkdir".

**"TÜRK OPERALARI HAQQINDA"** – H.-un məqaləsi. "Kommunist" qəzetinin 1924 il 3 oktyabr tarixli 220-ci sayında "Üzeyir Hacıbəyli" imzası ilə dərc edilmişdir. Məqalə yazıçı Tağı Şahbazinin "Kommunist" qəzetinin həmin il 203-cü sayındakı "Samit" imzası ilə dərc edilmiş məqaləsinə cavabdır. Samitin, mövcud opera və musiqili komediyalar (H.-un əsərləri nəzərdə tutulur) "bədii və musiqi gözəlliklərindən məhrumdur, özlərinin şit məzmunları ilə nəinki xalqı, hətta gənc səhnə xadimlərini tərbiyə edəcək səviyyəyə malik deyillər" iddiasına cavab olaraq, H. məqalədə həmin opera və musiqili komediyaların müəllifi kimi yalnız öz əsərlərini müdafiə etmək mövqeyindən çıxış etmir, ümumiyyətlə, Azərb. musiqili teatrının xalqın tərəqqi və tərbiyəsində, professional ifaçılığın meydana gəlməsi və inkişafındakı rolunu göstərir.



**M.Tursunzadə**

# U

**“UŞAQ ALBOMU”** – H.-un tərtib etdiyi 34 fp. pyesindən ibarət albom. İlk dəfə 1949 ildə çap edilmişdir. Albomda H.-un orijinal pyesləri ilə yanaşı, “Leyli və Məcnun”, “Əsli və Kərəm”, “Firuzə” operalarından bəzi fraqmentlərin, eləcə də xalq mahnıları və muğamların fp. üçün sadə işləmələri toplanmışdır. Əsasən, uşaqların musiqi savadının milli zəmində inkişafına xidmət edən bu albomun məziyyətlərindən biri də buradakı pyeslərin bir neçəsinin iki fp. və ya “dörd əl” üçün işlənilməsidir ki, bu da gənc musiqiçilərdə - ansambl (birgə çalğı) qabiliyyətini daha da inkişaf etdirməyə imkan verir. “U.a.”-ndan bəzi pyeslər başqa dərsliklərdə və ya müntəxəbatlarda da dərc edilib; L.Yeqorova və R.Siroviçin birgə tərtib etdiyi “Fortepiano üçün dərslik” kitabında isə ondan bütünlüklə istifadə olunmuşdur.

**UŞİNSKİ** Konstantin Dmitriyeviç (1824-1871) – rus pedaqoqu. Rusiyada pedaqogika elminin və xalq məktəblərinin banisi. Onun tərtib etdiyi “Vətən dili” və “Uşaq aləmi” dərsliklərindən Rusiyada bütöv bir nəsil təlim almışdır. Demokratizm və xəlqilik U.-nin pedaqoji görüşlərinin əsasını təşkil edirdi. Azərb. müəllimləri, o cümlədən H. pedaqoji fəaliyyətində U.-nin irsindən, xüsusilə onun ana dilinin tədrisinə dair qiymətli fikirlərindən bəhrələnmişdir. H. da U. kimi, ana dilini xalqın varlığı, yaşaması və tərəqqisi üçün qüdrətli vasitə, müstəsna təsir gücünə malik amil sayaraq deyirdi: “Bir millətin ki, dili batdı, onda o millətin özü də batar. Çünki bir millətin varlığına, isbati-vücud etməsinə səbəb onun dilidir” (“Həqiqət” qəzeti, 24 yanvar 1910, №18).

**UVERTÜRA** – musiqi-səhnə əsərlərinə orkestr müqəddiməsi, eləcə də sonata formasında müstəqil orkestr əsəri. H. “Leyli və Məcnun” operasından başlayaraq bütün opera və musiqili komediyalarına U. yazırdı. Lakin Avropa bəstəkarlığı baxımından yalnız “Koroğlu” operasının sonata formalı girişini sırf U. adlandırmaq düzgün olardı. Bir qayda olaraq, H. öz U.-larında, yazdığı əsərin ən parlaq, dramaturji cəhətdən əhəmiyyətli mövzularını əsas götürürdü: “Leyli və Məcnun”da Nofəlin mövzusu, “Arşın mal alan”da “Boynunda var sarılıq” xalq mahnısı əsasında yazılmış toy rəqsi və Əsgərin ikinci pərdədəki mahnısı, “Əsli və Kərəm”də “Kərəmi” melodiyası və s.

“Koroğlu” operasının U.-sı bu janrın klassik nümunəsidir. Burada operanın qəhrəmanlıq ideyası, xalq kütlələrinin zülmə qarşı mübarizəsi, üsyan etmiş xalq leytmotivi səslənir. Bu U. şifahi ənənəli milli musiqinin (muğamın) klassik kompozisiya quruluşunu Avropa bəstəkarlıq yaradıcılığının sonata forması ilə üzvi surətdə əlaqələndirir. “Koroğlu” operasının U.-sı Azərb.-da musiqi yaradıcılığındakı nailiyyətlərin zirvəsi sayılır. Təsadüfi deyildir ki, Azərb.-da bütün təntənəli gecələr, festivallar, bəstəkarların plenumları və s. bu “U.” ilə başlanır. H.-un U.-ları Azərb.-da bəstəkar yaradıcılığının yaranması və inkişafında mühüm rol oynamışdır.

# Ü

**ÜZEYİR GÜLÜŞÜ** – gülüş, yumor H.-un həm insan kimi təbiətinin, həm də ədəbi yaradıcılığının, o cümlədən publisistikasının başlıca keyfiyyətlərindəndir. Onu yaxından tanıyan müasirləri "bu adamda yumora, hazırcavablığa, xoş söhbətin tükənməzliyinə heyrət edirdilər" (R.Rza). Ədibin "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarının, felyeton, pamflet, satirik hekayə və miniatürlərinin mayası şən gülüşlə yoğrulmuşdur. Onun gülüş hədəfləri birinci rus inqilabının təsirilə oynayıb hərəkətə gələn xalqların milli azadlıq hərəkatını qanlı irtica dalğalarında boğmaq istəyən, kütləvi qırğın vasitələri ilə xalqlar arasında qanlı ədavət salmaqla imperiyanın xilasına əncam axtaran çar hökuməti, onun öz qarımış vücudunu saxlamaq qəsdilə "əl-ayaq çalan" dəbdən düşmüş idarə üsulu, Azərb. xalqının milli azadlıq hərəkatını, müstəqil dövlət quruculuğu arzularını boğmağa çalışan bolşevik və daşnakların şeytani əməlləri, simasız cızmaqaraçılar, Vətənin, xalqın nemətlərini daşıyıb düşmənlərinə dəyər-dəyməzinə satan xainlər, partiyabazlıq "oyunu" çıxaranlar, ali vəzifə düşkünləri idi. H. da çox bəyəndiyi "Molla Nəsrəddin" jurnalı kimi "sirləri" açır, pərdələri qovzayır, kimin kim olduğunu, hansı partiyanın hansı yolun yolçusu olduğunu açıb göstərirdi. Nə qədər ki, gənc idi, zəngin təcrübə qazanmamışdı, onun gülüşü pərdəsiz, açıq, müstəqim öldürücü idi ("Cavanşir uyezdinin pristavı Şəfibəy Fətəlibəyova açıq məktub"da olduğu kimi). Lakin mətbuat azadlığı aradan götürülüb, senzura gücləndikcə, H. da "Molla Nəsrəddin"ə, ağsaqqal müasirlərinə baxıb, "çomağın o biri başı"nı çevirdi, nümayişkaranə açıqlıq yolundan çəkinərək, Mirzə Cəlil və Sabir kimi, hər ifadəyə bir mətləb bükə-bükə, işarə və eyhamla arif oxucunu anlada-anlada, "qızım, sənə deyirəm, gəlinim, sən eşit" üsulu, məsxərə yolu ilə gülməyə başladı. H. şit gülüşü sevmirdi. Onun gülüşü məna dolu, düşündürən gülüş idi. Ədibin satira "kotanı" alaq otlarını üzdən yolmur, dərindən şumlayırdı. H. tənqid hədəfinə münasibətindən asılı olaraq gülüşünə bəzən həlim yumor da qatırdı. Onun yumor dili duzlu və məzəli idi. Oxucularının fəhminə inandığı üçün o, ürəyindəkiləri onlara bəzən incə zarafatla qandırırdı. H.-un gülüşü mahiyyətcə demokratik gülüş idi. Bu, ümumiyyətlə, müasirlərinin müstəqil düşünmək, yaxşını yamandan seçmək qabiliyyətinə inam, ədibin doğma xalqına onun fəzilətli olduğunu özünə anlatmaq, inandırmaq arzusu ilə bağlı idi. H. 1906-1917 illərdə dövrünün müxalifətçi yazıçılarından idi. Onun gülüşü cəmiyyətin sosial-siyasi əsaslarını dağıtmağa xidmət edirdi. 1918-1920 illər gülüşü isə mahiyyətcə tamam özgə gülüş idi.

**ÜZEYİR HACIBƏYOV VƏ KİNO** – sənətşünas Aydın Kazımzadənin 2005 ildə Ü.Hacıbəyovun 120 illiyi münasibətilə nəşr etdirdiyi kitabdır. Kitabda Ü.Hacıbəyovun "Arşın mal alan" və "O olmasın, bu olsun" operettasının kino taleyindən, filmlərin yaradıcılığından müfəssəl bəhs olunur. Kitabda həm də Ü.Hacıbəyov haqda çəkilmiş bir neçə sənədli və bədii filmlər haqda da fəsillər vardır.

**ÜZEYİRKƏND** (1950 ilədək Ovşar) – Azərb. Resp.-nın Ağcabədi r-nunda kənd. R-n mərkəzindən 12 km c.-da, Mil düzündədir. Əhalisi pambıqçılıq, taxılçılıq, baramaçılıq və heyvandarlıqla məşğuldur. H.-un şərəfinə adlandırılmışdır.

**ÜZEYİR MUSİQİ GÜNÜ** – hər il sentyabr ayının 18-də H.-un doğum günü ilə bağlı keçirilən təntənəli mərasim. Azərb. Resp.-nın prezidenti Heydər Əliye-





**“Üzeyir ömrü”** filmindən kadrlar.

vin "Üzeyir musiqi gününün keçirilməsi haqqında" fərmanı ilə mərasim rəsmi status almışdır. H.-un 110 illik yubileyi ilə bağlı verilən bu fərmanda "Azərb. musiqi sənətinin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq, böyük sənətkara xalq ehtiramını və məhəbbətini təcəssüm etdirmək məqsədilə" hər il sentyabr ayının 18-də Üzeyir musiqi gününün keçirilməsi Azərb. Resp.-nın Mədəniyyət Nazirliyinə həvalə olunmuşdur. Həmin gün dahi bəstəkarın xatirəsinə həsr edilmiş silsilə tədbirlər respublika miqyasında həyata keçirilir. Bakıda mərasim şəhərin bütün musiqi meydançalarını və dənizkənarı parkı əhatə edir. Bir qayda olaraq, H.-un qəbrinin ziyarət olunmasından sonra mərasimin əsas hissəsi Bakı Musiqi Akademiyası qarşısında yerləşən H. abidəsi önündə cərəyan edir.

**"ÜZEYİR ÖMRÜ"** (rus variantında "Üzeyir Hacıbəyov. Uzun ömrün akkordları") – iki seriyalı bədii televiziya filmi. Keçmiş SSRİ Mərkəzi Televiziyasının sifarişi ilə çəkilmişdir. Ssenari müəllifi və quruluşçu rej. Anar, operator Zaur Məhərrəmov, rəssam Rafis İsmayılovdur. Film H.-un ömür yolunun müxtəlif mərhələlərini əhatə edir, eləcə də onun əsərlərini ("Leyli və Məcnun", "Koroğlu", "Əsli və Kərəm", "Arşın mal alan", "Ər və arvad", "O olmasın, bu olsun") ekranda canlandırır. H.-un uşaqlığını Yalçın Əfəndiyev, yetkin və yaşlı çağlarını Hüseynağa Atakişiyev ifa edir. Filmdə H.-un müasirlərinin, sənət dostlarının – X.Natəvan (Nəcibə Məlikova), H.Zərdabi (Əli Zeynalov), Ə.Haqverdiyev (R.Rüstəmzadə), H.Ərəblinski (Mikayıl Kərimov), H.Sarabski (Mikayıl Mirzə), Q.Pirimov (Ramiz Quliyev), M.Maqomayev (Məmməd Məmmədov), Z.Hacıbəyov (Yaşar Nuri), Ş.Məmmədova (Maya İsgəndərova), Məleykə xanım (Həmidə Ömərova) və b.-nın obrazları yaradılmışdır. Tamaşaçılar ekranda H.Sarabskini, Bülbülü, Ş.Məmmədovanı, R.Behbudovu, Z.Xanlarovanı, M.Maqomayevi (nəvə) görür və dinləyirlər. Filmə daxil edilmiş Aparıcı surəti (Tofiq Mirzəyev) onu bədii-sənədli araşdırma, tele-esse janrının nümunəsi kimi qiymətləndirməyə imkan verir. Film dəfələrlə Rusiya və Azərb. televiziyaları ilə nümayiş etdirilmiş, haqqında çoxlu resenziyalar dərc olunmuşdur.





**"Üzeyir ömrü"** filmindən kadrlar.

# V



B.Vahabzadə

**VAHABZADƏ** Bəxtiyar Mahmud oğlu (d. 1925) – şair, dramaturq, publisist, ictimai xadim. Azərb. xalq şairi (1984). əməkd. inc. xad. (1974), Filologiya e.d. (1964), Azərb. EA m. üzvü (1980). SSRİ (1984) və Azərb. (1976) Dövlət, mükafatları laureatı. Lirik şeirlərin, ailə-məişət, mənəvi-əxlaqi, ictimai-siyasi mövzularda poemaların (“Gülüstan” (1959) və s), “İkinci səs”, “Yollara iz düşür”, “Dar ağacı”, “Fəryad” və s. pyeslərin, publisistik, ədəbi-tənqidi məqalə və ədəbiyyatşünaslıq əsərlərinin müəllifidir. H. sənətinin pərəstişkarı olan V. bəstəkarın xatirəsinə həsr olunmuş “Sənsiz də yaşadar bu dağlar səni”, “Əşyalar danışır” şeirlərini yazmışdır. “Muğam” (1974) poemasını H.-ə ithaf etmişdir.



Ə.Vahid

**VAHİD** (Əlağa Məmmədqulu oğlu İsgəndərovun təxəllüsü; 1895-1965) – şair, Füzuli ədəbi məktəbinin sonbeşiyi. Azərb. əməkdar inc. xad. (1943). V. İkinci Dünya müharibəsi illərində H.-un rəhbərlik etdiyi təbliğat qatarları ilə resp.-nın rayonlarında olmuş, xalqı Vətənin müdafiəsinə səsləmişdir. H. Şairə xüsusi qayğı ilə yanaşır, yaradıcılığını yüksək qiymətləndirir, onunla yaradıcılıq əməkdaşlığı edirdi. Bəstəkar 1941 ildə yazmışdı: “...”İsgəndərnamə” poeması süjetində eyni adda bir opera yazmaq fikrindəyəm. Operanın librettosunu özüm yazıram; mənzum mətnini şair Ə. Vahid yazacaqdır” (“Kommunist” qəzeti, 1941, №1).

**VAİZZADƏ** Mirzə Rza (1874-1935) – rejissor, aktyor. 20 əsrin əvvəllərində N.Nərimanov və H.-un köməyi ilə Təbrizdə yaradılmış ilk, nisbətən müasir tipli teatr truppasının təşkilində yaxından iştirak etmiş və onun rej. olmuşdur. Birinci Dünya müharibəsi dövründə Türkiyəyə və Zaqafqaziyaya müsafirət etmiş, Bakıda olarkən H.-la da görüşmüşdür. 1920 ildə Təbrizdə yaradılmış “Xeyriyyə teatrı”nın müəssislərindəndir. H.-un musiqili komediyalarında Məşədi İbad (“O olmasın, bu olsun”), Soltan bəy (“Arşın mal alan”), və s. rolları məharətlə ifa etmişdir.

**VAMBERİ** Armin (1832-1913) – macar şərqşünası, türkoloq, dilçi, etnoqraf və səyyah. Macarıstan EA m. üzvü (1861), Budapeşt un-tinin prof. (1865). Bir çox Avropa və Şərq dillərini öyrənmiş, XIX əsrin 60-cı illərində dərviş libasında Şərq ölkələrini gəzmişdir. Türkologiyaya dair əsərləri bir sıra dillərə, o cümlədən “Əmir Teymur” əsəri 1916 ildə Azərb. dilinə tərcümə olunmuşdur. H. onun həyat və fəaliyyəti, səyahətləri ilə maraqlanmış, redaktorluq etdiyi “Həqiqət” qəzetində haqqında silsilə məqalələr dərc etdirmişdir. “Öz halımızdan” məqaləsində V.-ni yüksək qiymətləndirərək, onu “məşhur müstəşriq” (şərqşünas - red,), “elm və mədəniyyət üçün lazımlı adam” adlandırmışdır.

**VƏLİ** – “Arşın mal alan” musiqili komediyasında personaj. V. özünün bir sıra xüsusiyyətləri ilə klassik Azərb. ədəbiyyatında yaradılmış nökər obrazlarından fərqlənir. V. hazırcavabdır, vəziyyəti yerində və məqamında qiymətləndirməyi bacarır, ağasının mənafeyini müdafiə etməklə bir sırada özünü də düşünür. Komediyadakı V. - Telli dueti hər iki personajın sadəliyi, təmizliyi, xəlqiliyi, eyni zamanda onların həyata münasibətləri haqqında təsəvvür doğurur. H.-un seçdiyi dəqiq, yerində işlənmiş səciyyəvi ştrixlər sayəsində pyesdə epizodik bir yer tutmasına baxmayaraq, V. yadda qalır və sevilir. Onun öz ağlı, fitri bacarığı və fərasə-



**L.Abdullayev** Vəli rolunda.

ti ilə "nücəbalarla" bir sırada dayanması H.-un sadə xalqın, kütlənin nümayəndəsi kimi bu personaja xüsusi diqqət və simpatiyasından irəli gəlir. İlk tamaşada (1913) V. rolunu Xəlil Hüseynov ifa etmişdir. "Arşın mal alan" bədii filmində (1945) görkəmli komediya ustası L.Abdullayev V.-nin uğurlu ekran təcəssümünü yaratmışdır.

**"VƏTƏN, MİLLƏT, ORDU"** – Ü.Hacıbəyovun vətənpərvərlik mahnıları toplusudur. Bəstəkarın 120 illik yubileyi münasibətilə nəşr olunan bu kitaba ilk dəfə olaraq "Milli Marş", "Çırpınırdı Qara dəniz", "Ordu Marşı", "Səni gözləyir" kimi əsərlər daxil edilmişdir. 10 mahnıdan ibarət olan bu toplunun tərtibçisi və redaktoru Sərdar Fərəcovdur.

**"VƏTƏN ORDUSU"** – H.-un Səməd Vurğunun sözlərinə bəstələdiyi vətənpərvərlik mövzulu mahnı. İlk dəfə 1942 ildə "Kommunist" nəşriyyatı tərəfindən "Döyüşçü mahnıları" məcmuəsində nəşr olunmuşdur. 1985 ildə "İşıq" nəşriyyatında çapdan buraxılmış "Odlu illərin mahnıları" məcmuəsinə də daxil edilmişdir.

**"VƏTƏN VƏ CƏBHƏ"** H.-un kantatası (1942). Kantatanın ədəbi mətni də H.-undur. Solist, xor və simf. ork. üçün yazılmışdır. Əsərin ən məşhur hissəsi xalq tərəfindən daha çox sevilən "Yaralı əsgərin hekayəti"dir. "Yaralı əsgərin hekayəti" sonralar müstəqil əsər kimi də tez-tez ifa edilirdi.

**"VƏZİFEYİ-MUSİQİYYƏMİZƏ AİD MƏSƏLƏLƏR"** – H.-un məqaləsi. "Sənayeyi nəfisə" jurnalının 1921 il tarixli 1-ci sayında Azərb. və rusca dərc olunmuşdur. Məqalədə musiqi sənətinin təkamül və tərəqqisi yollarından danışılır. Müəllif musiqi sənətinin qarşısında duran vəzifələrin tezliklə həyata keçirilməsinin vacibliyini, musiqi təhsili sistemində dünya musiqi mədəniyyətinin öyrənilməsinin milli musiqinin tərəqqisinə xidmət edəcəyinə göstərmişdir. Məqalədə türk dilində musiqiyə dair dərs vəsaitlərinin çap edilməsi, müəllim çatışmazlığı, azərbaycanlıların musiqi təhsilinə cəlb edilməsi və s. məsələlərə də toxunulmuşdur.

**VƏZİROV** Haşım bəy Miriman oğlu (1868-1916) – jurnalist, yazıçı, naşir. İrəvan müəllimlər seminariyasını bitirmiş, İrəvan, Bərdə, Şəki və Şuşada müəllimlik etmişdir. 1907 ildən Bakıda jurnalist kimi tanınmış, bir müddət "İrşad" qəzetində redaktoru əvəz edəndən sonra, "Tazə həyat" qəzetini nəşr etdirmiş, müxtəlif illərdə "İttifaq", "Səda", "Sədayi-həqq", "Sədayi-Qafqaz" qəzetlərinin redaktoru olmuşdur. "İrşad"ın əməkdaşları ilə ixtilaf aparmışdır. H. "İrşad"çının cavabı" məqaləsi ilə ona kəskin cavab vermişdir. V. 1914-1915 illərdə redaktoru olduğu "Məzəli" jurnalında H.-u dəfələrlə tənqid etmiş, bəstəkarı hörmətdən salmağa çalışmışdır. "Leyli və Məcnun" operası haqqında ilk rəyin müəllifidir.

**VƏZİROV** Nəcəf bəy Fətəli bəy oğlu (1854-1926) – dramaturq, publisist, teatr xadimi, Bakıda realni gimnaziyanı (1874), Moskvada Petrovski-Razumovski Əkinçilik Akademiyasını (1878) bitirmişdir. Azərb.-da professional teatrın yaradıcılarındandır; 1873 ildə H.Zərdabinin rəhbərliyi və V.-un fəal iştirakı ilə Bakıda M.F.Axundovun "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyaları tamaşaya qoyulmuşdur. "Müsibəti-Fəxrəddin" faciəsinin, "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qənbər"), "Pəhləvanani-zəmanə" komediyalarının və digər dramatik əsərlərin müəllifi, publisist kimi şöhrət tapmışdır. H. "Həyat" redaksiyasında tərcüməçi vəzifəsində çalışarkən, V. bu qəzetdə "Dərviş" imzası ilə satirik miniatürlərini dərc etdirirdi. 1905 il noyabrın 18-



**N.Vəzirov**

də Bakıda Ə.Ağaoğlunun və V.-un təşəbbüsü ilə çağrılan müsəlman mitinqində H. da iştirak və çıxış etmişdir. ("Həyat" qəz., 23 noyabr 1905, №105). H. Nəcəf bəyə böyük ehtiram bəsləyir, onu "mənəvi ata" adlandırır, özünün "yolgöstərəni" (rəhnüma) sayırdı. 1913 ildə V.-un ədəbi yaradıcılığının 40 illiyi qeyd olunarkən göndərdiyi teleqramda H. yazmışdı: "Nəcəf bəy Vəzirov cənabları, siz həmişə diri qalacaqsınız. Dünyada siz əkdiyiniz ağacların meyvələrinin toxumlarını külək müsəlman aləminin səhralarına səpib, göyərdib minlərcə Nəcəf bəylər yetirib, gözəl niyyətlərinizi daha da rövnəqləndirəcəklər. Sizin adınız tarixlərin vərəqlərində səbt olub, dillərdə zikr olunacaqdır".

**VİNOQRADOV** Viktor Sergeyeviç (1899-1981) – rus musiqişünası. Şərq xalqlarının musiqi mədəniyyətini tədqiq edirdi. H. haqqında ilk monoqrafiyanın ("Узеир Гаджибеков и азербайджанская музыка", M., 1938) müəllifidir. Monoqrafiyada Azərb. musiqi mədəniyyətinin tarixi inkişafında H. yaradıcılığının əhəmiyyəti göstərilir, muğam və aşıq musiqisi, Azərb.-ın mahnı - rəqs yaradıcılığı, məqam-lad sistemi xarakterizə edilir. Bəstəkar haqda yazdığı ikinci monoqrafiyasında ("Узеир Гаджибеков", M., 1947) H.-un yaradıcılıq yolu və əsas musiqili səhnə əsərləri tədqiq olunur. V.-un bu əsərləri H.-un həyat və yaradıcılığının tədqiqinin əsasını qoymuşdur.

# Y



**H.Yagizarov** "Arşın mal alan" filmində Süleyman rolunda.

**YAGİZAROV** Hacı Murad Hacı Əhmədoviç (d. 1939) – teatr və kino aktyoru. Azərb. xalq art. (1982). Azərb. Dövlət mükafatı laureatı (1986). 1958 ildən S. Vurğun ad. Azərb. Dövlət Rus Dram Teatrının aktyorudur. "Arşın mal alan" (1965) filmində Süleyman roluna çəkilmişdir.

**"YAXŞI YOL"** – H.-un vətənpərvərlik mövzusunda səs və fp. üçün bəstələdiyi kütləvi mahnı (1942). Mahnının sözləri Süleyman Rüstəmindir. 1942 ildə "Döyüşçü mahnıları", 1943 ildə "Zəfər bizimdir" məcmuələrində, eləcə də 1956, 1975, 1985 illərdə çap olunmuşdur. Mahnı sonralar fp. üçün konsert pyesi kimi, eləcə də tar və kamança üçün işlənmişdir.

**"YENİ İQBAL"** – gündəlik ictimai, iqtisadi və siyasi qəzet. 1915-1917 illərdə Bakıda çıxmışdır. H. 1915 il sentyabrın 18-dən qəzetin redaktoru, oktyabr ayının 11-dən 1916 il fevralın 19-dək onun sahibi və baş redaktoru olmuşdur. Qəzetin 1915 ildə 76 (№120-196), 1916 ildə isə 33 (№197-229) sayı bilavasitə H.-un rəhbərliyi ilə nəşr olunmuşdur. H. "Y. İ."-da çalışdığı dövrdə onunla müxalifətdə olanlara, "opera dramın evini yıxdı" deyənlərə qarşı "Tərəqqi və tədənni", "Yazıq ermənilər", "İş görək", "Küyçülük", "Biz qızışırıq", "Səs-küy, qalmaqal" və s. başlıqlı publisist yazıları ilə kəskin mübarizə aparmış, "Dayaq" felyetonunda Bakı dumasının bivec qlasnılarını tənqid atəşinə tutmuşdur.

**YERMAKOVA** Mariya Frolovna (səhnə təxəllüsü Məxfurə xanım; 1900-1980) – aktrisa. Azərb. əməkdar art. (1936). Yaradıcılığa 1917 ildə Z. və Ü.Hacıbəyov qardaşlarının truppasında başlamış, opera, musiqili komediya və dram tamaşalarında çıxış etmişdir. H.-un əsərlərində Gülçöhrə, Xurşidbanu ("Arşın mal alan", "Şah Abbas və Xurşidbanu") rollarını oynamışdır.

**YUNİS NURİ** ("Yunis Hacı Süleyman oğlu Süleymanovun təxəllüsü; 1873-1950) – aktyor. Erm. əməkdar art. (1935). Aktyorluğa 1896 ildə başlamış, 1916 ildə İrəvanda Azərb. teatr kollektivi təşkil olunmasının təşəbbüsçüsü, İrəvan Azərb. teatrının yaradıcılarından olmuşdur. Həmin teatrın səhnəsində H.-un "Arşın mal alan" və "O olmasın, bu olsun" musiqili komediyalarında Soltan bəy və Məşədi İbad rollarını oynamışdır.

**YUSİFBƏYLİ** Nəsib bəy (1881-1920) – ictimai-siyasi və dövlət xadimi. Odessa un-tinin hüquq fakültəsində oxumuşdur. 1917 ildə Gəncədə Türk Ədəmi Mərkəziyyət Partiyasının yaradıcılarındandır. ADR dövründə (1918-1920) maarif naziri, 1919 ilin aprelindən 1920 ilin aprelinədək isə Baş nazir və daxili işlər naziri olmuşdur. ADR-in süqutundan sonra mühacirətə gedərkən Yevlaxın Qarxun k.-ndə Azərb. xalqının düşmənləri tərəfindən xaincəsinə qətlə yetirilmişdir. H. "Azərbaycan" qəzetindəki publisist məqalələrində Y.-nin xalq maarifinin inkişafı, məktəblərin yeniləşdirilməsi sahəsindəki fəaliyyətini, görülən tədbirləri yüksək qiymətləndirmiş və təbliğ etmişdir.

# Z

**ZAQAFQAZİYA RESPUBLİKALARI MUSİQİ SƏNƏTİ ONGÜNLÜYÜ (DEKADASI)** – Zaqafqaziya resp.-larının (Azərb., Ermənistan və Gürcüstan) 1944 ildə Tbilisidə keçirilən musiqi ongünlüy Ü.H. bu ongünlüyün təşkilatçılarından biri olmuşdur. Tbilisiyə üç respublikanın musiqi kollektivləri, bəstəkarları, musiqişünasları, musiqi ifaçıları, habelə başqa resp.-lardan və xarici ölkələrdən gəlmiş qonaqlar toplanmışdı. Ongünlüyün proqramında Azərb. musiqisi - H., Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Əfrasiyab Bədəlbəyli və b.-nın əsərləri mühüm yer tuturdu. Ongünlükdə H.-un "Vətən və cəbhə" kantatası xüsusilə yüksək qiymətləndirilmişdi.



A.Zeynallı

**ZAMANOV** Abbas Fəttah oğlu (1911-1993) – ədəbiyyatşünas, tənqidçi, mətnşünas. Filologiya e.d. (1966), prof. (1971), Azərb. EA m. üzvü (1986). 1941-45 illər müharibəsi dövründə Azərb. Dövlət Filarmoniyasına və AOBT-na rəhbərlik etmiş, bu dövrdə H.-la daim təmasda olmuş, ondan məsləhətlər almışdır. Müharibədən sonra elmi fəaliyyətlə məşğul olmuş, 20 əsr Azərb. ədəbiyyatına dair tədqiqatlar aparmışdır. Tədqiqatlarında H.-dan da bəhs edilmişdir. "Xalqın özü" (1975) məqaləsində H.-un publisistikasını yüksək qiymətləndirərək, onu "Azərbaycan mətbuatının banilərindən biri" adlandırmış, dramaturgiyasının məziyyətlərindən yazmışdır. "Azərbaycan" qəzeti haqda sovet dövründə ilk məqaləni yazmış (1984), H.-un redaktorluq fəaliyyətinin və ictimai fikirlərini tədqiq etmişdir.



A.Zamanov

**ZEYDMAN** Boris İsaakoviç (1908-1981) – bəstəkar, pedaqoq. Azərb. əməkdar inc. xad. (1956). "Maskarad" (1945), "Ağıldan bəla" (1949) operalarının, "Qızıl açar" (1957) baletinin, musiqili komediya və s. əsərlərin müəllifidir. H.-un dəvəti ilə Peterburqdan Bakıya gəlmiş, ADK-nda dərs demiş (1940-60), bir çox Azərb. bəstəkarlarının (F.Əmirov, S.Hacıbəyov, E.Nəzirova, Ə.Abbasov, C.Cahangirov və b.) müəllimi olmuşdur. H.-la yaxından əməkdaşlıq etmişdir.



C.Zeynalov

**ZEYNALLI** Asəf Zeynalabdin oğlu (1909-1932) – bəstəkar. ADK-nın bəstəkarlıq sinfini bitirmiş (1931), burada Azərb. xalq musiqisinin əsaslarını H.-dan öyrənmişdir. Simfonik, kamera-vokal və instrumental əsərlərin ("Ölkəm", "Sual", "Seyran", "Sərhədçi", "Çadra" romansları, fp. üçün fuqalar, pyeslər, skripka və fp. üçün pyes və s.) müəllifidir. 1928 ildən ADK nəzdindəki musiqi məktəbində musiqi nəzəriyyəsindən dərs demişdir. H. onun yaradıcılığını yüksək qiymətləndirirdi. 1933 ildə Z.-nın vəfatının ildönümü münasibətilə etdiyi məruzədə H. onun vaxtsız ölümünə ürək yanğısı ilə təəssüflənərək demişdi: "...o, olduqca böyük, orijinal və dərin düşüncəli bir bəstəkar ola bilərdi.

**ZEYNALOV** Bəhruz Mahmud oğlu (1926-?) – balabançı və klarnetçalan. Azərb. əməkdar art. (1981). Azərb. xalq çalğı alətləri ork.-nin solistidir. Repertuarında H.-un "Sənsiz" və "Sevgili canan" romansları mühüm yer tutur.

**ZEYNALOV** Cahangir Məşədi Rza oğlu (1865-1918) – aktyor, teatr xadimi, pedaqoq. Azərb. professional teatrının banilərindən biri. Səhnə fəaliyyətinə 1885 ildə Bakıda başlamışdır. H.-un "O olmasın, bu olsun" musiqili komediyasında çıxış etmişdir. Rej. kimi də fəaliyyət göstərmişdir. Azərb. teatr sənətinin inkişafında mühüm rol oynamışdır. 1906 ildə "Ni-

cat" cəmiyyəti nəzdindəki teatr truppasının təşkilində fəal iştirak etmiş, truppaya maddi yardım göstərmiş, "Nicat" və "Səfa" cəmiyyətləri nəzdindəki teatr bölmələrinin rəhbəri olmuşdur.

**ZEYNALOV** İbrahim İsmayıl oğlu (d. 1934) – heykəltəraş. Azərb. xalq rəs. (1988). SSRİ (1972) və Azərb. (1976) Dövlət mükafatları laureatı. 1994-2002 ildən Azərb. Dövlət İncəsənət Muzeyinin direktoru. Heykəltəraşlığın müxtəlif janrlarında əsərləri var. H.-un portretini yaratmışdır (1976).

**ZEYNALOV** Telman Heydər oğlu (1931-?) – heykəltəraş. Azərb. əməkdar inc. xad. (1992). Heykəltəraşlığın müxtəlif janrlarında fəaliyyət göstərir. H.-un anadan olmasının 100 illiyi münasibətilə "Ü.Hacıbəyov" yubiley medalını hazırlamışdır (1985).

**ZEYNALOVA** Nəsibə Cahangir qızı (1917-2004) – aktrisa. Azərb. xalq art. (1967). Azərb. Dövlət mükafatı laureatı (1974). C.Zeynalovun qızıdır. 1941 ildən Azərb. Musiqili Komediya Teatrının



**N.Zeynalova** Cahan xala rolunda.

(1948-56 illərdə fasilələrlə) aktrisası olmuşdur. Bu teatrda səhnəyə qoyulmuş "Arşın mal alan" musiqili komediyasında "Cahan xala obrazını böyük məharətlə yaratmışdır.

**ZEYNALOVA** Fatma Rza qızı (1907-1973) – musiqişünas, pedaqoq, H.-un yetirməsi olan Z. Azərb. Türk Musiqi Məktəbində təhsil almışdır. Sonralar Bakıdakı 1 №-li musiqi məktəbinin təşkilatçısı və direktoru olmuş, burada uzun illər Azərb. dilində musiqi nəzəriyyəsindən dərs demişdir.

**"ZƏNBUR"** – həftəlik ədəbi, ictimai, illüstrasiyalı satirik jurnal. 1909-10 illərdə Bakıda çıxmışdır. Jurnalda Azərb. teatrına, səhnə sənəti ustalarına, o cümlədən H.-a qarşı haqlı-haqsız hücumlar edilirdi. H. "Z." jurnalı haqqında rəy yazmış ("Yazıq qələm, yazıq oxucular, yazıq ədəbiyyat ki, tərbiyəsizlər əlinə düşübdür! Nifrət, nifrət olsun müqəddəs qələmi qərəzişəxsi aləti edənlərə, nifrət!"), həm də mətbuatda "Zənburçu"lara açıq məktubla çıxış etmişdir.

**ZƏRDABİ** (Məlikov) Həsən bəy Səlim bəy oğlu (1842-1907) – maarifçi, demokrat, təbiətşünas alim, publisist və pedaqoq. Moskva un-tinin fizika-riyaziyyat fakültəsinin təbiiyyat şöbəsini bitirmişdir (1865). Z. Azərb.-da professional teatrın və demokratik mətbuatın yaradıcısıdır. 1875-77 illərdə "Əkinçi" qəzetini nəşr etdirmişdir. "Həyat" qəzeti redaksiyasında işlərkən "Əkinçi"nin məşhur redaktoru Z. ilə şəxsi tanışlığı, yaxın ünsiyyəti H.-un dövri mətbuata dair görüşlərinin zənginləşməsində mühüm rol oynamışdır.

Hənifə xanım Məlikovanın və Fərhad Ağazadənin xatirələrində Z. ağır xəstə olarkən onu yoluxmağa gələn gənc H.-a səhnədə artistlərin hərəkət etməsi və oxuması üçün əsər (opera) bəstələmək haqqında işarə ilə məsləhət verdiyi qeyd edilir.

**ZÖHRABOV** Ramiz Fərzulla oğlu (d. 1939) - musiqişünas, pedaqoq, ictimai xadim, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi (1990), sənətşünaslıq doktoru (1994), professor (1992). 1968-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyasında) dərs deyir. 1989-cu ildən "Xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasının müdiridir. Azərbaycan Bəstəkarlar İttifaqının katibidir (1990-cı ildən).

R.Zöhrabov şifahi ənənəli Azərbaycan professional musiqi janrlarının nəzəri problemlərinə, Azərbaycan bəstəkarlarının yaradıcılığına dair 20 kitabın, 350 elmi-publisistik məqalənin, bir sıra müxtəlif janrlı musiqi əsərlərinin müəllifidir. O, öz nəzəri müddəalarında Ü.Hacıbəyovun lad-məqam konsepsiyasına əsaslanır ("Zərbi



**İ.Zeynalov**



**H.Zərdabi**



**N.Zeynalova**



**R.Zöhrabov**

muğamlar", "Azərbaycan təsnifləri" (rusca), "Muğamın nəzəri problemləri", "Azərbaycan rəngləri" və s.).

R. Zöhrabov "Muğam" monoqrafiyasında Ü.Hacıbəyovun muğamlardan bəhrələnmə yollarını araşdırmışdır. Qələmə aldığı "Bəstəkarlarımız haqqında söz" toplusundakı (1995) "Üzeyir Hacıbəyov və Azərbaycan xalq musiqisi" oçerkinin müəllifidir.

**ZÜLALOV** Qəmbər Əbdül oğlu (1895-1976) – müğənni. Azərb. əməkdar art. (1958). Ə.K.Zülalovun qardaşı oğlu. Müğənniliyə 1917 ildə Şuşada başlamışdır. 1926-75 illərdə AOBT-nın solisti olmuş, burada H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" operalarında Məcnunun atası, paşa, Nadir partiyalarını ifa etmişdir.

**ZÜLALOV** Əbdülbağı Kərbəlayı Əli oğlu (təxəllüsü Bülbülcan) (1841-1927) – xanəndə. İlk musiqi təhsilini Şuşada Xarrat Qulunun məktəbində almışdır. Geniş diapazonlu, məlahətli səsə, güclü zəngulələrə malik sənətkar idi. 1920 ildən Bakıya köçmüş, "Qısa müddətli Şərq musiqisi kursları"nda ("Şərq konservatoriyası"), 1923 ildən H.-un təşkil etdiyi Azərb. Dövlət Türk Musiqi Məktəbində muğamatdan dərs demişdir. H. müğənninin istedadını yüksək qiymətləndirərək yazmışdı: "...tarzən Sadıqların, xanəndə Əbdülbağilərin adları və sədaları Qafqazın hər yerində məşhur olub beynəlmiləl bir mahiyyətdə ad qazanmışlar".

**ZÜLALOV** Əli Əbdül oğlu (1893-1963) – opera müğənnisi. Azərb əməkdar art. (1940). Q.Zülalovun qardaşı, Ə.K.Zülalovun qardaşı oğludur. Səhnə fəaliyyətinə 1917 ildən başlamış, 1952 ilədək AOBT-nda çıxış etmişdir. Gur, xarakterik səsi var idi. "Koroğlu" operasında Ehsan paşa rolunun ilk ifaçısı olmuşdur. H.-un "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarında Leylinin atası və paşa rollarını ifa edirdi.

**ZÜLFÜQAROVA** Xumar Rza qızı (1927-?) – rəqqasə, baletmeyster. Azərb. xalq art. (1979). 1945-66 illərdə AOBT-nın solisti olmuş, H.-un "Koroğlu" operasında çıxış etmiş, bir sıra tamaşalarda rəqslərin quruluşunu vermişdir. Azərb. Dövlət Rəqs ansamblı üçün "Koroğlu" operasında rəqs hazırlamışdır.

# Üzeyir Hacıbəyovun
# həyat və yaradıcılıq salnaməsi

## 1885

**5(18) sentyabr** – Əbdülhüseyn bəy və Şirinbəyim xanım Hacıbəyovların ailəsində Üzeyir Hacıbəyov anadan olmuşdur.

## 1897

– Şuşada Ə.Haqverdiyevin təşəbbüsü və rəhbərliyi ilə M.Füzulinin "Leyli və Məcnun" poeması əsasında göstərilmiş "Məcnun Leylinin məzarı üstündə" adlı musiqili səhnəcikdə H. xor dəstəsində iştirak etmişdir.

## 1899

– H. Şuşada Haşım bəy Vəzirovun müdir olduğu rus-tatar məktəbini bitirmişdir.

**Avqust** – H. Qori müəllimlər seminariyasına qəbul olunmuşdur.

## 1904

**İyun** – H. Qori müəllimlər seminariyasını bitirib, ibtidai məktəb müəllimi diplomu almışdır.

**1904-1905**

– H. Hadrut kənd məktəbində müəllim işləmiş, burada rus dili, hesab, tarix və musiqidən dərs demişdir.

**1905**

– H. Bakı şəhərinə köçmüşdür. Ədəbi-publisistik fəaliyyətə başlayaraq "Həyat" qəzetində tərcüməçi işləmişdir.

**17 dekabr** – Həmin gündən nəşr edilməyə başlayan "İrşad" qəzetinin əməkdaşı olmuşdur.

**1905-1907**

– Bakı şəhəri yaxınlığındakı Bibiheybət kənd məktəbində ana dili, rus dili, riyaziyyat, coğrafiya və musiqi müəllimi olmuşdur.

**1907**

– "Leyli və Məcnun" operası üzərində işə başlamışdır.

– H.-un tərtib etdiyi "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti" Orucov qardaşlarının mətbəəsində çapdan çıxmışdır.

– "Hesab məsələləri" kitabını yazmışdır.

**1908**

**12 yanvar** – Professional Azərb. musiqisinin əsasını qoymuş "Leyli və Məcnun" operasının ilk tamaşası olmuşdur.

– Üzeyir bəy "İrşad" qəzeti redaksiyasında jurnalistlik fəaliyyətini davam etdirmişdir.

– H. “Səadət” müsəlman xeyriyyə cəmiyyətinin açdığı eyni adlı məktəbdə rus dili, hesab və təbiyyat fənlərindən dərs demişdir.

**3 iyul** – H. “Tərəqqi” qəzeti ilə əməkdaşlıq etmişdir. 1909 il iyunun 28-də Əhməd bəy Ağaoğlu xaricə getdikdən sonra həmin ilin oktyabrınadək (qəzet çar hökuməti tərəfindən bağlananadək) H. qəzetin redaktoru olmuşdur.

**1909**

**30 noyabr** – Bakıda “Şeyx Sənan” operasının ilk tamaşası olmuşdur.

**20 dekabr** – H. Məleykə xanım Terequlova ilə evlənmişdir.

**25 dekabr** – H. Bakıda çıxan “Həqiqət” qəzetinin naşiri və baş redaktoru olmuş, 121 sayınadək qəzetə rəhbərlik etmişdir.

**1910**

**24 may** – Bakıda “Ər və arvad” musiqili komediyasının ilk tamaşası olmuşdur.

**30 may** – “Həqiqət” qəzetinin redaktoru vəzifəsindən imtina etmişdir.

**12 noyabr** – Bakıda “Rüstəm və Söhrab” operasının ilk tamaşası olmuşdur.

**1911**

**25 aprel** – Bakıda “O olmasın, bu olsun” musiqili komediyasının ilk tamaşası olmuşdur.

## 1912

**10 mart** – Bakıda "Şah Abbas və Xurşidbanu" operasının ilk tamaşası olmuşdur.

**18 may** – Bakıda "Əsli və Kərəm" operasının ilk tamaşası olmuşdur.

**Sentyabr** – H. musiqi təhsili almaq üçün Moskvaya getmiş, Moskva filarmonik cəmiyyəti nəzdində İlyinskinin xüsusi musiqi kursunda təhsil almışdır. Moskvadan göndərdiyi satirik hekayə və felyetonlar "İqbal" qəzetində dərc olunmuşdur.

## 1913

– Maddi ehtiyac üzündən H. Moskvada musiqi təhsilini yarımçıq qoyub, Bakıya qayıtmışdır.

**Avqust** – H. Peterburq şəhərinə gedərək, Peterburq konservatoriyasına daxil olmağa hazırlaşmışdır.

– H. "Arşın mal alan" musiqili komediyası üzərində işləmişdir.

**25 oktyabr** – Bakıda "Arşın mal alan" musiqili komediyasının ilk tamaşası olmuşdur.

## 1914

**4 yanvar** – H. Peterburq konservatoriyasına qəbul olunmuşdur.

**İyun** – H. təhsilini yarımçıq qoyub, Bakıya qayıtmışdır.

– "Harun və Leyla" operası üzərində işləmişdir.

## 1915

– "Harun və Leyla" operasının librettosu nəşr olunmuşdur.

**18 sentyabr** – H. "Yeni iqbal" qəzetinin redaktoru vəzifəsində işə başlamışdır.

**11 oktyabr** – H. "Yeni iqbal" qəzetinin sahibi və baş redaktorudur.

## 1916

**19 fevral** – H. "Yeni iqbal" qəzetindən uzaqlaşmışdır.

## 1918

**İyun–sentyabr** – H. Azərbaycan opera artistlərinin İranın Ənzəli və Rəşt ş.-lərinə qastrol səfərinə rəhbərlik etmişdir.

**Oktyabr** – H. Bakıda "Azərbaycan" qəzeti ilə əməkdaşlıq etməyə başlamışdır.

## 1919

**16 yanvar** – H. "Azərbaycan" qəzetinin redaktoru vəzifəsinə təyin olunmuş və 1920 il aprelin 28-dək bu vəzifədə fəaliyyət göstərmişdir.

## 1920

– H. musiqi akademiyası və xalq konservatoriyası açmağın və keçmiş musiqi məktəblərinin binalarını onlara verməyin zəruriliyi haqqında xalq maarif komissarına məruzə təqdim etmişdir.

– Qadınlar klubu (sonralar Ə.Bayramov ad. klub) nəzdində xalq çalğı alətləri ork.-ni təşkil etmişdir.

**20 oktyabr** – ADK-da Şərq musiqisi şöbəsi təşkil etmək haqqında Xalq Maarif Komissarlığına məruzə təqdim etmişdir.

**1921**

– Xalq Maarif Komissarlığı incəsənət şöbəsində musiqi bölməsinin müdiri vəzifəsinə təyin olunmuşdur.

**25 may** – ADK-nı yenidən qurmaq barədə xalq maarif komissarına məruzə təqdim etmişdir. Həmin məruzə ADK-nın yaradılması üçün proqram kimi təsdiq edilmişdir.

**12 dekabr** – ADK-da zərb alətləri sinfi açmağın zəruriliyi haqqında təşəbbüs qaldırmışdır.

**1922-1924**

– H. özünün təşəbbüsü ilə təsis olunmuş Azərbaycan Dövlət Türk Musiqi Məktəbinə rəhbərlik etmişdir.

– Azərb. Dövlət Dram Teatrının repertuar komissiyasına cəlb olunmuşdur.

**1925**

– H. Bakı Zəhmətkeş Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

– H.-un rəhbərliyi altında Azərb. Dövlət Türk Musiqi Texnikumu tələbələrinin gücü ilə “Arşın mal alan” musiqili komediyası tamaşaya qoyulmuşdur.

**1926**

– Azərbaycan Dövlət Türk Musiqi Texnikumu ADK ilə birləşdirilmişdir. H. konservatoriyanın prorektoru təyin olunmuşdur.

– H. konservatoriya nəzdində çoxsəsli tələbə xorunun təşkilinə təşəbbüs göstərmişdir.

**1927**

– H.-un və M. Maqomayevin ümumi redaktorluğu ilə "Azərbaycan türk el nəğmələri" məcmuəsi nəşr olunmuşdur. Məcmuənin tərtibçiləri Ü.Hacıbəyov, M.Maqomayev və Z.Hacıbəyov idi.

**1928**

**6 may** – H. Azərbaycan aşıqlarının birinci qurultayında "Aşıq sənəti" mövzusunda məruzə etmişdir.

– H. Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsinə təyin olunmuş və 1929 ilədək bu vəzifədə çalışmışdır.

**1930-1938**

– ADK-da Azərb. xalq musiqisi şöbəsinin müəllimi və müdiri olmuşdur.

**1931**

– H. birinci notlu Azərb. xalq çalğı alətləri orkestrini təşkil etmişdir.

**1932-1936**

– H. "Koroğlu" operası üzərində işləmişdir.

**1934**

– H. Azərbaycan Bəstəkarlar İttifaqının üzvü seçilmişdir.

– ADK-da “Ali məktəbdə tar və kamançanın perspektivləri” mövzusunda məruzə etmişdir.

**1935**

– H. “Azərbaycan SSR əməkdar incəsənət xadimi” fəxri adına layiq görülmüşdür.

**1936**

– H. Azərbaycan Dövlət xorunu təşkil etmişdir.

**1937**

**15 fevral** – H. Azərbaycan SSR Bəstəkarlar İttifaqının sədri seçilmişdir.

**30 aprel** – Bakıda “Koroğlu” operasının ilk tamaşası olmuşdur.

– H. “Azərbaycan SSR xalq artisti” fəxri adına layiq görülmüşdür.

**Dekabr** – H. birinci çağırış SSRİ Ai Sovetinə deputat seçilmişdir.

**1938**

– H. Moskvada Azərbaycan incəsənəti ongünlüyündə iştirak etmişdir.

– H. “SSRİ xalq artisti” fəxri adına layiq görülmüş, Lenin ordeni ilə təltif olunmuşdur.

**1939**

– H. Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsinə təyin edilmişdir.

– SSRİ Bəstəkarlar İttifaqının birinci qurultayının təşkilat komitəsinin üzvü seçilmişdir.

**1940**

– P.İ.Çaykovski ad. Moskva konservatoriyasında "Azərbaycan xalq musiqisinin əsasları" mövzusunda məruzə etmişdir.

– H. professor adı almışdır.

**1941**

– H. "Koroğlu" operasına görə Stalin mükafatına layiq görülmüşdür.

– H. ikinci çağırış SSRİ Ali Sovetinə deputat seçilmişdir.

**İyun** – H. orduya bədii xidmət sahəsində respublikada hamilik işlərinin rəhbəri təyin olunmuşdur.

**1942**

– Muğam və xalq mahnılarının ifası məsələsinə dair müşavirədə çıxış etmişdir.

**1943**

– "Koroğlu" operası AOBT-nda rus dilində tamaşaya qoyulmuşdur.

**1944**

– SSRİ EA-nın Azərb. filialının incəsənət bölməsinin rəhbəri təyin olunmuşdur.

– Gənc ifaçıların resp. müsabiqəsinin münsiflər heyətinə sədrlik etmişdir.

**Dekabr** – H. Tbilisi şəhərində keçirilmiş Zaqafqaziya respublikaları musiqi ongünlüyünün təşkilatçılarından biri, Azərb. nümayəndə heyətinin bədii rəhbəri olmuşdur.

– Azərb. Dövlət Simf. Ork.-nə H.-un adı verilmişdir.

**1945**

– H.-un "Azərbaycan xalq musiqisinin əsasları" monoqrafiyası nəşr olunmuşdur.

– H. Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

– H. "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

**Sentyabr** – H.-un anadan olmasının 60 illik yubileyi keçirilmişdir.

– H. Azərbaycan SSR Elmlər Akademiyası İncəsənət İnstitutunun direktoru təyin olunmuşdur.

**Dekabr** – Musiqi ifaçılarının Ümumittifaq müsabiqəsinin münsiflər heyətinin üzvü seçilmişdir.

**1946**

– H. "Arşın mal alan" kinofilminin musiqisinin müəllifi kimi Stalin mükafatına layiq görülmüşdür.

**1948**

**23 noyabr** – Üzeyir Hacıbəyov vəfat etmişdir.

# Üzeyir Hacıbəyovun musiqi əsərləri

## OPERALAR

### 1907

**Leyli və Məcnun.** Birinci redaktədə 5 pərdəli, 6 şəkilli, sonrakı quruluşlarda 4 pərdəli, 6 şəkilli. Librettosu M.Füzulinin eyniadlı poeması əsasında Üzeyir və Ceyhun Hacıbəyov qardaşları tərəfindən yazılmışdır.

İlk tamaşa 1908 il yanvarın 12-də (25-də) Bakıda, H.Z.Tağıyevin teatrında olmuşdur.

### 1909

**Şeyx Sənan.** 5 pərdəli. Librettosu eyniadlı xalq dastanının motivləri əsasında H. tərəfindən yazılmışdır.

İlk tamaşa 1909 il noyabrın 30-da (dekabrın 13-də) Nikitin qardaşlarının teatr-sirkində olmuşdur.

### 1910

**Rüstəm və Söhrab.** 4 pərdəli. Librettosu M.Firdovsinin "Şahnamə" əsərinin motivləri əsasında H. tərəfindən yazılmışdır.

İlk tamaşa 1910 il noyabrın 12-də (25-də) Bakıda, H.Z.Tağıyevin teatrında keçirilmişdir.

## 1912

**Şah Abbas və Xurşidbanu.** 4 pərdəli, 6 şəkilli. Librettosu xalq dastanları əsasında H. tərəfindən yazılmışdır.

İlk tamaşa 1912 il martın 10-da (23-də) Bakıda, Nikitin qardaşlarının teatr-sirkində keçirilmişdir.

**Əsli və Kərəm.** 4 pərdəli, 6 şəkilli. Librettosu eyniadlı məhəbbət dastanı əsasında H. tərəfindən yazılmışdır.

İlk tamaşa 1912 il mayın 18-də (31-də) Bakıda, Mailov qardaşlarının teatrında keçirilmişdir.

## 1915

**Harun və Leyla.** 5 pərdəli. Librettosunu ərəb dastanı əsasında motivləri əsasında H. yazmışdır. Opera tamaşaya qoyulmamışdır.

## 1936

**Koroğlu.** 5 pərdəli. Librettosu eyniadlı aşıq dastanı əsasında H.İsmayılov, şeirlər M.S.Ordubadi tərəfindən yazılmışdır.

İlk tamaşa 1937 il aprelin 30-da Bakıda, AOBT-nda keçirilmişdir.

## 1945

**Firuzə** (ilkin adı Şəhrəbanu). 4 pərdəli. Librettosunu xalq dastanları əsasında H. yazmışdır. Opera tamamlanmamışdır.

# MUSİQİLİ KOMEDİYALAR

## 1910

**Ər və arvad.** 3 pərdəli. Librettosu H.-undur.

İlk tamaşa 1910 il mayın 24-də (iyunun 6-da) Bakıda, Nikitin qardaşlarının teatr-sirkində olmuşdur.

### 1911

**O olmasın, bu olsun.** 4 pərdəli, əvvəlcə 3 pərdədə idi (hamam səhnəsi 1915 ildə yazılmışdır). Librettosu H.-undur.

İlk tamaşa 1911 il aprelin 25-də (mayın 8-də) Bakıda, Mailov qardaşlarının teatrında olmuşdur.

### 1913

**"Arşın mal alan".** 4 pərdəli. Librettosu H.-undur.

İlk tamaşa 1913 il oktyabrın 25-də (noyabrın 7-də) Bakıda, H.Z.Tağıyevin teatrında olmuşdur.

## İNSTRUMENTAL MÜŞAYİƏTLİ XOR ƏSƏRLƏRİ

### 1919

**Azərbaycan.** Xor və ork. üçün. Sözləri Əhməd Cavadındır.

**Milli marş.** Xor və ork. üçün. Sözləri H.-undur.

### 1930

**Himn.** Xor və simf. ork. üçün. Sözləri H.-undur.

### 1934

**Kantata.** M.Firdovsinin 1000 illiyinə həsr olunub. Xor və simf. ork. üçün.

**Qızıl əsgər marşı.** Solist, xor və fp. üçün. Sözləri M.S.Ordubadinindir.

### 1936

**Azərb. xalq mahnılarının xor üçün işləmələri.** Xalq çalğı alətləri ansamblı və ya fp.-nın müşayiəti ilə xor üçün ("Ay bəri bax", "Gedək

gəzək bağçada", "Aman nənə", "Nə gözəldir", "Lolo", "Sən gözəl", "Ləlli").

**Süvari marşı.** Xor və fp. üçün.

**Piyadalar marşı.** Xor və fp. üçün.

**1938**

**Kantata.** Solist, xor, simf. ork. və rəqs qrupu üçün. Sözləri S.Rüstəmindir.

**Ölməz sənətkar.** M.F.Axundovun anadan olmasının 125 illiyi münasibətilə. Xor və fp. üçün. Sözləri H.Natiqindir.

**1939**

**Kantata.** Solist, xor, simf. ork. və rəqs qrupu üçün.

**1942**

**"Vətən və cəbhə" kantatası.** Solist, xor, simf. ork. və rəqs qrupu üçün. Sözləri H.-dur.

**"Ey Vətən".** Xor və fp. üçün. Sözləri S.Vurğunundur.

**1945**

**Azərbaycan SSR Dövlət himni.** Xor və simf. ork. üçün. Sözləri S. Vurğun və S. Rüstəmindir.

**Qələbə himni,** Zəfər himni. Xor və simf. ork. üçün. Sözləri S.Vurğunundur.

**Stalinə salam.** Xor və simf. ork. üçün. Sözləri S.Rüstəmindir.

**1947**

**Kantata.** Nizami Gəncəvinin 800 illiyinə həsr olunmuşdur. Xor və simf. ork. üçün. Sözləri S.Rüstəmindir.

## ORKESTR ƏSƏRLƏRİ

### 1928-1933

**Kolxoz çöllərində.** Xalq çalğı alətləri ork. üçün.

**Arazbarı.** Simf. ork. üçün.

**Təntənəli marş.** Azərb. Türk Teatrının 10 illiyinə həsr olunmuşdur. Simf. ork. üçün.

**Fantaziya №1.** Xalq çalğı alətləri ork. üçün.

**Fantaziya №2.** Xalq çalğı alətləri ork. üçün.

### 1941

**Cəngi.** Xalq çalğı alətləri ork. üçün.

## KAMERA-İNSTRUMENTAL ƏSƏRLƏRİ

### 1925-1945

**Aşıqsayağı.** Skripka, violonçel və fp. üçün.

**Uşaq albomu.** Fp. üçün.

**Sonatina.** Fp. üçün.

**Uşaq pyesləri.** Fp. üçün.

## XOREOQRAFİK MİNİATÜRLƏR

### 1919

**Azərbaycan.**

**Qaytağı (Dağıstan).**

## ROMANS-QƏZƏLLƏR

### 1941

**Sənsiz.** Səs və fp. üçün. Sözləri Nizaminindir (Azərb. dilinə tərcüməsi Cəfər Xəndanındır).

### 1943

**Sevgili canan.** Səs və fp. üçün. Sözləri Nizaminindir (Azərb. dilinə tərcüməsi Mirvarid Dilbazinindir).

## MAHNILAR

### 1918

**Çırpınırdı Qara dəniz.** Səs və fp. üçün. Sözləri Ə.Cavadındır.

### 1927

**Yetim quzu.** Səs və fp. üçün. Sözlərinin müəllifi məlum deyil.

**Bir quş düşdü havadan.** Səs və fp. üçün. Sözlərinin müəllifi məlum deyil.

### 1930

**Qaragöz.** Səs və xalq çalğı alətləri ansamblı üçün. Sözləri H.Natiqindir.

### 1932

**Komsomolçu qız.** Səs və fp. üçün. Sözləri M.Təhmasibindir.

## 1933-1934

**Süvari mahnısı.** Səs və fp. üçün. Sözləri H.Natiqindir.

**Pilotlar.** Səs və fp. üçün. Sözləri M.Seyidzadənindir.

**Bayram günü.** Səs və fp. üçün. Sözləri M.Seyidzadənindir.

## 1941

**Çağırış.** Səs və fp. üçün. Sözləri S.Əliyevanındır. İlk variantı "Mazut" adı ilə 30-cu illərdə yazılmışdır.

**Şəfqət bacısı.** Səs və fp. üçün. Sözləri S.Vurğunundur.

## 1942

**Vətən ordusu.** Səs və fp. üçün. Sözləri S.Vurğunundur.

**Yaxşı yol.** Səs və fp. üçün. Sözləri S.Rüstəmindir.

**Ananın oğluna nəsihəti.** Səs və fp. üçün. Sözləri aşıq M.Bayramovundur.

**Döyüşçülər marşı.** Səs və fp. üçün. Sözləri S.Vurğunundur.

# Üzeyir Hacıbəyovun kitablarının, ayrı-ayrı məqalə, çıxış, hekayə, felyeton və miniatürlərinin siyahısı

## 1905

**Üzeyir. Bir xanım əfəndinin bizlərə hüsnü-təvəccöhü.** – "Həyat", 10 sentyabr, №62.

**Ü. Gözüaçıq tacirlərimizə xitab.** – "Həyat", 2 noyabr, №93.

**Mütərcim Ü.H. Hürriyyəti-kəlam.** Mənzum felyeton. – "Həyat", 8 noyabr, №97.

**Mütərcim Üzeyir. Əski qaydalar hələ güclüdür.** – "Həyat", 29 noyabr, №109.

**Mütərcim Üzeyir. Bakı müsəlmanlarına və "Daşnaksütun" firqəsinə məlum olsun ki...** – "Həyat", 6 dekabr, №113.

**Üzeyir. Pristav ağa.** Hekayə. – "İrşad", 25 dekabr, №6.

**Ü. Təzə xəbər.** Felyeton. – "İrşad", 20 dekabr, №11.

## 1906

**Ü. Təzə xəbər.** Felyeton. – "İrşad", 1 yanvar, №12.

**Üzeyir bəy Hacıbəyov. Erməni-müsəlman sülh məclisinə dair** . – "İrşad", 14 fevral, №46.

**Üzeyir Hacıbəyov. Hansı vasitələr ilə dilimizi öyrənib, kəsbi-maarif etməliyik?** – "İrşad", 15, 16, 20 fevral, № 47, 48, 51.

**Ü.Hacıbəyov. Ürək bulandırıcı bir xəbər.** – "İrşad", 26 fevral, №54.

**Üzeyir bəy Hacıbəyov. Bir neçə söz.** – “İrşad”, 7 mart, №62.

**Üzeyir bəy Hacıbəyov. Biz hamımız qafqazlı balalarıyıq.** – “İrşad”, 9 mart, №64.

**Ü.Hacıbəyov. Mərəzlərimizdən biri.** – “İrşad”, 14 mart, №67.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 14 mart, №67.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 15 mart, №68.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 16 mart, №69.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 17 mart, №70.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 20 mart, №72.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 22 mart, №74.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 24 mart, №76.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 26 mart, №77.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 27 mart, №78.

**Filankəs. Ordan-burdan**. – “İrşad”, 28 mart, №79.

**Filankəs. Ordan-burdan**. – “İrşad”, 5 aprel, №82.

**Filankəs. Ordan-burdan. Bir başıqapazlının söylənməyi.** – “İrşad”, 6 aprel, №83.

**Filankəs. Ordan-burdan. Cavanşir uyezdində pristav Şəfi bəy Fətəlibəyova açıq məktub.** – “İrşad”, 10 aprel, №86.

**Filankəs. Ordan-burdan. Dərə xəlvət, tülkü bəy.** – “İrşad”, 11 aprel, №87.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 14 aprel, №89.

**Filankəs. Ordan-burdan. Mühüm suallar və əhəmli cavablar.** – “İrşad”, 17 aprel, №91.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 20 aprel, №93.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 21 aprel, №94.

**Ü.H. Zülfüqar bəy Hacıbəyovun vəfatı...** – “İrşad” 23 aprel, №96.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 24 aprel, №97.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 30 aprel, №101.

**Ü.Hacıbəyov. Cümə məsələsi.** – “İrşad”, 1 may, №102.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 3 may, №103.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 8 may, №107.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 11 may, №110.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 14 may, №112.

**Ü.Hacıbəyov. Dövlət Dumasının açılması.** – “İrşad”, 11, 12, 14-16 may, №110-114.

**Ü.Hacıbəyov. Dövlət Duması haqqında.** – “İrşad”, 17 may, №115.

**Ü.Hacıbəyov. Yaponiya və islam.** – “İrşad”, 18 may, №116.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 18 may, №116.

**Ü.Hacıbəyov. Yeni təhlükə.** – “İrşad”, 19 may, №117.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 21 may, №118.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 23 may, №120.

**Filankəs. Ordan-burdan. Nepriyatnostlar.** – “İrşad”, 27 may, №123.

**Üzeyir. Şuşa camaatına açıq məktub.** – “İrşad”, 27 may, №123.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 28 may, №124.

**Üzeyir Hacıbəyov. Vəkillərimiz nə tövr olmalıdır.** – “İrşad”, 30 may, №126.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 1 iyun, №128.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 2 iyun, №129.

**Üzeyir bəy Hacıbəyov. Halımıza dair.** – “İrşad”, 4 iyun, №130.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 4 iyun, №130.

**Üzeyir Hacıbəyov. Kəndçilərimizə dair.** – “İrşad”, 7 iyun, №133.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 7 iyun, №133.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 8 iyun, №134.

**Ü.Hacıbəyov. Dövlət Dumasında.** – “İrşad”, 11 iyun, №136.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 11 iyun, №136.

**Ü.Hacıbəyov. Bir tədbir lazımdır, ya yox?** – “İrşad”, 12-15 iyun, №137-140.

**Filankəs. Ordan-burdan. İran Rusiyanı yamsılayır.** - “İrşad”, 15 iyun, №140.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 18 iyun, №142.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 21 iyun, №145.

**Ü.Hacıbəyov. Kadetlərdən vəzarət.** – “İrşad”, 22 iyun, №146.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 25 iyun, №148.

**Mədəni ingilislərin vəhşi yırtıcılığı.** – “İrşad”, 29 iyun, №152.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 2 iyul, №154.

**Üzeyir. Doğru meydana çıxar.** – "İrşad", 3 iyul, №155.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 3 iyul, №155.

**Üzeyir. Gələcəyi unutmayalım.** – "İrşad", 4 iyul, №156.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 4 iyul, №156.

**Üzeyir. Dövlət şurası.** – "İrşad", 5 iyul, №157.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 8 iyul, №159.

**Üzeyir. Yenə erməni-müsəlman sülh komisyonu xüsusunda.** – "İrşad", 9 iyul, №160.

**Üzeyir. Duma buraxıldı.** – "İrşad", 10 iyul, №161.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 10 iyul, №161.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 11 iyul, №162.

**Üzeyir. Dövlət Dumasının buraxılmasına dair.** – "İrşad", 13 iyul, №164.

**Filankəs. İğrazi-şəxsiyyə zamanı deyildir.** – "İrşad", 14 iyul, №165.

**Üzeyir. Sevindilərmi?** – "İrşad", 16 iyul, №166.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 18 iyul, №168.

**Üzeyir. Qeydsizliyin nəticəsi.** – "İrşad", 19 iyul, №169.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 20 iyul, №170.

**Ü. Üçüncü Rusiya müsəlman ictimaına dair.** – "İrşad", 21 iyul, №171.

**Üzeyir. Şuşa qovğasına dair.** – "İrşad", 23 iyul, 172.

**Ü. Rusiyanın halına dair.** – "İrşad", 24 iyul, 173.

**Üzeyir. İstifadə lazımdır.** – "İrşad", 25 iyul, 174.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 25 iyul, №174.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 27 iyul, №176.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 31 iyul, №179.

**Üzeyir Hacıbəyov. Avropa və aləmi islam.** – "İrşad", 1, 13, 14 avqust, №180, 190, 191.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 1 avqust, №180.

**Üzeyir. Vaxtdır.** – "İrşad", 3 avqust, №182.

**Üzeyir. İran hökuməti-məşrutə.** – "İrşad", 4 avqust, №183.

**Üzeyir. İrana dair.** – "İrşad", 6 avqust, №184.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 7 avqust, №185.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 8 avqust, №186.

**Üzeyir. Dövlət işləri.** – "İrşad", 9 avqust, №188.

**Üzeyir. Müəllimlər ictimaına dair.** – "İrşad", 15, 16 avqust, №192, 193.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 16 avqust, №193.

**Üzeyir. Belə də olmaz.** – "İrşad", 20 avqust, №194.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 20 avqust, №194.

**Üzeyir. Üçüncü Ümumrusiya müsəlman ictimaına dair.** – "İrşad", 21 avqust, №197.

**Üzeyir. Rusiyaya dair.** – "İrşad", 23 avqust, №199.

**Üzeyir. Bəyani-həqiqət.** – "İrşad", 24, 25 avqust, №200, 201.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 24 avqust, №200.

**Filankəs. Müsəlman intellegenti məclisi.** – "İrşad", 25 avqust, №201.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 28 avqust, №202.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 30 avqust, №204.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 2 sentyabr, №206.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 7 sentyabr, №209.

**Üzeyir. Rusiyada.** – "İrşad", 14 sentyabr, №216.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 17 sentyabr, №218.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 24 sentyabr, №224.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 27 sentyabr, №227.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 28 sentyabr, №228.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 5 oktyabr, №234.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 11 oktyabr, №239.

**Üzeyir. Məktəb məsələsi.** – "İrşad", 12 oktyabr, №240.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 13 oktyabr, №241.

**Üzeyir. Məktəb məsələsi və F. A. cənabları.** – "İrşad", 18 oktyabr, №245.

**Filankəs. Ordan-burdan. Duma yaxınlaşır. Bir intellegentin xəyalı.** – "İrşad", 20 oktyabr, №247.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 23 oktyabr, №249.

**Filankəs. Ordan-burdan. Bir firəng ilə söhbətim.** – "İrşad", 27 oktyabr, №252.

**Filankəs. Hərəkət lazımdır.** – "İrşad", 21 noyabr, №268.

**Üzeyir. Dövlət işləri.** – "İrşad", 23 noyabr, №270.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 23 noyabr, №270.

**Üzeyir. Dövlət işləri.** – "İrşad", 26 noyabr, №272.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 28 noyabr, №273.

**Üzeyir. Mücahidlərə.** – "İrşad", 3 dekabr, №277.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 8 dekabr, №279.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 10 dekabr, №282.

**Üzeyir. Kim nə haldadır?** – "İrşad", 12 dekabr, №283.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 19 dekabr, №288.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 27 dekabr, №294.

## 1907

**Filankəs. Ordan-burdan.** – "İrşad", 4 yanvar, №3.

**Musiqar. Qaçaqlar (Şillerin "Qaçaqlar" faciəsinin tamaşası haqqında məlumat).** – "İrşad", 12 yanvar, №9.

**Üzeyir. Nə haldayız?** – "İrşad", 14 yanvar, №10.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 16 yanvar, №11.

**Üzeyir. Təəssüf.** – "İrşad", 17 yanvar, №12.

**Üzeyir. Müsəlmanlar soldan da soldur.** – "İrşad", 23 yanvar, №15.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 24 yanvar, №16.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 4 fevral, №17.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 7 fevral, №20.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 8 fevral, №21.

**Üzeyir. Halımıza dair.** – "İrşad", 14 fevral, №25.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 15 fevral, №26.

**Filankəs. Ordan-burdan. İki gündən sonra.** – "İrşad", 17 fevral, №28.

**Üzeyir. İkinci Duma.** – "İrşad", 20 fevral, №29.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 20 fevral, №29.

**Üzeyir. Təəssüflər olsun.** – "İrşad", 23 fevral, №32.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 23 fevral, №32.

**Üzeyir. Dumada müsəlman fraksiyası.** – "İrşad", 25 fevral, №33.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 25 fevral, №33.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 27 fevral, №34.

**Üzeyir. Belədir ki var.** – "İrşad", 28 fevral, №35.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 28 fevral, №35.

**Üzeyir. Hürriyyəti-mətbuat.** – "İrşad", 1 mart, №36.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 1 mart, №36.

**Üzeyir. Dövlət Şurası və Rusiya müsəlmanları.** – "İrşad", 2 mart, №37.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 2 mart, №37.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 4 mart, №38.

**Üzeyir. Dərin quyular.** – "İrşad", 7 mart, №40.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 7 mart, №40.

**Üzeyir. Dövlət Duması buraxılacaqmı, yoxmu?** – "İrşad", 8 mart, №41.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 8 mart, №41.

**Üzeyir. Hökumət bəyannaməsi və Duma.** – "İrşad", 13 mart, №43.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 13 mart, №43.

**Üzeyir. Hökumət və millət.** – "İrşad", 14 mart, №44.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 14 mart, №44.

**Üzeyir. Duma və hürriyyəti-vicdan.** – "İrşad", 15 mart, №45.

**Filankəs. Ordan-burdan. Suallar və suallara da cavablar.** – "İrşad", 15 mart, №45.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 18 mart, №47.

**Üzeyir. İranda ixtilal.** – "İrşad", 20 mart, №48.

**Filankəs. Ordan-burdan. Müalicə.** – "İrşad", 20 mart, №48.

**Filankəs. Ordan-burdan. Müalicə.** – "İrşad", 21 mart, №49.

**Üzeyir. Stolıpin və divani-hərb.** – "İrşad", 22 mart, №50.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 22 mart, №50.

**Üzeyir. Qaranlıqlaşır.** – "İrşad", 25 mart, №52.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 25 mart, №52.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 28 mart, №54.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 1 aprel, №57.

**Ü. Fəxr etməliyizmi, məyus olmalıyızmı?** – "İrşad", 2 aprel, №58.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 2 aprel, №58.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 4 aprel, №60.

**Üzeyir. Üçüncü rəqib.** – "İrşad", 5 aprel, №61.

**Filankəs. Ordan-burdan. Üçüncü dəllək.** – "İrşad", 5 aprel, №61.

**Filankəs. Ordan-burdan. Hökumət və Duma. Birpərdəli komediya.** – “İrşad”, 6 aprel, №62.

**Ü. Dumanın halı.** – “İrşad”, 8 aprel, №63.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 9 aprel, №64.

**Ü. Köçürmək məsələsi.** – “İrşad”, 10 aprel, №65.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 12 aprel, №67.

**Üzeyir. Yeni bir həqarət.** – “İrşad”, 13 aprel, №68.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 13 aprel, №68.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 16 aprel, №70.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 17 aprel, №71.

**Üzeyir. Dumada müsəlman üzvlərinin ixtilafına dair.** – “İrşad”, 17 aprel, №71.

**Üzeyir. Sağların hərəkatı.** – “İrşad”, 18 aprel, №72.

**Filankəs. Ordan-burdan. Öz məişətimizdən bir drama.** – “İrşad”, 18 aprel, №72.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 20 aprel, №73.

**Ü. Duma yaxınlaşır.** – “İrşad”, 20 aprel, №73.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 22 aprel, №74.

**Ü. Birinci şadlıq.** – “İrşad”, 24 aprel, №75.

**Filankəs. Ordan-burdan. Dançenkodan mənə məktub.** – “İrşad”, 24 aprel, №75.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 25 aprel, №76.

**Filankəs. Ordan-burdan. Müsəlman kəndlisinin siyasi söhbəti.** – “İrşad”, 26 aprel, №77.

**Filankəs. Ordan-burdan. Bir şvesarlı ilə bir müsəlmanın söhbəti.** – “İrşad”, 29, 30 aprel, №79, 80.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 3 may, №81.

**Üzeyir. “Tərcüman” nə deyir, nə istəyir?** – “İrşad”, 4 may, №82.

**Filankəs. Ordan-burdan. “Tərcüman” qəzeti və baramaqurdu.** – “İrşad”, 4 may, №82.

**Ü. Dövlət Duması.** – “İrşad”, 6 may, №83.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 8 may, №84.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 9 may, №85.

**Filankəs. Ordan-burdan. Möizə** – “İrşad”, 11 may, №87.

**Filankəs. Ordan-burdan. Qarabağda yer məsələsi. Eşitdiyimiz xəbərlər.** – “İrşad”, 16 may, №90.

**Ü. Müdhiş etiraz.** – “İrşad”, 17 may, №91.

**Filankəs. Ordan-burdan. Müəllimlər ictimaı.** – “İrşad”, 20 may, №93.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 22 may, №94.

**Filankəs. Ordan-burdan. Sədini tənqid.** – “İrşad”, 24 may, №96.

**Filankəs. Ordan-burdan. Hafizi tərif.** – “İrşad”, 25 may, №97.

**Üzeyir. İanə təqsimi.** – “İrşad”, 27 may, №98.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 27 may, №98.

**Üzeyir. Bu da bir həqarət.** – “İrşad”, 30 may, №100.

**Filankəs. Ordan-burdan. Stolıpinin xəyalı.** – “İrşad”, 30 may, №100.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 31 may, №101.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 1 iyun, №102.

**Üzeyir. Məclisi-məbusanda nə olur?** – “İrşad”, 3 iyun, №103.

**Filankəs. Ordan-burdan. Rəfiqimdən məktub.** – “İrşad”, 8 iyun, №107.

**Filankəs. Ordan-burdan. İttifaq və ittihad məsələsi.** – “İrşad”, 10 iyun, №108.

**Filankəs. Ordan-burdan. “Molla Nəsrəddin, Telefon söhbəti, Durnovonun bicliyi”.** – “İrşad”, 12 iyun, №109.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 13 iyun, №110.

**Filankəs. Ordan-burdan. Əşar.** – “İrşad”, 14 iyun, №111.

**Filankəs. Ordan-burdan.** – “İrşad”, 15 iyun, №112.

**Filankəs. Ordan-burdan. Məişətimizdən.** – “İrşad”, 17 iyun, №113.

**“İrşad”çı Üzeyir Hacıbəyov. “İrşad”çının cavabı.** – Bakinski den (rusca), 3 avqust, №44.

**Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti.** – Bakı, Orucov qardaşlarının mətbəəsi (Azərb. və rus dillərində).

**Hesab məsələləri** (İbtidai məktəblərin birinci və ikinci şöbələri şagirdlərindən ötrü lüzumlu bir dərs kitabıdır).-Bakı, Orucov qardaşlarının mətbəəsi.

## 1908

**Üzeyir bəy Hacıbəyov. İdarəyə məktub.** – "İrşad", 15 yanvar, №7.

**Filankəs. Ordan-burdan. Politika komediyası.** – "İrşad", 11 iyun, №85.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 12 iyun, №96.

**Filankəs. Ordan-burdan. Təzə müsəlmanlara xəbərdarlıq.** – "İrşad", 13 iyun, №87.

**Filankəs. Ordan-burdan. Nağıl.** – "İrşad", 17 iyun, №89.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 19 iyun, №91.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 12 iyun, №93.

**Filankəs. Ordan-burdan.** – "İrşad", 24 iyun, №94.

**Üzeyir. İranda inqilab.** – "Tərəqqi", 2, 3, 5, 6 iyul, №146-149.

**Mütərcim. Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 3 iyul, №1.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 6 iyul, №3.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 8 iyul, №4.

**Ü. Osmanlıda inqilab qovğası.** – "Tərəqqi", 9 iyul, №5.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 10 iyul, №6.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 15 iyul, №9.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 16 iyul, №10.

**Ü. Osmanlıda qanuni-əsasi.** – "Tərəqqi", 17 iyul, №11.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 18 iyul, №12.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 20 iyul, №13.

**Filankəs. Ordan-burdan. Yazı yazanın yazı yazmaqdan qabaq fikri.** – "Tərəqqi", 25 iyul, №16.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 29 iyul, №18.

**Ü. Əfkari-ümumi.** – "Tərəqqi", 31 iyul, №20.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 31 iyul, №20.

**Filankəs. Ordan-burdan. Rusiyanın Kiyev şəhərində misyonerlərin iclası.** – "Tərəqqi", 1 avqust, №21.

**Filankəs. Ordan-burdan. Hilal ilə Xurşid.** – "Tərəqqi", 5 avqust, №24.

**Ü. Vəzirlər proqramı.** – "Tərəqqi", 7 avqust, №25.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 10 avqust, №27.

**Filankəs. Ordan-burdan. Yuxuda.** – "Tərəqqi", 13 avqust, №29.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 17 avqust, №31.

**Üzeyir. İkinci il.** – "Tərəqqi", 19 avqust, №32.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 21 avqust, №34.

**Filankəs. Ordan-burdan. İran iğtişaşına dair.** – "Tərəqqi", 27 avqust, №38.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 7 sentyabr, №46.

**Filankəs. Ordan-burdan. Xolera və ramazanül mübarək.** – "Tərəqqi", 10 sentyabr, №48.

**Filankəs. Ordan-burdan. İrana dair.** – "Tərəqqi", 14 sentyabr, №51.

**Filankəs. Ordan-burdan. Hesab məsələləri.** – "Tərəqqi", 16 sentyabr, №53.

**Ü.Təskinlik.** – "Tərəqqi", 18 sentyabr, №55.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 18 sentyabr, №55.

**Filankəs. Ordan-burdan. Bezobed. Bazar söhbəti.** – "Tərəqqi", 21 sentyabr, №57.

**Filankəs. Ordan-burdan. Qalmaqal.** – "Tərəqqi", 23 sentyabr, №59.

**Filankəs. Ordan-burdan. Qanlılıq.** – "Tərəqqi", 26 sentyabr, №62.

**Filankəs. Ordan-burdan. Eynüddövlə...** – "Tərəqqi", 29 sentyabr, №64.

**Filankəs. Ordan-burdan. Gələcək Avropa konfransı.** – "Tərəqqi", 1 oktyabr, №66.

**Üzeyir. Rusiyaya dair.** – "Tərəqqi", 2 oktyabr, №67.

**Filankəs. Ordan-burdan. Hara qaçacaqlar?** – "Tərəqqi", 3 oktyabr, №68.

**Filankəs. Ordan-burdan. Kimdən nə soruşdular?** – "Tərəqqi", 6 oktyabr, №69.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 9 oktyabr, №72.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 12 oktyabr, №74.

**Filankəs. Ordan-burdan. Bayram.** – "Tərəqqi", 14 oktyabr, №76.

**Filankəs. Ordan-burdan. Cin.** – "Tərəqqi", 16 oktyabr, №77.

**Üzeyir. İcmali-siyasi.** – "Tərəqqi", 19 oktyabr, №79.

**Filankəs. Ordan-burdan. Təzə xəbərlər.** – "Tərəqqi", 20 oktyabr, №80.

**Filankəs. Ordan-burdan. Bir qədər qəzetçilik dərsi.** – "Tərəqqi", 23 oktyabr, №83.

**Filankəs. Ordan-burdan. Yarımgünlük səyahətim.** – "Tərəqqi", 26 oktyabr, №85.

**Filankəs. Ordan-burdan. Yarımgünlük səyahətim, yaxud üsuli-cədid təlimi nəyə deməzlər.** – "Tərəqqi", 29 oktyabr, №88.

**Filankəs. Ordan-burdan. İrana dair aşıq nağılı.** – "Tərəqqi", 31 oktyabr, №90.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 3 noyabr, №92.

**Filankəs. Ordan-burdan. Sokrat təriqilə siyasi söhbət.** – "Tərəqqi", 5 noyabr, №94.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 10 noyabr, №98.

**Filankəs. Ordan-burdan. Bir dəlinin dəftərindən.** – "Tərəqqi", 13 noyabr, №101.

**Filankəs. Ordan-burdan. Əli aşı və Vəli aşı.** – "Tərəqqi", 18 noyabr, №105.

**Filankəs. Ordan-burdan. İran işləri.** – "Tərəqqi", 21 noyabr, №108.

**Filankəs. Ordan-burdan. İcmali-siyasi...** – "Tərəqqi", 25 noyabr, №111.

**Filankəs. Ordan-burdan. Bir kəndli ilə söhbət.** – "Tərəqqi", 27 noyabr, №113.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 19 dekabr, №131.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 29 dekabr, №136.

**Filankəs. Ordan-burdan. Bir müəmma, yaxud sofizm.** – "Tərəqqi", 29 dekabr, №138.

## 1909

**Filankəs. Ordan-burdan. Məcburi müdafiə.** – "Tərəqqi", 5 yanvar, №4.

**Üzeyir bəy Hacıbəyov. İdarəyə məktub.** – "Tərəqqi", 7 yanvar, №5.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 9 yanvar, №7.

**Filankəs. Ordan-burdan.** – "Tərəqqi", 13 yanvar, №10.

**Üzeyir. Milli məktəblərdə rus dili tədrisi.** – “Tərəqqi”, 30 yanvar, 4 fevral, №23, 27.

**Filankəs. Ordan-burdan. Şəhər işləri.** – “Tərəqqi”, 17 fevral, №38.

**Mütərcim. Üzeyir. N.V.Qoqolun “Şinel” hekayəsi.** – “Tərəqqi”, 25, 26, 31 mart, 23 aprel, 17 may, 3, 9, 15 iyul, №62, 63, 66, 86, 106, 121, 126, 131.

**Üzeyir. Yenə üsuli-təbii haqqında bir neçə söz.** – “Tərəqqi”, 6, 8, 19 mart, №50, 51, 58.

**Filankəs. Ordan-burdan. Üsuli tərcümə.** – “Tərəqqi”, 13 mart, №53.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 24 mart, №61.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 25 mart, №62.

**Üzeyir. Müəllim Əli cənablarına.** – “Tərəqqi”, 1aprel, №67.

**Filankəs. Ordan-burdan. Dövlətlilik bəlası.** – “Tərəqqi”, 5 aprel, №70.

**Filankəs. Ordan-burdan. Dərs.** – “Tərəqqi”, 12 aprel, №76.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 13 aprel, №77.

**Filankəs. Ordan-burdan. Bizimlə avropalıların təfavütü.** – “Tərəqqi”, 22 iyun, №137.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 26 iyun, №141.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 2 iyul, №146.

**Üzeyir. İranda inqilab.** – “Tərəqqi”, 2, 3, 5 iyul, №146-148.

**Üzeyir. İran və “Novoye vremya”.** – “Tərəqqi”, 7 iyul, №150.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 7 iyul, №150.

**Ü. İki bayram.** – “Tərəqqi”, 13 iyul, №155.

**Üzeyir. Zemstvo nədir?** – “Tərəqqi”, 16, 17 iyul, №158, 159.

**Üzeyir. İspaniya-Fəs müharibəsi.** – “Tərəqqi”, 22 iyul, №163.

**Üzeyir. Qəti təkzib.** – “Tərəqqi”, 26 iyul, №166.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 26 iyul, №166.

**Ü. Tərcümeyi-hal.** – “Tərəqqi”, 28 iyul, №168.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 30 iyul, №170.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 4 avqust, №173.

**Üzeyir. Başçı lazımdır.** – “Tərəqqi”, 5 avqust, №174.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 10 avqust, №178.

**Filankəs. Ordan-burdan. Niyyəti-xalisə.** – “Tərəqqi”, 12 avqust, №180.

**Üzeyir. Xəbərdarlıq.** – “Tərəqqi”, 14 avqust, №182.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 14 avqust, №182.

**Filankəs. Ordan-burdan. Məzhəkə.** – “Tərəqqi”, 14 avqust, №184.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 19 avqust, №186.

**Üzeyir. Xəbərdarlıq.** – “Tərəqqi”, 20 avqust, №137.

**Üzeyir bəy Hacıbəyov. “Zənbur” jurnalı.** – “Tərəqqi”, 24 avqust, №190.

**Filankəs. Ordan-burdan. Zemstvo məsələsi.** – “Tərəqqi”, 27 avqust, №193.

**Üzeyir. Zənburçulara ciddi bir təklif.** – “Tərəqqi”, 30 avqust, №195.

**Üzeyir. Övzaımız.** – “Tərəqqi”, 4 sentyabr, №200.

**Filankəs. Ordan-burdan. Təhsil.** – “Tərəqqi”, 10 sentyabr, №205.

**Üzeyir. Tələbələr məsələsi.** – “Tərəqqi”, 17 sentyabr, №211.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 18 sentyabr, №121.

**Filankəs. Ordan-burdan.** – “Tərəqqi”, 28 sentyabr, №219.

**Bəyani-məslək.** – “Həqiqət”, 25 dekabr, №1.

**Bir. O yan-bu yan.** – “Həqiqət”, 25 dekabr, №1.

**Halımıza dair.** – “Həqiqət”, 29 dekabr, №4.

**İki. O yan-bu yan.** – “Həqiqət”, 30 dekabr, №5.

**1910**

**Üzeyir. Öz qədrimizi bilmirik.** – “Tərəqqi”, 1 yanvar, №1.

**Üzeyir. Təzə il, təzə meydan.** – “Həqiqət”, 3 yanvar, №2.

**Üç. O yan-bu yan.** – “Həqiqət”, 4 yanvar, №3.

**Üzeyir. Hər işi öz əhlinə tapşırmalı.** – “Həqiqət”, 5 yanvar, №4.

**Dörd. O yan-bu yan.** – “Həqiqət”, 13 yanvar, №9.

**Ü. Ticarət.** – “Həqiqət”, 14 yanvar, №10.

**Üzeyir. Buxara hadisələri.** – “Həqiqət”, 17 yanvar, №12.

**Ü. Rəhbərlərimiz.** – “Həqiqət”, 18 yanvar, №13.

**Beş. O yan-bu yan. Maarif işləri, yaxud...** – “Həqiqət”, 18 yanvar, №13.

**Ü. Buxara xanlığının müxtəsər tarixi.** – “Həqiqət”, 19, 24 yanvar, №14, 18.

**Ü. Dil.** – “Həqiqət”, 24, 25 yanvar, №18, 19.

**...Kəs. O yan-bu yan.** – “Həqiqət”, 26 yanvar, №20.

**Üzeyir. Böyük təhlükə içindəyik.** – “Həqiqət”, 28 yanvar, №22.

**Üzeyir. Yaponiyanın tarixi.** – “Həqiqət”, 29 yanvar, 2 fevral, №23, 26.

**Üzeyir. Hümmət lazımdır.** – “Həqiqət”, 31 yanvar, №24.

**...Kəs. O yan-bu yan. Quyruqlu ulduz.** – “Həqiqət”, 1 fevral, №25.

**Üzeyir. Gözəl bir təşəbbüs.** – “Həqiqət”, 2 fevral, №26.

**Ü. Peterburqda məscid.** – “Həqiqət”, 5 fevral, №29.

**Üzeyir. Müsəlmanların halı.** – “Həqiqət”, 7 fevral, №30.

**Üzeyir. Vəkil seçkisi.** – “Həqiqət”, 9 fevral, №32.

**Üzeyir. Yaponiyanın müxtəsər tarixi.** – “Həqiqət”, 10 fevral, 2 mart, №33, 49.

**Üzeyir. Şəhər duması, dövlət duması.** – “Həqiqət”, 11 fevral, №34.

**Üzeyir. İanəçilərimiz və camaatımız.** – “Həqiqət”, 12 fevral, №35.

**Üzeyir. Beşinci üzv seçmək məsələsi.** – “Həqiqət”, 14 fevral, №36.

**Üzeyir. Qədrşünaslıq.** – “Həqiqət”, 15 fevral, №37.

**...Kəs. O yan-bu yan. Purişkeviç və Hacı Xudu.** – “Həqiqət”, 17 fevral, №39.

**Üzeyir. Rusiyada.** – “Həqiqət”, 18 fevral, 7 mart, №40, 53.

**...Kəs. O yan-bu yan.** – “Həqiqət”, 1 mart, №48.

**Üzeyir. Halımız.** – “Həqiqət”, 3 mart, №50.

**“Həqiqət” idarəsi. Ümumvladiqafqaz camaatına açıq məktub.** – “Həqiqət”, 5 mart, №51.

**“Həqiqət” idarəsi. Vladiqafqaz camaatına bir də açıq məktub.** – “Həqiqət”, 18 mart, №59.

**Üzeyir. “Təzə İran”.** – “Həqiqət”, 19 mart, №60.

**Üzeyir. Şeyxülislam həzrətləri və maarif.** – “Həqiqət”, 31 mart, №70.

**Üzeyir. Öz halımızdan.** – “Həqiqət”, 14, 16, 18 aprel, №82, 84, 85.

**...Kəs. O yan-bu yan.** – “Həqiqət”, 21 aprel, №88.

**İranda dəmir yol məsələsi.** – “Həqiqət”, 28 aprel, №94.

**Üzeyir. Müəllimlərimiz və mətbuat.** – “Həqiqət”, 2 may, №97.

**Üzeyir. Kənd-kəsəklərimiz.** – “Həqiqət”, 3 may, №98.

**Üzeyir. Cümə məsələsi.** – “Həqiqət”, 6, 12 may, №101, 106.

**Üzeyir. Dumamız.** – “Həqiqət”, 9 may, №103.

## 1911

**Lal uşaq. Uşaq.** – "Molla Nəsrəddin", 27 iyun, №27.

**Hamamçı. Hamam.** – "Molla Nəsrəddin", 4 avqust, №28.

**Filankəs. Müəllimə.** – "Məktəb", 11 dekabr, №2.

## 1912

**Filankəs. Ordan-burdan. Ramazan ayında ibadət.** – "İqbal", 4 sentyabr, №152.

**Filankəs. Ordan-burdan... Sənə nə?!** – "İqbal", 6 sentyabr, №154.

**Filankəs. Ordan-burdan. Qulluq axtaran.** – "İqbal", 7 sentyabr, №155.

**Filankəs. Ordan-burdan. Bu da doğru sözdür.** – "İqbal", 10 sentyabr, №157.

**Filankəs. Ordan-burdan.** – "İqbal", 12 sentyabr, №159.

**Filankəs. Ordan-burdan.** – "İqbal", 13 sentyabr, №160.

**Filankəs. Ordan-burdan. Bizim adi söhbətimiz.** – "İqbal", 14 sentyabr, №161.

**Filankəs. Ordan-burdan. Yevlax-Şuşa yolu.** – "İqbal", 7 sentyabr, №163.

**Filankəs. Ordan-burdan. Məclisimizin duzu.** – "İqbal", 20 sentyabr, №166.

**Filankəs. Ordan-burdan. Evlənmək məsələsi.** – "İqbal", 25 sentyabr, №170.

**Filankəs. Ordan-burdan. Xeyirxahlar.** – "İqbal", 15 oktyabr, №187.

**Filankəs. Ordan-burdan. Dilimizi korlayanlar.** – "İqbal", 16 oktyabr, №188.

## 1913

Вынужденный ответ. Письмо в редакцию. – "Каспий", 28 iyun.

## 1915

**İmzasız. Ordan-burdan.** – “Yeni iqbal”, 5 iyul, №59.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 7 sentyabr, №111.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 8 sentyabr, №112.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 9 sentyabr, №113.

**Üzeyir. Türk-bolqar ixtilafı.** – “Yeni iqbal”, 10 sentyabr, №114.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 11 sentyabr, №115.

**Üzeyir. Zemstvo haqqında.** – “Yeni iqbal”, 14 sentyabr, №117.

**Filankəs. Ordan-burdan. Dil məsələsi.** – “Yeni iqbal”, 14 sentyabr, №117.

**Üzeyir. Bolqarıstanın hərəkatı.** – “Yeni iqbal”, 15 sentyabr, №118.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 15 sentyabr, №118.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 16 sentyabr, №119.

**Üzeyir. Bolqariya və müttəfiq dövlətlər.** – “Yeni iqbal”, 18 sentyabr, №121.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 18 sentyabr, №121.

**Ü. Kasıb-küsüblərin diqqətinə.** – “Yeni iqbal”, 20 sentyabr, №122.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 20 sentyabr, №122.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 21 sentyabr, №123.

**Üzeyir. Rusiya və Bolqariya.** – “Yeni iqbal”, 22 sentyabr, №124.

**Üzeyir. Parlaq ümidlər.** – “Yeni iqbal”, 25 sentyabr, №127.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 27 sentyabr, №128.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 28 sentyabr, №129.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 29 sentyabr, №130.

**Bolqarıstan haqqında.** – “Yeni iqbal”, 30 sentyabr, №131.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 30 sentyabr, №131.

**Filankəs. Ordan-burdan. “Ey Rumıniya... Rumıniya”.** – “Yeni iqbal”, 1 oktyabr, №132.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 2 oktyabr, №133.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 5 oktyabr, №135.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 6 oktyabr, №136.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 7 oktyabr, №137.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 11 oktyabr, №138.
**Ü. Təqvim düzlüyü haqqında.** – “Yeni iqbal”, 12 oktyabr, №139.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 12 oktyabr, №139.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 13 oktyabr, №140.
**Üzeyir. Müsəlman dava vəkillərinə ixtiyar verilməsi.** – “Yeni iqbal”, 14 oktyabr, №141.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 14 oktyabr, №141.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 15 oktyabr, №142.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 16 oktyabr, №143.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 18 oktyabr, №144.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 20 oktyabr, №146.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 21 oktyabr, №147.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 22 oktyabr, №148.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 23 oktyabr, №149.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 25 oktyabr, №150.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 26 oktyabr, №151.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 28 oktyabr, №153.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 29 oktyabr, №154.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 30 oktyabr, №155.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 1 noyabr, №156.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 2 noyabr, №157.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 8 noyabr, №160.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 9 noyabr, №161.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 11 noyabr, №163.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 12 noyabr, №164.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 13 noyabr, №165.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 15 noyabr, №166.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 16 noyabr, №167.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 17 noyabr, №168.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 19 noyabr, №169.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 20 noyabr, №170.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 23 noyabr, №172.
**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 25 noyabr, №174.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 7 dekabr, №177.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 9 dekabr, №179.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 11 dekabr, №181.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 13 dekabr, №182.

**Üzeyir. Nəyimizin vaxtıdır.** – “Yeni iqbal”, 17, 18, 20 dekabr, №185-187.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 21 dekabr, №188.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 25 dekabr, №191.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 27 dekabr, №192.

**Filankəs. Ordan-burdan.** – “Yeni iqbal”, 30 dekabr, №195.

## 1917

**О воспитательном значении сцены.** – “Каспий”, 28 oktyabr, №242.

**О воспитательном значении оперы и драмы. Вместо ответа.** – “Каспий”, №256.

**О воспитательном значении оперы и драмы. Вместо ответа.** – “Каспий”, №260.

**Filankəs. Ordan-burdan.** – “İttihad”, 4 dekabr, №1.

**Filankəs. Ordan-burdan.** – “İttihad”, 5 dekabr, №2.

## 1918

**Filankəs. Ordan-burdan.** – “Azərbaycan”, 29 oktyabr, №25.

У. Г. Письма об Иране. – “Азербайджан”, 4, 6 noyabr, №26, 29.

**Filankəs. Ordan-burdan. Milli parlaman.** – “Azərbaycan”, 16 noyabr, №41.

**Filankəs. Ordan-burdan. İstiqlaliyyət.** – “Azərbaycan”, 18 noyabr, №43.

**Hacıbəyli Üzeyir. Mühüm məsələlər.** – “Azərbaycan”, 1 dekabr, №53.

**Hacıbəyli Üzeyir. Partiyalarımıza.** – “Azərbaycan”, 3 dekabr, №55.

**Hacıbəyli Üzeyir. Azərbaycan parlamanı.** – “Azərbaycan”, 5 dekabr, №56.

**Hacıbəyli Üzeyir. Tarixi günümüz.** – “Azərbaycan”, 7 dekabr, №58.

**Üzeyir. Təəssürat.** – “Azərbaycan”, 9, 13 dekabr, №60, 64.

**Hacıbəyli Üzeyir. Andranik məsələsi.** – "Azərbaycan", 15 dekabr, №65.

**Üzeyir. Təəssürat.** – "Azərbaycan", 16 dekabr, №66.

**Hacıbəyli Üzeyir. Vəzifəmiz nədir?** – "Azərbaycan", 24 dekabr, №72.

**Hacıbəyli Üzeyir. Keçən zabastovka haqqında.** – "Azərbaycan", 29 dekabr, №73.

**Üzeyir Hacıbəyli. İstiqlal və istiqbal ümidi.** – "Azərbaycan", 30 dekabr, №74.

## 1919

**Hacıbəyli Üzeyir. Lənkəran faciəsi.** – "Azərbaycan", 1 yanvar, №76.

**Hacıbəyli Üzeyir. Kim nəyin fikrində imiş.** – "Azərbaycan", 4 yanvar, №78.

**Filankəs. Ordan-burdan. Sülh konfransında.** – "Azərbaycan", 7 yanvar, №81.

**Hacıbəyli Üzeyir. Düşmənlərimizin fəaliyyəti.** – "Azərbaycan", 7 yanvar, №81.

**Hacıbəyli Üzeyir. Camaat köməkliyi.** – "Azərbaycan", 8 yanvar, №82.

**Filankəs. Ordan-burdan. Muğanda.** – "Azərbaycan", 9 yanvar, №83.

**Üzeyir. Təəssürat.** – "Azərbaycan", 10 yanvar, №84.

**Hacıbəyli Üzeyir. Ehtiyat lazımdır.** – "Azərbaycan", 15 yanvar, №88.

**Filankəs. Ordan-burdan.** – "Azərbaycan", 15 yanvar, №88.

**Filankəs. Ordan-burdan.** – "Azərbaycan", 20 yanvar, №92.

**Üzeyir. Təəssürat.** – "Azərbaycan", 21 yanvar, №93.

**Hacıbəyli Üzeyir. Fitnələr qarşısında.** – "Azərbaycan", 23 yanvar, №95.

**Hacıbəyli Üzeyir. Qarabağ haqqında.** – "Azərbaycan", 30 yanvar, №101.

**Üzeyir. Təəssürat.** – "Azərbaycan", 10 fevral, №110.

**Hacıbəyli Üzeyir. Üzərimizdəki qara buludlar.** – "Azərbaycan", 12 fevral, №112.

**Ü.Hacıbəyli. Başlanır.** – "Azərbaycan", 13 fevral, №113.

**Hacıbəyli Üzeyir. Nə ilə sakit ola bilərik.** – "Azərbaycan", 20 fevral, №118.

**Hacıbəyli Üzeyir. Yeni böhran.** – "Azərbaycan", 23 fevral, №125.

**Hacıbəyli Üzeyir. Dağıstana kömək.** – "Azərbaycan", 9 mart, №132.

**Hacıbəyli Üzeyir. Düz yol.** – "Azərbaycan", 10 mart, №133.

**Hacıbəyli Üzeyir. Rus inqilabi-kəbiri.** – "Azərbaycan", 12 mart, №135.

**Hürriyyət gününün göstərişi.** – "Azərbaycan", 14 mart, №136.

**Hacıbəyli Üzeyir. Müamiləmizə dair.** – "Azərbaycan", 16 mart, №137.

**Hacıbəyli Üzeyir. Yaraşmayan hərəkətlər.** – "Azərbaycan", 18 mart, №139.

**Hacıbəyli Üzeyir. Yeni kabinə təşkilinə dair.** – "Azərbaycan", 19 mart, №140.

**Hacıbəyli Üzeyir. Cidalar görünür.** – "Azərbaycan", 26 mart, №143.

**Hacıbəyli Üzeyir. Ordumuz.** – "Azərbaycan", 28 mart, №145.

**Hacıbəyli Üzeyir. 31 mart.** – "Azərbaycan", 31 mart, №147.

**Hacıbəyli Üzeyir. Zaqatala məsələsi.** – "Azərbaycan", 3 aprel, №149.

**Hacıbəyli Üzeyir. Ciddi hərəkət lazımdır.** – "Azərbaycan", 4 aprel, №150.

**Hacıbəyli Üzeyir. Əgri yol.** – "Azərbaycan", 10 aprel, №154.

**Hacıbəyli Üzeyir. Dağıstana imdad.** – "Azərbaycan", 23 aprel, №164.

**Hacıbəyli Üzeyir. Zaqafqaziya konfransına dair.** – "Azərbaycan", 24 aprel, №165.

**Hacıbəyli Üzeyir. Dördgöz olmalıyıq.** – "Azərbaycan", 25 aprel, №166.

**Hacıbəyli Üzeyir. Dağıstan və biz.** – "Azərbaycan", 4 may, №171.

**Üzeyir Hacıbəyli. Eyni müalicə gözləyirik.** – "Azərbaycan", 5 may, №172.

**Ü.Hacıbəyli. Nə istəyirlər?** – "Azərbaycan", 7 may, №174.

**Ü. Bayrağımız saralmaz.** – "Azərbaycan", 8 may, №175.

**Ü.Hacıbəyli. Siyasi imtahan.** – "Azərbaycan", 11 may, №177.

**Ü.Hacıbəyli. Xatimə.** – "Azərbaycan", 15 may, №181.

**Hacıbəyli Üzeyir. Siyasət.** – "Azərbaycan", 18 may, №183.

**Hacıbəyli Üzeyir. İndi başa düşərlər.** – "Azərbaycan", 19 may, №184.

**Hacıbəyli Üzeyir. Naxçıvan və Qarabağ.** – "Azərbaycan", 25 may, №187.

**Ü.H. Dərbənd əhvalatı.** – "Azərbaycan", 26 may, №188.

**Hacıbəyli Üzeyir. Bir yaş.** – "Azərbaycan", 28 may, №190.

**Hacıbəyli Üzeyir. Şimalımızın halı.** – “Azərbaycan”, 2 iyun, №193.

**Hacıbəyli Üzeyir. Qara təhlükə.** – “Azərbaycan”, 8 iyun, №198.

**Hacıbəyli Üzeyir. İçimizdəki denikinlər.** – “Azərbaycan”, 10 iyun, №200.

**Hacıbəyli Üzeyir. Bir münasibətlə.** – “Azərbaycan”, 18 iyun, №207.

**Üzeyir Hacıbəyli. Məcaraçılıq.** – “Azərbaycan”, 20 iyun, №209.

**Hacıbəyli Üzeyir. Qarabağ hadisəsi.** – “Azərbaycan”, 24 iyun, №210.

**Hacıbəyli Üzeyir. Səddi-İsgəndər.** – “Azərbaycan”, 26 iyun, №212.

**Üzeyir Hacıbəyli. Yersiz çıxış.** – “Azərbaycan”, 2 sentyabr, №267.

**Hacıbəyli Üzeyir. Məmurlarımız haqqında.** – “Azərbaycan”, 5 sentyabr, №268.

**Hacıbəyli Üzeyir. Kontrast.** – “Azərbaycan”, 11 sentyabr, №271.

**Hacıbəyli Üzeyir. Daha bəsdir!** – “Azərbaycan”, 12 sentyabr, №272.

**Hacıbəyli Üzeyir. Başlanır.** – “Azərbaycan”, 14 sentyabr, №273.

**Hacıbəyli Üzeyir. Qurtuluş.** – “Azərbaycan”, 15 sentyabr, №274.

**Hacıbəyli Üzeyir. Milliləşmək.** – “Azərbaycan”, 21 sentyabr, №278.

**Hacıbəyli Üzeyir. Rusiya əhvalı.** – “Azərbaycan”, 9 oktyabr, №291.

**Hacıbəyli Üzeyir. Səmimiyyət lazım.** – “Azərbaycan”, 12 oktyabr, №293.

**Hacıbəyli Üzeyir. İki siyasət.** – “Azərbaycan”, 16 oktyabr, №297.

**Hacıbəyli Üzeyir. Ermənistan və Azərbaycan münasibəti.** – “Azərbaycan”, 17 oktyabr, №298.

**Hacıbəyli Üzeyir. İstiqlal müdafiəsi üçün.** – “Azərbaycan”, 19 oktyabr, №299.

**Hacıbəyli Üzeyir. Bir sual münasibətilə.** – “Azərbaycan”, 22 oktyabr, №302.

**Hacıbəyli Üzeyir. Böhran dolayisilə.** – “Azərbaycan”, 26 oktyabr, №305.

**Ü.H. Bələdiyyə intixabı.** – “Azərbaycan”, 29 oktyabr, №308.

**Ü.Hacıbəyli. Əsassız tələb.** – “Azərbaycan”, 30 oktyabr, №309.

**Üzeyir Hacıbəyli. Gürcüstanda həvadis.** – “Azərbaycan”, 2 noyabr, №311.

**Üzeyir Hacıbəyli. Qonşular.** – “Azərbaycan”, 5 noyabr, №314.

**Ü.Hacıbəyli. Çörəyin bahalanmağı.** – “Azərbaycan”, 7 noyabr, №316.

**Üzeyir Hacıbəyli. Böhran dolayisilə.** – “Azərbaycan”, 11 noyabr, №319.

**Ü.H. Rusiyada kommunizm inqilabının iki illiyi.** – “Azərbaycan”, 12 noyabr, №320.

**Ü.H. Məcburi qərardad haqqında.** – “Azərbaycan”, 21 noyabr, №327.

**Ü.Hacıbəyli. Bu gün.** – “Azərbaycan”, 2 dekabr, №335.

**Ü.Hacıbəyli. Şayiələr münasibətilə.** – “Azərbaycan”, 5 dekabr, №338.

**Ü.Hacıbəyli. Yeni kabinə.** – “Azərbaycan”, 24 dekabr, №352.

### 1920

**Ü.H. Könüllü ordunun həzimətləri.** – “Azərbaycan”, 5 yanvar, №4.

**Ü.H. Sovet hökumətinin təklifi.** – “Azərbaycan”, 7 yanvar, №6.

**Ü.H. Sərvaxt olmalıdır.** – “Azərbaycan”, 12 yanvar, №10.

**Ü.H. Kabinə və siyasi firqələr.** – “Azərbaycan”, 5 fevral, №24.

**Ü.H. Bolşeviklər və biz.** – “Azərbaycan”, 12 fevral, №30.

**“Çı”. Surna.** – “Azərbaycan”, 15 aprel, №75.

**“Çı”. Surna.** – “Azərbaycan”, 20 aprel, №78.

**“Çı”. Surna.** – “Azərbaycan”, 22 aprel, №80.

**“Çı”. Surna.** – “Azərbaycan”, 25 aprel, №82.

### 1921

**Vəzifeyi-musiqiyyəmizə aid məsələlər.** – “Sənayeyi-nəfisə”, №1.

**Музыкально-просветительные задачи Азербайджана.** – “Искусство”, №1.

### 1923

**Azərbaycanda musiqi təhsili.** – “Maarif və mədəniyyət”, №12.

### 1924

**Türk operaları haqqında.** – “Kommunist”, 3 oktyabr, №220.

## 1925

**Teatr təəssüratı.** – "Maarif və mədəniyyət", №3.

## 1926

**Azərbaycan musiqi həyatına bir nəzər.** – "Maarif və mədəniyyət", №1, 2, 3.

**Şərq musiqisi və Qərb musiqi aləti.** – "Maarif və mədəniyyət", №4.

**Musiqidə tərcümə.** – "Maarif və mədəniyyət", №5-6.

**Şərq musiqisi haqqında Qərb alimlərinin təfsiri.** – "Maarif və mədəniyyət", №7.

**Azərbaycanda musiqi tərəqqisi (Maarif komissarı yoldaş Mustafa Quliyevin məruzəsi münasibətilə).** – "Maarif və mədəniyyət", №8.

## 1928

**Искусство ашугов.** – "Бакинский рабочий", 7 май, №109.

## 1929

**Об азербайджанской тюркской народной музыке.** – "На рубеже Востока", №3.

## 1934

**İrəliyə doğru ilk addım.** – "Kommunist", 15 may.

**Mən nə yaradıram.** – "Kommunist" 4 iyul.

## 1935

**Aprel mənə imkan və şərait yaratdı.** – "Kommunist", 24 noyabr, №270.

## 1936

**“Nərgiz” operası haqqında.** – “Kommunist”, 11 yanvar.

**Musiqimiz tərəqqi yolunda.** – “Kommunist”, 15 avqust.

**Крупная культурная победа.** – О записях мугамов Раст, Дюгях, Сегях, Сегях-забул Тофиком Кулиевым и Закиром Багировым. “Бакинский рабочий”, 15 avqust.

## 1937

**“Koroğlu” operası.** – “Koroğlu” məcmuəsi, Bakı, Dövlət Opera teatrı.

**Sovet xalq operası.** – “Kommunist”, 12 fevral.

**Моя работа над оперой.** – “Бакинский рабочий”, 18 aprel.

## 1938

**Почетная задача.** – “Советское искусство”, 14 yanvar.

**От “Лейли и Меджнун” до “Кероглы”.** – “Бакинский рабочий, 16 mart.

**Первый азербайджанский народный хор.** – В кн.: Азербайджанская Государственная филармония имени М. Магомаева. Баку.

**Накануне декады азербайджанского искусства.** – “Индустрия”, 30 mart.

**Музыкальная культура Азербайджана.** – “Правда”, 1 aprel.

**30 лет азербайджанской оперы.** – “Вечерняя Москва”, 2 aprel.

**Ашуги Азербайджана.** – “Советское искусство”, 4 aprel.

**“Koroğlu” operası haqqında** – “Kommunist”, 5 aprel, №78.

**Рождение хора.** – “Литературная газета”, 5 aprel.

**Творчество композитора.** – “Известия”, 5 aprel.

**Родное искусство.** – “Комсомольская правда”, 6 aprel.

**Yaradıcılıq üçün yeni qüvvət.** – “Kommunist”, 9 aprel.

**Новая зарядка для творчества.** – “Бакинский рабочий”, 9 aprel.

**В старом и новом Азербайджане.** – “Советская музыка”, №2.

**Искусство Азербайджана.** – “Литературный Азербайджан”, №4; “30 дней”, №4; “Учительская газета”, 3 aprel.

**“Arşın mal alan” haqqında qeydlərim.** – “Kommunist”, 11 aprel, №83.

**Расцвет национального искусства.** – “Водный транспорт”, 18 aprel.

**Moskvada Azərbaycan incəsənəti dekadası.** – “Azərbaycan sovetləri”, №3-4.

**К новому расцвету народного искусства.** – “Труд”, 18 aprel.

**Счастливейший день моей жизни.** – “Советское искусство”, 18 aprel; “Бакинский рабочий”, 20 aprel.

**Rəhbərlə görüş.** – “Kommuist”, 21 aprel; “Ədəbiyyat qəzeti”, 24 aprel.

**Л.М.Рудольф (Некролог).** – “Советское искусство”, 28 aprel.

**Муслим Магомаев.** – “Бакинский рабочий”, 29 iyul.

**Музыкальная жизнь Азербайджана.** – “Советское искусство”, 4 sentyabr.

## 1939

**Sovet Azərbaycanının musiqi mədəniyyəti.** – “Kommuist”, 5 fevral.

**Наши задачи.** – “Бакинский рабочий”, 26 fevral.

**Ü.Hacıbəyovun Sarabskiyə məktubu.** – “Revolyusiya və kultura”, №3.

**О народности в музыке.** – “Народное творчество”, №4.

**Ərəblinski teatr tariximizdə unudulmaz sənətkardır** – “Revolyusiya və kultura”, №4.

**Musiqidə xəlqilik.** – “Revolyusiya və kultura”, №5.

**Пути советской оперы.** – “Советская музыка”, №5.

**Торжество народного творчества Азербайджана.** – “Бакинский рабочий”, 24 iyun.

**Gənc talantların yaradıcılığının nümayişi.** – “Gənc işçi”, 27 iyun.

**Azərbaycan xalq yaradıcılığının təntənəsi.** – “Azərbaycan qadını”, №12.

## 1940

**“İsgəndərnamə”. – “İsgəndərnamə” operasının bəstələnməsi haqqında bəstəkarın planları.** – “Kommunist”, 1 yanvar.

**Yaxşı başlanğıc.** – "Kommunist", 21 aprel.

**Həyatımda ən xoşbəxt gün.** – "Ədəbiyyat qəzeti", 24 aprel.

**Девичья башня.** – "Правда", 25 aprel.

**Bəstəkarın yaradıcılığı.** – "Müslüm Maqomaev" kitabı. Bakı.

**Творчество композитора.** – В кн.: "Муслим Магомаев". Баку.

**Çaykovski və Azərbaycan musiqisi.** – "Revolyusiya və kultura", №5-6.

**Почему я люблю нефтяной Баку.** – "Вышка", 28 aprel.

**Böyük kompozitor. Müslüm Maqomayevin həyat və yaradıcılığına həsr olunur.** – "Kommunist", 6 may.

**Муслим Магомаев. К 3-летию со дня смерти композитора.** – "Бакинский рабочий", 30 iyul.

## 1941

**Ölkənin müdafiə fonduna mənim hədiyyəm.** – "Gənc işçi", 1 mart.

**Azərbaycan incəsənətinə böyük mükafat.** – "Kommunist", 17 mart. "Gənc işçi", 17 mart.

**Великая награда азербайджанскому искусству.** – "Бакинский рабочий", 17 mart,

"Молодой рабочий", 18 mart.

**Благородный и радостный труд.** – "Советское искусство", 1 may.

**Пойдем в ряды народного сплочения.** – "Бакинский рабочий", 4 iyul.

## 1942

Az**ərbaycan xalqının kulturası.** – "Kommunist", №1.

**Azərbaycan kompozitorlarının yeni döyüş mahnıları.** – "Kommunist", 20 mart.

**Творчество композиторов.** – О новых произведениях азербайджанских композиторов. – "Правда", 24 oktyabr.

## 1943

**Асаф Зейналлы.** – К 35-летию со дня рождения. "Бакинский рабочий", 4 aprel.

**Azərbaycan bəstəkarları Vətən müharibəsi günlərində.** – "Kommunist", 20 sentyabr.

## 1944

**Победный гимн советской державы.** – "Бакинский рабочий", 18 mart.

**Смотр достижений советской музыки.** – "Заря Востока", 19 dekabr.

**Учиться друг у друга.** – "Бакинский рабочий", 21 dekabr.

**Dövrümüzə layiq musiqi əsərləri yaradaq.** – "Ədəbiyyat qəzeti", 12 iyun.

**Во имя человечности.** – "Бакинский рабочий", 25 oktyabr.

## 1945

**Sovet Azərbaycanının çiçəklənən incəsənəti.** – "Vətən uğrunda", №2-3.

**Çiçəklənən incəsənətimiz.** – "Kommunist", 5 may.

**Təbriz münəvvərlərinə məktub.** – "Şəfəq", 1324 (1945), №4.

**Müslüm Maqomayev.** – "Kommunist", 23 oktyabr.

**Муслим Магомаев.** – "Бакинский рабочий", 23 oktyabr.

**Основы азербайджанской народной музыки.** – Изд-во АН Азерб. ССР, Баку.

**Некоторые основные проблемы азербайджанской народной музыки.** – Изв. АН. Азерб. ССР, №9. Тезисы к докладам на сессии АН Азерб. ССР.

**Предисловие** – В кн.: Музыка Советского Азербайджана в дни Отечественной войны. Баку.

**Смело дерзать, плодотворно работать.** – "Бакинский рабочий", 7 yanvar.

## 1946

**Мастера музыкального творчества Азербайджана** – “Комсомольская правда”, 30 iyun.

**Талантливые композиторы** – “Молодежь Азербайджана”, 30 iyun.

**Musiqi mədəniyyətinin görkəmli xadimi.** – “Azərbaycan”, №7.

## 1947

**Расцвет музыкальной культуры Советского Азербайджана.** – Изв. АН. Азерб. ССР, №10.

## 1950

**Azərbaycan xalq musiqisinin əsasları.** – Bakı, Azərb. SSR EA nəşriyyatı.

## 1957

**Основы азербайджанской народной музыки.** 2-е изд. – Баку, Азмузгиз.

## 1959

**Musiqili komediyalar: librettolar.** – Bakı, Azərb. SSR EA nəşriyyatı.

## 1962

**Azərbaycan xalq musiqisinin əsasları. 2-ci nəşr.** – Bakı, Azərb. Dövlət nəşriyyatı.

**Opera üzərində necə işləmişəm.** – “Ədəbiyyat və incəsənət”, 28 aprel.

## 1964

**Əsərləri,** X cilddə, I cild. Tərtibat, kommentariya və lüğət Q.Qasımovundur. Red. M.İbrahimov. – Bakı, Azərb. SSR EA nəşriyyatı.

## 1965

**Əsərləri,** X cilddə, II cild. Tərtibat kommentariya və lüğət Q.Qasımovundur. Red. M.İbrahimov. – Bakı, Azərb. SSR EA nəşriyyatı.

**Ata və oğul.** – "Azərbaycan", №3.

**Qarabağın keçmiş günlərindən. Hekayə.** – "Azərbaycan", №3.

**"Quyruqlu ulduz".** Üç pərdəli komediya, yaxud "Revizor"u yamsılamaq. – "Azərbaycan", №3.

**Qafqazda müsəlman kəndlisinin halı. "Bisavad" və "Basavad". Kənd məktəbində;** felyetonlar. – Kirpi, №23.

**Достойно времени.** – "Бакинский рабочий", 19 декабря. Выдержки из выступления на заседании Комитета по Государственным премиям СССР 21 ноября 1940 г. Высказывания о творчестве А.Мясковского, С.Прокофьева и Д.Шостаковича.

**Фельетоны Узеира Гаджибекова** (Пер. и подготовка к печати К.Касимова). Баку.

## 1966

**О музыкальном искусстве Азербайджана** (Сост. и комментарии К.Касимова). – Баку, Азернешр.

## 1968

**Əsərləri.** X cilddə, III cild. Tərtibat, kommentariya və lüğət Q.Qasımovundur. Red. M.İbrahimov. – Bakı, Azərb. SSR EA nəşriyyatı.

**Əsərləri.** X cilddə, IV cild. Tərtibat, kommentariya və lüğət Q.Qasımovundur. Red. M.İbrahimov. – Bakı, Azərb. SSR EA nəşriyyatı.

## 1974

**Beş manat əhvalatı** (hekayələr və miniatürlər) – Bakı, "Gənclik".

## 1975

**Сатира Узеира Гаджибекова:** Комедия. – Красный цвет. – Положение просителя. (Пер. К.Касимова). – Баку.

## 1978

**Meşə qardaşları. Əhali və cəngəlilər. Cəngəlilər və ingilislər.** – "Elm və həyat", №8.

## 1980

**Сатира Узеира Гаджибекова:** Грозный протест. – Слепое подражание. – У кого что спросили. – Поговорка поговорке рознь. – Сам себе адвокат. (Пер. и подготовка к печати К.Касимова). – Баку.

## 1981

**Hacıbəyov Üzeyir. Ordan-burdan** (felyeton, pamflet və satirik hekayələr). Tərtibat, müqəddimə və qeydlər M.Aslanovundur. – Bakı, "Yazıçı".

## 1996

**Üzeyir Hacıbəyov ensiklopediyası.** Elmi-redaksiya şurasının sədri və tərtibatçısı N.İbrahimov. – Bakı, "Azərbaycan" nəşriyyatı, 1996 - 304 səh.

## 2003

**Энциклопедия "Узеир Гаджибеков".** Главный редактор – Н.Ибрагимов. – Баку, издательство "Азербайджан" 2003 - 292 стр.

# ÜZEYİR HACIBƏYOV ENSİKLOPEDİYASI

“ŞƏRQ-QƏRB”
BAKI
2007

Buraxılışa məsul: *Əziz Güləliyev*

Redaktorlar: *Sevda Ağababayeva*
*Təranə Dadaşova*

Kompyuter səhifələyicisi: *İlqar Əliyev*

Yığılmağa verilmişdir 21.09.2006. Çapa imzalanmışdır 02.02.2007.
Formatı 70x100 $^{1}/_{16}$. Fiziki çap vərəqi 16,5+1(illüst.). Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 11.

DÜST 5773-90, DÜST 4.482-87

Kitab “CBS-PP” MMC mətbəəsində çap olunmuşdur.
Bakı, Şərifzadə küçəsi, 3.